ŞAKİR MUSAYEV

Cinayət mühakimə icraatının məhkəmə-tibbi təminatı

Dərslik

Azərbaycan Respublikası Təhsil Nazirliyi
tərəfindən təsdiq edilmişdir
(Dövlət və hüquq bölməsinin 03.05.2007-ci il tarixli 16 saylı qərarı)

Bakı - 2008

RƏYÇİLƏR: Bakı Dövlət Universitetinin "Cinayət hüququ" kafedrasının professoru h.e.d. Firudin Səməndərov.
Azərbaycan Tibb Universitetinin "Məhkəmə təbabəti" kafedrasının professoru t.e.n. Şamil Səlimxanov.

Şakir Məzlum oğlu Musayev – tibb elmləri doktoru, professor
Cinayət mühakimə icraatının məhkəmə-tibbi təminatı:
Bakı 2008: Dərslik 455 səh.

Dərslikdə qanunvericilikdə və normativ aktlarında son dəyişikliklər nəzərə alınmaqla məhkəmə-tibbi fəaliyyətin hüquqi, təşkilati, metodoloji aspektləri geniş şərh edilmiş, cinayət mühakimə icraatında məhkəmə-tibbi amillərin ümumiləşdirilmiş xarakteristikası verilmişdir.

Dövlət məhkəmə-tibbi xidmətinin hüquq-mühafizə orqanları və cinayət mühakimə icraatının digər iştirakçıları ilə müştərək fəaliyyətinin təşkilinin sistemi təklif olunmuşdur.

Şəxsiyyətin həyatı və sağlamlığı əleyhinə olan cinayətlərin təhqiqatında səmərəliliyin artırılması üçün məhkəmə-tibb ekspertlərinin istintaq eksperimentinə, dindirilməyə, ifadələrin yoxlanılmasına, tanınmaya, ekshumasiyaya, müqayisəli tədqiqat üçün nümunələrin götürülməsinə cəlb olunması konkret misallarda göstərilmişdir.

Material respublikamızda və xaricdə çap olunmuş xüsusi məhkəmə-tibbi kriminalistik və hüquqi ədəbiyyatların hərtərəfli öyrənilməsinə və müəllifin şəxsi təcrübəsinə əsasən hazırlanmışdır.

Vəsait ali təhsil müəssisələrinin tibb və hüquq fakültələrinin tələbələri, dinləyiciləri, müdavimləri, eləcə də müəllimlər, elmi işçilər, səhiyyənin təşkili üzrə mütəxəssislər, xüsusən də məhkəmə tibb ekspertləri, hüquq mühafizə, istintaq və məhkəmə orqanlarının əməkdaşları üçün tərtib edilmişdir.

© Ş.M.Musayev, 2008

MÜNDƏRİCAT

GİRİŞ..... 5
BÖLMƏ I FƏSİL 1. CİNAYƏT MÜHAKİMƏ İCRAATINDA MƏHKƏMƏ-TİBBİ FƏALİYYƏTİN HÜQUQİ ƏSASLARI.......... 14
1.1. Cinayət mühakimə icraatında «Mütəxəssis» və «Xüsusi bilik» anlayışı..... 14
1.2. Cinayət mühakimə icraatında məhkəmə-tibbi biliklərdən istifadə növlərinin ümumi xarakteristikası..... 20
1.3. Məhkəmə-tibbi ekspert fəaliyyətinin məzmunu və prinsipləri..... 25
FƏSİL 2. MƏHKƏMƏ TİBBİ EKSPERTİZA..... 28
2.1. Məhkəmə-tibbi ekspertizanın predmeti və müayinə obyektləri..... 28
2.2. Məhkəmə-tibbi ekspertizanın prosessual formatı..... 31
2.3. Məhkəmə-tibb ekspertinin prosessual vəziyyəti..... 51
2.4. Məhkəmə-tibbi ekspertizanın təyin olunma qaydaları..... 58
2.5. Ekspert rəyi..... 64
2.6. Ekspertizaların təyin olunması və keçirilməsi ilə bağlı cinayət prosesi iştirakçılarının hüquqlarının təminatları..... 67
FƏSİL 3. EKSPERTİN DİNDİRİLMƏSİ..... 73
FƏSİL 4. CİNAYƏT MÜHAKİMƏ İCRAATINDA MƏHKƏMƏ-TİBBİ FƏALİYYƏTİN PROSESSUAL FORMALARI..... 79
4.1. Ekspertin və mütəxəssisin prosessual hərəkətlərdə iştirakı..... 79
4.2. Mütəxəssisin dindirilməsi..... 94
4.3. Məhkəmə ekspert idarəsinin rəhbərinin prosessual fəaliyyəti 96
4.4 Məhkəmə-tibbi biliklərin müstəntiq (məhkəmə) tərəfindən tətbiqi..... 101
FƏSİL 5. CİNAYƏT-MÜHAKİMƏ İCRAATINDA MƏHKƏMƏ-TİBBİ BİLİKLƏRDƏN İSTİFADƏNİN QEYRİ-PROSESSUAL NÖVLƏRİ..... 104
5.1. Məhkəmə-tibbi ekspert müayinəsi..... 106
5.2. Məhkəmə-ekspert idarəsinin vəzifəli şəxslərinin nəzarət-idarəetmə fəaliyyəti 108
5.3. Məhkəmə-ekspert idarəsinin məlumat-arayış fəaliyyəti..... 108
5.4. Məhkəmə-ekspert idarəsinin məsləhətverici fəaliyyəti..... 109
5.5. Məhkəmə-tibbi xidmətin hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəsi..... 110
BÖLMƏ II - MƏHKƏMƏ-TİBB EKSPERTİNİN (MƏHKƏMƏ-TƏBABƏTİ SAHƏSİNDƏ MÜTƏXƏSSİSİN) PROSESSUAL HƏRƏKƏT-LƏRDƏ İŞTİRAKININ TƏŞKİLATİ VƏ METODİK ƏSASLARI..... 116
FƏSİL 6. İSTİNTAQ VƏ MƏHKƏMƏ HƏRƏKƏTLƏRİNDƏ MƏHKƏMƏ-TİBB EKSPERTİNİN (MÜTƏXƏSSİSİN) İŞTİRAKININ ÜMUMİ QAYDALARI..... 116
6.1. Prosessual hərəkətlərin məhkəmə-tibbi xarakteristikası. Ekspert (mütəxəssis) işinin prinsipləri, funksiyaları və metodları..... 117
FƏSİL 7. İSTİNTAQ BAXIŞI. MÜAYİNƏ. AXTARIŞ. GÖTÜRMƏ..... 149
7.1. İstintaq baxışı, müayinəsi, axtarışı, götürmə haqqında anlayışlar və onların məhkəmə-tibbi ekspertizada yeri..... 149
7.2. İstintaq baxışı, müayinə, axtarış və götürmə hərəkətlərində ekspertin (mütəxəssisin) vəzifə və funksiyaları..... 155
FƏSİL 8. DİNDİRİLMƏ. ÜZLƏŞDİRMƏ..... 157

8.1. Dindirilmə anlayışı və onun məhkəmə-tibbi təcrübədə yeri..... 157
8.2. Dindirilmə zamanı xüsusi biliklərdən istifadə olunma..... 159
8.3. Dindirməyə ekspertin (mütəxəssisin) cəlb olunmasının səbəbləri..... 161
8.4. Dindirilməyə hazırlıq..... 168
8.5. Dindirilmədə ekspertin (mütəxəssisin) fəaliyyətinin təşkili və məzmunu..... 174
8.6. Dindirilmə nəticələrinin tərtib olunması..... 180
8.7. Üzləşdirmə..... 183
FƏSİL 9 İSTİNTAQ EKSPERİMENTİ. İFADƏLƏRİN YERİNDƏ YOXLANILMASI..... 187
9.1. İstintaq eksperimenti və ifadələrin yoxlanılması anlayışı, onların prosessual məzmunu..... 187
9.2. İstintaq eksperimenti və ifadələrin yoxlanılmasının keçirilməsi səbəbləri..... 191
9.3. İstintaq eksperimenti və ifadələrin yoxlanılması keçirilərkən xüsusi məhkəmə-tibbi biliklərin tətbiqi..... 194
9.4. İstintaq eksperimentində və ifadələrin yoxlanılmasında məhkəmə-tibbi biliklərdən istifadə edilmənin nəzəri əsasları..... 202
9.5. İstintaq eksperimentində və ifadələrin yoxlanılmasında iştiraka hazırlıq..... 220
9.6. İstintaq eksperimenti və ifadələrin yoxlanılması gedişində ekspert (mütəxəssis) işinin təşkili və məzmunu..... 233
9.7. İstintaq eksperimenti və ifadələrin yoxlanılmasının nəticələrinin tərtibi və qiymətləndirilməsi..... 264
FƏSİL 10. MÜQAYİSƏLİ TƏDQİQAT ÜÇÜN NÜMUNƏLƏRİN GÖTÜRÜLMƏSİ..... 273
10.1. «Nümunələr» anlayışı və onların götürülməsinin prosessual əsasları..... 273
10.2. Müqayisəli ekspert tədqiqatı üçün götürülən nümunələrin təsnifatı..... 279
10.3. Müqayisəli tədqiqat üçün nümunələrin götürülməsində ekspertin (mütəxəssisin) iştirakı..... 283
FƏSİL 11. TANINMAYA TƏQDİM ETMƏ..... 298
11.1. Şəxsiyyətin təyin edilməsi məqsədi ilə xüsusi məhkəmə-tibbi biliklərdən istifadə etmə formaları..... 298
11.2. Tanınmaya təqdim etmə anlayışı və onun prosessual məzmunu..... 301
11.3. Tanınmaya təqdim etmədə ekspertin (mütəxəssisin) iştirakı..... 305
11.4. Tanınmaya təqdim etmədə ekspert (mütəxəssisin) fəaliyyətinin məzmunu və alqoritmi..... 311
11.5. Tanımaya təqdim olunmanın nəticələrinin qiymətləndirilməsi və tərtib edilməsi..... 315
11.6. Naməlum meyitlərin şəxsiyyətinin təyinində məhkəmə tibbi xidmətin digər iştirak formaları..... 317
FƏSİL 12. EKSHUMASİYA..... 319
12.1. Ekshumasiya anlayışı və onun prosessual əsasları..... 319
12.2. Dəfn işlərinin və yerinin təşkili. Dəfn adətləri..... 322
12.3. Meyitin ekshumasiyasına hazırlıq..... 325
12.4. Meyitin ekshumasiyasının keçirilməsi və onun nəticələrinin tərtib edilməsi. 329
FƏSİL 13. MƏHKƏMƏ TİBBİ TƏCRÜBƏDƏ MÜAYİNƏ OBYEKTLƏRİNİN ZƏDƏLƏNMƏSİ VƏ ONLARIN XÜSUSİYYƏTLƏRİNİN DƏYİŞMƏSİ 333
ƏLAVƏLƏR..... 338

G İ R İ Ş

Son illər qanunvericilikdə baş verən dəyişikliklərlə əlaqədar cinayət mühakimə icraatında məhkəmə-tibbi fəaliyyətin hüquqi əsaslarının müzakirəsi ən aktual problemlərdən birinə çevrilmişdir. Müasir cinayət mühakimə icraatı sistemində məhkəmə tibbi ekspertiza istintaqın mühüm prosessual vasitələrindən biridir və iş üzrə obyektiv informasiya əldə etmə üsuludur.

Cinayət mühakimə icraatında dövlət məhkəmə tibbi ekspertiza fəaliyyətinin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, «Dövlət Məhkəmə Ekspertizasının fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Cinayət-Prosessual və Mülki-Prosessual Məcəllələri İnzibati Hüquqpozmalar haqqında, «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Səhiyyə Nazirliyinin «Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya» Elmi-Təcrübi və Tədris Birliyi haqqında əsasnamə, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş «Azərbaycan Respublikasında məhkəmə-tibbi ekspertizaların təşkili və keçirilməsi haqqında» əsasnamə, digər Respublika qanunları, həmçinin məhkəmə-tibbi ekspertizanın təşkili və keçirilməsini tənzim edən Respublika icra orqanlarının bir çox hüququ normativ aktları təşkil edir.

Göstərilən qanuni normativ aktlar məhkəmə-tibbi ekspertiza fəaliyyətinin hüquqi tərəfini təmin etməklə yanaşı, məhkəmə-tibbi xidmətin metodik, ştat və maliyyə işlərini, məhkəmə ekspertizası və ekspert tədqiqatlarının keçirilmə və sənədlərinin tərtibi qaydalarını da nizamlayır, «Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya» Birliyi və onun şöbələri ilə digər dövlət və qeyri dövlət strukturlarının qarşılıqlı əlaqəsini, başqa sözlə desək Azərbaycan Respublikası ərazisində məhkəmə-tibbi ekspertiza fəaliyyətinin vahidliyini və ardıcıllığını təmin edir.

Ekspertin və mütəxəssisin əsas vəzifəsi qeyd olunan hüquqi normativ aktların tələblərinə mütləq qaydada əməl etməkdir. Ekspertiza, cinayət prosesində məhkəmə-tibbi biliklərdən istifadə edilən yeganə üsul deyil. "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanuna və Səhiyyə Nazirliyinin müvafiq normativ aktlarına uyğun olaraq dövlət «Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya» Birliyinin mütəxəssisləri öz xidməti vəzifələri çərçivəsində müxtəlif obyektlərin, meyitlərin və canlı şəxslərin müayinəsini keçirir. Cinayət Prosessual Məcəlləsində bu tədqiqatlar nəzərdə tutulmasa da, onlar cinayət törədilməsi faktının təyinində, cinayət işinin qaldırılması məsələsinin həllində, cinayətlərin və qanun pozğunluqlarının profilaktikasında mühüm əhəmiyyət kəsb edir.

Cinayət-Prosessual Məcəlləsinə görə məhkəmə təbabəti üzrə mütəxəssislər ekspertiza və ekspert tədqiqatları aparmaqla yanaşı, istintaq hərəkətlərinin keçirilməsinə - istintaq baxışı və eksperimentlərinə, ekshumasiyaya, dindirməyə, tanınmaya, müqayisəli tədqiqat üçün nümunələrin götürülməsinə və digər hərəkətlərə geniş surətdə cəlb edilir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi «Məhkəmə-tibbi ekspertiza və patoloji anatomiya» Birliyinin məhkəmə-tibb ekspertləri şəxsiyyət əleyhinə yönəlmiş cinayət hadisələri zamanı meyitlərin tapıldığı yerlərdə, istintaq eksperimentlərində, şübhəli və digər şəxslərin müayinələrində və bioloji nümunələrin götürülməsində mütəxəssis qismində iştirak edirlər.

Ölkəmizdə yeganə ixtisaslaşdırılmış və aparıcı dövlət məhkəmə tibbi ekspertiza idarəsi olan «Məhkəmə-tibbi ekspertiza və Patoloji anatomiya» Birliyi («MTE və PA» Birliyi) Səhiyyə Nazirliyinin tabeliyində, onun rəhbərliyi və nəzarəti altında fəaliyyət göstərən qurumlardan biridir. «MTE və PA» Birliyi öz fəaliyyətini insanların hüquq və azadlıqlarının qorunması, qanunçuluğun təmin edilməsi, ekspertlərin tam müstəqilliyi, elm və texnikanın müasir imkanlarından istifadə etməklə icra olunan ekspertiza və müayinələrin obyektivliyinin, hərtərəfliliyinin və tamlığının təmin edilməsi istiqamətində qurur.

İxtisaslaşdırılmış dövlət məhkəmə ekspertiza idarəsi kimi Birliyin əsas vəzifələrinə zorakı ölüm və zorakı ölümə şübhə olan bütün hallarda meyitlərin müayinəsinin təmin edilməsi; sağlamlığa zərərvurmanın xarakterinin və ağırlıq dərəcəsinin, yaşın cinsi vəziyyətin müəyyənləşdirilməsi; həmçinin məhkəmə təbabəti sahəsində bilik tələb edən digər məsələlərin həlli üçün canlı şəxslərin müayinə edilməsi; laborator müayinə üsullarını tətbiq etməklə biomateriallarda, qida məhsullarında, dərman maddələrində, müxtəlif mayelərdə və başqa maddi sübutlarda narkotik, psixotrop, zəhərli, üzvi mineral maddələrin və spirtlərin məhkəmə-kimyəvi müayinələri; tibbi-trassoloji, tibbi-ballistik, antropoloji müayinələri, şəxsiyyətin və alətin identifikasiyası, hadisənin dinamikasının bərpası, bioloji, histoloji, genetik və digər növ müayinələrin icra edilməsi; tibb işçilərinin peşə fəaliyyətində yol verdikləri qanunsuz hərəkətləri ilə bağlı, cinayət və mülki iş materialları üzrə məhkəmə-tibbi ekspertizaların icrası; hadisə yerlərində və ekshumasiyalarda meyitlərin müayinəsi, təxirəsalınmaz istintaq hərəkətlərində, müqayisəli tədqiqat üçün nümunələrin götürülməsində məhkəmə-tibb ekspertlərinin mütəxəssis qismində təmin edilməsi və s. bu kimi məsələlər daxildir. Eyni zamanda qəfləti ölüm, travmatizm, zəhərlənmə və xəstə orqanizmdə baş verən patoloji proseslərin aydınlaşdırılmasında, müalicə və diaqnostika işlərində buraxılmış səhvlərin qarşısının alınmasında və müvafiq tədbirlərin həyata keçirilməsində, profilaktik tədbirlərin hazırlanmasında aidiyyəti orqanlara köməklik göstərir.

Birliyin dövlət məhkəmə-tibbi ekspertiza idarəsi kimi fəaliyyət strategiyası iki istiqamətdədir. Birinci istiqamətdə insanların həyat və sağlamlığına, cinsi azadlıq və cinsi toxunulmazlığına qarşı yönəldilmiş cinayətlərin araşdırılmasında, məhkəmə-tibbi ekspertizanın təşkilini və icrasını təmin etməklə bu növ cinayətlərdə istintaq və məhkəmə orqanlarına və əhaliyə məhkəmə-tibbi xidməti təşkil edir.

Birliyin fəaliyyətinin ikinci əsas istiqaməti travmatizm, infeksion xəstəliklər, zəhərlənmə, qəfləti ölüm hallarında və xəstə orqanizmdə baş verən patoloji proseslərin forma və xarakterinin, onların qarşılıqlı

dinamikasını, əsas xəstəliklərin və onların ağırlaşmalarının inkişaf mexanizmini öyrənməklə, travmatizmin aşkar edilib üzə çıxarılmasında, travma hallarının gizlədilməsinin qarşısının alınmasında, həmçinin ambulator və stasionar diaqnostika, profilaktika və müalicə işləri zamanı buraxılmış səhvlərin araşdırılmasında və qarşısının alınmasında, müvafiq müalicə və profilaktik tədbirlərin hazırlanmasında və həyata keçirilməsində səhiyyə müəssisələrinə və istintaq-məhkəmə orqanlarına köməklik göstərməkdir.

Birliyin əməkdaşlarının peşə və əmək fəaliyyətləri səhiyyə sistemində insan əməyinin ən mürəkkəb, gərgin, məsuliyyətli, zərərli və ağır növlərindən biridir. Məhkəmə-tibbi xidmət sahəsi sosial konfliktlərin mərkəzində durur. Bu məhkəmə təbabəti elminin insan həyatına və sağlamlığına qarşı yönəldilmiş cinayətlərdə onların qiymətləndirilməsi ilə bağlıdır. Məhkəmə həkiminin güclü operativ yaddaşı və məntiqi olmalıdır. Məhkəmə-tibb ekspertlərinin işi çox zaman ekstremal şəraitdə icra olunur və onlardan kifayət qədər psixoloji dözümlülük tələb olunur.

Məhkəmə-tibb eksperti ekspertizaların təşkili və keçirilməsi ilə bağlı cinayətkarlar, fiziki təzyiqlərə, işgəncəyə, namusuna təcavüz və digər formada şantaja məruz qalmış şəxslər, qəflətən bədbəxt və qətl hadisələrində yaxınlarını itirmiş, taleyindən narazı, həyatdan küskün, bədbin, aqressiv və problemli insanlarla təmasda olur.

Məhkəmə-tibb eksperti ilk növbədə həkimdir, buna görə də tibbi deontologiyanın bütün prinsip və tələblərinə riayət etmək onun üçün zəruri şərtdir. Lakin, bununla bərabər, məhkəmə-tibb ekspertinin peşə fəaliyyətinin spesifikası, deontologiyanın yalnız bu sənətə məxsus bir neçə digər xüsusiyyətlərinin olmasını da tələb edir.

Məhkəmə-tibb eksperti xidməti borcunu həyata keçirmək üçün lazım olan dərəcədə filosof, təbib…….. və hətta hüquqşünas olmalıdır, onun peşəkarlıq səviyyəsi gözəl mənəvi etik xüsusiyətlərilə, hümanizmilə, tibb və ümumbəşər əxlaq qaydalarının norma və prinsiplərinə əməl etməsilə ahəngdar olmalıdır.

Məhkəmə-tibb ekspertləri həkim olsalar da, onların fəaliyyəti zərərçəkənin müalicəsi ilə əlaqədar deyil və onlar müalicə həkimləri

kimi müalicə etmənin, xəstəni həyata qaytarmanın mənəvi xoşbəxtliyini yaşamırlar. Səhiyyə xidmətinin yaxşılaşdırılmasına və müalicə idarələrində həkimlərin məsuliyyətinin artırılmasına yönəlmiş dolayısı xidmətimiz, cinayətlərin açılmasında, cinayətkarların layiqli cəzalandırılmasında hüquq-mühafizə orqanlarına əvəzsiz köməyimiz əhalinin diqqətindən kənarda qalır.

Unutmaq olmaz ki, meyitlərin müayinəsi mürəkkəbliyinə, çoxşaxəliyinə və çoxmərhələliyinə görə bütün növ məhkəmə ekspertizaları arasında birincidir. Bununla yanaşı, əksər hallarda mərhumun yaxınları meyitin təşrihinə maneçilik törədir, fikirləşmirlər ki, bu insan həyatına qarşı törədilmiş cinayətin hüquqi baxımdan hərtərəfli araşdırılıb həqiqətin üzə çıxması üçün vacibdir. Meyitin təşrihinə etiraz milli mentatiletimizlə izah edilsə də, bu daha çox hüquq, məhkəmə-tibb elminin və islamın xüsusiyyətlərini bilməməklə əlaqədardır. Çünki qanuna görə zorakı ölüm və buna şübhəli hallarda hüquq-mühafizə orqanları ölümün səbəbini, müddətini və digər bir çox sualların həlli üçün meyitin məhkəmə-tibbi ekspertizasının keçirilməsi barədə qərar qəbul etməyə borcludurlar. Meyitlərin müayinəsi zamanı ekspert qarşısında qoyulmuş sualların həlli ilə bağlı meyitin xarici və daxili müayinəsinin aparılması üçün şərait yaradılmalıdır. Meyiti müayinə edən məhkəmə-tibb eksperti isə qanunvericiliyə müvafiq olaraq hərtərəfli və tam müayinə (azı 3 - kəllə, döş və qarın boşluğu açılmaqla) aparmalıdır. Bu da ilk növbədə mərhumun xatirəsi naminə həqiqətin üzə çıxmasında onun qohumlarına lazımdır. Əks halda, elmi əsaslı məlumatlar və hüquqi cəhətdən əsaslandırılmış düzgün qərarlar qəbul edilə bilməz.

Meyitin müayinəsini apararkən məhkəmə-tibb eksperti bilməlidir ki, meyit ekspert üçün yalnız tədqiqat obyekti deyil. Müayinəsi aparılan insan bir qədər əvvəl sağ olub, onun vəfatı ilə böyük həyəcan keçirən ailə üzvləri, qohumları və yaxınları var. Müayinə zamanı çalışmaq lazımdır ki, meyit mümkün qədər az zədələnsin. Mərhumun xarici görünüşünün son mənzilə yola salmaqdan əvvəl keçirilən vidalaşma mərasiminin tələb etdiyi qaydaya uyğun olsun. Mərhumun qohumları və yaxın adamları ilə aparılan söhbətdə ekspert rəhmli və

xeyirxah olmalı, onların əlavə psixi travma almalarına yol verməməlidir. Vəfat etmiş insanın qohumlarına və yaxın adamlarına istintaq sirrinin yayılmaması şərti ilə mümkün olan obyektiv və dəqiq informasiyanı vermək olar.

Zərərçəkənləri, onların sağlamlıqlarına vurulmuş zərərin və xüsusən, cinsi cinayətlərin və cinsi halların təyini üçün müayinə etdikdə ekspert gərək son dərəcədə ədəbli olsun, müayinə edilənlərin şəxsi və intim həyatına aid artıq (rəy vermək üçün zəruri olmayan) suallar verməsin, yatrogeniyalara gətirib çıxara bilən mülahizələr işlədilməsin.

Elə ola bilər ki, ekspertə hadisənin törənmə şəraiti, vaxtı haqqında və digər məlumatlar barədə yanlış informasiya verərək onu aldatmaq istəsinlər. Belə olduqda ekspertin əsəbiləşməyə, açıq şəkildə şübhələnməyə haqqı yoxdur. Ekspertin qarşısında qoyulmuş məsələ müayinə edilən şəxsin hadisənin baş vermə şəraiti haqqında söylədiklərini dinləməkdən və obyektiv dəlillər əsasında zərərçəkəndə olan zədələrin (və yaxud başqa halların) onun dediyi vəziyyətdə yaranmasının mümkün olub-olmaması barədə fikir söyləməkdən ibarətdir.

Həkim səhvlərinə və tibbi yardımın göstərildiyi zaman baş vermiş nöqsanlara aid hallarda da ekspertdən xüsusi deontoloji sayıqlıq tələb edilir. Məhkəmə-tibbi ekspertizanın keçirilməsi barədə təlimata müvafiq olaraq, həkim əməliyyatının düz və yaxud qüsurlu olması haqqında məhkəmə-tibb ekspertinin öz fikrini bildirməyə ixtiyarı yoxdur. Belə məsələlər ekspertlərin və yüksək ixtisaslı həkim-mütəxəssislərin iştirakı ilə kollegial surətdə həll olunur, çünki gec və yaxud düzgün göstərilməyən tibbi yardım barədə əsassız fikir çox vaxtlar zərərçəkmişin ya da mərhumun qohumlarına təhrif olunmuş halda çatdırıla bilər və bu da əsassız şikayətlərə səbəb ola bilər.

Demək olar ki, ekspertin hər bir rəyi cinayət və mülki işlərində dəlil kimi irəli sürülərək öz arxasınca vacib sosial nəticələrə gətirib çıxarır. Bu halda ekspertin üzərinə nəinki yüksək professionallıq, həmçinin də böyük mənəvi məsuliyyət düşür.

Məlumdur ki, məhkəmə-tibbi ekspertizanın, başqa sözlə məhkəmə təbabəti elminin praktikada tətbiqi digər tibb elmlərindən

fərqli olaraq hüquq elmləri ilə, o cümlədən də dövlətçiliklə sıx bağlıdır. Ekspertizanın təşkili, keçirilməsi və digər məhkəmə-tibbi tədbirlər istintaq hərəkətlərinin tərkib hissəsi olmaqla, tərtib edilən ekspert rəyi qanunvericiliklə sübut növlərindən biri sayılır. Ekspert bilə-bilə yalan rəy verməyinə görə Cinayət Məcəlləsinin 297-ci maddəsinə əsasən məsuliyyət daşıması barədə əvvəlcədən xəbərdar olunur və ondan iltizam alınır. Məhkəmə-tibb ekspertinin rəyi cinayət tərkibinin, müqəssirliyin, onun dərəcəsinin və ya günahsızlığın müəyyənləşdirilməsində hüquq-mühafizə orqanları üçün əksər hallarda əvəzedilməz əhəmiyyət kəsb edir.

2007-ci il ərzində Birliyin şöbə və bölmələrində 32670 canlı şəxsin, 3349 meyitin və 5834 laborator ekspertiza və patoloji-anatomik müayinələr aparılmışdır. Mütəxəssislərimiz 2946 dəfə istintaq tədbirlərində və təxirəsalınmaz istintaq hərəkətlərində məhkəmə-tibbi xidməti təşkil etmişdir.

2007-ci ildə Birliyə zorakı ölümlərlə bağlı 2513 meyit daxil olmuşdur. O cümlədən, 72 çürümüş, 10 tam skeletləşmiş, 3 kömürləşmiş, 2 parçalanmış və 28 ekshumasiya olunmuş meyitlərin məhkəmə-tibbi ekspertizaları aparılmışdır. Meyitlərin müayinəsi 173 halda səyyar şəkildə meyitxanalardan kənarda, qəbiristanlıqda, mərhumun həyətində və digər yerlərdə təşkil edilmişdir.

Cinayət hadisələrinin getdikcə çoxalması, kriminal təzahürlərdə texnikanın təkmilləşməsi və istintaq nəticələrinin sübutedici əhəmiyyətinə tələbin artması sözsüz ki, mütəxəssis köməyindən, o cümlədən məhkəmə-təbabəti sahəsindəki mütəxəssislərin biliklərindən daha aktiv istifadə olunma məcburiyyəti yaradır. Şəxsiyyət əleyhinə olan cinayətlərin vaxtında və operativ açılması istintaqın bütün mərhələlərində elmi-texniki vəsaitlərin imkanlarından daha geniş istifadə olunmasının vacibliyini tələb edir.

Son illərin ekspert, istintaq və məhkəmə praktikasının təhlili göstərir ki, çox epizodlu mürəkkəb cinayət işlərində məhkəmə-tibb ekspertinin iştirakı ilə keçirilən ənənəvi prosessual hərəkətlər kompleksi (çox vaxt hadisə yerinə, meyitə baxış və sonradan ekspertizanın keçirilməsi ilə məhdudlaşan hərəkətlər) bir sıra hallarda möhkəm sübutlar bazasının formalaşmasında kifayət etmir.

Cinayət mühakimə icraatında xüsusi biliklərin imkanlarından hələ də kifayət qədər istifadə edilmir. Bir çox cinayət işlərində sübutlar yalnız təqsirləndirilən şəxsin, şahidin və zərərçəkənin dindirilməsindən toplanan məlumatlardan ibarət olur. Bununla bərabər təqsirləndirilən şəxsin ilkin istintaqda verdiyi ifadələrindən imtina etməsi və ya ifadələrinin dəyişdirilməsi halına da az rast gəlinmir. Bəzən də buna müxtəlif istintaq hərəkətlərində əməliyyat işçilərinin, təhqiqatçıların, müstəntiqlərin və ekspertlərin yol verdikləri hüquqi pozuntular və ya təşkilatı çatmamazlıqlar səbəb olur. Bu prosessual pozuntular nəticəsində məhkəməyə təqdim edilmiş dəlillər maraqlı tərəfin etirazına səbəb olur, kifayət qədər əsaslı görünmür və məhkəmə tərəfindən rədd edilir.

Sübutlar sisteminin möhkəmləndirilməsinin perspektivli və effektli sayılan tədbirlərindən biri də «sübutların obyektivləş-dirilməsi» deyilən hüquqi hərəkətdir. Son illərdə bu istiqamətdə kriminalistika və cinayət prosesində aktiv işlər görülür. Burada əsas istiqamət cinayət iştirakçılarının ifadələrinə əsaslanmış xüsusi bilik və sübutlardan istifadə nəticələrinin ən münasib toplamının yaradılmasından ibarətdir.

İnsanın həyatı, sağlamlığı, cinsi azadlığı, cinsi toxunulmazlığı, mübahisəli cinsi vəziyyətlər və digər şəxsiyyət əleyhinə yönəlmiş cinayətlərin cinayət-mühakimə icraatında, istintaq hərəkətlərində məhkəmə-tibb ekspertlərinin daha fəal iştirakı ilə xüsusi məhkəmə-tibbi biliklərin və elmi-texniki vasitələrin vaxtında tətbiqi, sübutların əldə edilməsində bu məsələlər daha səmərəli həll edilə bilər.

Məhkəmə-tibbi ədəbiyyatlarda məhkəmə-tibb sahəsindəki mütəxəssislərin yalnız hadisə yerinə və meyitə baxış və meyitin müayinəsi ilə bağlı məlumatlar geniş işıqlandırıldığı halda, ekshumasiya zamanı zəruri məhkəmə-tibbi biliklərə daha az yer verilmişdir. Tərəfimizdən hazırlanmış «Meyitin aşkar olunduğu yerdə (hadisə yerində) məhkəmə-tibb müayinəsinə dair» metodik tövsiyə (2000-ci il) və «Məhkəmə təbabəti» dərsliklərində (1999, 2002 və 2006-ci illərdə) bu məsələ daha geniş şərh edilmişdir.

Göstərilənlərlə yanaşı məhkəmə tibb mütəxəssislərinin prosessual fəaliyyətinin bəzi tərəfləri (dindirmədə, tanınmada, müqayisəli

tədqiqat üçün nümunələrin götürülməsində, ifadələrin yoxlanılmasında iştirak etmək) axıra qədər işlənib hazırlanmamış, metodik-normativ sənədlər və nəzəri işlər yox dərəcəsindədir. Bir çox hallarda isə istintaq məhkəmə orqanlarının əməkdaşları qeyd olunan prosessual hərəkətlərə məhkəmə-təbabəti mütəxəssislərinin cəlb edilməsinin əhəmiyyətini bilmir ya da buna məhəl qoymurlar. Təbii ki, belə vəziyyət öz növbəsində məhkəmə istintaq orqanlarının fəaliyyətinin məhkəmə-tibbi təminatına, şəxsiyyət əleyhinə yönəlmiş cinayətlərin hərtərəfli istintaqına, bütövlükdə cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinə mənfi təsir göstərəcəkdir.

Kitab ilk növbədə məhkəmə-tibb ekspertlərinə ünvanlanmış və onlara qüvvədə olan qanunvericiliyin tələblərinə müvafiq olaraq işlərinin maksimum səmərəli qurmaqda köməklik göstərəcəkdir. Ekspertin gündəlik işinin keyfiyyəti də məhz bundan çox asılıdır. Onu demək kifayətdir ki, CPM-nin bir sıra maddələrinə əsasən qanun pozğunluğu yolu ilə alınmış ekspert rəyi hüquqi qüvvəsi olmayan sübut sayılır, ittihamnaməyə daxil edilə bilməz və iş üzrə hər hansı bir şəraitin sübut edilməsində istifadə edilə bilməz. Kitab hər bir dövlət məhkəmə tibb ekspertindən qanuna qeyri-şərhsiz əməl etməyi tələb edir, şərəfli və məsuliyyətli yolda onlara istiqamət göstərir.

Şəxsiyyət əleyhinə yönəlmiş cinayətlərin istintaqında istintaq-məhkəmə orqanlarının əməkdaşları məhkəmə-tibbi ekspertizanın təyini və xüsusi bilik cəlb etməklə digər istintaq hərəkətlərini həyata keçirən zaman meydana çıxan bir çox sualların cavabını bu vəsaitdə tapa biləcəklər. Şübhəsiz ki, bu da hüquq mühafizə orqanları ilə məhkəmə-tibbi xidmətinin əlaqəsinin daha da təkmilləşməsinə, cinayətlərin istintaqına tələb olunan səviyyədə tam və hərtərəfli zəruri köməkliyini təmin edəcəkdir. Vəsaitdən ali məktəblərin «Məhkəmə təbabəti» fənnini tədris edən müəllimləri, eləcə də təhqiqat və istintaq məhkəmə orqanlarının əməkdaşları və səhiyyə orqanlarının rəhbərləri də istifadə edə bilər.

Kitabda əksini tapa bilməyən və lazımınca işıqlandırılmayan məsələlər və digər çatışmamazlıqlar barəsində bütün dəyərli və konstruktiv təkliflériniz məmnuniyyətlə qarşılanacaqdır.

BÖLMƏ I
CİNAYƏT MÜHAKİMƏ İCRAATINDA MƏHKƏMƏ-TİBBİ FƏALİYYƏTİN HÜQUQİ ƏSASLARI

FƏSİL 1. CİNAYƏT MÜHAKİMƏ İCRAATINDA XÜSUSİ MƏHKƏMƏ-TİBBİ BİLİKLƏR

1.1. Cinayət mühakimə icraatında «Mütəxəssis» və «Xüsusi bilik» anlayışı.

Azərbaycan Respublikasının qanunvericiliyi cinayət işi üzrə cinayət mühakimə icraatını məhkəməyə qədər və məhkəmə icraatına ayırır. Bu, təhqiqat aparıldıqda və cinayət işi qaldırıldıqda ilkin istintaqda təhqiqat orqanlarının, təhqiqat aparan şəxsin – müstəntiq və ya prokurorun, eləcə də cinayət işlərinə məhkəmə baxışı gedişində məhkəmənin və yaxud hakimlərin fəaliyyətini prosessual qanunvericiliklə nizama salır.

Ekspert və mütəxəssis cinayət mühakimə icraatının iştirakçılarıdır. Ekspertin rəyi ekspert və ya mütəxəssisin iştirakı ilə tərtib edilmiş istintaq və məhkəmə iş protokolları cinayət işi üzrə sübut sayılır (CPM, maddə 96, 97, 124).

Cinayət mühakimə icraatında xüsusi biliyin vəzifə və onun əhəmiyyətinin hazırkı mövqeyi dərhal formalaşmamış, tarixin bir neçə yüzillikləri ərzində mühakimə icraatı təcrübəsinin və qanunvericiliyin inkişafının ümumiləşməsi nəticəsində baş vermişdir. Eramızdan əvvəl Qədim Çində, Yunanıstanda, Hindistanda, Misirdə və Romada insan sağlamlığının pozulması və onun ölümü ilə bağlı bəzi tibbi xarakterli məsələlərin aydınlaşdırılmasında xüsusi biliyi olan şəxsin köməyi ilə epizodik məhkəmə tibbi müayinələrin aparılmasına dair bizə çatan yazılı tarixi məlumatlar vardır. Eramızdan 600 il əvvəl hindlilərin qədim əlyazması qanunlarında (Ayyur-Vaqa) meyitin müayinə edilməsində, eramızdan əvvəl 460-cı ildə Hipokrat tərəfindən hamiləliyin müddəti, abort, yarımçıq

doğulmuşların yaşama qabiliyyəti, müxtəlif xəsarətlərin ağırlığı, kəllə sümüklərinin travmatik zədələnməsinin təyinində bilikli şəxslərdən istifadə olunması öz təsdiqini tapır. Eramızdan əvvəl 448-ci ildə Romada tərtib olunan «12 cədvəl» sistemi məhkəmə prosesində həkim rəyinin mütləqliyini əks etdirmişdir: məsələn, zorakı ölümün və «qanuni» doğuşun müəyyən edilməsində həkimin vacib iştirakı həmin cədvəldə əks olunmuşdur.

Birinci əsrdə (Adrianan dövründə, 76-138) Roma həkimləri hamiləliyin maksimal müddətinin müəyyənləşdirilməsinə aid qanunun hazırlanmasında iştirak etmişdir.

Hələ bizim eranın VI əsrində Yustinianın tərtib etdiyi (529-534) məcəllədə istintaq zamanı sübut kimi göstərilən həkim rəyinin hadisə şahidlərinin dediklərinə nisbətən üstünlüyü və vacibliyi qeyd olunmuşdur.

1532-ci ildə Almaniyada V Karla yetirilmiş xəsarətlərdən sonra baş verən ölüm, ümumalman «Qanunnaməsi»nin yaradılmasına səbəb oldu. «Karolina» adlandırılan bu sənəddə zorakı ölüm, uşaq ölümü, zəhərlənmələr, uşaq düşüyü kimi halların istintaqı zamanı həkimlərin iştirakının vacibliyi bəyan olunmuşdur.

İstintaq zamanı əmələ gələn suallarla bağlı həkimə ilk müraciətlər Rusiyada XVI-XVII əsrlər təsadüf edir. Rusiyada həkimləri istintaq suallarının həllinə cəlb etməsini göstərən ilk qanunvericilik aktı kimi Rusiya çarı I Pyotrun nəşr etdirdiyi hərbi nizamnaməni göstərmək olar. Nizamnamənin 154-cü artikulunda müxtəlif hadisələrdə baş verən ölümün səbəbinin dəqiq izahı və aydınlaşdırılması tələb olunur. Burada həmçinin zorakı ölüm hallarında meyitin mütləq yarılmasına göstəriş olunmuşdur.

1832-ci ildə Rusiya imperiyasının Qanunlar nizamnaməsi ilk dəfə olaraq «xüsusi məlumatlara malik olan, elmdə, incəsənətdə və peşədə» səriştəli xüsusi şahidlər və, «bilikli şəxslər» anlayışı qəbul etmişdir. Bilikli şəxslər «hadisənin təhqiqatına və baxışa» cəlb edilir, onların ifadələrinə isə müstəqil sübut mənbəyi kimi baxılırdı. Əvvəllər, fəaliyyət göstərən qanunlar kimi Nizamnamə istintaq orqanlarının və məhkəmənin yaranan suallarını həll etmək üçün cəlb edilən bütün mütəxəssisləri «bilikli şəxslər» adlandırırdı. «Bilikli

şəxslər» qismində hər hansı xidmətlə uzun müddət məşğul olan, xüsusi təcrübə qazanmış, zəruri məlumatlara, elmdə, incəsənətdə və hər hansı məşğuliyyətdə təcrübəyə malik şəxslərin dəvət olunması göstərilirdi. Bilikli şəxslərin üzrsüz səbəbdən gəlməməsi onların cərimə olunması məsuliyyətini nəzərdə tuturdu.

Azərbaycanda bəzi tibbi xarakterli məsələlərin qiymətləndirilməsinə xüsusi biliyi olan şəxsin cəlb olunması 19-cu əsrin əvvəllərinə təsadüf edir.

Azərbaycanda ilk dəfə olaraq meyit, 19-cu əsrin əvvəllərində Mirzə Məhəmməd İbn Əbdül-s-Əbur Təbrizi Qoballı tərəfindən müayinə olunaraq sənədləşdirilmişdir. Mirzə Məhəmməd Təbrizi "Müfəssəl təşrih" adlı kitabının giriş hissəsində göstərir ki, o, bu kitabı yazarkən şəriət qanunlarına əsaslanaraq bir neçə meyit yarmışdır.

Sovetlər birliyinin cinayət prosessual məcəlləsində ekspert rəyi müstəqil sübut kimi qəbul edilirdi. Bununla bərabər mühakimə icraatında xüsusi biliklərin müxtəlif formada tətbiqinə prosessual fərq qoyulmurdu. Yeni CPM-nə görə «ekspert» və «mütəxəssis» anlayışları bir-birindən fərqlənir. Ekspertizanın keçirilməsindən əlavə, bəzi istintaq hərəkətlərində mütəxəssislərin iştirakı nəzərdə tutulur. Sonrakı illər ərzində qanunvericilikdə cinayət mühakimə icraatında xüsusi biliklərdən istifadənin tətbiqi daha da inkişaf etdi.

Müasir cinayət hüququnda, şəxsiyyət əleyhinə cinayətlərin istintaqı zamanı istintaq və məhkəmə qarşısında duran məsələlərin həlli üçün mütəxəssis və ekspertin iştirakı təkcə mürəkkəb kazuistik hallarda yox, ümumi cinayət mühakimə icraatının mübahisəsiz mütləq prinsipi kimi nəzərdə tutulur.

Cinayətin istintaqı və açılmasında «xüsusi biliklərdən» geniş istifadə edilməsinə baxmayaraq 2000-ci ilə qədər qüvvədə olan qanunvericilikdə və digər hüquqi normativ aktlarda «xüsusi», «xüsusi bilik» və «mütəxəssis» kimi anlayışların dəqiq tərifi göstərilməmişdir. «Bilik» təcrübədə yoxlanılmış və insan şüurunda həkk olunmuş gerçəkliyin dərk edilməsinin nəticəsi olmaqla, onun əsasında müəyyən mülahizə və nəticəyə gələ bilinəcək anlama və təcrübədir. Çox çalarlı mənası olan «xüsusi» termini (latın dilində -

specialis) - əlahiddə, fövqəladə, yalnız hər-hansı bir şey üçün nəzərdə tutulmuş deməkdir.

Azərbaycan Respublikanın qanunvericiliyi dövlət məhkəmə ekspertizası fəaliyyətini müəyyənləşdirərkən onu elm, texnika, incəsənət və digər peşə sahəsində xüsusi biliklərdən istifadə etməklə məsələlərin həll edilməsinin vacibliyi ilə məhdudlaşdırmışdır. «Xüsusi» termini «elmi» və ya «təcrübi», «texniki» və ya «tibbi», «sənətşünaslıq» və ya digər sahəni ifadə etmir. Cinayət-prosessual qanunvericiliyin ümumi konsepsiyası baxımından «xüsusi» termini özünün ilkin çoxçalarlı mənası olan - əlahiddə, ayrıca, fövqəladə kimi başa düşülür. Bununla bərabər bu «xüsusiyyət» elm, texnika, incəsənət və peşə istiqamətləri ilə məhdudlaşır.

Xüsusi bilik sahələrinin qeyd edilən siyahısı praktiki olaraq tükənəndir. Lakin cinayətlərin istintaq və açılmasında və ya məhkəmə istintaqında insan fəaliyyətinin digər sahələrindən də xüsusi bilik tələb edilə bilər. İtkin düşmüş şəxslərin və əşyaların tapılmasında psixometriyanın köməyi ilə aparılan çoxsaylı təcrübələri, ekstrasensor dərketmə qabiliyyətinə malik insanların cinayətin açılmasında iştirakını buna misal göstərmək olar. Adətən onlar cinayət proseslərinə cəlb edilmir. Operativ-axtarış əməliyyat tədbirləri keçirildikdə, özlərinin razılığı ilə, mütəxəssis kimi yox, cinayətin açılmasında əhəmiyyət kəsb edən hər hansı bir məlumata malik şəxs kimi cəlb edilirlər. Çox vaxt onların fəaliyyəti mütəxəssis fəaliyyəti ilə üst-üstə düşür. Hər iki halda sübutların tapılmasında müstəntiqə köməklik göstərilir.

Hüquqi ədəbiyyatlarda «xüsusi» termini dedikdə insanların az və ya çox dar əhatə dairəsində xüsusi təhsil, peşə hazırlığı və təcrübə nəticəsində əldə etdikləri bilik, bacarıq və vərdiş başa düşülür. Həmin bilik və vərdişlər hər hansı bir fəaliyyət növü üçün vacibdir və mühakimə icraatında insan fəaliyyətinin konkret göstərilən sahəsinə aid sualların həlli üçün istifadə edilir. Hüququ mənbələrdə göstərilən təriflərdən birini nümunə gətirək. Mütəxəssis - işdə şəxsi marağı olmayan səlahiyyətli, öz razılığı ilə istintaq və digər prosessual hərəkətlərdə subyektlərin aşkar olunması və sübut edilməsində

kömək göstərə bilmək üçün xüsusi biliyə malik, elmi-texniki və digər sahədə köməklik göstərən hər hansı bir şəxsdir.

Ümumi yanaşmaya uyğun olaraq məhkəmə-təbabətinin «xüsusiliyini», ekspertin tibbi peşə hazırlığını təşkil edən bilik və vərdişləri, eləcə də iş üçün əhəmiyyətli olan hadisənin tədqiqatı, aşkar edilməsi və qiymətləndirilməsi üçün cinayət mühakimə icraatında tətbiq olunan ekspertin şəxsi təcrübəsində qazandığı bilik və vərdişləri təşkil edir.

Xüsusi bilik anlayışında iki mütləq məhdudiyyət ayırd edilir. Birincisi - hüququ qavramada ümumtəhsil hazırlığından törənən, hamı üçün anlaşılan və məlum olan, yəni geniş yayılmış, bəzən «həyat təcrübəsi», «sağlam fikir» kimi adlanan biliklər; İkincisi – xüsusi biliklərə aid edilməsinə baxmayaraq, yalnız ədalət mühakiməsinin müstəsna səlahiyyətinə aid olduğuna görə hadisə şəraitinin hüquqi təhlili mülki və cinayət proseslərində «xüsusi» biliklər çərçivəsinə aid edilmir. Sözsüz ki, bu biliklər də ümumi mənada xüsusi peşəkarlıq nəticəsində yaranır. Beləliklə, cinayət mühakimə icraatında meydana çıxan, hamıya məlum biliklər və həyat təcrübəsi əsasında həll oluna biləcək və ya hüquq sahəsinə aid olan suallar, xüsusi biliklərdən istifadə predmeti ola bilməz.

Azərbaycan Respublikası CPM 97.4.2 maddəsində deyilir: «...Qarşısına qoyulan suallar xüsusi biliklərdən kənara çıxırsa və ya təqdim olunmuş materiallar qoyulmuş suallara cavab verilməsi üçün kifayət deyilsə, rəy verməkdən imtina etmək; yuxarıda qeyd olunmuş hallara görə rəy verilməsinin mümkün olmadığı nəticəsinə gələrsə, ekspertiza keçirilməsinin davam etdirilməsindən imtina etmək; bu imtinanı əsaslandırmaqla rəy verilməsindən və ekspertizanın keçirilməsindən imtina etməsi barədə ekspertizanın keçirilməsini ona tapşırmış şəxsə yazılı məlumat vermək ekspertin hüququdur.» Məsələn, ölümün növünü (qətl, intihar, bədbəxt hadisə) və sifətin eybəcərləşməsi faktını müəyyənləşdirmək hüququ sualı həll etmək deməkdir. Bu məsələlərin həlli müstəntiqin və məhkəmənin səlahiyyətinə aiddir.

Hər hansı bir məhdud sahədə dərin biliyi və ya səriştəsi olan insan mütəxəssis adlanır. Azərbaycan Respublikası CPM-də cinayət

mühakimə icraatının iştirakçısı kimi «ekspert» və «mütəxəssis» anlayışlarına qanun çərçivəsində hüququ təyinat verilmişdir. CPM-nin 97-ci maddəsində deyilir: «Ekspert elm, texnika, incəsənət və digər peşə sahəsində xüsusi biliklərdən istifadə etməklə rəy verməyə qadir olan cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında materialların tədqiqinin aparılması üçün cinayət prosesini həyata keçirən orqan və ya onun tələbi ilə ekspert müəssisəsinin rəhbərliyi tərəfindən təyin edilmiş şəxsdir. Ekspert cinayət prosesi iştirakçılarının təklif etdikləri şəxslər sırasından təyin edilə və ya müdafiə tərəfindən dəvət oluna bilər. CPM-nin 96-cı maddəsində isə mütəxəssis barədə deyilir: «Mütəxəssis cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında istintaq və ya digər prosessual hərəkətlərin aparılmasında elm, texnika, incəsənət və digər peşə sahəsindəki xüsusi bilik və bacarığından istifadə edərək kömək göstərmək üçün cinayət prosesini həyata keçirən orqan tərəfindən təyin edilmiş şəxsdir. Yetkinlik yaşına çatmamış, zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxsin, habelə şahidin dindirilməsində iştirak etmiş müəllim mütəxəssis hesab olunur. Mütəxəssis cinayət prosesi iştirakçılarının təklif etdikləri şəxslər sırasından təyin edilə bilər.

Göstərilənlərin təhlili ekspert və mütəxəssisin prosessual statuslarında iki oxşar cəhəti göstərir. Birincisi - istər ekspert, istərsə də mütəxəssis qanuna görə «xüsusi biliyə malik olan şəxslərdir». İkincisi - onlar CPM-nin təyin etdiyi qaydada cinayət mühakimə icraatında iştirak edir. Fərqləri isə başlıca olaraq onların funksiyasında, istifadə etdikləri iş üsulunda, gördükləri işin nəticələrinin tərtibi qaydasında və həmin nəticələrin prosessual əhəmiyyətindədir.

1.2. Cinayət mühakimə icraatında məhkəmə-tibbi biliklərdən istifadə növlərinin ümumi xarakteristikası.

Məhkəmə-təbabəti elminin təcrübədə tətbiqi kimi, məhkəmə-tibbi ekspertizanın iki əsas professional fəaliyyəti, xüsusi məhkəmə-tibbi biliklərdən istifadənin iki növünü özündə birləşdirir: prosessual və qeyri-prosessual.

Sxem 1. Cinayət mühakimə icraatında xüsusi məhkəmə-tibbi biliklər.



Prosessual növə məhkəmə-tibbi ekspertizanın keçirilməsi, ekspertin dindirilməsi, ekspertin və ya mütəxəssisin istintaq və məhkəmə hərəkətlərində iştirakı, ekspertizanın təyini və keçirilməsi

ilə əlaqədar dövlət məhkəmə-ekspert idarəsi rəhbərinin idarəetmə fəaliyyətləri və müstəntiqlərin özləri tərəfindən məhkəmə tibbi biliklərin tətbiq edilməsi aiddir (sxem 2). Məhkəmə-tibbi biliklərdən istifadənin bu formaları məhkəmədə konkret cinayət işinə baxılarkən və ya konkret cinayət işinin istintaqında cinayət mühakimə icraatı ilə bilavasitə bağlıdır və yalnız Azərbaycan Respublikasının CPM-nin çərçivəsi daxilində həyata keçirilir.

Belə hallarda xüsusi biliklərin ilkin, məhkəmə istintaqının hansı mərhələsinə cəlb edilməsi və bilik sahiblərinin (ekspert və ya mütəxəssis) hansı prosessual statusa malik olmaları xüsusi əhəmiyyət kəsb etmir. Məhkəmə-tibbi fəaliyyətin qeyd olunan formaları «Dövlət məhkəmə ekspertiza fəaliyyəti haqqında qanun»da və CPM-də ətraflı şərh olunmuşdur. Qanun onların hər birinə ekspert və mütəxəssis işinin gedişi və nəticəsi ilə müəyyənləşdirilmiş prosessual formalar təyin edir. Həmin formalara ekspert rəyi və istintaq hərəkətləri protokolu (baxış, dindirmə, tədqiqat, tanınmaya təqdim etmə və s.) aiddir.

Qanunla təyin olunmuş formalara əsasən cinayət mühakiməsi icraatında istifadə olunan xüsusi biliklərin prosessual nizamlanmasının iki üsulu vardır. Birinci üsul qəti amiranə kimi xarakterizə olunur və cinayət hadisəsinin tədqiqatına ekspertin (mütəxəssisin) mütləq qaydada cəlb edilməsini tələb edir. İkincisi könüllü üsuldur. Burada məhkəmə-tibbi ekspertizanın təyini imkanı, müstəntiqin və ya məhkəmənin mütəxəssis köməyinə müraciət etməsi qanunda nəzərdə tutulsa da, istintaqın məcburi şərti sayılmır və konkret işin xüsusiyyətlərindən asılı olaraq yalnız zəruri hallarda həyata keçirilir. Qanunvericiliyin nizamlanması üsulundan asılı olaraq cinayət mühakimə icraatında məhkəmə-tibbi fəaliyyətin bütün formalarını iki qrupa - məcburi və könüllü qruplara bölmək olar.

CPM-nin 264.2-ci maddəsinə görə təhqiqatçı, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror, mütəxəssis və cinayət prosesinin digər iştirakçılarının xüsusi biliklərə malik olması cinayət təqibi orqanını müvafiq hallarda ekspertizanın təyin edilməsi zərurətindən azad etmir.

Azərbaycan Respublikası CPM-nin 140.0.1-140.0.4-cü maddələrində ölümün səbəbini, sağlamlığa yetirilən zərərin xarakter və dərəcəsini təyin etmək üçün, şübhəli və təqsirləndirilən şəxsin fiziki vəziyyətini (öz hüquq və qanunlarını müdafiə edəcəklərinə şübhə olduqda), zərər çəkmiş şəxsin fiziki vəziyyətini (hadisənin mahiyyətini düzgün qavramaq və ifadə vermək qabiliyyətinə şübhə olduqda) müəyyən etmək üçün, yaş barədə sənəd olmadıqda iş üçün əhəmiyyət kəsb etdikdə şübhəli, təqsirləndirilən və ya zərərçəkmişin yaşını təyin etmək üçün məhkəmə-tibbi ekspertizanın keçirilməsi məcburi sayılır.

Əgər ekspertiza ekspert idarəsinə təyin edilirsə, onun başlanması həmişə müəssisə rəhbərinin öz prosessual fəaliyyətini həyata keçirilməsi ilə bağlıdır (CPM, maddə 269). Deməli xüsusi biliklərdən istifadənin bu formasına da məcburi üsul kimi baxmaq lazımdır.

Meyitə baxış və meyitin qəbirdən çıxarılmasında məhkəmə-tibb ekspertinin iştirakı məcburidir (CPM, maddələr 236, 237). Şəxsin soyundurulması ilə müşayiət edilən müayinələrdə müstəntiq və müayinə olunan müxtəlif cinsə mənsub olduqda mütəxəssisin iştirakı vacibdir (CPM, maddə 238). Bu halda müstəntiq təqsirləndirilən və şübhəli şəxsin müdafiəçisi həmin istintaq hərəkətinin aparılmasında iştirak edə bilməz. Qeyd olunan istintaq hərəkətlərinin müvafiq mütəxəssisin iştirakı olmadan aparılması cinayət-prosessual qanunun pozulması sayılır.

Ekspertin və mütəxəssisin cinayət mühakimə icraatında iştirakının CPM-nin məcburi sayılmayan bütün digər halları könüllü sayılmalıdır. Buna ekspertin dindirilməsi, ekspert və mütəxəssisin prosessual hərəkətlərdə iştirakı (CPM-nin 236 və 237-ci maddələrində göstərilənlər istisna olunmaqla), istintaq eksperimentində şəxsin soyundurulmasının vacibliyi ilə bağlı olmayan müayinəsi, məhkəmə eksperimenti, ifadələrin yoxlanılması, müqayisəli müayinə üçün nümunələrin götürülməsi, axtarış və dindirmə aiddir. Göstərilən istintaq hərəkətlərinə ekspertin cəlb edilməsi vacibliyi hadisənin şəraitindən və xarakterindən, onların ekspert köməyi ilə müəyyən edilməsi və dəqiqləşdirilməsi vəziyyətindən asılı olaraq hər bir halda müstəntiq tərəfindən təyin

edilir. Məhkəmə tibbi biliklərin müstəntiq tərəfindən tətbiq edilməsi də könüllüdür.

Məhkəmə-tibbi biliklərdən istifadənin prosessual formalarını əsas və əlavə kimi iki qrupa bölmək olar. Əsas qrupa məhkəmə-tibb ekspertizanın keçirilməsini (CPM, maddə 264, 265, 266, 267) və ekspertin dindirilməsini (CPM, maddə 272), yəni birbaşa ekspertin fəaliyyətini aid etmək olar. Digər (əlavə) formalardan fərqli olaraq bunlar bilavasitə isbatı tələb edilən halların təyin edilməsinə gətirib çıxarır və bu fəaliyyət nəticəsində sübutun müstəqil növü - ekspert rəyi (CPM, maddə 127 və 271) və ekspert ifadəsi (CPM, maddə 272) yaranır.

Cinayət mühakimə icraatında məhkəmə-tibbi biliklərdən istifadənin əsas formalarından fərqli olaraq əlavə formaları onunla səciyyələnir ki, ekspert (mütəxəssis) fəaliyyəti müstəqil yox yardımçı xarakter daşıyır. Nəticələri isə ekspert mütəxəssis rəyi və onun ifadələr kimi sübutların sərbəst mənbəyi halında obyektivləşmir.

Əlavə prosessual formalara bunları aid etmək olar (bax sxem 2):

- istintaq hərəkətlərində ekspertin iştirakı;
- istintaq hərəkətlərinin icrasında mütəxəssisin iştirakı;
- mütəxəssisin dindirilməsi;
- məhkəmə ekspertizasının təşkili ilə əlaqədar ekspert idarəsi rəhbərinin prosessual fəaliyyəti;
- məhkəmə tibbi biliklərin müstəntiq tərəfindən tətbiq edilməsi.

Sxem 2. Cinayət mühakimə icraatında məhkəmə-tibbi biliklərdən istifadənin prosessual növləri

1.3. Məhkəmə-tibbi ekspert fəaliyyətinin məzmunu və prinsipləri.

Dövlət məhkəmə ekspertizasının fəaliyyəti insan və vətəndaşların hüquq və azadlıqlarının qorunması, qanunçuluğun təmin edilməsi, ekspertin müstəqilliyi, elmin və texnikanın müasir nailiyyətlərindən istifadə edilməklə həyata keçirilən tədqiqatların obyektivliyi, hərtərəfliliyi və tamlığı prinsiplərinə əsaslanır (Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında Qanun, (D.M.E.F.H.Q. maddə 4).

Hüquqi aktların tələblərinə dəqiq əməl edilməsi məhkəmə-ekspert fəaliyyətinin aparıcı prinsipini - qanuniliyini müəyyən edir. Qanunvericilik aktlarının hamısı, xüsusilə də «Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında» Qanun və Azərbaycan Respublikası CPM-si məhkəmə ekspertizası keçirilərkən məhz qanuniliyin tam təmin olunmasına yönəlmişdir. Məhkəmə ekspertizası keçirilərkən qanunun pozulması təkcə onun nəticələrinin hüquqi əsası olmayan sübut kimi tanınmasını deyil, həmçinin Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş ekspert məsuliyyətinə də gətirib çıxarır. Məhkəmə ekspertizası aparılarkən insan və vətəndaş hüquqlarına və azadlıqlarına əməl olunmalıdır (D.M.E.F.H.Q. maddə 5).

Məhkəmə-tibb eksperti və ekspert idarəsinin rəhbəri öz fəaliyyətlərində siyasi və milli mənsubiyyəti, ekspertizaya cəlb olunanların, onların qohumlarının və qanuni nümayəndələrinin maddi və vəzifə vəziyyətlərini əldə rəhbər tutulmalıdır. Bu prinsipin təmin edilməsinə məhkəmə-tibbi ekspertizanın təyini ilə əlaqədar cinayət mühakimə icraatı iştirakçılarının hüquq və zəmanət sistemi, ekspertə cinayət prosesində iştirakı ilə əlaqədar məlum olan məlumatların yayılmasının qadağan edilməsi və ekspertizanın keçirilməsində qanun pozuntusuna görə cinayət məsuliyyətinə cəlb edilməsi xidmət edir.

Məhkəmə ekspert fəaliyyətinin başlıca prinsipi ekspertin müstəqil olmasıdır. Azərbaycan qanunvericiliyi bir başa göstərir ki, ekspertin məhkəmə ekspertizası təyin etmiş, işin nəticəsindən maraqlı orqan və ya şəxsdən hər hansı bir asılılığı olmamalıdır. Ekspert apardığı

müayinələrin nəticəsinə əsaslanaraq və öz xüsusi biliklərinə uyğun olaraq rəy tərtib edir.

Ekspertə hər hansı bir proses iştirakçısının və ya digər şəxslərin xeyrinə rəy vermək məqsədilə məhkəmə, hakimlər, təhqiqat orqanları, təhqiqat aparan şəxs, müstəntiq və prokurorlar, eləcə də digər dövlət orqanları, təşkilat və ayrı-ayrı şəxslər tərəfindən təzyiq edilməsinə yol verilmir. Ekspertə təzyiq edilməsində günahlandırılan şəxs Azərbaycan Respublikası qanunvericiliyinə görə məsuliyyət daşıyır (D.M.E.F.H.Q. maddə 6).

Müstəqillik prinsipi ekspertin prosessual sərbəstliyi ilə təmin edilir. Cinayət mühakimə icraatının iştirakçısı kimi cinayət prosesində ekspertə geniş hüquqlar verilir. Obyektivlik, hərtərəflilik və tamlıq məhkəmə-ekspert fəaliyyətinin vacib tələblərdir. Ekspert yalnız elmə və praktikaya əsaslanaraq, öz peşəsinə uyğun olaraq obyektiv, hərtərəfli və tam həcmdə müayinə aparmalıdır.

Ekspertin obyektivliyinə onun müstəqilliyi və işin yekununda marağının olmaması zəmanət verir. Ekspert ona təqdim edilmiş bütün obyektləri müayinə etməli və təcrübədə sınaqdan çıxmış və rəsmi məsləhət görülmüş lazımi metodikadan istifadə etməli, qarşısında qoyulmuş bütün suallara cavab verməli, əgər cavab verə bilmirsə həmin suallara cavab verməkdən imtina etməsini əsaslandırmalıdır.

Alınmış nəticələrin əsaslı və doğruluğunun yoxlanılması ekspertizanı təyin etmiş şəxs və ekspert idarəsinin rəhbəri tərəfindən həyata keçirilir. Bu vaxt ekspert rəyində aparılan tədqiqatların nəticələri və şərh edilmənin gedişinə, obyektlərin saxlanılma qaydalarının tələbinə, nəticənin əsaslı olmasına, rəyin əyani vasitələrlə tərtib edilməsinə fikir verilməlidir.

Məhkəmə ekspertiza fəaliyyətinin əsas məzmunu məhkəmə ekspertizasının təşkili və aparılmasıdır.

Məhkəmə-ekspertizası konkret iş üzrə sübut əhəmiyyətinə malik olan faktiki halların müəyyənləşdirilməsi məqsədilə, təhqiqat orqanları, təhqiqat aparan şəxs, müstəntiq, prokuror, hakim və ya məhkəmə tərəfindən ekspert qarşısına qoyulmuş və həlli üçün elm, texnika, incəsənət və ya sənətkarlıq sahəsində xüsusi bilik tələb edən suallar əsasında ekspert rəyinin verilməsi və cinayət-prosessual

məcəlləsinin müəyyən etdiyi qaydada tədqiqatların aparılmasında həyata keçirilən prosessual hərəkətdir.

Beləliklə, dövlət məhkəmə-ekspertizası idarələrinin fəaliyyətinin vəzifələri, yəni məhkəmə ekspertizası aparılması yolu ilə həll edilən vəzifələri, konkret iş üzrə sübut olunmalı halların müəyyən olunmasında təhqiqat orqanlarına, təhqiqat aparan şəxslərə, müstəntiqlərə, prokurorlara, məhkəmə və ya hakimlərə köməklik hesab olunur (D.M.E.F.H.Q. maddə 3). Bu halların müəyyən olunmasında əsas, məlumat mənbəyi, CPM-nin 127-ci maddəsinə uyğun olaraq ekspert rəyidir. Onların müəyyən olunması üsulu isə - tədqiqatlar aparılması və elm, texnika, incəsənət və ya sənətkarlıq sahəsində xüsusi biliklərin əsasında sualların həll edilməsidir.

FƏSİL 2. MƏHKƏMƏ TİBBİ EKSPERTİZA.

2.1. Məhkəmə-tibbi ekspertizanın predmeti və müayinə obyektləri.

Məhkəmə tibbi ekspertizanın predmeti ilkin istintaq və işin məhkəmə araşdırılması zamanı meydana çıxan tibbi və tibbi-bioloji xarakterli sualların aydınlaşdırılmasından ibarətdir.

Məhkəmə tibb ekspertizasının gedişində müayinə obyektləri meyit və onun hissələri, canlı şəxslər, maddi sübutlar, sənədlər, əşyalar, müqayisəli müayinə nümunələri, o cümlədən, məhkəmə ekspertizası aparılan işin materiallarıdır.

Obyektlərin bu cür anlayışı hüquqi xarakter daşıyır. Qanun iş üzrə sübut növü kimi baxılan «maddi sübutlar» və «sənədlər» prosessual anlayışlarını birləşdirir (CPM, maddə 124). Kriminalistikada maddi sübutların ekspertiza obyektlərinə aid olunması tam düzgün hesab edilmir. Belə ki, bəzi predmetlər və maddələr xüsusi müayinələr aparıldıqdan və ekspert rəyi alındıqdan sonra müvafiq prosessual status əldə edir və maddi sübut qismində işə əlavə olunur. Ekspertizaya, adətən, potensial maddi sübut ola bilən obyektlər, yəni istintaq və məhkəmə hərəkətləri zamanı götürülmüş (konkret predmetlər, maddələr, materiallar və s.) və protokola əlavə olunma statusu qazanmış obyektlər göndərilir.

Canlı şəxslər adətən müəyyən prosessual status - zərərçəkmiş, təqsirləndirilən və ya şübhəli şəxs, müttəhim və şahid adı aldıqdan sonra məhkəmə-tibbi ekspertizanın obyekti sayılır. Mənəvi-etik cəhətdən meyitə sübut növü kimi baxmaq mümkün olmadığından o, müəyyən prosessual statusu olmayan ekspert obyektlərinə aid edilir. Meyit prosessual və xüsusi məhkəmə-tibbi baxımdan ekspertizanın bilavasitə obyektidir. Müəyyən prosessual statusu olmayan belə obyektlərə hadisə baş verən yer - ərazinin sahələri, binalar, tikililər və digərləri aid edilir. Bu obyektlər hüquqi statusuna görə maddi sübutlara bərabərdir, ancaq, praktiki olaraq onlara müəyyən prosessual rejim tətbiq etmək mümkün olmur. Ona görə, məhkəmə-

tibb ekspertizası konkret şəxslər, əşyalar, maddələr, materiallar, hadisə yerləri və onların haqqında məlumatları əks etdirən sənədlər kimi bilavasitə obyektləri və onların prosessual statusu ilə uyğun olan obyektləri ayırd edir.

Sxem № 3. Məhkəmə-tibbi ekspertizanın obyektləri



Canlı şəxslər, meyitlər (meyitlərin hissələri) və maddi sübutlar üç əsas müstəqil müayinə obyektlərini təşkil edir və bunlar da

məhkəmə-tibbi ekspertizanın üç əsas növünü - canlı şəxslərin, meyitlərin və maddi sübutların məhkəmə-tibbi ekspertizasını formalaşdırır.

Adətən sənədlər canlı şəxslər, meyitlər və maddi sübutlar barəsində məlumatlardan ibarət olur. Ənənəvi olaraq, sənədlərə iş materialları üzrə məhkəmə-tibbi ekspertizaların aparılmasına səbəb olan müstəqil əlavə növ obyekt kimi baxılır.

Müxtəlif sənədlərdə yazılmış faktların və hadisələrin iş üçün əhəmiyyəti yalnız ekspertizanın gedişində müəyyən olunur. Yalnız bundan sonra onlar iş üzrə sübut növü kimi «sənədlər» statusunu (CPM, maddə 124.2.5.) ala bilər.

Müqayisəli müayinə üçün nümunələr məhkəmə-tibbi ekspertizanın sərbəst obyektləri hesab olunmur. «Obyekt» (terminin formal uyğunluğundan danışılır) meyitin, canlı şəxsin və ya maddi sübutun məhkəmə-tibbi ekspertizasını aparmaq üçün vacibdir.

Cinayət-mühakimə icraatında məhkəmə-tibbi biliklərdən istifadə olunmanın məhkəmə ekspertizasının digər növlərindən fərqi onun təyin edilmə, icra və nəticələrin tərtib olunma qaydalarının hüquqi tənzimlənmə xüsusiyyətlərindədir.

2.2. Məhkəmə-tibbi ekspertizanın prosessual formatı

Məhkəmə ekspertizasının mümkün formatı Azərbaycan Respublikasının CPM-si ilə dəqiq müəyyən edilmişdir (sxem № 4). O, cinayət prosesinin müxtəlif mərhələlərində - ibtidai istintaqın gedişində, yəni təhqiqat və ya ibtidai istintaqın (maddə 264) və ya məhkəmə istintaqının gedişində (CPM, maddə 331), dövlət məhkəmə ekspertiza idarəsində və ya ekspert idarəsindən kənarda, «ilkin», əlavə və ya təkrar (CPM, maddə 267, D.M.E.F.H.Q. maddə 16); bir və ya bir neçə ekspertlə (CPM, maddə 265); eyni ixtisaslı ekspertlərlə (maddə 265.3) və ya müxtəlif ixtisaslı ekspertlərlə, yəni kompleks şəkildə (CPM, maddə 266), həmçinin ekspertiza təqsirləndirilən və ya şübhəli şəxsi tibbi stasionara yerləşdirilməklə (D.M.E.F.H.Q. maddə 30) və ya yerləşdirməməklə, ekspertin sonradan dindirilməsi (CPM, maddə 272) və ya dindirilməməsi ilə aparıla bilər.

Cinayət prosesində məhkəmə-tibbi ekspertiza yalnız qaldırılmış və araşdırılan cinayət işi üzrə, yəni ibtidai araşdırma və ya məhkəmə istintaqının gedişi zamanı aparılır.

Azərbaycan Respublikasında aşağıdakı təhqiqat orqanları mövcuddur.

1. Daxili işlər orqanları.
2. Milli təhlükəsizlik orqanları.
3. Vergi orqanları.
4. Gömrük orqanları.
5. Fövqəladə hallar orqanları.
6. Sərhəd qoşunları orqanları.

Qeyd etmək lazımdır ki, cinayət işləri üzrə ibtidai istintaq aparmaq səlahiyyəti olan orqanlardan ikisi – Prokurorluq orqanları və Ədliyyə Nazirliyi təhqiqat orqanları deyildir. Təhqiqat orqanlarının səlahiyyətinə aid edilmiş cinayət işləri üzrə təhqiqatı həmin orqanların təhqiqatı aparmaq səlahiyyətinə malik olan struktur vahidlərinin əməkdaşları həyata keçirir.

Azərbaycan Respublikasında istintaq orqanlarının aşağıdakı sistemi mövcuddur.

1. Prokurorluq orqanları.
2. Daxili işlər Nazirliyi.
3. Milli Təhlükəsizlik Nazirliyi.
4. Fövqəladə Hallar Nazirliyi.
5. Vergilər Nazirliyi.
6. Gömrük Komitəsi.
7. Sərhəd Qoşunları.

Təhqiqat ibtidai araşdırmanın növü kimi aşağıdakı şəkildə aparılır (CPM, maddə 214.1.):

- İbtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı (CPM, maddə 214.1.1.);

- Böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat (CPM, maddə 214.1.2.).

İbtidai istintaq aşağıdakı orqanların əməkdaşları tərəfindən aparılır:

- Prokurorluğun müstəntiqləri - həyat və sağlamlığa qarşı ağır cinayətlər, xüsusən də qəsdən adam öldürmə (CM, maddə 120); ehtiyatsızlıqdan adam öldürmə (CM, maddə 124); özünüöldürmə həddinə çatdırma (CM, maddə 125) ilə əlaqədar cinayət işləri; ölümlə nəticələnmiş qəsdən sağlamlığa ağır zərərvurma (CM, maddə 126.3); cinsi toxunulmazlıq və şəxsin cinsi azadlığına qarşı, zorlama (CM, maddə 149), seksual xarakterli zorakı hərəkətlər (CM, maddə 150), seksual xarakterli hərəkətlərə məcbur etmə (CM, maddə 151) kimi cinayətlər və digər cinayət işləri ilə əlaqədar prokurorluq orqanlarının səlahiyyətinə nisbətən ağır və mürəkkəb cinayətlərin ibtidai istintaqı aid edilmişdir;

- Daxili işlər orqanlarının müstəntiqləri - ölümlə nəticələnməyən, sağlamlığa qəsdən ağır zərərvurma (CM, maddə 126); qəflətən baş vermiş ruhi həyəcan vəziyyətində olan şəxs tərəfindən və ya özünümüdafiə həddini aşma nəticəsində sağlamlığa ağır və az ağır zərərvurma (CM, maddələr 129; 130); nəqliyyat vasitələrindən istifadə və yol hərəkəti qaydalarının pozulması zamanı ehtiyatsızlıqdan ölümlə nəticələnmə (CM, maddə 263.3);

- Milli Təhlükəsizlik Nazirliyinin, Vergilər Nazirliyinin, Ədliyyə Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, Gömrük Komitəsinin və Sərhəd Qoşunlarının müstəntiqləri tərəfindən məhkəmə-tibbi xidmətin fəaliyyəti ilə birbaşa əlaqəsi olmayan cinayət işləri ilə əlaqədar ibtidai istintaq aparırlar.

Prokurorluq, Daxili İşlər, Milli Təhlükəsizlik, Ədliyyə, Gömrük və Vergi xidmətlərinin müstəntiqləri icraatlarında olan cinayət işləri ilə əlaqədar qərar qəbul etmək, istənilən prosessual hərəkəti keçirmək, o cümlədən məhkəmə ekspertizası təyin etmək (məhkəmənin qərarı və ya prokurorun sanksiyası tələb olunan bəzi hallar istisna olmaqla, məsələn, ekspertiza olunacaq şəxsin tibbi stasionara yerləşdirilməsi) hüququna malikdir.

İbtidai araşdırma təhqiqat formasında təhqiqat orqanları tərəfindən aparılır. Cinayət işləri üzrə təhqiqatı aşağıdakı təhqiqat orqanları və şəxslər aparırlar (CPM, maddə 214.2):

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının təhqiqatçıları - Azərbaycan Respublikasının həmin müvafiq icra hakimiyyəti orqanları müstəntiqlərinin səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə (CPM, maddə 214.2.1.);

Rəhbərlik etdikləri hərbi hissələrin, hərbi idarələrin, cəzaçəkmə müəssisələrinin, həbsdə saxlanılma yerlərinin, dəniz gəmilərinin yerləşdiyi ərazidə (ərazi üzrə) törədilmiş cinayətlərə dair cinayət işləri üzrə - müvafiq olaraq təhqiqatçı səlahiyyətlərini həyata keçirən hərbi hissə komandirləri, hərbi idarə rəisləri, cəzaçəkmə müəssisələrinin və ya həbsdə saxlanılma yerlərinin rəisləri, dəniz gəmilərinin kapitanları və digər müvəkkil edilmiş şəxslər; əks-kəşfiyyat fəaliyyətinin təminatını həyata keçirən hərbi hissələrdə, hərbi idarələrdə təhlükəsizlik orqanlarının səlahiyyətlərinə aid olan işlər üzrə - müvafiq icra hakimiyyəti orqanlarının təhqiqatçıları;

Cinayət işinin başlanmasından sonra 10 gündən gec olmayaraq sonrakı araşdırmanın aparılması üçün cinayət işini istintaq orqanına göndərir (CPM, maddə 214.3.3.);

Cinayət işinin başlanmasından 10 gün keçdikdən sonra müstəntiq və ya ibtidai araşdırmanı həyata keçirən prokurorun tapşırığı ilə ayrı-

ayrı istintaq hərəkətlərini aparır və ya əməliyyat-axtarış tədbirlərini həyata keçirir (CPM, maddə 214.3.4.);

Cinayət işinin başlanmasından 10 gün keçdikdən sonra cinayət açılmamış qalarsa, cinayəti törətmiş şəxsin müəyyən və aşkar edilməsi, tutulması və müstəntiqə təhvil verilməsinə dair tədbirlər görür (CPM, maddə 214.3.5.);

Məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 127.1, 128-132, 174-176, 177.1, 186.1, 187.1, 187.2, 196.1, 197.1 və 201.1-ci maddələri ilə nəzərdə tutulmuş böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə aparılır (CPM, maddə 214.4.);

Böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat CPM-nin 293-297-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun aparılır (CPM, maddə 214.5);

Böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində aparılan təhqiqat istisna olmaqla, bütün cinayət işləri üzrə ibtidai istintaqın aparılması məcburidir (CPM, maddə 215.1.);

Cinayət işləri üzrə ibtidai istintaq prokurorluq və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən aparılır (CPM, maddə 215.2.).

Təhqiqat orqanları tərəfindən icraatında şəxsiyyət əleyhinə olan cinayətlərdən qəsdən sağlamlığa az ağır (CM, maddə 127) və qəsdən sağlamlığa yüngül zərərvurma (CM, maddə 128); döymə (CM, maddə 132), ehtiyatsızlıqdan sağlamlığa ağır və az ağır zərərvurma (CM, maddə 131); qanunsuz abort etmə (CM, maddə 141), həmçinin yol hərəkəti qaydalarının pozulması və nəqliyyat vasitələrindən istifadə zamanı ehtiyatsızlıqdan sağlamlığa ağır və az ağır zərərvurma (CM, maddə 263.1) ilə əlaqədar cinayət işlərinin icraatı aparıla bilər. Cinayət işlərinin bu kateqoriyası üzrə ilkin istintaqın keçirilməsi mütləq deyil və təhqiqatçı istənilən istintaq hərəkətini keçirmək, o cümlədən məhkəmə tibbi ekspertizanı təyin etmək hüququna malikdir. İbtidai istintaqın aparılması vacib olan digər cinayət işlərində, təhqiqat orqanlarının müstəqil olaraq yalnız təxirəsalınmaz

istintaq hərəkətlərini (dindirmə, baxış, müayinə, tanınmaya təqdim etmə və s.) aparmaq hüququ vardır. Cinayət izlərinin aşkar olunması və təsbit edilməsi çərçivəsindən kənara çıxan digər prosessual hərəkətləri, məsələn, ekspertizaların təyini, istintaq eksperimenti, ifadələrin yoxlanılmasını, təhqiqatçı müstəntiqin tapşırığı ilə apara bilər.

Azərbaycan Respublikasında cinayət mühakimə icraatını aşağıdakı məhkəmələr həyata keçirir:

Rayon-şəhər məhkəmələri;

Hərbi məhkəmələr;

Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının məhkəməsi;

Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının hərbi məhkəməsi;

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi;

Azərbaycan Respublikasının Apelyasiya Məhkəmələri;

Azərbaycan Respublikasının Ali Məhkəməsi;

Məhkəmələrdə, cinayət-mühakimə icraatı ilkin, apelyasiya və kassasiya instansiyaları tərəfindən həyata keçirilir. Birinci instansiya məhkəməsi işə aidiyyatı üzrə baxır, cinayət işi üzrə məhkəməyə qədər icraatın gedişində qərarlar qəbul edir və hökm çıxarır (CPM, maddə 7.0.10). İkinci instansiya məhkəməsi cinayət işlərinə apelyasiya qaydasında, birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş çıxarılmış hökm və hökmdən və digər qərarından verilmiş şikayət və protestlərə baxır. (CPM, maddə 7.011)

Kassasiya instansiyası məhkəmələrində CPM-si ilə (maddə 7.012) müəyyən edilmiş qaydada və hallarda birinci instansiya məhkəməsinin andlı iclasçılarının iştirakı ilə çıxarılmış və ya apellyasiya məhkəməsinin qanuni qüvvəyə minmiş hökmündən və ya digər qərarından verilmiş şikayət, protest yaxud təqdimatlar üzrə cinayət işlərinə baxılır.

Azərbaycan Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi insan həyatı, sağlamlığı və namusuna təcavüzlə bağlı qəsdən adam öldürmə, adam oğurluğu (CM, maddə 144) 14 yaşına çatmamış zərərçəkmişin zorlanması və ya QİÇS

Sxem № 4. Məhkəmə-tibbi ekspertizanın prosessual formatı



virusu ilə yoluxdurulmasına və digər ağır nəticələrə səbəb olmuş (CM, maddə 149.3.1; 149.3.2) xüsusi ilə ağır cinayət işlərinə baxır.

Rayon məhkəmələri ən çox şəxsiyyət əleyhinə cinayətlərlə bağlı digər cinayət işlərinə, xüsusən də ağır və xüsusi ağır cinayətlərdə ittiham olunan şəxslə bağlı ekspertin bilə-bilə yalan rəy verməsinə görə cinayət işlərinə baxır.

Azərbaycan Respublikasının məhkəmələrində cinayət işlərinə hakimlər təkbaşına və ya kollegial tərkibdə baxırlar (CPM, maddə 78). Cinayət işlərinə birinci məhkəmə instansiyasında baxış kollegial (üç hakimdən ibarət və yaxud andlı iclasçılardan ibarət tərkibdə) və ya hakim tərəfindən təkbaşına baxılır. Cinayət işlərinə apelyasiya və kassasiya qaydasında baxılması - ümumi yurisdiksiyalı məhkəmənin üç nəfər hakim heyəti tərəfindən, nəzarət qaydasında isə - üç və ya daha çox hakimdən az olmayan heyət tərəfindən həyata keçirilir.

Məhkəmələrin qanuni qüvvəyə minmiş qərarları, qanuni sərəncamları, tələbləri, tapşırıqları, çağırışları və digər müraciətləri müstəsnasız bütün dövlət hakimiyyət orqanları, yerli özünüidarəetmə orqanları, ictimai təşkilatlar, vəzifəli şəxslər, digər fiziki və hüquqi şəxslər üçün mütləqdir və respublika ərazisində yerinə yetirilməlidir. Məhkəmə qərarının yerinə yetirilməməsi və buna bərabər məhkəməyə digər hörmətsizlik əlamətlərinə görə qanunla məsuliyyətə cəlb olunma nəzərdə tutulmuşdur.

Məhkəmə icraatı zamanı məhkəmə-tibbi ekspertiza, əsasən cinayət işlərinə birinci instansiya məhkəməsində baxılan zaman təyin edilir və aparılır. Bununla yanaşı, apelyasiya və kassasiya qaydasında cinayət işlərinə baxılarkən, məhkəmə tərəflərinin vəsatəti əsasında, CPM-nin 331-ci maddəsinə uyğun olaraq, maddi sübutları birbaşa müayinə etmək, ekspertin dindirilməyə çağırışını tələb etmək, ekspertiza təyin etmək, ekspertin və ya mütəxəssisin iştirakı ilə digər prosessual hərəkətləri təyin etmək ixtiyarındadır. Cinayət işinə nəzarət qaydasında baxılarkən məhkəmə ekspertizasının təyin olunması və aparılması CPM-də nəzərdə tutulmamışdır.

CPM-nin 26.1 maddəsinə uyğun olaraq, məhkəmə icraatı dövlət dilində (azərbaycan dilində) və ya müvafiq ərazinin əhalisinin çoxluq təşkil edən hissəsinin dilində aparılır. Mühakimə icraatının keçirildiyi

dili bilməyən və ya natamam bilən ekspertə və ya mütəxəssisə rəy, ifadə vəsatət və şikayət verə bilməsi, məhkəmədə ana dilində və ya digər bildiyi dildə ifadə verməsi, həmçinin tərcüməçinin köməyindən pulsuz istifadə edə bilməsi hüququ izah olunmalı və təmin edilməlidir. Ekspertə rəy və ya ifadə verə bilməsi üçün vacib olan sənədlər onun bildiyi dilə tərcümə olunmalıdır.

Məhkəmə ekspertizasının növlərinin icra müddəti qanunla birbaşa müəyyən edilməmişdir. Bu ekspertizanın növündən, müayinə obyektlərinin miqdarından, mürəkkəb ekspert məsələlərindən asılıdır və məhkəmə ekspert idarəsinin fəaliyyətinin onun aidiyyatı icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları ilə tənzimlənir. Lakin, CPM-də (maddə 271.1.) göstərilir: ekspertiza təyin edilməsi haqqında müstəntiqin qərarını qəbul etdiyi vaxtdan 1 (bir) aydan gec olmayaraq, ekspert zəruri tədqiqatları aparır, yazılı rəy tərtib edir, onu öz imzası ilə təsdiq edir və dərhal ekspertizanı təyin etmiş şəxsə göndərir. Meyitlərin və maddi sübutların məhkəmə-tibbi ekspertizaları icra müddətinə görə ən uzun müddətlidir. Bu da, ekspertiza qarşısında qoyulan sualların mürəkkəbliyi, ekspert tədqiqatlarının həcminin çoxluğu və müxtəlif növ laborator müayinələrin aparılması ilə bağlıdır. Lakin bu növ ekspertizalar da (xüsusi mürəkkəb ekspertizalar istisna olunmaqla) təhqiqat orqanlarından bütün lazımi materiallar alındıqdan sonra ən çox bir ay müddətində icra edilməlidir (Azərbaycan Respublikası Məhkəmə Tibbi Ekspertizaların təşkili və keçirilməsi haqqında Əsasnamə. Səhiyyə Nazirliyinin 8.02.1999-cu il tarixli 9 saylı əmri). Əgər ekspertiza ekspert idarəsindən kənarda aparılırsa, müayinənin müddəti ekspertizanı təyin etmiş şəxslə razılaşdırılır.

Məhkəmə-tibbi xidmətlə hüquq-mühafizə orqanlarının qarşılıqlı müştərək fəaliyyətinin səmərəliliyinin əhəmiyyətini nəzərə alaraq, məhkəmə-tibb ekspertinin cinayət işlərinin qanunla nəzərdə tutulmuş müddətdə aparılmasını bilməsi vacibdir. CPM-nin 218.1 maddəsinə uyğun olaraq, təhqiqat, cinayət işi qaldırıldığı gündən 10 gündən artıq olmayan müddətdə aparılır.

Cinayət işi üzrə ibtidai istintaq aşağıdakı müddətlərdə başa çatmalıdır (CPM, maddə 218.2.):

böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə - cinayət işinin başlanmasından ən geci 2 ay keçdikdən sonra (CPM, maddə 218.2.1.);

az ağır cinayətlər üzrə - cinayət işinin başlanmasından ən gec 3 ay keçdikdən sonra (CPM, maddə 218.2.2.);

ağır cinayətlər üzrə - cinayət işinin başlanmasından ən gec 3 ay keçdikdən sonra (CPM, maddə 218.2.3.);

xüsusilə ağır cinayətlər üzrə - cinayət işinin başlanmasından ən gec 4 ay keçdikdən sonra (CPM, maddə 218.2.4.).

İbtidai istintaqın müddəti cinayət işinin başlandığı gündən hesablanır, işin məhkəməyə göndərilməsi və ya icraatına xitam verilməsi haqqında qərarın çıxarıldığı gün bitir (CPM, maddə 218.3.).

Cinayət işinin mürəkkəbliyi ilə əlaqədar CPM-nin 218.2-ci maddəsi ilə müəyyən edilmiş ibtidai istintaq müddəti müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında müvafiq olaraq Azərbaycan Respublikasının Hərbi prokuroru, Bakı şəhər prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru və ya Azərbaycan Respublikası Baş prokurorunun müavini tərəfindən aşağıdakı qaydada uzadıla bilər (CPM, maddə 218.6.):

böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə - 2 aydan çox olmayan müddətə (CPM, maddə 218.6.1.);

az ağır və ağır cinayətlər üzrə - 2 aydan çox olmayan müddətə (CPM, maddə 218.6.2.);

ağır cinayətlər üzrə - 3 aydan çox olmayan müddətə (CPM, maddə 218.6.3.);

xüsusilə ağır cinayətlər üzrə - 4 aydan çox olmayan müddətə (CPM, maddə 218.6.4.).

Cinayət işinin xüsusi mürəkkəbliyi ilə əlaqədar CPM-nin 218.6-cı maddəsinə müvafiq olaraq yuxarı prokuror tərəfindən həmin iş üzrə ibtidai istintaqın uzadılmış müddəti müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun müvafiq olaraq Azərbaycan Respublikasının Hərbi prokuroru, Bakı şəhər prokuroru və ya Naxçıvan Muxtar Respublikasının prokuroru ilə razılaşdırılmış təqdimatı əsasında

Azərbaycan Respublikası Baş prokurorunun müavini tərəfindən aşağıdakı qaydada uzadıla bilər (CPM, maddə 218.7.):

böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə - 1 aydan çox olmayan müddətə (CPM, maddə 218.7.1.);

az ağır cinayətlər üzrə - 2 aydan çox olmayan müddətə (CPM, maddə 219.7.2.);

ağır cinayətlər üzrə - 3 aydan çox olmayan müddətə (CPM, maddə 218.7.3.);

xüsusilə ağır cinayətlər üzrə - 4 aydan çox olmayan müddətə (CPM, maddə 218.7.4.).

Cinayət işinin müstəsna mürəkkəbliyi ilə əlaqədar CPM-nin 218.7-ci maddəsinə müvafiq olaraq yuxarı prokuror tərəfindən həmin iş üzrə ibtidai istintaqın uzadılmış müddəti müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun müvafiq olaraq Azərbaycan Respublikasının Hərbi prokuroru, Bakı şəhər prokuroru və ya Naxçıvan Muxtar Respublikasının prokuroru, habelə Azərbaycan Respublikası Baş prokurorunun müavini ilə razılaşdırılmış təqdimatı əsasında Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən aşağıdakı qaydada uzadıla bilər (CPM, maddə 218.8.):

böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə - 1 aydan çox olmayan müddətə (CPM, maddə 218.8.1.);

az ağır cinayətlər üzrə - 2 aydan çox olmayan müddətə (CPM, maddə 218.8.2.);

ağır cinayətlər üzrə - 3 aydan çox olmayan müddətə (CPM, maddə 218.8.3.);

xüsusilə ağır cinayətlər üzrə - 6 aydan çox olmayan müddətə (CPM, maddə 218.8.4.).

CPM-nin 218.3 - 218.9-cu maddələrinin müddəalarına riayət etməklə açılmış cinayət haqqında cinayət işi üzrə ibtidai istintaq hər bir halda aşağıdakı müddətlər daxilində qurtarmalıdır (CPM, maddə 218.10):

böyük ictimai təhlükə törətməyən cinayətin törədilməsində ittiham üzrə - 6 aydan çox olmayan müddətdə (CPM, maddə 218.10.1.);

az ağır cinayətin törədilməsində ittiham üzrə - 9 aydan çox olmayan müddətdə (CPM, maddə 218.10.2.);

ağır cinayətin törədilməsində ittiham üzrə - 12 aydan çox olmayan müddətdə (CPM, maddə 218.10.3.);

xüsusilə ağır cinayətin törədilməsində ittiham üzrə - 18 aydan çox olmayan müddətdə (CPM, maddə 218.10.4.).

Təhqiqatın və ibtidai istintaqın qanunvericiliklə tənzimlənən prosessual müddətləri məhkəmə ekspertizasının aparılmasını da müvafiq vaxt çərçivəsinə salır. Təyin olunmuş ekspertizanın qeyd olunan müddətdə başa çatdırılmasının mümkün olmadığı halda yazılı olaraq ekspertizanı təyin etmiş orqan və ya şəxs bu barədə məlumatlandırılır. Onlarla razılaşdırıldıqdan sonra ekspert idarəsinin rəhbərinin və ya ekspertin müayinə müddətini artırmaq hüququ vardır. Əlavə materialların təqdim olunması ilə bağlı əsaslandırılmış ekspert sorğusunun və digər prosessual hərəkətlərin aparılmasının vacibliyi barədə əsaslandırılmış vəsatət verildikdə müvafiq orqan və şəxslər tərəfindən bu vəsatət təmin edilməzsə ekspertiza dayandırıla bilər və bu barədə rəydə qeydlər edilir.

Qanunvericilik ekspert idarəsini dövlət məhkəmə-ekspert idarəsi kimi və ya cinayət-prosessual qanunla müəyyən edilmiş qaydada məhkəmə ekspertizasının aparılması həvalə edilmiş digər idarə kimi müəyyən edir.

Dövlət məhkəmə ekspert idarəsinin məhkəmə ekspertizalarının təşkili və aparılması fəaliyyəti «Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında» Qanunla, Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə tənzimlənir və müvafiq icra hakimiyyəti orqanlarının müvafiq hüquqi normativ aktları ilə həyata keçirilir.

D.M.E.F.H.Q.-nun 23-cü maddəsinə uyğun olaraq dövlət məhkəmə-ekspert idarəsi icra hakimiyyəti orqanlarının ixtisaslaşdırılmış müəssisəsidir, məhkəmə ekspertizasının təşkili və keçirilməsi vasitəsilə məhkəmələrin, hakimlərin, təhqiqat orqanlarının, təhqiqat aparan şəxsin, müstəntiqin və prokurorların səlahiyyətlərinin yerinə yetirilməsini təmin etmək üçün yaradılmışdır. Azərbaycan Respublikasının məhkəmə-tibbi xidmət sistemində,

dövlət məhkəmə-ekspert idarəsi kimi yalnız Səhiyyə Nazirliyinin ixtisaslaşdırılmış Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi hesab olunur.

Səhiyyə Nazirliyinə tabe olmayan tibb müəssisəsində məhkəmə-tibb ekspertizasının təşkili və aparılması (məsələn; Müdafiə Nazirliyinin Mərkəzi hərbi məhkəmə-tibbi laboratoriyası), Səhiyyə Nazirliyi ilə birgə qəbul edilmiş müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktları əsasında həyata keçirilir.

Dövlət məhkəmə-ekspert idarəsinin profilini (məhkəmə-tibbi, məhkəmə-psixiatrik, məhkəmə-narkoloji və s.) müvafiq icra hakimiyyəti orqanları təyin edir. Eyni profilli məhkəmə ekspert idarələri məhkəmə ekspertizasının təşkili və aparılması fəaliyyətini ekspert praktikasına, ekspertlərin professional hazırlığı və ixtisaslaşdırılmasına vahid elmi-metodik yanaşma əsasında həyata keçirir. Qanunun bu tələbi hüquqi normativ sənədlərlə dövlət məhkəmə-tibbi xidmətin təşkilati strukturu çərçivəsində, ekspert metodikalarının və nümunəvi diaqnostik alqoritmlərin standartlaşdırılması, ekspertlərin ixtisaslaşdırılması və yenidən hazırlaşdırılmasının qəbul edilmiş ümumi tələbləri ilə təmin edilir.

Dövlət məhkəmə-ekspert idarəsinin fəaliyyəti dövlət büdcəsindən maliyyələşir (D.M.E.F.H.Q. maddə 38). Dövlət məhkəmə-ekspert idarəsi müvafiq icra hakimiyyəti tərəfindən müəyyən edilmiş inzibati ərazidə yerləşən təhqiqat orqanları, ibtidai istintaq və məhkəmələr üçün məhkəmə ekspertizasını mütləq qaydada həyata keçirir. Əgər dövlət məhkəmə ekspert idarəsinin xidmət göstərdiyi inzibati ərazidə məhkəmə ekspertizasının (konkret ixtisas üzrə eksperti, lazımi maddi-texniki baza və ya tədqiqatların aparılması üçün şərait olmadıqda) aparılması mümkün deyilsə, həmin ekspertiza dövlət məhkəmə-ekspertiza idarəsinin digər ərazidə xidmət göstərən struktur şöbələri tərəfindən aparıla bilər.

Dövlət məhkəmə-ekspert idarələri müqavilə əsasında vətəndaşlar və hüquqi şəxslər üçün, ekspert müayinələrinin, vətəndaş və arbitraj işləri, inzibati qanun pozuntulu işlər üzrə məhkəmə ekspertizalarının aparılması (ekspert idarəsinə ekspert işinin müqavilə əsasında ödənilməsi şərti ilə) hüququna malikdir. Ekspert işinin ödənişli

qaydası müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilir.

Ekspert və mütəxəssis işinin maddi ödənilməsi CPM-nin 97.6.7. və 97.6.8-ci maddələrinə əsasən mümkündür. Bu norma, ekspertlərə və mütəxəssislərə prosessual hərəkətlər aparılan yerə getmə və yaşama (çağırış yerinə getmə və qayıtma qiyməti, kirayə tutma və gündəlik xərcləri) ilə əlaqədar ödənilən xərcləri, həmçinin, xidməti tapşırıq qaydasında yerinə yetirilən vəzifələr istisna olmaqla, cinayət mühakimə icraatı gedişində yerinə yetirdikləri vəzifələrin mükafatlandırılmasını prosessual ödənilən məbləğ kimi qəbul edir. Qeyd olunan məbləğ təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmənin qərarı ilə ödənilir.

2000-ci ildə Azərbaycan Respublikasının dövlət məhkəmə ekspertizası fəaliyyətinin qanunvericiliyində əsaslı dəyişikliklər baş verdi. «Dövlət məhkəmə ekspertiza fəaliyyəti haqqında» Qanunun və yeni Cinayət-Prosessual Məcəllənin qüvvəyə minməsi məhkəmə-tibbi ekspertiza fəaliyyətinin yeganə ixtisaslaşdırılmış dövlət məhkəmə-tibbi ekspertiza idarəsi olan Səhiyyə Nazirliyinin «MTE və PA» Birliyi tərəfindən həyata keçirilməsini müəyyənləşdirdi. Dövlət məhkəmə ekspertiza idarələrinin (məhkəmə-tibbi, məhkəmə psixiatrik və məhkəmə narkoloji) fəaliyyətlərinin həmin Qanun və Məcəllənin müddəalarının tələblərinə müvafiq olaraq düzgün və dürüst uyğunlaşdırılması barədə Səhiyyə Nazirliyi tərəfindən 27.11.2000-ci il tarixdə 108 saylı əmr verildi:

Tibb müəssisələrinin rəhbərlərinə, Səhiyyə Nazirliyinin bütün baş mütəxəssislərinə dövlət məhkəmə ekspertiza idarəsindən kənarda hər hansı bir formada məhkəmə-tibbi müayinələr (ekspertizalar) aparmaqla dövlət məhkəmə-ekspertiza idarəsinin fəaliyyətinin həyata keçirməyi, məhkəmə ekspertiza idarəsinin rəhbərindən başqa hər-hansı şəxsdən və ya orqandan məhkəmə-tibbi ekspertizanın aparılması haqqında tapşırıq almağı, başqa idarənin əməkdaşı qismində, həmçinin özəl ekspert kimi məhkəmə ekspertizası fəaliyyətini həyata keçirməyi, ekspert rəylərini (aktlarını) ekspert idarəsinin möhüründən başqa hər-hansı bir möhürlə təsdiqlənməsi qadağan edildi; III instansiyada təkrari məhkəmə-tibbi ekspertizaların

aparılması haqqında qayda qüvvəsini itirmiş hesab edildi. Hal-hazırda Respublikamızda qanunvericiliyə müvafiq olaraq məhkəmə-tibbi ekspertizanın təşkil edilməsi, aparılması, ekspertizanın icra müddətinə və keyfiyyətinə nəzarət, məhkəmə ekspertiza fəaliyyətinin yoxlanılması, təkrari, kompleks, komisyon və s. ekspertizaların təşkili və icrası, ekspertlərin digər istintaq hərəkətlərində iştiraklarının təmin olunması və məhkəmə-tibb ekspertizasının xidmətinə dair digər işlərin həyata keçirilməsi mərkəzləşdirilmiş qaydada Birliyin Baş direktoru tərəfindən nizamlanılır.

Məhkəmə ekspertizasının dövlət məhkəmə-ekspert idarəsində aparılmasının bir sıra üstünlükləri var. Burada, müvafiq xüsusi biliyə yiyələnmiş, tədqiqatın nəticələrinin prosessual formalaşdırılmasında təşkilati məsələlər üzrə suallara dair təcrübəli mütəxəssislər işləyir və ekspert idarəsi lazımi maddi texniki bazaya malikdir. Komisyon ekspertizaların təşkili və aparılması imkanı, ekspertlərin attestasiyasının keçirilməsi və kadr hazırlığı sistemi var. Ekspertizaların keyfiyyətinə və müddətinə mütəmadi nəzarət edilir, ekspertizalar və tədqiqatlar müvafiq ərazinin hüquq-mühafizə orqanları üçün mütləq və pulsuz aparılır.

Azərbaycan Respublikası qanunvericiliyinə görə məhkəmə-ekspertizasının 5 növü vardır: ilkin, əlavə, təkrar, komisyon və kompleks.

İlkin ekspertiza - ekspert rəyi tərtib edilməklə obyektin ilkin müayinəsidir. İlkin ekspertizanı bir qayda olaraq ekspert tək aparır. Lakin, xüsusi ağır və məsuliyyətli hallarda ilkin ekspertiza komisyon qaydada ekspertlər qrupu tərəfindən aparıla bilər.

Əlavə ekspertiza - ekspert rəyi kifayət qədər dolğun olmadıqda, ekspert qoyulmuş sualları tam həll etmədikdə, həmçinin cinayət işi ilə əlaqədar tədqiq olunmuş şəraitlə bağlı yeni suallar yarandıqda təyin olunur. Əlavə ekspertiza ilkin icraçı ekspertə və digər ekspertə; ilkin ekspert komissiyasına və digər ekspert komissiyasına həvalə edilir.

Təkrar ekspertiza - əvvəl verilmiş ilkin və əlavə ekspert rəyinin düzgünlüyünə və əsaslandırılmasına şübhə olduqda, ekspert və ekspertlərin rəyində ziddiyyət olduqda təyin edilir. Təkrar ekspertizaların təyin olunmasına daha çox, ekspertin nəticələri ilə

digər aşkar olunmuş iş şəraiti arasında ziddiyyətin olması, istintaqın gedişində əvvəl verilmiş ekspert nəticələrinə təsir edə biləcək yeni məlumatların aşkar olunması, aparılmış müayinələrin tam olmaması, təsdiq olunmamış metodikalardan istifadə, ekspert nəticəsi ilə tədqiqi hissənin uyğunsuzluğu, ekspertizanın təyin olunmasında, aparılmasında və ekspert rəyinin tərtib olunmasında əhəmiyyətli cinayət-prosessual pozğunluqlarına yol verilməsi əsas olur.

«Rəyin əsaslandırılması» anlayışı ilə (ona şübhə olduqda təkrar ekspertizanın təyin olunmasına əsas verir), «nəticənin əsaslandırılması» anlayışını eyniləşdirmək düzgün deyil. Nəticənin əsaslandırılması tələbi CPM-də öz əksini tapmışdır (maddə 267.4.). Səbəb göstərilmədikdə və ya az olduqda, nəticənin natamam arqumentləşdirilməsi ekspertin dindirilməsi yolu ilə aradan qaldırıla bilər.

İbtidai istintaq zamanı əlavə və təkrar məhkəmə ekspertizalar CPM-nin 267-ci maddəsinə müvafiq qaydada təyin edilir. Müəyyən olunan hüquqi normaların məzmununa uyğun olaraq, əlavə və təkrar ekspertizaların təyin olunması, onların icrasına əsas olsa belə, müstəntiq, təhqiqatçı və məhkəmə üçün mütləq deyil.

Məhkəmə istintaqının gedişində əlavə və təkrari ekspertiza məhkəmənin təşəbbüsü və ya tərəflərin vəsatəti ilə o halda təyin edilir ki, rəyin natamamlığı və tam aydın olmamasını və ekspert rəyləri arasındakı ziddiyyəti məhkəmə icraatı zamanı ekspertin və ekspert komissiyasının dindirilməsi yolu ilə aradan qaldırmaq mümkün olmur (CPM, maddə 331.3.).

Məhkəmə ekspertizası növündən asılı olaraq, bir ekspert (təkbaşına) və ekspert qrupu (komisyon) tərəfindən aparıla bilər.

Komisyon məhkəmə ekspertizanın keçirilməsi CPM-nin 265-ci və D.M.E.F.H.Q.-nun 19-cu maddələrində nəzərdə tutulmuşdur. Bu ekspertiza eyni və ya müxtəlif ixtisas üzrə sayı iki nəfərdən az olmayan ekspertlər tərəfindən aparılır. Müxtəlif ixtisaslı ekspertlər tərəfindən aparılan ekspertiza kompleks statusu daşıyır (CPM, maddə 266). Komisyon və kompleks ekspertizaların ümumi əlamətləri ekspertlər arasında aparılacaq tədqiqatların həcmi və ardıcıllığının razılaşdırılmasının vacibliyindən, komissiyanın hər bir üzvünün öz

səlahiyyəti çərçivəsində müstəqil və asılı olmadan tədqiqatlar aparmasından ibarətdir. Kompleks ekspertizanın xarakterik xüsusiyyətləri, onun icrasına müxtəlif ixtisaslı mütəxəssislərin cəlb olunması ilə yanaşı, həm də komissiya qarşısında qoyulmuş sualların həllinin heç olmazsa, bir hissəsinin komissiyanın ayrı-ayrı üzvlərinin səlahiyyətindən kənara çıxmasından və (ya) müxtəlif ixtisaslı mütəxəssislərin tədqiqatlarının nəticələrindən birgə istifadə olunmasından ibarətdir.

Ekspertin «ixtisası» anlayışı CPM-də və D.M.E.F.H.Q.-da verilmiş terminlər arasında yoxdur. Bu hal müxtəlif fikir ayrılığına, o cümlədən ekspert komissiyasının tərkibini müəyyən edəndə prosessual çətinliyə səbəb olur. Dolayısı ilə, «ixtisas» anlayışının məzmunu haqda CPM-nin və D.M.E.F.H.Q.-nun bəzi maddələrinə görə mülahizə yürütmək olar.

Cinayət-prosessual qanunun normaları «mütəxəssisi» və «eksperti» «xüsusi biliyə malik şəxs» kimi müəyyən edir. Həmin normalar mühakimə icraatının bu iştirakçılarının prosessual statusunun fərqini isə iş üzrə ekspert təyin olunması (və ya mütəxəssis qismində cəlb olunmasına) məsələlərinə və onların funksiyalarının ayrılmasına yönəldir. CPM-nə görə «xüsusi biliyə malik» şəxs kimi mütəxəssis və ekspert arasında fərq, yalnız hansı prosessual məsələlərin həll edilməsinə birinin ya da digərinin təyin olunmasındadır.

CPM «xüsusi biliklər» haqqında ümumi formada olsa belə, «ixtisas» anlayışına ümumiyyətlə aydınlıq gətirmir. Mütəxəssis elə xüsusi biliklərə malikdir ki, həmin biliklər ona müəyyən şəraitdə müstəntiqin və ya məhkəmənin qərarına əsasən ekspertiza aparmağa imkan verir. Dövlət məhkəmə-ekspert idarəsinin ştatlı ekspertləri də CPM-nin 96-cı maddəsində göstərilmiş mütəxəssisin funksiyalarını yerinə yetirə bilər.

CPM-də və D.M.E.F.H.Q.-da aydınlıq verilmədiyi üçün lüğətdəki məlumatlara görə mütəxəssislərin eyni ixtisaslı olmasını elmin eyni bir sahəsindən olmasına aid etmək olar. Bununla yanaşı, rəsmi sənədlərdə, xüsusən, Səhiyyə Nazirliyinin əmrlərində «ixtisas» haqqında digər məlumatlar nəzərdə tutulub. Səhiyyə müəssisələrində

aşağıdakı əsas ixtisaslar ayırd edilir: müalicə işi; pediatriya; tibbi-profilaktik iş; stomatologiya; əczaçılıq. Səhiyyə müəssisələrində rəsmi qəbul edilən bu ixtisaslar, dövlət ali təhsil standartları ilə təsdiq olunmuş diplomlu mütəxəssislərin hazırlanma istiqamətlərinin siyahısına uyğundur.

Səhiyyə müəssisələrindəki digər «ixtisaslara» əsas ixtisasın bir hissəsi olan «ixtisaslaşma» kimi baxılmalıdır. İxtisaslaşma, əsas ixtisasın müvafiq profili üzrə daha dərin biliyin, bacarığın və vərdişlərin öyrənilməsi məqsədini nəzərdə tutur. Məsələn, məhkəmə-tibbi ekspertiza, terapiya, cərrahiyyə və digərləri - əsas tibbi ixtisas olan «müalicə işi»; uşaq cərrahiyyəsi və neonatologiya - əsas ixtisas olan «pediatriya» çərçivəsində ixtisaslaşmaya aiddir.

Hüquqi normalara əsasən ekspert komissiyasının tərkibi məhkəmə tibbi eksperti və bir «müalicə işinin» mütəxəssisindən (cərrahdan, nevropatoloq və ya travmatoloq) ibarət ola bilər. Eyni zamanda əgər ekspert komissiyasına digər «tibbi ixtisas» nümayəndəsinin ekspert qismində cəlb edilməsi (pediatr, əczaçı, stomatoloq, tibbi-profilaktika işi) vacibdirsə, bu zaman ekspert komissiyasına «müalicə işi» sahəsindən başqa digər bir mütəxəssis də (pediatr, stomatoloq və s.) cəlb olunur.

«İxtisas» termininin daha geniş açıqlanması, onun bütün «həkim ixtisaslarına» tətbiq olunması, «komisyon» və «kompleks» ekspertizalar anlayışının yerdəyişməsinə gətirib çıxara bilər. Məsələn, məhkəmə tibb ekspertinin və müalicə işi mütəxəssisinin (cərrahın, nevropatoloq, oftalmoloq və s.) iştirakı ilə ekspertizalara kompleks kimi baxılmalıdır. Komisyon ekspertiza «sahəsi» isə məhkəmə-tibbi ekspertizanın digər sahələrindən birinin mütəxəssislərinin (tanatoloq, tibbi-kriminalist və s.) iştirakına qədər daralır.

Təbabətin ümumi inkişaf ənənələri biliyin hər bir vaxt differensasiyalı dərinləşməsi ilə bağlıdır. Məlumdur ki, cərrahların içərisində çoxdan torakal cərrahiyyə mütəxəssisləri mövcuddur. Torakal cərrahiyyənin sonrakı ixtisaslaşması kardiocərrahların (ürəkdə əməliyyat edən mütəxəssislər) və pulmonoloqların (ağ ciyərlərdə əməliyyat aparan mütəxəssislər) yaranmasına gətirib çıxarmışdır. Lakin, biliklərin differensasiyası mütəmadi

dərinləşməkdə davam etdiyi üçün kardiocərrahlar arasında donor və süni ürək köçürən və ürəyin irinli-septiki xəstəliklərini cərrahi müalicə edən mütəxəssislər formalaşmışdır. Bununla yanaşı həkimlərin hamısı təbabətin mütəxəssisləridir.

Komisyon məhkəmə ekspertizası dövlət məhkəmə ekspert idarəsində aparılırsa, onun aparılmasının təşkili həmin idarənin rəhbərinə, kompleks ekspertizada isə bir neçə dövlət məhkəmə ekspert idarələrinin rəhbərlərinə həvalə edilir. Ekspert idarəsinə təyin edilmiş komisyon və kompleks ekspertizanın icrasına həmin idarənin əməkdaşı olmayan mütəxəssis cəlb olunursa, mütəxəssisin hüquq və vəzifələri ilə tanış edilməsi, bilə-bilə yalan rəy verməyə görə cinayət məsuliyyəti daşıması barədə iltizam alınması ekspertizanı təyin etmiş şəxs və ya ekspert idarəsinin rəhbəri tərəfindən həyata keçirilir.

Ekspertizanın komisyon xarakterli olmasını müstəntiq və ya ekspertizanın aparılması həvalə edilmiş ekspert idarəsinin rəhbəri müəyyən edir (CPM, maddə 265.4). Bundan başqa, məhkəmə-tibbi fəaliyyəti tənzimləyən Səhiyyə Nazirliyinin müvafiq əmrlərində müəyyən növ ekspertizaların komisyon qaydada aparılması məsləhət görülmüşdür. Bəzi ekspertizalar isə Birliyin Baş direktorunun tapşırığına əsasən komisyon qaydada icra edilir.

Bu ekspertizalara aşağıdakı halları aid etmək olar:

1. qətl və ya qətlə şübhə olduqda;
2. xarici ölkə vətəndaşının meyitinin ekspertizası;
3. ekshumasiya olunmuş meyitlərin ekspertizası;
4. kriminal olaraq hissələrə bölünmüş meyitlərin ekspertizası (bədənin ayrı-ayrı hissələri olmadıqda);
5. kütləvi fəlakətin, o cümlədən məişət travması qurbanlarının ekspertizaları;
6. tibbi yardımın göstərilməsi qaydalarının pozulması nəticəsində zərərçəkmişin ekspertizası;
7. zərərçəkmişin aldığı travmaların onda olan xəstəliyə təsir xarakterinin müəyyən edilməsinin vacibliyi ekspertizaları;
8. psixi pozğunluqlarla, narkomaniya və ya toksikomaniyanın inkişafı ilə nəticələnmə hallarında sağlamlığa zərərvurma dərəcəsinin təyini ekspertizalarında;

9. sağlamlıq vəziyyətinin təyini ekspertizaları;
10. Dövlət əhəmiyyətli ilkin ekspertizalar;
11. əmək qabiliyyətinin dayanıqlı itirilməsinin təyini ekspertizaları.

Göstərilən siyahı şəraitdən asılı olaraq dəyişə bilər. Ekspertizaların birincili olaraq komisyon qaydada icra edilməsi üçün ümumi əsas, onların mürəkkəbliyi, icra olunmasına müxtəlif ixtisaslı ekspertlərin cəlb olunmasının vacibliyi və onun sosial əhəmiyyəti hesab olunur.

Ekspertin dövlət ekspert idarəsinin rəhbərinin və ekspertizanı təyin etmiş şəxsin qarşısında, ekspertizanın aparılmasına digər ixtisasdan olan mütəxəssisin cəlb edilməsi, yəni faktiki olaraq komisyon qaydada yerinə yetirilməsi barədə vəsatət vermək hüququ vardır (CPM, maddə 97.6.; D.M.E.F.H.Q. maddə 12).

Komisyon ekspertizanın icra edilməsi zamanı ekspertlər öz aralarında istintaq tərəfindən qarşıya qoyulmuş suallara cavab verilməsi üçün ekspertizanın məqsədi, ardıcıllığı və aparılacaq tədqiqatların həcmi barəsində razılığa gəlirlər. Ekspertizanın başlanmasından əvvəl ekspertlərin məsləhətləşmə keçirilməsi məqsədəuyğundur.

Komissiya tərkibinə daxil olan ekspertlərin hamısı eyni vəzifəyə, hüquqa malikdirlər və eyni dərəcədə məsuliyyət daşıyırlar. Komissiyanın tərkibində olan hər bir ekspert müstəqil, sərbəst və tam həcmdə tədqiqatlar aparır. Ekspertlərdən biri rəhbər (təşkilatçı) ekspert rolunu yerinə yetirə bilər. Onun prosessual funksiyaları digər ekspertlərin funksiyalarından fərqlənmir. Komissiyanın tərkibindən sədr və ya aparıcı-ekspertin ayrılması qanunvericilikdə nəzərdə tutulmayıb.

Məhkəmə ekspertizası eyni ixtisaslı ekspert komissiyası tərəfindən aparıldıqda, analiz və nəticələrin qiymətləndirilməsi, tədqiqatı şəxsən apararaq, müvafiq nəticələr almış ekspert tərəfindən və ya digər ekspertlərlə birlikdə aparıla bilər.

Müxtəlif ixtisaslı ekspertlər tərəfindən komisyon ekspertizanın aparılması zamanı həkimlər, kriminalistlər, mühəndislər və digər mütəxəssislər (kompleks ekspertiza), onların hər biri öz xüsusi bilikləri sərhədində tədqiqatlar aparır. Kompleks məhkəmə

ekspertizasının icrasında iştirak etmiş hər bir ekspert, ekspert rəyində apardığı tədqiqatları və onun həcmini, aşkar etdiyi faktları və hansı nəticələrə gəlməsini göstərir. Kompleks məhkəmə ekspertizasının icrasında iştirak etmiş hər bir ekspert, rəyin ancaq onun tərəfindən aparılmış tədqiqatlar olan hissəni imzalayır və ona görə məsuliyyət daşıyır.

Kompleks məhkəmə ekspertizasını aparan komissiyanın tərkibinə daxil olan və alınmış nəticələrin qiymətləndirilməsinə səlahiyyəti olan eyni ixtisaslı ekspertlər ümumi nəticə tərtib edə bilərlər. Əgər ümumi nəticəyə gəlinməsinə əsas, bir və bir neçə ekspertin aşkar etdiyi faktlar olmuşsa, bu rəydə göstərilməlidir. Əgər eyni ixtisaslı ekspertlər arasında fikir ayrılığı olarsa, onda kompleks ekspertizanın nəticələri CPM-nin 265.2 maddəsinə və D.M.E.F.H.Q.-nun 19 və 20-ci maddələrinə uyğun olaraq tərtib edilir, yəni onların hər biri və ya digərləri ilə razılaşmayan ekspert fikir ayrılığına səbəb olmuş suala dair ayrıca rəy verir.

Çoxillik ekspert təcrübəsi göstərir ki, bəzi hallarda istintaq-məhkəmə orqanları meyitin məhkəmə-tibbi ekspertizasının nəticələrini ekspert komissiyasının bir rəydə tərtib olunmasını tələb edir. Onlar ekspertizanın bir neçə məhkəmə tibb eksperti tərəfindən aparıldığına istinad edirlər. Bu tələb, CPM-nin müvafiq normaları ilə formal uyğunlaşsa da, ekspert rəyinin tərtib olunmasında ciddi təşkilati çətinliklər yaradır və ekspertizanın icra müddətinin uzanmasına səbəb ola bilər. Fikrimizcə, bütün prosessual tələblərə əməl etməklə təcrübədə qəbul edilmiş, laborator tədqiqatların nəticələrinin (tibbi-kriminalistik, məhkəmə-histoloji və s.) ayrı-ayrı rəylərdə (tədqiqat aktları ilə deyil) tərtib olunması ilə meyitin ekspertizasının icra olunması qaydası daha məqsədəuyğundur.

2.3. Məhkəmə-tibb ekspertinin prosessual vəziyyəti.

Məhkəmə ekspertizasını cinayət-mühakimə icraatının xüsusi subyekti - ekspert aparır. CPM-nin 97-ci maddəsinə uyğun olaraq məhkəmə ekspertizasını xüsusi biliyə malik dövlət məhkəmə-ekspertiza idarəsinin ekspertləri apara bilər.

Birinci fəsildə CPM-də «ekspert» anlayışına müasir aydınlıq verilmişdir. D.M.E.F.H.Q.-nun 11-ci maddəsi məhkəmə-ekspertinin dövlət statusuna tətbiq oluna biləcək halları dəqiqləşdirir: «Dövlət məhkəmə eksperti dövlət məhkəmə-ekspertiza idarəsinin attestasiya olunmuş işçisi olub, öz vəzifə borclarının icrası qaydasında məhkəmə ekspertizasını aparır». Dövlət ekspert idarəsində işləməyən və məhkəmə ekspertizasının icrasına cəlb olunmuş şəxsə də, ekspertizanın icra müddətində dövlət məhkəmə-ekspert statusu tətbiq edilir. Belə hallarda müvəqqəti əmək müqaviləsinin bağlanması məqsədəuyğundur. Ekspertizanın icrasına cəlb olunmuş şəxsin əmək haqqının ödənilməsi ilə yanaşı, onun vəzifə borcları da nəzərdə tutulmalıdır.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin dövlət məhkəmə-tibbi ekspert idarəsində ekspert vəzifəsini ali tibbi təhsili və ya digər peşə təhsili olan və sonradan konkret ekspert ixtisası üzrə hazırlıq keçmiş və Səhiyyə Nazirliyinin normativ hüquqi aktları ilə müəyyən olunmuş qaydada bu profil üzrə sərbəst məhkəmə ekspertizası keçirmək hüququ almış Azərbaycan Respublikasının hər bir vətəndaşı tuta bilər. Ekspertin sərbəst ekspertiza aparması üçün əsas, Birliyin Baş direktorunun əmridir. Ekspertin attestasiyası haqqında qanunun tələbini belə başa düşmək lazımdır.

Məhkəmə tibbi ekspertiza və patoloji anatomiya Birliyinin ekspertlərinin peşəkar hazırlıq səviyyəsinin müəyyən edilməsi və onların ixtisas dərəcələrinə görə attestasiyası, Səhiyyə Nazirliyinin normativ hüquqi aktlarının müəyyən etdiyi qaydada həyata keçirilir. Ekspertlərin peşəkar hazırlıq səviyyəsinə hər beş ildən bir

baxılmalıdır. İxtisas kateqoriyasının olmaması eksperti ekspertiza aparmaq hüququndan məhrum etmir.

Ekspertin prosessual vəziyyəti, qanunla onun üzərinə qoyulmuş vəzifələrlə, ona verilmiş hüquq və məsuliyyəti ilə müəyyən edilir. Göstərilən üç element ekspertin sərbəst və müstəqilliyi üçün, həmçinin ekspert rəyinin tam və obyektivliyi üçün zəmanətdir (CPM, maddə 97, D.M.E.F.H.Q. maddə 12 və 13; CM, maddə 297).

D.M.E.F.H.Q.-nun 13-cü maddəsinə müvafiq olaraq, aşağıda göstərilənlər dövlət ekspertinin borcudur:

- dövlət məhkəmə-ekspert idarəsinin rəhbəri tərəfindən ona həvalə edilmiş məhkəmə ekspertizasını icraata qəbul etməli;
- ona təqdim olunmuş bütün obyektlər və iş materialları üzrə tam tədqiqat aparmalı;
- obyektlərin hissəvi və ya tam məhvinə ya da xarici görünüşünün və ya əsas xassələrinin dəyişməsinə səbəb ola biləcək tədqiqatların aparılmasının mümkünlüyünü təhqiqatçı, müstəntiq və ya hakimlə razılaşdırmalı;
- qarşısına qoyulmuş suallara müvafiq əsaslandırılmış və obyektiv rəy verməli;
- əgər qarşıya qoyulmuş suallar ekspertin xüsusi bilik səviyyəsindən kənara çıxarsa, tədqiqat obyektivləri tədqiqatlar aparılması və rəy verilməsi üçün yararsız haldadırsa və ya kifayət etmirsə, eləcə də elmin hazırkı inkişafı qarşıya qoyulmuş suallara cavab verilməsinə imkan vermirsə, rəy verilməsinin mümkünsüzlüyü barədə əsaslandırılmış yazılı məlumat tərtib etməli və bu məlumatı məhkəmə ekspertizasını təyin etmiş orqana və ya şəxsə göndərməli, ekspert ekspertizanın aparılmasının mümkünsüzlüyü barədə ekspert idarəsinin rəhbəri ilə məsləhətləşməlidir. O, ekspertin əsası ilə razılaşıb-razılaşmaya bilər. Sonuncu halda idarənin rəhbəri ekspertizanı icra etməsini ekspertdən tələb etmək hüququna ya da həmin ekspertizanın aparılmasını digər ekspertə və ya ekspert komissiyasına həvalə etmək hüququna malikdir ;
- məhkəmə ekspertizasının aparılması zamanı ona məlum olan məlumatları, o cümlədən vətəndaşların konstitusiya hüquqlarını

məhdudlaşdıran məlumatları, həmçinin qanunla qorunan dövlət və kommersiya sirlərini yaymamalı;

- təqdim olunmuş tədqiqat obyektlərinin və iş materiallarının saxlanılmasını təmin etməli.

Ekspert Azərbaycan Respublikasının prosessual qanunvericiliyində göstərilən əsaslar mövcud olduqda, məhkəmə ekspertizasının aparılmasında iştirakdan öz-özünə etiraz etməlidir, məhkəmə ekspertizası ona tapşırıldıqda isə onun aparılmasını dərhal dayandırmalıdır (CPM maddə 118; D.M.E.F.H.Q. maddə 24).

Aşağıdakı hallarda ekspertdən imtina edilir:

- hazırkı işin icrasında əvvəl, zərərçəkmiş, mülki iddiaçı, mülki cavabdeh və ya şahid qismində iştirak etmişsə (işdə ekspert və ya mütəxəssis kimi əvvəlki iştirakı, ekspertdən imtina etməyə əsas vermir);
- hazırkı işlə əlaqədar iştirakçılardan hansı birininsə yaxın qohumu olduqda;
- ekspertin səlahiyyətli olmaması aşkar olunarsa;
- tərəflərdən və ya onların nümayəndələrindən xidməti və ya digər asılı olduqda;
- hazırkı cinayət işinin nəticəsi ilə şəxsən, birbaşa və dolayısı ilə maraqlı olmalarına əsas verən digər hallarda;
- ekspertiza təyin edilməmişdən əvvəl, məhkəmə ekspertizası aparılacaq canlı şəxsə tibbi yardım göstərmişsə.

Bu əsaslara görə şübhəli, təqsirləndirilən şəxslər, onların qanuni nümayəndələri, müdafiəçi, dövlət ittihamçısı, zərərçəkmiş, mülki iddiaçı, mülki cavabdeh və onların nümayəndələri tərəfindən ekspertə etiraz edilə bilər. Cinayət işi üzrə məhkəməyə qədər icraatın gedişində ekspertə etiraz edilmə barədə qərarı təhqiqatçı, müstəntiq və ya prokuror, məhkəmə icraatında isə məhkəmə və ya hakim tərəfindən qəbul edilir (CPM, maddə 118.3.).

Ekspert dindirilməyə çağırıldıqda, təhqiqatı aparan şəxsin, müstəntiqin, prokurorun və ya məhkəmənin çağırışı ilə təyin olunmuş müddətdə mütləq gəlməlidir və ya gəlməməyinin səbəbi barədə əvvəlcədən məlumat verməlidir.

Ekspertin hüquqları CPM-nin 97.6 maddəsində və D.M.E.F.H.Q.-nun 12-ci maddəsində əks olunmuşdur. Bundan başqa ekspertin ayrı-ayrı hüquqları CPM-nin və D.M.E.F.H.Q.-nun digər maddələrində də göstərilmişdir.

Ekspertin aşağıdakı hüquqları vardır:

– ekspertiza predmetinə aid olan iş materialları ilə tanış olmaq;

– rəy verilməsi üçün əlavə lazımi materialların təqdim olunması, prosessual hərəkətlərin aparılması barədə, öz qanuni maraq və hüquqlarını təmin etmək barədə cinayət işi üçün məna kəsb edən halların müəyyən olunması üçün prosessual nəticələrin qəbul edilməsi barədə ekspertizanı təyin edən orqan və ya şəxs qarşısında vəsatət vermək;

– dövlət məhkəmə ekspert idarəsinin rəhbəri və ekspertizanı təyin etmiş orqan və ya şəxs qarşısında ekspertizanın icrasına, əgər tədqiqatların aparılması və rəy verilməsi üçün vacibdirsə, digər ekspertlərin cəlb olunması barədə vəsatət qaldırmaq;

– təhqiqatı aparan şəxsin, müstəntiqin, prokurorun və ya məhkəmənin icazəsi ilə prosessual hərəkətlərdə iştirak etmək və ekspert tədqiqatının predmetinə aid suallar vermək;

– öz səlahiyyəti daxilində rəy vermək, o cümlədən məhkəmə ekspertizasının təyin edilməsi barədə qərarda qarşıya qoyulmamış, lakin predmetinə aid olan suallara dair rəy vermək;

– istintaq hərəkətlərinin və ya məhkəmə iclasının protokollarında onun rəy və ya ifadələrinin proses iştirakçıları tərəfindən düzgün qeyd olunmaması barədə ərizə vermək, həmçinin istintaq hərəkətləri dəqiqləşdirilməsi və əlavə edilməsi barədə iradlar etmək;

– məhkəmə ekspertizanı təyin etmiş orqan və ya şəxs, ekspertin hüquqlarını pozarsa, onların hərəkətləri (hərəkətsizliyi) barədə, qanunla müəyyən olunmuş qaydada şikayət vermək;

– məhkəmə iclasının gedişində həll edilməsi üçün ekspert qarşısında qoyulacaq suallar barədə fikrini bildirmək;

– məhkəmənin və tərəflərin suallarına cavab verilməsi üçün hazırlaşmaya vaxt verilməsi barədə vəsatət vermək;

– komisyon və kompleks ekspertizaların fikir ayrılığına səbəb olmuş sual üzrə ayrıca rəy vermək;

– tədqiqatı dayandırmaq və ekspertə ekspertizanın aparılmasında mane olan istənilən proses iştirakçısının iştirak etməsi üçün icazənin ləğv olunması barədə ekspertizanı təyin etmiş orqan və ya şəxs qarşısında vəsatət vermək;

– məhkəmə ekspertizası təyin edilmiş şəxsin tibbi stasionarda qalma müddətinin uzadılması barədə vəsatət vermək;

– qoyulmuş suallar onun xüsusi biliyi (səlahiyyəti) çərçivəsindən kənara çıxırsa, o cümlədən əgər o hesab edir ki, ekspertizanın icra edilməsi üçün lazımi biliyə malik deyil və ya əgər təqdim olunmuş materiallar rəy verilməsi üçün kifayət etmirsə və ekspertə əlavə materialların təqdim olunmasından imtina edilibsə, rəy verməkdən imtina etməklə qərarı icrasız geri qaytarmaq;

– tərcüməçi səlahiyyətsiz olduqda, ondan imtina barədə vəsatət bildirmək;

– cinayət işi aparılan dili bilmirsə, digər dildə ifadə vermək;

– prosessual hərəkətlərin aparılma yerinə gəlməsinə və qalmasına görə sərf olunmuş xərclərin ödənilməsini tələb etmək, həmçinin mühakimə icraatının gedişində öz vəzifəsinin icrasına görə mükafat almaq (xidməti tapşırıqların yerinə yetirilməsi halları istisna olmaqla).

Ekspertin prosessual hərəkətlərin aparılması haqda vəsatət vermə, ona baxılma və icazə vermənin prosessual qaydası və ya cinayət işi üçün əhəmiyyətli olan halların müəyyən edilməsi üçün prosessual qərarların qəbul edilməsi və onun qanuni hüquqlarının təmin olunması CPM-nin müvafiq maddələri ilə müəyyən olunur.

Vəsatət ekspert tərəfindən təhqiqatçıya, müstəntiqə, prokurora və ya məhkəməyə verilir. Vəsatət cinayət işinin icrası zamanı istənilən vaxt verilə bilər. Yazılı vəsatət cinayət işinə tikilir, şifahi isə istintaq hərəkəti və ya məhkəmə iclasının protokoluna əlavə edilir. Vəsatətin qəbul olunmaması, eksperti onu yenidən bildirməsi hüququndan məhrum etmir.

Vəsatətə baxılması və həll olunması, vəsatəti verdikdən sonra olur. Əgər ibtidai araşdırma zamanı verilmiş vəsatəti təcili həll etmək mümkün deyilsə, onda müəyyənləşdirilmiş gündən gec olmayaraq həll edilməlidir. Vəsatət təmin edildikdə, tam və ya hissəvi imtina edildikdə təhqiqatçı, müstəntiq, prokuror, hakim qərar çıxarır və ekspertin nəzərinə çatdırır.

CPM-nin tələblərinə görə, ekspertə bunları etmək qadağandır:

– müstəntiqin və məhkəmənin xəbəri olmadan məhkəmə ekspertizasının icrası ilə bağlı suallarla dair cinayət mühakimə icraatının iştirakçıları ilə danışıqlar aparmaq;

– ekspert tədqiqatı aparmaq üçün özü sərbəst materiallar toplamaq;

– təhqiqatçının, müstəntiqin, hakimin icazəsi olmadan obyektlərin tam və ya hissəvi ləğvi, xarici görünüşü və ya əsas xüsusiyyətlərinin dəyişməsi ilə nəticələnə biləcək tədqiqatlar aparmaq;

– ibtidai araşdırma zamanı ona cinayət işində ekspert kimi iştirak edərkən məlum olmuş məlumatları yaymaq (əgər o əvvəlcədən bu barədə CPM-nin maddəsinə uyğun xəbərdar edilmişsə);

– əvvəlcədən bilə-bilə yalan rəy vermək.

– Bundan başqa, D.M.E.F.H.Q.-nun 12-ci maddəsinə müvafiq olaraq dövlət məhkəmə ekspertinə aşağıdakıları etmək qadağandır:

– dövlət məhkəmə ekspert idarəsinin rəhbərliyindən başqa, hər-hansı bir orqan və ya şəxsdən məhkəmə ekspertizasının aparılması barədə tapşırıq almaq;

– başqa idarənin əməkdaşı qismində, həmçinin özəl ekspert kimi məhkəmə-ekspertiza fəaliyyətini həyata keçirmək;

– proses iştirakçıları ilə şəxsi kontakt yaratmaq, əgər bu onun işin nəticəsi ilə maraqlı olmadığını şübhə altına salırsa;

– məhkəmə ekspertizasının nəticələri barədə, onu təyin etmiş orqan və ya şəxs istisna olmaqla, məlumat vermək (bu tələb ekspertizanın nəticələri haqda istənilən şəxslərə, o cümlədən operativ-axtarış xidmətinin əməkdaşlarına, ekspertizası aparılan şəxslərə, onların qohumlarına və qanuni nümayəndələrinə, tibbi yardım göstərən tibb işçilərinə və başqa məlumat verilə bilməsinin mümkünlüyünə aid edilir).

Ekspert bilə-bilə yalan rəy verməyə görə CM-nin 297-ci maddəsi ilə, ibtidai araşdırmanın məlumatlarını yaymasına görə isə CM-nin 97.4.10 maddəsi ilə məsuliyyət daşıyır. Məsuliyyət o vaxt nəzərdə tutulub ki, ekspertə qanunla müəyyən olunmuş qaydada bu hərəkətlərə yol verməməsi barədə xəbərdarlıq edilmişdir. Məhkəmə istintaqının məlumatlarının yayılmasına görə cinayət məsuliyyəti nəzərdə tutulmayıb. Cinayət işinin bütün məhkəmələrdə araşdırılması açıq xarakter daşıyır («Məhkəmələr və hakimlər haqqında» Qanun, maddə 12).

Ekspertin təyin olunmuş vaxtda çağırışa gələ bilməməsinə üzürlü səbəblər olduqda, ekspert və məhkəmə ekspert idarəsinin rəhbəri dərhal bu barədə istintaqı aparan şəxsi və ya orqanı, həmin səbəblər göstərilməklə, məlumatlandırır. Üzürsüz səbəbdən gəlməməyə görə ekspertə prosessual məcburetmə tədbiri tətbiq oluna bilər. Ekspertin təhqiqata, istintaqa və ya məhkəməyə məcburi gətirilməsi qanunda yalnız ekspertin dindirilməyə, həmçinin məhkəməyə üzürsüz səbəbdən gəlməməsi zamanı nəzərdə tutulub. Bu zaman təhqiqatçının, müstəntiqin, prokurorun, hakimin gətirilmə haqqında qərarı icra edilməmişdən qabaq ekspertə elan edilir və qərarda imza edilməklə təsdiq olunur. Gətirilmə gecə vaxtı icra oluna bilməz. Məcburi gətirilmə, həmçinin hamilə qadınlara, o cümlədən sağlamlıq vəziyyətindən asılı olaraq qaldıqları yeri tərk edə bilməyən xəstələrə tətbiq oluna bilməz. Gətirilmə təhqiqatçının, müstəntiqin, prokurorun tapşırığı ilə təhqiqat orqanları, məhkəmə tapşırığı ilə məhkəmənin icraçıları tərəfindən yerinə yetirilir.

Məhkəmə iclasında qayda pozğunluqlarına, sədrlik edənin və məhkəmə nəzarətçilərinin sərəncamlarına tabesizliyə görə, ekspert, zalda iştirak edən digər istənilən şəxs kimi, belə hərəkətlərin yol verilməzliyi barədə xəbərdarlıq oluna, məhkəmə iclasından çıxarıla və ya cərimə oluna bilər.

Bütün göstərilənlər mühakimə icraatının iştirakçısı kimi, ekspertin prosessual statusunu təşkil edir və yəni vəzifə borclarının dairəsinə daxil olub-olmamasından asılı olmayaraq, məhkəmə ekspertizasını aparan ekspertə aid edilir.

2.4. Məhkəmə-tibbi ekspertizanın təyin olunma qaydaları.

Ekspertiza, ekspertizanın təyin olunmasına səlahiyyətli şəxs tərəfindən - prokurorun, müstəntiqin, hakimin, təhqiqatçının qərarı və ya məhkəmənin qərardadı ilə müəyyənləşir (CPM, maddə 264, D.M.E.F.H.Q. maddə 21). Qanunvericiliklə ekspertizanın təyin olunma qərarının (qərardadın) məzmunu müəyyən edilir. Qərarda (qərardadda) aşağıdakılar əks olunmalıdır:

- qərarın çıxarılma yeri (müvafiq icra orqanının adı, ünvanı);
- qərarın çıxarılma vaxtı (tarix, ay, il);
- qərar kim tərəfindən çıxarılır: vəzifəsi (prokuror, müstəntiq, təhqiqatçı, hakim), rütbəsi, dərəcəsi, şəxsin adı, soyadı, həmçinin qərarı və ya qərardadı çıxardan ibtidai istintaq, təhqiqat, məhkəmə orqanlarının adı;
- cinayət işinin nömrəsi;
- ekspertizanın təyin olunmasına əsas və CPM-nin konkret normalarına istinad etməklə eyni və ya müxtəlif ixtisaslı bir neçə ekspertin, xüsusi biliyin cəlb olunması vacibliyinin əsaslandırılması;
- ekspertizanın növü - ilkin (adətən qeyd olunmur), əlavə və ya təkrar;
- ekspertizanın aparılma forması - təkbaşına (adətən qeyd olunmur), komisyon və ya kompleks;
- ekspert-mütəxəssisin adı, ekspertin adı, soyadı, atasının adı;
- həll edilməsi tələb olunan suallar;
- ekspertlərin sərəncamına təqdim olunmuş materiallar;
- ekspert idarəsinin rəhbərinə ekspertin və ya ekspert komissiyasının vəzifələri, hüquqları və məsuliyyət daşımalarını izah etmələri barədə tapşırıq (əgər ekspertiza ekspert idarəsinə təyin olunubsa);
- ekspertin vəzifəsi, hüquqları və məsuliyyətilə tanış olması barədə iltizamı;
- müstəntiqin (təhqiqatçının, hakimin) şəxsi imzası.

Ekspertiza müvafiq qərarın və ya qərardadın çıxarıldığı gündən təyin edilmiş hesab olunsa da, onun icra müddəti qərarın (qərardadın) ekspert idarəsinə təqdim olunduğu gündən başlayır.

İbtidai istintaqın gedişində ekspertizanın təyin olunma və materialların məhkəmə tibbi ekspertizaya göndərilmə qaydaları CPM-nin müvafiq maddələrində nəzərdə tutulub. O ekspertizanın aparılma yerindən, növündən, eləcə də, ekspertlərin sayı, statusu və ixtisasından asılı olaraq müxtəlifdir.

Məhkəmə ekspertizası ekspert idarəsində aparılarkən müstəntiq müvafiq idarənin rəhbərinə məhkəmə ekspertizasının təyin olunma qərarını göndərir, ekspertizanın aparılması və rəy verilməsi üçün vacib olan tədqiqat obyektlərinin və materiallarının təqdim olunmasını təşkil edir (CPM, maddə 269; D.M.E.F.H.Q. maddə 22). Əgər tədqiqat obyektinin dövlət məhkəmə-ekspert idarəsinə göndərilməsi mümkün deyilsə, həmin orqan və ya şəxs ekspertin obyektə maneəsiz yol tapmasını və onun yerində müayinə edilməsinin mümkünlüyünü təmin edir.

Ekspert idarəsinin rəhbəri qərarı aldıqdan sonra, məhkəmə ekspertizasının icrasını həmin idarədə işləyən konkret ekspertə və ya bir neçə ekspertə həvalə edir və bu barədə müstəntiqi məlumatlandırır. Dövlət məhkəmə-ekspert idarəsinin rəhbəri ekspertə CPM-nin 97-ci maddəsində nəzərdə tutulmuş hüquqlarını və məsuliyyətini izah edir. Ekspertizanın icrasına ekspert idarəsində işləməyən şəxsin cəlb olunması vacibdirsə, ekspert idarəsinin rəhbəri bu məsələni ekspertizanı təyin etmiş şəxslə razılaşdırır (D.M.E.F.H.Q., maddə 9).

Məhkəmə istintaqının gedişində məhkəmə-tibbi ekspertizaların təyin olunma qaydası bir qədər fərqlənir. Ekspertiza məhkəmə iclasında məhkəmənin qərardadı və ya hakimin təşəbbüsü ya da tərəflərin vəsatəti əsasında təyin edilir (CPM, maddə 331).

Konkret işlə əlaqədar ibtidai istintaqda ekspertiza aparılmasından asılı olmayaraq, məhkəmədə ibtidai istintaqda verilmiş rəyə əlavələr etmək və aydınlıq gətirmək üçün təhqiqatlar aparmaq lazım gələrsə, ilkin ekspertiza təyin olunur.

Ekspertizanın təyin olunması barədə qərar qəbul edildikdən sonra, sədrlik edən tərəflərə ekspertə sualları yazılı şəkildə verməyi təklif edir. Qoyulmuş suallar açıqlanmalı və məhkəmə araşdırıcılarının fikirləri dinlənilməlidir. Suallara baxıldıqdan sonra, məhkəmə qərarı və ya qərardadı ilə cinayət işinə aid olmayan və ekspertin səlahiyyəti çərçivəsindən çıxan sualları kənarlaşdırır və yeni suallar tərtib edir. Məhkəmə iclasında iştirak edən ekspert və ya mütəxəssis tərəflərin və məhkəmənin təqdim etdiyi suallara, xüsusən də onların ekspertin səlahiyyətinə uyğun olub-olmaması, bir neçə sualların tərtibində düzəlişlər etmək və ya onları çıxarmaq, həmin sualların həll olunması mümkünlüyü və ekspertizanın aparılma şəraiti haqqında öz fikrini bildirir.

Qərardadın məzmunu ibtidai istintaqda məhkəmə ekspertizasının təyin olunması qərarı ilə eynidir. Qərardadın (qərarın) sürəti ekspertə təqdim olunur.

Məhkəməyə sədrlik edən şəxs ekspertlə razılaşdıqdan sonra, müayinə və rəyin hazırlanması üçün lazım olan vaxtı, ekspertizanın aparılma yerini müəyyən edir. Sonra məhkəmə iclasında fasilə elan olunur və ya ekspertin iştirakı olmadan davam edir. Əgər ekspertiza məhkəmədə aparılırsa, ekspert üçün iş şəraitini məhkəmə təmin edir.

Məhkəmə istintaqının gedişində ekspertizanın aparılması, cinayət işinin ibtidai istintaqı mərhələsində məhkəmə ekspertizasının aparılmasında olduğu kimidir. Konkret şəraitdən asılı olaraq ekspertiza məhkəmədə və ya ondan kənar yerdə yerinə yetirilə bilər (xüsusi avadanlıqlardan istifadə etməklə mürəkkəb tədqiqatların aparılmasının vacibliyi, şəxsin tibbi stasionara yerləşdirilməsi, tədqiqat obyektinin məhkəməyə gətirilməsinin mümkünsüzlüyü və s.).

Ekspert rəyi yazılı şəkildə verilir. Əgər rəydə iş üçün əhəmiyyətli hallar göstərilmişsə, məhkəmənin qərardadı və ya hakimin qərarı ilə tam və ya hissəvi olaraq məhkəmədə açıqlana bilər. Ekspert rəyini, açıqlanmağa vəsatət vermiş tərəf və ya məhkəmə açıqlayır. Təcrübədə çox vaxt məhkəmə istintaqında aparılmış ekspertiza rəyinin nəticəsi ekspertin özü tərəfindən açıqlanır.

Əgər ekspertiza qarovul altında və ya həbs yerində olan müttəhim və ya təqsirləndirilən şəxs barəsində təyin olunmuşsa, onda müvafiq

müəssisənin müdiriyyəti ekspertizanın aparılması üçün ekspertin həmin müəssisəyə daxil olmasını (ekspertizanı təyin etmiş şəxsin yazılı icazəsi ilə), avadanlığı olan otaqla təmin edir, zərurət yaranarsa şübhəli və ya təqsirləndirilən şəxsi tibbi stasionara yerləşdirir.

Qanun ekspertizanın mütləq aparılmasını göstərən halları müəyyən etmişdir (CPM, maddə 140). Məhkəmə-tibbi ekspertizanın mütləq təyin olunması zamanı aşağıdakıların aşkar olunması zəruridir:

1. ölümün səbəbi;
2. sağlamlığa zərərvurma dərəcəsi və xarakteri;
3. təqsirləndirilən şəxsin cinayət mühakimə icraatında öz hüquq və qanuni maraqlarını sərbəst qorumaq qabiliyyətinə şübhə yarandıqda fiziki vəziyyəti;
4. zərərçəkmiş şəxsin iş üçün əhəmiyyəti olan halları düzgün qavramaq və onlar haqqında düzgün ifadələr vermək qabiliyyətinə şübhə yarandıqda onun fiziki vəziyyəti;
5. şübhəli, təqsirləndirilən və zərərçəkmiş şəxslərin yaşını təsdiq edən sənəd yoxdursa və ya şübhə yaradırsa və cinayət işi üçün əhəmiyyət kəsb edən hallarda, onların yaşının təyini.

Məhkəmə-tibbi ekspertizaların keçirilməsinin vacibliyi bununla bitmir. Cinayətin açılması və tədqiqatı üçün əhəmiyyətli olan sualların ancaq xüsusi ekspert tədqiqatları yolu ilə həllinin bir çox səbəbləri mövcuddur. CPM-də göstərilmiş «ekspertiza» anlayışının açıqlanmasında qanunla bu hal nəzərdə tutulmuşdur.

Canlı şəxsin məhkəmə-tibbi ekspertizası könüllü və məcburi qaydada aparılır (D.M.E.F.H.Q. maddə 29). Məhkəmə ekspertizasının könüllü aparılacağı bir çox şəxslər və məhkəmə ekspertizasının icra qaydasından istifadə edilməsi CPM-də də öz əksini tapmışdır. Bu kateqoriyaya, adətən, zərərçəkmişlər və şahidlər aid edilir.

D.M.E.F.H.Q.-nun 29-cu maddəsinə müvafiq olaraq dövlət məhkəmə-ekspert idarəsində könüllü qaydada ekspertiza aparılarkən, məhkəmə ekspertizası aparılacaq şəxsin yazılı razılığı təqdim olunmalıdır. Əgər məhkəmə ekspertizası aparılacaq şəxs 16 yaşına çatmamışsa və ya məhkəmə tərəfindən iş qabiliyyəti olmayan hesab

olunmuşsa, məhkəmə ekspertizasının aparılmasına yazılı razılığı bu şəxsin qanuni nümayəndəsi verir (yetkinlik yaşına çatmayanın valideynləri, qəyyum və ya himayəçiləri, övladlığa götürənlər, himayəsində olduğu idarə və təşkilatın nümayəndələri - qanuni nümayəndələridir). Ekspertizanın aparılmasına zərərçəkmişin və şahidin razı olub-olmamasının yazılı təsdiqi qanunda nəzərdə tutulmuşdur.

Bununla yanaşı, CPM-i zərərçəkmişin və şahidin məcburi qaydada ekspertizasının aparılmasını müəyyən etmişdir. Zərərçəkmiş məhkəmə-tibbi ekspertizaya sağlamlığa zərərvurma dərəcəsinin və xarakterinin təyin olunmasının vacibliyi zamanı, zərərçəkmişin iş üçün əhəmiyyətli halları düzgün qavramaq və o, ifadələr vermək qabiliyyətinə şübhə yaratdıqda, iş üzrə əhəmiyyət kəsb edirsə, onun yaşını təsdiq edən sənəd olmadıqda və ya onun düzgünlüyü şübhə doğurduqda zərərçəkmişin yaşını təyin etmək üçün məcburi qaydada göndərilir. Şahidin məcburi qaydada məhkəmə-tibbi ekspertizası ancaq onun ifadəsinin doğruluğunun qiymətləndirilməsinə zərurət yarandıqda aparılır. Belə hallarda ekspertizanın təyin olunması və aparılması məcburidir.

Əgər şəxsin məcburi qaydada məhkəmə ekspertizasının aparılması barədə prosessual qanunvericilikdə birbaşa göstəriş yoxdursa, onda dövlət məhkəmə-ekspert idarəsinin bu şəxsin məcburi qaydada məhkəmə-ekspertizasını aparmaq hüququ yoxdur (D.M.E.F.H.Q. maddə 29).

Azərbaycan Respublikası MDB-nə daxil olan bəzi ölkələr ilə vətəndaş, ailə və cinayət işləri üzrə hüquqi münasibət və hüquqi yardım göstərilməsi barədə Konvensiyaya qoşulmuş və qəbul olunmuş, bir sıra dövlətlərlə qarşılıqlı hüquqi yardım göstərilməsi barədə ikitərəfli müqavilələr bağlanmışdır. Bu hüququ aktlarının hər biri hüquqi yardım göstərilməsinin prosedura fərqlərini nəzərdə tutsa da, müvafiq razılaşma və müqavilələrin əsasını cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsi barədə Avropa Konvensiyası (1959) və 1990-cı ilin 14 dekabrında BMT-nin Baş Assambleyasının 45-ci sessiyası tərəfindən qəbul edilmiş cinayət-ədalət məhkəməsi sahəsində qarşılıqlı yardım haqqında müqavilə təşkil edir.

Hüquqi yardımın göstərilməsi üçün əsas, rəsmi sorğu və ya tapşırıqdır. Sorğunun və ya tapşırığın məzmunu və forması müvafiq müqavilələrlə müəyyən edilmişdir.

Hüquqi proseduralara uyğun olaraq, sorğunun göndərilməsinin, alınmasının və icra olunmasının təşkilini mərkəzi orqan yerinə yetirir ki, hər bir dövlətdə bu orqan sərbəst müəyyən edilir. Mərkəzi orqan funksiyasını adətən Ədliyyə Nazirliyi və Baş Prokurorluq icra edir. Əgər sorğulanan mərkəzi orqan tapşırığın icrasına səlahiyyətli deyilsə, onu səlahiyyətli idarəyə göndərir (məsələn, məhkəmə-tibbi ekspertiza idarəsinə) və bu barədə sorğu edən tərəfi məlumatlandırır.

Azərbaycan Respublikasının vətəndaşı olan ekspert, onun razılığı ilə digər ölkələrin ərazisində icraatında cinayət işi olan vəzifəli şəxs tərəfindən prosessual hərəkətlərdə iştirak etməsi üçün çağırıla bilər. Müqavilə tərəfinin birinin ərazisində yaşayan ekspertin, digər müqavilə tərəfinin müvafiq icra müəssisəsinə çağırılması zamanı, çağırışa gedilməməsi hallarında məcburiyyət vasitələrinin tətbiqi təhlükəsi olmamalıdır. Çağırış, sorğu edilən tərəfin mərkəzi orqanının vasitəçiliyi ilə ekspertə təqdim olunur. Digər ölkə ərazisinə çağırışa getmə zəruridirsə, ekspertin şəxsi təhlükəsizliyi barədə müəyyən təminatlar nəzərdə tutulmalıdır. Çağırışa könüllü gəlmiş ekspert vətəndaşlığından asılı olmayaraq digər ölkənin ərazisində dövlət sərhədini keçənə qədər törətdiyi əmələ görə cəzaya, cinayət və inzibati məsuliyyətə cəlb edilə bilməz, qarovul altına alına bilməz. O, həmçinin cinayət işi üzrə ekspert kimi verdiyi rəylə və ifadəylə bağlı məsuliyyətə cəlb edilə bilməz, qarovul altına alına və cəzaya məruz qala bilməz. Bir tərəfli sorğu ilə ekspert sorğu edilən tərəfin səlahiyyətli orqanı tərəfindən dindirilə bilər.

Ekspertin məsrəfləri və qonorarların ödənilməsi xərclərini hər iki müqavilə tərəfinin yurisdiksiyası çərçivəsində sorğu edən tərəf çəkir. Ekspertə sorğu edən dövlətə gedib-gəlmə, orada qalma xərcləri, işdən ayrıldığı günlərdə almadığı əmək haqqı və ekspertizanın aparılmasına görə mükafat verilir. Çağırışda ekspertin sorğunun icrası ilə əlaqədar hansı haqları almaq hüququ göstərilməlidir.

2.5. Ekspert rəyi.

Ekspertizanın nəticələrinə görə xüsusi prosessual sənəd - ekspert rəyi tərtib edilir. Ekspert rəyinə iş üzrə sübut kimi baxılır (CPM,maddə 124.2.2).

Ekspert rəyi, ekspertin adından, yazılı şəkildə tərtib olunur və məzmununa görə aparılmış tədqiqatlardan, cinayət işinin icrasını aparan şəxs tərəfdən ekspertin qarşısına qoyduğu suallara uyğun gələn nəticələrdən ibarətdir (CPM, maddə 271; D.M.E.F.H.Q., maddə 26). Əgər qarşıya qoyulmuş suallara cavab verilməsi üçün tədqiqat aparılması tələb olunmursa, bu zaman xüsusi biliklərin tətbiqindən digər formada - ekspertin dindirilməsi, istintaq hərəkətlərində mütəxəssisin iştirakı, məsləhət, arayış və s. formada istifadə olunur.

Ekspert rəyinin məzmunu qanunla müəyyən edilmişdir. CPM-nin 271.2 və D.M.E.F.H.Q.-nun 26-cı maddələrinə uyğun olaraq ekspert və ya ekspert komissiyasının rəyində aşağıdakılar əks olunmalıdır:

- ekspertizanın aparılma vaxtı, tarixi və yeri;
- ekspertizanın aparılmasına əsas;
- ekspertizanı təyin etmiş orqan və ya şəxs barəsində məlumat;
- dövlət məhkəmə ekspert idarəsi barədə və ekspertizanın icrası tapşırılmış ekspert barədə məlumat (soyadı, adı, atasının adı, təhsili, ixtisası, iş təcrübəsi, elmi dərəcəsi, elmi adı və tutduğu vəzifə);
- ekspertin bilə-bilə yalan rəy verməyə görə cinayət məsuliyyəti daşıması barədə xəbərdarlıq olunması haqqında məlumat;
- tədqiqat obyektləri və ekspertiza aparılması üçün ekspertə təqdim olunmuş materiallar;
- ekspertizanın icrasında iştirak etmiş proses iştirakçıları və digər şəxslər barədə məlumat;
- tətbiq olunmuş metodları göstərməklə tədqiqatların məzmunu və nəticəsi;
- müqayisəli tədqiqat üçün nümunələrin alınması barədə məlumat;
- tədqiqatın nəticələrinin qiymətləndirilməsi, qarşıya qoyulmuş suallar üzrə nəticələr və onların əsaslandırılması.

Rəy ekspertin (və ya ekspert komissiyasının) öz adından, apardığı tədqiqatlar əsasında onların nəticələri nəzərə alınmaqla verilir. Rəy

ekspert və ya ekspert komissiyası tərəfindən imzalanır. Ekspert və ya ekspert komissiyasının imzaları dövlət məhkəmə-ekspert idarəsinin möhürü ilə təsdiqlənir (CPM, maddə 271.5; D.M.E.F.H.Q. maddə26).

Ekspert rəyinin illüstrativ materialları (foto şəkillər, sxemlər, qrafiklər və s.) rəyə əlavə olunur və onun tərkib hissəsi sayılır. Tədqiqatın gedişini, şəraitini və nəticələrini təsbit və əks etdirən sənədlər dövlət məhkəmə ekspert idarəsində saxlanılır. Məhkəmə ekspertizasını təyin etmiş şəxsin və ya orqanın tələbi ilə həmin sənədlər işə tikilməsi üçün təqdim olunur (CPM, maddə 271; D.M.E.F.H.Q. maddə 26).

Ekspert rəyini tərtib edərkən qanunla nəzərdə tutulmayan bütün formaları, məsələn, laborator tədqiqatlar aparmış mütəxəssislərin tərtib etdikləri müxtəlif növ «aktlar»ın rəyə əlavə olunmasına lüzum yoxdur. Belə tədqiqatların aparılması zamanı çoxsaylı prosessual pozuntulara yol verilir - onların icrası barədə ekspert idarəsinin rəhbəri deyil, ekspert tapşırıq verir. Laborator üsullar tətbiq olunan şöbələrin mütəxəssisləri öz vəzifələri, hüquqları və məsuliyyət daşımaları barədə xəbərdarlıq edilmir, müqayisəli tədqiqat üçün nümunələrin alınmasında prosessual qaydalara əməl olunmur. Deməli, onların mənşəyinin etibarlılığı təmin edilmir. Göstərilənlərlə yanaşı «akt» formasının özü prosessual qanunvericiliklə nəzərdə tutulmayıb. Bu problemlər meyitin məhkəmə tibbi ekspertizası üçün xarakterikdir.

Qanunun tələblərinin təmin edilməsi və prosessual pozuntulardan qaçmaq üçün aşağıdakı məsləhətlərə əməl olunması vacibdir. Meyitin məhkəmə tibbi ekspertizasının təyin olunması haqqında qərar konkret ekspertə və ya hansısa şöbənin ekspertinə (şəhər, rayon) yox, ekspert idarəsinin ünvanına göndərilməlidir (Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə, Məhkəmə-Psixiatrik Mərkəzə və s.). D.M.E.F.H.Q.-nun 10-cu maddəsinə müvafiq olaraq dövlət məhkəmə ekspertinin ekspertizanın icra edilməsi üçün tapşırığı dövlət məhkəmə ekspert idarəsinin rəhbərindən almaq hüququ vardır. Bu hal, müstəntiqin və digər proses iştirakçısının ekspertizanın icra olunmasına konkret mütəxəssisin cəlb olunmasını tələb etmək hüququndan məhrum

etmir. Eyni zamanda belə qayda ekspert idarəsinin rəhbərinə ekspertizanın icrasını idarənin müxtəlif struktur şöbələrinin bir neçə ekspertinə həvalə etmək imkanı verir. Birliyin laborator üsullarla fəaliyyət göstərən şöbə və bölmələrinin ekspertləri ekspertizanın icrası və nəticələrinin tərtib olunması zamanı CPM-nin tələblərini rəhbər tutmağa borcludur. Xüsusən, yerinə yetirilmiş tədqiqatların gedişi və nəticələrini, onların fəaliyyət predmeti olmuş suallar üzrə nəticələrə gəlməklə rəy tərtib etməlidirlər. Laborator tədqiqatların nəticələrinə görə tərtib olunmuş ekspert rəyi, prosessual hüquqları, vəzifələri və məsuliyyət daşıması barədə iltizamla birlikdə meyitin ekspertizasını ekspertin rəyinə qoşma kimi baxılmalıdır.

Əgər ekspertizanın icrasında CPM-nin tələbləri pozulubsa, ekspert rəyi hüququ qüvvəsini itirmiş hesab olunur. Bu zaman rəy sübut növü kimi qəbul edilmir, ibtidai araşdırma mərhələsində ittihamedici rəyə əlavə edilmir və iş üzrə bütün halların sübut olunmasında istifadə oluna bilməz. Əgər rəy qanunun tələblərinin pozulması ilə tərtib olunubsa, məhkəmə iclasında məhkəmə ekspert rəyinin sübut növlərindən çıxarılması qərarını qəbul etmək hüququndadır. Belə halda ekspert rəyi öz hüququ qüvvəsini itirir, məhkəmə araşdırması zamanı tədqiq və istifadə oluna bilməz, hökmün və ya digər məhkəmə qərarlarının əsasını təşkil edə bilməz.

Ekspert tərəfindən verilmiş rəy ekspertizanı təyin etmiş orqana və ya şəxsə göndərilir. Ekspertizası aparılmış şəxsin və ya onun qanuni nümayəndəsinin ekspert rəyi ilə tanış olması və rəyin şübhəli, təqsirləndirilən şəxslərə və onun müdafiəçisinə təqdim olunması CPM-nin müvafiq maddələrində nəzərdə tutulmuşdur. Bunun təmin edilməsinə razılıq təhqiqatçı, müstəntiq və hakim tərəfindən verilir.

2.6. Ekspertizaların təyin olunması və keçirilməsi ilə bağlı cinayət prosesi iştirakçılarının hüquqlarının təminatları.

Əvvəlki CPM ilə müqayisədə yeni qanunvericilikdə məhkəmə ekspertizasının icrası ilə bağlı, cinayət mühakimə icraatı iştirakçılarının (ekspertizanı təyin etmiş orqan və ya şəxs, zərərçəkmiş, şübhəli, təqsirləndirilən, müqəssir şəxslər və onların müdafiəçiləri, şahidlər) vəzifələri və hüquqlarına zəmanət genişləndirilmiş və dəqiqləşdirilmişdir. Bu hüquqlar qanunun aşağıdakı normaları ilə həyata keçirilir:

- zərərçəkmiş və şahidlərə münasibətdə məhkəmə ekspertizasının könüllü qaydada icrası müəyyən edilmişdir;
- eksperti istintaq hərəkətlərində iştirak etməsi üçün cəlb etdikdə, müstəntiq onun şəxsiyyətini təsdiq etməyə borcludur;
- ekspertizanı təyin etməmişdən əvvəl müstəntiq və ya məhkəmə ekspertə etirazın əsaslarının olmasını yoxlayır;
- məhkəmə, prokuror, müstəntiq, təhqiqatçı və ya dövlət məhkəmə-ekspert idarəsinin rəhbəri ekspertə onun hüquqlarını və məsuliyyət daşımasını izah edir, bu barədə ekspert iltizam verir və bu hüquqların həyata keçməsinin mümkünlüyünü təmin edir;
- ekspertizanın predmeti ekspertin xüsusi bilik (səlahiyyəti) çərçivəsinə aid olan hallarla, ekspertə təqdim olunmuş materialların həcmi ilə məhdudlaşır;
- məhkəmə ekspertizasının aparılması zamanı ekspert müstəqildir, o məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxsdən, işin nəticəsində maraqlı olan tərəflərdən və digər şəxslərdən asılı ola bilməz. Ekspert xüsusi biliyinə müvafiq, apardığı tədqiqatların nəticələrinə əsaslanaraq rəy verir. Hər-hansı bir proses iştirakçısının və ya digər şəxsin xeyrinə rəy alınması məqsədilə məhkəmənin, hakimin, təhqiqat orqanının, təhqiqat aparan şəxsin, müstəntiqin, prokurorun, eləcə də digər dövlət orqanlarının, təşkilatların, birliklərin və ayrı-ayrı şəxslərin ekspertə təsir etməsinə

yol verilmir. Ekspertə təsir edilməsində günahkar olan şəxs, qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyır;

- dövlət məhkəmə-ekspert idarəsinin rəhbəri konkret məhkəmə ekspertizası üzrə ekspertə nəticələrin məzmununu qabaqcadan həll edə bilən göstərişlər verə bilməz;

- dövlət məhkəmə-ekspert idarəsinin rəhbərinin icrası başlanmış məhkəmə ekspertizasının nəticəsində maraqlı olması təsdiqlənərsə, məhkəmə-ekspert idarəsinə məhkəmə ekspertizasının aparılması həvalə edilə bilməz və həmin məhkəmə ekspertizasının icrası təcili dayandırılır;

- canlı şəxsin məhkəmə ekspertizasının icrasında, həmin şəxsə ekspertiza təyin olunmamışdan əvvəl tibbi yardım göstərmiş həkim iştirak edə bilməz;

- şəxsin azadlığının və ya şəxsi toxunulmazlığının müvəqqəti məhdudlaşdırılmasını tələb edən məhkəmə ekspert tədqiqatları, ancaq qanunun müəyyən etdiyi əsas və qaydada aparılır. Əgər şəxs hesab edir ki, dövlət məhkəmə ekspert idarəsinin və ya ekspertin hərəkəti (hərəkətsizliyi) vətəndaşın hüquq və azadlığının və ya hüquqi şəxsin hüquq və qanuni maraqlarının məhdudlaşmasına səbəb olub, qeyd olunan hərəkətlərdən (hərəkətsizlikdən) qanunvericilikdə nəzərdə tutulmuş qaydada şikayət edə bilər;

- canlı şəxsin məhkəmə-ekspertizasını apararkən qadağandır: məhkəmə ekspertizası aparılan şəxsdən məlumat almaq üçün hüququn məhdudlaşdırılması, onu aldatma, zorakılıq və digər qanunsuz hərəkətləri tətbiq etmək, yeni diaqnostika metodları, yeni dərman maddələri, xəstəliyin profilaktika və müalicəsi üçün sınaqlar aparmaq, həmçinin məhkəmə ekspertizası aparılacaq şəxsdən biotibbi eksperimentlər aparmaq üçün obyekt kimi istifadə etmək;

- canlı şəxsin məhkəmə ekspertizasını apararkən güclü ağrı ilə müşayiət olunan və ya şəxsin sağlamlığına zərər vuran müayinə metodlarından, cərrahi müdaxilə metodlarından, o cümlədən səhiyyənin təcrübəsində tətbiqi qadağan olunmuş metodlardan istifadə edilməsi qadağandır. Məhkəmə ekspertizası aparılacaq şəxs, onun barəsində tətbiq olunacaq tədqiqat metodları (eləcə də alternativ), ola biləcək ağrı hissiyyatı və əlavə təsirləri barədə onun

başa düşə biləcəyi formada məlumatlandırılmalıdır. Qeyd olunan məlumat müvafiq vəsatət vermiş, məhkəmə ekspertizası aparılacaq şəxsin qanuni nümayəndəsinə də təqdim olunur;

- məhkəmə ekspertizası aparılacaq şəxsin hazırkı ekspertizanın predmetinə aid izahat vermək hüququ vardır (nəzərə alaraq ki, ekspertizanın keçirilməsi üçün vacib olan materialları ekspertin sərbəst toplaya bilmək hüququ yoxdur, həmin izahları müstəntiqin tərtib etdiyi dindirmə protokoluna təsbit etmək məqsədə uyğundur);
- ekspert məhkəmə ekspertizası apardığı şəxsdən aldığı məlumata görə, əgər bu məlumat məhkəmə ekspertizası predmetinə aid deyilsə, dindirilə bilməz;
- müstəntiqin məhkəmə ekspertizasının icrası zamanı iştirak etmək və ekspertdən apardığı hərəkətlərə görə izah tələb etmək hüququ var (bütün izahları ekspert şifahi verir);
- ekspertin şifahi xahişi və ya vəsatəti istintaq hərəkətlərinin və ya məhkəmə iclasının protokoluna mütləq əlavə olunmalıdır; yazılı vəsatət isə cinayət işinə tikilir;
- ekspert rəyi iş üzrə sübut növü olduğuna görə, məhkəmə iclasında bilavasitə tədqiq olunmalı və açıqlanmalıdır;
- əvvəl verilmiş ekspert rəyinə əlavələr etmək və aydınlıq gətirmək üçün ekspertin dindirilməsinin mümkünlüyü qanunla nəzərdə tutulmuşdur;
- ekspert rəyi kifayət qədər tam və ya aydın olmadıqda, yaxud əvvəl tədqiq olunmuş iş halları üzrə yeni suallar yaranarsa, əlavə ekspertiza təyin oluna bilər;
- ekspert rəyinin əsaslandırılmasına və düzgünlüyünə şübhə olduqda, ekspertin nəticəsində və ya ekspert rəyləri arasında ziddiyyət olduqda və bunları ekspertin dindirilməsi yolu ilə aradan qaldırmaq mümkün deyilsə, həmin suallar üzrə təkrar ekspertiza təyin oluna bilər;
- şübhəli və təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş, mülki iddiaçı və mülki cavabdeh məhkəmə ekspertizasının təyin olunması barədə vəsatət vermək (o cümlədən, əlavə və ya təkrar), ekspertizanın təyin olunma qərarı ilə tanış olmaq, ekspertə etiraz bildirmək və ya məhkəmə ekspertizasının dövlət

məhkəmə ekspertiza idarəsinin digər struktur şöbələrində keçirilməsi barədə vəsatət vermək; ekspert kimi onların göstərdiyi şəxsi cəlb etmək barədə vəsatət vermək, məhkəmə ekspertizasının təyin olunma qərarına əlavə suallar qoyulması barədə vəsatət vermək, müstəntiqin icazəsi ilə məhkəmə ekspertizasının icrasında iştirak etmək (ekspert rəyi tərtib olunduqda, o cümlədən ekspertlərin nəticə ilə bağlı müzakirələri aparıldıqda, proses iştirakçılarının iştirakına yol verilmir, şəxsin soyunması ilə müşayiət olunan təhqiqatların keçirilməsində, ancaq həmin cinsdən olan şəxslər iştirak edə bilər), ekspertiza predmetinə aid ekspertə izahlar vermək (məlumatların alınması ekspertin iştirakı ilə müvafiq şəxslərin dindiriləsi yolu məqsədəuyğundur) və ekspertə suallar vermək (sadalanan şəxslərin ekspertə ancaq məhkəmə iclasının gedişində ekspertin dindirilməsi zamanı suallar verməyə hüququ vardır), ekspert rəyi ilə və ya rəy verə bilməməsi barədə məlumatla tanış olmaq hüququ vardır;

- əgər şübhəli və təqsirləndirilən şəxsin, onların müdafiəçilərinin, zərərçəkmişin, mülki iddiaçı və mülki cavabdehin vəsatət qaldırdıqları hallar iş üçün əhəmiyyət kəsb edirsə, onların məhkəmə ekspertizasının təyin olunması tələbindən imtina etmək olmaz;
- məhkəmə ekspertizasının aparılmasında iştirak edən proses iştirakçılarının tədqiqatın gedişatına müdaxilə etmək hüququ yoxdur;
- ekspertin rəyi və ya rəy verə bilməməsi barədə məlumatı müstəntiq, şübhəli şəxsə, təqsirləndirilənə və onların müdafiəçilərinə təqdim edir; əgər məhkəmə ekspertizası zərərçəkmişin vəsatəti əsasında zərərçəkmiş və ya şahid barəsində aparılmışsa, onda ekspert rəyi onlara da təqdim olunur;
- müttəhim və onun müdafiəçisinin ekspertə etiraz vermək, məhkəmə ekspertizanın təyin olunması qərarı və ekspert rəyi ilə tanış olmaq hüququ var;
- dövlət məhkəmə-ekspert idarəsi dövlət, kommersiya və qanunla qorunan digər sirləri olan məlumatların yayılmamasını təmin edir;
- qarovul altında olmayan şəxsin, qanunvericilikdə nəzərdə tutulmuş qayda və əsaslarda məhkəmə ekspertizasının aparılması ilə

bağlı xərcləri ödəməsinə hüququ vardır.

Bütün sadalanmış hallar cinayət mühakimə icraatı iştirakçılarının hüquq və qanuni maraqlarının təmin olunmasına zəmanət verir.

Qanunvericilikdə xüsusi olaraq ekspertiza olunacaq şəxsin tibbi stasionara yerləşdirilməsi ilə məhkəmə ekspertizaların aparılma şəraiti göstərilmişdir;

Canlı şəxsin tibbi stasionara yerləşdirilməsi barədə qərarın qəbul edilməsi qaydası, ekspertizanın məcburi və ya könüllü qaydada aparılmasından asılıdır. Axırıncı halda, ekspertizanın təyin olunma qərarında və ya qərardadında stasionar müayinə olunacaq şəxsin (zərərçəkmişin və ya şahidin) yazılı razılığının olması göstərilməlidir.

Qanun şübhəli və təqsirləndirilən şəxsin tibbi stasionara yerləşdirilməsinə xüsusi şərtlər müəyyən etmişdir. Qarovul altında olmayan şübhəli və ya təqsirləndirilən şəxsin ekspertiza aparılması üçün tibbi stasionara yerləşdirilməsi haqqında qərarının verilməsi ancaq məhkəmənin səlahiyyətindədir. Lazımi hallarda məhkəmə iclası məhkəmə təbabəti sahəsindəki mütəxəssisin iştirakı ilə aparıla bilər. Qarovul altında olan şübhəli və ya təqsirləndirilən şəxsin, xüsusi saxlama şəraiti yaradılmış tibbi stasionara yerləşdirilməsi məhkəmə-tibbi ekspertizanın təyin olunması haqqında qərar və ya qərardad əsasında olur. Əgər stasionar müayinənin vacibliyi ekspertizanın icrası zamanı yaranarsa, şəxsin tibbi stasionara yerləşdirilməsi barədə ayrıca qərar çıxarılır.

Məhkəmə-tibb ekspertizasına göndərilmiş şəxsin tibbi və ya digər müəssisəyə çatdırılması, məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs tərəfindən təmin edilir.

Məhkəmənin, şəxsin tibbi stasionara yerləşdirilməsi barədə qərarı və ya qərardadı tibb müəssisənin rəhbərliyi üçün mütləqdir.

Məhkəmə ekspertizası və müayinə aparılacaq tibbi stasionarda müvafiq tədqiqatların aparılması üçün və ekspertizası aparılacaq şəxsin hüquqlarını və qanuni maraqlarını təmin etmək üçün şərait olmalıdır. Tibb müəssisənin rəhbərinin stasionar müayinənin aparılması üçün lazımi şəraitin olmaması barədə müstəntiqə və ya hakimə yazılı məlumat vermək hüququ vardır.

Məhkəmə ekspertizasını təyin etmiş və şəxsi məcburi qaydada tibbi stasionara yerləşdirmiş orqan və ya şəxs, 24 saat müddətində bu barədə onun ailə üzvlərindən birinə, qohumlarına və ya onun göstərişi ilə digər şəxsə, əgər onlar yoxdursa yaşayış ərazisi üzrə daxili işlər orqanlarına xəbər verməyə borcludur.

Məhkəmə ekspertizasının aparılması üçün tibbi stasionarda qalma müddəti 30 günə qədərdir. Zərurət yaranarsa ekspertin və ya ekspert komissiyasının əsaslandırılmış vəsatəti ilə, həmin stasionarın yerləşdiyi ərazi üzrə rayon məhkəməsinin hakiminin qərarı ilə yenidən 30 gün uzadıla bilər. Ekspertin və ya ekspert komissiyasının şəxsin tibbi stasionarda qalma müddətinin uzadılması barədə vəsatəti həmin stasionarın yerləşdiyi rayon məhkəməsinə 30 günlük müddətin başa çatmasına 3 gündən az olmayaraq təqdim olunmalıdır. Hakim 3 gün ərzində qərar çıxardır və eksperti və ya ekspert komissiyasını xəbərdar edir. Əgər hakim tərəfindən şəxsin tibbi stasionarda qalma müddətinin uzadılmasına imtina edilərsə, şəxs oradan çıxarılmalıdır. Tibbi stasionarın rəhbəri verilmiş vəsatət və hakimin çıxardığı qərar barədə stasionarda qalan şəxsi, o cümlədən məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxsi məlumatlandırır. Müstəsna hallarda həmin qaydada şəxsin tibbi stasionarda qalma müddətini təkrar uzatmaq olar. Bu zaman məhkəmə ekspertizasının aparılması üçün şəxsin həmin stasionarda ümumi qalma müddəti 90 gündən artıq ola bilməz.

Şəxsin tibbi stasionarda qanunla müəyyən olunmuş qalma müddətinin pozulmasına görə, şəxs, onun müdafiəçisi və ya qanuni nümayəndəsi işdə iştirak edən digər nümayəndələr, eləcə də tibbi stasionarın rəhbəri tərəfindən prosessual qanunvericiliyin müəyyən etdiyi qaydada şikayət edilə bilər. Şəxsin tibbi stasionarda qalma müddətinin pozulmasına görə, stasionarın yerləşdiyi ərazi üzrə məhkəməyə şikayət oluna bilər.

Belə fundamental prosessual-hüquqi tənzimlənmə ekspertiza aparılmasını cinayət mühakimə icraatında xüsusi məhkəmə tibbi biliklərdən istifadə etmənin əsas, qanunla müəyyən olunmuş bəzi hallarda isə - məcburi forması kimi səciyyələndirir.

FƏSİL 3. EKSPERTİN DİNDİRİLMƏSİ

Cinayət mühakimə icraatında məhkəmə-tibbi biliklərdən istifadə olunmanın digər prosessual formalarından biri də ekspertin dindirilməsidir. İbtidai istintaq mərhələsində ekspertin dindirilməsi CPM-nin 272-ci maddəsində, məhkəmə icraatı gedişində isə CPM-nin 332-ci maddəsində nəzərdə tutulmuşdur.

Ekspertin dindirilməsi müstəqil istintaq hərəkətidir, verilmiş rəyə aydınlıq gətirmək və əlavələr etmək məqsədilə aparılır. Dindirilmə ancaq bütün təhqiqatlar aparıldıqdan, rəy tərtib olunub müstəntiqə və ya hakimə verildikdən sonra aparıla bilər. Ekspert rəy verənə qədər onun dindirilməsi yolverilməzdir (CPM, maddə 272.3).

Ekspertin dindirilməsi mütləq deyil. Məhkəmə araşdırması mərhələsində bu məsələ adətən CPM-nin 332-ci maddəsinə uyğun qaydada məhkəmə iclasına hazırlıq mərhələsində yekun dinlənilmə zamanı və ya məhkəmə iclasının gedişində həll olunur.

Ekspert rəyi ilə müstəntiq, hakim və cinayət mühakimə icraatının digər iştirakçılarından biri tanış olduqdan sonra, həmin rəyin nəticəsinə aydınlıq gətirmək və əlavələr etmək, xüsusi terminlərin və tərtibatların əhəmiyyətini aydınlaşdırmaq, təhqiqat metodlarının məzmununa, hesab olunan və ya həqiqətən də rəyin nəticəsi ilə tədqiqat hissəsi arasındakı uyğunsuzluğa, ekspert komissiyasının üzvlərinin arasındakı fikir uyğunsuzluğunun (əgər onlar eyni bir rəyə gələ bilməyiblərsə) mahiyyətinə və ya müxtəlif rəylərin nəticələri arasındakı ziddiyyətlərə aydınlıq gətirmək lazım gələ bilər. Ekspertin dindirilmə predmeti onun tərəfindən tərtib olunmuş rəydir.

Əgər ekspert komissiyasının nəticəsinə əlavələr etməyə və aydınlıq gətirməyə ehtiyac varsa, hansı suala aydınlıq gətirilməsindən, komissiyanın bütün üzvləri tərəfindən imza edilməsindən, ekspertlərdən hansısa birinin xüsusi rəyinin olmasından asılı olmayaraq, məhkəmə, ekspert komissiyasının bir, bir neçə və ya bütün üzvlərini dindirilməyə çağırmaq ixtiyarındadır. Kompleks ekspertiza zamanı məhkəmə aydınlıq gətirməyə ehtiyacı olan ixtisaslar üzrə ekspertləri dindirilməyə çağırır.

Ekspert rəy verdikdən sonra rəyə aydınlıq və dəqiqlik gətirmək məqsədilə onun dindirilməsi CPM-nin 272-ci və 332-ci maddəsinə uyğun olaraq ekspertin ifadəsini təşkil edir. Ekspertin ifadəsi iş üzrə müstəqil sübut kimi qəbul edilir. Ekspert əvvəl aparılmış tədqiqatlar əsasında rəyə aydınlıq və əlavələr edir. Bütün bunlara əsaslanaraq ekspertin dindirilməsinə məhkəmə ekspertizasının aparılması ilə yanaşı, cinayət mühakimə icraatında məhkəmə-tibbi biliklərdən istifadə edilmənin iki əsas prosessual formalarından biri kimi baxılır.

Rəydə olan çatışmamazlıqların aradan qaldırılması, rəyə aydınlıq gətirmək və əlavələr etmək ekspertin dindirilməsi yolu ilə mümkün olmursa, onda əlavə ekspertiza təyin olunur (CPM, maddə 267). Rəyin natamamlığı, ekspertizaya təqdim olunmuş bütün obyektlərin müayinə edilməməsi, nəticənin tərtib olunmasında alınmış nəticələrin hamısından istifadə edilməməsi, qarşıya qoyulmuş ayrı-ayrı suallardan birinə cavab verilməməsi və ya tam cavab verilməməsi formasında ola bilər (nəticənin özü isə şübhə doğurmur). Buna görə belə hallarda müstəntiq və ya hakim tərəfindən əlavə ekspertiza təyin edilir və ya olan çatışmamazlıqlar ekspertin dindirilməsi yolu ilə aradan qaldırılır. Lakin, əlavə ekspertizadan fərqli olaraq, ekspertin dindirilməsi yazılı verilmiş rəyə aydınlıq və əlavə etmək üçün yeni müayinələrin aparılmasına ehtiyac olmadığı hallarda aparılmır.

Rəy tərtib edildikdən sonra yeni obyektlər aşkar olunursa, demək yeni tədqiqatlar aparılması vacibdir və CPM-nin 267-ci maddəsinə uyğun qaydada ekspertiza təyin edilir. Ekspertizanın icrası ilkin ekspertə və ya digər başqa bir ekspertə həvalə edilir.

Ekspertin dindirilməsi müstəntiqin və ya hakimin öz təşəbbüsü ilə, cinayət mühakimə icraatının iştirakçıları və ya məhkəmə araşdırması tərəflərinin vəsatəti ilə aparılır (CPM, 272; 332-ci maddələr). CPM-nin 272.3 maddəsinin tələbinə uyğun olaraq rəy təqdim edənədək ekspertin dindirilməsi yol verilməzdir. İbtidai istintaq zamanı rəyə aydınlıq və əlavələr edilməsinə ehtiyac yaranarsa, hakim ancaq rəy vermiş eksperti çağırmaq hüququna malikdir. İbtidai istintaq zamanı rəy vermiş ekspertin məhkəməyə çağırılması mümkün olmursa, hakim CPM-nin 331.3 maddəsinə uyğun olaraq ekspertiza təyin edə bilər. Bu halda ekspertiza, qarşıya

qoyulmuş suallar ibtidai istintaq zamanı həll edilmiş olsa da belə, ilkin ekspertiza hesab olunur.

Ekspertin dindirilməsinin aparılma və çağırılma ardıcıllığı, yeri haqqında cinayət-prosessual qanunvericiliyində ayrıca danışılmır. Ekspertin məhkəməyə çağırışı tərəflərin ümumi çağırılma qaydalarına uyğun olaraq aparılır. Ekspertə bildiriş göndərilir və ya imza edilməklə özünə təqdim olunur. Bildirişdə və ya göndərişdə kimin və hansı prosessual qismində çağırılması, dindirilmə vaxtı, tarixi, ünvanı, həmçinin üzürsüz səbəbə görə gəlməməyinin səbəbi qeyd olunur. Bildirişdə əlavə və ya dəqiqləşdirmə tələb olunan rəyin nömrəsi, zərərçəkmişin soyadının göstərilməsi məqsədəuyğundur. Son illər təcrübədə məhkəmə-tibb ekspertlərinin Birliyin rəhbərliyinin vasitəsilə teleqram, telefonoqram və faksoqram vasitəsi ilə çağırılması hallarına daha çox rast gəlinir.

İbtidai istintaq zamanı ekspertin iş yerində dindirilməsi də mümkündür. Belə qaydaya CPM-nin 227.2 maddəsinə uyğun yol verilir və müstəntiqin suallarına tam və obyektiv cavab verilməsi nöqteyi-nəzərindən bir sıra üstünlükləri var. Bu hal ilk növbədə imkan verir ki, ekspert lazımi sənədlərə müraciət etsin, aktlar və rəylərlə, qeydiyyat jurnalları və digər materiallarla, xüsusi ədəbiyyatlar və metodik vəsaitlərlə işləsin. Eyni zamanda ekspertin iş vaxtına qənaət etməsi üçün şərait yaranır.

Dindirilməyə çağırılmış ekspert təyin olunmuş vaxtda gəlməlidir ya da əvvəlcədən müstəntiq və ya hakimi gələ bilməməsinin səbəbləri barədə məlumatlandırmalıdır. Ekspert üzürsüz səbəbdən gəlmədikdə CPM-nin 178-ci maddəsinə uyğun olaraq gətirilmə və ya digər prosessual məcburiyyətlər tətbiq oluna bilər. Gətirilmə gecə vaxtı, saat 22.00-dan 07.00-a qədər olan müddətdə ola bilməz (CPM, maddə 7.0.35).

Ekspert CPM-nin 272-ci maddəsində nəzərdə tutulmuş qaydada dindirilir. Dindirilmədən qabaq müstəntiq və ya hakim ekspertə istintaq hərəkətinin aparılma qaydasını izah edir, ekspertin şəxsiyyətini təsdiq edir, onun hüququnu, məsuliyyətini izah edir.

Qanunvericiliyə görə məhkəmə ekspertizasının nəticəsi ilə ekspertin dindirilməsi əhəmiyyətinə görə eynidir. Hər iki halda

ekspert CPM-nin 270.1.6 maddəsinə uyğun olaraq əvvəlcədən bilə-bilə yalan rəy verməyə və bilə-bilə yalan ifadə verməyə görə CM 297-ci maddəsinə ilə məsuliyyət daşıması barədə xəbərdarlıq edilir və buna görə ondan iltizam alınır.

Cinayət məsuliyyəti daşıması barədə izahlar olan məlumat, ekspertin suallara cavabları CPM-nin 230-cu maddəsinə müvafiq olaraq dindirilmə protokoluna qeyd olunur. Ekspertə verilmiş suallar əvvəl aparılmış ekspertiza çərçivəsindən kənara çıxmamalıdır və əvvəl tədqiq olunmuş hadisə şəraiti ilə məhdudlaşmalıdır. Digər dindirilən şəxslər kimi, ekspert də sənədlərdən və qeydlərdən istifadə etmək hüququna malikdir. Ekspert, cinayət işi aparılan dili bilmirsə, Azərbaycan Respublikasının dövlət dilində və ya özünün bildiyi digər dildə ifadə vermək hüququ var (CPM, maddə 230.3). CPM-nin 230.2 maddəsinə müvafiq digər dindirilən şəxslər kimi, ekspertin ifadəsi birinci şəxs tərəfindən və imkan daxilində hərfi şəkildə yazılır. Suallar və onların cavabları dindirilmənin gedişinə uyğun fiksə olunur. Protokola bütün suallar, o cümlədən ekspertin cavab verməkdən əsaslandırılmış imtina etdiyi suallar da yazılır. Əgər ekspertin dindirilməsi gedişində maddi sübutlar və sənədlər təqdim olunmuşsa, digər istintaq hərəkətləri səsləndirilmişsə, audio, video materiallar, istintaq hərəkətlərinin çəkilişi göstərilmişsə, bu barədə protokolda müvafiq qeydlər aparılmalıdır. Bu zaman ekspertin ifadəsi və məlumatları da protokolda əks olunmalıdır. Əgər dindirilmənin gedişində fotomateriallar, audio-video qeydiyyat, kinoçəkiliş aparılmışsa, protokolda həmin fotomateriallar, audio-video qeydiyyat, kinoçəkiliş barədə, texniki vasitələri, onların aparılma şəraiti, audio-video qeydiyyatın, kinoçəkilişin dayandırılma vaxtı və səbəbi, bu qeydiyyat və çəkilişlərlə bağlı ekspertin bildirdikləri, protokolun düzgünlüyünü təsdiq edən ekspertin və müstəntiqin imzaları protokolda olmalıdır. Dindirilmə zamanı ekspert tərəfindən müəyyən sxemlər, şəkillər, diaqramlar tərtib oluna bilər ki, bunlar protokola əlavə olunmaqla, protokolda bu barədə müvafiq qeydlər aparılmalıdır.

CPM-nin 230.4 maddəsinə uyğun olaraq ekspertin qarşıya qoyulmuş suallara öz əli ilə yazılı cavab vermək imkanı verilir.

Ekspertin suallara özünün yazılı cavab verməsi, onun fikrinin dəqiq və düzgün ifadə olunmasına və müstəqilliyinin əlavə təminatına şərait yaradır.

Dindirilmənin sonunda protokol ekspertə oxunması üçün təqdim olunur. Protokol ekspertin xahişi ilə müstəntiq tərəfindən oxuna bilər. Dindirilmə protokolunun ekspertin özü tərəfindən oxunması daha məqsədəuyğun hesab olunur. Protokola əlavələr və dəqiqləşdirilmələr etmək barədə ekspertin vəsatəti təmin edilməlidir. İfadə ilə tanış olma və onun yazılmasının düzgünlüyünü ekspert protokolun sonunda və hər səhifəsində imza etməklə təsdiq edilir. Protokolun dəqiqləşməsi və ona əlavə olunan bütün izahlar ekspert tərəfindən imza edilməklə təsdiqlənməlidir. Dindirilmə protokolunu imzalamaqdan imtina etmək, CPM-nin 230.7 maddəsinə müvafiq qaydada aparılır. İlk növbədə, protokolu imza etməkdən imtina etmiş ekspertə imtina etmənin səbəblərini izah etmək imkanı verilməlidir və protokola əlavə olunmalıdır. Bu da qarşıya qoyulmuş suallara ekspertin öz əli ilə cavab verməsinin üstünlüyünü göstərən daha bir arqumentdir.

Məhkəmə icraatında ekspertin dindirilməsi yazılı rəyin elan olunmasına səbəb olur (CPM, maddə 331.12). Hakimdən başqa ekspertə prosesin tərəfləri də sual verə bilər. Bu zaman birinci olaraq, kimin təşəbbüsü ilə ekspertiza təyin olunmuşsa, həmin tərəf sualları verir (CPM, 331.5 maddə). Ekspertə həmçinin iclas iştirakçıları da suallar verə bilərlər. Ekspertə suallar həm də sədrlik edən vasitəsilə tərtib olunub yazılı şəkildə verilir. Həmin suallar təqdim olunmuş ittihama aid olmadıqda, ekspert cavab verməkdən imtina edilə bilər (CPM, maddə 97.4.2.).

Lazım gələrsə, hakim suallara cavab verilməsinə hazırlıq üçün ekspertə vaxt verir (CPM, 331.11 maddə). Prokurorun və ya müdafiəçinin vəsatəti ilə, məhkəmə ekspertin dindirilməsini təkrarlaya bilər (CPM, maddə 322.2). Ekspertin hakimin və ya tərəflərin suallarına cavab vermə (yazılı və ya şifahi) forması qanunda göstərilməyib. Məhkəmə iclasının gedişinin katib tərəfindən mütləq qaydada protokollaşdırılması, ekspertin suallara yazılı şəkildə cavab verməsi mümkünlüyünü istisna etmir. Ekspertin rəyi yazılı

şəkildə məhkəməyə təqdim edilir və sədrlik edənin göstərişi ilə məhkəmə iclasında elan olunur (CPM, maddə 331.12).

Ekspert, ekspertizanın aparılmasını ona tapşırmış şəxs tərəfindən, hazırkı məhkəmə ekspertizasının predmetinə aid olmayan məlumatlarla bağlı dindirilə bilməz.

Beləliklə, ekspertin dindirilməsi cinayət mühakimə icraatında peşəkar məhkəmə-tibbi fəaliyyətin ikinci əsas prosessual formasıdır və bu fəaliyyətin nəticəsi olan ekspert ifadəsi iş üzrə sübut növüdür.

FƏSİL 4. CİNAYƏT MÜHAKİMƏ İCRAATINDA MƏHKƏMƏ-TİBBİ FƏALİYYƏTİN PROSESSUAL FORMALARI

4.1. Ekspertin və mütəxəssisin prosessual hərəkətlərdə iştirakı.

Cinayət mühakimə icraatında məhkəmə-tibbi fəaliyyətin vacib əlavə prosessual forması ekspertin və ya mütəxəssisin prosessual hərəkətlərdə iştirakıdır (bax sxem № 2).

Ekspert idarəsinin rəhbəri və məhkəmə-tibb ekspertləri (mütəxəssislər) istintaq hərəkətlərinin təşkilinin və aparılmasının bir sıra vacib prosessual aspektlərini bilməli və nəzərə almalıdırlar ki, müvafiq protokollarda əksini tapmış sübutların qəbul olunmasının şərtlərindən biridir.

Yeni CPM-də cinayət mühakimə icraatı üçün «prosessual» və ya «istintaq» hərəkətləri terminlərinin xüsusi əhəmiyyətli olmasına baxmayaraq, onlara aydınlıq verilməmişdir. Ədəbiyyatlarda «istintaq hərəkətləri» terminlərinin anlayışı müstəntiqin dəlilləri toplamasının, tədqiqatının, qiymətləndirilməsinin və istifadə etməsinin cinayət prosessual qanunvericiliyi tərəfindən reqlamentləşdirilmiş fəaliyyəti başa düşülür.

Qanunvericilik prosessual hərəkətləri, istənilən istintaq, məhkəmə yaxud CPM-də nəzərdə tutulmuş digər hərəkətlər kimi müəyyən edir. Məhkəmənin qərarı və ya prokurorun sanksiyasının tələb olunduğu hallar istisna olunmaqla istintaqın istiqaməti, o cümlədən istintaq və digər prosessual hərəkətlərin aparılması barədə qərarları müstəntiq özü sərbəst qəbul edir və onların qanuni və vaxtında aparılması üçün tam məsuliyyət daşıyır.

Cinayət prosessual qanununda təxirəsalınmaz və digər istintaq hərəkətləri, kriminalistikada isə ilkin və sonrakı istintaq hərəkətləri ayırd edilir. Təxirəsalınmaz hərəkətlər dedikdə cinayət işi qaldırıldıqdan sonra təhqiqat orqanları tərəfindən aparılan və ibtidai istintaqın aparılması mütləq olan hərəkətlər başa düşülür. Onların

məqsədləri cinayət izlərinin, həmçinin götürülməsi və tədqiqat aparılması tələb olunan digər sübutların aşkar olunması və təsbit olunmasıdır. Bu baxış, axtarış, götürmə, müayinə, şübhəli şəxsin saxlanması və dindirilməsi, zərərçəkmiş və şahidin dindirilməsi kimi prosessual hərəkətdir.

«Təxirəsalınmaz» və «ilkin» anlayışlar bir-biri ilə uyğun gələ və gəlməyə də bilər. Əksər hallarda, təxirəsalınmaz və ilkin istintaq hərəkətləri sübutların müəyyən və təsbit olunması məqsədi daşıyır, istintaqın ilkin mərhələsində aparılır. Bu zaman həmin anlayışlar üst-üstə düşür. İlkin istintaqdan sonra olan istintaq hərəkətləri nəinki sübutların müəyyən və təsbit edilməsinə, həm də onların tədqiqi, qiymətləndirilməsi və istifadə olunmasına yönəlir. Bunlara istintaq eksperimenti, müqayisəli müayinə üçün nümunələrin götürülməsi, tanınmanın aparılması və digər istintaq hərəkətləri aiddir. Eyni zamanda istənilən digər istintaq hərəkəti istənilən istintaq mərhələsində təxirəsalınmaz xarakter ala bilər. Məsələn, zərərçəkmiş şəxs əvəzinə digər şəxsin basdırılması barədə məlumat olduqda ekshumasiya və meyitin tanınmasının aparılmasına təxirəsalınmaz prosessual hərəkət kimi baxılır.

İstintaq hərəkətləri işi icraata qəbul etmiş müstəntiq, işin istintaqına nəzarət edən prokuror tərəfindən, eləcə də tədqiqat orqanları tərəfindən sərbəst yaxud müstəntiqin tapşırığı ilə aparıla bilər. (CPM, maddə 177.4).

Qanun ancaq qaldırılmış və istintaq olunan cinayət işi üzrə istintaq hərəkətlərinin aparılmasının mümkünlüyünü nəzərdə tutur. Təxirə salınması mümkün olmayan hallarda cinayət işi qaldırılana qədər hadisə yerinə baxış keçirilməsi istisna olunur (CPM, maddə 207.4).

Hazırkı cinayət işi üzrə tədqiqat və ya istənilən istintaq hərəkətlərinin aparılmasına, həmin cinayət işi üzrə əməliyyat-axtarış tədbirləri keçirmiş və ya keçirən şəxsin mütəxəssis kimi cəlb olunmasına yol verilmir. İstintaqı dayandırılmış cinayət işi üzrə istintaq hərəkətlərinin, eyni zamanda məhkəmə ekspertizasının aparılması qanun pozuntusudur (CPM, maddə 277.6).

Ekspertin və mütəxəssisin istintaq və məhkəmə hərəkətlərində iştirakını tənzim edən qanunun ümumi qaydaları qanunvericilikdə təsbit olunmuşdur. Qanunun bu normaları ekspertin və mütəxəssisin prosessual statusunu, hüququnu, vəzifələrini, məsuliyyətini, istintaq hərəkətlərində iştirak qaydalarını müəyyən edir. Ümumi qaydalar ayrı-ayrı istintaq hərəkətlərini və məhkəmə fəaliyyətini nizamlayan cinayət-prosessual məcəlləsinin maddələrində konkretləşdirilir, məsələn, meyitə baxış və ekshumasiya (CPM, maddə 237), istintaq eksperimenti (CPM, maddə 262), şəxsin axtarışı (CPM, maddə 246), şəxsin tanınması (CPM, maddə 239), ekspertin dindirilməsi (CPM, maddə 272), ifadələrin yerində yoxlanılması (CPM, maddə 260), müqayisəli müayinə üçün nümunələrin götürülməsi (CPM, maddə 273).

Ümumi planda ekspertizanın aparılması da istintaq hərəkətidir. Lakin məhkəmə-tibbi fəaliyyətin təklif olunmuş təsnifat formalarında ekspertiza, cinayət mühakimə icraatında xüsusi biliklərdən istifadə olunmanın əsas prosessual formasıdır.

İstintaq hərəkətlərində «ekspertin iştirakı» və «mütəxəssisin iştirakı» anlayışlarına münasibət müəyyən maraq kəsb edir. Bunlar cinayət mühakimə icraatında xüsusi biliklərin cəlb olunmasının iki sərbəst prosessual formalarıdır. Onları birləşdirən hər iki formanın cinayət işi üçün əhəmiyyətli halların müəyyən olunması üçün istintaqda istifadə olunmasıdır. Hər iki halda istintaq hərəkətində iştirak edən ekspert və mütəxəssis hər hansı bir tədqiqat aparmır, yazılı yaxud şifahi rəy vermirlər. İstintaq hərəkətinin gedişi zamanı ekspert yaxud mütəxəssis tərəfindən müəyyən edilmiş faktlar sübut əhəmiyyətli ola bilər. Lakin bu hal ekspert rəyi və ya ekspert ifadəsi kimi sərbəst sübut kimi qəbul edilmir. Onlar tərəfindən aşkar olunmuş məlumatlar prosessual hərəkətlərin ümumi nəticəsinin tərkib hissəsidir və müstəntiq tərəfindən müvafiq protokolun mətnində fiksasiya olunur. Ekspertin və mütəxəssisin bütün qiymətverici fikirləri isə ilkin xarakter daşıyır və şifahi ifadə olunur.

«Ekspertin» və «mütəxəssisin iştirakı»nın digər ümumi prosessual əlaməti onların fəaliyyətinin köməkçi xarakterli olmasıdır. Ekspert və mütəxəssis istintaq hərəkətlərinin gedişində müstəntiqin

rəhbərliyi və nəzarəti altında, verdiyi tapşırıqlar çərçivəsində işləyirlər.

«Ekspertin iştirakı» və «mütəxəssisin iştirakı» anlayışları arasında fərqlər onların prosessual statusları arasında olan fərqlə bağlıdır. Əgər mütəxəssisin fəaliyyəti tabeçilik xarakteri daşıyırsa, onun bütün hərəkətləri hüquqi baxımdan müstəntiq tərəfindən ciddiliklə müəyyən edilir. Qanunun ona vermiş olduğu hüquqlar çərçivəsində belə o, ancaq müstəntiqin razılığı yaxud tapşırığı ilə fəaliyyət göstərir. Ekspert isə iş üzrə eyni zamanda istintaq hərəkətlərində iştirak etməklə, özünün prosessual sərbəstliyini və müstəqilliyini tam itirmir. Ekspert təşkilati cəhətdən müstəntiqin göstərişlərinə tabe olsa da, ekspert qanunun ona vermiş olduğu hüquqlarını saxlayır. İstintaq hərəkətinin hazırlığı və gedişində öz xüsusi biliyi və fəaliyyət predmeti çərçivəsində o iş materialları ilə tanış ola bilər, əlavə materialların təqdim olunması barədə vəsatət verə bilər, ona verilmiş tapşırıqlar çərçivəsindən kənara çıxa bilər və sairə.

İstintaq hərəkətinin gedişində ekspert və mütəxəssisin xüsusi biliklərindən istifadə məqsədlərində də müəyyən fərqlər var. Mütəxəssis başlıca olaraq, müstəntiqə istintaq hərəkətlərinin hazırlığında və aparılmasında, müxtəlif izlərin və obyektlərin axtarılmasında, istintaq hərəkətlərinin nəticəsinin fiksasiyasında elmi-texniki köməyin göstərilməsində, müstəntiqə xüsusi məsələlər üzrə məsləhətlər verilməsi və digər hallar üçün cəlb olunur. Ekspertin prosessual hərəkətlərdə iştirakının əsas vəzifəsi isə müstəntiqə izlərin, obyektlərin, əlamətlərin, istintaq olunan halların qarşılıqlı əlaqəsinin olmasının aydınlaşdırılmasında, əvvəl müəyyən edilmiş istintaq və ekspert məlumatlarının yoxlanılmasında və onlar arasında olan ziddiyyətlərin aradan qaldırılmasında, sonrakı tədqiqatların keyfiyyətli təşkil edilməsi üçün əlavə məlumatların və nəticələrin aydınlaşdırılmasında köməklik göstərməkdir. Qeyd olunanlar ekspert tərəfindən müstəntiqə elmi-texniki köməyin göstərilməsini istisna etmir. Ancaq ekspertin fəaliyyətində bu funksiyalar, «mütəxəssis iştirakı»ndan fərqli olaraq ikinci dərəcəli hesab olunur.

Nəhayət, daha da bir əhəmiyyətli fərq ondan ibarətdir ki, mütəxəssisin fəaliyyəti istintaq hərəkətinin aparılması vaxtı ilə

məhdudlaşaraq, onun qurtarması ilə eyni vaxtda başa çatır. Ekspertin istintaq hərəkətində iştirakına isə şərti olaraq icra edilən məhkəmə-tibbi ekspertizanın bir mərhələsi kimi baxmaq olar.

Bütün göstərilən fərqləndirici xüsusiyyətlər və məhkəmə həkiminin özünəməxsus prosessual statuslarının olması, «ekspertin iştirakı»na və «mütəxəssisin iştirakı»na cinayət mühakimə icraatında istintaq və məhkəmə hərəkətlərinin aparılmasında məhkəmə-tibbi biliklərdən istifadə olunmanın əlavə prosessual formaları kimi ayırd edilməsinə əsas verir. Meyitə baxış, ekshumasiyanın keçirilməsində və şəxsin müayinəsində iştirak qanuna görə mütləqdir. Mütəxəssisin (ekspertin) prosessual hərəkətlərdə iştirakının digər formaları isə müstəntiq üçün həmişə könüllüdür. Onların cəlb olunması haqqında qərarı o konkret işin xüsusiyyətlərindən asılı olaraq qəbul edir.

Mütəxəssis qanunvericiliyin müəyyən etdiyi qaydada istintaq hərəkətlərinin iştirakına cəlb edilərək, predmetlərin və sənədlərin aşkar olunması, təsbit edilməsi və götürülməsi, cinayət işi materiallarının tədqiqində texniki vasitələrdən istifadə edilməsi, ekspert qarşısında sualların qoyulması, həmçinin öz peşəkar fəaliyyəti daxilində tərəflərə və məhkəməyə sualların aydınlaşdırılmasında kömək göstərilməsi üçün xüsusi biliyə malik olan şəxsdir. (CPM, maddə 96).

Mütəxəssis, ekspert kimi cinayət prosesinin iştirakçısıdır və müəyyən prosessual statusa malikdir.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin normaları, o cümlədən, məhkəmə təbabəti və hüquq elmi mənbələrinin analizi, mütəxəssisə cinayət prosesinin iştirakçısı kimi və cinayət mühakimə icraatında onun xüsusi biliklərindən istifadə olunması üçün onun qarşısında bir sıra tələblər qoyur. Mütəxəssisin fəaliyyətinin qanuni olması şərti və ya həmin tələblər aşağıdakılardan ibarətdir:

- səlahiyyətlilik, yəni şəxsin, insan fəaliyyətinin hər hansı məhdud sahəsində xüsusi biliyə və bu biliklərin tətbiq olunması üçün praktiki vərdişlərə malik olması - müstəntiq tərəfindən sənədli şəhadətnamələr və mütəxəssisin əsas iş yerini nəzərə alaraq təyin edilir;

- mütəxəssisin şəxsiyyətinin doğruluğunun müəyyən edilməsi - mütəxəssisin şəxsiyyətinin doğruluğu müstəntiq tərəfindən şəxsiyyət vəsiqəsi və digər sənədlər (xidməti vəsiqə) ilə müəyyən edilir;
- cinayət-prosessual qanunvericiliyin tələblərinə müvafiq olaraq təhqiqatçının, müstəntiqin, prokurorun yaxud məhkəmənin mütəxəssisi çağırma proseduralarına əməl etmə;
- işin nəticəsində maraqlı olmamaq - müstəntiq tərəfindən mütəxəssisin şübhəli, təqsirləndirilən, zərərçəkmiş və cinayət mühakimə icraatının digər iştirakçıları ilə münasibətinin aydınlaşdırılması, onlardan və ya nümayəndələrindən xidməti və ya digər asılılığın müəyyən olunması ya da istisna edilməməsi yolu ilə həll olunur;
- vəzifələrinin yerinə yetirilməsindən imtina etmək və ya yayınmağa görə, eləcə də prosessual hərəkətlərin aparılması qaydasına görə mütəxəssisin hüquqları, vəzifələri və məsuliyyət daşıması ilə tanış olma - müstəntiq və ya məhkəmə tərəfindən aparılır və mütəxəssisin şəxsi imzası ilə təsdiq olunur;
- İstintaq hərəkətinin icrasında iştirak etmək, yəni mütəxəssisin müəyyən prosessual formalara və öz funksiyalarının yerinə yetirilmə qaydalarına əməl etməsi;
- İstintaq hərəkətinin nəticələrinin, o cümlədən mütəxəssisin işinin nəticələrinin vahid prosessual forması kimi protokolunu tərtib etmək;
- Protokolla tanış olmaq və mütəxəssis tərəfindən istintaq hərəkətinin protokolunu imzalamaq;
- İstintaq hərəkətinin digər iştirakçılarının prosessual hüquqlarına əməl etmək, şərəf və ləyaqətinə hörmət etmək, həyat və sağlamlığı üçün təhlükəsizliyi təmin etmək.

Şəxsin iş üzrə mütəxəssis kimi fəaliyyətinin qanuni olması üçün sadalanan şərtlər, CPM-nin müvafiq maddələrinin məzmunundan irəli gəlir. Bu tələblərə əməl edilmədikdə məhkəmə-həkimi prosessual mənada mütəxəssis sayıla bilməz və onun fəaliyyəti şübhə altına qoyula bilər (məsələn, əgər istintaq hərəkətinin protokolu,

qanunun tələbi pozulmaqla tərtib edilmişsə, əgər icrası zamanı digər iştirakçıların hüquqlarının pozulmasına yol verilibsə və s.).

İş materiallarındakı hər hansı bir sənədin (arayışlar, yoxlama və təftiş aktları, tibbi karta və digər sənədlər, o cümlədən meyitin məhkəmə-tibbi müayinə aktı və ya şəxsin şəhadətləndirilməsi aktı) müəllifinin iş üzrə mütəxəssis kimi cəlb edilməsinə, yəni proses iştirakçısı olmasını qəbul etməyə əsas vermir. Mütəxəssisin səlahiyyətinə şübhə olmadıqda belə, əgər qanunla müəyyən edilmiş qaydada mütəxəssisin hüququ, vəzifələri və məsuliyyət daşımasının izah edilməsi faktı şəxsi imza ilə təsdiq edilməmişsə, istintaq hərəkətinin protokolu onun iştirakı ilə tərtib olunmamışsa, onun hər hansı bir prosessual statusundan danışmaq olmaz.

Bu baxımdan, yeni CPM problemlərin müəyyən hissəsini həll edərək ekspertə onun iş üzrə mütəxəssis kimi, əvvəlki iştirakından asılı olmayaraq iştirak etməyə icazə verir. Belə ki, ekspertin mütəxəssis kimi işdə əvvəlki iştirakının düzgün prosessual qanuniləşdirilməsi vacib şərtdir. Təcrübədə məhkəmə-tibbi tədqiqatların və müayinələrin aparılması və onların nəticəsinə görə müayinə aktlarının tərtib edilməsi CPM-nin tələblərinə uyğun gəlmir. Cinayət işində müvafiq sənədlərin olması faktı və həmin sənədlərdəki tədqiqatları aparmış şəxs birmənalı mütəxəssis kimi qəbul edilmir. Əksinə, əgər sonradan həmin «mütəxəssis» iş üzrə ekspert təyin edilərsə, bu tərəflərə formal olaraq onun hazırkı iş üzrə nəticəsində maraqlı olması qənaətinə gəlməyə imkan verəcək ki, bu da CPM-nin 97-ci maddəsinə görə ekspertin kənarlaşdırılması üçün əsasdır.

Göstərilən ziddiyyətin həll edilməsinin mümkün olan bir variantı "M.T.E. və P.A." Birliyi tərəfindən meyitin və digər obyektin ekspertizası istintaq baxışında, ekshumasiyada və digər hərəkətlərdə iştirak etmiş şəxsə, yəni ekspertizanın icrası əvvəl mütəxəssis qismində cəlb edilmiş şəxsə həvalə edilir. Digər mümkün yol - məhkəmə-tibbi müayinə aktına prosessual status verilib müvafiq istintaq hərəkəti - meyitə baxış və ya müayinə protokoluna əlavə edilməsidir. Akt tərtib edərkən bütün prosessual tələblərə əməl edilməlidir. CPM-nin 96-cı maddəsinə əsasən hüquqları və vəzifələrinin izah edilməsi barədə mütəxəssisin imzası, əlavə və

laborator tədqiqatlar üçün götürülmüş obyektlərin və nümunələrin, qablaşdırılmanın xarakteri və hara göndərilməsi ətraflı təsvir edilməlidir. Akt təhqiqatçı və ya müstəntiq tərəfindən imzalanmalıdır (əgər o tədqiqat və ya şəxsin müayinəsində iştirak etmişsə). Qanunvericiliyin tələblərinə uyğun olaraq təşrih zamanı hal şahidlərinin iştirakı (əgər ona istintaq baxışının davamı kimi baxılırsa), mütləq deyil.

Mütəxəssisin prosessual statusu onun hüquqları, vəzifələri və onların yerinə yetirilməməsi ilə bağlı qanunla nəzərdə tutulmuş məsuliyyət daşıması ilə müəyyən edilir. Bu mənada cinayət prosesində mütəxəssisin prosessual vəziyyəti ilə ekspertin statusu arasında fərq vardır.

Ekspertin geniş və dəqiq müəyyən edilmiş hüquqlarından fərqli olaraq, mütəxəssisin hüquqları son vaxtlara qədər məhdudlaşdırılmış və qanunda ümumi qaydada göstərilmişdir. Qanun mütəxəssis tərəfindən çəkilmiş xərclərin ödənilməsi və xidməti tapşırıqdan kənar yerinə yetirilmiş işə görə mükafatlandırılmasını nəzərə almasaq, faktiki olaraq mütəxəssisin hüquqlarını cinayət mühakimə icraatında sübutların aşkar olunması, təsbit edilməsi və götürülməsi ilə bağlı məlumatlar verməsinin mümkünlüyü ilə müəyyən edir.

Məhkəmə-tibbi mənbələrdə mütəxəssisin prosessual vəziyyətinə dair məlumatlar olduqca azdır. Son illər cinayətlərin istintaqında elmi-texniki biliklərin, müasir texniki vasitələrin və informasiya texnologiyasının rolunun obyektiv artma prosesi yeni CPM-də öz əksini taparaq mütəxəssisin səlahiyyətləri konkretləşdirilmiş və genişləndirilmişdir.

CPM-nin 96.6-cı maddəsinə əsasən mütəxəssisin aşağıdakı hüquqları var:

- əgər o müvafiq xüsusi biliklərə malik deyilsə, cinayət işinin icrasında iştirak etməkdən imtina etmək;
- təhqiqatçının, müstəntiqin, prokurorun və məhkəmənin icazəsi ilə istintaq hərəkəti iştirakçılarına suallar vermək; iştirak etdiyi istintaq hərəkəti protokolu ilə tanış olmaq, yazıların tamlığına və düzgünlüyünə dair protokola əlavələr etmək;

- təhqiqatçının, müstəntiqin, prokurorun və məhkəmənin onun hüquqlarını məhdudlaşdıran hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından şikayət vermək.

Göstərilənlərlə yanaşı, mütəxəssisə tərcüməçinin səlahiyyətli olmaması aşkar olunarsa, ondan etiraz etmək barədə vəsatət vermək hüququ verilmişdir.

Mütəxəssis müstəntiqin çağırışına mütləq gəlməlidir (CPM, maddə 96.4.1.). Belə ki, prokurorun, təhqiqat orqanlarının, təhqiqatçının qanunun onlara verdiyi hüquqlar daxilində istənilən tələbi (o cümlədən çağırış), tapşırığı və sorğusu bütün müəssisələr, təşkilatlar, vəzifəli şəxslər və vətəndaşlar tərəfindən icra edilməsi mütləqdir.

CPM-nin 96-cı maddəsinə görə mütəxəssisin prosessual hərəkətlərdə iştirak etməkdən o hallarda imtina etmək hüquq vardır ki, özü lazımi biliyə malik olmamasını, yaxud etiraz üçün əsasların olmasını hesab edir. O, çağırışda iştirak edə bilməməsi barədə bildirmək üçün mütləq gəlməlidir. Yaxud müstəntiqlə razılaşdırılaraq ona prosessual hərəkətdə iştirak etməməsi barədə əsaslandırılmış imtina göndərməlidir.

İbtidai istintaqın gedişində mütəxəssisin çağırılma qaydaları qanunla tənzimlənmişdir. Şəxs mütəxəssis qismində mühakimə icraatı iştirakçılarının məhkəməyə çağırılması üçün nəzərdə tutulmuş ümumi qaydada CPM-nin 85.4.3. maddəsinin tələblərinə əməl etməklə çağırılır. Sadalanan normalar məhkəməyə çağırış prosedurasını bildiriş yaxud göndəriş vərəqəsi ilə müəyyən edir. Qanunvericiliyə əsasən, tərəflər ilkin dinləmənin aparılmasının başlamasına 7 gündən az olmayan müddətdə xəbərdar olunmalıdırlar; CPM-nin 298-ci maddəsinə əsasən isə məhkəmə iclasının vaxtı, tarixi, yeri barədə onlar başlanmaya 7 gün qalmış məlumatlandırılmalıdırlar. Bildiriş vərəqəsində adətən kimin çağırılması, hansı qisimdə çağırılması, hara gəlməsi, gəlmə saatı və günü, o cümlədən gəlməməyinin nəticələri göstərilir.

Bu qayda, mütəxəssisin çağırılmasına zərurət yaranan hallarda da tətbiq olunur. Lakin, vacib hallarda, məsələn, təxirəsalınmaz istintaq hərəkətlərinin icrası zamanı (meyitə baxış, şəxsin müayinəsi və s.),

mütəxəssislə razılaşaraq telefonoqram, teleqram və ya digər rabitə vasitəsi ilə təcili çağırılmasına yol verilir. Təcrübədə belə qayda "M.T.E. və P.A." Birliyinin ştatlı əməkdaşı olan mütəxəssisinə və ya iş üzrə əvvəl ekspert təyin edilmiş şəxsin istintaq və ya məhkəmə hərəkətlərində iştirakı tələb olunan hallarda tətbiq olunur.

Göründüyü kimi, prosessual hərəkətlərdə mütəxəssisin iştirakı üçün iş üzrə ekspertin təyin edilməsi üçün qərar çıxarılması, eləcə də ekspert müəssisəsinin rəhbəri tərəfindən ekspertə müvafiq tapşırıqlar verilməsi tələb olunursa, çağırış üsullarında məhkəmənin və müstəntiqin səlahiyyətləri ciddi məhdudlaşdırılmayıb. Çağırış şifahi və ya yazılı, təcili və ya vaxtında, şəxsən və ya mütəxəssis işlədiyi idarənin rəhbəri tərəfindən həyata keçirilir. Mütəxəssisin vəzifələri, iştirak edəcəyi istintaq hərəkətinin məzmunu göndərilmiş çağırışda yazılı surətdə qabaqcadan bildirilməsi daha səmərəlidir. Bu üsul ən çox mütəxəssisin hüquqlarına əməl olunmasına təminat verir, onun öz işini əvvəlcədən planlaşdırmağa və hazırlaşmağa imkan yaradır. Məsələn, qarşıya qoyulmuş məsələlərin onun səlahiyyətinə aid olmaması və ya lazımi biliklərinin və təcrübəsinin olmaması səbəbindən iştirak edə bilməyəcəyi barədə vaxtında məlumat verir.

Qanunvericiliyə əsasən, istənilən prosessual hərəkətlərdə (ekspertizanın icrası istisna olunmaqla) bilikli şəxs həm mütəxəssis, həm də ekspert kimi iştirak edə bilər. Bu zaman aşağıdakı variantlar mümkündür:

- İstintaq hərəkətinə (məsələn, ifadənin yoxlanılması və ya dindirilmə) iş üzrə əvvəl ekspert təyin edilmiş və həmin iş üzrə məhkəmə-tibbi ekspertiza aparan şəxs mütəxəssis kimi cəlb olunur;
- İş üzrə əvvəl ekspertiza yerinə yetirmiş, yoxlanılması yaxud dəqiqləşdirilməsi tələb olunan faktlar və hallar yerinə yetirilmiş ekspertiza predmetilə və əvvəl verilmiş rəylə əlaqəsi olan hallarda prosessual hərəkət mütəxəssisin iştirakı ilə aparılır;
- Yeni halların baxılmasına zərurət yarandığı zaman;
- İş üzrə əvvəl iştirak etməmiş mütəxəssisin iştirakı ilə istintaq hərəkətinin icrası.

Ekspertin iş üzrə istintaq hərəkətinə cəlb edilməsi, məhkəmə ekspertizasının təyin olunması barədə əvvəl çıxarılmış qərar

çərçivəsində və yaxud ekspertə prosessual hərəkətdə iştirak etməsi barədə müvafiq tapşırıq verilməsi ilə həyata keçirilir. Bu halda, istintaq hərəkəti ekspertizanın icrası ilə eyni zamanda həyata keçirilir və bəzən ekspertizanın bir mərhələsini təşkil edir. Burada prosessual hərəkətin məqsədi ekspertin qarşısında qoyulmuş sualların həlli ilə birbaşa bağlıdır. Belə halda istintaq hərəkətinin icrasına və ekspertin iştirak etməyə cəlb olunmasına müstəntiqdən əlavə heç bir prosessual tərtibat tələb olunmur.

İkinci variantda, prosessual hərəkətdə iştirak etməyə iş üzrə əvvəl ekspertiza yerinə yetirmiş və ekspertizanın icrası başa çatdıqdan sonra bu iş üzrə ekspertin prosessual statusunu formal itirmiş mütəxəssis cəlb edilir. Bu halda onun hüquqları istintaq hərəkətinin gedişində müstəntiqin qərarı ilə, iş üzrə ekspert üçün nəzərdə tutulmuş hüquqların hesabına genişləndirilə bilər. Mütəxəssisin çağırışı şifahi və ya telefonoqram ilə həyata keçirilir. İş materialları ilə əlavə tanış olmağın vacibliyi meydana çıxarsa, müstəntiq bu məsələni həll edir. Cinayət prosesində mütəxəssis bu hüquqlara malik olmasa da, müstəntiqin sərbəst olaraq müvafiq qərar qəbul etmək hüququ vardır. Hal-hazırda bu təcrübə geniş tətbiq olunur.

Əgər istintaq hərəkəti yeni aşkar olunmuş və buna qədər ekspertə məlum olmayan hallar üzrə baxılmasının vacibliyi ilə bağlı aparılırsa, yaxud əgər istintaq hərəkətlərində iştirak etməyə iş üzrə əvvəl iştirak etməmiş mütəxəssis cəlb edilirsə, iş başqa hal alır. Aydındır ki, ekspert qismində yeni şəxsin və ya mütəxəssisin cəlb edilməsi faktiki əsasların dəyişilməsinə bərabər olmaqla və ayrıca sənəd tərtib etməklə müvafiq prosessual qanuniləşdirmə tələb edə bilər: - mütəxəssisin rəsmi çağırılması, bir sıra prosessual hərəkətlər, müqayisəli tədqiqatlar üçün nümunələrin götürülməsi, şəxsin müayinəsi və bir sıra prosessual hərəkətlər mütləq qaydada qərar çıxarılmasını tələb edir.

Qərarda müəyyən olunmalı və yoxlanılmalı hallar, bu halların mümkünlüyü və doğruluğunun müəyyən edilməsi şərtləri dəqiq və tam təsvir edilməlidir.

Əgər istintaq hərəkətinin icrasına iş üzrə əvvəl iştirak etməmiş mütəxəssis cəlb edilirsə, onun hüquqları ekspertin hüquqları ilə

müqayisədə məhdudlaşır. Təcrübədə müstəntiqin mütəxəssisin müraciət və məsləhətlərinin yerinə yetirilməsindən imtina etməsi hallarına demək olar ki, rast gəlinmir.

Prokurorun, müstəntiqin, təhqiqat orqanının, təhqiqatçının və məhkəmənin mütəxəssisi çağırması barədə tələbi mütəxəssisin işlədiyi müəssisənin, idarənin, təşkilatın rəhbəri üçün mütləqdir. Əgər mütəxəssisin göndərilməsinin mümkün deyilsə, idarənin rəhbəri müstəntiqi bu barədə yazılı formada məlumatlandırmalıdır.

Köhnə CPM-nə görə müstəntiqin mütəxəssisi çağırması hüququ mütləq deyildir. O, mütəxəssisi cinayət-prosessual məcəlləsinin nəzərdə tutduğu və istintaqın maraqları ilə bağlı hallarda çağıra bilərdi. Bəzi hüquqşünas alimlər hesab edirdilər ki, bu müstəntiqin hüquqlarını məhdudlaşdırır. İstintaqın gedişi zamanı xüsusi biliklərdən və elmi-texniki vasitələrdən istifadə olunmasına mane olurdu. Belə ki, qanunda bir sıra istintaq hərəkətlərinə (dindirilmə, tanınmaya təqdim olunma, ifadənin yoxlanılması və s.) mütəxəssisin cəlb edilməsi ümumiyyətlə nəzərdə tutulmamışdır. Yeni CPM-nin qəbul olunması ilə mütəxəssisin prosessual hərəkətlərə cəlb edilməsinə maneələr praktiki olaraq aradan götürülübdür. CPM-nin müvafiq maddəsinə görə isə ibtidai istintaqın gedişində, istintaq hərəkətlərinin istiqaməti və icrası barədə bütün qərarları müstəntiq sərbəst qəbul edir, onun qanuni və vaxtında aparılmasına tam məsuliyyət daşıyır.

Qanun istintaq hərəkətində iştirak etmək üçün hansı sahənin mütəxəssisinin cəlb olunmasına müxtəlif cür yanaşır. Xüsusi biliklərdən istifadə olunmanın mümkünlüyünü nəzərdə tutan qanunun bir sıra normalarında, ümumiyyətlə mütəxəssis iştirakından, yəni onun peşəsinin və ixtisasının qeyd olunmamasından danışılır. Məsələn, şəxsin axtarışını nəzərdə tutan CPM-nin 244.3 maddəsində «müvafiq mütəxəssisin» çağırılması, CPM-nin 275.3 maddəsində isə müqayisəli tədqiqatlar üçün nümunələrin götürülməsi məqsədilə «mütəxəssis» çağırılması barədə danışılır. Digər normalarda isə bilikli şəxsin peşəsi, məsələn, həkim olması göstərilir (CPM, maddə 238.4, «şəxsi müayinə»). Başqa variantda isə - bilikli şəxsin ixtisası

göstərilir, belə ki, CPM-nin 237.2 maddəsi tələb edir ki, ekshumasiya məhkəmə-tibb ekspertinin iştirakı ilə aparılmalıdır.

Qanun müstəntiq və ya məhkəmə tərəfindən prosessual hərəkətlərə iştirak etməsi üçün cəlb olunan mütəxəssislərin sayına məhdudiyyət qoymur. Qarşıya qoyulmuş sualların xüsusi ilə mürəkkəb olduğu, bu məsələlərin həllinin kompleks xarakter daşıdığı və qarşıdakı işin həcminin böyük olduğu hallarda mütəxəssislər qrupunun cəlb edilməsi məqsədə müvafiqdir. Bir neçə mütəxəssisin iştirak etdiyi halda onların hər biri sərbəstdir və başqalarından heç bir asılılığı yoxdur.

Çağırışa gələn mütəxəssis istintaq hərəkətinin icrasında mütləq iştirak etməlidir. O xüsusi biliklərindən və vərdişlərindən istifadə etməklə müstəntiqə predmetlərin və nümunələrin aşkar olunması və götürülməsində, texniki vasitələrin tətbiqində köməklik göstərməlidir.

Lakin, CPM mütəxəssisi bu vəzifələrdən azad edən və konkret şəxsin işdə iştirakını istisna edən bir sıra hallar nəzərdə tutur. Mütəxəssis barəsində belə hallar CPM-nin 96.6 maddəsində göstərilmişdir. Mütəxəssis aşağıdakı hallarda istintaq hərəkətinin icrasında iştirak edə bilməz:

- əgər o, ekspert kimi iştirakı istisna olunmaqla, hazırkı iş üzrə digər qisimdə iştirak edirsə (zərərçəkmiş, mülki iddiaçı və ya mülki cavabdeh, şahid, onların nümayəndəsi və s.);
- əgər o hazırkı cinayət işi iştirakçılarından hər hansı birinin qohumudursa;
- əgər o tərəflərdən və ya onların nümayəndələrindən xidməti yaxud
- digər formada asılıdırsa;
- onun səlahiyyəti olmaması aşkar olunarsa;
- əgər mütəxəssisin işin nəticəsində birbaşa və ya dolayısı ilə maraqlı olduğuna əsas verən digər hallar olarsa.

Göstərilən halların aydınlaşdırılması - müstəntiqin, təhqiqatçının və məhkəmənin səlahiyyətlərinə aiddir. Bunun üçün o, istintaq hərəkəti başlanmazdan əvvəl, mütəxəssisin şəxsiyyətini və

səlahiyyətli olmasını təsdiqləyir, hazırkı cinayət işi üzrə iştirakçılara qarşı münasibətini aydınlaşdırır, etiraz üçün digər əsasların olub-olmamasını müəyyənləşdirir. Göstərilən əsaslar gec müəyyən edilərsə, mütəxəssisə şübhəli və təqsirləndirilən şəxs, müdafiəçi, dövlət ittihamçısı, mülki cavabdeh, mülki iddiaçı və onların nümayəndəsi tərəfindən etiraz edilə bilər. Ekspertdən fərqli olaraq, mütəxəssisin özü-özünü etiraz etməsi qanunda nəzərdə tutulmayıb. Lakin yuxarıda göstərilən prosessual əsaslar olduqda mütəxəssis bu barədə dərhal prosesdə iştirak etmək üçün cəlb edən idarənin rəhbərinə yazılı surətdə bildirməlidir.

Məhkəməyə qədər icraatda mütəxəssisdən etiraz edilməsi barədə qərarı təhqiqatçı, müstəntiq və prokuror qəbul edir. Məhkəmə icraatının gedişində isə cinayət işinə baxan məhkəmə yaxud məhkəməyə sədrlik edən hakim qərar qəbul edir.

Əgər mütəxəssis və ekspertdən etiraz üçün əsaslar çox hallarda uyğun gəlirsə, hüquqi məsuliyyət baxımından onların prosessual vəziyyətləri kifayət qədər fərqlidir. Ekspertdən fərqli olaraq, mütəxəssis sərbəst sübut əhəmiyyətli hər hansı faktı müəyyən etmir. Müstəntiqin suallarına yazılı rəy vermir və onun çoxlu şifahi fikirləri ilkin xarakter daşıyır və əvvəlcədən bilə-bilə yalan rəy verməyə görə məsuliyyət daşımır. Mütəxəssis proses iştirakçısı kimi, CM-nin 297-ci maddəsinə əsasən məsuliyyət daşıması barədə xəbərdar olunmur. Bundan başqa, öz vəzifələrinin icrasından imtina etməyə və ya yayınmaya görə mütəxəssis heç bir cinayət məsuliyyəti daşımır. Lakin üzürsüz səbəbə görə çağırışa gəlməmə hallarında mütəxəssisə, ekspertə olduğu kimi, prosessual məcburiyyət tədbirləri tətbiq oluna bilər. Gətirilmə üçün əsas və qayda, yəni iş üzrə mütəxəssisin məcburi gətirilməsi, ekspertə münasibətdə olduğu ilə uyğundur.

CM-də mütəxəssisin maddi sübutu qəsdən xarab etməsinə yaxud məhv etməsinə görə məsuliyyət daşıması haqqında göstəriş yoxdur. Bu hal mütəxəssisin bütün hərəkətlərini mütləq müstəntiqlə razılaşaraq aparması və onun rəhbərliyi altında işləməsi ilə bağlıdır.

Mütəxəssis eyni zamanda, cinayət prosesinin digər iştirakçıları kimi mütəxəssis də CM-nin 96.4.9 maddəsinə görə ibtidai istintaq məlumatlarını yaymağa görə məsuliyyət daşıyır. Çox vaxt aşkar və

açıq aparılan məhkəmə araşdırmasından fərqli olaraq, ibtidai istintaqın gedişində aşkarlığa qanunla ciddi məhdudiyyətlər həddində yol verilir. Prosessual hərəkətlər zamanı məlum olmuş məlumatların müstəntiqlə razılaşmadan mütəxəssis tərəfindən aşkarlanması istintaqın gedişini əhəmiyyətli çətinləşdirə bilər. Vətəndaşların hüquqları və qanuni maraqlarının pozulmasına səbəb ola bilər. Nəzərə almaq lazımdır ki, istintaq məlumatlarını yaymanın qadağan edilməsi barədə mütəxəssisin məsuliyyət daşıması əvvəlcədən xəbərdar edildiyi halda olur.

Mütəxəssis cinayət mühakimə icraatının iştirakçısı olmaqla, ona cinayət hüququnda sərbəst prosessual şəxs kimi baxılmır. Mütəxəssisin fəaliyyəti tabeçilik xarakteri daşıyır. Onun iştirakı hüquqi və təşkilati baxımdan istintaq hərəkətinin rəhbəri tərəfindən müəyyənləşdirilir. Bütün hərəkətlərini, digər iştirakçılara müraciətini mütəxəssis ancaq təhqiqatçının, müstəntiqin, prokurorun yaxud məhkəmənin göstərişi, onların icazəsi ilə və onlarla razılaşdırılaraq həyata keçirir. Bununla belə, qanunvericilik mütəxəssisin və ekspertin hüquqlarını məhdudlaşdıran təhqiqatçının, müstəntiqin, prokurorun yaxud məhkəmənin istənilən hərəkətindən (hərəkətsizliyindən) və qərarından şikayət etməyin mümkünlüyünü göstərir. Şikayət prokurora və ya məhkəməyə edilir. Şikayət yazılı və ya şifahi ola bilər. Şifahi şikayətlər istintaq hərəkətinin protokoluna əlavə edilir.

İstintaqı və ya məhkəmə araşdırmasını aparan şəxs və ya orqandan başqa cinayət mühakimə icraatına mütəxəssisin cəlb edilməsi hüquqi müdafiəçiyə də verilmişdir. Mütəxəssis müdafiəçi tərəfindən müqavilə əsasında, hüquqi yardım göstərilməsi ilə bağlı suallara aydınlıq gətirmək üçün, o cümlədən CPM-nin 96-cı maddəsində nəzərdə tutulduğu kimi digər funksiyaları yerinə yetirmək üçün cəlb edilir.

4.2. Mütəxəssisin dindirilməsi.

Xüsusi biliklərdən istifadə olunmanın bir növü kimi, mövcud təcrübədə mütəxəssisin dindirilməsi cinayət mühakimə icraatında müstəntiqin məhkəmə-tibbi biliklərdən istifadə etməsinin sərbəst və əlavə prosessual formasıdır.

İbtidai və məhkəmə istintaqının gedişində mütəxəssisin dindirilməsinin mümkünlüyü mövcud qanunvericilikdə nəzərdə tutulmuşdur. Bu normalara əsasən, təhqiqatçı və müstəntiq sərbəst olaraq istintaq hərəkətinin aparılması barədə qərar qəbul edir, xüsusən iş üzrə müəyyən edilməli hallar barədə məlumatı olan istənilən şəxsi ifadə vermək üçün dindirməyə çağırmağa hüququ var. Əvvəl istintaq hərəkətində iştirak etmiş mütəxəssis də belə şəxslərdən ola bilər.

İstintaq hərəkətlərində mütəxəssis qismində iştirak etmiş şəxsin məhkəmədə dindirilməkdən imtina etməyə hüququ yoxdur.

Mütəxəssis onun iştirak etdiyi istintaq hərəkətinin gedişi zamanı aşkar olunmuş, təsbit edilmiş və götürülmüş sübutlar barədə, prosessual hərəkətlərin yerinə yetirilmə şəraiti ilə bağlı istənilən halların dəqiqləşdirilməsi üçün dindirilə bilər. Müstəntiq ekspertin yaxud mütəxəssisin funksiyalarına dair istənilən məsələlər üzrə mütəxəssisi dindirə bilər. Məsələn, ekspert üçün sualların tərtib olunması zərurəti olduqda. Əgər dindirmə predmeti mütəxəssisin istintaq hərəkətində iştirakı çərçivəsindən yaxud xüsusi biliyindən kənara çıxırsa, onun dindirilən şəxs kimi prosessual statusu da dəyişir.

Hüquqi mənbələrdə bilikli şəxsin dindirilməsinə xüsusi biliklərdən istifadə olunmanın daha bir variantı kimi baxılır. Hüquqşünasların fikrincə, bilikli şəxslərin özünəməxsus əhəmiyyətli üstünlükləri var. Bilikli şahidlərin ifadələrindəki konkret faktlar, onun xüsusi biliyi mövqeyindən həmin faktlar əsasında gəldiyi fikirlər və nəticələr sübut kimi olduqca əhəmiyyətli ola bilər. Məhkəmə-təbabəti sahəsində istənilən mütəxəssis müxtəlif təsadüfi hallarda cinayətin, bədbəxt hadisənin şahidi ola bilər. Aydındır ki, belə hallarda o işdə mütəxəssis qismində iştirak edə bilər, ancaq

ekspertiza apara bilməz. Şübhəsiz ki, xüsusi biliyə malik şahidin ifadəsi işdə maraqlı şəxs olmamaq şərti ilə istintaq yaxud məhkəmə üçün xüsusi əhəmiyyətlidir. Lakin onun ifadələri prosessual formada xüsusi biliklərin cəlb olunması ilə xüsusi ciddiliklə, diqqətlə yoxlanılmalıdır.

4.3. Məhkəmə ekspert idarəsinin rəhbərinin prosessual fəaliyyəti.

Ekspertiza prosesində məhkəmə-ekspert idarəsinin rəhbəri xüsusi şəxsdir.

CPM-də ekspert idarəsinin rəhbərinə cinayət mühakimə icraatının iştirakçısı kimi baxılmır. Onun vəzifələri və hüquqları «Dövlət məhkəmə-ekspertizasının fəaliyyəti haqqında» Qanunda hərtərəfli, təfərrüatı ilə öz əksini tapmışdır.

D.M.E.F.H.Q.-nun 10-cu maddəsinə və CPM-nin 269-cu maddəsinə əsasən ekspert müəssisəsinin rəhbəri borcludur:

- məhkəmə ekspertizasının təyin olunması barədə qərarı yaxud qərardadı aldıqdan sonra həmin idarənin ekspertləri sırasından zəruri biliyə malik olan və qoyulmuş suallara cavab verə bilən konkret ekspertə və ya ekspert komissiyasına ekspertizanın aparılması barədə tapşırıq vermək;
- ekspertizanın konkret ekspertə (ekspert komissiyasına) tapşırılması barədə müstəntiqi məlumatlandırmaq;
- ekspertə yaxud ekspert komissiyasına CPM-nin 269-cu maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini izah etmək;
- məhkəmə ekspertizasını təyin etmiş şəxsin yaxud orqanın tapşırığı ilə, eksperti bilə-bilə yalan rəy verməyə görə CM-nin 297-ci maddəsi ilə məsuliyyət daşıması haqqında xəbərdar etmək, ondan müvafiq iltizam almaq və ekspert rəyi ilə birlikdə məhkəmə ekspertizasını təyin etmiş şəxsə yaxud orqana göndərmək;
- məhkəmə ekspertizalarının aparılma müddətinə, aparılan tədqiqatların tamlığına və keyfiyyətinə ekspertin müstəqilliyi prinsipini pozmadan nəzarəti təmin etmək;
- tədqiqatlar başa çatdırıldıqdan sonra ekspert rəyini, tədqiqat obyektlərini və iş materiallarını məhkəmə ekspertizasını təyin etmiş orqana və ya şəxsə göndərilməsini təmin etmək;
- tədqiqatların və onların nəticələrinin gizli saxlanılması üçün lazım olan şəraiti təmin etmək;

- məhkəmə ekspertizasının icrası və təşkili ilə əlaqədar ona məlum olmuş təlimatları, o cümlədən vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdıra bilən məlumatları, eləcə də dövlət, kommersiya yaxud qanunla mühafizə olunan digər sirrlər olan məlumatları yaymamaq;
- tədqiqatlar aparılması üçün zəruri şəraiti təyin etmək: avadanlıqlar, cihazlar, informasiya təminatlı vəsaitləri və materialları əldə etmək; texniki təhlükəsizlik qaydalarına və istehsalat sanitariyasına əməl etmək;
- təqdim olunmuş tədqiqat obyektlərinin və iş materiallarının qorunub saxlanılmasını təmin etmək.

Dövlət məhkəmə-ekspert idarəsinin rəhbərinin hüquqları D.M.E.F.H.Q.-nun 9-cu maddəsi və CPM-nin 269-cu maddəsi ilə müəyyən edilmişdir. Rəhbərin hüququ var:

- idarədə konkret ixtisas üzrə ekspert, zəruri maddi-texniki baza yaxud tədqiqat aparılması üçün xüsusi şərait olmadıqda, məhkəmə ekspertizası təyin olunması barədə qərarı (qərardadı) icra edilmədən tədqiqata təqdim edilmiş obyekt və işin materialları ilə birlikdə geri qaytarmaq. Qərarı və təqdim olunmuş materialları müşayiət məktubu ilə ekspertizanı təyin etmiş şəxsə və ya orqana qaytarır. Məktubda qaytarılmanın səbəbləri göstərilməlidir.
- ekspertizanın hansı ekspertə, o cümlədən hansı formatda (təkbaşına, yaxud komisyon) həvalə edilməsi sualını həll etmək;
- rəy verilməsi üçün zəruri biliyə ehtiyac yarandıqda bu idarənin əməkdaşı olmayan şəxslərin ekspert qismində iştirakı barədə məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs qarşısında vəsatət qaldırmaq;
- məhkəmə ekspertizasının təyin edilməsi qərarında yaxud qərardadında göstərilmiş müəssisələrin iştirakı ilə məhkəmə ekspertizasının aparılmasını təşkil etmək;
- məhkəmə ekspertizasının aparılması və təşkili ilə bağlı hüquq və vəzifələrinin bir hissəsini öz müavininə, həmçinin rəhbərlik etdiyi idarənin struktur bölmələrinə vermək;

- məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxsdən aşağıdakı hallarda bağlı xərclərin ödənilməsini tələb etmək:
  - məhkəmə ekspertizasına daxil olmuş tədqiqat obyektlərinin nəqliyyat təşkilatında saxlanılmasına görə kompensasiya, həmin müəssisə tərəfindən vaxtında alınmamasına görə cərimələr istisna olunmaqla;
  - obyektlərin tədqiqatlar aparıldıqdan sonra göndərilməsi, poçt xərcləri istisna olunmaqla;
  - müvafiq icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları ilə müəyyən edilmiş müddətdən artıq, məhkəmə ekspertizası başa çatdıqdan sonra, tədqiqat obyektlərinin dövlət M.T.E. və P.A. Birliyində saxlanılması;
  - həmin müəssisəyə çox təhlükəli obyektlərin daxil olmasının nəticəsi olan partlayış, yanğın və digər ekstremal vəziyyətlərin nəticəsinin ləğvi ilə bağlı, əgər məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs göstərilən obyektlərlə onlara məlum xüsusi davranma qaydaları haqqında M.T.E. və P.A. Birliyinin rəhbərliyinə məlumat verməmişsə və ya onlar lazımi qaydada qablaşdırılmamışsa;
- məhkəmə ekspertizasının təyin olunması qərarını (qərardadı) aldıqda, ekspertiza aparılması üçün zəruri olan materialları və tədqiqat obyektlərini tələb etmək.

Beləliklə, ekspert idarəsinin rəhbərinin prosessual fəaliyyəti aşağıdakı formada təqdim oluna bilər. Ekspertiza təyin olunması haqqında qərarı yaxud qərardadı aldıqdan sonra, ekspert idarəsinin rəhbəri ilk növbədə, qarşıya qoyulmuş sualların həmin idarənin mütəxəssislərinin səlahiyyətinə aid olub-olmamasını, suallara cavab verilməsi üçün mütəxəssislərin lazımi biliklərə malik olub-olmamasını, qarşıya qoyulmuş sualların həlli üçün təqdim olunmuş materialların və ilkin məlumatların kifayət qədər olub-olmamasını, tədqiqatların aparılması üçün müəssisədə lazımi avadanlıqların və digər şəraitin olub-olmamasını, ekspertizanın formasının (ilkin, əlavə, təkrar, komisyon, kompleks) düzgün təyin edilib-edilməməyini həll edir.

Qərarın məzmunu və ekspertizanın təyin olunma üsulu qanunvericiliklə müəyyən edilmişdir və CPM-nin tələbləri pozulmuşsa, vəzifəli şəxs üçün qərar öz mütləq xarakterini itirir. Bu halda ekspertizanın aparılması mənasını itirir. Qanunun pozulması ilə alınmış sübutların hüquqi qüvvəsi olmadığı üçün iş üzrə sübutun əsasını təşkil edə bilməz. Bu halda daxil olmuş materiallar ekspert idarəsinin rəhbəri tərəfindən müstəntiqə yaxud məhkəməyə ekspertizanın icraata götürülməsinin mümkünsüzlüyünü izah etməklə müşayiət məktubu ilə geri qaytarıla bilər. Əgər idarədə konkret ixtisas üzrə mütəxəssis yaxud tədqiqat aparılması üçün şərait olmadıqda, ekspertizanı təyin etmiş şəxsə və ya orqana məlumat verməklə, qərar icrasız geri qaytarılır.

Əlavə materialların təqdim olunmasına ehtiyac yarandıqda müstəntiqə yaxud məhkəməyə yazılı sorğu göndərilir və ekspertizanın icrası isə dayandırılır.

Ekspertizanı icraata qəbul etdikdə, ekspert idarəsinin rəhbəri ekspertiza aparacaq struktur şöbəni müəyyən edir. Ekspertizanı bir və ya bir neçə ekspertə həvalə edir, təşkilatçı eksperti və ya ekspert komissiyasının tərkibini müəyyən edir və bu barədə müstəntiqi məlumatlandırır. Ekspertə yaxud ekspert komissiyasına hüquq və vəzifələrini izah edir və bilə-bilə yalan rəy verməyə görə cinayət məsuliyyəti daşıması barədə xəbərdar edir.

Ekspertizanın icrası prosesində ekspertiza idarəsinin rəhbəri tədqiqatların ardıcıllığını və səmərəli qaydalarını, ekspertlərin və ekspert müəssisələrinin qarşılıqlı əlaqəsini müəyyən edir. Tədqiqatların aparılması üçün zəruri şəraiti (o cümlədən avadanlıqlar, cihazlar, informasiya təminatlı vasitələri və materialları), mütəxəssislərin texniki təhlükəsizlik və sanitar normalara əməl olunması şəraitini, təqdim olunmuş obyektlərin və materialların saxlanma şəraitini təmin edir. Tədqiqatların müddətinə, tamlığına və keyfiyyətinə nəzarət edir.

Dövlət məhkəmə ekspertiza idarəsinin rəhbərinin ekspertə konkret məhkəmə ekspertizası üzrə onun nəticələrinin məzmununu qabaqcadan müəyyən edən göstərişlər vermək hüquqi yoxdur (D.M.E.F.H.Q. maddə 9). Eksperti ekspertizanın icrasından

kənarlaşdırmaq və ya ekspertizanı digər ekspertə verməyi rəhbər ancaq müstəntiqlə (təhqiqatçı, məhkəmə) razılaşdıqdan sonra və xüsusi hallarda edə bilər, məsələn, ekspertin xəstəliklə, yaxud məzuniyyətlə bağlı uzun müddət işdə olmaması və sairə.

Ekspertizanın keyfiyyətinə nəzarət qaydasında ekspertiza idarəsinin rəhbəri bunları yoxlamağa borcludur:

- tədqiqatların aparılmasında və onların nəticələrinin tərtibində prosessual və digər qanunların tələblərinə əməl olunmasını;
- tədqiqatların tamlığının və gedişinin yazılmasını;
- tədqiqat metodlarının adekvatlığını;
- qarşıya qoyulmuş suallara cavabların tamlığını və ekspertin peşəkar səlahiyyəti həddinə əməl etməsini;
- ekspertizanın müəyyən edilmiş icra müddətinə əməl olunmasını.

Ekspertin nəticələri ilə razılaşmadığı hallarda və ekspertizanın icrasında pozuntular olduqda, ekspert idarəsinin rəhbəri, öz fikirlərini yazılı tərtib edib, müvafiq təkliflərlə məhkəmə ekspertizasını təyin etmiş şəxsə göndərmək hüququna malikdir. Əgər müstəntiq məktubda göstərilən faktların cinayət işi üçün əhəmiyyətli olduğunu hesab edərsə, o məktubu prosessual statuslu sənəd kimi işə tikilir.

Ekspertiza başa çatdıqdan sonra ekspertiza idarəsinin rəhbəri ekspert rəyini, obyektləri və digər materialların müstəntiqə (məhkəməyə) vaxtında göndərilməsini təşkil edir. Qanunun müəyyən etdiyi hallarda ekspertizanın icrası ilə bağlı sərf edilmiş xərclərin ödənilməsini tələb edir. Prosessual xərclər büdcə vəsaiti yaxud məhkəmə icraatı iştirakçılarının vəsaiti hesabına aparılır.

Hüquq-mühafizə orqanları və cinayət mühakimə icraatının digər iştirakçıları ilə adekvat qarşılıqlı əlaqə səviyyəsini təmin etmək nöqteyi-nəzərindən məhkəmə-ekspert idarəsinin rəhbərinin fəaliyyəti məhkəmə-ekspert fəaliyyətinin ən vacib prosessual formalarından biridir. Rəhbərin öz funksiyalarını düzgün və dolğun yerinə yetirməsi, ekspert rəyinin müstəntiq və məhkəmə tərəfindən iş üzrə bir sübut növü kimi qəbul edilməsi çox asılıdır.

4.4 Məhkəmə-tibbi biliklərin müstəntiq (məhkəmə) tərəfindən tətbiqi.

Müstəntiqin (məhkəmənin) xüsusi biliklərdən, o cümlədən məhkəmə-təbabəti sahəsindəki biliklərdən istifadə etməsinin mümkünlüyünə CPM-də birmənalı cavab verilmir. Ədəbiyyat mənbələrində də bu barədə əks rəylər söylənilir. Qanun müxtəlif sübutetmə subyektlərinə bölünmüş funksiyaların bir şəxsdə birləşdirilməsinə yol vermir: Xüsusən bir tərəfdən müstəntiqin yaxud hakimin funksiyaları, digər tərəfdən isə mütəxəssisin yaxud ekspertin funksiyaları. Qanunvericiliyə əsasən təhqiqatçı, müstəntiq, prokuror yaxud hakim işdə mütəxəssis yaxud ekspert kimi iştirak etmişsə, o istintaq apara bilməz və onlardan etiraz olunmalıdır. Eyni zamanda iş üzrə keçmiş müstəntiq, istintaqın gedişinə nəzarət edən prokuror yaxud hakim həmin iş üzrə mütəxəssis yaxud ekspert kimi iştirak edə bilməz - bu o dərəcədə aydındır ki, prosessual şərh olunması tələb olunmur.

Bir qrup alimlər belə hesab edir ki, müstəntiqin işin istintaqı gedişində hüquqi biliklərindən kənara çıxan xüsusi bilikləri tətbiq etməsi yol verilməzdir və qanuna ziddir. Bu tələbin pozulmasına isə müstəntiqə etiraz üçün bir əsas kimi baxılır. Bununla belə, CPM-nin bir sıra maddələrində dolayı yolla müstəntiqin öz ixtisas biliklərindən kənara çıxan bilikləri, bacarığı və vərdişləri tətbiq etməsinin mümkünlüyü nəzərdə tutulur. CPM-də istintaq hərəkətinin icrasında maddi sübutların, cinayət izlərinin aşkar olunması, fiksasiyası və götürülməsi üsullarının və texniki vasitələrin tətbiq edilməsinə icazə verilir. Qanunun bu normalarına görə, müstəntiqin özünün hüquq və ixtisas biliklərindən kənara çıxan xüsusi texniki vasitələr və metodları tətbiq etməsinə və həmçinin sərbəst olaraq onların köməyi ilə alınmış nəticələrin protokolda təsbit edilməsinə yol verilir.

Qanunvericiliyə əsasən təqsirləndirilən, şübhəlin və zərərçəkmiş şəxsin və ya şahidin bədənində cinayət izlərinin və ya xüsusi əlamətlərin olmasını, iş üçün əhəmiyyətli olan digər əlamətlərin olmasını müəyyən etmək üçün məhkəmə-tibbi ekspertizanın

aparılması tələb olunmursa, müstəntiqin özünün müayinə etmək hüququ var. Aydındır ki, müstəntiqin müəyyən həcmdə məhkəmə-tibbi biliklərinin, məsələn, zədələrin əsas növləri haqqında və bu bilikləri tətbiq etmək üçün praktiki vərdişlərinin olması nəzərdə tutulur.

Meyitə aşkar olunduğu yerdə baxış təcrübəsi göstərir ki, bu istintaq hərəkətində məhkəmə-təbabəti sahəsində mütəxəssisin yaxud digər həkimin iştirakı mümkün olmayan hallarda, onların funksiyalarını faktiki olaraq müstəntiq öz üzərinə götürür, meyitə baxış keçirərək meyit əlamətlərinin vəziyyətini, xəsarətlərin, bioloji mənşəli izlərin və s. olmasını fiksə edir. Eyni ilə belə olaraq, istənilən prosessual hərəkətin planlaşdırılması, hazırlığı və icrasında (ekspertizanın icrası istisna olunmaqla) müstəntiqin öz biliklərinin kifayət etməsinə əmin olaraq mütəxəssisin cəlb olunmasını zəruri hesab etməyərək şəxsi biliklər istifadə etmək hüququ var.

Nəhayət, məhkəmə-tibbi ekspertizasının təyin olunmasında və ekspert rəyinin qiymətləndirilməsində müstəntiqin məhkəmə-təbabəti sahəsində biliyini tətbiq etməsi mümkünlüyü, hətta vacibliyi şübhə doğurmur. Müstəntiqin işin istintaqının gedişində xüsusi bilikləri tətbiq etməsinin əsasını, istintaq işçilərinin hazırlığında məhkəmə-təbabəti və kriminalistika kurslarının dərs proqramına daxil edilməsi təşkil edir. Ekspert idarələrində hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqənin təşkili üzrə işin əsas istiqamətlərindən biri məhkəmə-tibbi ekspertiza suallarına dair prokuror və müstəntiqlərin xüsusi hazırlığın planlaşdırılması və aparılmasıdır.

Müstəntiqin hüquqi yox, xüsusi biliklərdən istifadəsinə yol verən şərtlər qismində hüquq ədəbiyyatlarında iki şərt irəli sürülür. Birinci - onun xüsusi biliklərinin əsasında nəticə deyil, konkret, gözlə görünən fakt olmalıdır, məsələn, əvvəl görünməmiş qan ləkəsinin xüsusi kimyəvi reaksiyalarla yaxud lüminessensiyanın köməyi ilə aşkar olunması, meyit əlamətlərinin dinamikasının nümayişi və s. İkinci şərt ondan ibarətdir ki, müstəntiq tərəfindən aşkar olunmuş fakt istintaq hərəkətinin nə hüquqi, nə də digər xüsusi biliklərə malik olmayan bütün iştirakçılarının, o cümlədən hal şahidlərinin başa düşülməsi üçün aydın olmalıdır.

Beləliklə, müstəntiqin məhkəmə-tibbi bilikləri tətbiq etməsini, cinayət mühakimə icraatında məhkəmə-tibbi biliklərdən istifadə olunmanın əlavə prosessual forması kimi hesab etmək olar.

Məhkəmə-tibbi fəaliyyətin hüquqi əsaslarını nəzərdən keçirərkən təcrübi işin birbaşa qanunverici tənzimlənməyə malik olan bir neçə sualı üzərində dayanmaq vacibdir. Bu problemlər müqayisəli tədqiqatlar üçün nümunələrin götürülməsi, ekspert tədqiqatlarının gedişində obyektlərin zədələnmələrinə yol verilməsi və meyit toxumalarından yaxud biomanekendən istifadə etməklə eksperimentlərin icrasıdır.

FƏSİL 5. CİNAYƏT-MÜHAKİMƏ İCRAATINDA MƏHKƏMƏ-TİBBİ BİLİKLƏRDƏN İSTİFADƏNİN QEYRİ-PROSESSUAL NÖVLƏRİ

Cinayət mühakimə icraatında xüsusi məhkəmə-tibbi biliklərdən istifadənin hüquqi əsaslarına baxışı yekunlaşdırmaq üçün, məhkəmə-ekspert idarəsinin və ekspertlərin fəaliyyətinin qeyri-prosessual növlərinə nəzər yetirmək lazımdır. Adından göründüyü kimi, ekspert idarəsinin və ekspert fəaliyyətinin qeyri-prosessual növləri CPM-si çərçivəsində tənzimlənmir. Lakin, onlar məhkəmə-tibbi fəaliyyət sisteminin ayrılmaz tərkib hissəsidir və prosessual sənədlərdə təsbit olunmuş nəticələrindən cinayət işlərinin istintaqında və məhkəmə araşdırmasında istifadə olunur.

Sxem 5. Cinayət mühakimə icraatında məhkəmə-tibbi biliklərdən istifadənin qeyri-prosessual növləri



Göstərilən məhkəmə-tibbi fəaliyyətlər kompleksi qanunvericilik tərəfindən tənzimlənmədiyi üçün, onları qeyri-prosessual, yəni cinayət mühakimə icraatına aidiyyatı olmayan növ kimi qəbul etməyə əsas verir.

5.1. Məhkəmə-tibbi ekspert müayinəsi

Meyitlərin və canlı şəxslərin məhkəmə-tibbi müayinəsi dövlət ekspert idarəsində məhkəmə-tibb eksperti vəzifəsində çalışan şəxslər tərəfindən icra olunduğu üçün qeyri-prosessual və yaxud təşkilatdaxili ekspertiza kimi qəbul edilir.

Göstərilən fəaliyyət Səhiyyə Nazirliyinin təşkilatdaxili normativ sənədləri ilə tənzimlənir və CPM-si tərəfindən nəzərdə tutulmayıb. Məhkəmə-tibbi müayinə istintaq yoxlamaları ilə birbaşa bağlı olmaqla yanaşı hüquq-mühafizə orqanlarının rəsmi tapşırıqlarına əsasən həyata keçirilir. Şəxsin təqsirləndirilməsi işləri üzrə canlı şəxslərin və zorakı ölümə şübhə ilə bağlı meyitlərin müayinələri M.T.E. və P.A. Birliyində göstərilən qaydada həyata keçirilir. Bu müayinələr cinayətin törədilməsi faktının tezliklə təyin edilməsində, cinayət işinin qaldırılması məsələsinin həllində, eləcə də cinayətlərin və qanun pozuntularının profilaktikasının istiqamətləndirilməsinin müəyyənləşdirilməsində mühüm əhəmiyyət kəsb edir.

Nəzərə alınmalıdır ki, cinayət işi qaldırılmırsa, məhkəmə-tibbi ekspertizanın keçirilməsi haqda qərar qəbul edilmir. Belə halda meyitin müayinəsi hüquq mühafizə orqanlarının təliqəsinə əsasən aparılır. Bu halda tədqiqatların keçirilməsi üçün kifayət qədər hüquqi əsasın olub-olmaması problemi yaranır.

Qanunvericiliyə görə dövlət məhkəmə-ekspert idarəsinin vətəndaş və hüquqi şəxslər: səhiyyə müəssisələri, sığorta qurumları, hüquq-mühafizə orqanları və vəkillər üçün ekspert müayinələrini keçirməyə hüququ var. Qanun ekspert müayinələrinin yalnız müqavilə əsasında aparılmasına icazə verir. Deməli, müayinə obyekti meyit olarsa, mərhumun ölümündən qabaq istəyi və ya onun qanuni təmsilçisinin istəyi nəzərə alınmalıdır. Bunun üçün ekspert idarəsində, həmin idarənin rəhbəri tərəfindən təsdiqlənmiş, meyitin məhkəmə-tibbi müayinəsinin keçirilməsinə dair sifariş-blankının olması məqsədəuyğundur. Belə blankda müayinənin həcmi, təxmini ödəniş, müddəti və dəfn mərasiminə aid digər əlavə xidmətlərin göstərilməsinə dair şərtlər ola bilər.

Bəzən elə hallar yaranır ki, mərhumun sağlığındakı istəyini yerinə yetirmək mümkün olmur. Meyit ilə həmin istəyə əks olan hərəkətlər etmək lazım gəlir. Nümunə olaraq ekspert idarəsinin vəzifəli şəxslərində mərhumun və ya onun qanuni nümayəndələrinin istəyini bildirən məlumatın olmamasını, sanitar-epidemioloji rejimə riayət olunmasının zəruriliyini və digər halları göstərmək olar.

5.2. Məhkəmə-ekspert idarəsinin vəzifəli şəxslərinin nəzarət-idarəetmə fəaliyyəti.

Ekspert idarəsinin vəzifəli şəxslərinin nəzarətedici və göstərişverici fəaliyyətinə, məhkəmə-tibbi xidmət fəaliyyətinin ümumiləşdirilməsi ilə müşayiət olunan ekspert sənədlərinin yoxlanılması və resenziyası, struktur şöbələrində ekspertiza prosesinin təşkilinin səmərəliliyinin qiymətləndirilmə və çatışmazlıqları aradan qaldırmaq üçün müvafiq tədbir görmək məqsədi ilə planlı və plandan kənar baxış və yoxlamaların keçirilməsi aiddir. Fəaliyyətin bu növü D.M.E.F.H.Q.-nun ekspertizaların icra müddətinə, ekspert müayinələrinin tamlığına və keyfiyyətinə ekspert idarəsinin rəhbəri tərəfindən nəzarətin təmin edilməsi vacibliyini nizamlayan tələblərinin yerinə yetirilməsi ilə həyata keçirilir.

5.3. Məhkəmə-ekspert idarəsinin məlumat-arayış fəaliyyəti.

Məhkəmə-tibbi ekspertiza idarəsinin arayış və məlumatverici fəaliyyəti idarənin ixtiyarında olan ekspert materialları və ya ekspertiza işlərinə aid digər məlumatlardan istifadə edərək sənədlərin hazırlanmasından ibarətdir. Bu məlumat fakt üzrə öncə müayinə aparılmış yaxud ekspert rəyi verilmiş cinayət işində əhəmiyyətli olan hallara və konkret cinayət işinin istintaqına aidiyyatı olmayan hallara dair ola bilər. Ekspert idarəsinə hüquq-mühafizə orqanları, hüquqi və fiziki şəxslər tərəfindən ekspert sənədlərinin hərəkətini, maddi sübutların olduğu yeri öyrənmək üçün sorğular, axtarılan şəxsin arxiv və məlumatların elektron bazaları üzrə axtarışının keçirilməsi haqda müraciətlər və tapşırıqlar daxil olur. Sorğu və tapşırıqlara ekspert təcrübəsinin xüsusi analitik işlənilməsinin keçirilməsini, müxtəlif dövlət strukturlarına, həmçinin hüquq-mühafizə orqanlarına və digər qurumlara ünvanlanan, ekspert idarəsinin işinin nəticələri üzrə statistik məlumatlarIn tərtib edilməsini daxil etmək olar.

5.4. Məhkəmə-ekspert idarəsinin məsləhətverici fəaliyyəti.

Məsləhətverici fəaliyyət - şifahi anlatma və ya mütəxəssislər tərəfindən hüquq-mühafizə orqanlarının, fiziki və hüquqi şəxslərin sorğuları əsasında məhkəmə-təbabətinə aid ümumi suallar və ya məhkəmə-tibb təcrübəsinə aid xüsusi suallar üzrə yazılı materialların (arayışların, məsləhətverici rəylərin, icmalların və s.) tərtib edilməsidir. Məlumatvermədən fərqli olaraq, məsləhətverici iş, bəzi hallarda xidməti vəzifələrin çərçivəsindən kənarda həyata keçirilir. Fəaliyyətin təşkilinin qayda və formaları təşkilatdaxili normativlərlə tənzimlənmir.

Göstərilən məhkəmə-tibbi fəaliyyət növlərinin qeyri-prosessual növlərə aid edilməsi şərtidir. Məsləhətverici fəaliyyətin nəticələri - arayış, məktub, hesabat, analitik və digər materiallar - qanunvericiliyə müvafiq olaraq, bəzi hallarda qanunda sənədlər («digər sənədlər») adlandırılan sübut statusunu əldə edə bilər. Sənədlər müəssisə və təşkilatlar, vəzifəli şəxs və vətəndaşlar tərəfindən şərh olunduqda və yaxud təsdiq edilmiş fakt və hallar, iş üzrə sübut olunması lazım olan halların müəyyən edilməsi üçün əhəmiyyət kəsb etdikdə, sübut kimi qəbul olunur. Onlar, əsasən, ilkin dindirilmə və istintaq yoxlanışı mərhələsində istifadə olunur, cinayət faktının aşkar edilməsi məqsədinə xidmət edir. Cinayət işi qaldırmaq və ya cinayət işinin qaldırılmasından imtina etmək üçün əsas kimi baxılır.

Göstərilən arayışlar istintaq və məhkəmə-tibbi ekspertizanın keçirilməsi prosesində də (məsələn, ekspert sənədlərinin yoxlanması zamanı ekspert idarəsinin vəzifəli şəxsləri tərəfindən əhəmiyyətli nöqsanlar aşkar edildikdə) tərtib oluna bilər. İşdə belə sənədlərin, məsələn, məhkəmə-tibbi müayinə (canlı şəxsin müayinəsi) aktlarının və ya arayışlarının olması istintaq zamanı xüsusi məhkəmə-tibbi biliklərdən prosessual formada istifadə olunmanı əvəz etmir.

Arayış-məlumat və ya məsləhətverici fəaliyyətin nəticələri iş üzrə sübut kimi yalnız bir şərtlə - arayışlarda şərh və ya təsdiq olunan faktlar xüsusi ekspert müayinələrinin keçirilməsini tələb etmədikdə,

istifadə oluna bilər.

5.5. Məhkəmə-tibbi xidmətin hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəsi.

Hüquq-mühafizə fəaliyyətin məhkəmə-tibbi təminatının qeyri-prosessual formalarına məhkəmə-tibbi xidmətin cinayət mühakimə icraatı iştirakçıları və ilk növbədə hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəsinin təşkili üzrə tədbirlər sistemini aid etmək olar. Qarşılıqlı əlaqənin konkret istiqamətləri və təcrübi formaları 6 №-li sxemdə təqdim olunur. Bunlar qarşılıqlı əlaqənin elmi-praktiki sistemini əmələ gətirir. Fikrimizcə bu sistemə məhkəmə təbabətində məhkəmə-tibbi fəaliyyətin hüquqi-təşkilati əsaslarının tərkib hissəsi kimi baxılmalıdır.

Təqdim olunan sistem sxemdə ayrı-ayrı məlumatın 6 əsas istiqamətlərini birləşdirir.

- qarşılıqlı əlaqə konsepsiyasının formalaşdırılması - birgə işin ümumi prinsiplərinin, ekspertiza prosesinin və istintaqın bütün mərhələlərində cinayət mühakimə icraatı iştirakçıları ilə qarşılıqlı əlaqənin, həmçinin, ümumilikdə cinayət mühakimə icraatında xüsusi məhkəmə-tibbi biliklərdən istifadənin effektlilik göstəricilərinin qiymətləndirilməsi meyarlarının müəyyən olunması;
- ekspertiza prosesinin və məhkəmə-tibbi xidmətin cinayət mühakimə icraatı iştirakçıları ilə qarşılıqlı əlaqəsinin hazırkı vəziyyətinin monitorinqi;
- müvəqqəti və ya daimi təşkilatlararası strukturların (laboratoriyaların, işçi və ya elmi-məsləhətçi qrupların işinin, kadrlardan, elmi-texniki vasitələrdən və texnologiyalardan səmərəli istifadə məqsədilə) yaradılması və onların metodiki təmin edilməsi;
- məhkəmə-tibbi xidmətin və hüquq-mühafizə orqanlarının konkret cinayətlərin istintaqında qarşılıqlı əlaqəsinin koordinasiyası;
- qarşılıqlı əlaqənin müsbət təcrübəsinin ümumiləşdirilməsi və tətbiqi, hüquq-mühafizə orqanlarının məhkəmə-tibbi təminatının

səmərəliliyinin artırılmasının perspektiv istiqamətlərinin təyini, təşkilati-ştat strukturunun, maddi-texniki bazasının, qarşılıqlı əlaqəli subyektlərinin işinin prosessual və metodiki əsaslarının təkmilləşdirilməsi;

- məhkəmə-tibb ekspertlərinin hüquqi hazırlığının və hüquq-mühafizə orqanları əməkdaşlarının məhkəmə-tibbi ekspertiza məsələlərində hazırlığının təkmilləşdirilməsi.

Sxem 6. Məhkəmə-tibbi xidmətin və hüquq-mühafizə orqanlarının əməkdaşlığının elmi-təcrübi sistemi.

Məhkəmə-tibbi xidmətin və hüquq mühafizə orqanlarının əməkdaşlığının əsas istiqamətləri və praktik formaları.

- Əməkdaşlıq konsepsiyasının formalaşdırılması.
- Məhkəmə-tibbi xidmətin hüquq mühafizə orqanları ilə əməkdaşlığının cari vəziyyətinin monitorinqi.
- Konkret cinayət faktlarının istintaqı zamanı hüquq-mühafizə orqanlar ilə məhkəmə-tibbi xidmətin əməkdaşlığının koordinasiyası.
- Daimi və yaxud müvəqqəti təşkilatlararası strukturlarının yaradılması, maliyyələşdirilməsi, metodik təminatı və operativ hazırlığının saxlanılması.
- Əməkdaşlığın müsbət səriştəsinin ümumiləşdirilməsi və tətbiqi; hüquq mühafizə fəaliyyətinin məhkəmə-tibbi təminatının səmərəliliyinin artırılması yollarının təyini; əməkdaşlıq edən subyektlərin işlərinin təşkilat-ştat strukturunun, maddi-texniki bazasının, prosessual və metodik əsaslarının təkmilləşdirilməsi.
- Məhkəmə-tibb ekspertizası məsələləri üzrə hüquq-mühafizə orqanlarının işçilərinin ixtisas hazırlığının və məhkəmə-tibb ekspertlərinin hüquqi hazırlığının təkmilləşdirilməsi.

Cinayətlərin açılmasının və istintaqın məhkəmə-tibbi təminatının təkmilləşdirilməsi, icraçıların yer, vaxt və məsuliyyət üzrə razılaşması, konkret istintaqı aparılan cinayətin xüsusiyyətlərinə uyğunlaşması və qanun çərçivəsində reallaşması məqsədilə birləşən bu tədbirlər kompleksi, hüquq-mühafizə orqanlarının və məhkəmə-tibb fəaliyyətinin ümumilikdə səmərəliliyini təyin edir.

Məhkəmə-tibbi ekspertiza idarəsi ilə hüquq mühafizə orqanlarının müştərək fəaliyyətinin konsepsiyasının formalaşması, qarşılıqlı əlaqənin təşkilinin və əsas istiqamətlərinin ümumi prinsiplərinin müəyyənləşdirilməsini tələb edir. Ekspertizanın təyin və icra olunmasının, məhkəmə-tibbi fəaliyyətin həcminin, keyfiyyətinin və səmərəliliyinin ümumi göstəricilərindən və ekspert məlumatlarından istifadə mərhələlərində birgə fəaliyyətinin qiymətləndirilməsi meyarlarının müəyyən olunmasının zəruriliyini nəzərdə tutur.

Məhkəmə-tibbi ekspertiza idarəsi və onun struktur şöbələrinin hüquq-mühafizə orqanları ilə əməkdaşlığının cari vəziyyətinin monitorinq formaları aşağıdakıları özündə birləşdirir:

– məlumatların korporativ elektron bazalarının razılaşdırılması və təşkilatlararası elektron bazalarının yaradılması;

– ekspert işinin cari statistik təhlili;

– mürəkkəb ekspertizaların keçirilməsində ekspert idarələrinin və struktur şöbə rəislərinin (struktur bölmələrin rəhbərlərinin) şəxsi iştirakı;

– ekspert rəylərinin seçim və tematik resenziyası;

– ekspert, istintaq və məhkəmə təcrübəsinin analitik icmalların tərtibatı;

– ekspertlərin və hüquq-mühafizə orqanlarının əməkdaşlarının anket və sorğu yolu ilə fikirlərinin öyrənilməsi;

– müsbət cəhətlərin və çatışmamazlıqların araşdırılması məqsədi ilə ekspert idarəsinin və onun struktur şöbələrinin rəisləri ilə hüquq-mühafizə orqanlarının rəhbərlərinin birgə işgüzar görüşlərinin keçirilməsi;

– hüquq-mühafizə orqanlarının ekspert idarəsinə ünvanladığı məktub, müraciət və təqdimatların təhlili.

Konkret cinayətlərin istintaqı zamanı məhkəmə-tibbi xidmətin hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqələrinin koordinasiyasını aşağıdakı tədbirlərin həyata keçirilməsi ilə tənzimləmək olar:

- müstəntiqlərə istintaq hərəkətinin keçirilməsində, ekspertizanın təyin edilməsi və aparılması qaydalarına və məqsədəuyğunluğuna dair məsləhətlərin verilməsi;
- ekspertizanın (istintaq hərəkətinin) birgə planlaşdırılması;
- bütün mərhələlərdə birgə praktik işin daimi razılaşdırılması;
- müstəntiqin yanında ekspertizanın icrası;
- mütəxəssislərin, müstəntiqin tapşırıqlarını vaxtında yerinə yetirməsi;
- ekspertin (mütəxəssisin) əsaslandırılmış müraciətlərinin vaxtı-vaxtında təmin edilməsi;
- ekspertizanın predmetinə aid olan istintaqın nəticələri barədə və ekspertiza zamanı aşkar edilmiş istintaq üçün yeni vacib məlumatların operativ sürətdə mübadiləsinin təşkili;
- istintaqın və xüsusi tədqiqatların gedişinin və nəticələrinin müzakirəsi üçün birlikdə planlı işgüzar müşavirələrinin keçirilməsi;
- iş üzrə fikirlərin formalaşdırılmasına və müzakirəsinə ekspertlərin cəlb edilməsi;
- maddi sübutların götürülməsi, qablaşdırılması, müayinə üçün göndərilməsi və ekspertizaların icra müddətinə birgə nəzarətin təşkil edilməsi;
- hazır ekspert rəylərinin müstəntiqə vaxtı-vaxtında çatdırılması;

Daimi və yaxud müvəqqəti təşkilatlararası strukturların yaradılması, maliyyələşdirilməsi, metodik təminatı və operativ hazırlığının saxlanılması aşağıdakıların yaradılmasını nəzərdə tutur:

- laboratoriyaların (tibbi-kriminalistik, identifikasiya, ballistik, trassoloji, tibbi-genetik, məhkəmə-kimyəvi və s.);
- ağır və seriyalı cinayətlərin istintaqı zamanı istintaq nümayəndələrinin və məhkəmə-tibbi ekspertlərin (məhkəmə təbabəti

sahəsində mütəxəssislərin) iştirakı ilə elmi-məsləhətçi işçi qruplarının;

- fövqəladə halların (kütləvi ölümlə nəticələnən təbii, texnoloji fəlakətlər və s) nəticələrinin aradan qaldırılması şəraitində işləyən mobil ekspert və istintaq-əməliyyat qruplarının.

Müştərək fəaliyyətin müsbət təcrübələrinin ümumiləşdirilməsi və onların tətbiqi, hüquq-mühafizə orqanlarının fəaliyyətinin məhkəmə-tibbi təminatının səmərəliliyinin artırılması yollarının təyini, təşkilati-ştat strukturunun, maddi-texniki bazanın, əməkdaşlıq edən subyektlərin işlərinin prosessual və metodik əsaslarının təkmilləşdirilməsi aşağıdakı yollar ilə həyata keçirilir:

- müsbət təcrübənin ümumiləşdirilməsi, məhkəmə-tibbi ekspertiza təşkilinin bütün səviyyələrində (Respublika tabeli mərkəzləşdirilmiş şəhər və rayon şöbələri) yaranan qarşılıqlı iradların və çatışmamazlıqların müzakirəsi və onların aradan qaldırılması üçün tədbirlərin görülməsi üzrə birgə müşavirələrin keçirilməsi;
- birgə işin təşkili üzrə əmrlərin hazırlanması, razılaşdırılması və yerinə yetirilməsinə nəzarət edilməsi;
- məhkəmə-tibbi xidmətin və hüquq-mühafizə orqanlarının işinin təkmilləşdirilməsinə dair təklifləri əks etdirən analitik materialların və məktubların yuxarı instansiya idarəetmə orqanlarına hazırlanıb göndərilməsi;

Məhkəmə-tibbi ekspertiza məsələləri üzrə hüquq-mühafizə orqanları əməkdaşlarının professional hazırlığının və məhkəmə-tibb ekspertlərinin hüquqi

hazırlığının təkmilləşdirilməsi aşağıdakı formada həyata keçirilə bilər:

♦ müstəntiq, hakim və daxili işlər orqanlarının əməliyyat heyəti üçün məhkəmə-tibbi ekspertiza məsələləri, ekspert idarəsinin işinin təşkili, ekspert fəaliyyətini tənzimləyən qanunverici və təşkilati normativ-metodik sənədlərin məzmunu, ekspertizaların qeydiyyatının təşkili və bu qeydiyyatların istintaqın marağında istifadə imkanları və digər məsələlər üzrə həsr edilmiş mühazirələrin və tematik məşğələlərin keçirilməsi;

♦ ekspertlər üçün hüququn əsasları və cinayət mühakimə icraatı işinin təşkili üzrə məhkəmə-tibbi ekspertizanın təşkili və prosessual məsələlər üzrə mühazirə və tematik məşğələlərin keçirilməsi;

♦ ekspert idarəsində müstəntiqlərin və əməliyyat işçilərinin qısa müddətli fərdi hazırlıq keçməsi;

♦ qarşılıqlı məsləhət və məlumat dəstəyi - müstəntiqləri xüsusi məhkəmə-tibbi məsələlər üzrə, ekspertləri istintaq hərəkətləri və ekspertizaların təyin edilməsinin, keçirilməsinin hüquqi aspektləri, ekspert rəyinin qiymətləndirilməsi üzrə;

♦ birgə elmi-təcrübi və tədqiqat işlərinin keçirilməsi: məhkəmə-tibbi və kriminalistik ekspertizanın aktual problemlərinin və cinayət mühakimə icraatında xüsusi biliklərin istifadəsinin hüquqi tənzimlənməsi məsələlərinin kompleks şəkildə elmi tədqiqi;

♦ birgə elmi-praktiki konfrans və seminarların təşkili və keçirilməsi;

♦ metodik tövsiyələrin, məlumat məktublarının, yaddaş kitabçalarının, elmi işlər toplularının və digər materialların birgə hazırlanması və nəşri.

Hüquq-mühafizə orqanlarının və məhkəmə-tibbi xidmətin qarşılıqlı əlaqə formaları, bir qayda olaraq, bir neçə istiqaməti əhatə edir və bu da təqdim olunmuş qarşılıqlı əlaqə sisteminin effektivliyinin göstəricilərindən biridir. Belə icra qaydasında həmin sistem, müxtəlif təşkilatların ekspert strukturlarının təşkilati, ştat, həmçinin, maliyyə çevikliyini, güc və vasitələrin operativ hazırlığını və mobilliyini, cinayət mühakimə icraatında xüsusi məhkəmə-tibbi biliklərdən istifadənin səmərəliliyini və etibarlı idarə olunmasını tam təmin edir.

Yuxarıda sadalanan bütün qeyri-prosessual iş formaları ekspert idarəsində əməkdaşların vəzifə borclarının, təşkilatdaxili normativ aktlar və ya müqavilə əsasında müəyyən edilmiş qaydalarla həyata keçirilir.

BÖLMƏ II
MƏHKƏMƏ-TİBB EKSPERTİNİN (MƏHKƏMƏ-TƏBABƏTİ SAHƏSİNDƏ MÜTƏXƏSSİSİN) PROSESSUAL HƏRƏKƏTLƏRDƏ İŞTİRAKININ TƏŞKİLATİ VƏ METODİK ƏSASLARI

FƏSİL 6. İSTİNTAQ VƏ MƏHKƏMƏ HƏRƏKƏTLƏRİNDƏ MƏHKƏMƏ-TİBB EKSPERTİNİN (MÜTƏXƏSSİSİN) İŞTİRAKININ ÜMUMİ QAYDALARI

Cinayət mühakimə icraatında məhkəmə-tibbi biliklərdən istifadənin praktiki formalarının təşkilati və metodik əsasları müxtəlif təkmilləşdirmə dərəcəsinə malikdir. Məhkəmə-tibbi ekspertizanın hüquqi nizamlanması, təyini, təşkili və icrası, hadisə yerinə və meyitə baxışın, ekshumasiyanın keçirilməsi və şəxsin müayinəsi kimi istintaq hərəkətlərində mütəxəssislərin iştirakı məsələləri daha ətraflı elmi işlənilərək lazımi qaydaya salınmışdır. Son illərdə alimlər və praktiki işlə məşğul olan mütəxəssislər tərəfindən istintaq eksperimentinin keçirilməsində məhkəmə-tibbi xidmətin imkanlarından istifadə olunmasına xüsusi diqqət xeyli artmışdır. Xüsusən kütləvi insan qırğınlarına səbəb olan müxtəlif ekstremal şəraitlərdə meyitlərin tanınması işinin təşkilində məhkəmə-tibbi xidmətin rolu və vəzifəsi böyük elmi maraq yaratmışdır. Bununla yanaşı, ekspertlərin (mütəxəssislərin) məhkəmə-tibb fəaliyyətinin təcrübədə geniş yayılmış digər formaları dindirilmə keçirilməsində, müqayisəli müayinə üçün nümunələrin götürülməsində və ifadələrin yoxlanılmasında iştirakı məhkəmə-tibbi ədəbiyyatlarda lazımi dərəcədə öz əksini tapmamışdır və hərtərəfli öyrənilməmişdir.

Məhkəmə-təbabəti və kriminalistikaya aid dərslik və monoqrafiyalarda məhkəmə-təbabəti sahəsində mütəxəssisin istintaq hərəkətlərində iştirakına dair ətraflı metodik məlumatlar yoxdur. Məhkəmə tibbi fəaliyyətin bu aspektlərinə aid məlumatlara ümumi və yaxud az yer verilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi «Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya» Birliyinin çoxillik ekspert təcrübəsinin nəticələrindən, təcrübəmizdən və xüsusi ədəbiyyat mənbələrindəki məlumatların ümumiləşdirilmiş təhlilindən istifadə edərək, qeyd olunan problemlərin sistemli və elmi-praktik şərhini verməyə cəhd etmişik.

6.1. Prosessual hərəkətlərin məhkəmə-tibbi xarakteristikası. Ekspert (mütəxəssis) işinin prinsipləri, funksiyaları və metodları.

İstintaq hərəkətlərinin keçirilməsinin prosessual-hüququ və təşkilati-taktiki əsaslarının ümumi məsələlərinin həlli hüquqşünasların səlahiyyətinə aiddir. Prosessual hərəkətlərin məhkəmə tibbi xarakteristikasından danışıldıqda, ekspert və ya mütəxəssis funksiyaları ilə bilavasitə bağlı olan problemlərin aspektləri araşdırılır və onların həll etdikləri məsələlərin spesifikliyi ilə xarakterizə olunur.

Mütəxəssisin prosessual statusunun vacibliyinə baxmayaraq, cinayət mühakimə icraatında xüsusi biliklərdən istifadənin səmərəliliyi, əsasən unikal ixtisas və təşkilatı faktorlarla - mütəxəssisin səlahiyyətliliyi, elmi araşdırmalar, səmərələşdirici metodların tətbiqi təşkilati-taktiki prinsiplərin dəqiq yerinə yetirməsi və istintaq hərəkətinin bütün iştirakçılarının hərəkətlərinin koordinasiya olunması ilə müəyyən edilir. Adətən müstəntiq istintaq hərəkətləri keçirilərkən mütəxəssisin lazımi iş şəraitinin yaradılmasına, əlavə məlumatların alınmasına, sorğularına və tövsiyələrinə etiraz etməsi hallarına rast gəlinmir. Mütəxəssisin xahişi rədd edildikdə o, fəaliyyətinin və qarşısında qoyulan məsələlərin həll edilməsinin qeyri-mümkünlüyünü müstəntiqə bildirməlidir. Müstəntiq, mütəxəssisin müvafiq məlumatını istintaq hərəkətləri protokoluna daxil etməyə borcludur.

Ayrı-ayrı istintaq hərəkətlərinə mütəxəssisin cəlb edilməsinə dair müvafiq metodik göstərişlərin olmaması və məhkəmə-tibbi xidmətin

bu növünün ştatla təminatının nizama salınmaması məsələnin əsaslı həllini ləngidir.

Prosessual hərəkətlərdə mütəxəssis fəaliyyətinin səviyyəsi təkcə onun şəxsi bilik və iş təcrübəsindən asılı olmaqla yanaşı, cinayət mühakimə icraatının digər iştirakçıları ilə düzgün qarşılıqlı əlaqə yarada bilməsi bacarığından asılıdır.

Hər bir prosessual hərəkət yalnız ayrı-ayrı qanun normaları ilə nizamlanmır. Eyni zamanda, bu prosessual hərəkətlər istintaq məhkəmə orqanları tərəfindən mütəxəssis qarşısında qoyulan vəzifələrlə və onun iş metodları ilə fərqlənir. Bütün istintaq hərəkətlərinin icrası üçün ümumi olan, mütəxəssis iştirakının təşkili və taktiki prinsiplərini müəyyən etmək olar. Bu prinsiplərə məhkəmə-tibbi biliklərdən daha səmərəli istifadə edilməsinə yönəlmiş bəzi ümumməcburi təlimat və tövsiyələr aiddir. CPM-nin tələblərinə əsaslanmış ümumi təlimatlar aşağıdakılardan ibarətdir:

Qanunçuluq - mütəxəssisin məhkəmə-ekspert fəaliyyətini nizamlayan qanun və digər normativ hüququ aktların tələblərinə ciddi əməl etməsidir.

Obyektivlik, hərtərəflilik və tamlılıq - mütəxəssisin səlahiyyəti çərçivəsində qarşıya qoyulmuş sualların tam həllini təmin edən, müasir elmi əsaslandırılmış, səmərəliliyini təcrübədə göstərmiş və imkan daxilində rəsmi tövsiyə olunmuş metodların və texniki vəsaitlərin mütəxəssis tərəfindən tətbiq edilməsidir.

Vətəndaşın hüquq və azadlığına, tibbi etika və deontologiya normalarına riayət etmək - insan hüquqlarını pozan hərəkətlərin, istintaq hərəkəti iştirakçılarının şərəf və ləyaqətinin mənəvi alçaldılması kimi qəbul edilə bilən hərəkətlərin istisna olunmasıdır.

Mütəxəssisin müstəqilliyi - qanunla verilmiş hüquqların reallaşdırılması, hər hansı bir proses iştirakçısının və digər şəxslərin marağına uyğun məlumatların alınması məqsədilə mütəxəssisə təzyiq edilməsinə yol verilməməsidir.

Vaxtlı-vaxtında və operativlik - sübutedici informasiyanın saxlanmasının təmini və onun hadisə şəraitinin bərpasında istifadə edilməsi imkanı üçün istintaq hərəkətlərinə mütəxəssisin vaxtlı-vaxtında və operativ cəlb edilməsidir.

Ardıcıllıq - istintaq hərəkətlərinin hazırlanmasında, keçirilmə-sində, sənədləşdirilməsində və nəticələrinin qiymətləndirilməsində mütəxəssisin ardıcıl iştirakıdır.

Planlaşdırma - mütəxəssisin ilkin analizləri əsasında istintaq hərəkətinin gedişində şərtlərin və iştirak qaydalarının, cinayət hallarının, hadisə yerləri şəraitlərinin, iş üzrə əvvəllər aparılmış ekspertiza və tədqiqatların nəticələrinin, mütəxəssisin fəaliyyət predmetinə aid olan digər məlumatların maksimal tam qeydiyyatıdır.

Mütəxəssisin istintaq hərəkətində iştirakına məqsədyönlü və təşəbbüskar yanaşma - istintaqın qoyduğu məsələlər və konkret halların xüsusiyyatlarının qeydiyyatına əsaslanan iş metodlarının məqsədəuyğun seçimi; müstəntiqin göstərişlərinin passiv yerinə yetirilməsi və müşahidəsi deyil, iş üçün əhəmiyyətli olan faktların aşkarlanmasında və qiymətləndirilməsində təşəbbüskar iştirakıdır.

Əyanilik - istintaq hərəkəti gedişində mütəxəssisin öz fəaliyyətini maksimum dərəcədə aşkarlıq şəraitində keçirməsi, lazım gəldikdə müstəntiqə müvafiq izahlar verməsi, müstəntiqin diqqətini istintaq hərəkətlərinin gedişində və maksimal tam, dəqiq və ətraflı olan nəticələrinin sənədləşdirməsinə yönəltməsi, texniki yardım göstərməsi, protokol və ona əlavələrin (sxemlər, foto, video, audio yazılar və s.) tərtibində iştirakıdır.

Müstəntiqlə səmərəli qarşılıqlı əlaqə - prosessual hərəkətin bütün mərhələlərində (planlaşdırma, keçirilmə, nəticələrin qeydə alınması) müstəntiqlə mütəmadi əlaqə saxlaması və operativ məlumat mübadiləsi aparmasıdır.

İstintaq hərəkəti iştirakçılarının tibbi təhlükəsizliyini təmin etmək məqsədilə hədd dairəsi və tədbirlərin müəyyən edilməsi:

İstintaq sirrini qorumaq - iş üçün əhəmiyyət kəsb edən hər hansı bir məlumatı digər şəxsə bildirmək yalnız müstəntiqin icazəsi ilə ola bilər (CPM, maddə 97).

Göstərilən müddəalarda istintaq hərəkətlərinə hazırlıq və keçirilməsində əhəmiyyət kəsb edən və istintaqın mütəxəssisin qarşısında qoyduğu məsələlərin həllində yaxından kömək edəcək bütün lazımi və səmərəli fikirlər öz əksini tapmışdır. Həmin müddəalara riayət etmək istintaqın marağı üçün məhkəmə-tibbi

biliklərin istifadəsinin səmərəli rejimini, qanunçuluğunu və obyektivliyini təmin edir.

Məhkəmə-tibbi və digər xüsusi biliklərdən istifadənin əsas məqsədi istintaq hərəkətlərinin səmərəliliyinə və nəticə etibarlılığına ən yüksək dərəcədə nail olmaqdır.

Məhkəmə-təbabəti mütəxəssisinin konkret vəzifəsi istintaqı aparılan cinayətin xarakteri və istintaq hərəkətinin növü ilə təyin edilir. Vəzifələrin müxtəlif olmasına baxmayaraq məhkəmə-təbabəti sahəsində mütəxəssisin əsas funksiyalarını aşağıdakı dörd qrupa bölmək olar:

1. İstintaq hərəkətinin hazırlığı, planlaşdırılması və keçirilməsi üçün təşkilati qərarların qəbul edilməsində müstəntiqə kömək etmək - mütəxəssisin təşkilatı-taktiki funksiyası.
2. Müstəntiqə axtarışda, baxışda, təsvir etmədə və digər üsulla təsbit etmədə, eləcə də sübutların götürülməsində (əşyaların, izlərin, sənəd və digər obyektlərin), obyektlərin seçilməsində, sonrakı ekspert tədqiqatları üçün nümunələrin götürülməsində yardım göstərmək - mütəxəssisin axtarış-tədqiqat funksiyası.
3. Hadisə yeri şəraitinin və şərtlərinin bərpasında, onun yenidən canlandırılmasında, protokol, sxem, şəkillər, layihələr tərtib edilməsində və bu məqsədlə xüsusi elmi-texniki vasitələrdən istifadə etməkdə müstəntiqə yardım etmək - mütəxəssisin yardımçı-texniki funksiyası.
4. Müstəntiqə, məhkəməyə və cinayət mühakimə icraatının digər iştirakçılarına xüsusi terminologiyanın, xüsusi tibbi xarakterə malik və mütəxəssisin peşə səlahiyyəti sahəsinə aid təzahür və sualların mahiyyətini izah etmək, istifadə olunan texniki vəsaitlərin təyinat xüsusiyyətlərini göstərmək, müstəntiqə ekspert qarşısında qoyulan sualların formalaşmasında yardım etmək - mütəxəssisin məlumat-konsultativ funksiyası.

Toplanmış materiallarla (tədqiqat obyektləri) işləyən ekspertdən fərqli olaraq, mütəxəssis fəaliyyəti hər şeydən əvvəl, həmin obyektlərin və digər faktiki məlumatların axtarılmasına, təsbit edilməsinə və götürülməsinə doğru yönəlir.

Mütəxəssisin vəzifələrindən, konkret obyektlərdən və istifadə olunan iş metodlarından asılı olaraq onun iştirak etdiyi bütün prosessual hərəkətləri də 4 qrupa bölmək olar: axtarış-təsviri, şifahi (dil cavabı, imzasız), təcrübi və qarışıq.

Axtarış-təsviri prosessual hərəkətlər qrupuna baxış (meyitə, hadisə yerinə, sənədlərə və digər obyektlərə), müayinə, axtarış və götürmə aiddir. Qanun bu prosessual hərəkətlərin əksəriyyətini ilkin kimi müəyyən edir və çox vaxt cinayət baş verdikdən dərhal sonra («isti-isti») keçirilir. Hazırlıq üçün vaxt və informasiya azlığı bu prosessual hərəkətlərin, o cümlədən mütəxəssis iştirakının planlaşdırılmasını çətinləşdirir. Əlavə çətinliklər, mütəxəssisin işləməsi üçün əlverişli şərait olmadıqda - obyektlərə yol tapmaq çətinləşdikdə, xarici-əlverişsiz faktorların (hava, işıqlanma və s.) təsiri, izləri gizlətmək üçün cinayətkarın istifadə etdiyi müxtəlif üsullar nəticəsində yaranır.

Mütəxəssis, maddi əşyaların və izlərin müxtəlif çeşidləri ilə rastlaşır. Buna görə də, xüsusi texniki vasitələrdən istifadə etmənin və ya hər hansı dar ixtisas sahəsindən mütəxəssisin cəlb olunması vacibliyini qabaqcadan görmək mümkün olmur (məsələn, tibbi-kriminalist, məhkəmə-bioloq, kimyaçı və digərləri). Bu hal öz növbəsində, bəzən baxışın, axtarışın, müayinənin əlavə və təkrar keçirilməsinə gətirib çıxarır.

Mütəxəssisin işində axtarış-tədqiqat və yardımçı-texniki funksiyaları ön plana çıxır. Onun əsas vəzifəsi axtarışda, prosessual təsbitetmədə və işə aid olan iz və obyektlərin, yəni maddi sübutların prosessual statusuna malik ola bilən predmetlərin, sənəd və əşyaların götürülməsində müstəntiqə kömək göstərməkdir. Mütəxəssis işinin əsas məzmunu və iş metodları istintaq hərəkətləri qrupunun ümumiləşdirilmiş adında öz əkslərini tapmışdır. Buna müşahidə, axtarış, lazımi ölçülərin, hesablamaların aparılması və təsviretmə aiddir. Məhkəmə-təbabəti sahəsində mütəxəssis, səlahiyyəti çərçivəsində peşə biliklərindən, təcrübə vərdişlərindən və müvafiq texniki vasitələrdən istifadə edərək, iş üçün əhəmiyyət kəsb edən faktiki məlumatların istintaq hərəkətinin protokolunda sistematik və nizamlanmış şərhini təmin etməkdə müstəntiqə kömək etməlidir.

Mütəxəssis fəaliyyətinin məzmunu və təyin olunmuş faktların mahiyyəti haqqında sistematik və nizamlanmış şərh, müstəntiq və digər iştirakçılarda, sonrakı etaplarda isə məhkəmədə dəqiq və aydın təsəvvürün yaranmasına şərait yaradır.

Şifahi prosessual hərəkətlərə dindirilmə və üzləşdirməni aid etmək olar. Onlar ayrı-ayrı qruplara ayırmağa mütəxəssis fəaliyyətinin obyektinin özünəməxsusluğu imkan verir.

Bu prosessual hərəkətlərdə iştirak edən məhkəmə-həkiminin vəzifəsi dindirilən şəxsdən iş üçün əhəmiyyətli olan fakt və şəraitlər barədə tam və doğru məlumatlar alınmasında müstəntiqə yardım etməkdən ibarətdir. Bəzən dindirilən şəxs məlumatları gizlətməyə çalışır, bəzən də onlara xüsusi əhəmiyyət vermir, müəyyən səbəblərdən çətinlik çəkir və ona məlum olan faktları olduğu kimi ifadə edə bilmir. Məhkəmə-təbabəti və ümumiyyətlə tibbi sahədə kifayət qədər biliyi olmayan müstəntiq və ya məhkəmə üzvləri xüsusi sualların sərbəst həll edilməsində çətin vəziyyətə düşə bilər. Adətən, dindirilən tibb işçisinin verdiyi məlumatların əhəmiyyətini qiymətləndirə bilmırlər. Mütəxəssis, dindirilənə verilən sualların düzgün tərtib edilməsində müstəntiqə və ya məhkəməyə köməklik göstərir və özü suallar verir. Sorğu zamanı alınan məlumatlar xüsusi tibbi anlayış və terminlərdən istifadə edilməklə şərh edildikdə, mütəxəssisdən cavabları izah etmək, aydınlaşdırmaq, dindirilmənin gedişində müstəntiq və məhkəməyə verdikləri suallara dair məlumat xarakterli açıqlamalar verə bilər. Mütəxəssis dindirilən şəxsin ifadələrini işin digər materialları ilə, həmçinin keçirilmiş tədqiqatların nəticələri ilə uyğunlaşdırıb müqayisə edərək, onun sübutedici əhəmiyyətinin təyini üçün mühüm olan, dindirmənin gedişində alınan məlumatların əhəmiyyətini və doğruluğunu düzgün qiymətləndirməkdə müstəntiqə kömək edə bilər.

Göründüyü kimi, burada mütəxəssisin əsas funksiyası məlumat-konsultativ fəaliyyətdir, onun əsas iş metodları isə - sorğu, tutuşdurma, müqayisə etmə və ümumiləşdirmədir. Mütəxəssis işinin sadalanan xüsusiyyətləri, dindirilmə və üzləşdirmə prosesləri gedişində, ekspertdən xüsusi peşə biliklərindən əlavə, düzgün və məntiqi düşünməyi tələb edir. Dindirilmədə iştirakın özünə xas

xüsusiyyətləri bundan ibarətdir. Mütəxəssis dindirilən şəxslə psixoloji təmasa girməyə, onun şəxsiyyətinin xüsusiyyətlərini, psixiki vəziyyətini, məlumatları yadda saxlama, canlandırma və qavrama qabiliyyətini nəzərə almağa məcburdur. O, istintaq hərəkətlərində bir qayda olaraq şübhəli şəxslə (təqsirkarla), zərərçəkənlə və şahidlə birbaşa adi ünsiyyətdə deyil, istintaqı aparılan hadisənin şəraitlərinin yenidən qurulması və nümunələrin götürülməsi prosesinin tələblərinə uyğün fəal qarşılıqlı əlaqədə olur.

Göstərilən prosessual hərəkətlər, müxtəlif sübutlar arasında olan ziddiyyətləri müəyyən edərək onların aradan qaldırılması və yaxud xüsusi ekspert tədqiqatlarının keçirilməsi mümkünlüyünü təmin etmək üçün, faktiki məlumatların ekspert fərziyyələrinin və ya şəxsi istintaq variantının yoxlanılması və dəqiqləşdirilməsi məqsədilə keçirilir. Bu məsələlər istintaqı aparılan cinayətin ayrı-ayrı hallarının canlandırılması, yenidən qurulmuş şəraitlərin işdəki digər məlumatlarla, məsələn, hadisə yerinin şəraiti ilə tutuşdurulması və ya müqayisəli nümunələrin alınması yolu ilə aparılır.

Bu vaxt mütəxəssis prosessual hərəkətlərin səmərəli təşkilində, onun keçirilməsi üçün lazımi şəraitin yaradılmasında və təcrübə nəticələrinin əvvəllər düzgün müəyyən olunmuş məlumatlarla müqayisəsində müstəntiqə yaxından köməklik göstərir. Burada mütəxəssisin aparıcı funksiyası təşkilatı-taktik fəaliyyətidir və məqsəd müstəntiqə texniki köməklik göstərməkdir. Onun işində müşahidə, sorğu, tutuşdurma və müqayisə etmə, təsvir etmə, yenidən qurma, modelləşdirmə, eksperiment və ümumiləşdirmə əsas metodlar kimi xüsusi əhəmiyyət kəsb edir.

Qeyd olunann prosessual hərəkətlər qrupunun ayrılması şərtidir və əsas məqsəd məhkəmə-təbabəti üzrə mütəxəssisin fəaliyyətini nizama salmaqdır. Təcrübədə prosessual hərəkətlər eyni zamanda aparıldığı üçün mütəxəssisin funksiya və iş metodları kəsişir. Belə ki, hadisə yerinə baxış zamanı ekshumasiya və tanınmanın keçirilməsi, istintaq eksperimenti keçirildikdə müqayisəli tədqiqat üçün nümunələrin götürülməsi mümkündür. İfadələrin yerində yoxlanılması gedişində isə, müvafiq yerə və əşyalara mütləq baxış keçirilməlidir. Belə münasibətə istintaq hərəkətlərinin dördüncü

qrupu daha səciyyəvidir. Tanınma və ekshumasiyanın keçirilməsində mütəxəssisin funksiyası və iş metodları qarışıq xarakter daşıyır. Mütəxəssis işinin müxtəlif mərhələlərində yuxarıda göstərilən bütün prosessual hərəkətlərə aid olan elementlər birləşir. Məsələn, mütəxəssis, tanınmada iştirak edəcəyi nəzərdə tutulan şəxsin, müvafiq əlamətlərin axtarışı məqsədilə tanınma obyektinin baxışında ilkin dindirilməsinə cəlb edilir, nümunələr götürülür və s. Ekshumasiya və tanınma keçirilməsinin müstəqil qrupda birləşməsi və seçilməsi vacibliyinin iki mühüm əsası var. Birincisi, bir qayda olaraq tanınma, meyitin torpaqdan və ya basdırıldığı yerdən çıxarılması gedişində ayrıca mərhələlərdən biridir. İkincisi, bütün digər prosessual hərəkətlərdən fərqli olaraq tanınmanın subyekti müstəntiq və mütəxəssis deyil - cinayət mühakimə icraatında müstəqil prosessual statusu olan «tanıyan» şahiddir.

Mütəxəssisin vəzifələrini, funksiyalarını və iş metodlarını lazımi səviyyədə bilməsi istintaq hərəkətlərinin keçirilməsində məhkəmə-tibbi biliklərdən nizamlanmış və səmərəli istifadə etməsinə əsasdır.

Şəxsiyyət əleyhinə olan cinayət işlərinin istintaqında məhkəmə-tibbi biliklərdən istifadə etmə səmərəliliyini yüksəltmək yollarından biri də istintaq hərəkəti iştirakçılarının qarşılıqlı əlaqəsini və mütəxəssis fəaliyyətinin dinamik nizamlanmasıdır. Prosessual hərəkətlərin növündən asılı olmayaraq, mütəxəssisin iştirakını ümumi standart qaydalar və göstərişlər və ya optimal ardıcıllıqla verilən vəzifələrin və tövsiyələrin sadalanması kimi təsəvvür etmək olar (Cədvəl №2). İstər, müstəntiq və mütəxəssisin qarşılıqlı əlaqəsinin taktiki səmərəliliyi mövqelərindən, istərsə də bu suala baxımın rahatlığı üçün bütün prosessual hərəkətləri üç mərhələyə bölmək məqsədəuyğundur:

1. Hazırlıq və ya planlaşdırma mərhələsi.
2. İstintaq hərəkətlərinin aparılması mərhələsi.
3. Nəticələrin tərtibatı və qiymətləndirilməsi mərhələsi.

İstintaq hərəkətlərinin və mütəxəssis fəaliyyətinin nəticə etibarilə nə qədər səmərəli olacağı artıq planlaşdırma mərhələsində müəyyən edilir. Bir çox təxirəsalınmaz istintaq hərəkətlərində olduğu kimi, məhkəmə həkimi öz işini qabaqcadan hər bir detalları ilə planlaşdıra

bilmirsə (hadisə yerinin ilkin baxışı, meyitin və şəxsin müayinəsi), bu və ya digər prosessual hərəkətlərin keçirilməsini, iş metodlarını və standart məsələlərin müəyyən dairəsinin ümumi qaydalarını bilməsi, mütəxəssisin işinin operativ xarakterini kompensasiya edəcək.

Qanunvericiliyə görə bəzi istintaq hərəkətlərinin keçirilməsi barədə müstəntiq mütləq qərar çıxarmalıdır. Bu istintaq hərəkətlərinə ekspertizanın təyini, meyitin ekshumasiyasının keçirilməsi (məhkəmənin səlahiyyətinə aiddir), müayinə, müqayisəli tədqiqat üçün nümunələrin götürülməsi və axtarış aiddir. Bu hallarda qərarda istintaq hərəkətlərinin keçirilməsinə mütəxəssisin cəlb edilməsi faktı da göstərilir. Qərarın çıxarılması təbii ki, mütəxəssisin prosessual statusunu dəyişmir. İstənilən halda onun işi yardımçı, prosessual tabeçilik xarakteri daşıyır, onun nəticələri müstəntiq tərəfindən istintaq hərəkəti protokoluna təsbit edilir. Mütəxəssis öz fəaliyyətinin nəticəsinə əsasən heç bir yazılı rəy tərtib etmir və öz prosessual vəzifəsinin pozulmasına görə cinayət məsuliyyəti daşımır.

Cədvəl 2. İstintaq hərəkətləri gedişində müstəntiqin (məhkəmənin) və məhkəmə-təbabəti sahəsində mütəxəssisin qarşılıqlı əlaqə alqoritmi.

Prosessual hərəkətlər mərhələsi	***Hərəkətlərin məzmunu və ardıcıllığı***	
	Müstəntiqin (məhkəmənin)	***Mütəxəssisin***
1.Hazırlıq (planlaşdırma)	1.1.İstintaq hərəkətlərinin keçirilməsinin vacibliyi barədə qərar qəbul edir və orada iştirak etmək üçün mütəxəssisi dəvət edir.	1.1.İşin mahiyyəti ilə tanış olur, istintaq hərəkəti keçirilməsi və özünün orada iştirakının səbəbini aydınlaşdırır.
	1.2.Mütəxəssisin səlahiyyətli və işin yekunu ilə maraqsız olduğuna əmin olur,	1.2.İmtina etməyinə səbəb olmadığını yəqin edir (tapşırığın səlahiyyətindən kənara çıxması, işin nəti-

	mütəxəssisin təqsirkar və zərərçəkmişlə münasibətini aydınlaşdırır.	cəsində marağı olmaması, lazımi bilik və təcrübənin olmaması), müvafiq prosessual əsaslar olduqda istin-taq hərəkətlərində iştirak etməyinin qeyri-mümkünlüyü barədə müstəntiqə və ya ekspert idarəsinin rəhbərinə yazılı xəbər verir.
	1.3.İstintaq hərəkətlərində mütəxəssisin vəzifələrini müəyyənləşdirir və bunu onun nəzərinə çatdırır.	1.3.Qarşısına qoyulmuş vəzifələri dəqiqləşdirir. Onların həlli üçün imkan və şəraiti müəyyənləşdirir.
	1.4.Mütəxəssisin müraciətini nəzərdən keçirib uyğun qərar qəbul edir.	1.4.Əlavə iş materialları və bəzi istintaq hərəkətlərini ilkin keçirmək lazım gəldikdə müstəntiqə və ya məhkəməyə ərizə ilə müraciət edir.
	1.5.Mütəxəssisə lazımi iş materiallarını təqdim edir, onun fəaliyyət predmetinə aid bütün hallar barədə məlumat verir.	1.5.Təqdim edilmiş materialları, o cümlədən əvvəlcədən keçirilmiş müayinə və ekspertizaların nəticələrini öyrənir, öz fəaliyyət obyektlərini müəyyənləşdirir, müxtəlif materiallar (sübut mənbələri) və hallar arasında ziddiyyətləri təyin edir, müstəntiqlə birlikdə tapşırığı dəqiqləşdirir.
	1.6.İstintaq hərəkətlərinin keçirilməsinin məqsədə uyğunluğu	1.6.İş sənədlərini öyrənməklə qarşıda qoyulmuş məsələlərin həllinin mümkünlüyü və ya digər istintaq hərəkətlərinin

	barədə mütəxəssis fikrini öyrənir, lazım gəldikdə istintaq planına düzəliş verir.	keçirilməsinin məqsədəuyğunluğu barə-də müstəntiqə məlumat verir.
	1.7.İstintaq hərəkət-lərinin vaxtını, yerini, iştirakçılarını, istintaq hərəkətinin keçirilməsi üçün lazımi şəraiti planlaşdırır, onun keçirilməsinin təşkili barədə mütəxəssis təklifini nəzərə alır, hazırlıq üçün digər istintaq hərəkətlərini keçirir.	1.7.Müstəntiqə istintaq hə-rəkətlərinin keçirilmə yeri, vaxtı, ehtimal şəraiti, səmərəli metodikası və ardıcıllığı barədə məsləhət verir, əlavə texniki vasitələrdən istifadə etmənin vacibliyini müəyyən-ləşdirir. Statistlərin seçilmə-sində, travma törədən alət maketlərinin hazırlanmasında müstəntiqə köməklik göstərir.
	1.8.İstintaq sirri hüdudunu müəyyənləşdirir və bütün istintaq hərəkəti iştirakçıları tərəfindən onun qorunması barədə tədbirlər görür.	1.8.İstintaq sirrinin yayılma-masını nəzərə almaqla is-tintaq hərəkətləri gedişində istifadə oluna biləcək iş materiallarını və məlumat həcmini müstəntiqlə razılaşdırır.
	1.9.Mütəxəssisin çəkdiyi xərcin ödənilməsi və mü-kafatlandırma məsələsini həll edir.	1.9.Çəkdiyi xərclərin ödənil-məsi və ya prosessual vəzi-fəsini yerinə yetirdiyinə görə mükafatlandırılması barədə müstəntiq qarşısında məsələ qaldırır. Bu işlər xidməti vəzifə qaydasında yerinə yetirildikdə xərc və mükafat ödənilmir.
		1.10.Müstəntiqlə birlikdə is-

		tintaq hərəkətləri gedişinin bütün mərhələlərində qarşılıqlı əlaqənin ehtimal sistemini və informasiya mübadiləsini hazırlayır.
		1.11.İstintaq hərəkətlərində iştirakı məsələlərinə dair xüsusi metodik ədəbiyyatları öyrənir.
2.İstintaq hərəkətlərinin keçirilməsi.	2.1.İstintaq hərəkətlərinin keçirildiyi yerə iştirakçıların gətirilməsini təmin edir.	2.1.Mustəntiqin çağırışına vaxtında gəlir.
	2.2.Mütəxəssisin şəxsiyyətinə əmin olur, istintaq hərəkəti protokoluna müvafiq məlumatlar qeyd edir.	2.2.Müstəntiqə adını, familiyasını, atasının adını, tutduğu vəzifəni bildirir. Müstəntiqin tələbinə əsasən səlahiyyətliliyini təsdiq edən sənəd təqdim edir.
	2.3.Mütəxəssisə onun prosessual hüquq və vəzifələrini izah edir, öz vəzifələrini yerinə yetirməkdən imtina etməsi və boyun qaçırmasına görə məsuliyyət daşıdığı barədə xəbərdarlıq edir.	2.3.Öz hüquq və vəzifələrini başa düşür, onları öz hərəkətlərində rəhbər tutaraq vəzifələrini yerinə yetirməkdən imtina etməsi və boyun qaçırmasına görə məsuliyyət daşıdığı barədə yazılı iltizam verir.
	2.4.İstintaq hərəkətlərinin keçirilməsinin məqsəd və qaydaları barədə	2.4.İstintaq hərəkətlərini keçirmək qaydasını özündə aydınlaşdırır.

	iştirakçılara məlumat verir.	
	2.5.Mütəxəssis fəaliyyətini lazımi şəraitlə və prosessual zəmanətlə təmin edir (o cümlədən təhlükəsizlik zəmanəti ilə).	2.5.İstintaq hərəkətinin keçirildiyi yerin şəraiti və onun iştirakçıları ilə tanış olur. İstintaq hərəkətlərinin keçirilməsinə lazımi şərait yaradılmasında iştirak edir (hadisə yeri mühitinin yenidən bərpasında, statislərin müayinəsində, meyitin tanınması üçün onun zahiri görünüşünün bərpa edilməsində), texniki vasitə və alətlərin hazır olmasını təmin edir.
	2.6.İstintaq hərəkəti gedişinə rəhbərlik edir, mütəxəssisə göstəriş və tapşırıqlar verir. Şəxsən özü və hal şahidləri vasitəsilə onun işinə nəzarət edir.	2.6.Öz fəaliyyətini müstəntiqin göstərişi və ya icazəsi ilə həyata keçirir.
		2.6.1.Sübutların tapılmasında, götürülməsində, onların saxlanılmasında, hadisə şəraitinin bərpasında yardım edir.
		2.6.2.Bu məqsədlə xüsusi ləvazimat və yardımçı texniki vəsait tətbiq edir.
		2.6.3.Müstəntiqin göstərişi və ya icazəsi ilə istintaq hərəkəti iştirakçılarına lazımi

		məlumatlar açıqlayır, onların yerinə yetirdikləri iş barədə xüsusi ləvazimatların təyini və istifadə edilməsi haqda izahat verir.
		2.6.4.Lazım gəldikdə sübut-ların tapılması, bərkidilməsi və götürülməsi ilə əlaqədar olaraq fikrini bildirir və bu-nun protokola qeyd edil-məsinə nəzarət edir.
		2.6.5.Öz səlahiyyətinə aid məsələlər barədə müstəntiqə məsləhət verir.
		2.6.6.Öz fəaliyyət predme-tinə aid müstəntiqin tapşırıq və göstərişlərini yerinə yetirir (iz və obyektlərin götürülməsi və nümayiş et-dirilməsində, müqayisəli nümunələrin alınmasında operativ-axtarış hərəkətləri üçün oriyentasiya tərtibində köməklik göstərir).
	2.7.İstintaq hərəkətlərinin gedişini və nəti-cələrini təsbit edir.	2.7.Öz hərəkətlərinin və bü-tünlüklə prosessual hərə-kətlərin gediş və nəticələ-rinin təsbit edilməsində müstəntiqə məsləhətlər verir və ona texniki yardım göstərir (maddi sübutların qablaşdırılmasında köməklik göstərir, kino, foto, video sənədləşdirmənin qayda və şəraitini dəqiqləşdirir, qrafik və digər təsbit növlərinin dəqiqliyinə nəzarət

		edir və s.).
3.İstintaq hərəkətləri nəticələrinin tərtibi və qiymətlən-dirilməsi.	3.1.İstintaq hərəkəti protokolunu tərtib edir.	3.1.İstintaq hərəkətləri pro-tokolunun tərtib edilməsində müstəntiqə köməklik göstərir. Xüsusən də aşağıdakıların təsvir edilməsində:
		3.1.1.İstintaq hərəkətlərinin keçirildiyi şəraitin (mühit, təbiət-iqlim və süni texnoloji faktorların);
		3.1.2.İstifadə olunmuş xüsusi metodların, ləvazimatın və onun texniki xarakteristikasının;
		3.1.3.İstintaq hərəkəti işti-rakçılarının gördükləri işlərin məzmununu, ardıcıllıq və nəticələrini;
		3.1.4.Müəyyən edilmiş iz-lərin, obyektlərin, təzahür-lərin, prosessual hərəkət iş-tirakçılarının göstərdiklərinin və iş üçün əhəmiyyət kəsb edən, məhkəmə-tibb əhəmiyyəti olan digər hal-ların.
	3.2.Protokolu istintaq hərəkətinin bütün iştirakçılarına oxuyur.	3.2.Bu məlumatların istintaq hərəkəti protokolunda düz-gün, dəqiq və tam həcmdə qeyd olunmasına əmin olur (protokola qulaq asır və ya özü oxuyur, səs və ya vi-deoyazılara, sxem, şəkil və s. baxır).

	3.3.Mütəxəssisin istintaq hərəkətlərinə aid olan bildirişlərini protokola qeyd edir.	3.3.Lazım olduqda istintaq protokolunun gedişinə, məzmun və nəticələrinə aid təkliflərini (etirazlarını) verir.
	3.4.Protokolu imza üçün istintaq hərəkəti iştirakçılarına təqdim edir.	3.4.İstintaq hərəkətlərinin protokolunu imzalayır.
	3.5.Mütəxəssisin istintaq hərəkəti protokolunu nə səbəbdən imzalamadığı barədə izahatını protokola qeyd edir.	3.5.Protokola imza atmaq-dan imtina etdikdə bunun səbəbini izah edir.
	3.6.İstintaq hərəkətinin nəticələrini qiymətləndirir.	3.6.İstintaq hərəkəti nəticə-lərini qiymətləndirməkdə müstəntiqə aşağıdakı istiqa-mətlərdə yardım göstərir:
		3.6.1.İstintaq hərəkəti gedişinin ilkin plana görə uyğunluğu;
		3.6.2.İstifadə olunmuş xüsusi metodların və elmi-texniki vəsaitlərin tamlığı və uyğunluğu;
		3.6.3.İstintaq hərəkəti nəticələrinin dəqiq təsbit edilməsi
		3.6.4.Mütəxəssis qarşısında qoyulmuş vəzifələrin həll edilməsi və istintaq hərə-kətində bütövlükdə məqsədə nail olmaq.

		3.6.5.İstintaq hərəkətinin təkrar keçirilməsinə zərurət.
		3.6.6.Alınmış nəticələrin etibarlılıq dərəcəsi.
		3.6.7.Aşkar edilmiş faktlarla digər iş materialları arasında ziddiyyətin olub-olmaması
		3.6.8.Əldə edilmiş nəticələrin digər istintaq hərəkətlərinin planlaşdırılmasında (o cümlədən məhkəmə-tibbi ekspertizanın təyini və keçirilməsində), ekspertə yönəlmiş sualların formalaşmasında və istintaq planının düzəlməsində istifadə oluna bilməsinin mümkünlüyü.

Qeyd. Məhkəmə təbabəti üzrə mütəxəssisin bütün mülahizələri ilkin, istiqamətləndirici xarakter daşıyır, müstəntiqə yalnız şifahi bildirilir, istintaq hərəkəti protokoluna qeyd edilmir və müstəqil sübutedici əhəmiyyət kəsb etmir.

Baxış, dindirilmə (həmçinin, ekspertin dindirilməsi), istintaq eksperimenti, ifadələrin yoxlanılması və tanınma kimi istintaq hərəkətlərinin keçirilməsinin qərara alınması, bu hərəkətlər keçirilməmişdən əvvəl, ayrıca qətnamənin çıxarılmasını və ya digər prosessual sənədin mütləq tərtibini tələb etmir.

Əgər mütəxəssisin cəlb edilməsi ilə istintaq hərəkətinin keçirilməsi haqqında qərar çıxarılırsa, həmin qərarın surətinin mütəxəssisə və ya onun işlədiyi idarənin rəhbərinə təqdim edilməsi kifayət edər. Mütəxəssisə qərarın surətinin təqdim edilməsi dövlət ekspert idarələrində məhkəmə-tibbi işinin bu növünün rəsmi qeydiyyatının və ona nəzarətinin təmin olunmasına imkan yaradır. İstintaq hərəkətinin keçirilməsinə mütəxəssisin cəlb olunması barədə

qərarın olmaması, onun bu hərəkətdə iştirak etməkdən imtina etməsinə əsas vermir.

Əgər qərar çıxarılmırsa və ya onun surəti təqdim edilə bilmirsə (məsələn, istintaq sirrinin gizli saxlanılması məqsədilə), müstəntiq istintaq hərəkətinin keçirilməsini şifahi surətdə, telefonoqramma və bildiriş vərəqəsi ilə mütəxəssisin nəzərinə çatdırır. Təcrübədə göstərilən vasitələrlə məhkəmə ekspert idarələrinin ştatlı işçilərini istintaq hərəkətlərinin keçirilməsinə cəlb edilməsi tez-tez rast gəlinən haldır. Qərarın və rəsmi bildirişin olması, mütəxəssisi müstəntiqin sərəncamına göndərməyə idarə rəhbəri üçün əsas olmaqla yanaşı, mütəxəssisin çağırışa gəlməyinin və istintaq hərəkətində iştirak etməyinin zəruri olduğunu bildirir.

Ekspert idarəsi rəhbərinin göstərişini və ya müstəntiqin çağırışını aldıqdan sonra mütəxəssis əvvəl işlə tanış olur, sərəncamında olan məlumatları və müstəntiqin təqdim etdiyi əlavə materialları öyrənir, istintaq hərəkətinin keçirilməsinin və özünün orada iştirakının məqsədini aydınlaşdırır. İş materialları ilə ilkin tanış olmanın nəticəsi, mütəxəssisdə istintaq hərəkətində iştirak etməsinin qanuna uyğun olması barədə inam yaratmalıdır. Bunun üçün mütəxəssisin səlahiyyəti qarşısında qoyulan vəzifələrin müvafiqliyi, uyğun biliklərin, təcrübənin və texniki təchizatın olması, işin nəticəsində maraqlı olmaması və kənarlaşdırılması üçün digər qanuni əsasların olmaması əsas şərtlər hesab edilir.

Mütəxəssis, müvafiq prosessual əsaslar olduqda, istintaq hərəkətində iştirak edə bilməməsi haqda müstəntiqə şifahi və ya yazılı məlumat verməyə borcludur.

İş materiallarını öyrənərkən, mütəxəssis yalnız öz fəaliyyətinin predmetinə bilavasitə aidiyyatı olan məlumatlarla kifayətlənməməlidir. Keçiriləcək istintaq hərəkətinin gedişində yoxlanılmalı və dəqiqləşdirilməli hallar haqqında, imkan daxilində daha tam məlumatlar əldə etməyə, sübutların müxtəlif mənbələri arasındakı ziddiyyətlər araşdırmağa və məhkəmə-tibbi əhəmiyyətli məlum faktları sistemləşdirməyə çalışmalıdır.

İş materiallarını öyrəndikdən sonra, mütəxəssisə, istintaq hərəkətlərinin keçirilməsininin vacibliyi, bu hərəkətlərə onun cəlb

edilməsi səbəbləri, qarşısında qoyulan vəzifələrin həll edilməsinin mümkün olub-olması və ya digər prosessual hərəkətlərin vacibliyi aydın olmalıdır.

İşə hazırlıq görərkən qarşıya qoyulan məsələlərdən asılı olaraq mütəxəssisə əvvəllər keçirilmiş ekspert tədqiqatları nəticəsi barədə, travma alətinin xüsusiyyətləri, cinayət iştirakçılarının və şahidlərin şəxsiyyəti (onların sağlamlıq vəziyyəti, fiziki və antropometrik məlumatları, peşə bilikləri və hər-hansı bir sahədə bacarıqları haqda) barədə məlumatlar lazım ola bilər. Bu hallara görə mütəxəssisin lazımi məlumatların ona verilməsi və ya müvafiq iş materialları ilə tanış olmaq üçün müstəntiqə müraciət etmək hüququ vardır. İş materiallarına istintaqı aparılan hadisənin iştirakçıları və şahidlərinin dindirmə protokolları, tibbi sənədlər, iş üzrə əvvəllər keçirilmiş ekspertizaların və idarə yoxlama aktları aiddir. İstintaq hərəkətlərinin təşkili və təhlükəsizliyi, onun iştirakçıları ilə ünsiyyət qurmaq taktikası nöqteyi-nəzərindən şübhəli şəxslərin (təqsirkarın) psixi vəziyyətinin və qeyri adekvat hərəkətlərinin mövcudluğunun əvvəlcədən öyrənilməsi məqsədəuyğundur.

Mütəxəssis təqdim olunmuş bütün materialların hərtərəfli öyrənilməsinin nəticələrinə əsaslanaraq, qarşısında qoyulmuş məsələlərin həllinin mümkünlüyü bərədə digər istintaq hərəkətlərinin keçirilməsi məqsədəuyğunluğunu müəyyən etməli və müstəntiqə məlumat verməlidir. Lazım gəldikdə isə müvafiq təklif və xahişlər etməlidir.

Mütəxəssis biliklərinə və analoji istintaq hərəkətlərində iştirak təcrübəsinə əsaslanaraq o, istintaq hərəkətləri keçirilməsinin ən əlverişli vaxtı, yeri və digər şəraiti barədə müstəntiqə məsləhət verə bilər. Məsələn, istintaq eksperimentini planlaşdırdıqda hadisə yeri şəraitinin bərpasının vacibliyi və onun həcmi barədə. Lazım olduqda mütəxəssis qarşıya qoyulmuş məsələlərin səmərəli və ardıcıl həlli üçün öz fikrini bildirir. Xüsusi ləvazimatın və yardımçı texniki vasitələrin hazır olmasını yoxlayır. Travma alətinin maketinin, onun oxşarının seçilməsi və hazırlanması barədə müstəntiqə məsləhət verir, istintaq hərəkətinin hazırlığı və keçirilməsinin təşkilati-taktiki məsələlərini onunla razılaşdırır.

İstintaqı aparılan cinayətin xüsusiyyətlərindən və istintaq hərəkətinin növündən asılı olaraq, onun keçirilmə şəraitləri əhəmiyyətli dərəcədə dəyişilə bilər. Bunun üçün bir sıra ümumi tələblər mövcuddur. Bu tələblərə istintaq hərəkətinin vaxtında keçirilməsi, istintaq sirrinin qorunması, mütəxəssislə müstəntiqin səmərəli qarşılıqlı əlaqəsinin təşkili, prosessual hərəkət iştirakçılarının qanuni hüquqlarının qorunması, şərəf və ləyaqətlərinə hörmət etmək və sairə aiddir. Belə ki, istintaq hərəkətinin vaxtında aparılmaması və yubandırılması, maddi sübutların itməsinə, hadisə yerindəki obyekt və şərait xüsusiyyətlərinin geridönməz dəyişikliklərinə gətirib çıxara bilər. Əksinə, istintaq hərəkətlərinin vaxtından əvvəl, hazırlıqsız keçirilməsi onun az effektliliyinə və ya lazımi ilkin məlumatların çatmamazlığından tam nəticəsiz qurtarmasına səbəb ola bilər.

Mütəxəssis fəaliyyətində istintaq sirrinin sərhədini - hədd dairəsini təyin etmək planlaşdırmada az əhəmiyyət kəsb etmir.

İstintaq hərəkəti gedişində işdə olan sübutların hamısından mütəxəssis sərbəst istifadə edə bilər. Mütəxəssisin işdə olan sübutlardan hansı birindən istintaq hərəkəti gedişində istifadə edə bilməsi və hansı məlumatları istintaq hərəkətinin digər iştirakçılarına bildirmək hüququna malik olması, istintaq hərəkətinin aparılmasına hazırlıqda müstəntiqlə müzakirə və razılaşdırma predmeti olmalıdır.

Prosessual hərəkətin hazırlıq mərhələsində müstəntiqlə qarşılıqlı əlaqənin təşkilinin uyğunluğunu o vaxt mümkün hesab etmək olar ki, mütəxəssis istintaq hərəkətində iştirakının vacibliyini və məqsədini, qarşısında qoyulan vəzifələri başa düşür, lazımi elmi-texniki vasitələri müəyyən edir, öz işinin üsul və ardıcıllığını fikirləşir. Xüsusi mürəkkəb, çox epizodlu cinayət işlərində, iştirakçılar sayca çox olduqda və prosessual hərəkətlər silsiləsi keçirildikdə, müxtəlif peşə mütəxəssislərinin köməyi ilə qarşıda qoyulan məsələləri həll etmək lazım gəldikdə, hazırlığın əsas ünsürlərini əks etdirilən qısa, yazılı plan tərtib etmək lazımdır.

Mütəxəssis və müstəntiqin qarşılıqlı əlaqəsinin alqoritmində ikinci mərhələ - istintaq hərəkətinin keçirilməsidir. Bu mərhələdə mütəxəssis öz bilik və təcrübəsindən birbaşa istifadə edir. Onun

fəaliyyətinin hansı dərəcədə müvəffəqiyyətli olması, ilkin planlaşdırmanın tamlığından, qanunun müəyyən müddəalarına və müstəntiqlə qarşılıqlı əlaqənin təşkili və taktikasına dair təcrübədən doğmuş tövsiyələrə riayət etməsindən asılıdır.

Öncə, müstəntiq (hakim) mütəxəssisin şəxsiyyətinə əmin olur, mütəxəssisin göstərdiyi məlumatlarla, onun pasport və ya xidməti vəsiqəsindəki məlumatları tutuşdurur, iş yerini və vəzifəsini dəqiqləşdirir. Lazım gəldikdə səlahiyyətini təsdiq edən sənəd tələb edir. Bundan sonra istintaq hərəkətlərinin bütün iştirakçılarına, o cümlədən mütəxəssisə, onların prosessual hüquq və vəzifələrinin, eləcədə imtina və ya boyun qaçırmanın məsuliyyəti izah edilir. Öz vəzifələrini yerinə yetirməkdən imtina etməyə görə mütəxəssis protokola imza atmağı ilə xəbərdar edilir. Protokolda mütəxəssisin imzasının olmaması ciddi prosessual pozuntu kimi qiymətləndirilir.

Mütəxəssisin, istintaq hərəkətlərinin təşkilinə aid məsələlər barədə xahişlə müstəntiqə müraciət etmək hüququ vardır. O, yerində iştirakçılarla və vəziyyətlə tanış olur, iş üçün lazımı şərait yaradılmasında və məsələlərin həllində müstəntiqə köməklik göstərir. Məsələn, hadisə yeri şəraitinin bərpasında statistlərin müəyyənləşdirilməsində, uyğun işıqlanmanın və meyitin tanınma üçün təqdim edildikdə onun xarici görünüşünün bərpa edilməsinin təmin olunmasında iştirak edir, texniki vasitələri iş üçün hazırlayır və sair. İstintaq hərəkətindən əvvəl yerində keçirilən bütün ilkin hərəkətlər protokolda ətraflı təsbit edilir. Bu çox mühüm mərhələdir və mütəxəssislər bəzən buna lazımi diqqət yetirmir. Müvafiq hazırlığa əhəmiyyət verilmədikdə, alınmış nəticələrin doğruluğu və onların sübutu mənası şübhə doğura bilər. Bəzi hallar isə, istintaq hərəkəti iştirakçılarının həyat və sağlamlıqları üçün çox təhlükəli ola bilər (məsələn, tam söndürülməmiş yanğın mənbələrinə və elektrik cərəyanı tam kəsilməmiş yerlərə baxış keçirdikdə).

Mütəxəssis öz fəaliyyətini yalnız müstəntiqin göstərişi və icazəsi ilə həyata keçirir. Eyni vaxtda istintaq hərəkətinin rəhbəri kimi müstəntiq mütəxəssis işinə görə də məsuliyyət daşıyır. Bu mənada müstəntiqin rəhbər və nəzarətedici rolu müəyyən həcmdə məhkəmə-tibbi biliklərə malik olmadıqda çox güman ki, səmərəli olmur.

Müstəntiqin kifayət qədər məhkəmə tibbi hazırlığının olmaması nəticəsində bəzən mənfi hallara rast gəlinir. Məsələn, hadisə yerinə gələn, sxematik işləməyə öyrənmiş müstəntiqlər, şablon üzrə baxış keçirir və meyitə heç kimi yaxın buraxmayaraq, maddi şərait üzrə protokol tərtib edirlər. Belə halda onlar unudurlar ki, məhkəmə həkiminin birinci vəzifəsi ölüm faktını təyin etmək və ya lazım olduqda zərərçəkmişə ilk tibbi yardım göstərməkdir. Ağır travma almış zərərçəkmişlərdə həyati əlamətlərin aşkar edilməsi heç də həmişə asan olmur. İstintaq və ekspert təcrübəsində «meyitlərə» baxış zamanı onların hələ də sağ olması hallarına dəfələrlə rast gəlinmişdir.

CPM-də (maddə 96) birbaşa göstərilir ki, mütəxəssisin əsas vəzifəsi sübutların tapılmasında, təsbit edilməsində və götürülməsində müstəntiqə kömək göstərməkdir. İstintaq hərəkətinin növündən asılı olaraq, mütəxəssisin vəzifəsi aşağıdakılardan ibarətdir: istintaq hərəkətinin keçirilməsi üçün lazımi şəraitin yaradılmasında müstəntiqə kömək göstərmək, aşkar edilmiş iz və obyektlərin saxlanmasını təmin etmək; istintaqı aparılan hadisənin baş verdiyi şəraiti canlandırmaq, xüsusi ləvazimat və yardımçı texniki vasitələri tətbiq etmək. Müstəntiqin göstərişi və ya icazəsi ilə mütəxəssis istintaq hərəkəti iştirakçılarından özünə lazım olan məlumatları ala bilər, eləcə də gördükləri işlər və xüsusi ləvazimatın təyini, onlardan istifadənin nəticəsi barədə izahlar verə bilər.

İstintaq hərəkətləri gedişində məhkəmə-tibb sahəsinin mütəxəssisləri müxtəlif yardımçı alət və vasitələr tətbiq edirlər. Bu vasitələrin standart dəstinə qayçılar, cərrah bıçağı, maqqaş, şpris, nevroloji çəkic, əşya şüşələri, tənzif, pambıq, ölçü və hesablama alətləri (xətkeşlər, santimetr lenti və ya ruletka, termometrlər, dinamometrlər, saniyəölçənlər, kalkulyator və s.) elektrik sınaq təsiri generatoru, tuşlama alətləri (dar istiqamətli işıq dəstəsi mənbələri), nişan qoymaq üçün işlədilən vasitələr (leykoplastır və ya yapışqanlı lent, qayçılar, markör), işıqlandırma və optiki cihazlar (lupa, fənər və s.), ultrabənövşəyi və infraqırmızı şüavericilər, izləri götürmək və müqayisəli nümunələrin alınması üçün işlədilən vasitələr (plastik kütlələr, gips, talk), kimyəvi reaktivlər və ekspress-diaqnostikanın

digər maddələri (atropin və pilokarpin, «Qemofan» reagenti və s.), nişanlayıcı, qablaşdırıcı və dezinfeksiyaedici materiallar daxildir. Əlavə vasitələrə foto, kino və ya video cihazlar aiddir. Texniki və digər vasitələr tətbiq edildikdə istintaq hərəkətlərinin keçirilməsində iştirak edənlər xəbərdar edilməli və protokolda müvafiq qeydiyyat aparılmalıdır.

Mütəxəssis tərəfindən əlavə texniki vasitələrin, qurğuların və materialların tətbiq olunması hər şeydən əvvəl izlərin və aşkar edilmiş obyektlərin tapılmasına, baxılmasına, təsbit edilməsinə, götürülməsinə və qablaşdırılmasına doğru yönəlmişdir. Prosessual hərəkətin keçirildiyi yerdə ilkin tədqiqatların aparılmasının mümkünlüyü, həmin hərəkətlərin operativ xarakteri və müstəntiqlə razılaşdırmanın vacibliyi baxımından məhduddur. Yenidən aşkar edilmiş iz və obyektlərin ilkin tədqiqatı yalnız ekspert praktikasında istifadəsi bəyənilmiş və rəsmən məsləhət görülmüş, obyektlərin maksimal dərəcədə saxlanılmasını təmin edən, sonrakı ekspertizaların keçirilməsinə mane olmayan, düzgün və aydın nəticələr verən üsul və vasitələrlə aparılmalıdır. Bütün istintaq hərəkəti iştirakçıları tərəfindən nəticələri əyani surətdə qavranılan və ya başa düşülməsi aydın olan metodlara üstünlük verilir. İstifadə olunan vasitə və üsullar obyektlərin dağılmasına səbəb olmamalıdır. Obyektlərin dağılmasına müstəntiqin icazəsi ilə, o halda yol verilir ki, iz və obyektlərin bütövlüklə götürülməsi və ya yerində keçirilən tədbirlərlə belə, obyektin tam tədqiqatı mümkün olmur. Bu vaxt obyektin mütləq ilkin sənədləşdirilməsi - protokolda ətraflı təsviri, sxem tərtib edilməli, şəkil və video çəkilişlər aparılmalıdır.

Mütəxəssis müxtəlif ləvazimatlardan istifadə etdikdə təhlükəsizlik qaydalarına ətrafdakıları da nəzərə almaqla, riayət etməlidir. Bir çox etik məsələlərdə diqqətli olmalıdır. Məsələn; meyitə baxış keçirildikdə, istintaq hərəkətinin keçirilməsində iştirak edənlər, xüsusən də mərhumun yaxınları və qohumları tərəfindən mütəxəssisin fəaliyyəti psixoloji olaraq mənfi qəbul edilə bilər.

Mütəxəssis, lazım olduqda sübutların tapılması, təsbit edilməsi və götürülməsi ilə bağlı təkliflər edir, onların istintaq hərəkətinin protokoluna salınmasına nəzarət edir, səlahiyyətinə aid məsələlərdə

müstəntiqə məsləhətlər verir, fəaliyyətinin predmetinə aid əmrləri və göstərişləri yerinə yetirir (iz və obyektlərin təsdiqlənməsində, iştirakçılara nümayiş etdirilməsində, müqayisəli nümunələrin alınmasında köməklik göstərir). Bu zaman, mütəxəssisin, istintaq hərəkətinin əsas predmeti çərçivəsindən kənara çıxan və ya onun vəzifələrində nəzərdə tutulmayan hər bir hərəkəti təsdiq edilməlidir.

Mütəxəssisin prosessual tabeçilik statusuna və qanunvericiliklə möhkəmləndirilmiş təşəbbüskarlıq hüququnun olmamasına baxmayaraq, bütün hallarda onun qanunun tələb etdiyi kimi, sübutların tapılması, təsbit edilməsi və götürülməsinə aid hallar haqqında deyil, ümumilikdə istintaq hərəkətinin keçirilməsinin predmetinə və istintaq üçün məna kəsb edən digər məlumatlar haqqında mülahizələrini müstəntiqin nəzərinə çatdırmasını düzgün hesab etmək olar.

Mütəxəssis öz xidməti vəzifələrini yerinə yetirmək üçün maksimal dərəcədə tam və obyektiv məlumatlar almalıdır. Bu da istintaq hərəkətinin bütün iştirakçıları ilə aktiv qarşılıqlı əlaqə yaratmadan mümkün deyildir. Mütəxəssis unutmamalıdır ki, onun istintaq hərəkətində fəaliyyətinə qanunvericilikdə nəzərdə tutulmuş hal şahidləri kimi vacib nəzarətçilər vardır. Cinayət prosessual məcəlləsi baxış (o cümlədən meyitə) keçirilərkən, ekshumasiyada, istintaq eksperimentlərində, axtarış və götürmədə, tanınmaya təqdim etdikdə və ifadələrin yoxlanılmasında hal şahidlərinin mütləq qaydada iştirakını nəzərdə tutur (CPM maddə 94). Müstəntiqin hal şahidlərini müayinənin, götürmənin və baxışın keçirilməsinə cəlb etməmək hüququ vardır. Bu onların təhlükəsizliyinin təmin oluna bilməyəcəyi və ya istintaq hərəkətinin çətin şəraitdə keçiriləcəyi halda baş verir.

Hal şahidi - cinayət işinin nəticəsində marağı olmayan, istintaq hərəkətinin keçirilməsi faktını, onun məzmununu, gediş və nəticəsini təsdiq etmək üçün təhqiqatçı, müstəntiq və prokuror tərəfindən cəlb edilmiş şəxsdir (CPM maddə 94). Mütəxəssis işini müşahidə və təsdiq edən hal şahidləri sonradan məhkəmədə onun müəyyən etdiyi məlumatların ədalətliliyini təsdiqləyə və onların obyektivliyinə dair yarana biləcək şübhələri təkzib edə bilər. Təbii ki, bunda marağı olan

mütəxəssis istintaq hərəkətinin planlaşdırılması vaxtı (əgər təcili xarakter daşımırsa) hal şahidlərinin seçilməsində müstəntiqin diqqətini onların sağlamlıq vəziyyətinə, müşahidə etdiklərini düzgün və dəqiq qavrayıb, yadda saxlamaq qabiliyyətlərinə yönəldə bilər. Prosessual hərəkətlər keçirilərkən mütəxəssis öz işini elə təşkil etməlidir ki, hal şahidləri onun hərəkətlərinin gedişini müşahidə edə bilsinlər. Onlarda məhkəmə həkiminin rolu barədə aydın təsəvvür yaransın və sonradan təyin etdikləri faktları təsdiqləsinlər. Əlavə olaraq, faktlara və obyektlərin konkret xüsusiyyətlərinə hal şahidlərinin diqqətini yönəltmək iş üçün əhəmiyyətlidir.

Hal şahidlərinin, şübhəli, təqsirləndirilən, zərərçəkmiş şəxslərlə və onların qanunu nümayəndələri ilə, şahid və istintaq hərəkətlərinin digər iştirakçıları ilə qarşılıqlı əlaqəsi aşağıdakı şərtlərə cavab verməlidir:

– Bu şəxslərin qanunu hüquqlarına riayət edilməklə CPM çərçivəsində hərəkət etmək *(prosessual-hüquqi şərt)*;

– Şərəf və ləyaqətinin alçaldılmasının yol verilməzliyi *(mənəvi-etik şərt)*;

– Bilərəkdən aldatma və faktların təhrif edilməsi *(cinayət-hüquqi şərt)*.

Qanuna görə istintaq hərəkətinin keçirilməsi və onun nəticəsinin tərtib edilməsi müstəntiqin vəzifəsinə aiddir. Lakin, yekun mərhələdə mütəxəssis kənarda müşahidəçi qismində qalmır. Mütəxəssis protokolu imzalamaqla kifayətlənmir, onun tərtibində müstəntiqə yardım edir. İstintaq hərəkətlərində ekspertin və ya mütəxəssisin iştirakının protokolda yalnız onun imzası ilə təsdiqlənməsi hallarını mütəxəssis işində ciddi metodik qüsurlar kimi qəbul etmək olar.

CPM-nın 134.1 maddəsi protokol tərtibinin mütləqliyini təyin edir. Protokola cinayət prosesində istintaq və ya məhkəmə hərəkətlərinin gedişini və nəticələrini təsbit edən əsas sənəd kimi baxılır, orada qeyd olunan faktlar və hallar isə iş üzrə sübut sayılır (maddə 134.2.). Əgər protokol tərtib edilməmişsə və ya qanunun tələblərinin ciddi pozulması ilə tərtib edilmişsə istintaq hərəkətlərinin nəticəsi sübutedici əhəmiyyətini itirir (maddə 134.4.).

İstintaq hərəkəti protokolunun tərtib edilmə qaydası və məzmunu CPM 134, 234, 236, 237. 241, 263 maddələri ilə qaydaya salınmışdır. Protokol müstəntiq tərəfindən prosessual hərəkətlər gedişində və ya dərhal onun yekununda tərtib edilir. Protokol əllə və ya texniki vasitələrdən istifadə etməklə (yazı makinası, kompyuter və s.) yazıla bilər. Bir çox hallarda istintaq hərəkəti gedişi və nəticələrini bütövlükdə əks etdirmək üçün qaralamadan, stenoqrafiyadan, fotoqrafiyadan, kino, səs və ya video yazıdan istifadə edilir. Bu halda protokol, hərəkət qurtardıqdan dərhal sonra tərtib edilir. Stenoqrafik yazılar, fotoqrafik neqativ və şəkillər, audio və video yazı materialları cinayət işinə əlavə edilir.

Protokolun standart blanklar halında forması CPM-ə əlavələrdə göstərilmişdir. Protokolun nüsxə sayının miqdarı qanunla məhdudlaşdırılmamışdır. Aşkar edilmiş obyektlərin və yaxud müəyyən edilmiş faktların ekspertizası keçirilərkən, zərurət yarandığı hallarda protokolun bir surəti mütləq məhkəmə-tibb ekspertinə təqdim edilir.

Protokolun tərtib edilməsində mütəxəssisin köməyi, onların yerinə yetirilmiş hərəkətlərinin gedişinin obyektiv və tam protokollaşdırılması, istintaq hərəkətinin keçirilmə şərtlərinin, köməkçi vasitələrdən istifadənin texniki xarakteristikasının, həmçinin xüsusi anlayışların səviyyəli istifadəsinin dəqiq təsbit edilməsinə zəmanət kimi xidmət edir.

İstintaq hərəkəti protokolu üç hissədən ibarətdir: giriş, təsviri və nəticə hissə. Məhkəmə tibb sahəsinin mütəxəssisi protokolun hər üç hissənin məzmununa diqqət yetirməlidir. Xüsusən giriş hissədə istintaq hərəkəti keçirilməsinin vaxtı və yeri, onun başlanma və qurtarma vaxtı (dəqiqəyədək dəqiqliklə), kim tərəfindən və hansı əsasa görə keçirilməsi (müstəntiqin adı, soyadı və atasının adı), onun keçirilmə şəraiti (hava, işıqlanma, hərarət rejimi və s.) düzgün qeyd edilməlidir. Giriş hissədə istintaq hərəkətinin digər iştirakçıları və onlar barədə məlumatlar (adı, soyadı, atasının adı, iş yeri, tutduğu vəzifə) göstərilir. Buna əsasən müstəntiq onların, o cümlədən mütəxəssisin şəxsiyyət və səlahiyyətinə əmin olur.

Hərəkət iştirakçılarına onların prosessual hüquqlarını, vəzifə və məsuliyyətini, istintaq hərəkətlərinin aparılma qaydasını izah etdikdən sonra protokola müvafiq qeydiyyatlar aparılır və onların şəxsi imzaları ilə təsdiqlənir.

Mütəxəssis öz vəzifəsini yerinə yetirməkdən imtina etməyə və ya boyun qaçırmağa görə məsuliyyət daşıdığı barədə xəbərdar edilir.

Protokolun təsviri hissəsini tərtib edərkən mütəxəssis prosessual hərəkətlərin məzmununu və onların keçirilmə şəraitini, müəyyən edilmiş faktların mahiyyətini və aşkarlanma üsullarını dəqiqliklə qeyd etməkdə müstəntiqə köməklik göstərir. Mütəxəssis hərəkətinin mahiyyəti və ardıcıllığı protokola istintaq hərəkətləri gedişində olduğu kimi qeyd edilir. Mütəxəssisin istifadə etdiyi metodların, yardımçı texniki vasitələrin ətraflı xarakteristikası verilir, onların tətbiqi nəticələri, yerinə yetirilmiş hərəkətlər, yenidən müəyyən edilmiş iş üçün əhəmiyyət kəsb edən hallar və faktlar (o cümlədən mənfi xarakterli faktlar), hərəkət iştirakçılarının ifadə və izahatları qeyd edilir.

Protokolun üçüncü yekun hissəsində görülmüş işin nəticələrinin təsbit edilməsinin əlavə texniki vasitələri, onlardan istifadənin şərtləri və qaydaları haqqında, hansı obyektlər üçün istifadə olunması, həmçinin, alınmış nəticələr barədə məlumatlar qeyd edilir. Xüsusi yardımçı vasitələrə fotoqrafik alətlər, kino və videoçəkilişləri, səs yazıları, qrafik təsbiti vasitə və nəticələri (sxem, layihə, şəkillər) və modelləşdirmə (maketlərin, surətlərin, basma izlərinin, iz və obyektlərin surətlərinin hazırlanması) aiddir. Foto cədvəllər və onların neqativi, kino və video lentlər, stenoqrammalar, fonoqrammalar və sxemlər protokola əlavə sayılır və onun əsas hissəsi kimi işə tikilir. Protokolda göstərilən vasitələrdən istifadə şəraiti və onların texniki xarakteristikası qeyd olunmasa, əldə edilmiş faktiki məlumatlar sübutedici əhəmiyyətini itirmiş hesab olunur. Məhkəmə-təbabəti mütəxəssisi yalnız şəxsən istifadə etdiyi texniki vasitələrin və onun iştirakı ilə alınan nəticələrin təsvirini təmin edir. Protokolda iştirakçıların texniki vasitələrdən istifadə olunacağı barədə əvvəlcədən xəbərdarlıq edilmələri göstərilməlidir. Səs, kino

və video yazılar istintaq hərəkəti qurtardıqdan sonra bütövlüklə yenidən baxılır.

Protokolun yekun hissəsində müstəntiq mütəxəssisin **təklif və etirazlarını** qeyd edir. Mütəxəssisə və digər iştirakçılara protokola əlavə və dəqiqləşdirmələr etmək haqqında fikir və müşahidələrini qeyd edə bilməsi hüquqlarını aydınlaşdırır. Protokolun dəqiqləşdirilməsi və tamamlanması ilə əlaqədar mütəxəssisin göstərdiyi istənilən müşahidə və fikirləri, mütləq qaydada protokolda öz əksini tapmalıdır. Məsələn, funksiyasını yerinə yetirməkdə mane olan şəraitlər (kifayət qədər işıqlanmanın olmaması, əlverişsiz hava şəraiti və s.), yerinə yetirdiyi hərəkət şərtlərinə əməl olunub-olunmaması, müstəntiqin istintaq hərəkətinin digər iştirakçılarına verdiyi sualların məzmununun dəqiqləşdirilməsi, yazılmış ifadələrin dəqiq və tamlığı barədə və digərləri aid ola bilər.

Mütəxəssisin bütün fikir və mülahizələrinin hamısının protokola qeyd edilməsi vacib deyil. Bu bildirişlər istintaq hərəkətinin keçirilməsi taktikasına, onun gedişi və nəticələrinin qiymətləndirilməsinə, alınmış nəticələrin etibarlığına toxunursa, müstəntiq onlardan imtina edə bilər. Sübutların qiymətləndirilməsinə yönəlmiş belə fikir və mülahizələr məhkəmə və müstəntiqin səlahiyyətinə aid olduğundan, onunla razılaşıb-razılaşmamaq onların hüqugudur. Mütəxəssis təşkilati, icra və dindirmənin nəticələrinə aid bütün məsələlər barədə öz fikrini şifahi söyləyə bilər və təcrübəli müstəntiq onun bütün bildiriş və fikirlərini diqqətsiz qoymaz.

Protokolu müstəntiq, mütəxəssis və istintaq hərəkətinin icrasında iştirak edən digər şəxslər imzalayırlar. İmza atmamışdan əvvəl, mütəxəssis protokolun mətnində öz hərəkətlərinin və əldə edilən məlumatların düzgün, dəqiq və bütövlükdə şərh olunmasına əmin olmalıdır. Qanun istintaq hərəkətində iştirak edən bütün şəxslərin protokolla tanış olmasının mütləqliyini göstərir. Oxunmadan protokolun imzalanması ciddi taktiki səhvdir. Bəzən bu səhv mühüm məlumatların bərpa olunmaz halda itməsinə, mütəxəssisin dindirilməsi və ya istintaq hərəkətlərinin təkrar keçirilməsi zərurətinə səbəb olur. Bütün əlavə və düzəlişlər göstərilməli, mütəxəssis və

müstəntiqin ayrıca imzaları ilə təsdiqlənməlidir (dindirmə aparılarkən dindirilənin imzası ilə).

Hər hansı bir səbəbdən mütəxəssis protokolu imzalamaqdan imtina edirsə, bu barədə protokolda müvafiq qeydiyyat aparılır və müstəntiqin, əgər istintaq hərəkətində müdafiəçi və hal şahidləri iştirak edirsə, onların imzası ilə təsdiqlənir. Mütəxəssisə protokolu imzalamaqdan imtina etməsinin səbəblərini izah etmək üçün imkan verilir və həmin izahat mütləq qaydada protokola qeyd olunur.

Mütəxəssisin vəzifəsi müstəntiqə istintaq hərəkətinin hazırlığında, keçirilməsində, nəticələrin tərtibində kömək etməsi ilə kifayətlənmir və bununla onun prosessual fəaliyyəti qurtarmır.

Sübutların qiymətləndirilməsi işdə olan materialların qeydiyyatına və təhlilinə əsasən təhqiqatçının, müstəntiqin, prokurorun və məhkəmənin müstəsna hüququdur. Mütəxəssisin mülahizələri istintaq hərəkəti nəticəsinin düzgün başa düşülməsində, sübutların əsasını təşkil edən faktiki məlumatların tam, hərtərəfli və obyektiv qiymətləndirilməsində əhəmiyyətli dərəcədə təhqiqatçıya, müstəntiqə, prokurora və məhkəməyə köməklik edir. Yəni, mütəxəssis öz səlahiyyətinə müvafiq olaraq, sübutların mənası haqda deyil, onların əsasını təşkil edən faktiki məlumatlar haqda öz mülahizələrini söyləmək hüququna malikdir. İstintaq hərəkəti nəticəsinin qiymətləndirilməsində mütəxəssisin iştirakı, eyni vaxtda onun peşəkarlıq səriştəsinin təkmilləşdirilməsinə köməkdir və növbəti oxşar prosessual hərəkətlər keçirilərkən səhvdən çəkindirəcəkdir.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, istintaq hərəkətini dindirmə, istintaq eksperimenti, ifadələrin yoxlanılması, nümunələrin götürülməsi ya tanınmaya təqdim etmə, onun nəticələrinin müzakirəsindən ayrılmalıdır. Nəticədə istintaq edilən hadisənin gedişinin daha obyektiv və hərtərəfli araşdırılmasına, canlandırılmasına və öyrənilməsinə imkan yaranır. İkincisi, yadda saxlamaq lazımdır ki, istintaq hərəkəti gedişində mütəxəssisin hər hansı bir fikri olduqca ilkin xarakter daşıyır, müstəntiqin xahişi ilə ona yalnız şifahi halda deyilə bilər və protokola qeyd olunmur. Çox

nadir hallarda müstəntiq öz təşəbbüsü ilə mütəxəssis mülahizələrini protokola qeyd edir ki, bu da sübutu əhəmiyyət kəsb etmir.

Əldə edilmiş nəticələrin yekun qiymətləndirilməsi bir qayda olaraq müstəntiq tərəfindən istintaq hərəkəti çərçivəsindən kənarda aparılır. Bu məqsədlə ya ekspertiza təyin edilir və yaxud da ekspert dindirilə bilər.

Mütəxəssisin fikrini aydınlaşdırmaq üçün eksperti dindirməklə, ilkin, əlavə ya təkrari ekspertizaların keçirib-keçirilməməsini müstəntiq və məhkəmə müəyyən edir. Lakin, CPM, müvafiq prosessual həllin əsasını dəqiq müəyyən etmir. Məsələn, əlavə ekspertizanın təyin edilməsi (maddə 267) və ekspertin dindirilmə səbəbləri (maddə 272) praktik olaraq bir-birinə çox uyğundur. Təkrar ekspertizanın təyin olunması üçün əsaslardan biri olan ekspert rəyinin əsassızlığı deyildikdə, nəyin başa düşülməsi məcəllədə açıqlanmamışdır. Buna görə də mütəxəssis (ekspert) bu sualın həllindən kənarda qalmamalı, öz fikir və mülahizələrini müstəntiqə və məhkəməyə bildirməlidir. Fikrimizcə, istintaq hərəkəti nəticələrinin qiymətləndirilməsindən sonra qərar qəbul etmək üçün aşağıdakı alqoritmi qanunvericiliklə ziddiyyət təşkil etməz.

- əgər prosessual hərəkətin nəticələri ekspert tərəfindən əvvəl verilmiş rəylə obyektiv ziddiyyət təşkil edirsə, onun əsaslı və düzgün olmasından şübhələnməyə əsas verir və bu suallar üzrə təkrar ekspertiza təyin olunmalıdır;
- əgər prosessual hərəkətin nəticəsi kimi, əvvəllər ekspertə məlum olmayan yeni məlumat ortaya çıxırsa və onun qiymətləndirilməsi üçün xüsusi tədqiqat lazımdırsa və əvvəllər tədqiq olunmuş iş materiallarına dair müstəntiqdə yeni suallar yaranırsa, onda əlavə ekspertiza təyin edilir;
- əgər alınan məlumatlar, onun mahiyyətində əks olunmayaraq, ekspert rəyini tamamlayır və ya ona əlavələr edilərsə və mütəxəssisdən xüsusi tədqiqatlar aparılmadan aydınlaşdırılmanı tələb edirsə, müstəntiq ekspertin dindirilməsini keçirə bilər;
- istintaq hərəkətinin, ekspert nəticələrinin yoxlanılması məqsədilə keçirildiyi, lakin onların təsdiq edildiyi və heç bir yeni

şəraitlərin müəyyən edilmədiyi hallarda, müstəntiq mütəxəssisin şifahi mülahizələri ilə kifayətlənə bilər.

Müstəntiqin və ya məhkəmənin sübutların qiymətləndirməsinin ümumi prinsipi - «öz daxili inamına görə» - mütəxəssis tərəfindən tətbiq edilə bilməz. Mütəxəssis sübutları deyil, onların əsasını təşkil edən faktiki məlumatları qiymətləndirir. Bu halda qərəzsizlik, öncə müəyyən edilmənin olmaması və müstəqillik kimi müddəalar və digər tələblər rəhbər tutulmalıdır. Həmin prinsipləri mütəxəssis fəaliyyətinə də aid etmək olar. İstənilən istintaq hərəkəti nəticəsinin doğruluğunun qəbul edilməsi və əsaslanmış sübutların, iş üzrə sübutların ümumi sxeminə daxil edilməsi üçün nəticələrə ciddi yanaşaraq elmi, obyektiv və məntiqi qiymət vermək lazımdır. Çox vaxt belə qiymətləndirmə müstəntiq tərəfindən mütəxəssisin iştirakı ilə aparılır və aşağıdakı sualların həlli nəzərdə tutulur:

♦ Qarşıya qoyulmuş məqsədə çatmaq üçün seçilmiş istintaq hərəkəti prosessual və metodik cəhətdən uyğun vasitədirmi;

♦ İstintaq hərəkəti keçirilərkən mütəxəssis iştirakının predmet və şərtlərinə aid cinayət prosessual məcəllənin tələblərinə əməl olunmuşdurmu;

♦ Prosessual hərəkətin məzmunu istintaq hərəkətinin keçirilməsinin ilkin planına uyğundurmu, elmi-texniki vasitələrdən və xüsusi metodlardan nə dərəcədə tam və düzgün istifadə olunmuşdur;

♦ Prosessual hərəkətin nəticələri nə dərəcədə dolğun və düzgün qeyd edilmişdir;

♦ Qarşıya qoyulan məsələlər həll olunmuşdurmu, istintaq hərəkətlərinin təkrar keçirilməsi lazımdırmı;

♦ Əldə edilmiş məlumatlar nə dərəcədə etibarlıdır (son məlumatların və müqayisə meyarlarının düzgün seçimi, təcrübələr keçirilərkən vacib taktiki şərtlərə riayət edilməsi, alınan məlumatların davamlılığı, onların izahında formal-məntiqi vasitələrin düzgünlüyü və s.);

♦ İstintaq hərəkətlərinin faktiki nəticələri işin digər materiallarına uyğundurmu və ya ziddiyyət təşkil edirmi və ümumilikdə tədqiq edilən hadisələr gedişinə yayıla bilərmi;

♦ Yenidən alınmış məlumatların sonrakı istintaqda, planlaşdırmada və digər istintaq hərəkətlərində, o cümlədən məhkəmə-tibb ekspertizasının keçirilməsində hansı imkanları vardır.

Nəticələrin belə təhlili istintaq hərəkətini faktiki olaraq tamamlayır. Planlaşdırma, icra və nəticələrin qiymətləndirilməsinin göstərilən alqoritmi prosessual hərəkətlərdə məhkəmə-tibb ekspertinin (mütəxəssisin) dəqiq və ardıcıl iştirakını, işinin məqsədyönlü və səmərəliliyini, müstəntiqlə qarşılıqlı hərəkətlərinin uzlaşmasını və yekdilliyini təmin edir.

Prosessual hərəkətlərdə öz iştirakını qüsursuz və səmərəli planlaşdırmaq və təşkil etmək bacarığı məhkəmə-tibb ekspertinin yüksək səviyyəli professional hazırlığının mühüm meyarıdır.

FƏSİL 7. İSTİNTAQ BAXIŞI. MÜAYİNƏ. AXTARIŞ. GÖTÜRMƏ.

İstintaq baxışı ən universal prosessual hərəkət sayılır. Onun həyata keçirilməsi üçün bir çox hallarda ekspert və mütəxəssislər cəlb edilir. Onların sıralarına məhkəmə-tibb ekspertləri və məhkəmə təbabəti sahəsinin mütəxəssisləri də cəlb olunur (istintaq hərəkətlərində ekspert və mütəxəssislərin iştirakı zamanı onların prosessual statuslarının fərqi olmasına baxmayaraq, funksiyaları və iş metodları uyğun gəlir).

Xüsusi kriminalistik ədəbiyyatlarda istintaq taktikası, baxış, müayinə və axtarış metodikası haqqında məlumatlar ətraflı şərh olunur. Metodik baxımdan müayinənin təşkili «canlı» şəxslərin ümumi məhkəmə ekspertizasının müayinə təcrübəsindən seçilmir. Axtarış və götürmənin icrasına məhkəmə təbabəti sahəsindən mütəxəssislər nadir hallarda cəlb olunur. Bu hal başlıca olaraq, qanunvericilikdə baş verən dəyişiklikləri, CPM-nin və D.M.E.F.H.Q-nun qüvvəyə minməsini nəzərə alaraq, müvafiq istintaq hərəkətlərinin həyata keçirilməsinin yalnız ümumi prosessual əsaslarını şərh etməklə kifayətlənməyə imkan verir.

7.1. İstintaq baxışı, müayinəsi, axtarışı, götürmə haqqında anlayışlar və onların məhkəmə-tibbi ekspertizada yeri.

Baxış – hər-hansı bir obyektin müşahidəsi və müayinəsindən ibarət prosessual hərəkətdir. Baxışın həyata keçirilməsinin əsaslandırılması CPM 236.1-ci maddəsində əksini tapmışdır. Bu maddədə, baxışın cinayət izlərinin tapılması və cinayət işi üçün sübut mənbəyi ola biləcək digər maddi obyektlərin və iş üçün əhəmiyyətli olan digər halların aşkar edilməsi məqsədi ilə həyata keçirilməsi göstərilir.

Hadisə baş verən yer, eləcə də cinayət izlərinin olması ehtimal edilən, lakin hadisə yeri olmayan hər-hansı ərazi sahəsi, əşyalar, sənədlər, insanlar, heyvanlar, heyvan cəsədləri və insan meyitləri və yaxud meyit hissələri baxışın obyekti ola bilər.

Digər prosessual hərəkətlər kimi, baxış da adətən artıq qaldırılmış cinayət işi üzrə aparılır. Təxirəsalınmaz hallarda hadisə yerinə baxış cinayət işi açılmamış keçirilə bilər (CPM, maddə 236.2). Qanunda «təxirəsalınmaz» halların siyahısı verilmir. Məhkəmə-tibb fəaliyyətində meyitin aşkar edilməsi və ona istintaq baxışının keçirilməsi zərurətini bu hala aid etmək olar.

Müstəntiqin baxış keçirilməsi barədə qərarı qətnamənin çıxarılmasını tələb etmir. İstintaq hərəkətinin aparılmasının əsaslandırılmasının və qanunauyğunluğunun müəyyən ediməsinin müstəntiqin səlahiyyətinə aid olmasına baxmayaraq, yaşayış yerinə baxış keçirilməsi barədə qərar qəbul etmək yalnız məhkəmənin səlahiyyətinə aiddir.

Baxış hal şahidlərinin iştirakı ilə keçirilir. Lakin lazımi rabitə və əlaqə vasitələrinin olmadığı çətin keçirilə bilən ərazidə, həmçinin istintaq hərəkətinin icrasının insanların həyatı və sağlamlığı üçün təhlükə törədə bilməsi ilə bağlı hallarda, baxış hal şahidlərinin iştirakı olmadan keçirilə bilər və bu barədə istintaq hərəkətinin protokolunda müvafiq qeydlər edilir. Baxış hal şahidlərinin iştirakı olmadan keçirilirsə, onun gedişini və nəticələrini təsbit etmək üçün foto, kino və ya videoçəkiliş kimi texniki vəsaitlərdən istifadə edilir. Texniki vasitələrin istifadəsi mümkün olmadıqda, bu barədə müstəntiq protokolda müvafiq qeydlər etməlidir.

Qanunvericilikdə istintaq baxışının keçirilməsinə mütəxəssisin cəlb olunmasının mümkünlüyü birbaşa qeyd olunmur. Qanunda bu məsələ ümumi norma daxilində həll edilir. CPM-nin 85-ci maddəsinə uyğun olaraq müstəntiq cinayət işinə görə ibtidai istintaqı aparmağa səlahiyyətli vəzifəli şəxs kimi tədqiqatın gedişatını şəxsən özü istiqamətləndirir, istintaq və digər prosessual hərəkətlərin həyata keçirilməsinə dair qərarlar qəbul edir (məhkəmə qərarının və prokuror sanksiyasının alınması tələb olunan hallar istisna olmaqla) və cinayət mühakimə icraatı iştirakçılarını bu hərəkətlərin

keçirilməsinə cəlb edir. Ümumi qayda üzrə hər bir konkret halda ekspert və ya mütəxəssisin prosessual hərəkətlərə cəlb olunması məsələsini müstəntiq istintaqı aparılan cinayət işinin xüsusiyyətlərindən asılı olaraq həll edir. Qanuna görə müstəntiqin fikrindən asılı olmayaraq baxış mütləq qaydada məhkəmə-tibb ekspertinin iştirakı ilə keçirilir. Belə hallara əsasən, meyitə baxışın keçirilməsi aiddir. Qanunla zəruri hallarda digər mütəxəssislərin də cəlb olunmasına yol verilir.

Məhkəmə tibb ekspertinin iştirakı ilə keçirilən baxışda əsas baxış obyekti kimi hadisə yerini və həmin yerdə olan meyitləri, onların şəxsi əşyalarını, bioloji mənşəli obyektlərin izlərini (qan, tük, toxuma hissələri və ifrazatlar), cinayəti törətmək və ya onun izlərini gizlətmək üçün istifadə olunmuş obyektləri (əşya, alət, nəqliyyat vasitələri və s.) göstərmək olar. Nadir hallarda məhkəmə-tibb eksperti hadisə yeri olmayan, lakin üzərində cinayət işinə aid izlər və əşyalar aşkar edilmiş ərazi sahəsinin və tikililərin baxışında iştirak edir, həmçinin, hadisə yerindən kənarda cinayət işinə aid izlərə, predmet və alətlərə də baxış keçirir. Məhkəmə-tibbi biliklərdən istifadənin ən nadir obyekti – sənədlərdir.

Meyitə baxış mütləq qaydada onun aşkar olunduğu yerdə keçirilir. Qanun hadisə yerində istintaq hərəkətlərinin keçirilməsi çətin olduqda baxış obyektinin götürülməsi, qablaşdırılması, möhürlənməsi müstəntiq və hal şahidlərinin imzaları ilə baxış yerində təsdiqlənməsi mümkünlüyünü nəzərdə tutur. Bu hal tam mənada meyitə də aiddir. Digər obyektlərdən yalnız cinayət işinə aidiyyatı olan əşyalar götürülə bilər. Bu zaman baxış protokolunda götürülən əşyaların fərdi əlamətləri və xüsusiyyətləri imkan dairəsində ətraflı qeyd olunmalıdır. Baxış zamanı aşkar edilən və götürülən əşyalar, izlər və s. hal şahidlərinə və baxışın digər iştirakçılarına təqdim olunmalıdır.

Naməlum meyitlərə baxış zamanı, ekspert-kriminalistin köməyi ilə meyitlərin mütləq fotoşəkli çəkilməli və daktilokopiyası aparılmalıdır.

Şahidin, təqsirləndirilən, şübhəli və zərərçəkmiş şəxsin müayinəsi – cinayətin istintaqı prosesində baxışın bir növü kimi qiymətləndirilən istintaq hərəkətidir.

CPM-nin 238-ci maddəsi şəxsin müayinəsinin əsaslandırılmasını və qaydasını tənzimləyir və müstəntiqin qərar verməsini nəzərə alır. Müstəntiqin qərarı müayinəsi keçirilən şəxs üçün və prosessual hərəkətə cəlb olunan mütəxəssisin işlədiyi ekspert idarəsinin rəhbəri üçün mütləqdir.

Müayinə cinayət işi üçün əhəmiyyətli olan, insan bədənində xüsusi əlamətlərin, xəsarətlərin, cinayət izlərinin, sərxoşluq vəziyyətinin, digər əlamətlərin təyin edilməsi üçün keçirilir. Müayinənin keçirilməsi, yalnız məhkəmə-tibb ekspertizası tələb olunmayan hallarda da mümkündür.

Şahidin müayinəsi onun verdiyi ifadələrin düzgünlüyünün qiymətləndirilməsi üçün vacib olan hallar istisna olmaqla özünün icazəsi ilə aparıla bilər.

Müayinə müstəntiq tərəfindən, lazımi hallarda məhkəmə həkimi və digər mütəxəssis dəvət olunmaqla aparılır. Müayinə zamanı şəxsin soyunması lazım olduqda və müstəntiq əks cinsdən olduqda mütəxəssisin iştirakı vacibdir. CPM-nin 238.5-ci maddəsinə uyğun olaraq, bu səbəbdən müstəntiqin müayinədə iştirak etmək hüququ yoxdur. Bu qayda müstəntiqin iştirakına müayinə olunan şəxsin könüllü icazəsi olduqda da təsir göstərir. Belə hallarda qanun, istintaq hərəkətinin həmin funksiyalarını mütəxəssisə həvalə edir və müayinəni məhkəmə həkimi aparır. Bu istintaq hərəkəti zamanı foto, video və kinoçəkiliş yalnız müayinə olunan şəxsin razılığı ilə aparılır.

İstintaq hərəkətinin protokolunda bütün hərəkətlər, həmçinin baxış və müayinənin keçirilmə ardıcıllığı ilə aşkar olunanlar, baxış və müyinə anında aşkar olunanların xarci görünüşü, bütün götürülən predmetlər sadalanır və təsvir olunur. Protokolda baxış və müayinənin tarixi, hava və işıqlanma şəraiti (süni, təbii və s.), hansı texniki vəsaitlərdən istifadə olunması və nəticələrin alınması, əşyaların götürülməsi, möhürlənməsi və hansı möhür ilə möhürlənməsi, istintaq üçün mühüm olan əşyaların və ya meyitin

baxışdan sonra göndərildiyi yer də göstərilməlidir. Mütəxəssis protokolun tərtibatında müstəntiqə yardım edir.

Götürməyə (müayinə üçün) və axtarışın həyata keçirilməsinə məhkəmə təbabəti sahəsində mütəxəssis nadir hallarda cəlb olunur. Adətən hallarda götürmə istintaq baxışı və ya müayinəsi prosesində həyata keçirilir.

Axtarışın məqsədi (CPM, maddə 242) cinayət alətlərinin, cinayət yolu ilə əldə edilmiş əmlak və qiymətli əşyaların, cinayət işi üçün əhəmiyyət kəsb edən digər əşya və ya sənədlərin tapılması və götürülməsi, o cümlədən, axtarılan şəxslərin və meyitlərin tapılmasıdır. İtkin düşmüşlərin, xüsusən də üzərində itkin düşmüş şəxsə məxsus əlamətləri olan meyit və obyektlərin axtarışı zamanı məhkəmə təbabəti üzrə mütəxəssisin axtarışa cəlb olunması olduqca vacibdir. Belə hallarla ən çox daşınmaz əmlakın, məsələn mənzilin qarət olunması məqsədilə törədilən qətl hadisələrində ciddi zərurət yaranır. Belə ki, paralel olaraq, güman edilən cinayətkarın əlamətlərini təyin etməyə imkan verən bioloji izlər də müəyyən edilə bilər. Bu halda, məhkəmə həkimi müstəntiqə itkin düşmüş insanın və ya cinayətkarın şəxsiyyətini təsdiq edə bilən sənədlərin və müəyyən obyektlərin, o cümlədən qan izlərinin, ağız suyunun və digər ifrazatların, tüklərin və s. tapılmasına və götürülməsinə yardım edir.

Götürmə, cinayət işi üçün vacib sayılan müəyyən əşya və sənədlərin götürülməsi üçün həyata keçirilir. Axtarışdan fərqli olaraq, götürmə zamanı götürüləcək sənədlərin və əşyaların harada və kimdə olması dəqiq məlum olur.

Götürmə zamanı bir çox hallarda məhkəmə-tibb ekspertləri mütəxəssis kimi deyil, dövlət məhkəmə ekspert idarəsinin vəzifəli şəxsləri kimi iştirak edirlər. Nümunə kimi, müstəntiqin cinayət işinə əlavə olunması nə-zərdə tutulmuş maddi sübutların (müayinə olunacaq obyektlərlə birgə, məhkəmə-ekspert idarəsinə gətirilən paltarların, qiymətli əşyaların və digər əşyaların) götürülməsini göstərmək olar. Eyni götürülmə qaydası müqayisəli müayinə üçün nümunələrə münasibətdə də nəzərdə tutulub. Bu nümunələr mütəxəssisin öncə keçirdiyi müayinələr zamanı əldə edilir və digər

sərbəst ekspertizalar çərçivəsində istifadə olunmaq üçün nəzərdə tutulur.

Axtarış və götürmə bir qayda olaraq məhkəmənin qərarı əsasında aparılır. Şəxsin axtarışını aparmaq üçün də məhkəmənin qərarı tələb olunur. Lakin şəxsin tutulduğu, təqsirləndirilən və şübhəli sayılan şəxslərin yaxalandığı və yaxud həbs olunduğu zaman axtarış və bir sıra digər hallar istisna olunur.

Şəxsin axtarışı və götürülmə keçirilərkən azı iki hal şahidinin iştirakı mütləqdir. Şəxsin fərdi axtarışını onunla eyni cinsli şəxs aparır. İstintaq hərəkətində mütəxəssis və hal şahidləri iştirak edirsə və onlar axtarılan şəxslə eyni cinsə mənsubdurlarsa, bu zaman onlar axtarışı müşahidə edirlər (CPM, maddə 238.5).

7.2. İstintaq baxışı, müayinə, axtarış və götürmə hərəkətlərində ekspertin (mütəxəssisin) vəzifə və funksiyaları.

Baxış keçirilərkən mütəxəssisin əsas funksiyası müstəntiqə sübutların (müxtəlif əşyalar, izlər, sənədlər və digər obyektlər) axtarışında, baxışında, təsvir edilməsində və götürülməsində kömək etməkdir. Müstəntiqin göstərişinə görə mütəxəssis obyektləri seçir, sonrakı ekspert müayinələri üçün nümunələr götürür, tapılmış izlərin qorunma şəraitini təmin etmək üçün tədbirlər görür. Baxış zamanı xüsusi elmi-texniki vasitələrdən istifadə edərək protokolu, sxemləri, rəsmləri, çertyojları tərtib etməyə kömək edir. Beləliklə, istintaq baxışı, müayinəsi, axtarışı və ya götürülməsində iştirak edən mütəxəssisin işində ön plana araşdırıcı, təsvir etmək və yardımçı – texniki funksiyaları çıxır. Bundan əlavə, mütəxəssis müstəntiq və digər baxış iştirakçılarının xahişi ilə apardığı işlərə dair məlumat verir və müstəntiqin istənilən suallarına dair, səlahiyyətinə aid müvafiq məsləhətlər verir.

Baxış, müayinə, götürmə və axtarış zamanı müstəntiqin köməkçisi kimi iştirak edən məhkəmə təbabəti üzrə mütəxəssis aşağıdakı məsələləri həll edir:

1. İşə aidiyyatı ola bilən əşyaları, izləri və digər obyektləri tapmağa kömək edir;
2. Obyekt və izlərin xüsusiyyətlərini, davamlılığını, əhəmiyyətini, dəyişkənliyini nəzərə alaraq, onlara baxışın səmərəli ardıcıllığı və qaydası barədə müstəntiqə məsləhətlər verir;
3. Hadisənin tibbi nəticələrini müəyyənləşdirir. Ölüm faktını təsdiq edir; tapılmış bioloji obyektlərin və izlərin növünü, xüsusiyyətlərini və digər əlamətlərini təyin edir; İzlərin əmələgəlmə mexanizmi, yaranma vaxtı və istintaq hərəkəti aparılan cinayət işi ilə təxmini əlaqəsi haqda ilkin fikrini söyləyir və s.;
4. Müstəntiqə istintaq hərəkətinin protokolunda obyektləri təsvir etməyə, aşkar olunmuş faktiki məlumatların tam və dəqiq şərh edilməsinə kömək edir;

5. Obyektlərin toxunulmazlığını, təsbit edilməsini və qablaşdırılmasını təmin etməkdə müstəntiqə texniki yardım göstərir və məsləhətlər verir;

6. Müqayisə üçün götürülən nümunələrin axtarışı və əldə edilməsində, seçilməsində iştirak edir. Nümunələrin sonrakı müayinə üçün yararlığının ilkin qiymətləndirilməsini aparır;

7. Xüsusi avadanlığın səmərəli istifadə edilməsini təmin edir;

8. İstintaq hərəkətinin gedişatı qaydalarına (məsələn, baxış zonasının genişləndirilməsi yaxud daralmasına dair, şəxsin instrumental müayinədən keçirilməsinə, yaxud onun klinika profilli mütəxəssislərin məsləhətinə göndərilməsinə dair və s.), təkrar və ya əlavə istintaq hərəkətinin keçirilməsinin vacibliyinə, tapılmış obyektlərin və izlərin məhkəmə-tibbi ekspertizanın səmərəli qaydada təyin edilməsinə və keçirilməsinə, eləcə də ekspert qarşısında qoyulacaq sualların düzgün tərtibatına dair müstəntiqə məsləhətlər verir;

9. Prosessual hərəkətin gedişi zamanı müəyyən olunan məlumatların əhəmiyyəti barədə müstəntiqə açıqlamalar verir, istintaq versiyalarının irəli sürülməsində və əməliyyat-axtarış tədbirlərinin əsas istiqamətlərinin müəyyənləşdirilməsində iştirak edir.

İstintaq hərəkətlərinin keçirilməsi tədqiqatının nəticəsinin inandırıcı dərəcədə təsdiq edilməsinə yardım edir. Mütəxəssisin iştirakı ilə həyata keçirilən istintaq baxışı zamanı götürülən maddi sübutların sayı və keyfiyyəti olduqca çox olur. Mütəxəssisin köməyi ilə istintaq-əməliyyat qrupunun işi daha peşəkar, səmərəli və az zaman sərf edilməsi ilə keçirilir. Mütəxəssisin iştirakı tapılmış izlərin və digər obyektlərin xüsusiyyətlərinin operativ təhlilinin mümkünlüyünü və onların ilkin fərqləndirilməsini təmin edir, müstəntiqə müvafiq ekspertizaların təyinini qabaqcadan planlaşdırmağa və ya əksinə, onların əsassız icrasından yayınmağa və istintaq vaxtının uzadılmamasına imkan yaradır.

FƏSİL 8. DİNDİRİLMƏ. ÜZLƏŞDİRMƏ.

8.1. Dindirilmə anlayışı və onun məhkəmə-tibbi təcrübədə yeri.

Dindirilmə - istintaq və məhkəmə təcrübəsində geniş yayılmış hərəkət olub, sübutların yığımı və yoxlanılması vasitəsidir. Onun məqsədi dindirilən şəxsdən iş üzrə həqiqətin müəyyən olunması üçün əhəmiyyəti olan hallar barədə tam və düzgün məlumatlar almaqdır.

Dindirilmənin müstəqil istintaq və məhkəmə hərəkəti kimi qanunvericiliyə müvafiq nizamlanması kifayət qədər genişdir. Cinayət işinin ibtidai istintaqında şübhəli və təqsirləndirilən şəxslərin dindirilməsi təxirəsalınmaz istintaq hərəkətidir.

Şübhəli şəxsin dindirilməsi cinayət işinin başlanılması barədə qərar çıxarılmasından və ya şübhəli şəxsin faktiki saxlanılmasından 24 saatdan gec olmayaraq, təqsirləndirilən şəxsin dindirilməsi isə ona ittiham elan edildikdən dərhal sonra icra olunmalıdır. Bu, ekspertin iştirakı ilə keçirilən dindirilməyə aid deyil. Mütəxəssisin cəlb olunmasına adətən ilkin ifadə alındıqdan sonra və onların dəqiqləşdirilməsi, konkretləşdirilməsi tələb olunduqda zərurət yaranır.

Ekspert dindirilmənin keçirilməsinə aid olan bəzi ümumi prosessual tələbləri bilməlidir. Dindirilmənin digər istintaq hərəkətləri kimi axşam saat 22.00-dan səhər saat 07.00-a qədər keçirilməsi yol verilməzdir. Dindirilmənin gedişində zor, hədə, istintaq hərəkətində iştirak edən şəxsin həyat və sağlamlığı üçün təhlükə yarada bilən hərəkətlərdən və başqa qanunsuz tədbirlərdən istifadə etmək olmaz. Dindirilmə fasiləsiz 4 saatdan artıq davam edə bilməz. Dindirilmənin davam etməsinə yemək və istirahət üçün ayrılmış 1 saatdan az olmayan fasilədən sonra yol verilir. Gün ərzində dindirilmə 8 saatdan artıq olmamalıdır. Tibbi göstəricilər olduqda dindirilmənin vaxtı həkim rəyinə əsasən müəyyən edilir.

Eyni iş üzrə çağırılmış şahid və təqsirləndirilən şəxslər ayrı-ayrı dindirilir. Əvvəlcə, müstəntiq dindirilən şəxsə işin mahiyyəti ilə bağlı

ifadələr verməyi təklif edir, yəni törədilməsində təqsirləndirilən və mahiyyəti üzrə ona ittiham elan edilən cinayətə aid olan halları ətraflı şərh etməyi təklif edir. Zərurət yarandıqda müstəntiq bəzi faktları dəqiqləşdirmək, yeni faktları üzə çıxarmaq və ziddiyyətləri aradan qaldırmaq üçün suallar verə bilər.

Hər bir dindirilmə zamanı müstəntiq CPM-nə uyğun olaraq protokol tərtib edir. Protokol istintaq hərəkəti zamanı və ya ondan dərhal sonra tərtib olunur. Əgər dindirilmədə ekspert iştirak etmişsə, giriş hissədə onun adı, soyadı, iş yeri, vəzifəsi qeyd olunur. Protokol oxunur, dindirilmədə iştirak edən bütün şəxslər tərəfindən, ekspert (mütəxəssis) də daxil olmaqla imzalanır.

8.2. Dindirilmə zamanı xüsusi biliklərdən istifadə olunma.

Dindirilmədə xüsusi biliklərdən istifadə edilmə məsələsi, həmçinin ekspertin dindirilməyə cəlb olunmasının, onun işinin vəzifə və təşkilatı əsasları qanunvericiliklə tam müəyyən olunmamışdır. Xüsusi hüquqi ədəbiyyatlarda bu məsələlər, digər xüsusi bilik növləri qeyd olunmadan, yalnız cinayətin təhqiqatının kriminalistik taktikasına aid olan məsələlər kimi nəzərdən keçirilir. Bəzi hüquqşünaslar isə mütəxəssisin dindirilmədə iştirakını inkar edirlər. Qanunda mütəxəssisin dindirilmədə mütləq iştirakının iki konkret əsası göstərilir. Birinci, yetkinlik yaşına çatmayan zərərçəkmiş və şahidin dindirilməsin-də müəllim iştirak etməlidir (CPM, maddə 282.2). İkincisi isə, CPM-nin 230.3-cü maddəsinə görə zərurət olduqda dindirmədə tərcüməçi iştirak edir. CPM-nin heç bir maddə-sində dindirilməyə məhkəmə-tibb ekspertinin və ya məhkəmə təbabəti üzrə digər mütəxəssisin cəlb olunmasının konkret səbəb və əsaslarını müəyyən edən normalar yoxdur.

Bununla belə, CPM-nin müvafiq maddəsi ekspertiza prosesini ilkin və məhkəmə istintaqında tənzimləyən ən vacib prosessual normalardan biri olaraq, təhqiqatı aparan şəxsin, müstəntiqin, prokuror və ya məhkəmənin icazəsi ilə ekspertin digər istintaq və məhkəmə hərəkətlərində olduğu kimi dindirilmədə də iştirak etmək hüququnu birbaşa göstərir. Bundan əlavə qanunvericilik ekspertə müstəntiqin (məhkəmənin) icazəsi ilə dindirilən şəxsə ekspertizanın predmetinə aid sual vermək hüququnu verir və bu ekspertin istintaq hərəkətinin aktiv iştirakçısı kimi rolunu müəyyənləşdirir. Bir çox alimlərin ekspert işində bu fəaliyyət növünə diqqət yetirmələrinə baxmayaraq, məhkəmə-tibb ekspertlərinin iş təcrübəsinin ümumiləşdirilməsinə dair digər nümunələr, dindirilmədə iştirak taktikası üzrə elmi tövsiyələri və həll etdiyi məsələləri yoxdur. Ekspertin dindirilmədə nadir hallarda iştirakının və məhkəmə-tibbi profilli mütəxəssislərin bu prosessual hərəkətin icrasına cəlb edilməsi

mümkünlüyünün müstəntiq tərəfindən lazımi dərəcədə qiymətləndirilməsini bununla izah etmək olar.

Çoxillik ekspert təcrübəsi əsas verir ki, şəxsiyyət əleyhinə törədilən cinayətlərin təhqiqatında xüsusi məhkəmə-tibbi biliklərdən yalnız ekspertiza formasında deyil, həm də mütəxəssislərin dindirilməyə cəlb olunması yolu ilə istifadəsi məqsədəuyğundur. Son illərdə şəxsiyyət əleyhinə törədilən zorakı cinayətlərin xarakterində baş vermiş dəyişikliklər, qabaqcadan planlaşdırılmış, sifariş olunmuş və seriyalı qətl hadisələrinin sayının artması, bu kateqoriyalı cinayət işləri üzrə şahid bazalarının nəzərə çarpacaq dərəcədə azalmasına səbəb olmuşdur. Təqsirləndirilən şəxslərin və şahidlərin məhkəmədə əvvəl verdikləri ifadələrdən imtina etmələrinin adi hal almasını hüquqşünaslar təkcə işdə marağı olan kriminal tərəflərin təzyiq etməsi ilə deyil, həm də istintaqın qüsurlu aparılması ilə, bütün vasitə arsenalından istifadə olunmaması, həmçinin mütəxəssislərin işə cəlb edilməməsi ilə, istintaq hərəkəti nəticələrinin təsbit olunmasının prosessual qaydalarında yol verilən pozulması ilə əlaqələndirir.

Mütəxəssisin (ekspertin) dindirilmədə iştirak etməsinin vacibliyi, onun öz xüsusi bilikləri ilə iş üzrə faktiki məlumatların daha tam və dolğun toplanmasına kömək etməklə istintaq hərəkətinin nəticələrinin obyektivliyini və sübuti əhəmiyyətini daha da gücləndirilməsi ilə bağlıdır.

Digər istintaq hərəkətlərində olduğu kimi CPM-si ekspertin dindirilmədə iştirakına hüquq verir. Zərurət yarandıqda ekspert qanunun ona verdiyi səlahiyyətlər çərçivəsində müvafiq vəsatətlə müraciət etmək hüququ var. Ekspertin dindirilmədə iştirakına müstəntiq, prokuror və ya məhkəmə razılıq verir. Qanunvericiliyə müvafiq olaraq ekspert dindirilmədə iştirakına zərurət görərsə vəsatətlə müraciət edə bilər.

.

8.3. Dindirməyə ekspertin (mütəxəssisin) cəlb olunmasının səbəbləri.

Ekspertin dindirilməyə cəlb olunmasının bir neçə konkret səbəbləri və ya onun dindirilmədə iştirak etməsi barədə vəsatət qaldırması üçün əsasları var. Təcrübədə istintaqı aparılan cinayətin hər-hansı şəraitinin dəqiqləşdirilməsinin vacibliyindən, öz növbəsində, ekspert qiymətləndirilməsinin predmeti ola bilən və ya məhkəmə-tibb ekspertizasının icrası üçün nəticəvi məlumatlar kimi xidmət edə bilən hallar mövcuddur. İşin məzmununu dəqiqləşdirməyə və konkretləşdirmə zərurət yaranarsa ekspert müstəntiqə şifahi və ya yazılı müraciət edir. İnformasiya toplamaq məqsədilə ekspertin dindirilmədə iştirak etmə hallarına təcrübədə nadir hallarda rast gəlinir. Lakin bu halı əsaslı hesab etmək və bəraət qazandırmaq olmaz. Çünki, müstəntiq hər zaman xüsusi biliyin lazımi həcminə malik olmur. Ona görə də ekspertin (mütəxəssisin) dindirilmədə iştirakı ona müvafiq istintaq hərəkətini maksimal effektli keçirməyə imkan verir. Ekspert üçün isə gələcəkdə xüsusi müayinələri optimal planlaşdırmağa və keçirməyə, ekspert axtarışlarının sərhədlərini dəqiqləşdirməyə, qoyulan suallar üzrə əsaslı nəticəyə gəlmək üçün lazım olan məlumat qıtlığını aradan qaldırmağa şərait yaranır. Məsələn, şübhəli, təqsirləndirilən şəxslərin, müttəhim və ya şahidlərin dindirilməsi yolu ilə hadisə yerində baş verən dəyişikliklərin ayrı-ayrı detallarını, zədə yetirən alətin konstruktiv xüsusiyyətlərini, zədələrin yetirilməsinin konkret şəraitini (zədə yeri, istiqaməti, sayı, travmatik təsirin ardıcıllığı, hadisə iştirakçılarının duruşu və qarşılıqlı vəziyyəti) dəqiqləşdirmək və ya bərpa etmək mümkündür. Bəzən dindirilmə yolu ilə zərərçəkmişə zədə yetirilən zaman və sonra (müdafiə olunma cəhdi, özünə yardım etmə, qanaxmanın mənbəyi, xarakteri, dərəcəsi, əsas həyat funksiyalarının sadə xarakteristikası - huş, tənəffüs, hərəkət aktivliyi və s.) onun vəziyyətini və özünü aparmasının necə dəyişməsini aydınlaşdırmaq olar.

Obyektiv informasiya və ənənəvi iş metodları çərçivəsində çətinlik yarandıqda, o cümlədən zədələrin yaranma mexanizminin və tanatogenezinin ekspert tərəfindən düzgün qiymətləndirilməsi mümkün olmadıqda həmin məlumatlar çox mühüm əhəmiyyət kəsb edir. Belə hallara, zədə yetirən alət məhv edildikdə, hər-hansı səbəbdən itirildikdə, yaxud istintaq tərəfindən tapılmadıqda, müayinə edilən obyektlərin ilkin xüsusiyyətləri dəyişildikdə (meyitlərin çürüməsi, skeletləşməsi, yanması, hissələrə ayrılması), tibbi sənədlər itirildikdə və ya tam olmadıqda rast gəlinir.

Seriyalı cinayətlərdə, çoxepizodlu travmatik hallarda zədələrin yetirilmə şəraitinə, zərərçəkmişin ölməsinə aid müxtəlif və ziddiyyətli ifadələr verən bir neçə təqsirləndirilən şəxslərin dindirilməsində və cinayət işinin təhqiqatında, ekspertin iştirakı vacibdir. Ekspertin iştirakı ilə keçirilən dindirilmədə həyat üçün təhlükə törədən vəziyyətin inkişafında və sonra orqanizmin əsas funksiyalarının sönməsində, ölümün baş verməsində ayrı-ayrı travmatik təsirlərin rolunun müqayisəli xarakteristikası üçün mühüm məlumatlar əldə edilə bilər.

Ekspertin iştirakı ilə aparılan dindirilmələrdə alınmış məlumatlar sonrakı ekspert müayinələrinin təşkil olunmasında ilkin material kimi istifadə oluna bilər. Məsələn, din-dirilmə anamnezinin fiksə edilməsində effektli vasitə və ya şübhəli, təqsirləndirilən şəxsin, zərərçəkmişin və şahidin hüququnun ekspertə izahat verilməsində reallaşmasının adekvat prosessual forması ola bilər. Belə ki, ekspert məhkəmə ekspertizasının icrası üçün müstəqil olaraq material toplamaq hüququna malik deyil. Odlu silah yaralanmalarının məhkəmə-tibbi ekspertizası zamanı dindirilmə vasitəsi ilə patronun doldurulma xüsusiyyətləri, atəş vaxtı silah lüləsinin vəziyyəti, atəşin məsafə və istiqaməti, güllənin uçuş yolunda maneənin və xarici rikoşetin olması barədə istintaq məlumatlarını əldə etmək olar. Xarici rikoşet barədə məlumat olmadan, güman olunan silahdan eksperimental atəş açaraq eksperimentlərin düzgün icrasına və ekspert nəticəsinin elmi-əsaslı formalaşdırılmasına nail olmaq mümkün olmur. Deşilmiş-kəsilmiş zədələnmə hallarında zədənin yetirilmə şəraitinə aid əlavə məlumatların əldə olunması iz

törənmənin optimal modelini yaratmağa və müqayisəli zədələrin alınması üçün eksperimentlərin düzgün aparılmasına və digər hallara kömək edə bilər.

Çox vaxt, dindirilən şəxs işin nəticəsində maraqlı tərəf olmaqla onun ifadələrinin obyektivliyi şübhə doğurmasına baxmayaraq, ekspertin dindirilmədə iştirak edib-etməməsi barədə qərara əsaslı təsiri yoxdur. Dindirilən şəxsin verdiyi ifadələrlə digər istintaq və ekspertiza məlumatlarının uyğunluğu ilə yanaşı uyğunsuzluğu da sübuti əhəmiyyət kəsb edir. İş üzrə müxtəlif sübut mənbələri arasında ziddiyyətlərin olması, məsələn, əvvəl verilmiş ekspert rəyi və aparılmış tədqiqatların ilkin nəticələri cinayət iştirakçılarının və şahidlərinin dindirilmədə iştirak etməsi üçün cəlb olunmasına daha bir obyektiv əsas verir. Bu hal ziddiyyətlərin səbəbini müəyyən etməyə və onların aradan qaldırılmasına kömək edə bilər. Müstəntiq ziddiyyət faktının qeyd edilməsilə kifayətlənməməlidir. Sübutların əsaslı, ətraflı və obyektiv yoxlanılması üçün tədbirlər görməli, onların uyğunsuzluq (yalan ifadə, ekspert səhvi, şahidin çaşdırılması və s.) səbəblərini müəyyən etməli və aşkar olunmuş uyğunsuzluğun aradan qaldırılması yollarını müəyyənləşdirməlidir. Bu halda ekspert köməyi xüsusi əhəmiyyət kəsb edir.

Kriminalistik taktikada dindirilən şəxsə psixoloji təsirin müxtəlif üsulları işlənib hazırlanmışdır və geniş istifadə olunur. Ən effektli və qanuni üsullardan biri ekspertin dindirilmədə iştirak etməsidir. Şübhəli şəxsin «qorunma» mövqeyini həmin şəxsi ekspertizanın təyin olunması barədə qərarla tanış etməklə dağıtmaq olar. Düzgün ifadələr verməyə razı olmağın həlledici faktoru, məhkəmə-tibbi ekspertizanın müasir elmi imkanlarının, xüsusən də dindirmədə iştirak edən məhkəmə-tibb eksperti tərəfindən açıqlanması ola bilər. Ekspertin professional bilikləri dindirilən şəxs tərəfindən nəzarətə tabe olmur. Ətraflı və dəqiqliyi ilə formalaşdırılmış ekspert suallarına şübhəli və təqsirləndirilən şəxs verdikləri cavabların tibbi əhəmiyyətini hətta əvvəlcədən qurduqları müdafiə taktikası ilə uyğunlaşdırılmasını hər dəfə başa düşmək iqtidarında deyil. Əgər dindirilən şəxs xüsusi tibbi hazırlığa malik deyilsə, ekspertin iştirakı ilə keçirilən dindirilmədə açıqlanmalı olan halların məhkəmə-tibbi spesifikliyi, ifadələrin

düzgün olma faizini azaldır, arabir detallıqla əzbərlənmiş və məşq edilmiş ifadələri rədd edir.

Dindirilən şəxs tibb işçisi və ya səhiyyə sahəsində mütəxəssisdirsə, məhkəmə-tibb ekspertinin dindirilmədə iştirak etməsi daha aktual olur. Müstəntiq təbabətin müəyyən sahəsinə aid olan, xüsusi xarakter daşıyan müvafiq biliyə malik olmadığına görə başa düşə bilmədiyi hallara aydınlıq gətirmək üçün eksperti dindirilməyə cəlb edir. Müstəntiq xüsusi ədəbiyyatları, müəssisədaxili qayda-qanunları öyrənməklə, mütəxəssislərlə məsləhətləşmə aparmasına baxmayaraq, dindirilənin verdiyi cavablarında qəsdən və ya vərdiş etdiyindən xüsusi terminologiyadan istifadə edərək ifadələri ilə onu çaşdırmağa çalışarkən, bu halları o düzgün analiz etmək iqtidarında olmur. Bu zaman ekspertin (uyğun kliniki profilli mütəxəssis daha məqsədəuyğun olardı) iştirakı dindirilmənin maksimal effektivliyinə və istintaq hərəkətinin protokolunda dindirilmənin nəticələrinin adekvat əks olunmasına zəmanət verir.

Əgər şahid və zərərçəkmiş məhkəmə-tibbi əhəmiyyətli faktlarla bağlı öz ifadəsinin düzgünlüyünə tam əmin deyilsə və dəqiq olmayan məlumatlar verirsə, onların dindirilməsinin ekspertin iştirakı ilə keçirilməsi məqsədəuyğun olardı. Ekspert dindirilən şəxsə müvafiq suallar verməklə müstəntiqə diqqətini istintaq üçün əhəmiyyətli olan konkret hallarda və detallarda cəmləşdirməyə kömək edir. Ekspertin iştirakı ilə keçirilən dindirilmədə dindirilən şəxsin həqiqətdə gördüyü və ya iştirak etdiyi halları subyektiv fikir və qiymətləndirməsindən ayırmağa, hadisələrin xronologiyasını yaratmağa, istintaq üçün əhəmiyyətli saymadığından əvvəl söyləmədiyi və ya gizlətmək istədiyi hadisə ilə bağlı şəraitləri və ayrı-ayrı detalları yaddaşında bərpa etməyə imkan verir. Ekspert dindirilən şəxsə öz ifadələrini daha aydın şərh etməyə, müstəntiqə isə həmin ifadələri istintaq hərəkətinin protokolunda maksimum adekvat və dəqiq əks etməyə kömək edə bilər. Bununla da mütəxəssis dindirilmənin əsas məqsədi olan - düzgün ifadələrin alınmasına yardım göstərir.

Məhkəmə-tibb ekspertinin dindirilmədə iştirak etməsi ekspert rəyinin nəticələrini dindirilən şəxsə və ya ilkin və məhkəmə

istintaqının digər iştirakçılarına izah etmək zərurəti yarandıqda tələb oluna bilər, məsələn, məhkəmə-tibbi məlumatlara əsaslanan sübutlar təqdim olunduqda, ekspert rəyi açıqlandıqda və s. Ekspert öz fikrini xüsusi tibbi terminlərlə ifadə etmədikdə belə, məhkəmə-tibbi ekspertizanın predmetinin spesifikliyi ilə əlaqədar ekspert rəyinin nəticələrinin mahiyyəti hər vaxt proses iştirakçılarına aydın olmur. Belə hallarda təqsirləndirilən (şübhəli) şəxs, zərərçəkmiş və ya onların müdafiəçisi ekspertin dindirilmədə iştirak etməsi barədə vəsatət qaldırır.

Dindirilmə istintaq eksperimentinə, ifadələrin yoxlanılması-na və tanınma üçün təqdim olunmaya hazırlığın əsas tərkib hissəsidir. Bu hərəkətlərdə ekspertin iştirak etməsi nəzərdə tutulubsa, keçiriləcək istintaq hərəkətinin iştirakçılarının dindirilməsində onun iştirak etməsi daha məqsədəuyğun olardı.

Ekspert üçün dindirilmənin gedişində, cinayətin şahidləri ilə və ya onun törədilmə şəraiti haqqında məlumatlara malik olan digən şəxslərlə bilavasitə əlaqə zamanı, nəticələri təsdiq edən və ya əksinə, zidd olan məlumatlar əldə etmək imkanının yaranması az əhəmiyyət kəsb etmir. Burada, aparılmış tədqiqatların nəticələrinin, subyektiv olsa da, retrospektiv yoxlanılmasının əlavə nəzarət elementi aşkar olunur.

İstintaq nöqteyi-nəzərindən, məhkəmə-tibb ekspertin dindirilmənin icrasına cəlb olunması məqsədəuyğunluğunun təyin edilməsinin aşağıdakı meyarları vardır:

1. maksimum düzgün ifadələr əldə etməyə səy göstərmək;
2. məlumat alma vasitəsinin adekvatlığı, yəni ekspertin (mütəxəssisin) iştirakı olmadan bunun qeyri-mümkünlüyü;
3. istintaqın gedişi və onun sirlərinin qorunması üçün minimal risklə tələb olunan nəticənin alınma mümkünlüyünü;
4. məhkəmə-tibbi ekspertizanın nəticələrinin obyektivliyinin təmin olunması.

Məhkəmə-tibb eksperti tərəfindən həll edilən məsələlərin spesifikliyi və prosesual vəziyyəti ekspertin dindirilməyə hazırlığında və iştirakında ekspertin iş metodikasının və taktikasının xüsusiyyətlərini müəyyən edir.

Aydınlaşdırılmasına ehtiyac olan halların xarakterindən asılı olaraq, dindirilmənin icrasına müxtəlif sahənin ekspertləri - tanatoloqlar, tibbi-kriminalistlər, bioloqlar, genetiklər, histoloqlar, kimyaçılar və s. mütəxəssislər cəlb oluna bilər. Adətən, zərərçəkmişin, şübhəli şəxsin və ya şahidin ilkin dindirilməsi zamanı müstəntiqdə nəinki sübutlar, həmçinin iş üzrə hər-hansı düzgün faktiki məlumatlar da əldə olunmur. Bu mərhələdə söhbət daha çox cinayətin dindirilənin gördüyü və təqdim etmək istədiyi subyektiv görüntüdən gedir. Burada xüsusi biliklərə geniş həcmdə ehtiyac olmadığından ekspertin iştirakı az effektli ola bilər. Ekspertin dindirilmədə iştirakı digər mühüm ilkin istintaq hərəkətlərindən, həmçinin, ekspertizanın keçirilməsi prosesində və ya xüsusi müayinələrin ilkin, ibtidai nəticələri alındıqdan və istintaqın konkret yoxlanılması tələb olunan cinayət versiyalarını əldə etdikdən sonra daha effektli olur. Bu halda ekspertin dindirilmədə iştirakı məqsədyönlü hərəkət xüsusiyyətlərini qazanır. Əldə olan faktlar əsasında ekspert qiymətləndirilməsi üçün vacib olan hadisənin detallarını dəqiqləşdirməyə, keçiriləcək xüsusi müayinələrin (ekspertizanın) alqoritmini tərtib etməyə imkanı yaranır.

Eksperti zərurət olmadan dindirilməyə cəlb etmək ekspert işinin az əhəmiyyətli olmasına səbəb ola bilər. Buna əsasən mütəxəssisin cinayət işi materiallarını, cinayətin törənmə şəraitini və şərtlərini kifayət qədər öyrənməməsi səbəb olur. Bəzən də müstəntiq bu barədə ekspertə məlumat verməyi lazım bilmir.

Ekspertin ixtiyarında nəticəvi məlumatlar nə qədər çox olarsa, onun istintaq hərəkətində iştirakı bir o qədər dəqiq, məqsədyönlü və effektli, dindirilən şəxslə davranışı və münasibət taktikası daha səmərəli olar. Dindirilmədən əvvəl ekspert təhqiqatı aparılan hadisənin bütün hallarını, (təbii ki, mütəxəssisin fəaliyyət predmetinə aid olan) və iş üzrə keçirilmiş ekspertiza materialları da daxil olmaqla zəruri detallarını öyrənilməlidir.

Məhkəmə tibb ekspertinin iştirakı ilə keçirilən dindirilmədə yol verilən səhvlərin səbəbləri kimi yönəldici suallar, verilən sualların məzmununda bilmədən cavabı söyləmək və buna bənzər geniş yayılmış təsadüfi hallar ola bilər. Belə səhvlər peşə səviyyəsinin

istintaq hərəkətində iştirak təcrübəsi və fəaliyyətinin dəqiq planının olmaması, dindirilmə keçirilməsinin prosessual əsaslarını və istintaq taktikasını bilməməsi ilə əlaqədardır. Nəticə - müstəntiqin icazəsi olmadan prosessual hərəkətin gedişinə müdaxilədir. Belə təsadüfi hallardan yayınmaq üçün cinayət-prosessual qanunvericiliyinin tələblərinə ciddi əməl etmək lazımdir: Ekspertin hərtərəfli hazırlığı, istintaq hərəkətinin müstəntiqlə birgə planlaşdırılması, onun keçirilmə məqsədini və qaydasını, mütəxəssisin vəzifələrini qabaqcadan müzakirə etmə, sualların qısaca, dürüst ifadə edilməsinin dəqiqləşdirilməsi və dindirilən şəxs qarşısında onların qoyulma ardıcıllığının müəyyən edilməsi kömək edər.

8.4. Dindirilməyə hazırlıq.

Dindirilməyə hazırlıq məhkəmə-tibb ekspertinin (mütəxəssisin) xüsusi biliklərindən istifadə etməklə bəzi halları müəyyən etməyi, istintaq hərəkətinin keçirilmə qaydasını müstəntiqlə razılaşdırmağı, sualları müzakirə etməyi, onların ifadə edilmə formasının dəqiqləşdirilməsini və dindirilən şəxs qarşısında qoyulmasının səmərəli ardıcıllığını müəyyən etməyi birləşdirir.

Şəxsiyyət əleyhinə törədilən zorakı cinayət işləri üzrə məhkəmə-tibbi ekspertizanın keçirilməsinin tipik hallarında dindirilməyə daha çox şübhəli və təqsirləndirilən şəxslər, az hallarda isə şahid və zərərçəkmişlər cəlb olunur. Onların ifadələri, iş üzrə obyektiv faktiki məlumatlarla yanaşı, məhkəmə-tibbi ekspertizanın təyin olunması və keçirilməsi üçün nəticəvi məlumatların əsasını təşkil edir və ekspertizanın təyin olunma qərarında bu öz əksini tapır. Əgər həmin məlumatlar dəqiqləşdirilməni tələb edirsə, ekspert müstəntiq (məhkəmə) qarşısında dəqiqləşdirilməsi tələb olunan sualların siyahısını təqdim etməklə vəsatət qaldıra və müstəntiqin icazəsi ilə dindirilmədə şəxsən iştirak edə bilər.

Dindirilmə şifahi yolla informasiya toplama vasitəsi olduğuna görə, sualların məzmununa, qısa və dürüst ifadə edilməsinə diqqət yetirmək lazımdır. Bu zaman ekspert dindirilmənin kriminalistik taktikasında istifadə olunan formal məntiq qaydalarına müvafiq tələbləri rəhbər tutmalıdır. Başlıca olaraq, yayındırıcı xarakter daşıyan suallardan yayınmaq lazımdır. Ekspertin sualları məhkəmə-tibbi ekspertizanın predmetinə aid olmalıdır.

İstintaq edilən cinayətin növündən, ekspert qarşısında qoyulan vəzifələrdən, dindirilən şəxsin prosessual statusundan (şübhəli, təqsirləndirilən şəxs, müttəhim, zərərçəkmiş, şahid) asılı olaraq, suallar işin müxtəlif hallarına, deməli, ekspert fəaliyyətinin predmetinin müxtəlif aspektlərinə də toxuna bilər. Bunlar arasında əsas olanlar aşağıdakılardır:

1. zədə yetirilmənin üsul və mexanizminin detalları (travmatoloji aspekt);

2. orqanizmin funksiyalarının pozulmasının xarakteri və ardıcıllığını, göstərilmiş tibbi və digər yardımın növünü, həyat üçün təhlükə doğuran vəziyyətlərin inkişafını və ölüm prosesinin gedişini təsdiq edən, zərərçəkmişin sağlamlıq vəziyyətinin və davranışının xüsusiyyətləri (kliniki-tanatoloji aspekt);

3. zərərçəkmişin (meyitin) və ya hadisənin digər iştirakçılarının şəxsiyyətini təsdiq

edən əlamətləri, zədə yetirən alətin quruluş xüsusiyyətləri (identifikasiya aspekti);

4. cinayətin törədilmə vaxtı və yeri, hadisə yerinin şəraitinin xüsusiyyətləri, istintaq edilən hadisə baş verərkən təbii, məişət və ya istehsalat mühitinin hər hansı xüsusi fiziki faktorlarının olması, xarici mühit və onların dinamikada dəyişməsi, cinayət iştirakçıları və şahidlərinin sağlamlıq vəziyyəti, professional hazırlığı, xüsusi bacarığı və biliyi və s. (situasiya aspekti).

İstintaq hallarının müxtəlif olması bu sualların ümumilikdə baxılmasına imkan verir. Çox vaxt onlar dindirilən şəxsin prosessual statusu ilə müəyyən olunur.

Şübhəli və təqsirləndirilən şəxsin dindirilməsində məhkəmə-tibb ekspertini çox vaxt cinayətin törədilmə üsuluna, istifadə olunan alətlərə və zədə yetirilmənin mexanizminə aid məlumatlar maraqlandırır:

-- zədə hansı alət və ya silahla yetirilib – ümumi və konstruktiv xarakteristikası, təyinatı, hazırlanma materialı və üsulu, tərkib xüsusiyyətləri, əvvəlki istifadə və saxlanma şəraiti, zədə yetirən səthin ölçüsü, forması, relyefi və s.;

-- travmatik qüvvənin təsir yeri;

-- travmatik təsirin istiqaməti;

-- travmatik təsirin gücü;

-- təsirlərin sayı;

-- ardıcıllığı;

-- açıq mühitdə silahın oriyentasiyası (təqsirləndirilən şəxsin əlində atəş anında silah lüləsinin və ya digər alətin vəziyyəti);

-- zərərçəkmişin və hücum edən şəxsin pozaları, onların dinamikada qarşılıqlı vəziyyəti.

Şübhəli (təqsirləndirilən) şəxsə verilən başqa suallar zərərçəkmişin hadisədən əvvəl və sonrakı davranışına aid ola bilər - o müqavimət göstərmişdirmi, sərbəst hərəkətlər etmişdirmi, zərərçəkmişə kömək göstərilmişdirmi və konkret olaraq bu kömək nədən ibarət idi, orqanizmin bu və ya digər funksiyalarının pozulmasına, ölüm prosesinin gedişinə və ölümün baş vermə tempinə dəlalət edən vəziyyətlər, yerişində, hərəkət aktivliyində, bədənin dəri örtüyünün rəngində dəyişiklik, qanaxma, qusma, iradəsiz sidik buraxma müşahidə edilmişdirmi. Şübhəli şəxsin dindirilməsi yolu ilə cinayətin törənmə şəraiti və şərtləri, izlərin gizlədilmə üsulu və yerinin xüsusiyyətləri dəqiqləşdirilə bilər. Qoyulan suallara cavab üçün ekspertə dindirilən şəxsin peşəsi, məişət və istehsalatda onun hansı təcrübi bacarıqlara malik olması, sağlamlıq vəziyyəti və normal fiziki inkişafında hər-hansı qüsurların olması haqda məlumatlar və s. lazım ola bilər.

Məhkəmə-tibb eksperti bilməlidir ki, ifadənin verilməsi prosessual hüquqdur və şübhəli şəxsin vəzifəsi deyil. Şübhəli şəxs ifadə verməkdən imtina etməyə görə və ya yalan ifadə verməsinə görə məsuliyyət daşımır. Ekspert göstərilən halları şübhəli şəxsin ifadəsinin qiymətləndirilməsində nəzərə almalıdır.

İlkin tədqiqat və məhkəmə istintaqı, bir qayda olaraq, hadisələri və onun nəticələrini görən - şahidlərin dindirilməsi olmadan ötüşmür. Cinayət prosesi iştirakçılarının bu kateqoriyası dindirilmədə məhkəmə-tibb eksperti üçün vacib olan aşağıdakı məlumatları verir:

-- zərərçəkmişin, meyitin və ya digər izlərin aşkar olunma şəraiti və şərtləri haqqında - aşkar olunmanın tarixi və vaxtı, yerin xarakteristikası (yaşayış evi, meşə, iş yeri və s.), aşkar olunma anında hava şəraiti (temperatur, yağıntı, rütubət, günəş şüalarının düşməsinə imkan və s.), zərərçəkmişin və meyitin pozası və vəziyyəti, digər izlərin yerləşməsi (əgər əməliyyat-istintaq qrupu gəlməmişdən qabaq onlar dəyişdirilməmişdirsə), izlərin və əşyaların, o cümlədən, güman olunan cinayət alətinin qarşılıqlı vəziyyəti, aşkar olunan yerdə şəraitin dəyişməsi (kim tərəfindən, nə vaxt, nə məqsədlə dəyişdirilmişdir);

-- cinayətin, şahidə məlum olan törənmə şəraitinin və onun gizlədilməsinin xüsusiyyətləri, cinayət aləti və zədənin yetirilmə şəraiti haqqında (bu məlumatlar, adətən, şübhəli, təqsirləndirilən və ya zərərçəkmişin dindirilməsində alınan məlumatlarla üst-üstə düşür);

-- zədə yetirmənin şəraiti və şərtləri haqqında - vaxtı, yeri, yerin detalları, hava və digər şəraitlər, həmçinin şahidin baş verən halları izlədiyi şərait (məsafə, təbii və ya süni işıqlanma, maneələrin olması), istehsalat və texnoloji proseslərin xüsusiyyətləri;

-- cinayətkarın, zərərçəkmişin və ya şahidin şəxsiyyəti haqqında - zədənin yetirilmə üsuluna, şahidin hadisəni izlədiyi şəraitə və cinayət hallarının ekspert qiymətləndirilməsinə aid ola bilən fiziki inkişafının xüsusiyyətləri, sağlamlıq və məşğulluq vəziyyəti, xüsusi biliyi və bacarığı, hər-hansı fəaliyyət növündə təcrübəsi, həyat tərzi və vərdişləri, dərman preparatlarından, alkoqol, narkotik vasitələrdən istifadə etməsi və digər məlumatlar.

Zərərçəkmişin dindirilməsində cinayətin yuxarıda sadalanan istənilən halları - cinayətin törənmə və gizlədilmə üsulu və şərtləri, alətlər və zədə yetirmənin mexanizmləri, hadisə yerinin şəraiti və cinayətkarın şəxsiyyəti və s. haqqında təyin edilə və dəqiqləşdirilə bilər. Bundan əlavə, məhkəmə-tibb ekspertini zərərçəkmişin aşağıdakı hallara aidiyyatı olan ifadəsi maraqlandıra bilər:

-- sağlamlığa zərər vurmanın xarakteri, dərəcəsi və ardıcıllığı;

-- zədə yetirilənə qədər, zədə yetirilən vaxt və sonra zərərçəkmişin əhvalı, psixi, fiziki, emosional vəziyyəti;

-- zədənin nəticəsini aradan qaldırmaq üçün zərərçəkmişin özünün gördüyü tədbirlər;

-- tibbi yardım üçün müraciət etməsi, müalicə metodlarının tətbiqi və onun effektliliyi;

-- alınmış travmaya qədər patoloji vəziyyətin, xəstəlik və zədələrin olması;

-- ekspertə tibbi məlumat verə bilən sənədlərin mövcud olması.

Zərərçəkmişin, şübhəli (təqsirləndirilən) şəxsin və ya şahidin ifadələrini təsbit edərkən və qiymətləndirərkən onların işdə marağı olan, qanuni və ya qeyri-qanuni maraqlarını müdafiə edən şəxslər ola biləcəyini nəzərə almaq və yetirilən zədələr yaxud psixoemosional

reaksiyalarla bağlı olaraq real hadisəni təhrif olunmuş formada qavramalarının mümkünlüyünü qeyd etmək lazımdır. Dindirilmə keçirilənə qədər onlara iş üzrə toplanmış materiallar məlum ola bilər. Həmin şəxslər bu məlumatları öz məqsədləri üçün istifadə etməyə təşəbbüs göstərə bilərlər. Buna görə dindirilmədə alınan ifadələrə, xüsusən söylənilən fikirlərə və fərziyyələrə tənqidi yanaşmaq, iş materialları və obyektiv məlumatlarla həmin ifadələri müqayisə etmək lazımdır.

Yuxarıda göstərilən şəraitlər əsas etibarı ilə şəxsiyyət əleyhinə, insanın həyat və sağlamlığına qarşı törədilən zorakı cinayətlərin istintaqına aiddir. Məhkəmə-tibb ekspertizasının digər bölməsi tibb işçilərinin peşə fəaliyyətlərinin tədqiqi və qiymətləndirilməsidir. Cinayət və mülki işlərin bu kateqoriyası üzrə məhkəmə-tibbi ekspertiza komisyon qaydada aparılır. Bəzi hallarda təhqiqat edilməli xüsusi halları nəzərə alaraq iş materiallarında məlumatların natamam və qeyri-dəqiq göstərilə bildiyindən, ekspert komissiyasının üzvlərinin tibb işçiləri ilə şəxsən söhbət etmək zərurəti yaranır. Cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq məhkəmənin qərarı və qərardadı olduqda belə tibb işçiləri ilə söhbət ancaq istintaq dindirilməsi çərçivəsində aparılmalıdır və hər bir vaxt ancaq bu yeganə mümkün prosessual formadan istifadə etmək lazımdır.

Tibb işçiləri ekspertin (mütəxəssisin) iştirakı ilə dindirildikdə «həkim işi»nə dair aşağıdakı suallar aydınlaşdırılır və dəqiqləşdirilir:

-- tibb işçisinin təhsili, ixtisas dərəcəsi, bu sahədə işləməsi üçün rəsmi lisenziya və sertifikatların olması;

-- vəzifə borclarının dairəsi və onları təyin edən sənədlər;

-- tibbi fəaliyyətin müvafiq növündə təcrübi səriştəsi və iş stajı;

-- xüsusi bilik və peşə səviyyəsi, praktiki vərdişlərə malik olması;

-- konkret tibb müəssisəsində tibbi yardımın təşkilinin xüsusiyyətləri;

-- bu və ya digər fəaliyyət növünü tənzim edən normativ sənədlərin siyahısı;

-- tibb işçisi həmin normativ sənədlərin məzmunu ilə tanış olmuşdurmu;

-- xəstədə xəstəliyin (travmanın) davam etmə xüsusiyyətləri və xarakteri, konkret halda tətbiq olunmuş diaqnostik və müalicə metodları, onların seçilməsinin əsaslandırılması və nəticəsi;

-- istintaqın predmeti olmuş arzuolunmaz nəticələrin səbəbi və şərtlərinin tibb işçiləri tərəfindən qiymətləndirilməsi.

Məhkəmə-tibb ekspertinin dindirilmədə iştirakının planlaşdırılması, sualların mahiyyətinin və onların verilmə ardıcıllığının müzakirəsi ilə məhdudlaşmır. Dindirilən şəxslə söhbətin necə alınacağını qabaqcadan bilmək mümkün olmadığı üçün ekspertin vəzifəsi, adətən, daha mürəkkəbləşir. Ekspert dindirilmədən əvvəl şübhəli (təqsirləndirilən) şəxsin və ya şahidin prinsipial mövqeyini - onun konstruktiv əməkdaşlığa hazır olmasını, ondan doğru-düzgün ifadələrin alınması mümkünlüyünü, onun münaqişəli mövqe tutduğunu - müstəntiqdən müvafiq məlumat almaqla aydınlaşdırması məqsədəuyğundur. Bu, ekspertin dindirilmədə iştirak taktikasını qurmaq üçün vacibdir. Bununla belə, müstəntiqin fikri ekspertin dindirilən şəxsə qarşı münasibətini müəyyənləşdirməməli və onun verdiyi məlumatları ekspert qiymətləndirməsinə təsir etməməlidir.

İstintaq hərəkəti planlaşdırılarkən, iştirakçıların hüquq və təhlükəsizliyinin qorunması baxımından, dindirilən şəxsin sağlamlığının fiziki və psixi vəziyyəti nəzərə alınmalıdır. Xəstə insanın dindirilməsindən əvvəl ekspert həmin şəxsin sağlamlıq vəziyyətinin dindirilməyə maneə törətmədiyi haqda müalicə həkimindən arayış alınmasına zərurət olması barədə, yaxud dindirilmədə müalicə həkiminin və ya qarovulun iştirakının məqsədəuyğunluğu barədə vəsatət qaldıra bilər.

8.5. Dindirilmədə ekspertin (mütəxəssisin) fəaliyyətinin təşkili və məzmunu.

Dindirilmənin vaxtı, yeri və keçirilmə qaydası müstəntiq tərəfindən müəyyən edilir və ekspertin istintaq hərəkətində iştirakı nəzərdə tutulursa, bütün sualları onunla razılaşdırır. Hər bir konkret halda müstəntiq istintaq edilən cinayətin növünə, prosessual hərəkətin məqsədinə və mütəxəssisin vəzifələrinə, güman edilən istintaq variantlarına, dindirilən şəxsin mövqeyinə və s. əsaslanır. Dindirilmədən əvvəl müstəntiq mütəxəssisin şəxsiyyətini və səlahiyyətliliyini təyin etməli, onun dindirilənə qarşı şəxsi münasibətini aydınlaşdırmalı, dindirilmədə işin bütün halları və dindirilmənin predmeti haqda məlumatlandırılmış ekspertin iştirakını dindirilən şəxsə açıqlamalıdır. Mütəxəssisə isə onun hüquqları, vəzifələri və onları yerinə yetirməkdən imtina etməsinə görə məsuliyyət daşıması izah edilir və dindirilmə protokolunda müvafiq qeydlər edilir.

Dindirilmə bir qayda olaraq, şəxsin hadisənin ona məlum olan halları barədə, törədilməsində şübhəli bilindiyi cinayət haqda, yaxud ona irəli sürülən ittihamnamənin mahiyyəti üzrə sərbəst məlumat verməyi ilə başlayır. Zərurət yarandıqda, müstəntiq şərh olunmuş məlumatlara aid və dindirilənin verdiyi ifadələrdə aydın olmayan hallar barədə bir sıra dəqiqləşdirici, əlavə və yoxlayıcı suallar verir.

Dindirilmədə iştirak edən məhkəmə-tibbi ekspertinə bu taktikadan istifadə etmək məsləhətdir - əvvəlcə ifadələri dinləmək, sonra onları dəqiqləşdirmək və ya konkretləşdirmək üçün əlavə suallar verməyə cəhd etmək. Dindirilmənin gedişində dindirilən şəxsə dəqiqləşdirici suallar verməyə və ya bəzi halların işin mahiyyətinə aid olmamasını başa salmağa yol verilir.

Ekspert dindirilən şəxsə sualları ancaq müstəntiq, məhkəmə vasitəsi ilə və ya onların icazəsi ilə verə bilər. Müstəntiqin icazəsi olmadan dindirilmənin gedişinə müdaxilə etmək ciddi taktiki səhv kimi baxılmalıdır.

Sualların məzmunu və ardıcıllığından başqa, onların qısaca və dürüst ifadə edilməsinin də böyük əhəmiyyəti vardır. Qanunvericiliyə uyğun, dindirilmənin icrasında yönəldici suallara, yəni düzgün cavabı bildirən, bəzi faktları inkar, yaxud əksinə, düz və ya dolayı yolla təsdiq edən suallara yol verilmir. Bu cür suallar hiss olunmadan arzu edilən cavabı açıqlayır. Məsələn: Kəllə-beyin travması zamanı anamnez topladıqda zərərçəkmişə verilən belə bir yönəldici sual: «Travmadan sonra siz huşunuzu itirdinizmi, ürəkbulanma, qusma oldumu?» göstərilənə əyani misal ola bilər. Belə hallarda ekspert ətraflı sorğu yolu ilə, dindirilən şəxsdən onun sağlamlığında, hadisənin detallarında və hallarında baş verən istənilən dəyişiklikləri öyrənməklə, sərbəst olaraq zərərçəkmişin huşunu itirməsini və travma ilə əlaqədar digər halları müəyyən edərək bu məsələni həll etməlidir. Bıçaq zədəsi yetirilməsinin ümumi şəraitini aydınlaşdırmaq zərurəti olduqda şübhəli və ya təqsirləndirilən şəxsə verilən: «Siz bıçaqla döş qəfəsinə zərbə vurdunuzmu?» sualı yönəldici xarakterli olar, halbuki «Siz zərərçəkmişin bədəninin hansı hissəsinə və nə ilə vurdunuz?» sualı bu halda daha düzgün olar.

Çoxillik təcrübə dindirilmələrdə sualların qısaca və dürüst ifadə olunmasına aid məntiq qanununa əsaslanmış tövsiyələr verir. Suallar belə verilməlidir:

1. predmet məzmunlu, yəni istintaq edilən cinayətin hallarına və ekspertin (mütəxəssisin) fəaliyyət predmetinə aid olmalıdır;
2. qısa - hər bir sual, mümkün olduqca, artıq detallaşma olmadan bir hala, şəraitə aid olmalıdır;
3. başa düşülən və heç bir izaha yol verməyən - ekspert xüsusi tibbi terminlərdən istifadə etməməlidir, xüsusi anlayışların mənasını isə sonradan dindirilən şəxsin başa düşməməsinə əsaslanmaması üçün açıqlamalıdır (bunun üçün müstəntiq dindirilənin verilən sualı başa düşdüyü haqda cavabını ayrıca fiksə etməlidir);
4. konkret və mümkün olduqca birmənalı və açıqlanmış cavabı güman olunan - fərz etmək, güman etmək formasında konkret olmayan cavab verilə bilən suallardan yayınmaq;

5. ifadə edilmə formasına görə neytral - suallar emosional çalarlı olmamalı; sualların mütəxəssis üçün əhəmiyyətli olmasının büruzə verilməsini xüsusi intonasiya və ya digər üsullarla bildirməməli;

6. ardıcıl - hər bir sonrakı sual əvvəlkindən doğulmalı, onun məntiqi davamı olmalıdır. Məhkəmə-tibb ekspertini maraqlandıran fakt və halları xüsusi məntiqi ardıcıllıqla göstərmək məqsədəuyğundur. Dindirilmənin gedişində səmərəli olan, məsələn, əvvəl baş vermiş hadisələrdən vaxt üzrə sonra baş vermiş hadisələrə keçmək. Konkret hadisənin xüsusiyyətlərindən asılı olaraq əks ardıcıllıq da əlverişli ola bilər.

Sualların ifadə olunması üçün sadalanan tələblər mütləq deyil. Məsələn, tibb işçilərinin dindirilməsində xüsusi tibbi terminlərin istifadəsindən yayınmaq mümkün deyil və sualların mənası müstəntiqə izah olunmalıdır. Sualın ifadə edilməsinin neytrallıq tələbi, həmçinin şərtidir. Bəzən dindirilmənin gedişində əksinə olaraq, dindirilən şəxsin irəli sürdüyü hər-hansı faktları və ya absurd versiyaları ekspert üçün büruzə vermək zərurəti meydana çıxır. Dindirilmənin istintaq taktikası bir sıra hallarda verilən sualların məntiqi ardıcıllığının olmamasını, müzakirə zamanı gözlənilmədən bir haldan digər hala keçməyi nəzərdə tutur.

Dindirilmənin gedişində verildiyi anda dəqiqləşdirilməsi tələb olunan sualların məhdud dairəsi ilə kifayətlənmək səmərəsizdir. Mütəxəssis, mümkün olduqca, daha detallaşdırılmış ifadələr almağa, dindirilən şəxsdən öz fəaliyyətinin predmetinə aid olan bütün hallar üzrə açıqlamalar əldə etməyə, ekspert məsələlərinin həllinə təsir edə biləcək detalların dəqiqləşdirilməsinə müvəffəq olmalıdır. Artıq sübut olunmuş fakt və hallar üzrə verilən ifadələri nəzərdən qaçırmaq olmaz.

Əgər dindirilən şəxs öz ifadəsinin düzgünlüyünə, inandırıcılığına şübhə edirsə, ekspert ona öz cavabını aydınlaşdırmağı, digər konkret faktlarla təsdiq etməyi, yəni ifadələrini əsaslandırmağı təklif etməlidir. Ümumiyyətlə, ifadələrin düzgünlüyünün qiymətləndirilməsi ekspertin səlahiyyətinə aid deyil. Burada əsasən xüsusi bilik və praktiki sərişta mövqeyindən elmi işlənmələrə uyğun gələ bilən məlumatları nəzərə almaq lazımdır.

Dindirilən şəxsin ifadəsi müstəntiq və ekspert tərəfindən sadəcə olaraq təsbit edilməməlidir. Alınan məlumatlar dindirilmənin gedişində əvvəl aparılmış tədqiqatların nəticələri və işdə olan digər materiallarla müqayisə edilməlidir. İfadələrdə fikir ayrılığı, digər sübutlarla ziddiyyətlər meydana çıxarsa, dindirilmənin gedişinə düzəliş edilir. Dindirilən şəxsə onun verdiyi məlumatla əvvəl müəyyən olunmuş faktın arasında olan uyğunsuzluğu tələsərək bildirmək olmaz. Əvvəl ona bir sıra aydınlaşdırıcı və yoxlama sualları vermək, sonra isə əgər dindirilən şəxs öz ifadələrində israrlı olarsa, müstəntiqin diqqətini və onun icazəsi ilə dindirilən şəxsin diqqətini də qeyd olunan ziddiyyətlərə yönəltmək lazımdır.

Məhkəmə-tibb ekspertinin istintaq hərəkətlərində iştirakının mühüm təşkilati-taktiki aspektlərindən biri - sübutun təqdim olunması haqqında, adətən, aparılmış xüsusi tədqiqatların gedişində müəyyən olunmuş ekspert göstəricilərindən istifadənin mümkünlüyüdür. Bu taktiki gediş müstəntiqlər tərəfindən çox tətbiq olunur, daha düzgün və dolğun ifadələr almağa imkan verir və bununla yanaşı, dindirilən şəxsin yalanını ifşa etməyə imkan yaradır. Ekspert aparılmış müayinələrin nəticələrinə dindirilmənin gedişində yalnız müstəntiqin icazəsi ilə istinad edə bilər. Belə ki, sübutların təqdim olunma anını müstəntiq təyin edir. Bu məsələ dindirilməyə hazırlıq mərhələsində müzakirənin predmeti olmalıdır. Qanunvericiliyə müvafiq olaraq, ilkin tədqiqatın nəticələri yalnız prokurorun, müstəntiqin və təhqiqatçının icazəsi ilə və onların məqbul hesab etdikləri həcmdə, ilkin istintaqın maraqlarına zidd olmamaq və cinayət mühakimə icraatı iştirakçılarının hüquq və qanuni maraqlarının pozulmaması şərti ilə açıqlana bilər.

Müstəntiqlə razılaşdırıldıqdan sonra, ekspert dindirilən şəxsə məhkəmə təbabətinin xüsusi elmi müddəaları və müasir ekspert imkanları barədə aydınlaşdırma verə bilər. Bu hal ilkin olaraq düzgün ifadələr verməkdən imtina edən şəxsin mövqeyinin dəyişməsinə səbəb ola bilər.

Bəzi hallarda şahidlər, zərərçəkmiş və şübhəli şəxslər istintaq edilən hadisənin detallarını şərh etməkdə, cinayət alətini və digər xüsusatları təsvir etməkdə çətinlik çəkirlər. Bu müxtəlif səbəblərdən,

həmçinin onların müstəntiqi və eksperti konkret olaraq nəyin maraqlandırdığını bilməmələrindən və ya tam aydın başa düşməmələrindən irəli gəlir. Qeyd olunan problemi aradan qaldırmaq üçün dindirilən şəxsə sərbəst olaraq alətlərin rəsmlərini, istintaq edilən hadisənin baş verdiyi yerin ümumi planını çəkmək, sxem və rəsmlərdə şəraitin detallarını, iştirakçıların və ya maddi sübutların qarşılıqlı yerləşməsini əks etdirməyi təklif etmək olar.

Bir sıra hallarda zəruri məlumatları dindirilənin öz hərəkətlərini və ya digər şəxslərin hərəkətlərini ancaq nümayiş etməsi yolu ilə əldə etmək mümkündür. Bu halda dindirilmənin keçirilməsini məhkəmə-tibb ekspertinin eyni vaxtda istintaq eksperimentində iştirakı ilə əlaqələndirmək daha məqsədəuyğun olar. Dindirilənin şəxsiyyət kimi hüquqlarının qorunmasına riayət etmək vacibliyi bütün istintaq iştirakçıları üçün ümumi deontoloji tələbdir. Müstəntiqin dindirilmədə fəaliyyətinin müvəffəqiyyəti insanı özünə cəlb etməsindən, istənilən üsulla kontakt yaratmasından müəyyən qədər asılı olsa da, bu hal məhkəmə-tibb eksperti üçün o qədər də əhəmiyyətə malik deyil. Ekspertin davranışı və taktikası dindirilən şəxsin onunla söhbət etmək və ya etməmək, suallara cavab vermək və onların düzgünlüyünü təsdiq etmək və ya etməmək istəyindən asılı olmamalıdır. Əlbəttə, insana qarşı diqqət, onu dinləməyə və başa düşməyə hazır olmağı nümayiş etmək, onda inam yaratmaq dindirilmədə iştirak edən ekspert üçün vacibdir. Lakin bu artıq dərəcədə olmamalıdır.

Dindirmədə kriminalistik üsullardan biri müstəntiqin dindirilən şəxsə psixoloji təsirindən ibarətdir. Ekspert isə, müstəntiqdən fərqli olaraq, dindirilmənin iştirakçılarına psixoloji təsirdən istifadə etməkdən uzaq olmalıdır. Onların münasibəti şəxsin hüquqlarına hörmət əsasında yaranmalı və cinayət-prosessual qanunvericilik çərçivəsindən kənara çıxmamalıdır. Dindirilən şəxs ekspertin timsalında istintaqın daha bir nümayəndəsini deyil, başlıca olaraq müstəqil mütəxəssisi, öz işini bilən və ancaq həqiqəti müəyyən etməyə çalışan məhkəmə-tibbi ekspertini görməli və başa düşməlidir ki, xüsusi biliklərə malik mütəxəssisdən hansısa məlumatı gizlətmək faydasızdır. Ekspertin belə davranışı optimal olmaqla yanaşı tibbi

etikanın normalarına da uyğun gəlir. Ekspertin səliqəli xarici görünüşü (mümkünsə, ağ xalatla), sakit, inamlı ünsiyyət tərzi, xeyirxahlılığı, dindirilənə qarşı nəzakətli münasibəti, xüsusi diqqəti və obyektivliyi onlar arasında zəruri kontaktın yaranmasına səbəb olar. Bununla da, mütəxəssis dindirilmədə iştirakının məqsədinə nail olacaq. Əksinə, dindirilən şəxs günahlandırma tərzi, onu cinayətkar görmək, qeyri-etik müraciət, yaxud açıq-aşkar nümayiş edilən «vəkillik» niyyəti kimi hərəkətlər yol verilməzdir. Ekspert ifadələrə münasibətdə emosional çalarlı və qiymətləndirici mülahizələrdən, istintaq hərəkətinin gedişində təyin olunacaq ekspertiza zamanı həll olunmalı suallar üzrə öz fikrini bildirməkdən yayınmalıdır. Davranışında belə halların olması dindirilən şəxsdə mənfi reaksiyanın yaranmasına, ekspertin müstəqil proses iştirakçısı olmasına inamın itməsinə, onun qərəzli və qeyri-obyektiv olması haqda fikrin formalaşmasına səbəb ola bilər.

Dindirilmədə ekspert özünü prosesin müstəqil iştirakçısı kimi aparmalıdır. Lakin müstəntiqlə razılaşmadıqda, dindirilən şəxsin yanında müstəntiqə irad tutmamalı və ya dindirilmənin gedişi və nəticəsini qiymətləndirməməlidir.

8.6. Dindirilmə nəticələrinin tərtib olunması.

Dindirilmənin gedişində ekspertin sualları, alınan cavabları təsbit etmək və yazmaq hüququ var. Ekspertin yazıları müstəntiqə dindirilmənin gedişinə, istintaq hərəkətinin protokolunda sualların və alınmış ifadələrin düzgünlüyünə nəzarət etməyə kömək edir. Ekspertin (mütəxəssisin) yazılı qeydlərinin heç bir prosessual əhəmiyyəti yoxdur, dindirilmə protokoluna əlavə edilə bilməz və iş üzrə sübut mənbəyi sayılmır.

Dindirmənin nəticələri üzrə tərtib olunmuş protokol yeganə prosessual sənəddir ki, iş üzrə sübut növü kimi qiymətləndirilə bilər. Protokol müstəntiq tərəfindən dindirilmənin gedişində və dindirilmədən sonra tərtib edilir. Protokolda istintaq hərəkətinin keçirilmə vaxtı şərtləri, məzmunu və nəticələri təsbit olunur.

Protokolda müstəntiq ekspertin (mütəxəssisin) şəxsiyyəti və səlahiyyəti barədə məlumatları, dindirilən şəxsə qarşı münasibətini, həmçinin ona hüquq və vəzifələrinin izah olunma faktını əks etdirməli və göstərilənlər ekspertin imzası ilə təsdiq olunmalıdır.

Ekspert işinin nəticələri sərbəst sübut mənbəyini təşkil etmədiyi üçün onun dindirilmədə fəaliyyətinə cinayət məcəlləsinin heç bir xüsusi normaları ilə məhdudiyyət qoyulmur. Əgər ekspert mütəxəssis kimi çıxış edirsə, vəzifələrinin icrasından imtina etməyə və yayınmağa görə məsuliyyət daşıyır.

Dindirilən şəxsin cavabları və açıqlamaları bir-birini təsdiq edib etmələrindən, müəyyən edilmiş digər faktlara və əvvəl verilmiş ifadələrə zidd olmalarından asılı olmayaraq, hətta ekspertə və ya müstəntiqə mənasız və absurd görünənlər belə sözbəsöz fiksə edilir. Müstəntiqin və ya məhkəmənin ekspertin suallarını gündəlikdən çıxarmağa və ya onları dindirilən şəxsə digər tərzdə təqdim etməyə hüququ var. Əgər ekspert sualın ifadə tərzinin dəyişdirilməsi ilə razı deyilsə, öz münasibətini yazılı surətdə bildirə bilər və bunlar protokol daxil edilməlidir.

Sualların və cavabların mütləq olaraq tam və mümkün olduqca sözbəsöz fiksə edilməsi ifadələrə tənqidi münasibətin zəruriliyini rədd etmir. Lakin tənqidi münasibət mütəxəssisin qiymətləndirici mülahizələrində deyil, dəqiqləşdirici və yoxlanılan sualların dindirilən şəxsin qarşısında qoyulma tərtibatında bilinməlidir.

Müstəntiq ekspertin verdiyi sualları yayındıra bilər, həmin sual protokolda öz əksini tapmalıdır.

Ekspert müstəntiqə ifadələrin sistemləşdirilərək yazılmasında, təkrarların və işə aid olmayan məlumatların ixtisar edilməsində kömək etməlidir. Suallarda və cavablarda istifadə edilən xüsusi tibbi terminlərin mənasını, protokola dindirilmə iştirakçılarının başa düşə biləcəkləri tərzə uyğun izah etməklə yazılmalıdır.

Dindirilmə qurtardıqdan sonra protokol müstəntiq tərəfindən bütün iştirakçılar üçün oxunur və ya özlərinin sərbəst oxuması üçün onlara təqdim edilir (protokolla tanış olma qaydası ayrıca qeyd kimi protokolun sonunda göstərilməlidir).

İstənilən istintaq hərəkətinin gedişində və ya sonunda ekspert sübutların aşkar olunması, təsbit edilməsi və götürülməsi ilə bağlı müvafiq müraciətlər etmək, protokola əlavələr, düzəlişlər etməyi tələb etmək və digər vəsatətlər vermək hüququna malikdir. Bütün vəsatətlər istintaq hərəkətinin protokolunda mütləq qeyd olunmalıdır.

Ekspertin dindirilmədə müraciətləri verilən sualların məzmununa və onların ifadə olunmasına, cavabların tamlığına və dəqiqliyinə, protokolda sualların və cavabların düzgün əks olunmasına aid ola bilər. Eyni zamanda, ekspertin vəsatət vermək və digər müraciətlər etmək hüququ onların protokola salınmasının zəruriliyində məhdudlaşır. Məsələn, ekspertin istintaq hərəkətinin keçirilmə taktikası haqqında etdiyi təkliflərin protokola salınması mütləq deyil - onunla razı olub-olmamaq məhkəmənin və müstəntiqin hüququdur.

Audio, kino və ya video yazılış aparıldığı halda, dindirilmə qurtardıqdan sonra həmin yazılış canlandırılır və dindirilmə iştirakçıları onun düzgünlüyünü təsdiq edir. Sonradan audio yazılış yolu ilə təsbit edilmiş ifadələr yuxarıda göstərilən bütün qayda-lara riayət olunmaqla protokola daxil edilir.

Mütəxəssis bütünlüklə protokolu imzalayır. Əlavələr və düzəlişlər razılaşdırılmalı və mütəxəssisin, müstəntiqin, dindirilən şəxsin ayrı-ayrılıqda imzaları ilə təsdiq olunmalıdır. Ekspert imzalamazdan əvvəl protokolun məzmunu və edilən düzəlişlərlə tanış olmalıdır. Mütəxəssisin protokola imza qoymaqdan imtina etdiyi halda müstəntiq bu barədə protokola qeyd edir, öz imzası ilə və əgər istintaq hərəkətində müdafiəçi, qanuni nümayəndə və hal şahidləri iştirak edirsə, onların imzası ilə də təsdiq edilir. Mütəxəssisə protokolu imzalamaqdan imtina etməsinin səbəbini açıqlamağa imkan verilməlidir və həmin açıqlamalar protokola daxil edilməlidir.

8.7. Üzləşdirmə.

Üzləşdirmə - dindirilmənin xüsusi prosessual növüdür. Bu istintaq hərəkəti əvvəl-cə dindirilmiş iki və daha çox şəxslərin bir-birinin iştirakı ilə eyni vaxtda və növbə ilə dindirilməsidir. Dindirilən şəxslər arasında üzləşdirmə, onların verdikləri ifadələrdə eyni hallara aid olan məlumatlar bir-birini inkar etdikdə və həmin məlumatlarda əhəmiyyətli ziddiyyətlər olduqda aparılır. Üzləşdirmənin məqsədi - ziddiyyətlərin nümayiş etdirmək və onları aradan qaldırmaqdır.

Üzləşdirmə təqsirləndirilən, şübhəli şəxslər, zərərçəkmişlər, şahidlər arasında, o cümlədən təqsirləndirilən və şübhəli şəxs, təqsirləndirilən və zərərçəkmiş, təqsirləndirilən və şahid, şübhəli şəxs və zərərçəkmiş, şübhəli şəxs və şahid, zərərçəkmiş və şahid arasında aparıla bilər.

Üzləşdirmənin planlaşdırılmasında və ona hazırlıq mərhələsində məhkəmə-tibb ekspertinin vəzifəsi müxtəlif şəxslərin ifadələrində aşkar olunmuş ziddiyyətlərin əhəmiyyətli olmasını və onların üzləşdirmə yolu ilə aradan qaldırılmasının mümkünlüyünü müəyyən etməkdir.

Mütəxəssisin fikirincə, məhkəmə həkiminin fəaliyyət predmetinə aid olan və bir-birini inkar edici xarakter daşıyan hallara aid müxtəlif mənalı məlumatları birləşdirən ifadələr əhəmiyyətli ziddiyyət təşkil edən ifadələrdir. Müstəntiq, öz növbəsində, alınmış ziddiyyətli ifadələrin, iş üçün sübuti əhəmiyyətinin və sübutların qiymətləndirilməsində vacib olmasını müəyyən edir (bu ziddiyyətlərin əhəmiyyətlilik dərəcəsinin prosessual aspektini təşkil edir).

Üzləşdirilməyə çağırılmış şəxslərə açıqlanması üçün istintaq hərəkəti aparılan hallar barədə növbə ilə izahat vermək təklif olunur. Bundan sonra müstəntiq və mütəxəssis onlara suallar verir. Dindirilən şəxslər müstəntiqin icazəsi ilə bir-birinə suallar verə bilər. Üzləşdirmə üçün çağırılmış şəxslərin dindirilmə və sualların verilmə ardıcıllığını müstəntiq təyin edir. Üzləşdirmə zamanı müstəntiq maddi sübutları və sənədləri, həmçinin ekspert rəyini də təqdim edə bilər.

Üzləşdirmənin gedişində ekspertin taktikası elə qurulmalıdır ki, istintaq hərəkətinin iştirakçıları tərəfindən onun davranışı dindirilən şəxslərdən birinə inanmaq kimi qəbul edilməsin. Mütəxəssisin məqsədi, vəzifələri və iş metodu adi dindirilmədə iştirakından fərqlənmir.

Beləliklə, dindirilmənin və ya üzləşdirilmənin icrasına cəlb olunmuş məhkəmə-tibb eksperti istintaq hərəkətində iştirakı ilə tam və düzgün ifadələrin alınmasını təmin edir. Mütəxəssisin (ekspertin) cəlb olunması dindirilmə aparılmasının vacib prosessual vasitəsidir. Bu vasitə tam və doğru ifadələrin alınmasına, dəqiqləşdirilməsinə və yaddaşın aktivləşdirilməsinə kömək edir, müstəntiq tərəfindən sübutların qiymətləndiril-məsi üçün zəruri olan yeni məlumatların alınmasına imkan yaradır. Ekspertin dindiril-mədə iştirakı istintaq hərəkətinin və ümumilikdə, təhqiqatın rəhbəri kimi müstəntiqin nüfuzuna xələl gətirmir və onun hüquqlarını məhdudlaşdırmır. Əksinə, birbaşa məhkəmə-tibbi ekspertizanın predmetinə aid olan halların açıqlanması lazım olduqda, ekspertin dindirilmədə iştirakı istintaq hərəkətinin nəticələrinə yalnız müsbət təsir göstərir.

Dindirilmə aparılmasının məhkəmə-tibbi aspektlərinin spesifik xüsusiyyətlərini də qeydə alaraq, istintaqın müxtəlif taktiki üsullarının səmərəli əlaqəsinin nə qədər effektli və sübutedici olmasını bir neçə misal ilə nümayiş etmək olar.

Misal №1. 1997-ci ildə prokurorluq tərəfindən ər və arvadın qətlə yetirilməsi ilə bağlı cinayət işi istintaq olunurdu. Keçirilmiş məhkəmə-tibbi ekspertiza zamanı müəyyən edilmişdir ki, onların hər ikisinin ölümü boyun üzvlərinin ilgəklə sıxılması nəticəsində mexaniki asfiksiyadan baş vermişdir. İbtidai istintaqın gedişində şübhəli şəxs və sonradan təqsirləndirilən şəxs qismində iki nəfər məsuliyyətə cəlb olunmuşdur. İbtidai istintaq zamanı keçirilən bir neçə ayrı-ayrı dindirilmələrdə onlar inandırmağa çalışırdılar ki, növbə ilə zərərçəkmişlərin boyunlarını sıxırdılar və bu zaman təqsirləndirilənlərdən biri ölüm baş verməmişdən qabaq ilgəyi zərərçəkmişin boynundan çıxarmayaraq onun uclarını yanındakına verdiyini təkid edirdi.

Müstəntiqdən cinayət məsuliyyətinin dərəcəsini təyin etmək və günahkarların hərəkətlərini düzgün hüquqi qiymətləndirmək üçün zərərçəkmişlərin boynunun ayrı-ayrı sıxılmasının hansı nəticələrlə müşayiət olunmasını və təqsirləndirilən şəxslərdən hansı birinin hərəkəti nəticəsində ölümün baş verdiyini müəyyən etmək tələb olunurdu. Qətl prosesi bir neçə dəqiqə çəkdiyindən və təqsirləndirilən şəxslərin hər ikisinin eyni alətdən istifadə etdiklərindən, məhkəmə-tibb ekspertizasının yalnız meyitlərin müayinələrinin nəticələrinə əsasən zədələrin yetirilmə ardıcıllığının aydınlaşdırılması, onların əmələgəlmə mexanizmi və ölümün baş verməsini təqsirləndirilənlərin hansı birinin hərəkəti ilə bağlı olmasını müstəntiq tərəfindən ekspert qarşısında qoyulmuş sualların cavablandırılması ilə həll etmək mümkün olmadı. Ona görə meyiti müayinə etmiş məhkəmə-tibb ekspertinin iştirakı ilə təkrar dindirilmənin keçirilməsi qərara alındı. Dindirilmədə ekspertin suallarına cavab verərkən təqsirləndirilən şəxslərdən biri bildirdi ki, «halı birdən pisləşdiyindən» o zərərçəkmişi boğmasını saxlayıb ilgəyi öz «yoldaşına» verdi. Ekspert təqsirləndirilən şəxsin halının birdən pisləşməsinə nəyin səbəb olduğunu dəqiqləşdirməyə başladı. Ona bir neçə əlavə suallar verərək, ekspert aydınlaşdırdı ki, təqsirləndirilən şəxs ilgəyi zərərçəkmişin boynuna keçirib, sıxmağa başladıqdan sonra «zərərçəkmişin bədəni boşaldı, göyərdi, xırıldamağa, qanla qusmağa başladı və müqavimət göstərmədi». Digər təqsirləndirilən şəxs həmin ifadələri təsdiq etdi və zərərçəkmişin boynunu sıxmasını davam edərkən onun «qısa müddət xırıldadığını» əlavə etdi. Alınmış ifadələr, heç bir xəstəliyin olmaması barədə ekspertizanın nəticələri ilə birlikdə, zərərçəkmişin boynunun ilkin sıxılması zamanı həyat üçün təhlükəli olan vəziyyətin - ağır dərəcəli kəskin nəfəs çatışmamazlığı, beyin qan dövranının pozulması ilə mexaniki asfiksiyanın yaranması, yəni artıq ilkin sıxılma zamanı zərərçəkmişin sağlamlığına ağır zərər vurulması nəticəsinə gəlməyə əsas verir. Təkrar sıxılma ölümün baş verməsini sürətləndirib. Əvvəl keçirilmiş tədqiqatların nəticələri əsasında aparılmış əlavə ekspertizanın nəticəsi və ekspertin iştirakı ilə keçirilmiş dindirilmə müstəntiqə təqsirləndirilən şəxslərin hərəkətlərini düzgün qiymətləndirməyə,

ittihamnaməni əsaslandırmağa imkan verdi. Həmin ittihamnamə sonradan məhkəmənin qərarı ilə təsdiq olundu.

Misal №2. İki şəxsin qətlə yetirilməsində təqsirləndirilən şəxsin dindirilməsində iştirak edən məhkəmə-tibb eksperti iş materialları ilə tanış olduqdan sonra bildirir ki, müttəhim keçmişdə dəfələrlə ev şəraitində heyvan kəsməklə məşğul olmuşdur (bu faktın özlüyündə törədilmiş cinayətə aidiyyatı yoxdur). Təqsirləndirilən şəxs ilkin istintaq zamanı əvvəl verdiyi ifadələrindən imtina edirdi. Məhkəmədə işə baxılarkən qətlin törədilməsi şəraiti aydınlaşdırıldıqdan sonra ekspert digər suallardan başqa, təqsirləndirilən şəxsə mal kəsmədə onun istifadə etdiyi texniki üsul haqda danışmasını təklif etdi. Təqsirləndirilən şəxsin vəkili verilən sualın işə aid olmadığına istinad edib sualdan imtina etməyə cəhd göstərsə də, məhkəmə onun vəsatətini təmin etmədi. Təqsirləndirilən şəxsin açıqlamaları dinlənildikdən sonra, ekspert və məhkəmə qətlin qurbanlarında olan zədələrin xarakterinin, lokalizasiyasının və qarşılıqlı yerləşməsinin, göstərilən üsulla kəsilmələrindən sonra heyvan cəmdəklərində qala bilən zədələrlə tam uyğunluğunu qeyd etdilər. Bu uyğunluq, qismən olsa da belə, günahın sübutu kimi istifadə edilə bilməzdi. Lakin alınmış cavab vəkilin mövqeyini zəiflətdi və təqsirləndirilən şəxsə müəyyən psixoloji təsir göstərdi və o sonradan törətdiyi cinayəti boynuna aldı.

FƏSİL 9 İSTİNTAQ EKSPERİMENTİ. İFADƏLƏRİN YERİNDƏ YOXLANILMASI.

9.1. İstintaq eksperimenti və ifadələrin yoxlanılması anlayışı, onların prosessual məzmunu.

Xüsusi hüquqi ədəbiyyatlardan məlumdur ki, baş vermiş kriminal hadisənin mahiyyətini təyin etməyə, variantlar irəli sürməyə və istintaqın istiqamətini müəyyənləşdirməyə imkan verən məlumatları, cinayətkarın fəaliyyət üsulunu modelləşdirməklə, baş vermiş hadisələrin eksperimental təhlili ilə, o cümlədən xəsarət yetirmə və ölümün baş verdiyi şəraitin süni surətdə bərpası yolu ilə əldə etmək olar. Cinayət istintaqının müasir kriminalistik taktikası arsenalında geniş yayılmış istintaq eksperimenti və ifadələrin yerində yoxlanması kimi prosessual hərəkətləri bu məqsədə xidmət edir. Hadisə yerinə baxışla yanaşı, istintaq hərəkətlərinin bu iki növünün yerinə yetirilməsinə məhkəmə-təbabəti sahəsində mütəxəssislər daha çox cəlb olunur.

Müstəqil prosessual hərəkətlər kimi istintaq eksperimenti və ifadələrin yerində yoxlanılması Azərbaycan Respublikası CPM-də öz yerini tapmışdır.

AR CPM 262-ci maddəsinə müvafiq, istintaq eksperimenti cinayət işi üçün əhəmiyyətli olan məlumatların yoxlanılması və dəqiqləşdirilməsi məqsədilə müəyyən olunmuş hadisənin detallarını, həmçinin şəraiti və ya digər hallarını canlandırmaq yolu ilə keçirilir.

CPM-də işin ilkin istintaqı və məhkəmə baxışı gedişində istintaq eksperimentinin mütləq qaydada keçirilməsi barədə göstəriş yoxdur. Onun icrasının məqsədəuyğunluğunu müstəntiq və yaxud məhkəmə müəyyən edir və istintaqın tam və hərtərəfli aparılması üçün vacibliyinə əmin olduqda müvafiq qərar qəbul edirlər. Təcrübədə istintaq eksperimenti adətən prokurorun və ya istintaq bölməsinin rəisinin tələbi ilə, məhkəmə-istintaqı gedişində isə yuxarı instansiyalı məhkəmələrin göstərişi ilə keçirilir. Baxış və (ya) müayinə cinayət istintaqı aparılan bütün hallarda keçirilir. Bu prosessual hərəkətlərin

gedişində cinayətin baş verməsi faktı müəyyən edilir və onun izlərinin ilkin axtarışı aparılır.

Göstərilən istintaq hərəkətlərinin hansı məqsədlə keçirilməsində fərq mövcuddur. Baxış və müayinə sonrakı yoxlamalar yolu ilə sübutedici əhəmiyyəti ola biləcək izlərin və ya sübutların tapılması məqsədilə keçirildiyi halda, CPM-nin 262-ci maddəsindən göründüyü kimi istintaq eksperimenti isə, öncə iş üzrə faktiki məlumatların yoxlanılması və dəqiqləşdirilməsi məqsədi ilə keçirilir (Bu hal istintaq eksperimentinin gedişində, digər istintaq hərəkətləri ilə təsbit olunmasını tələb edən, faktiki məlumatların alınması mümkünlüyünü inkar etmir). Qeyd olunanlar müstəntiqdə müvafiq məlumatların olmasını və onların ilkin prosessual möhkəmləndirilməsini nəzərdə tutur. İstintaq hərəkəti həmişə sübutetmənin ikinci, yardımçı vasitəsidir. Baxış və müayinə isə bunun əksinə olaraq, cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulduğu kimi ilkin və təxirəsalınmaz istintaq hərəkətləridir.

Baxış zamanı hadisə yerinin şəraiti digər obyekt və izlər müstəntiq və mütəxəssis tərəfindən dəyişilməz halda, yəni cinayətin aşkar olunduğu anda qaldıqları kimi qəbul edilir və qeydə alınır. İstintaq eksperimenti cinayətin baş verdiyi halların, şəraitin və ya onun iştirakçılarının hərəkətlərinin yenidən canlandırılmasını məqsədini güdür. İstintaq eksperimenti digər prosessual hərəkətlərdən fərqli olaraq sınaq xarakteri daşıyır («eksperiment» adlandırılması da burdan meydana çıxmışdır).

Qeyd olunan prosessual fərqlərə baxmayaraq bəzən istintaq eksperimenti digər istintaq hərəkətləri ilə eyni vaxtda keçirilir. Məsələn, hadisə yerinə təkrar baxış keçirilərkən, sonrakı müqayisəli müayinə üçün nümunələrin götürülməsi, iztörənmə şəraitinin eksperimental qaydada yenidən canlandırılmasına zərurət yarandıqda və s. Bu hal xüsusilə məhkəmə istintaqının bir-neçə istintaq hərəkətlərinin eyni vaxtda keçirilməsini nəzərdə tutan mərhələsi üçün xarakterikdir.

İfadələrin yoxlanılması qanunvericiliklə yeni qanunvericilikdə möhkəmləndirilmişdir. Əvvəllər istintaq və ekspert praktikasında bu «yerlərə gediş», «yerlərə çıxış», «ifadələrin yerində canlandırılması»,

«ifadələrin yerlərdə yoxlanılması», kimi adlandırılırdı. Prosessual nizamlanmanın və hüquqşünas alimlərin fikirlərinin fərqli olmasına baxmayaraq, ifadələrin yoxlanılması anlayışı cinayət mühakimə icraatı təcrübəsində, kriminalistik və məhkəmə-təbabəti ədəbiyyatlarında çoxdan və möhkəm kök salmışdır. AR CPM maddə 260-da bu istintaq hərəkətinin kifayət qədər tam nizamlanması öz əksini tapmışdır. Onun məqsədi cinayət işi üçün əhəmiyyət kəsb edən yeni halların təyininə zərurət kimi müəyyən edilmişdir.

Hadisə yerinə gedişlə, şübhəli şəxsin, təqsirləndirilənin, zərər çəkənin və ya şahidin əvvəllər verdiyi ifadələrin yoxlanılması və ya dəqiqləşdirilməsi ilə nail olunur. Bu hal istintaq eksperimenti yolu ilə ifadələrin yoxlanılmasını bir-birinə yaxınlaşdırır. Lakin istintaq eksperimentindən fərqli olaraq, ifadələrin yoxlanılması adından göründüyü kimi, yalnız ifadələrin, yəni dindirilmə, üzləşdirmə və ya digər şifahi üsullarla alınmış sübutların dəqiqləşdirilməsi ilə keçirilir.

Ekspert mülahizələrini «hadisə yerinə çıxış» yolu ilə yoxlamaq olmaz. Bunun üçün ən azı müvafiq təcrübi hərəkətlərin keçirilməsi (məsələn, istintaq eksperimenti), çox vaxt isə xüsusi təkrar tədqiqatların icrası tələb olunur.

İstintaq eksperimentindən fərqli olaraq, ifadələrin yoxlanılması, həmişə ifadələri yoxlanılan şəxslərin iştirakı ilə və bir qayda olaraq, onların göstərdikləri hadisənin baş verdiyi yerdə, yaxud ifadələrdə iştirak edən real obyektlərdən istifadə etməklə keçirilir. İstintaq yoxlanılmasının gedişində təcrübi hərəkətlərin keçirilməsi də mümkündür və onun həcmi məhdud olur.

İfadəsi yoxlanılan şəxsin özü yerindəcə istintaqı aparılan hadisənin mühit və şəraitini canlandırır. Cinayət işi üçün əhəmiyyəti olan əşya, sənəd və izləri göstərir və müəyyən hərəkətləri nümayiş etdirir. İstintaq eksperimentindən fərqli olaraq ifadələrin yoxlanılması gedişinə hər hansı bir kənar müdaxilə yol verilməzdir.

İfadələrin yoxlanılması gedişində cinayət iştirakçıları və şahidləri əvvəllər verdikləri ifadələrinə dəqiqləşdirmə və düzəlişlər edə bilərlər. Canlandırma yolu ilə, ifadələrin, cinayətin baş verdiyi yerdə faktiki şəraitlə və etibarlılığı şübhə doğurmayan hallarla uyğunluğu təyin edilir.

Digər hallarda məhkəmə-tibb ekspertinin istintaq eksperimentinə və ifadələrin yoxlanılmasına cəlb edilmə səbəbləri, məhkəmə-tibb ekspertinin vəzifələri (məhkəmə təbabəti sahəsində mütəxəssis), eləcə də onun işinin təşkili və məzmunu bir-birinə uyğun gəlir. Qeyd olunan istintaq hərəkətlərinin prosessual məzmunlarının müxtəlif olmasına baxmayaraq, ekspertin iştirakı baxımından onlara birlikdə baxılması daha məqsədəuyğundur.

9.2. İstintaq eksperimenti və ifadələrin yoxlanılmasının keçirilməsi səbəbləri.

İstintaq eksperimentinin və ifadələrin yoxlanılmasının əsas məqsədi (CPM maddə 260; 262 yoxlama, dəqiqləşdirmə və ya iş üçün əhəmiyyətli olan yeni məlumatların müəyyən olunması) əsasən müstəntiqin (eləcə də ekspertin) əldə etdiyi məlumatların həqiqiliyinə şübhə etməsi və ya iş üzrə müxtəlif sübutlar arasındakı ziddiyyətlərdir. Bu prosessual hərəkətlərdə iştirakçı və şahidlərin ifadələri, cinayətin baş verməsi şəraiti barədə artıq məlum olan və ya güman edilən obyektiv faktlar eksperimental qaydada yoxlanıla bilər. İstintaq eksperimenti - cinayəti gizlətmək məqsədilə cinayətkarın uydurduqlarını ifşa etmək üçün xüsusi əhəmiyyət kəsb edir. Mühakimə icraatının digər iştirakçılarının gözü önündə keçirilən istintaq hərəkəti gedişində hər hansı bir faktın təkzibolunmazlığına əmin olan təqsirkar, artıq fikrindən daşınaraq istintaqla əməkdaşlıq etmək məcburiyyətində qalır və düzgün ifadələr verməyə başlayır.

Bütün buna bənzər digər hallarda da istintaq eksperimenti və ifadələrin yoxlanılması, istintaqı aparılan hadisənin baş verdiyi mühitin, vaxtın və digər şəraitlərinin yenidən qurulması, onun iştirakçılarının etdikləri hərəkətlərin yenidən canlandırılması yolu ilə həyata keçirilir. Bu hal istintaqa cinayət hərəkətlərinin gedişinin və nəticəsinin konkret şəraitinin, fakt və şərtlərinin obyektiv qiymətləndirilməsinə imkan yaradır.

Çox vaxt şəxsiyyət əleyhinə törədilən cinayətlərin istintaqında məhkəmə-tibbi ekspertiza keçirilərkən, müstəntiq və ya ekspertdə əldə olunan sübutlar sisteminə sığışmayan və ya müxtəlif səbəblərdən əldə olan metod və vasitələrlə düzgün izah və qiymətləndirilə bilinməyən hər hansı bir fakt meydana çıxdıqda mürəkkəb problemli vəziyyətlər yaranır. Məsələn, meyitin tam skeletləşdiyi hallarda ekspertizanın keçirilməsi və istintaq tərəfindən qarşıya qoyulan bir çox sualların həlli kəskin çətinləşir. Bəzən tədqiqat obyekti və onda olan ilkin zədələr hissəvi və ya tamamilə öz xarakterlərini itirdiklərinə görə, əlavə istintaq məlumatları alınmadan sualların həlli

ümumiyyətlə mümkün olmur. Belə problemli vəziyyətlər çox vaxt məhkəmə-tibb ekspertinin iştirakı ilə istintaq eksperimentinin keçirilməsinə səbəb olur.

Bu prosessual hərəkətlərin istintaq və ya təhqiqat məqsədlərindən başqa, nümayişedici məqsədinin də vacibliyini qeyd etmək lazımdır. İş üzrə sübutlar sisteminin formalaşmasında əyani (illüstrativ) təsvir hissə mühüm yer tutur. Məhkəmə həkiminin iştirakı ilə istintaq eksperimenti və ifadələrin yoxlanılmasının digər keçirilmə səbəbi müstəntiqin əvvəlcədən toplanmış materialların əyaniliyinin təmin edilməsinə doğru yönəlmiş cəhdi ola bilər. Bu hal öz növbəsində ibtidai və məhkəmə istintaqının yüksək ardıcıllıqla birindən-digərinə keçməsinə zəmanət verir. Təqsirləndirilən şəxslərin əvvəllər verdikləri ifadələrdən imtina etməsi və ya onları dəyişdirməsi imkanını məhdudlaşdırır, iş üzrə sübutlar bazasını möhkəmləndirir və obyektivləşdirir. Göstərilənlər ilk növbədə, məzmununda ancaq subyektiv məlumatlar olan sübutlara, məsələn, dindirilmə, üzləşdirmə yolu ilə alınan operativ məlumatlara aiddir. Məntiqi baxımdan, əlavə istintaq hərəkətləri gedişində bir daha təsdiqini tapmış sübutlar, digər faktlarla münasibətdə üstünlük təşkil edir.

Əvvəllər alınmış sübutların təsdiq və ya inkar edilməsindən, dəqiqləşdirilməsindən, təsbit edilməsindən, onlar arasındakı ziddiyyətlərin aradan qaldırılmasından əlavə olaraq, istintaq eksperimentinin və ifadələrin yoxlanılmasının proqnozlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Həmin hərəkətlərin icrasında bəzən istintaq üçün gözlənilməz olan yeni məlumatlar və iş üzrə əlavə sübut mənbələri aşkar edilə bilər. Təhqiqatı aparılan hadisənin baş verdiyi yerdə, ifadələri yoxlanılan şəxslərin yaddaşında hadisənin baş verdiyi şəraiti bərpa etmək, onların əvvəl verdikləri izahatları dəqiqləşdirmək və digər obyektiv məlumatlarla yerlərdəki şəraitlə tutuşdurmaq mümkündür. Əldə edilmiş yeni faktlar isə gələcəkdə xüsusi müayinə obyekti ola bilər.

Bununla istintaq eksperimenti və ya istintaq yoxlamasının keçirilməsi yolu ilə yalnız artıq işin məlum olan şəraitinin dəqiqləşdirilməsini yox, həm də konkret istintaq variantlarını, yəni tədqiq edilən hadisənin həqiqətən necə baş verməsi barədə, iş üzrə

toplanmış sübutların təhlili əsasında müstəntiq və ya məhkəmənin təxmini ehtimallarını, fərziyyələrini də yoxlamaq mümkündür. Cinayətin baş verməsinə səbəb olan şərtlər, o cümlədən məhkəmə-tibb ekspertinin qarşısına qoyulmuş sualların həllində onun nəzərə alacağı şərtlər də müəyyən edilə bilər.

Beləliklə, istintaq eksperimentinin və ifadələrin yerində yoxlanılmasının prosessual məzmunu, iş üçün əhəmiyyətli olan yeni faktiki məlumatların aşkar edilməsi, yoxlanılması və dəqiqləşdirilməsi, istintaq və ya məhkəmə variantlarının yoxlanılması və istintaq edilən hadisənin şəraitini və şərtlərini, həmçinin onun iştirakçılarının ifadələrini canlandırmaq yolu ilə sübutlar arasında olan ziddiyyətlərin aradan qaldırılması hərəkətləri təşkil edir.

9.3. İstintaq eksperimenti və ifadələrin yoxlanılması keçirilərkən xüsusi məhkəmə-tibbi biliklərin tətbiqi

İstintaq eksperimenti və ya ifadələrin yerində yoxlanılması kimi prosessual hərəkətlərin keçirilməsində və onların icrasında ekspertin (mütəxəssisin) iştirakını, qanun könüllülük formasında nəzərdə tutur (CPM, maddə 260, 262) və xüsusi biliklərin cəlb edilməsinin nə qədər vacib olduğunu həll etmək üçün müstəntiqə prosessual hüquq verir. Lakin bu hal, iş üzrə ekspertin həmin məsələdə təşəbbüs imkanını qadağan etmir. Qanun ekspertin müstəntiqə vəsatətlə müraciət etmə hüququnu nəzərdə tutmuşdur (CPM, maddə 97). Ekspert istintaq eksperimentində iştirakı və onun keçirilməsinin zəruriliyi barədə təşəbbüs irəli sürə bilər. Ekspertin təşəbbüsünü onun işinin keyfiyyət və səmərəlilik göstəricisi kimi qiymətləndirmək lazımdır.

Ekspertin istintaq variantlarında və hadisə şəraitinin qiymətləndirilməsindəki bilavasitə iştirakı, heç də müstəntiqin səlahiyyətinə aid olan məsələlərə qarışmaq kimi başa düşülməməlidir. Belə ki, ekspertin həll etdiyi məsələlər cinayət-prosessual anlamında cinayəti əhatə etmir, yalnız onun maddi-faktiki tərəfinə toxunur.

Ekspertin cəlb edilməsi və ya mütəxəssisin məhkəmə tərəfindən seçilməsi təhqiqatı aparılan hadisənin təbiəti və halları, mütəxəssisin iştirakı ilə istintaq (məhkəmə) hərəkətinin gedişində həll olunması nəzərdə tutulan sualların məzmunu və həyata keçirilən hərəkətlərin mahiyyəti ilə müəyyən olunur. Təcrübədə istintaq eksperimentinin və ifadələrin yoxlanılması keçirilərkən əsasən MTE və PA Birliyinin ştatlı mütəxəssisləri, əsasən məhkəmə-tibbi xidmətin ümumprofilli ekspertləri (tanatoloqlar), xüsusi hallarda isə tibbi-kriminalistik, məhkəmə-bioloji məhkəmə-kimyəvi və digər sahə ekspertləri dəvət olunur.

Hüququ ədəbiyyatlarda şəxsiyyət əleyhinə olan cinayət işləri üzrə keçirilən istintaq eksperimenti və ifadələrin yoxlanılması gedişində

məhkəmə-tibbi biliklərdən istifadə problemi öz əksini tapmamışdır. Məhkəmə-tibb ekspertləri də öz növbəsində göstərilən məsələyə kifayət qədər fikir verməmişlər, Ədəbiyyatlarda əsasən öz təcrübələrində rast gəldikləri konkret hadisələrlə bağlı istintaq eksperimentinin köməyi ilə ekspert tapşırıqlarının müvəffəqiyyətlə həll edilməsi barədə ayrı-ayrı məqalələrə rast gəlinir. Bu məsələ barədə olan məlumatların əksəriyyəti ayrı-ayrı bildirişlər və tövsiyələr çərçivəsində olduğundan problemin ümumiləşdirici nəticəsi tam əldə olunmur.

Məhkəmə-tibbi ədəbiyyatlarda «vəziyyət, şərait, hal ekspertizası» həmin problemə yaxın olmaqla və xüsusi əhəmiyyət kəsb edir. Hadisə yerinə baxış nəticəsində alınmış məlumatları tədqiq etmək məqsədilə ilk dəfə şərait ekspertizalarının keçirilməsi imkanı kriminalistlər tərəfindən işlənib hazırlanmışdır.

Bəzi alimlərin işlərində eksperiment (istintaq və ya ekspertiza) cinayət şəraitinin kompleks təhlilinin bir mərhələsi olaraq birləşmiş problem kimi göstərilmişdir. İstintaq eksperimentinin nəticələri «şərait ekspertizası»nın obyektiv və tam qiymətləndirilməsində əvəzsiz rol oynayır.

Çox vaxt istintaq eksperimenti şərait ekspertizasından fərqli olan digər əsaslar üzrə keçirilir. Bu zaman təkcə izəmələgəlmənin mexanizmi məsələləri deyil, digər vəzifələr - faktların qavranması, müəyyən hərəkətlərin, hadisələrin baş verməsi imkanları və baş vermiş hadisənin ardıcıllığını müəyyən etmək problemi həll edilir. Əksinə, ekspertizanın və ya şərait ekspertizasının materialları istintaq eksperimentində nəticəvi məlumatlar kimi istifadə edilə bilər. Bəzi hallarda isə eksperiment, müstəntiq tərəfindən ekspertiza nəticələrini yoxlamaq üsulu ola bilər.

Beləliklə, istintaq eksperimenti və ifadələrin yoxlanılması keçirilərkən xüsusi məhkəmə-tibbi biliklərdən istifadə olunmanın prosessual, təşkilatı, elmi metodik və təcrübi aspektlərinə müstəqil prosessual hərəkətlər kimi baxmaq vacibdir. Bu problemin nəzəri və metodik baxımdan kifayət dərəcədə işlənilməməsi nəticəsində məhkəmə təbabəti sahəsində mütəxəssislərin həmin prosessual hərəkətlərin keçirilməsinə cəlb edilməsi, təcrübədə məhkəmə-tibbi

xidmətin hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqə norması kimi qəbul edilməmişdir.

Bununla yanaşı müstəntiqlərin və məhkəmənin məhkəmə-tibbi biliklərdən istifadənin bu formasına təsadüfi olmayan maraqların artmasından əminliklə danışmaq olar. Ölkədə kriminogen şəraitin dəyişməsi, ağır cinayətlərin sayının artması, cinayətkarlıqda professionallıq, cinayət işləri üzrə şahidlər bazasının ixtisarına meyllilik, istintaqın gedişinə qəsdən maneçilik törətmə hallarının artması və vəkillərin daha fəal mövqeyi həmin marağın əmələ gəlməsinə səbəb olan başlıca amillərdəndir.

İş üzrə istənilən sübutların kifayətedici olmasının müstəntiq tərəfindən və məhkəmə tərəfindən qəbul edilməsi üçün, sübutların əlavə obyektiv yoxlanılması, təsdiqi və prosessual təsbit edilməsi tələb olunur. İş üzrə istintaq, əməliyyat və ekspertiza yolu ilə alınmış müxtəlif mənbəli faktiki materialların təhlilinin dərk olunması üçün elə səviyyə tələb olunur ki, bu məsələyə yalnız hüququ və prosessual biliklər çərçivəsində deyil, eyni zamanda daha ümumi metodoloji baxımdan yanaşma vacibdir. Belə yanaşma, cinayət işlərinin istintaqı praktikasında tam birləşmə (inteqrasiya) proseslərinin gücləndirilməsi əsasında həyata keçirilə bilər. Məhkəmə-tibbi biliklərdən daha geniş istifadə yolu ilə, ekspert və mütəxəssisləri müxtəlif prosessual hərəkətlərin keçirilməsinə cəlb edilməsi və məhkəmə-tibb xidməti işinin səmərəliliyinin yüksəldilməsinin mühüm vasitələrindən biridir.

İstintaq və ya məhkəmə tərəfindən istintaq (məhkəmə) hərəkətlərinə cəlb edilmiş məhkəmə hakiminin prosessual vəziyyəti bir qədər fərqlənə bilər. Mühakimə icraatının iştirakçısı kimi ekspertin statusu aşağıdakı şərtlərə riayət edilməsinin vacibliyini nəzərdə tutur: istintaq eksperimenti ekspertizanın keçirildiyi dövrdə iş üzrə ekspert olan, həmin məhkəmə hakiminin iştirakı ilə keçirilməli və mütləq olaraq istintaq eksperimentinin məqsəd və məzmunu ekspertiza qarşısında qoyulan məsələlərin həlli ilə bilavasitə bağlı olmalıdır. Rəsmi olaraq yalnız göstərilən qaydaya əməl edən məhkəmə hakimi istintaq eksperimenti və ya ifadələrin yoxlanılmasında iştirak edərkən ekspert hüququnu saxlayır.

Əgər eksperiment rəy verildikdən sonra icraçı ekspert tərəfindən keçirilirsə və həmin rəylə bağlı yoxlanılması tələb olunan suallar meydana çıxarsa, müstəntiq istintaq eksperimenti prosesində mütəxəssisin və ekspertin hüquqlardan istifadə edərək sualların dairəsini genişləndirə bilər.

Müstəntiq eksperti istintaq eksperimenti və ya ifadələrin yoxlanılması işinə cəlb etməsi, məhkəmə-tibbi ekspertizanın təyin edilməsi barədə əvvəlcədən çıxarılmış qərar çərçivəsində həyata keçirilir. Bəzən, ekspertin istintaq eksperimentində iştirakı məsələsini müstəntiq bilavasitə ekspertizanın təyin edilməsi barədə çıxardığı qərarda göstərir. Bu halda, müstəntiqdən istintaq eksperimentinin və ya ifadələrin yoxlanılmasının keçirilməsi barədə qərarın əlavə prosessual rəsmiləşdirilməsi tələb olunmur. CPM-də (maddə 260, 262) bu prosessual hərəkətlərin keçirilməsi üçün mütləq surətdə qərar çıxarılması nəzərdə tutulmamışdır.

Ekspert istintaq eksperimentinə ekspertiza qurtardıqdan sonra cəlb edildikdə və ya əvvəllər işdə iştirak etməmiş məhkəmə hakimi cəlb edildikdə (məsələn, ekspert xəstə olduqda) və ya bundan əvvəl ekspertə məlum olmayan yeni şəraitin meydana çıxması ilə əlaqədar eksperiment keçirildikdə iş başqa hal alır. Ekspert kimi yeni şəxsin cəlb edilməsi, bununla bərabər iş şəraitinin dəyişməsi əlavə qərarın çıxarılmasını tələb edə bilər. Həmin qərarda yoxlanılacaq hallar və onların mümkünlüyünün təyin edilməsinə aid olan şərtlər müstəntiq tərəfindən tam və dəqiq göstərilməlidir.

Cinayət-prosessual qanun mütəxəssisin cəlb edilməsi haqda (əvvəllər işdə iştirak edib-etməməsindən asılı olmayaraq), qərarın hər-hansı prosessual qaydada rəsmiləşdirilməsini nəzərdə tutmamışdır. Müstəntiq belə hallarda öz qərarını sənədlə əsaslandırmalıdır. Eyni zamanda, istintaq hərəkətinin keçirilməsinə mütəxəssisin cəlb edilməsi haqda qərarın olmaması onun həmin prosesdə iştirakından imtina etməsinə əsas vermir.

AR CPM-də (maddə 336) məhkəmə tərəfindən istintaq eksperimentinin keçirilməsi barədə göstərilir: «Məhkəmə-baxışı zamanı istintaq eksperimenti cinayət prosesi tərəflərinin iştirakı ilə bu

məcəllədə müvafiq istintaq hərəkətlərinin məhkəməyədək icraatı üçün nəzərdə tutulmuş qaydalara riayət etməklə həyata keçirilir».

İbtidai istintaqda istintaq eksperimentinin aparılmasında iştirak edən ekspertin məhkəmə eksperimentində də iştirak edə bilməsi məsələsi qanunvericiliklə müəyyən edilməmişdir. Əgər məhkəmə həkimi məhkəmə iclasında ekspert qismində iştirak edirsə, prosessual vəziyyətinə görə o, ekspertizanın predmetinə aid olan sübutların tədqiqatında da iştirak edə bilər və məhkəmənin qərarı ilə istənilən məhkəmə hərəkətlərinin, o cümlədən istintaq eksperimentinin keçirilməsinə cəlb oluna bilər.

Məhkəmə-tibb ekspertinin istintaq eksperimentinə və ya ifadələrin yoxlanılmasına cəlb edilməsi üçün faktiki əsasları üç əsas qrupda birləşdirmək olar:

- istintaqın əvvəlki mərhələlərində alınmış məlumatların yoxlanılması, dəqiqləşdirilməsi (o cümlədən, məhkəmə-tibbi ekspertizanın nəticəsindən əldə olunan məlumatların) və onların iş üzrə digər sübutlarla tutuşdurulması;
- sonrakı istintaqın təşkili, həmçinin məhkəmə-tibbi ekspertizanın təyini və ya ekspert tədqiqatlarının korreksiyası üçün əlavə obyektiv məlumatların alınmasının vacibliyi;
- hadisə yeri şəraitinin və onun iştirakçılarının hərəkətlərinin yenidən canlandırılması olmadan, ekspertiza qarşısında qoyulan sualların həllinin və ekspert ehtimallarının yoxlanılmasının mümkünsüzlüyü.

Birinci halda məhkəmə həkimi yalnız məhkəmə-tibbi ekspertizanın predmetinə aid olan faktların yoxlanılması üçün cəlb edilir; məsələn, əvvəl keçirilmiş ekspertizanın nəticələri ilə iş üzrə digər sübutlar arasında ziddiyyətlər olduqda. Hər bir ziddiyyət istintaq eksperimentinin aparılmasını tələb etmir. Adətən iş hallarının və ekspert tədqiqatlarının obyektiv nəticələri arasında olan uyğunsuzluq aşkar görünür; məsələn, şübhəli şəxs zərərçəkmişə küt alətlə - çəkiclə zərbə yetirdiyini israr etdiyi halda, ekspertiza xəsarətin «çapıcı» alətlə yetirildiyini təyin edir.

İkinci halda - müstəntiqin və ya ekspertin öz fərziyyələrinin, nəticələrinin düzgünlüyünə şübhə etməsidir; məsələn: mülahizə

yürütməklə qoyulan suallar üzrə ekspertin yalnız ehtimalla cavab verməsi. Çoxillik təcrübə göstərir ki, ekspert rəyi, xüsusən də zədələrin əmələgəlmə mexanizmi ilə bağlı ekspert rəyinin nəticələri yenidən qurulmuş, real hadisə yerinin şəraitində olduğu kimi əyani şəkildə və inandırıcı surətdə başa düşülmür. Ekspert üçün də cinayətin baş verdiyi yerin şəraiti ilə onun verdiyi nəticələrin və iş üzrə digər sübutların uzlaşmasına nəzər yetirmək yararlı olardı.

CPM-nin müvafiq maddəsində yeni halların təyin edilməsi və yeni sübutların alınmasında ifadələrin yoxlanılması hərəkətinin məqsədinin, dəqiq məlum olan yerdə baş vermiş hadisə ilə bağlı ifadələrin düzgünlüyünü müəyyən etmək və ya dəqiqləşdirmək olduğu göstərilmişdir. Həmin maddədə də «ifadələrin yerində yoxlanılması zamanı iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşya və sənədlərin aşkar» edilə bilməsi də qeyd edilmişdir.

İstintaq eksperimentinə gəldikdə isə praktikada bu hərəkətə, təkcə cinayətin baş verdiyi şəraitin əyani və inandırıcı surətdə canlandırılması və xüsusi istintaq variantlarının yoxlanılması kimi deyil, həmçinin məhkəmə-tibbi ekspertizanın təyini və keçirilməsi üçün əlavə nəticəvi məlumatlar alınmasında zəruri prosessual vasitə kimi və ya ekspert tədqiqatlarında fasiləli bir mərhələ kimi baxılır. Ekspertizanın təyini və keçirilməsi üçün faktiki nəticəvi məlumatlar natamam, ziddiyyətli olduqda, işin təfsilatı aydın olmadıqda və məhkəmə-tibbi müayinədən keçiriləcək obyektlər qarşıya qoyulan sualların həlli üçün kifayət qədər məlumat daşımadıqda bu mərhələnin təşkilinin vacibliyi meydana çıxır. Məsələn, məhkəmə-tibb eksperti meyitin gizlədilməsinə, ayrı-ayrı hissələrə parçalanmasına şübhə yarandıqda meyitin və onun hissələrinin tapılması məqsədilə keçirilən ifadələrin yoxlanılması prosesinə, meyitin gizlədilmə və parçalanma üsul və şəraitini, qablaşdırma üsulunu, daşınma və meyit üzərində aparılan kriminal manipulyasiyaları dəqiqləşdirmək üçün isə istintaq eksperimentində iştirak etməyə cəlb edilə bilər. İstintaq eksperimenti gedişində və ya cinayət törədilən yerdə ifadələrin yoxlanılması üçün, zamanı bioloji izlərin axtarışı və götürülməsi, iztörənmə mexanizminin dəqiqləşdirilməsi aparıla bilər.

Meyitin müayinəsinə əsasən, həlli üçün qoyulan suallara qəti cavab vermək mümkün olmadıqda, xəsarətlərin yetirilmə mexanizmini (silahın tətbiq üsulunu, zədətörədici xarakteristikasını, zədələrin sayı və ardıcıllığını, zədətörədici qüvvənin tətbiq edilmə yerini və istiqamətini, zərərçəkənlə hücum edənin qarşılıqlı duruş vəziyyətini və s.) dəqiqləşdirmək məqsədilə məhkəmə-tibb ekspertinin istintaq eksperimentində iştirakı zəruridir. Alınmış nəticələr ekspert rəylərini əsaslandırmağa kömək edər və iztörənmə mexanizmini mücərrəd yox, işin konkret hallarına aid və daha qəti formada qiymətləndirilməsinə imkan verər.

İstintaq eksperimentinin gedişində eksperimental nümunələr almaqla, sonrakı müqayisəli tədqiqatlar üçün, ekspert tədqiqatlarının səmərəli təşkili üçün nəticəvi məlumatları dəqiqləşdirmək olar.

Bir sıra hallarda mütəxəssisin iştirakı ilə keçirilən istintaq eksperimenti ekspert qarşısında qoyulan sualların həlli üçün yeganə üsul olur. Məsələn, müayinəyə kəskin dəyişilmiş obyektlərin - parçalanmış, yandırılmış, çürümə dəyişikliklərinə məruz qalmış, tam skeletləşmiş meyitlərin təqdim olunması və müayinə anında həmin obyektlərin geridönməz dəyişikliklərə məruz qalması. Meyit tapılmadıqda və ya məhv edildikdə, xəsarət yetirən silahlar gizlədildikdə və ya məhv edildikdə, digər obyektlər haqda kifayət qədər məlumatlar olmadıqda və cinayətin uydurulmasına şübhə yarandığı hallarda oxşar vəziyyətlər meydana çıxır. Belə hallarda alınan ifadələrin istintaq eksperimenti hərəkəti ilə yoxlanılmasının nəticələrini əyani surətdə canlandırmaq və məhkəmə-tibbi məlumatlarla tutuşdurmaq lazımdır. Bu və ya digər kriminal hərəkətlərin və xəsarətlərin ehtimaledici nəticələri hadisə yerinin şəraitini və insanın konkret hərəkətləri (öz boynuna ilgəyi keçirməsini və ya intihar səhnəsini yaratmaq üçün zərərçəkmişin boynunda ilgəyi sıxmasını və s.) edə bilməsinin mümkünlüyünü qiymətləndirmək üçün travmanın əmələgəlmə mexanizmini nəzərə almaqla əsaslı fikir yürütmək olar.

Bəzən ifadələrin yoxlanılması və eksperiment, hadisə yerindəki əşyalarla xəsarətlərin əlaqəsini və müxtəlif xarici amillərin travmanın nəticəsinə təsirini müqayisəli qiymətləndirmək məqsədilə keçirilir.

İstintaq eksperimentinə məhkəmə həkiminin cəlb edilməsinin xüsusi səbəbi kimi dəfələrlə, uzun müddət ərzində törədilmiş silsilə cinayətlərin şəraitlərinin kompleks şəkildə təhlilini göstərmək olar. Bu cinayətlər çoxmərhələliyi, bir neçə ölümlərin və qurbanların olması, cinayətkarın qətli törədəcəyi üsulu əvvəlcədən hazırlayaraq planlaşdırması və şahid ifadələrinin qıtlığı ilə xarakterizə olunurlar. Hər bir halda ekspertiza məsələlərinin həllinə fərdi yanaşmaq tələb olunur. Son illər bu növ cinayətlərin sayı artmaqdadır. Onların özünəməxsusluğu, ictimai təhlükəliliyi və sübutlar sisteminin formalaşmasının mürəkkəbliyi istintaqı məhkəmə həkimlərinin köməyinə daha tez-tez müraciət etməyə məcbur edir. İstintaq ekspert qarşısında xəsarətlərin yetirilmə üsulunun oxşarlığı və uyğunsuzluğu barədə, cinayətin törədilmə üsulları barədə suallar qoyur. Belə cinayətlərdə seriyaların ayrı-ayrı epizodları üzrə ekspertizaları müxtəlif ekspertlər keçirdiyinə görə, müstəntiqin bütün materialları ümumiləşdirdiyi mərhələdə mütəxəssisin istintaq hərəkətlərində, o cümlədən əlavə və təkrarı ekspertizaların keçirilməsində iştirakı tələb olunur.

İstintaq eksperimenti və ifadələrin yoxlanılması hərəkətlərində məhkəmə-tibbi biliklərdən istifadə olunması tələb olunan bütün halları sadalamaq mümkün deyil. Cinayətin baş verdiyi şəraitin yenidən bərpasını tələb edən halların müxtəlifliyi, istintaq eksperimentində və ifadələrin yoxlanılmasında məhkəmə təbabəti sahəsində mütəxəssisin təcrübədə ən çox rast gəlinən cəlb edilmə səbəblərini yalnız ən ümumi formada cəmləşdirməyə imkan verir. Mütəxəssis qarşısında duran vəzifələr, işin ümumi elmi-metodik əsasları, istintaq hərəkətinin digər iştirakçıları ilə qarşılıqlı əlaqənin təşkili və taktikası, nəticələrin qiymətləndirilməsi prinsipləri çox mənada bir-birinə uyğun gəlir və istintaq hərəkətinin məqsədindən və qarşıya qoyulmuş sualların mahiyyətindən az dərəcədə asılıdır.

9.4. İstintaq eksperimentində və ifadələrin yoxlanılmasında məhkəmə-tibbi biliklərdən istifadə edilmənin nəzəri əsasları

Eksperiment, məhkəmə-tibb ekspertinin işində müşahidə, təsvir etmə, ölçmə, hesablama, tutuşdurma, müqayisə, ümumiləşdirmə və s. kimi təcrübi biliklərə söykənən ümumelmi metodlar arasında mühüm yer tutur. Eksperiment (latın dilində experimentum - sınaq, səriştə, təcrübə deməkdir) - obyektlərin xüsusiyyət və əlaqələrinin təcrübə yolu ilə, eləcə də, obyektin canlandırılması və ya onun analoqunun yaradılması yolu ilə aparılan müayinə metodudur. Eksperiment müayinə obyektinin öyrənilməsi, onun xüsusiyyətlərinin məqsəd-yönlü dəyişdirilməsi, təcrübi şəraitin korreksiyası və şəklinin dəyişdirilməsi (müxtəlif hala salınması) yolu ilə həyata keçirilir. Bununla da obyekt haqda yeni məlumatların alınmasına, onun xüsusiyyətləri haqda əldə olan məlumatların yoxlanılmasına, öyrənilən təzahürün xarakterizə olunduğu və onun digər obyekt və ya təzahürlərlə əlaqə və münasibətlərinin qanunauyğunluğunun yoxlanılmasına imkan yaranır.

Məhkəmə-tibbi təcrübədə eksperimental metoddan iki formada istifadə olunur - istintaq və ekspert eksperimenti.

Eksperimental biliklərin təcrübi xarakteri istintaq eksperimentini ekspertizanın keçirilməsi ilə yaxınlaşdırır. Mahiyyətinə görə istənilən ekspertizaya, daha dəqiq desək, onun son mərhələsinə - nəticənin tərtibinə şərti olaraq, hansısa nəzəri konkret şərait modelinin təsviri kimi və ya ekspertizanın predmeti qismində istintaq tərəfindən verilmiş şəraitlərin xəyali canlandırılması kimi baxmaq olar. Eksperiment haqda danışıldıqda hər şeydən əvvəl mütəxəssis-tədqiqatçının fəal məqsədyönlü praktiki fəaliyyəti nəzərdə tutulur. CPM 262-ci maddəsində göstərilənlərdən başqa, istintaq eksperimentindən bir çox digər prosessual hərəkətlərin gedişində - baxış zamanı, müqayisəli nümunələrin alınmasında, o cümlədən ekspertizaların aparılmasında da istifadə olunur. Ekspertizanın icrasında bu metod «ekspert eksperimenti» kimi xüsusi tərif almışdır.

İstintaq və ekspert eksperimentləri arasında prinsipial prosessual və metodoloji fərqlər mövcuddur. İstintaq eksperimentini müstəntiq keçirir və mütəxəssisin xüsusi biliyinə zərurət yarandıqda onu dəvət edir. Ekspertizanın keçirilməsində və ekspert eksperimentində xüsusi müayinələrin mütləq keçirilməsi nəzərdə tutulur və bu hərəkətin başlıca subyekti kimi ekspert iştirak edir. Göstərilənlərə müvafiq olaraq, həmin istintaq hərəkətlərinin keçirilməsinə hüquqi əsas, onların keçirilmə qaydaları və nəticələrinin tərtibatındakı fərqdir.

Metodiki nöqteyi-nəzərdən istintaq və ekspert eksperimentləri arasındakı fərq az əhəmiyyətli deyildir. Ekspert eksperimentini keçirmək üçün xüsusi kadr və maddi-texniki baza tələb olunur. Əsas məqsədi yeni və əlavə məlumatların alınması olan istintaq eksperimenti iş üzrə keçirilən məhkəmə-tibbi ekspertizanın bir çox müayinə metodlarından birinin ayrılmaz tərkib hissəsi və ya onun mərhələsidir. Ekspertiza eksperimentlərin keçirilməsi ilə qurtarmır. Eksperimentlərin nəticəsi müstəqil sübuti əhəmiyyət daşımır. Onlar ekspertin yekun nəticəsi üçün əsas kimi xidmət edir. Eksperimentlərin nəticələri keçirilən ekspertizanın çərçivəsində digər obyektiv məlumatlarla uzlaşdırılmalı və məntiqi qiymətləndirilməlidir.

İstintaq eksperimenti ilk növbədə artıq əvvəlcədən əldə edilmiş sübutların yoxlama və dəqiqləşdirmə üsuludur. Onun əhəmiyyəti yeni sübuti məlumatların müəyyən edilməsində ikincili rol oynayır. İstintaq eksperimentinin planlaşdırılmasında müstəqil və yeganə vasitə kimi bu məsələ, bir qayda olaraq qoyulmur. İstintaq edilən hadisənin iştirakçılarının hərəkətlərinin canlandırılması və hadisə yeri şəraitinin yenidən qurulması üzrə aparılan təcrübələr istintaq eksperimentinin başlıca məzmununu təşkil edir və çox hallarda bununla da kifayətlənir. Təcrübələrin nəticələri bütövlükdə istintaq hərəkətinin nəticəsini təşkil edir və sübut kimi müstəqil prosessual əhəmiyyət kəsb edir. İstintaq eksperimentinin gedişində alınmış nəticələrin qiymətləndirilməsi, çox vaxt əlavə istintaq hərəkətlərinin yerinə yetirilməsini, o cümlədən ekspertizanın keçirilməsini tələb edir. Bu halda istintaq eksperimentinin nəticələri iş üzrə sübutlar mənbəyi kimi öz əhəmiyyətini itirmir.

Adətən istintaq eksperimenti təbii təcrübə halında, real və ya ona maksimal yaxın şəraitdə və çox vaxt istintaqı aparılan cinayətin bilavasitə iştirakçılarının cəlb edilməsi ilə keçirilir. Cinayət alətləri təhlükəsizlik məqsədilə onların analoqu və ya maketləri ilə əvəz edilir. Eksperimentlər adətən, laboratoriya şəraitində ekspertiza gedişində yalnız ekspertin ixtiyarına rəsmi surətdə təqdim edilmiş iş materialları üzrə, həqiqi və ya güman edilən cinayət alətlərindən istifadə etməklə həyata keçirilir.

Ekspert eksperimenti vaxt baxımından uzadıla bilər və davamlı məlumatların alınması üçün dəfələrlə yenidən təkrarlana bilər. Onun nəticələri ekspert rəyinin müayinə hissəsinin tərkibinə daxil edilir. Ekspert rəyinin nəticələri istintaq eksperimenti ilə müqayisədə üstünlük təşkil edir. Eksperimental metodların hər ikisi (istintaq və ekspert eksperimenti) eyni suallar dairəsini həll etməsinə baxmayaraq, onlar qarşılıqlı surətdə bir-birini tamamlayır və cinayət mühakimə icraatında məsələlərin yerinə yetirilməsində xüsusi məhkəmə-tibbi biliklərin cəlb edilməsi ilə yüksək nəticələrin alınması təmin edilir.

Ekspertin istintaq eksperimentində iştirakından danışdıqda, onun (mütəxəssis) fəaliyyətinin predmetinə, obyektinə, məqsədinə, vəzifə və mahiyyətinə toxunan istintaq hərəkəti nəzəriyyəsinin bəzi ümumi konseptual məsələləri üzərində dayanmaq lazımdır.

Hər bir cinayət, o cümlədən şəxsiyyət əleyhinə törədilən cinayət özlüyündə mürəkkəb olur. Bəzən, işin bütün təfərrüatı ilə tanış olan müstəntiq cinayəti bütünlüklə qavramağa çətinlik çəkir. Bu hal iş üzrə məhdud məlumata malik olan ekspert üçün olduqca çətindir. Buna görə də hüququ və ona problematika ilə yaxın olan məhkəmə-tibbi ədəbiyyatda şərti olaraq cinayət əməlini planlaşdırma, hazırlıq, törətmə və gizlətmə mərhələlərinə bölmək qəbul edilmişdir. Bu mərhələləri, öz növbəsində, ardıcıllıqla bir-birini əvəz edən şərait kimi təsəvvür etmək olar (latın dilində situatio- şərait, vəziyyət, hal və s.).

Hər bir vəziyyət digərindən fərqlənir və vaxta, məkana, baş verdikləri yerin maddi mühitinə və yaxud funksiyasına (yəni konkret, çox vaxt geridönməz hadisələrlə, təzahürlərlə və iştirakçıların

hərəkətləri ilə) görə bir-birindən ayrılır. Şəraitlərin növbələnməsi müxtəlif şəraitlərdən asılıdır -- cinayət iştirakçılarının və ya digər şəxslərin müəyyən hərəkətlərindən, orqanizmdə gedən əhəmiyyətli dəyişikliklərdən (xəsarətlərin yetirilməsi, psixi reaksiya və s.), ətraf mühitin və cinayətin baş verdiyi yerin dəyişməsindən və s. asılıdır.

Göstərilən hadisələr barədə faktiki məlumatlar müxtəlif istintaq hərəkətləri (baxış, axtarış, dindirmə, ekspertizanın keçirilməsi və s.) keçirilməsi yolu ilə istintaqın gedişində əldə edilir.

İstintaq hərəkəti gedişində məhkəmə-tibb ekspertinin fəaliyyət predmetinə yalnız konkret məhkəmə-tibbi məzmuna malik və ekspert qarşısında qoyulan sualların həllinə istiqamətləndirilmiş şərait və hərəkətlər aiddir. O hərəkət və şəraitlər ki, onların təsviri üçün xüsusi məhkəmə-tibbi biliklər tələb olunur. Mütəxəssis onlar arasındakı vaxt, məkan, maddi və ya funksional əlaqəni yaratmaqda, ayrı-ayrı tibbi faktlar və təhlil edilən şəraitlərin tərkib hissəsi olan vəziyyətlərin əhəmiyyətini təyin etməkdə, istintaqı aparılan cinayət barədə bütün məhkəmə tibbi məlumatı tutuşdurmaqda və razılaşdırmaqda müstəntiqə kömək etməlidir.

Məhkəmə-tibbi baxımından təhlil olunan şərait strukturunu tərkib hissəsi haqda məlumatları (əməliyyat, istintaq və ya ekspert) aşağıda göstərilənlər təşkil edir:

- zədə törədən faktorların xüsusiyyəti haqda - cinayətkarın istifadə etdiyi silahlar, əşyalar, maddələr, digər maddi təzahürlər və proseslər haqda;
- xəsarətlərin törənmə mexanizmi haqda;
- zərərçəkənin vəziyyəti və orqanizmində baş verən dəyişikliklər haqda - sağlamlıq vəziyyəti, keçirilmiş xəstəliklər və onların xarakteri, travmalar, inkişaf qüsurları, xüsusi fizioloji vəziyyət, eləcə də göstərilən travma nəticəsində funksiyaların pozulma xarakteri və ardıcıllığı haqda;
- Zədətörədici faktora xarici mühitin təsiri haqda - zədənin törənmə vaxtı (müddəti), hadisə yerinin maddi təchizatı, təbiət və texnoloji amillər haqda;

İstintaq hərəkətində ekspert iştirakının məqsədi göstərilən məlumatlardan istifadə etməklə, onu digərləri ilə, o cümlədən artıq

müəyyən edilmiş və şübhə doğurmayan sübutlarla tutuşdurmaqla, müstəntiqə xüsusi istintaq variantlarını təhlil etməkdə yaxud, qısaca dürüst ifadə etməkdə köməkdən ibarətdir. Mütəxəssis istintaq hərəkətində iştirakının və səmərəli fəaliyyətinin təşkili barədə müstəntiqə məsləhət verir. Xüsusi texniki vasitələrdən istifadə edilməsində, konkret şəraitin yenidən qurulmasında, yoxlanılması tələb olunan halların eksperimental təhlilində və mərhələli təsbit edilməsində ona yardım edir. İstintaqın konkret variantı olmadıqda, ekspertin vəzifəsi cinayətin şəraitini proqnozlaşdırmaqdan ibarətdir.

Hər bir predmet və problem öz metodunu tələb edir. Bu mənada istintaq eksperimenti problematikasına aid olan şəraitin təhlilindən və belə təhlilin bir mərhələsi olan eksperimental (istintaq) modelləşdirilməsindən söhbət gedir. Son illərdə kriminalistik və məhkəmə-tibbi ədəbiyyatlarda bu məsələyə xüsusi diqqət yetirilir.

Cinayət hadisəsinin baş vermə şəraitinin təhlilinə müxtəlif prosessual hərəkətlərin, o cümlədən istintaq eksperimenti və məhkəmə-tibbi şərait ekspertizasının icrası zamanı xüsusi məsələlərin həllində xüsusi məhkəmə-tibbi metodika kimi baxmaq lazımdır.

İstintaq eksperimentinin keçirilməsində hadisənin baş vermə şəraitinin təhlili mütəxəssis və ya ekspertin tədqiqat işlərinin ənənəvi növlərindən, o cümlədən şərait ekspertizasından metodoloji olaraq fərqlənir. Fərqlənmə, ekspertiza obyektlərinin ilkin görünüşündə onların arasında bilavasitə əlaqənin tam və ya hissəvi olmasıdır. Belə ki, bir qayda olaraq, istintaq eksperimenti keçirilən ana qədər artıq hadisə yerinə, meyitə, maddi sübutlara baxış və onların müayinəsi keçirilmiş olur. Buna görə də, bütün şəraitin quruluşunun əsasını ekspert və ya istintaq yolu ilə əvvəlcədən alınmış, o cümlədən yoxlanılacaq məlumatlar təşkil edir. Bu informasiyanı təşkil edən dörd əsas barədə yuxarıda qeyd edilmişdir. Bunlara zədətörədici amilin xüsusiyyətləri, onun daxili və xarici təsir şəraiti və ekspert yolu ilə müəyyən edilmiş xəsarətlərin törənmə mexanizmi aiddir.

Hər bir prosessual canlandırılan şəraitə, müxtəlif xarakterli və bir sistemin tərkib hissəsi olan ayrı-ayrı elementlər arasında, mürəkkəb çoxistiqamətli və bir biri ilə əlaqəli məlumat sisteminin kompleksi kimi baxmaq lazımdır. Şəraitin öyrənilməsi müstəntiq və

mütəxəssisdən tədqiq ediləcək halları müəyyən edən təsirlərin birlikdə xarakter və parametrlərini qeydə almağı tələb edir.

Müstəntiq istintaq eksperimentinin keçirilməsinə qərar verməzdən əvvəl, təxirəsalınmaz istintaq hərəkətləri çərçivəsində və məhkəmə-tibbi ekspertizanın gedişində sübutların toplanılması və yoxlanılması üzrə müəyyən işlər (baxış, dindirmə və s.) görür. Toplanmış məlumatların ilkin ümumiləşdirilməsi nəticəsində bəzi ümumi və xüsusi fərziyyələr formalaşır. Bu fərziyyələrin öz növbəsində yoxlanılması və dəqiqləşdirilməsi tələb olunur. Həmin fərziyyələrə misal olaraq xüsusi istintaq variantlarını, hadisə iştirakçıları və şahidlərinin ifadələrini, ekspert rəyinin ehtimal və alternativ formada şərh edilmiş müddəalarını göstərmək olar. Ekspertin rəyində iş üzrə sübut predmetinə daxil olan suallara qəti və birmənalı cavab verirlərsə, adətən ekspert rəyi birbaşa sübut növü kimi qəbul olunur və heç bir əlavə istintaq yoxlanılmasına zərurət olmur. Mübahisəli, ziddiyyətli və qeyri-müəyyən məlumatlar toplusunda istintaq eksperimentinin predmeti kimi, hər şeydən əvvəl, iş üzrə sübutlar sistemində çatışmayan və ya, əksinə, ümumi sxemdən kənara çıxan daha əhəmiyyətli faktların olması vacibdir.

Tədqiqatı aparılan şəraitin ekspert (mütəxəssis) tərəfindən öyrənilmə metodu, müxtəlif dəyişkən amillərdən təşkil olunmuş istənilən digər sistemin təhlil metodikasından əhəmiyyətli dərəcədə fərqlənmir. Metodika, təhlil edilən şəraiti təşkil edən elementlərə bölür və onların hər birinin əhəmiyyətini müəyyənləşdirir. Elementlərə bölgü və onların ayrılıqda qiymətləndirilməsi nisbətini axtarmaqda məqsəd həmin elementlərin birləşməsi əsasında şəraitin modelləşdirilməsidir.

Məhkəmə-tibb eksperti (mütəxəssis) üçün istintaq eksperimentinin obyekti barədə məlumat mənbəyi onun fəaliyyət predmetinə aid olan cinayət işi materiallarıdır. Məlumatlar əvvəlcədən müayinə olunmuş meyitlərə, canlı şəxslərə, maddi sübutlara aid olub, əyani əlavələrlə istintaq və məhkəmə hərəkətləri protokollarında, ekspert rəylərində və tibbi sənədlərdə təsbit olunur. İstintaq eksperimentində maddi sübutlar kimi cinayət işinə əlavə edilmiş əşyalardan (hadisə yerində olan şəxsin paltarı, travma aləti,

götürülmüş iz və nümunələr və s.), onların surətindən, modelindən, analoqundan, maketindən, keçirilmiş tədqiqat obyektlərindən (travmatik təsir izləri olan anatomik preparatlardan, eksperimental zədələrdən), ayrı-ayrı əşyalardan və bütövlükdə hadisə yerinin şəraitindən istifadə edilə bilər. Müstəntiqin (məhkəmənin) qərarı üzrə istintaq eksperimentində iştirak etmək üçün istintaq edilən hadisənin keçmiş iştirakçıları, şahidləri və istintaq eksperimenti gedişində statist rolunu ifa edən şəxslər cəlb edilə bilər.

Yuxarıda qeyd olunanlardan göründüyü kimi, bir çox hallarda istintaq eksperimentinin obyektləri şərait ekspertizasının obyektləri ilə uyğun gəlirlər. Lakin, məhkəmə həkimi istintaq hərəkətində mütəxəssis kimi iştirak edirsə, sadalanan obyektlərin dairəsi müstəntiq tərəfindən məhdudlaşdırıla bilər. Bu halda mütəxəssis ona təqdim edilən məlumatların həcmini özü müəyyənləşdirir.

İstintaq eksperimentinin məqsədlərindən birinin, iş üçün əhəmiyyəti olan faktiki məlumatları yoxlamaqla onlar arasındakı ziddiyyətləri aradan qaldırmaq olmasına baxmayaraq, bu hal özü-özlüyündə müəyyən dərəcədə ziddiyyətlidir. Eksperimentdə təhlil olunan hər bir şəraitin özünəməxsus xüsusiyyəti, müxtəlif mənbələrdən (əməliyyat, istintaq, ekspert) alınmış məlumatların bir yerdə birləşməsidir. Bu məlumatların alınma üsulları, məzmunu və etibarlılıq dərəcələri müxtəlifdir. İstintaq eksperimentində cinayət hadisəsi iştirakçılarının və şahidlərinin subyektiv, çox vaxt dəqiq olmayan və bəzən qəsdən təhrif olunmuş ifadələri nəzərə alındığı kimi, doğru və yaxud müəyyən ehtimalla müəyyən olunmuş, lakin, əksər hallarda obyektiv və elmi təsdiqlənmiş faktlar da nəzərə alınır.

Cinayət şəraitinin yenidən qurulması üzrə eksperimenti aşağıdakı kimi təsəvvür etmək olar: bir tərəfdən cinayət iştirakçıları və şahidlərin az və ya çox ehtimalla natamam qeyri-müəyyən ifadələri, bunlara uyğun müstəntiqin (məhkəmənin) xüsusi versiyaları və ekspertin iş fərziyyələri; digər tərəfdən - işin sübuta yetirilmiş və şübhə doğurmayan faktiki hallar ilə uzlaşdırılır. İstintaq eksperimentinin gedişində müstəntiq mütəxəssisin iştirakı ilə variantların təcrübi yoxlanılması əsasında bu və ya digər ifadələrin,

ekspert rəyinin versiyalarının və müddəalarının iş üzrə digər sübutlarla nə dərəcədə uyğunlaşması qiymətləndirilir.

İstintaq eksperimentinin mövcud ziddiyyətləri nəzərə alınmaqla sübutların yoxlanılması üsulu kimi, əldə edilən eksperimental məlumatların müəyyənləşdirilməsində və qiymətləndirilməsində subyektiv halların şişirdilməsi riski həmişə özünü büruzə verir. Bu hal istintaq hərəkətinin özünün müəyyən dərəcədə qeyri-dəqiqliyi ilə xarakterizə olunur.

Mütəxəssisin istənilən istintaq eksperimentində iş metodu kimi şərait təhlilini üç mərhələyə bölmək olar:

1) mövcud istintaq-ekspert şəraitinin ilkin öyrənilməsi;
2) eksperimental modelləşdirmə;
3) eksperiment nəticələrinin qiymətləndirilməsi, şərait məsələlərinin həlli və ya şəraitin proqnozlaşdırılması (istintaq variantlarının və ya ekspert fərziyyələrinin formalaşması).

Birinci mərhələ araşdırılan şərait haqqında düzgün və hipotezli məlumatların nizamla, onun tərkibi olan elementlərə ayrılmasından və ayrı-ayrı faktlar, epizodlar, hərəkətlər və məlumatların hissəvi öyrənilməsi, sonradan onların ümumiləşdirilməsi versiyalarından ibarətdir.

Növbəti mərhələdə artıq məlum olan və şübhə doğurmayan halların yenidən qurulması həyata keçirilir və tədqiqat obyektində (və ya analoquna) məqsədyönlü təcrübələr aparılır. Eksperimentdə obyektin süni təcrid olunması, xarakteristikasının, onun mövcud olma şərtlərinin və digər obyektlərlə əlaqəsinin birləşdirilməsi həyata keçirilir. Cinayət hadisəsinin baş vermə şəraitinin təhlilinin ikinci (eksperimental) mərhələsinin mahiyyəti bundan ibarətdir.

Məsələn, istintaq eksperimenti şəraitində müəyyən məsafədən və güman edilən şəraitdən açılan atəşlə odlu silah yarasının yetirilməsi imkanını yoxladıqda müstəntiq və (ya) ekspert tədqiq olunmuş silah və mərmilərin xarakteristikasını, atəşin açıldığı yeri, atəş açanla zərərçəkənin qarşılıqlı vəziyyətini və pozasını, aşkar olunmuş xəsarətlərin xüsusiyyətini, konkret hadisə yeri mühitini, güllənin uçuş yolunda maneənin olub-olmamasını, xarici rikoşetin və mərminin parçalanmasının mümkünlüyünü və digər amilləri nəzərə almalıdır.

Sonra istintaq hərəkətinin ikinci mərhələsində həqiqi müəyyən edilmiş və yaxud istintaqla yoxlanmış məlumatları nəzərə almaqla əvvəlcədən göstərilmiş müxtəlif atəş şəraitində silahdan eksperimental atəşlər açılır.

Bu mərhələdə çox vaxt maddi sübutların, cinayət alətinin və cinayət qəsdi obyektlərinin əslindən yox, onların təbii bənzərindən və yaxud xüsusi hazırlanmış surətlərindən istifadə edilir. Silahlar özünün tam və ya hissəvi maketləri ilə, real iştirakçılar isə statistlərlə əvəz olunur. Hadisə yeri mühitinin yenidən qurulması da eksperimental qaydada, işdə olan materiallar və s. əsasında həyata keçirilir.

Tədqiqat obyektinin təbii və ya süni bənzərləri (surət, maket və s.) ilə dəyişdirilməsi zamanı yaranan nəzəri və təcrübi tərtiblər modelləşdirilməlidir. Şərait təhlilinin bu mərhələsi eksperimental modelləşmə kimi ifadə edilə bilər.

Təcrübədə çox vaxt təbii model eksperimentləri keçirilir, yəni travma şəraitinin canlandırılması real hadisə mühitində və ya ona maksimal yaxın mühitdə aparılır. Hal hazırda aparılan cinayətin ayrı-ayrı şərait hallarının, o cümlədən travma mexanizminin stendli (xüsusi yer) və kompyuter vasitəsilə yenidən qurulması imkanı da vardır. Bu metod uzaq xarici ölkələrdə geniş tətbiq olunur. Ölkəmizdə istintaq orqanları və ekspert müəssisələrində kifayət qədər maddı-texniki təminat olmadığından bu metoddan hələlik istifadə olunmur.

Eksperimentdə alınmış empirik vəziyyət modeli öz quruluşuna görə təhlil olunan şəraitin, o cümlədən yoxlama və dəqiqləşdirmə tələb edən şəraitlərin mühit və şərait elementlərinin yığımından ibarətdir. Əksər hallarda istintaq eksperimenti gedişində baş vermiş həqiqi şəraitin nə eynisini və onun tam əksini yaratmaq mümkün deyildir. Hadisə şəraitinin təcrübədə yalnız və ya çox dərəcədə oxşarlığını yaratmaq mümkündür. Eksperimental qaydada yenidən bərpa edilmiş şərait heç vaxt real şəraitin eynisi olmayacaqdır. Bu onunla əlaqədardır ki, istintaq eksperimentinin iştirakçıları tərəfindən şəraitin subyektiv qavranılması və qiymətləndirilməsi ilə bağlı çoxsaylı amilləri nəzərə almaq qeyri mümkündür.

Empirik şərait modeli bazasında müstəntiq və ekspert bütün toplanmış materialları nəzərə almaqla öz ehtimal və fərziyyələrini, yaxud cinayət iştirakçıları və şahidlərinin ifadələrini yoxlayırlar, təsdiq və ya inkar edirlər. Çoxamilli təcrübi təhlil və eksperiment gedişində dərhal baş verən bir neçə dəyişkənliyi nəzərə almaqla onlardan istifadə edərək, həmin dəyişkənliyin elə kombinasiyası tapılır ki, o, əvvəlcədən faktlarla sübuta yetirilmiş, həqiqi baş vermiş şəraitə yüksək dərəcədə daha çox uyğunluğunu təmin etmiş olsun. Bu şərait təhlilinin üçüncü - son mərhələsidir. Bütün, o cümlədən eksperimentdə yenidən alınmış məlumatların sintezi, yəni konkret şərait məsələsinin həllidir. Nadir hallarda istintaqda tədqiq olunan hadisə barədə konkret variant olmadıqda və yaxud eksperiment gedişində variantlardan heç biri öz təsdiqini tapmadıqda, şərait təhlilinin son mərhələsi proqnozlaşdırma xarakteri daşıyır.

Eksperimentlər qurtardıqdan sonra, müstəntiq istintaq hərəkətinin gedişi və nəticəsi ətraflı təsbit olunmaqla, protokol tərtib edir. Mütəxəssis ona lazımi məsləhətlər verərək kömək göstərir. Əgər məhkəmə həkimi istintaq hərəkətlərində və eyni vaxtda iş üzrə ekspert qismində iştirak etmişdirsə, o, alınmış nəticələri nəzərə almaqla tədqiqatını qurtarır. Əvvəldən qarşısında qoyulmuş suallar haqda öz fikrini ekspertizanın nəticə hissəsində qısa və dürüst ifadə edir və ya müstəntiqin qərarına əsasən əlavə məhkəmə-tibbi ekspertiza keçirir. Rəydə bütün faktiki material və mütəxəssisin iş materiallarının kompleks şərait təhlilinə əsaslanmış mürəkkəb dərk etmə fəaliyyətinin əsas nəticəvi və proqnostik mülahizələri öz əksini tapır. Beləliklə, istintaq eksperimenti mütəxəssis (ekspert) mülahizələri və müstəntiqin yoxlanıldığı variantların nə dərəcədə düzgün olması və eksperimentdə alınmış məlumatların cinayətin real şəraitinə uyğunluğunun mümkün olması barədə nəticələri ilə yekunlaşır. Mahiyyət etibarı ilə, bu eksperimental faktların sübutedici əhəmiyyətinin prosessual tanınması deməkdir.

Ekspert nəticələrindən istifadə etməklə müstəntiq istintaq edilən cinayət şəraitinin nəzəri modeli kimi meydana çıxan yeni variantlar tərtib edir. Öz növbəsində həmin variantlar istintaq hərəkətləri, o cümlədən eksperiment keçirilməsi yolu ilə yoxlanıla bilərlər.

Sxem №7 İstintaq eksperimenti şəraitinin təhlili mərhələləri:



Məlumat mövqeyindən istintaq prosesində meydana çıxan istənilən şəraitə istintaq-əməliyyat və ekspert məlumatlarının məcmusu kimi baxmaq olar. Həmin məlumatların qəbul edilmiş ardıcıllıqla keçirilmiş təhlili və müqayisəli nəticəsi və bunun əsasında istintaq versiyalarının və ekspert nəticələrinin formalaşması ya da istintaq və ekspert nəticələri arasında ziddiyyətlərin təsdiq edilməsidir (sxem №8). Sonuncu halda, aşkar edilmiş ziddiyyətləri aradan qaldırmaq məqsədilə yeni prosessual hərəkətlər -- ekspertizalar, istintaq eksperimenti və s. aparılır ki, bu da yeni məlumatların alınmasına imkan yaradır, məsələn, vəziyyətin eksperimental modelini, hansı ki, öz növbəsində yeni istintaq variantları əsasını təşkil edə bilər.

Sxem № 8. Vəziyyət təhlili və istintaq hərəkəti keçirilməsinin fəaliyyət alqoritmi.



Vəziyyət təhlilinin göstərilən ardıcıllığı, tədqiq olunan vəziyyətin bütün əsas və ya daha əhəmiyyətli elementləri istintaq tərəfindən təyin edildiyi halda həyata keçirilir. Eyni vaxtda, hadisələrin necə inkişaf etməsi barədə müstəntiqdə tam məlumat olmadığı hallarda vəziyyətin modelləşdirilməsinə, bilavasitə yenidən qurulmasına başlamaq olar, hansı ki, sonradan şəraiti təşkil edən elementlər arasındakı qarşılıqlı əlaqəni müəyyən etmək və onun xarakterini təyin etmək üçün hərtərəfli təhlilə məruz qalır.

Beləliklə, şərait təhlilinin əsas məzmunu bir sistem kimi təhqiq edilən şərait əlaqələrini təyin etməkdən ibarətdir.

İş üçün əhəmiyyət kəsb edən halların eksperimental canlandırılması yolu ilə yoxlanılması və dəqiqləşdirilməsi mümkünlüyünün mühüm nəzəri ilkin şərti dərketmənin ***analogiya***

(yunanca analogiya -- oxşarlıq, uyğunluq, mütənasiblik deməkdir) kimi metodunun tətbiq edilməsidir. İstintaq eksperimenti xüsusi məhkəmə-tibbi biliklərin tətbiq edildiyi elə bir sahəsidir ki, analogiya dərketmənin aktual və bəzən də aparıcı metodu olur (mülahizələrin arqumentləşdirmə üsulu kimi yox). Müstəntiq və mütəxəssis, hər biri öz səlahiyyəti çərçivəsində, əvvəlcə modelləşdirilən hadisənin (hadisə yeri mühitinin, cinayət alətinin, onun tətbiq olunma üsulunun və s.) və həqiqətən baş vermiş hadisənin analogiyasının yaradılması mümkünlüyünə prinsipial imkan yaratmalıdır.

Analogiya -- münasibətlərin bərabərliyi, oxşarlığı, müqayisə yolu ilə dərkedilməsidir. Analogiya dedikdə müqayisə edilən vəziyyətlər (faktlar, şəraitlər, hərəkətlər, predmetlər) arasında elə obyektiv mövcud münasibət başa düşülür ki, onlar bir vəziyyəti öyrənərkən əldə edilmiş məlumatın xəyalən digər vəziyyətə aid edilməsinə imkan verir (məsələn, hadisə yeri mühitinin eksperimental modelindən hadisənin həqiqətən baş verdiyi yerə və baş verilməsinə). Analogiya həmişə rəyin ehtimalla tərtibinə əsas verir. Müqayisə edilən vəziyyətlərin (predmetlərin, əlamətlərin) oxşarlığı və ya fərqini deyil, bu vəziyyəti təşkil edən halların ayrı-ayrı əlamət və ya xarakteristikasının uyğunluğunu və ya fərqini göstərir.

Məntiqi olaraq məlumdur ki, yalnız oxşar, heç olmazsa bir və ya bir neçə eyni xüsusiyyəti olan təzahür və vəziyyətləri müqayisə etməyin mənası vardır. Analogiya üzrə bu cur müqayisənin mütləq şərti obyektlərin (vəziyyətlərin) müəyyən əlamətlər toplusuna görə oxşar olmalarıdır. Məsələn; xəsarət yetirilən anda zərərçəkənlə hücum edənin qarşılıqlı duruş vəziyyətlərini təyin etmək lazım gəldikdə (çox vaxt istintaq eksperimentinin keçirilməsinə başlıca səbəbdir), eksperimentdə alınmış məlumatlar real kriminal vəziyyətə o halda aid edilə bilər ki, əgər yenidən qurulmuş və əsil həqiqi vəziyyətlər öz aralarında digər mahiyyətli əlamətlər yığımı - ətraf mühitin xüsusiyyətləri, cinayət və eksperiment iştirakçılarının antropometrik göstəriciləri, real və güman edilən xəsarətlərin qarşılıqlı yerləşməsi və əlamətləri, istifadə olunan silahların və onların analoqlarının xarakteristikası üzrə oxşar olsunlar.

Uyğun əlamətlər müqayisə meyarları rolunda çıxış edir. Mütəxəssis istintaq eksperimentinə hazırlıq və onun keçirilməsi gedişində hər şeydən əvvəl müstəntiqə müqayisə meyarlarının adekvatlılığını, yəni iki müqayisə olunan vəziyyətin - modelləşdirilən və real vəziyyətin mütləq uyğun olmasını təmin etməkdə kömək göstərməlidir.

Müqayisə meyarları istintaq eksperimentinin planlaşdırılmasının gedişində verilir. Bunlar eksperimentin icrasında bir növ məhdudiyyət, mütləq şərt kimi çıxış edir və eksperimentdə alınmış məlumatların düzgün sayıla biləcəyi hüdudu təyin edir. Bir qayda olaraq müqayisə meyarları kimi istintaq tərəfindən əvvəllər sübut edilmiş faktlar, yaxud ekspertiza yolu ilə təyin olunmuş, şübhə doğurmayan və obyektiv məlumatlar çıxış edir. Müstəntiqdə və ekspertdə etibarlı ilkin məlumatların olmadığı təqdirdə müqayisə meyarları sərbəst surətdə şahid və iştirakçıların ifadələri, daha ehtimallı istintaq variantları və ekspert fərziyyələri əsasında müəyyən edilir. Məsələn; istintaq eksperimenti şəraitində şahid və təqsirləndirilən şəxsin təsvir etdikləri hadisəni həqiqətən görüb görmədiklərini yoxladıqda, ilkin məlumatlar kimi (və ya müqayisə meyarı kimi) işdə olan materiallardan asılı olaraq müşahidə olunan obyektin özünün xüsusiyyətləri, onun işıqlandırılma dərəcəsi və xarakteri, ifadəsi yoxlanılan şəxsin görmə qabiliyyəti, obyektlə ətraf mühit əşyalarının qarşılıqlı vəziyyəti və digər hallar nəzərə alınır.

Ən yaxşı (yüksək) (minimal) halda canlandırılan vəziyyət modeli istintaq olunan cinayət barədəki istintaq, əməliyyat və ekspert məlumatlarının hamısını ya da çox hissəsini əhatə etməlidir. İmkan daxilində öyrənilən hadisənin surətinə uyğun olmalıdır. Lakin praktik olaraq buna nail olmaq mümkün deyil və çox vaxt da buna lüzum olmur. Eksperimentin gedişində vəziyyəti bütün mürəkkəbliyi, onun çoxlu sayda tərkib elementləri və xarakteristikaları ilə yenidən qurmağa çalışma cəhdi, əsassız və hətta səhv nəticələr alınması ehtimalını artırır. Vəziyyət təhlilinə nə qədər çox dəyişkən amillər daxil edilirsə, istintaq eksperimenti nəticələri də bir o qədər az etibarlı olacaqdır. İstintaq eksperimentini planlaşdırarkən təhlil edilən vəziyyətin inkişafında daha çox ümumilik, qanunauyğunluq,

çoxfaktorlu informasiya sistemi kimi onun əsas xarakteristikalarını aşkar etmək zərurəti yaranır. Oxşarlıq üzrə müqayisə o vaxt həqiqətə yaxın nəticə verə bilər ki, o, mahiyyətli tərəflərin bilik və qeydiyyatına və müqayisə edilən parametrlərinin qanunauyğun əlaqələrinə əsaslanmış olsun. Məsələn; şəxsin müəyyən bir məsafəni məhdud müddətdə qət edə bilməsinin yoxlanılması məqsədilə keçirilən istintaq eksperimentində həmin şəxsin fiziki inkişafı, sağlamlıq vəziyyəti, yaşı, cinsi, xüsusi fiziki hazırlığı və digər dəyişkən faktorları yoxlanıldığı halda, onun görmə qabiliyyətinə, bəzi digər orqanlarının vəziyyətinə o qədər də fikir verilmir. Bunlar əlavə faktorlar olub, vəziyyətin inkişafında əhəmiyyət kəsb etmirlər. Bu faktorlar kənar edilməli və yaxud onların təsiri minimal dərəcəyə endirilməlidir.

İstintaq eksperimenti şəraitində vəziyyətin modelləşdirməsinin mühüm aspekti, sadələşdirmənin yolverilən sərhədinin təyini məsələsidir. Ekspert və istintaq təcrübə-sində rast gəlinən vəziyyətlərin və mütəxəssis fəaliyyəti mövzusu olan məsələlərin müxtəlifliyi, hər hansı bir istintaq eksperimentinin keçirilməsinə uyğun şəraitin seçilməsi üçün eyni tipli qaydaların hazırlanmasına imkan vermir. Mütəxəssisin iş materiallarını, əvvəllər aparılmış ekspertiza nəticələrini bilməsi, istintaq variantının əsasını təşkil edən və yoxlanılmalı hər bir faktın ilkin ətraflı öyrənilməsi, mütəxəssisin peşəkarlıq qabiliyyəti və istintaq hərəkətlərində iştirak təcrübəsi, bəzən də mütəxəssis və müstəntiq intuisiyası həlledici əhəmiyyət kəsb edir.

Sadələşdirmə məntiqi ilkin məlumatları qaydaya salmaq məqsədi daşımalıdır. Bu da öz növbəsində vəziyyətin daha mühüm xarakteristikalarının qeydiyyatını təmin etməli, onların təsadüfi, xüsusən də qəsdən diqqətsiz qalmalarına yol verməməlidir. İstintaq eksperimentini məqsədə çatdıran belə modellərə, iş üçün əhəmiyyəti olan məlumatların yoxlanılmasında və dəqiqləşdirilməsində vacib vasitə kimi baxmaq olar. Bu cür modellər daha asan təsvir olunur, düzəldilir və təhlil edilir.

Həddən artıq sadələşdirilmiş, vəziyyətin əsas, həlledici inkişaf amillərini nəzərə almayan, ideallaşdırılmış vəziyyət tərtibindən

çəkinmək lazımdır. Əks halda model kobud, həqiqi şəkildən uzaq, onun təcrübi öyrənilməsi əsasında alınmış nəticələr isə düzgün olmayacaqdır.

İstintaq eksperimenti gedişində hər bir şəraitə, hətta mahiyyətli olanlara belə bilavasitə nəzarət etmək mümkün olmur. Məsələn, insanın hər hansı bir hərəkəti yerinə yetirmək qabiliyyətini yoxladıqda, onun vəziyyətinə alkoqol sərxoşluğunun necə təsir etdiyini qəti, obyektiv təyin etmək mümkün deyildir. Bu hallarda statistik faktiki xarakter daşıyan, təbabətə məlum olan və ekspert təcrübəsi ilə təsdiqlənən qanunauyğunluqlara əsaslanmaq lazım gəlir. Belə təsadüfi faktorların təsirindən insanın fiziki vəziyyətinin və davranışının necə və hansı dərəcədə dəyişəcəyini bir mənalı demək mümkün deyildir.

Eksperimental qaydada yoxlamaya və dəqiqləşdirilməyə aid olan fakt və hadisələr məqsədyönlü funksiyalar kimi müəyyən edilə bilər. Onlar bütünlüklə təhlil olunan vəziyyətə və ya istintaq olunan cinayətə əlavə kəmiyyət və keyfiyyət xarakteristikası verirlər.

Hansı məlumatların yoxlanmasının vacibliyindən və hansıların isə istintaq hərəkəti keçirilməsinin mütləq şərti kimi xidmət etməsindən asılı olaraq, müqayisə meyarları və məqsədyönlü funksiyalar yerlərini dəyişə bilər. Buna müvafiq olaraq təcrübələrin taktikası və qoyulma üsulları da dəyişir. Məsələn, zərərçəkənin deşici-kəsici xəsarət alması hadisəsinin yenidən qurulmasına dair istintaq eksperimenti keçirilərkən, adətən hücum edənlə zərərçəkənin boy hündürlüklərinin qarşılıqlı münasibəti barədə göstəricilər travmanın törənmə mexanizmi və «özünün bıçağa batması» suallarının həllində ilkin məlumatları təşkil edir. İstintaqla, cinayətkar təyin olunmadıqda və eyni vaxtda zərərçəkənin yara aldığı şərait barədə ifadəsinin gerçəkliyinə şübhə yarandıqda eksperimentdə statistlərin iştirakı ilə, cinayətkarın boyunu təxmini proqnozlaşdırmaq mümkündür (cinayət iştirakçılarının qarşılıqlı yerləşməsi, zədə alətinin hücum edən şəxsin əlində vəziyyəti və yara kanalının istiqaməti haqda zərərçəkənin ifadələrinin uzlaşdırılması əsasında). Cinayətkarın boyunun hündürlüyünün müəyyənləşdirilməsi istintaq eksperimentinin məqsədyönlü funksiyasının mənasını kəsb edəcəkdir.

Müstəntiqin və mütəxəssisin vəzifəsi yoxlanılması tələb olunan və düzgün müəyyən edilmiş faktiki məlumatları süni surətdə qurmadan, sıxışdırmadan, istintaq eksperimental modelləşdirmə yolu ilə müqayisə meyarlarının və məqsədyönlü funksiyaların, ilkin və tələb olunan parametrlərin uyğunlaşdırılmasını, modelə daxil edilən məhdudiyyətin və dəqiqləşdirilməsi tələb edilən xarakteristikalarının uzlaşdırılmasını əldə etməkdən ibarətdir. Bunun üçün modelləşdirilən vəziyyətin korreksiyası aparılır. Zərurət yarandıqda onun strukturuna əlavə əlaqələr daxil edilir. Əksinə bəzi dəyişkənliklər təcrid edilir, təcrübələr təkrarlanır, nəzərə alınan amillər və əlaqələr artırılır və ya azaldılır. Bununla da təhlil edilən məlumatın böyük həcmdə seçilməsinə doğru istiqamət götürülür və istintaq tərəfindən qarşıya qoyulmuş vəzifələrin həlli nöqteyi-nəzərincə həmin məlumatın daha mahiyyətli tərəfləri seçilir. Bu vaxt təcrübi hərəkətlərin keçirilmə taktikası dəyişilə bilər və vəziyyətin əsas, mahiyyətli dəyişkənliyini nəzərə alan sadə, modelindən daha çətin modelə və ya əksinə keçməsinə yol verilir.

Əlamətlərin oxşarlığına, əlaqəsinə və münasibətlərinə əsaslanmış elmi eksperimental modelləşdirmə müqayisə edilən obyektlərin (vəziyyətlərin) xüsusi xarakteristikalarının tutuşdurulması ilə kifayətlənmir. Əlamətlərin keyfiyyət və kəmiyyət münasibətlərinin müəyyən edilməsi, onlar arasında əlaqələrin istiqamət və davamlılıq vacibliyini nəzərdə tutur. Bu münasibətlər, eksperiment nəticələrinin sübutedici mənası haqda müntəzəm xarakter daşımalı, əlamətlər isə obyektlərin xarakteristikası üçün mahiyyətli olmalıdır.

İstintaq eksperimentinin keçirilməsində mütəxəssis iştirakının ümumi məqsədi, xüsusən də müstəntiqə kömək etməsi metodoloji baxımdan aşağıda göstərilən vəzifələrlə konkretləşdirilə bilər:

- istintaq eksperimenti keçirilməsi şərtlərinə düzgün riayət edilməsinə nəzarətdə iştirak etmək, dəqiqləşdirmə və yoxlama tələb edən hadisələrin müqayisəli meyarların uyğunluğunu təmin etmək təmin etmək;
- öyrənilən hadisə və ya faktın əhəmiyyətli tərəflərini əks etdirən yoxlanılan çoxsaylı xarakterstika və parametrlər arasında seçimdə iştirak etmək;

- xarakteristikaların və hadisələrin dəyişkənliyinin maksimal mümkün diapazonunu qeydə almaq;
- hadisələrin eksperimental yoxlanılmasını elmi-texniki və konsultativ müşayət etmək;
- təhlil olunan vəziyyətin əvvəllər təyin olunmuş düzgün və yenidən eksperimentlə alınmış parametrləri arasında əlaqələrin xarakterinin, müntəzəmliyinin və davamlılığının təyinində iştirak etmək;

Qarşısında qoyulan vəzifələri yerinə yetirmək üçün mütəxəssis işi elə təşkil olunmalıdır ki, o, istintaq hərəkətlərinin bütün mərhələlərində ardıcıl surətdə iştirak edə bilsin (eksperimentə hazırlıqda, keçirilməsində, onun nəticələrinin tərtib edilməsində və qiymətləndirilməsində). Mütəxəssis işinin mühüm tərkib hissəsini müstəntiqlə və prosessual hərəkətin digər iştirakçıları ilə qarşılıqlı hərəkətin səmərəli təşkili və operativ qarşılıqlı məlumat mübadiləsi təşkil edir. Bunlar ekspertin (mütəxəssisin) istintaq eksperimentində iştirakının təşkilatı və taktiki məsələlərdir.

9.5. İstintaq eksperimentində və ifadələrin yoxlanılmasında iştiraka hazırlıq.

Müstəntiq istintaq eksperimentinin keçirilməsi barədə qərar qəbul etdikdən sonra mütəxəssisə məlumat verir. Mütəxəssis işin təfsilatı ilə tanış olmalı, istintaq hərəkətinin və orada iştirak məqsədini, onun xüsusi biliklərindən istifadə etməklə dəqiqləşdirilməsi və yoxlanması tələb olunan məsələləri dəqiq aydınlaşdırmalıdır. Müvafiq hüququ əsaslar olduqda (təqsirləndirilən və ya zərərçəkəndən xidməti və ya digər asılılıq, zəruri materialların olmaması, sualların onun səlahiyyəti hüdudundan kənara çıxması, səlahiyyətsizliyi və s.) ekspert və yaxud mütəxəssis bu barədə müstəntiqə məlumat verir. Bu da onun istintaq eksperimentindən geri çağırılmasına əsas olur. Mütəxəssisin (ekspertin) işdə iştirakını istisna edən hallar olmadıqda, o görəcəyi işləri planlaşdırmağa başlayır.

İş haqqında məlumatlarla ilkin tanışlıq əsasında ekspert bilik və praktik səriştəsi mövqeyindən, ilk növbədə qarşısında qoyulmuş məsələlərin məhz təcrübi eksperimental yolla həll edilməsi imkanını qiymətləndirməlidir.

Geniş suallar dairəsinin təcrübələr keçirilməsi ilə həll edilməsinə baxmayaraq, istintaq eksperimenti bir çox mənada universal xarakter daşıyır. Digər istənilən tədqiqat (istintaq) metodu və onun effektivliyi, nəzərə çarpacaq dərəcədə məqsədin və həmin məqsədə çatmaq üçün seçilən vasitənin adekvatlığı ilə müəyyən edilir. Bütün halları və istintaq məlumatlarını istənilən vaxt təcrübi yolla yoxlamaq mümkün deyildir. İstintaq eksperimentinin gedişində sualların həlli, yalnız o halda qəbul edilir ki, hadisə və vəziyyətlərin həqiqətən canlandırılması və eksperimentatorun (mütəxəssis və ya müstəntiqin) onların gedişinə fəal məqsədyönlü müdaxilə edə bilməsi mümkün olsun. İstintaq eksperimenti ilə insanın bir çox fizioloji reaksiyasını, cinayətin ayrı-ayrı hallarını və şəraitini yoxlamaq mümkündür. İnsanın müəyyən hərəkəti yerinə yetirmək qabiliyyətini, digər şəxslərin etdikləri hərəkətləri görə bilməsini, göstərilən şəraitdə hər hansı bir şeyi eşidə bilməsini, istintaqla təyin edilmiş faktların

hadisənin baş verdiyi mühitə və şəraitə uyğunluğunu və s. yoxlamaq mümkündür. İstintaq eksperimenti gedişində məhkəmə-tibb ekspertinin fəaliyyət predmeti bəzən ölümün səbəbi, tanatogenezi, xəsarətlərin həyatiliyi və müddəti məsələləri də ola bilər. Bu sualların xüsusi müayinə metodları ilə düzgün və etibarlı təyin edilə bilmədiyi hallarda olur.

İstintaq eksperimenti şəraitində canlı orqanizmdəki fizioloji və ya patoloji proseslərə fəal surətdə müdaxilə etmək, yəni onları yenidən canlandırmaq mümkün deyil. Bu baxımdan həmin proseslərin qiymətləndirilməsi ilə əlaqədar olan hər bir məlumat istintaq yoxlanılmasına cəlb edilə bilmir. İstintaq eksperimentinin digər prosessual hərəkətlərlə (ekspertiza, baxış və s.) əvəz edilməsi alınmış nəticələri sübuti əhəmiyyətindən məhrum edir.

Mütəxəssisin istintaq eksperimenti (ifadələrin yoxlanılmasının) keçirilməsinə hazırlığı bir sıra mühüm metodiki aspektləri özündə birləşdirir, onlara etinasızlıq göstərdikdə mütəxəssisin həmin eksperimentdə iştirakını heçə endirə bilər. Mütəxəssisin zəruri hərəkətləri içərisindən aşağıdakıları ayırmaq vacibdir:

- iş materiallarının ilkin öyrənilməsi;
- iş üzrə əvvəllər keçirilmiş xüsusi tədqiqat və ekspertizaların təkrari kompleks təhlili;
- vacib halda mütəxəssisin digər istintaq hərəkətlərində iştirakı (dindirilmə, üzləşdirmə, baxış, tanınma);
- yer, vaxt, digər şəraitlər və istintaq eksperimenti iştirakçılarının tərkibi haqda müstəntiqin məsləhəti;
- təcrübələrin keçirilməsi və nəticələrin təsbit edilməsində istifadə ediləcək zəruri xüsusi avadınlıqların və yardımçı texniki vasitələrin müəyyən edilməsi. Onların hazırlığının yoxlanılması və silah maketlərinin, digər obyektlərin manekenlərinin hazırlanmasına kömək etməsi;
- istintaq eksperimentinin keçirilməsi qaydalarının müstəntiqlə razılaşdırılması - məzmunu, ardıcıllığı, təcrübələrin optimal sayı, nəticələrin təsbit etmə üsulları;

- istintaq eksperimenti gedişində əvvəllər alınmış sübutların, o cümlədən ekspert materiallarının istifadə olunma imkanları və qaydalarının müstəntiqlə razılaşdırılması;
- eksperimentin tibbi təhlükəsizlik hüdudunun müəyyən edilməsi;

İş materialları, əvvəllər keçirilmiş müayinə və ekspertizaların nəticələri ilə birlikdə, istintaq eksperimentinin təşkili və keçirilməsi üçün əsas ilkin məlumatlar mənbəyidir. Ekspertin sonrakı fəaliyyətinə aid məlumat tərkibli bütün sənədli məlumatlar -- əvvəllər keçirilmiş baxış, dindirmə, üzləşdirmə protokolları, bütün illüstrasiyalar (hadisə yerinə baxış və məhkəmə-tibb ekspertizanın keçirilməsində tərtib edilmiş foto, kino və video materiallar), işdə olan hadisə yerinin plan və sxemi, istifadə olunan alətlərin cizgi və şəkilləri, işə cəlb edilmiş tibbi sənədlər və s. ətraflı və diqqətlə öyrənilməlidir.

Cinayət şəraiti, ilk növbədə iş materiallarında, iştirakçıların ifadələrində və digər istintaq hərəkəti protokollarında təsbit edildiyi formada öyrənilməlidir. Ekspert məlumatları nəzərə alaraq unutmamalıdır ki, qavramanın həcmi və dəqiqliyi, müxtəlif adamların ifadələrində hadisələrin göstərilmə eyniliyi əhəmiyyətli dərəcədə fərqlənir və bir çox amillərlə müəyyən edilir. Bunlara təbiət təzahürləri (günün vaxtı, iqlim, günəş işığı və s.), təhqiqatı aparılan hadisənin baş verdiyi yerin və tikilinin xüsusiyyətləri, təbii və süni optik və akustik təzahürlər (parlaqlıq və rəng ziddiyyətləri, kölgələr, səs-küy və əks-sədalar), insanın hissiyyat üzvlərinin vəziyyəti, onun hadisələri dərk etmə anında psixi-emosional və fiziki vəziyyəti (həyəcan, qorxu, stress, yorğunluq və s.), toksiki maddələrin təsiri (məsələn; alkoqol və narkotik sərxoşluğu), hadisənin baş verdiyi andan ifadələrin verildiyi anadək keçmiş müddət və s. aiddir. Bundan başqa sözsüz ki, şəxsin ifadəsinə məişət, peşə, bilik və səriştələrinin, idrakın, hadisəyə onun subyektiv münasibətini müəyyən edən şəxsi inamının, maraq və tələbatının böyük təsiri vardır. Bu amillərin və onların ifadələrin düzgünlüyünə təsirini qiymətləndirmək müstəntiqin səlahiyyətinə aiddir. Ekspert isə bunları istintaq hərəkətlərini planlaşdırdıqda və eksperiment şərtlərini tənzimlədikdə nəzərə alır.

Bir sıra hallarda göstərilən amillərin tədqiq edilən hadisənin insan tərəfindən dərk edilməsi və xəyalən canlandırılmasına təsiri, elə onun özünü istintaq eksperimentinin və ya kompleks ekspertizanın mövzusuna çevirir.

Eksperimentə hazırlaşarkən meyitdə və digər zərərçəkənlərdə, onların paltarlarında olan xəsarətləri haqda (xarakteri, lokalizasiyası, əsas anatomik istiqamət göstəriciləri, qarşılıqlı vəziyyətləri, quruluşunun morfoloji xüsusiyyətləri, törənmə mexanizmi), əsas zədə yetirən amillər, tanatogenezin xüsusiyyətləri, ölmə prosesi və ölümün səbəbi haqda, silah, alətlər və digər iz törədən alətin konstruktiv xüsusiyyətləri, bioloji izlərin aşkarlanması (onların xarakteri, törənmə mexanizmi və qrup xüsusiyyətləri) və s. barədə bütün məlumatları ümumiləşdirmək lazımdır.

İş materiallarını öyrənərkən, mütəxəssisin fəaliyyətinə bilavasitə toxunan məlumatlarla məhdudlaşmamalı, maksimal dərəcədə mümkün olacaq məlumatların alınmasına cəhd etməlidir. Qarşısında qoyulan məsələlərdən asılı olaraq müxtəlif məlumatlar mühüm ola bilər. Məsələn, cinayət törədilən vaxt hava, işıqlandırılma, rütubət, hərarət rejimi, hadisə yerinin digər şəraitləri, cinayət iştirakçılarının şəxsiyyəti barədə məlumatlar (fiziki və atropometrik göstəricilər, sağlamlıq vəziyyəti, məişət və peşə səriştələri) və s. Ekspertə lazım olan hər hansı bir məlumat işdə olmadıqda və yaxud ayrı-ayrı materiallar, iş sübutları (məsələn: cinayət aləti) əvvəllər tədqiq olunmamışdırsa, onlar rəsmi qaydada yazılı surətdə tələb oluna bilər. Yeni aşkar edilmiş və yaxud güman edilən alətlər ilkin baxışa və ya tədqiqata cəlb olunmalıdır.

İfadələrin yoxlanılmasına hazırlıq zamanı ifadəsi yoxlanılan şəxsin dindirilməsində məhkəmə-tibb ekspertinin iştirakı, ifadələrin maksimal konkretləşdirilməsi məqsədi daşıyır. Ekspertin şəxsən iştirakı mümkün olmadıqda, o, öz səlahiyyəti çərçivəsində onu maraqlandıran hər bir halı barədə dəqiqləşdirilməsi tələb olunan suallar siyahısını müstəntiqə təklif edə bilər; (konkret vəziyyətin yoxlanılmasından asılı olaraq dindirilənə hadisə yerinin, onun avadanlıqlarının və əsas obyektlərin qarşılıqlı vəziyyətinin sxematik şəklinin çəkməsini, istifadə olunan alətlərin layihəsini yaratmağı və

s.) İlkin dindirmədə ekspertin şəxsən iştirakı mümkün olmadıqda, o, müstəntiq qarşısında dindirmənin digər mütəxəssisin iştirakı ilə keçirilməsi barədə vəsatət qaldıra bilər.

İş üzrə əvvəllər ekspertiza keçirmiş məhkəmə həkimi tanınmanın keçirilməsinə cəlb edilə bilər. Məsələn, istintaqla aşkar edilməyən cinayət alətinin maketini qurmaq tələb edildikdə. Bunun üçün, qrup əlamətlərinə görə müxtəlif olan bir neçə predmetlər əvvəlcədən seçilir. Onların bir hissəsi zədələrin müayinəsi əsasında təyin edilmiş əlamətlər üzrə travma aləti ilə oxşar olmalıdır. Tanınmanın gedişində təqsirləndirilən şəxsə və şahidə real predmetlər qrupundan, onların analoqlarından və ya öncədən hazırlanmış maketlərindən, travma aləti ilə daha çox oxşar olanını seçmək təklif olunur. Mütəxəssisin vəzifəsi seçilmiş alətin, zədələrin morfoloji xarakteristik xüsusiyyətlərinə tədqiqi əsasında təyin olunmuş xarakteristikalara uyğun gəlib-gəlməməsini qiymətləndirməkdən, müstəntiqin diqqətini və onun icazəsi ilə həmin şəxsin diqqətini də buna cəlb etməkdən ibarətdir.

Beləliklə, işin ilkin gedişində mütəxəssis öz vəzifəsini aydınlaşdırır, ifadələrin yoxlanılması keçirilməsinin planını hazırlayır. Məqsəd sonradan yoxlanılan ifadələri işin digər materialları ilə daha tam həcmdə tutuşdurmaqdır.

İstintaq eksperimentinə hazırlığın mühüm tərkib hissəsi, onun keçiriləcəyi yerin seçilməsidir. Bu məsələnin həllində məhkəmə-tibb ekspertinin fikri çox vaxt müstəntiq üçün həlledici olur. Bir sıra hallarda, yalnız mütəxəssis əvvəlcədən eksperimentin keçirilməsi üçün hansı şəraitlərin yaradılmasını və eksperiment nəticələrinin düzgün və etibarlı sayılması üçün nəyin vacib olduğunu deyə bilər.

Kriminalistikada qəbul edilmiş ümumi qaydaya görə istintaq eksperimenti keçirilməsinin əsas taktiki üsullarından biri, onun mütləq tədqiq olan cinayətin baş verdiyi yerdə keçirilməsinin vacibliyidir. Bu, istintaq olunan hadisələrin yenidən bərpası və maksimal dərəcədə oxşarlığının əldə olunması məqsədini güdür. İstintaq eksperimenti keçirilən ana qədər hadisə yeri mühitinin və avadanlıqlarının çox vaxt əhəmiyyətli dərəcədə dəyişdiyindən, onun həmin yerdə yenidən qurulması çətinləşir və hətta bəzən mümkün

olmur. Bəzi hallarda hadisə yerinin xüsusiyyətləri, əksinə həqiqətən baş vermiş hadisələrin və eksperimentinin gedişinə və nəticəsinə ümumiyyətlə əhəmiyyətli təsir göstərmir.

İstintaq eksperimenti keçiriləcək yerin seçilməsinə aid məsələnin birmənalı həlli yoxdur. İstintaq hərəkətinin konkret məsələlərindən asılı olaraq, istintaq eksperimenti istər real hadisənin baş verdiyi yerdə, istərsə də ona son dərəcə yaxın, iş materiallarında rəsmi təsbit edilmiş parametrləri üzrə yenidən qurulmuş şəraitdə keçirilə bilər. Hadisənin yenidən qurulması, bir qayda olaraq, istintaq hərəkətinin gedişində, onun əsas taktiki şərtlərindən və keçirilmə mərhələlərindən biri olaraq həyata keçirilir

Eksperimentin keçirilmə vaxtını müəyyənləşdirdikdə əvvəl işin istintaqının xronologiyasını nəzərə almaq lazımdır. Burada bir çox məsələ həll ediləcək sualların məzmunu ilə müəyyənləşdirilir. Aydındır ki, istintaqa məlum olan faktiki məlumatların dəqiqləşdirilməsi məsələsi qarşıya qoyulan hallarda, onların eksperimental yoxlanılmasına başlamazdan əvvəl, məlumatlar qanuna uyğun olaraq iş materiallarında təsbit olunmalıdır. Məsələn, şəxsin ifadələrinin yoxlanılması, həmin ifadələrin müvafiq protokolla prosessual rəsmiləşdirilməsinədək keçirilə bilməz; ekspert rəyinin müddəalarının istintaq eksperimenti keçirilməsi yolu ilə yoxlanılması, rəyi işə daxil edilməsindən əvvəl mümkün deyil.

Lazımı ilkin məlumatları əldə etmədən istintaq hərəkətinin keçirilməsi də vaxtından əvvəl olacaqdır. Əgər eksperiment və ya ifadələrin yoxlanılması yeni, həmçinin ilkin məlumatları əldə etmək məqsədi daşıyırsa, onun icrasının ləngiməsi hadisə yerinin dəyişilməsinə, maddi sübutların itirilməsinə və ya onların xüsusiyyətlərinin dəyişilməsinə səbəb ola bilər.

Müstəntiq və istintaqın digər iştirakçıları, o cümlədən məhkəmə-tibb eksperti də təqsirləndirilən və şübhəli şəxsin, şahidin istintaqa məlum olan məlumatlarla, həmçinin keçirilmiş ekspertizaların nəticələri ilə təsadüfən və ya qəsdən qeyri prosessual qaydada tanış olmasına qəti yol verməməlidir. CM-də ilkin istintaq məlumatlarının yayılmasına görə cinayət məsuliyyəti nəzərdə tutulur. İstintaqın ilkin mərhələsində, meyitin təşrihindən və ya zərərçəkənin müayinəsindən

sonra, ekspert məlumatları təsadüfən və ya bilərəkdən şübhəli şəxsə və ya şahidə verə bilər. İstintaqın bütün iştirakçıları tərəfindən CM-nin istintaqın sirrini yaymamaq barədə tələblərinə əməl olunduqda belə, təqsirləndirilən şəxsin və onun müdafiəçisinin rəsmən iş materialları ilə tanışlığından sonra, ekspert rəyinin bütün detalları və digər məlumatlar onlara məlum olur. Bu halda onların öz versiyalarını düzəltmək imkanı yarandığı üçün, istintaq eksperimentinin obyektivliyinə və nəticələrinə ehtiyatla yanaşmağa məcbur edir. Bəzi müəlliflər icra vaxtı baxımından istintaq eksperimentinin yalnız istintaqın ilkin mərhələsində keçirilməsini əhəmiyyətli hesab edir. Lakin, təcrübə göstərir ki, məhkəmə-tibb ekspertinin təcrübi istintaq hərəkətlərində və işin məhkəmə baxışında iştirakı məqsədyönlüdür. Ekspertin bu mərhələdə iştirakı dəfələrlə məhkəməni çıxılmaz vəziyyətə salmış mürəkkəb və ziddiyyətli məsələləri həll etməkdə əvəzsiz yardımçısı olmuşdur.

Konkret işin xüsusiyyətlərindən asılı olaraq istintaq eksperimenti keçirilməsinin digər şərtləri arasından bir sıra təbiət və iqlim amillərini (mövsüm, günün vaxtı, günəş aktivliyi və müayinə olunan obyektlərə birbaşa günəş şüalarının çatması, mühitin hərarət və rütubətliyi, yağıntılar, su və hava axınının surəti və s.), təbii işıqlandırma xüsusiyyətlərini, yerli entomofaunanın xarakterini, mühitin səs və elektrik keçiriciliyini nəzərə almaq lazım gəlir. Bəzən texnoloji proseslərin və istehsalat mexanizmlərinin işə salınması da tələb oluna bilər.

Təcrübədə ifadələrin, irəli sürülmüş variant və fərziyyələrin bir-birinə zidd olmalarını nümayiş etdirmək və açıqlamaq üçün, həqiqətən baş vermiş şəraitə uyğun olmayan süni şəraitin yaradılması hallarına da rast gəlinir. Eksperiment nəticələrinin daha əyani və inandırıcı olmaları üçün şəraitləri dəyişdirilməklə, sadələşdirilmək və mürəkkəbləşdirilmək də olar. Bu, əvvəlki təcrübələrdə alınmış nəticələri əldə etməyi çətinləşdirsə və ya asanlaşdırsa da, həmin nəticələr təkrarladığı hallarda alınmış məlumatların düzgünlüyünə əlavə sübut olacaqdır.

İstintaq eksperimentinin keçirilməsi şərtlərinin siyahısına hİssiyyat orqanlarının funksiyaları və insanın ətraf mühitə reaksiya

surəti, bioloji obyektlərdə fizioloji və patoloji proseslər axını, maşın və mexanizmlərin işi, iz və xəsarətlərin əmələ gəlməsi və saxlanılması məsələləri daxildir. Eksperimentin nəticəsi bu və ya digər formada onlardan asılıdır. Fərqləndirici yanaşmanın vacibliyinə baxmayaraq, o amillər nəzərə alınmalıdır ki, onlardan yalnız eksperimentin gedişi yox, həm də onun nəticələri mahiyyətli asılıdır (məsələn, bu və ya digər əşyanı görməyin mümkünlüyünü təyin edərkən, insanın görmə itiliyi və obyektin işıqlandırılması). Ekspertin vəzifəsi zəruri şəraitlərin nəzərə alınmasını təmin etməkdən və eksperiment gedişində onların düzgün və dəqiq surətdə yenidən canlandırılmasına nəzarətdən ibarətdir.

İstintaq eksperimenti iştirakçılarının fəaliyyəti, hüquq və vəzifələri CPM-nin 262-ci maddəsi ilə müəyyənləşdirilir. İstintaq hərəkətinin rəhbəri kimi müstəntiqdən başqa, istintaq eksperimentində və ifadələrin yoxlanılmasında 2 nəfərdən az olmayaraq hal şahidləri iştirak edə bilər (istintaq eksperimentində hal şahidlərinin maksimal sayına qanun məhdudiyyət qoymamışdır). Hal şahidləri iştirak etdikləri prosessual hərəkətlərin məzmunu və nəticələrini, faktları təsdiq edirlər. Ümumi qayda üzrə hal şahidləri kimi işdə marağı olmayan istənilən vətəndaşın cəlb olunmasına baxmayaraq, məhkəmə həkimi öz xüsusi mövqelərindən müstəntiqin seçiminə nəzarət etməlidir. Biomanekenlərdən istifadə etməklə eksperimentin keçirilməsinə hal şahidləri kimi tibb işçilərinin cəlb olunmasını və cinsi cinayətlərdə cinayət işi üzrə ifadələrin yoxlanılmasına cəlb olunan hal şahidlərinin cinsi və yaşı nəzərə alınmalıdır. Hal şahidlərinin iştirakı olmadan istintaq hərəkətinin keçirilməsi yol verilən haldır. Məsələn; çətin keçilən yerdə, müvafiq əlaqə vasitələrinin olmadığı, həmçinin insanların həyatı və sağlamlığı üçün təhlükənin istisna olmadığı hallarda.

Zərurət yarandıqda müstəntiqin qərarı ilə müdafiəçi, şübhəli şəxs, təqsirləndirilən şəxs, zərərçəkmiş və şahid eksperimentdə iştirak edə bilərlər. İfadələri yoxlanılan şəxslərdən istisna olmaqla bu şəxslərin istintaq eksperimentində iştirakı mütləq deyil. Şübhəli və ya təqsirləndirilən şəxsin istəyinə zidd olaraq, müstəntiqin onları hər hansı hərəkətə məcbur etməyə ixtiyarı yoxdur.

Hüquqi ədəbiyyatlarda ayrıca olaraq yardımçı iştirakçılar qrupu göstərilir. Bunlar hər şeydən əvvəl «rol ifa edən şəxslər» və ya statistlərdir. Adətən onlara təqsirləndirilən şəxsləri, şahid və ya zərərçəkmişləri əvəz etmək və müstəntiqin göstərişi ilə konkret hərəkətləri yerinə yetirmək tapşırılır. Statistlərin seçilməsində və onların şəhadətləndirilməsində iştirak etmək mütəxəssisin mühüm funksiyasıdır.

İştirakçıların mühafizəsini, təhlükəsizliyini təmin etmək yaxud müstəntiqin ayrı-ayrı tapşırıqlarını və göstərişlərini yerinə yetirmək məqsədilə həmişə istintaq eksperimentinin keçirildiyi yerdə əməliyyat işçiləri iştirak edir. Eksperiment iştirakçılarından hər hansı birinin sağlamlığının qəflətən pisləşməsinə ehtimal olduqda, müstəntiq hadisə yerində tibb işçisinin olmasını təmin edir.

Məhkəmə-tibb ekspertinin, mütəxəssisin istintaq eksperimentinin nəzərdə tutulan iştirakçılar dairəsini bilməsi vacibdir. Mütəxəssisin iştirakçılarla qarşılıqlı əlaqəsinin aşağıda göstərilən bəzi xüsusiyyətləri mövcuddur. Hazırlıq mərhələsində keçiriləcək istintaq hərəkəti iştirakçılarının tərkibi barədə mütəxəssisin öz fikirlərini müstəntiqə bildirmək hüququ vardır.

Ekspertin mühüm vəzifəsi -- istintaq eksperimentinin bütün iştirakçılarının ekspert rəyində şərh edilən obyektiv məlumatları, eksperimentin ilkin şərtləri kimi istifadə olunmasından və ya həmin məlumatların yoxlanılmalı olmasından asılı olmayaraq, düzgün başa düşmələrini təmin etməkdən ibarətdir.

İstintaq eksperimentinin məqsədindən asılı olaraq, müxtəlif cihazlar, alət və yardımçı texniki vasitələrdən istifadə olunması tələb oluna bilər. Bunlara ölçü alətləri foto, kino və ya video aparatlar, nişan alma alətləri, nişan qoymaq üçün vasitələr, işıqlandırıcı və optik cihazlar, plastik kütlələr və gips, talk, kimyəvi reaktivlər və ekspress diaqnostikanın digər vasitələri, markalama və qablaşdırma materialları və digərləri aiddir. Bunlar hadisə yeri mühitinin yenidən qurulmasında, istintaq eksperimenti keçirilməsi üçün lazımi şəraitin yaradılmasında, iştirakçıların hərəkətlərinin daha dəqiq təkrarlanması və nümayiş etdirilməsində, bioloji izlərin təqlid edilməsində,

eksperiment nəticələrinin sənədləşdirilməsində, müqayisəli nümunələrin hazırlanması və götürülməsində istifadə olunur.

Bu vasitələrdən eksperimentdə istifadə ediləcək cinayət alətlərinə və ya cinayətkar hərəkətlər obyektlərinə məhkəmə-tibb eksperti xüsusi diqqət yetirməlidir. İstintaq gedişində bəzən həqiqi predmetləri təyin etmək olmur. İşdə maddi sübut kimi qəbul edilmiş alətlərdən eksperimentdə istifadə etmək həmişə mümkün olmur. Həqiqi alətlər istintaqla müəyyən edilmədikdə, əhəmiyyətli dərəcədə zədələndikdə, eksperimentin məqsədi baxımından mühüm xüsusiyyətlərini itirdikdə və başa çatmamış ekspertiza obyektləri olduqda onlardan istifadə etmək mümkün olmur və eksperiment prosesində onların dəyişikliyə uğraması və ya məhv edilməsi istisna edilmir. Maddi sübutların əlavə və təkrar ekspertizasının keçirilməsinin vacibliyini öncədən demək olmur. İstintaq hərəkəti iştirakçılarının təhlükəsizliyi qorxusu yaranan hallarda həqiqi alətlərdən (bıçaq, tapança və s.) istifadə etmək olmaz.

Məhkəmə-tibb eksperti bütün hallarda maddi sübutlardan istifadənin mümkünlüyü məsələsini özü üçün aydınlaşdırmalı və bu barədə müstəntiqə məlumat verməlidir. Ona oxşar maddi sübutların seçilməsində, cinayətdə istifadə olunan silah və əşyaların maket və ya mulyajlarının hazırlanmasında yardım etməlidir. İstintaqın gedişində cinayət alətini əldə etmək mümkün olmadıqda, eksperimentə hazırlıq vaxtı şübhəli şəxsə təklif olunur ki, etmək lazımdır ki, qrup əlamətlərinə görə bir neçə oxşar əşyalar arasından öz fikrincə cinayət alətinə daha çox oxşarını seçsin. Bununla yanaşı, maddi sübutların və ya onları əvəz edən əşyaların hazırlanmasında istifadə olunmuş alətlərin növü, təyinatı və konstruktiv xüsusiyyətləri, saxlanılma şəraiti barədə cinayət iştirakçıları və şahidlərinin verdikləri ifadələr də nəzərə alınır, işdə olan fotoşəkillər və ya alətlərin iştirakçıların özləri tərəfindən hazırlanmış rəsm və çertyojlar, eləcə də keçirilmiş tədqiqat və ekspertizaların nəticələri öyrənilir. Aşağıda göstərilən şərtlərə mütləq riayət olunmalıdır:

- alətlərin və digər predmetlərin maketləri öz xarici konstruktiv xüsusiyyətləri üzrə və ya funksional olaraq imkan daxilində orijinalla maksimal dərəcədə oxşar olmalıdır;

- onlar eksperiment iştirakçılarının təhlükəsizlik tələblərinə cavab verməlidir;
- maketləri hazırlayan mütəxəssis son dərəcə obyektiv olmalıdır (əldə olan ekspertiza məlumatlarına əsasən həmin aləti «yaratmaq» yol verilməzdir);

İşdə maddi sübut hesab edilən əşyalardan istifadə olunmanın da hüdudu vardır. Bəzən, istintaq eksperimenti hadisə yeri avadanlığının əsil əşyaları olmadan, mürəkkəb istehsalat mexanizmlərini işə salmadan, avtonəqliyyat vasitələrindən və s. istifadə edilmədən mümkün olmur. Cinayət alətlərini tam və hərtərəfli tədqiq etdikdən sonra, onlardan istifadə etmək olar.

Ekspert (mütəxəssis) eksperimentin keçirilmə qaydalarını -- metodikanı, texniki vəsaitləri, təcrübələrin ardıcıllığını və optimal miqdarını, alınmış nəticələrin qeydiyyatını əvvəlcədən fikirləşməlidir. Təcrübələrin keçirilmə qaydası çox halda istintaq hərəkətinin məzmunundan və mütəxəssis qarşısında qoyulmuş məsələlərdən asılıdır. Bütün versiyaların mərhələlər üzrə mütləq yoxlanılmasının vacibliyi, lazım olduqda təcrübələrin dəfələrlə təkrar edilməsi ümumi tələbdən irəli gəlir. Bu obyektivliyə zəmanət verir, eksperiment nəticələrinin qanunauyğunluğuna və sübutedici əhəmiyyətinə əyani surətdə inanmağa əsas verir.

Eksperiment keçirilməsinin fəaliyyətli taktiki üsulu əvvəllər alınmış sübutlardan, o cümlədən yerinə yetirilmiş xüsusi tədqiqat nəticələrindən istifadə etməkdir. Müstəntiq və mütəxəssisə hazırlıq vaxtı, artıq keçirilmiş ekspertiza məlumatlarından və digər istintaq materiallarından istifadənin mümkünlüyünü, formasını, qayda və şərtlərini əvvəlcədən razılaşdırmaq vacibdir.

Hazırlıq gedişində ekspert (mütəxəssis) xüsusi bilikləri baxımından eksperimentin tibbi təhlükəsizlik sərhədini müəyyən etməlidir. Eksperimentin keçirilməsinin planlaşdırıldığı konkret yerdə, təbiət və texnoloji amillərin xarakterini və insan üçün potensial təhlükəsini qiymətləndirmək, maket kimi istifadə olunacaq yalnız qeyri-travmatik, yumşaq, deformasiya olunan və ya tez dağılan materiallardan (kağız, karton, yüngül və davamsız polimerlər) hazırlanmış əşyaları nəzərdə tutmaq lazımdır. Məsələn,

eksperimentin mövzusu ilgəklə boğmaq hadisəsi olduqda, istintaq eksperimentinin təhlükəsizliyini təmin etmək üçün, E.S. Mişin (1995, 1997) təklif etmişdir ki, ilgəyin bənzəri asanlıqla cırılan materialdan hazırlansın, yaxud, ilgək materialı bir neçə yerdən kəsilsin, sonra isə təcrübənin keçirilməsi üçün o, ilgək kəsikləri sapla bərkidilsin. İlgək boyuna salınmaqla qüvvə həddi bir qədər artdığından birləşmələr yerində cırılmalar əmələ gəlir ki və statistin həyatı üçün təhlükə aradan qalxır.

Nəhayət, məhkəmə həkiminin səlahiyyətinə birbaşa aid olmayan, lakin istintaq hərəkətinə hazırlıq və iştirakda onun nəzərə alacağı daha bir aspekt üzərində dayanmaq lazımdır. Burada ifadəsi yoxlanılan və ya təqsirləndirilən şəxsin şəxsiyyətinin xarakterik xüsusiyyətlərdən danışılır. Birincisi, bunu ehtiyatsızlıq tədbirləri baxımından nəzərə almaq lazımdır (təcrübədə onların istintaq hərəkəti iştirakçılarına hücum halları məlumdur). Bundan əlavə, məhkəmə həkimi və şübhəli şəxsin (təqsirləndirilənin) psixoloji baxımdan qarşılıqlı əlaqələri də mühüm əhəmiyyət kəsb edir. Məhkəmə həkimi müstəntiqin yanında psixologiyanın əsasları ilə tanış olan tək mütəxəssis kimi qalır. Bu halda mütəxəssis müstəntiqin diqqətini istintaq hərəkətinin planlaşdırılmasında cinayətkarın xarakteri, temperamenti və şəxsiyyətinin digər psixoloji xüsusiyyətlərini nəzərə almağın vacibliyinə, istintaq hərəkətinin hazırlanmasına psixoloqun cəlb edilməsinin məqsədəuyğunluğuna yönəltməsi qeyri-qanuni deyildir.

Təqsirləndirilən və ya şübhəli şəxsin iştirakı ilə keçirilən eksperimentlər təcrübəsi göstərir ki, istintaq hərəkəti gedişində onların davranışı əhəmiyyətli dərəcədə dəyişə bilər. Bəzən onlara tanış olmayan, bir çox şəxslərin iştirak etdiyi real mühitdə cinayətin baş vermə şəraitini aydınlaşdırarkən tez bir zamanda özünə qapılır, suallara həvəssiz və qısaca cavab verir, cavablarını uzun müddət və ətraflı düşünürlər. Belə şəxslər adətən yığcam ifadə verir, müstəntiq və mütəxəssisin təkliflərini yerinə yetirməkdən boyun qaçırır, hadisə təfsilatını araşdırmaqdan çəkinirlər. İstintaqa əks təsir taktikası seçən şübhəli şəxslər də, özlərini belə aparırlar. Hətta bu hallarda, baş vermiş hadisəni ardıcıllıqla canlandırdıqda və məharətlə sorğu-sual

etdikdə, çox vaxt lazımi ifadələri almaq mümkün olur. Bəzən təqsirləndirilən və şübhəli şəxs həvəslə təmasa girir, cinayətin baş vermə şəraiti və üsulunu ətraflı göstərirlər. Kənardan müşahidə etdikdə onların istintaq hərəkəti gedişi ərzində, tədricən hərəkətə gəlmələrini, davranışlarında canlanmanı, bəzən hətta bunun emosional və hərəki oyanıqlığa keçməsini görmək olar. Öz hərəkətlərini və digər cinayət iştirakçılarının hərəkətlərini nümayiş etdirərkən, onlar mənalı, hətta teatral jestlərdən istifadə edirlər, hərəkətlərini ətraflı şərh edirlər, öz «nailiyyət» və cinayət təcrübələri ilə öyünürlər, detalları göstərirlər. Bəzən isə ifadələrinin inandırıcı olması üçün, onlardan soruşulmayan hadisə təfsilatını danışır özlərində yaranmış təəssüratı və qiyməti göstərirlər. Davranışın bu iki variantının nümunəsində şübhəli (təqsirləndirilən) şəxsin davranış tərzini dəyişmək və daha ətraflı ifadələr əldə etmək məqsədilə onun psixoloji vəziyyətindən istifadə etmək mümkünlüyü aydın olur. İstintaq eksperimenti gedişində hər hansı bir faktın qeyri-mümkünlüyünə və ya əksinə, təkzib olunmazlığına əmin olan, əvvəllər ifadə verməyə meylli olmayan təqsirləndirilən şəxs istintaqla əməkdaşlıq etməyə başlaya bilər. İstintaqa kömək etmək niyyətli şəxs isə, istintaqı aparılan hadisə barədə əlavə məlumatlar və təfərrüatlar göstərə bilər. Təqsirləndirilənin (şübhəli şəxsin, şahidin) şəxsiyyətinin xüsusiyyətlərini, onun davranış səbəbini, onlarla təmas qaydalarını təyin etmək psixoloqun vəzifəsidir. Məhkəmə həkimi və müstəntiq işlərində bu xüsusiyyətləri nəzərə almalıdır.

9.6. İstintaq eksperimenti və ifadələrin yoxlanılması gedişində ekspert (mütəxəssis) işinin təşkili və məzmunu.

İstintaq eksperimenti və ifadələrin yoxlanılması gedişində məhkəmə həkiminin işi, hər bir istintaq hərəkətində mütəxəssis iştirakının ümumi prinsiplərinə cavab verməkdir. Mütəxəssis öz fəaliyyətini cinayət-prosessual qanunvericiliyə uyğun, öz səlahiyyəti çərçivəsində həyata keçirməlidir. Bu istintaq hərəkətinin qanuniliyini müəyyən edən əsas şərtdir və onun nəticələrinin sübut qismində tanınmasına imkan verməkdir. İstintaq eksperimenti keçirilməsinin digər mühüm tələbi təcrübələrin keçirilmə şəraitinin obyektivliyidir. Mütəxəssis işinə münasibətdə obyektivlik tələbi birincisi, eksperimentin keçirilməsi üçün lazım olan ilkin məlumatlar, yalnız doğru təyin olunmuş və istintaqla sübut edilmiş faktlar və əvvəllər keçirilmiş şübhə doğurmayan qəti nəticələr ola bilər. İkincisi, təcrübələrin təşkilində yalnız elmi əsaslandırılmış, mümkün olduqca rəsmi məsləhət görülmüş metod və texniki vasitələr tətbiq edilə bilər. Göstərilənlərlə yanaşı obyektivlik həm də eksperimentdə bütün və ya bəzi versiyaların yoxlanılıb-yoxlanılmaması ilə müəyyən olunur.

Ekspertin qarşıda qoyulan vəzifələrdən kənara çıxmaması, yalnız obyektiv məlumatlara əsaslanan fərziyyələrlə məhdudlaşması, istintaq edilən hadisə barədə öz subyektiv təsəvvürlərinin minimuma endirməsi çox vacibdir.

Hər bir iştirakçı, xüsusən də müstəntiq və ya mütəxəssis tərəfindən bu vacib prinsiplərin pozulması, nəticələrdən şübhələnməyə əsas ola bilər və təkrar istintaq hərəkətinin keçirilməsinə zərurət yarada bilər.

Məhkəmə həkimi öz işini elə qurmalıdır ki, onun yerinə yetirdiyi hərəkətlər istintaq eksperimentinin bütün iştirakçılarına aydın olsün. Özü tərəfindən müstəntiqlə səmərəli qarşılıqlı əlaqə və məlumat mübadiləsi yaratmağa, gördüyü işin nəticələrinin son dərəcə əyaniliyinə, iştirakçıların təhlükəsizliyinə və istintaq sirrinin qorunmasına çalışmalıdır. Vətəndaşların hüququna toxunan və

onların mənəvi ləyaqətinin alçaldılması kimi başa düşülə bilən ekspert hərəkətlərinə yol verilməməlidir.

İstintaq eksperimenti və ifadələrin yoxlanılması gedişində ekspert işinin təşkili və mahiyyəti bir çox amillərdən asılıdır. Bunlardan istintaq hərəkətinin növü və məqsədi həlledicidir, deməli mütəxəssis qarşısında qoyulan vəzifələrin xarakteridir.

CPM 262-ci maddəsi və eləcə də iş təcrübələrinin ümumiləşdirilməsi istintaq eksperimentinin əsas növlərini aşağıdakılara bölmək imkanı yaradır:

- cinayətin törədilmə üsullarının yoxlanılması üzrə, təhlil olunan vəziyyətin şərait və şərtlərinin bütövlükdə və zədə yetirmə mexanizminin ayrı-ayrılıqda dəqiqləşdirilməsi üzrə eksperiment;
- əvvəlcədən hazırlanmış şəraitdə konkret şəxs tərəfindən müəyyən hərəkətlərin yerinə yetirilməsi mümkünlüyünün müəyyən edilməsi üzrə eksperiment;
- hər hansı bir hadisənin, təzahürün və ya prosesin mövcud olmasının obyektiv mümkünlüyünün təyini üzrə eksperiment;
- hər hansı bir faktın və ya təzahürün insanın hissiyatla qavrama qabiliyyətinin təyini üzrə eksperiment;
- iz törətmə mexanizminin yoxlanması üzrə və ya müqayisəli nümunələr alınması məqsədilə aparılan eksperiment.

Cinayətin törədilmə üsulunun yoxlanılması üzrə eksperiment - məhkəmə həkiminin iştirak etdiyi istintaq eksperimentinin ən çox yayılmış növüdür. Burada müstəntiq və mütəxəssisin funksiyaları, başlıca olaraq, istintaq edilən hadisənin, onun ayrı-ayrı şərtlərinin, hadisə yeri şəraitinin yenidən qurulmasına, xəsarətlərin yetirilmə mexanizminin yoxlanılması və dəqiqləşdirilməsinə yönəlmişdir. Təhlil olunan vəziyyətin dinamikada canlandırılması onun dindirilən şəxslərin ifadələrində göstərilən şəraitdə, həmin şərtlərlə və həmin ardıcıllıqda baş verməsi barədə əyani təsəvvür yaratmağa imkan verir. Vəziyyətin eksperimental modellərinin hansı birinin əvvəllər müəyyən edilmiş istintaq məlumatları və ekspert nəticələri ilə daha çox uyğun gəlməsini, hansı istintaq variantlarını və ya ekspert fərziyyələrini bu modelin daha çox təmin etməsini göstərir.

Bu vaxt məhkəmə-tibb eksperti əvvəllər verilmiş rəyi yoxlaya bilər və ya verilmiş (təyin olunmuş və ya güman edilən) şəraitdə xəsarətlərin baş verməsi mümkünlüyü haqda nəticəni əsaslandırmaq üçün əlavə məlumatlar ala bilər. Belə əlavə informasiya xüsusən aşağıdakı sualların həll edilməsinə imkan verəcəkdir:

1. Xəsarətlərin ekspert yolu ilə təyin edilmiş törənmə mexanizmi aşağıdakı parametrlər üzrə xüsusi istintaq (məhkəmə) variantlarına və ya eksperiment iştirakçılarının ifadələrinə uyğundurmu:

1.1. travma törədici qüvvənin tətbiq edildiyi yerə;

1.2. travmatik təsir istiqamətinə;

1.3. travmatik təsir qüvvəsinə;

1.4. təsirin qısa müddətliliyinə;

1.5. onların ardıcıllığına;

1.6. təqsirləndirilən şəxsin əlindəki alətin açıq mühitdə istiqamətinə və bədənin travma almış hissəsinə münasibətinə görə (xəsarət yetirilən anda silah lüləsinin və ya digər alətin vəziyyəti);

1.7. travmatik təsir üsullarına (zərbə, təzyiq, gərilmə, sürtünmə);

2. İstintaq olunan hadisənin dinamikasında zərərçəkən və hücum edənin vəziyyətləri və öz aralarında qarşılıqlı duruşu necə olmuşdur;

3. Xəsarətlərin əmələ gəlməsinə və yaranma mexanizminə hadisə yeri mühitinin hansı təsirinin olması;

3.1. mühitdəki konkret əşyaların təsirindən zərərçəkəndə xəsarətlərin törənmə mümkünlüyü;

3.2. bədəndə və mühit əşyalarında xəsarətlərin eyni anda yaranması mümkünlüyü (məsələn, bir atəş nəticəsində güllənin uçuş yolunda maneənin olması);

3.3. hadisə yerinin konkret şəraitində xəsarət yetirmək məqsədilə, konkret alətdən istifadə edilməsinin mümkünlüyü (travma törədici amilin təsiri);

3.4. cinayətin və ya onun izlərinin gizlədilməsi məqsədilə hadisə yeri mühitindən istifadə edilməsinin mümkünlüyü;

4. Hadisə iştirakçılarının durduğu dəqiq yer haradır (məsələn: atəş açıldığı yer);

5. Kənar xarici təsir olmadan xəsarətlərin yaranması mümkündürmü (öz əli ilə yetirmə, öz-özünə yıxılma və s.).

Travmanın konkret növündən asılı olaraq, istintaq eksperimenti gedişində məhkəmə həkiminin fəaliyyət predmetinə aid ola bilən yuxarıda sadalanan ümumi suallar konkretləşdirilir. Xəsarətlərin iti alətlərlə yetirildiyi hallarda məhkəmə həkiminin iştirakı ilə istintaq eksperimenti çox vaxt cinayətin törədilməsi üsulları barədə konkret istintaq variantlarının yoxlanılması və ya xəsarətlərin törənmə mexanizmi barədə ekspert nəticəsinin dəqiqləşdirilməsi məqsədilə keçirilir. Bir çox alimlər deşici-kəsici alətlə xəsarət yetirilən anda zərərçəkənin duruş vəziyyətini (pozasını) və zərərçəkənlə hücum edənin qarşılıqlı yerləşmələrini təyin etmək üçün istintaq eksperimentinin keçirilməsini məsləhət görürlər.

Bıçağı «öz-özünə batırma» adlanan halın mümkünlüyü barədə variantın yoxlanması istintaq-ekspert vəziyyəti üçün səciyyəvidir. Bir qayda olaraq, bu vaxt xəsarətlər zərərçəkənlə hücum edənin bilavasitə yaxın təmasda olduqları vəziyyətdə yetirilir və real hadisə yeri mühitində vəziyyətin mərhələ-mərhələ canlandırılması ekspert qiymətləndirilməsində həlledici əhəmiyyət kəsb edir. Zərərçəkənə və ya təqsirləndirilənə yoxlanılan varianta uyğun poza tutmaq və alətin vəziyyətini nümayiş etdirmək təklif edilir (alət maketini xəsarət yetirən anda olduğu əlində tutsun və ya ona başqa vəziyyət versin). Foto və video çəkilişlə dinamikada bədənin travma alan hissəsinə münasibətdə alətin və ya digər predmetin travma törədici hissəsinin açıq mühitdə istiqaməti (bıçaq tiyəsinin və ya digər alətin kəsər tərəfi, ülgücü, küpü) fiksə edilir. Zərərçəkənlə hücum edənin qarşılıqlı vəziyyəti bir-birinə və ətraf mühitdəki əşyalara nisbətdə qeyd edilir. Konkret variantdan asılı olaraq dinamikada bu göstəriciləri dəyişməklə, zərərçəkənin özünü müdafiə və hücumu dəf etməsi hərəkətləri təsbit edilir. Eyni vaxtda alınmış məlumatlar meyitin müayinə nəticələri ilə tutuşdurulur və təcrübi yolla vəziyyətin elə modeli qurulur ki, həmin model düzgün təyin edilmiş faktiki məlumatlarla daha artıq dərəcədə uyğun olsun. Eksperimentdə alət tutmuş əlin hərəkət trayektoriyasını, təsiredici qüvvənin vektor istiqamətini, onun tətbiq nöqtəsini izləmək və obyektiv surətdə videolentə köçürmək mümkündür. Bu da yara kanalının mümkün ola biləcək istiqaməti, zərbənin təxmini gücü barədə mülahizələr

yürütməyə, zərərçəkənin bədənindəki yaranın ekspert yolu ilə müəyyən edilmiş yerləşdiyi yerin, onun küt və iti tərəflərinin lokalizasiyasının və yara kanalı istiqamətinin istintaq eksperimenti iştirakçılarının göstərdikləri şəraitə uyğun olmalarını təyin etməyə imkan verir. Xəsarətlərin törənmə mexanizmi və şəraiti barədə alınmış məlumatlar sxemlərdə əyani şəkildə göstərilir.

Nəticələrə qiymət verdikdə bunu nəzərə almaq vacibdir ki, eksperiment gedişində alınan məlumatlar həmişə «bıçağı öz-özünə batırma»nın mümkünlüyü haqda mütəxəssisin yekun, hərdən fərziyyəvi mülahizləri üçün kifayət olmur. Çünki, istintaq eksperimentində bir çox mühüm amilləri və istintaq edilən vəziyyətin obyektiv parametrlərini qeydə almaq mümkün olmur. Alətin bəzi konstruktiv xüsusiyyətlərini (məsələn, kəsər tərəfin ifadə edilmə dərəcəsi) obyektiv qiymətləndirmək olmur, paltar qatlarının sayı və onların materialı, zədələnmiş toxuma və orqanların və s. xüsusiyyətləri biri-birinə uyğun gəlmir. Bu məsələləri ekspertiza və ekspert eksperimenti keçirməklə dəqiqləşdirmək olar.

Küt alətlə xəsarətlər yetirilən hallarda ifadələr və istintaq variantları yoxlanılarkən eksperiment iştirakçılarının ifadələri və onların nümayiş etdikləri bütün hərəkətlər detallıqla təsbit olunur. Onların qarşılıqlı vəziyyəti, pozası və onun hadisə dinamikasında dəyişməsi nəzərə alınır, xəsarətlərin yetirilmə şəraiti, hücum edənin əlində travma alətinin tutulma qaydası, alətin izqoyan səthinin bədənin zədələnmiş hissəsinə münasibətdə istiqaməti dəqiqləşdirilir və yenidən canlandırılır, travmatik təsir barədə məlumatlar (zərbə, təzyiq, gərilmə, sürtünmə), onların sayı, ardıcıllığı, tətbiq yerləri və qüvvənin istiqamətləri fiksə edilir.

Odlu silah zədələnmələri hallarında yaralanma hadisəsinin yenidən qurulması

gedişində əsas diqqət irəli sürülən variantların yoxlanılmasına və aşağıdakı sualların həllinə yönəldilir:

-- atəşin məsafəsi barədə;

-- atəş açılan yer barədə;

-- atəş açılan anda zərərçəkənlə hücum edənin qarşılıqlı vəziyyəti və pozaları barədə;

-- zərərçəkənin bədənində və paltarında və digər tərəfdən ətraf mühit əşyalarında iz və zədələrin qarşılıqlı münasibəti barədə;

-- güllənin uçuş yolunda konkret maneənin və xarici rikoşet şərtlərinin təyini barədə;

-- xəsarətləri şəxsin öz əli ilə yetirə bilməsinin mümkünlüyü barədə;

Eksperimentə hazırlıq mərhələsində odlu silah mərmisinin növü və xüsusiyyətləri, patronun hazırlanma xarakteristikası, silahın xüsusiyyətləri (model, kalibr, lülənin və en kəsiyinin sayı, konstruksiya dəyişiklikləri və s.) barədə məlumatlar, atəş açıldığı yer və məsafə barədə, eksperimentin müxtəlif iştirakçılarının fikrinə görə atəşin sayı barədə məlumatlar aydınlaşdırılır.

Bu sualların, hər şeydən əvvəl zərərçəkənlə silahın qarşılıqlı vəziyyəti, eləcə də odlu silah mərmisinin istiqaməti barədə sualların həll edilməsinin əsas metodu hadisə yeri mühitinin yenidən qurulma şəraitində məkanı nişan almasıdır. Bunun mənası ondan ibarətdir ki, zərərçəkənin bədənindəki yara kanalının (müəyyən pozada) vektoru əks istiqamətdə, yəni atəş açılan silaha doğru davam edir və odlu silah mərmisinin ehtimal olunan uçuş istiqaməti ilə uzlaşdırılır. Atəşin yaxın məsafədə nişan alınması istənilən uzunsov, düz xətt formalı və qeyri-elastik əşyadan istifadə etməklə keçirilir. Atəşin uzaq məsafədən açıldığı hallarda isə bunun üçün sadə lazer şüalandırıcılardan, geodezik alətlərdən və ya sərt dartılmış kəndirdən istifadə olunur. Nişanlayıcının bir ucu silah lüləsinin en kəsiyinə, digər ucu isə odlu silah yarasının giriş dəliyi yerləşdiyi nahiyyəyə bərkidilir. Silah lüləsinin istiqamətini, zərərçəkənin pozasını, maneənin olmasını nəzərə alaraq, güllənin uçuş istiqamətinin müxtəlif variantlarda və vəziyyətin eksperimental modellərində, zərərçəkmişin bədənindəki yara kanalının əvvəllər təyin edilmiş istiqamətinə nə dərəcədə uyğunluğu müəyyən edilir. Bunlar uyğun gəlmədiyi halda, modelləşdirmə gedişində silah lüləsi köndələn oxunun zərərçəkənin bədənindəki giriş dəliyinin yerləşdiyi yerlə və yara kanalının istiqaməti ilə uyğunlaşdırılmasına çalışmaq lazımdır. Bu vaxt həmin mühitin həcmini, maneələri olmasını və hadisə yeri mühitini bütövlükdə nəzərə almaq vacibdir.

Odlu silah yaralanması şəraitinin yenidən bərpa olunması və ekspert qarşısında qoyulan məsələlərin həllinə, hadisə yerinin miqyaslı planının tərtib edilməsi kömək edir. Bu planda meyit və müxtəlif maddi sübutların (məsələn, gilizin) qarşılıqlı yerləşməsi, ətraf mühit əşyalarında odlu silah zədələri, atəş məhsullarının bu əşyalara çökməsinin topoqrafiyası göstərilir.

Gilizə görə hadisə yerində atəş açanın olduğu yerin eksperimental təyini metodikası bir neçə alim tərəfindən təsvir edilmişdir. Bunun əsasını odlu silahın hər bir növü üçün gilizlər atəş anında müəyyən istiqamətdə və müəyyən məsafəyə uçmalarından ibarət gilizlərin yerləşməsinin məlum qanunauyğunluğu təşkil edir. Bu qanunauyğunluğa əsaslanaraq, eksperiment gedişində, cinayətkarın istifadə etdiyi silahdan analoji mərmilər tətbiq etməklə atəşlər açılır və atılmış patron gilizlərinin düşdüyü yer nəzərə alınır. Təcrübələrin nəticəsi üzrə, silahın yerləşdiyi yer sıfır nöqtəsi olmaqla koordinatlar sistemi kimi təqdim edilən gilizin düşmə yerinin miqyaslı sxemi tərtib olunur. Həmin sxem hadisə yerinin xüsusi hazırlanmış - giliz, meyit və digər maddi sübutların qeyd edildiyi eynimiqyaslı plan ilə tutuşdurulur. Eksperimental atəşlərdə gilizlərin səpələnmə sahəsinin hadisə yerində olan gilizlərin yerləşdiyi sahə ilə uyğunlaşmasının alınmasına cəhd olunur. Keçirilmiş real eksperiment hüdudunda atəş açan şəxsin dura biləcəyi 50 sm radiusunda zonanı müəyyən etmək mümkün olmuşdur.

Partlayış travmasının bəzi hallarını da ifadələrin yoxlanılması və ya istintaq eksperimentinin keçirilməsi yolu ilə dəqiqləşdirilməsi mümkündür.

Bunun üçün aşağıdakı sualları həll etmək lazımdır:

- partlayıcı qurğunun və zərərçəkənin bədəninin qarşılıqlı yerləşməsi (partlayış episentrinə münasibətdə bədənin yerləşməsi və istiqaməti);
- zərərçəkənin bədənində və ətraf mühit əşyalarında xəsarətlərin uyğunluğunu və onların eyni anda baş verməsinin mümkünlüyü (bir partlayışdan);
- aşkar olunmuş zədətörədici elementlər partlayıcı qurğu örtüyünün və ya maneənin dağılmasının tipik variantıdırmı;

- qəlpələrin uçuşunun maksimal uzaqlığı və ya partlayışın digər faktorlarının təsir radiusu necədir;
- qəlpələr hansı məsafəyədək öz zədətörədici xüsusiyyətlərini saxlamışdır:

Partlayışın reallığa yaxın halları poliqon şəraitində biomanekenlərdən və partlayıcı qurğunun analoqlarından istifadə olunmaqla imitasiya oluna bilər. Aydındır ki, belə təbii eksperimenti keçirmək hər dəfə mümkün olmur. Buna görə də bu suallardan bəziləri ifadələrin yoxlanılması gedişində hadisə yerinin təkrar müayinə edilməsi və onun hissəvi rekonstruksiyası ilə həll edilir.

Boyunun sıxılması -- ilgəklə boğma və ya asılma vəziyyətlərinin istintaq eksperimenti şəraitində yenidən qurulması aşağıdakı məqsədlə aparılır:

- asılma və ilgəklə boğulmanın differensial diaqnostikasında boyunun sıxılma mexanizminin yoxlanılması və dəqiqləşdirilməsi;
- travma alətləri barədə əvvəllər alınmış ifadələrin yoxlanılması -- materialın xarakteri barədə (küt elastik və bərk əşyalar, silahsız şəxsin bədən hissələri, səthin relyefi), ilgəyin növü barədə (elastikliyi), onun hazırlanma üsulları, dövrələrin sayı, ucların birləşmə üsulları, düyünün yerləşmə yeri və s. barədə;
- stranqulyasiya şırımının görünməsi və itməsi vaxtının hadisə yerinin konkret şəraitlərində təyini;
- zərərçəkənin pozasının, sıxılma anında zərərçəkənlə hücum edənin qarşılıqlı duruş vəziyyətinin təyini;
- öz-özünü boğmanın (öz-özünü asmanın) mümkünlüyünün və ya qətli gizlətməyə cəhd edərkən bu halların uydurulmuş olmasının yoxlanılması.

Məhkəmə-tibbi ədəbiyyatda mexaniki stranqulyasyon asfiksiya hallarında istintaq eksperimentinin keçirilməsi E.S.Mişinin (1995,1997) və Y.A.Molinin (1996) işlərində daha ətraflı işıqlandırılmışdır.

Eksperiment maneken, o cümlədən biomaneken üzərində və ya statist cəlb edilməklə keçirilə bilər. Statistin həyat və sağlamlığı üçün təhlükənin aradan qaldırılması məqsədilə alət kimi qeyri-travmatik predmetlərdən (məsələn, ilgəyin ölçülərinə uyğun olan kağız lent)

istifadə edilir və ya ilgəyin analoqu hissələrə bölünür və sonra nazik sapla bərkidilir.

Ölümün baş vermə şəraitini və boyunun sıxılma mexanizmini yoxlayarkən istintaq eksperimentinin konkret vəzifə və şərtlərindən asılı olaraq aşağıdakılar yenidən təkrarlanmalıdır: ilgəyin konstruksiyası (dartılan və ya dartılmayan, dövrə və burumların sayı, uclarının birləşmə xarakteri - küt uclu, kəsişməli, düyünün yerləşdiyi yer), onun hazırlanma və boyuna keçirilmə üsulları, ilgəyin yerləşməsi (gücün təzyiq yeri), istiqaməti və onun dartılma qüvvəsi, sıxılmanın sayı, zərərəçəkənin və hücum edənin əllərinin vəziyyəti. Eksperiment gedişində zərərəçəkənin və hücum edənin pozasına və qarşılıqlı yerləşmələrinə, ilgəklə dəri arasında tük, paltar və digər əşyaların olmasına, ətrafdakı əşyalara münasibətdə zərərçəkənin bədəninin yerləşməsinə diqqət yetirilir.

Y.A.Molin göstərir ki, eksperiment başlamazdan əvvəl statistin boynunda stranqulyasiya şırımını müəyyən işarələrlə imitasiya etmək məqsədəuyğun olardı. Aydındır ki, bunu ancaq şübhəli şəxs (təqsirləndirilən) eksperimentdə iştirak etmədikdə həyata keçirmək olar, yaxud da bu işarələr nəzərə çarpmamalıdır.

Özünü asmaq (özünü boğmaq) variantını yoxlayarkən təcrübi yolla ilgək rekonstruksiya olunur. Əvvəllər keçirilmiş tədqiqatları nəzərə alaraq ardıcıllıqla ilgəyin bərkidilməsində dayaq kimi xidmət edən əşyalara onun fiksə edilməsi mərhələləri, boyuna keçirilmə üsulları canlandırılır. Bununla eksperimental olaraq ölənin sərbəst surətdə özünü asa bilməsinin mümkün və ya qeyri-mümkün olması əsaslandırılır.

Hündürlükdən yıxılma hallarında istintaq eksperimenti keçirilərkən aşağıdakı əsas məsələlər həll edilir:

- yıxılmanın baş verdiyi yer və hündürlük;
- qeyri-iradi yıxılmanın və ya ilkin surət verməklə yıxılmanın mümkünlüyü;
- yıxılmanın xarakteri və trayektoriyası (sərbəst və ya pilləkanvari).

Ekspert məsələlərini həll etmək üçün eksperiment keçirilməsi metodikası A.N.Lebedev tərəfindən (1986) təklif edilmişdir. Bunun

üçün zərərçəkənin uzunluğuna, çəkisinə, ağırlıq mərkəzinə müvafiq olan antropometrik balanslaşdırılmış maneken hazırlanır. Təcrübələr silsiləsində zərərçəkənin güman edilən yıxıldığı yerdən, müxtəlif start mövqeyindən və müxtəlif şəraitlərdə -- surət verməklə (zərbə, itələmə, tullama) və ya surət vermədən maneken aşağı atılır. Nəticə kimi manekenin son vəziyyəti nəzərə alınır və onun ağırlıq mərkəzindən şaquli yıxılma səthinə nisbətdə məsafə ölçülür. Manekenin yerdəyişmə trayektoriyasını göstərmək üçün, xüsusən də pilləkanvari yıxılmalarda videoçəkiliş tətbiq edilir.

O.X.Teteris (1990) naməlum şəraitdə hündürlükdən yıxılma hallarında xəsarətlərin törənmə mexanizmini əsaslandırmaq üçün dinamik modelləşdirmə metodundan istifadə etmişdir. Bunun üçün biomanekendə meyit qacıması bütünlüklə bərpa edilir və meyitin keçirilmiş hissəvi müayinəsinin məlumatları nəzərə alınmaqla meyitə yerə dəydiyi anda aldığı poza verilir. Bədənin ayrı-ayrı hissələrinin vəziyyətini dəyişməklə və inersion-qravitasion (ətalət-cazibə) təsiri imitasiya etməklə, bədən hissələrinin yaranan hərəkətlərinin və deformasiyasının xarakterini müşahidə edirlər.

Beləliklə də travmaların törənmə mexanizminin bütövlükdə qanunauyğunluğu qeydə alınır və hündürlükdən yıxılmanın konkret hallarında xəsarətlərin əyani, eksperimental və əsaslandırılmış törənmə mümkünlüyü əldə edilir.

Yol nəqliyyat hadisələrindəki cinayət işlərinin istintaqında istintaq eksperimenti daha tez-tez keçirilir. Bu xəsarətlərin əmələ gəlmə şəraiti və şərtlərini dəqiqləşdirməyə və ekspert qarşısında qoyulan sualların xüsusən də aşağıda göstərilənlərin təyinində həlli üçün əlavə məlumatlar almağa imkan verir:

- birinci zərbə anında və travmanın sonrakı dövrlərində zərərçəkənin pozasını;
- nəqliyyat vasitəsinin xəsarət törədə biləcək hissə və detallarını;
- piyada ilə toqquşmuş nəqliyyat vasitəsinin növü, zərərçəkənin avtomaşın daxilində olduğu yer, travma mexanizmi (travma törədici qüvvənin tətbiq yeri və istiqaməti) istintaq variantları və ya ekspert fərziyyələri.

Eksperimentdə statist cəlb olunmaqla əsl nəqliyyat vasitəsindən və ya eyni markalı avtomaşından istifadə olunur. Nəqliyyat travmasının növündən asılı olaraq statist hadisə şahidlərinin ifadələrinə uyğun maşına yerləşdirilir ya da onunla yanaşı durur. Əsas xəsarətlərin yerləşdiyi nahiyələr statistin paltarında işarələrlə qeyd edilir. Zərərçəkənin bədənindəki xəsarətlərin lokalizasiyasını, qüvvənin tətbiq nöqtələri, nəqliyyat vasitəsinin zədələri və konstruktiv xüsusiyyətləri ilə tutuşdurub, eksperimentdə bu və ya digər variantın ehtimalı müəyyən edilir. Nəticələrin qiymətləndirilməsi çox vaxt kompleks məhkəmə-tibbi və avtotexniki ekspertizanın keçirilməsini tələb edir.

Piyadanın bədənində hərəkətdə olan avtomaşınla toqquşma nəticəsində törənmiş xəsarətlərə aid eksperiment metodikası L.M.Fridman (1970) tərəfindən hazırlanmışdır. Maneken və statistlərdən istifadə etməklə müxtəlif avtomobil növləri və traktor travmalarında yol-nəqliyyat hadisələrinin şəraitlərini dəqiqləşdirmək üçün istintaq eksperimentinin müvəffəqiyyətlə keçirilməsinə dair nümunələr və tövsiyələr M.İ.Avdeyev (1976), A.A.Soloxin (1983), V.L.Popov (1991), Ş.A.Səlimxanov (1992), Ş.M.Musayev (1999, 2000) və başqa alimlərin işlərində göstərilmişdir.

Çoxsaylı, uyğunlaşdırılmış və kombinə edilmiş xəsarətlər olan bütün hallarda ayrı-ayrı təsirlərin ardıcıllığı və ölümün baş verməsində onların rolu məsələsini həll etmək üçün, eksperiment gedişində onun iştirakçılarından həyatın davam etməsini göstərən hər bir tibbi məlumat, əsas həyatı funksiyaların sönmə ardıcıllığı və sürəti - zərərçəkənin müstəqil hərəkətlər etməsi və hərəkətlərin həcmi, tənəffüsün xarici əlamətlərinin, yerişin, hərəkət aktivliyinin və reaksiya tezliyinin dəyişilməsi, qıcolma tutmalarının, qeyri-iradi sidik və defekasiyanın, qusmanın, dərinin rəngində dəyişiklik baş verməsi, qanaxmanın xarakteri və mənbəyi soruşulub dəqiqləşdirilir.

Hadisə yerinə baxış keçirilərkən və onu yenidən qurarkən, hadisənin öz prosesində və ya ondan sonra (meyitə baxarkən, yerini dəyişdirərkən) ətraf mühit əşyaları təsirindən təsadüfi, əlavə xəsarətlərin yaranması mümkünlüyünə diqqət yetirilməlidir.

Əvvəlcədən hazırlanmış şəraitdə insanın konkret hərəkətləri yerinə yetirə bilməsi imkanının müəyyən edilməsinə dair eksperiment bir qayda olaraq, müstəntiqdə bunun mümkünlüyünə şübhə yarandıqda keçirilir. Eksperimentin keçirilməsinə səbəb bu və ya digər hərəkəti yerinə yetirərkən insanın daşıya biləcəyi fiziki ağırlığın həddən artıq olması və həmin ağırlığın bədənin anatomik və konstitusional xüsusiyyətlərinə uyğun gəlməməsidir; Məsələn, insanda hər-hansı anatomik defektlərin, xəstəliyin olması, xüsusi fiziki hazırlığın olmaması. Şübhələrə səbəb insanın fiziki imkanlarını, hərəkətlərin həcmini və digər halları məhdudlaşdıran yaşı da ola bilər.

Məhkəmə-tibbi təcrübənin predmetinə aid edilən şəxsin konkret hərəkətlər edə bilməsi - müəyyən yük qaldırması, məhdud vaxt ərzində müəyyən məsafəyə qaçması, hər hansı bir aləti tətbiq edə bilməsi, həmin alətlə müəyyən qüvvə ilə zərbə vurması, öz-özünə xəsarət yetirməsi və ya hadisə yerinin konkret şəraitində digər yolla travma törətməsi bu yolla yoxlanılır. Bu növ istintaq eksperimentinin gedişində insanın özünü asmaq və ya özünü boğmaq imkanı barədə obyektiv məlumatlar almaq olar. Bəzi hallarda istintaq eksperimenti ölümün növü haqda variantın yoxlama üsulu ola bilər.

Xəsarətlərin əmələgəlmə mexanizminin yenidən qurulması bu növ istintaq hərəkətini yuxarıda şərh edilənlərlə yaxınlaşdırır. Lakin, burada məqsəd istintaq olunan hadisənin (fakt, təzahür) şəraitini yoxlamaq deyil, hadisədə konkret şəxsin iştirakının mümkünlüyünün eksperimental əsaslandırılması və hər hansı bir hərəkəti onun özünün yerinə yetirə bilməsi sualının həllidir.

Təbii ki, belə eksperimenti bacarığı yoxlanılacaq şəxsin iştirakı olmadan keçirmək mümkün deyil. Onu statist əvəz edə bilməz. Məhkəmə həkimi burada eksperimentin keçirilməsinin mütləq şərtlərinin yerinə yetirilməsinə, eksperimentin nəticələrini düzgün qəbul etməyə imkan verən müqayisə meyarlarına riayət edilməsinə nəzarət edir.

Hadisənin həqiqi iştirakçıları ilə eksperiment keçirmək mümkün olmadıqda, (şübhəli və ya təqsirləndirilən şəxs istintaq hərəkətində iştirak etməkdən imtina etdikdə) müstəntiq, mütəxəssisin iştirakı ilə

və hadisənin real şəraitinə maksimum dərəcədə uyğun gələn əvvəlcədən hazırlanmış şəraitdə, müxtəlif fiziki inkişaf səviyyəsi və ya xüsusi hazırlığı olan bir neçə statistə növbə ilə müəyyən hərəkətlər etməyi təklif edir. Statistlərdən biri öz fiziki inkişaf parametrləri və ya digər əhəmiyyətli xarakteristikaları üzrə təqsirləndirilən (şübhəli) şəxsə uyğun olmalıdır. Eksperimentin nəticələri ilə müəyyən hərəkəti etmək üçün insanın malik olmalı fiziki bacarığının minimal həddi müəyyən edilir və təqsirləndirilən şəxsin fiziki inkişafının səviyyəsi ilə müqayisədə daha çox ehtimallı variantlardan biri seçilir.

Silahsız adam tərəfindən törədilmiş travma hallarında travmanın törənməsi üçün lazım olan energetik parametrləri (onun həcmini xarakterizə edən əlamətlər üzrə) konkret şəxsin maksimal energetik imkanları ilə tutuşdurmaq lazımdır. Bu məsələ də istintaq eksperimentinin prosessual çərçivəsində mütəxəssisin cəlb edilməsi ilə həll edilə bilər.

İnsanların ekstremal stress vəziyyətlərində etdikləri hərəkətlər barədə çox sayda faktları unutmaq olmaz. Adi vəziyyətlərində insanlar həmin hərəkətləri yenidən edə bilmirlər. Əgər insanın fiziki imkanlarının yoxlanılması hadisə yeri mühitinin yenidən qurulmasını tələb etmirsə, məsələ müayinə aparmaqla həll edilə bilər.

İstintaq eksperimenti gedişində insanın peşəkar bilik və təcrübəsi, o cümlədən cinayət fəaliyyəti səriştəsi yoxlanıla bilər. Xüsusən də bu, silsilə cinayətlərə aiddir. Belə hallarda təqsirləndirilən şəxs xəsarətlərin yetirilmə üsulu və mexanizmini nümayiş etdirir, onun hərəkətlərində kriminal «dəsti-xətt»in təyin edilməsi istintaq və məhkəmə üçün mühüm sərbəst sübuti əhəmiyyət kəsb edir. Məhkəmə həkimi istintaqın digər iştirakçılarından fərqli olaraq xəsarətlərin yetirilmə mexanizminin detallarını daha yaxşı bilir. Mütəxəssis bir neçə meyit olan cinayət hadisələrində, iş üzrə artıq icra olunmuş çoxsaylı ekspertiza nəticələrini təhlil edərək ümumiləşdirmək, istintaq eksperimentinin keçirilmə şərtlərinin ekspert nəticələri ilə uyğun gəlməsinə nəzarət etmək imkanına malik olur. Silsilə cinayətlərin istintaqında məhkəmə-tibb ekspertinin istintaq eksperimentinə cəlb edilməklə xüsusi biliklərdən istifadənin bu formasının effektivliliyi xüsusi əhəmiyyət kəsb edir.

Bir başa sübutların kifayət qədər olmaması və maddi sübut bazasının çatışmamazlığı ilə müşahidə olunan cinayətlərin təhqiqatında istintaq ittiham nəticəsinin əlavə əsaslandırılmasını cinayətin törədilmə üsulunun analogiyasının müəyyən edilməsində görür. Məhkəmə-tibbi ekspertiza və istintaq hərəkətlərinə ekspertin cəlb edilməsi bu zaman ümumi xüsusiyyətlərin, keyfiyyət və ya kəmiyyətcə oxşarlığın, yaxud əksinə, bədən xəsarətlərinin fərqliliyinin (xarakteri, lokalizasiyası, morfologiyası, törənmə mexanizmi, həyatiliyi və müddəti və s.) və cinayət barədə tibbi və bioloji məlumat daşıyan digər əlamətlərin aşkarlanması məqsədini daşıyır.

Təcrübə göstərir ki, silsilə cinayətlər barədə cinayət işləri üzrə istintaq eksperimentinin və ifadələri yoxlanılmasının keçirilməsi, məhkəmə-tibb eksperti işinin təşkili və taktikası baxımından müəyyən xüsusiyyətlərlə xarakterizə olunur. Bu xüsusiyyətlər içərisindən aşağıdakıları ayırmaq olar:

-- hər bir istintaq olunan epizod üzrə yoxlama keçirilir (cinayətin «silsilə» xarakteri - bir qayda olaraq, seriyalı istintaq eksperimentləri keçirilməsi zərurətinə səbəb olur);

-- hər bir epizod çərçivəsində əsas istintaq variantları və cinayət iştirakçılarının (cinayət qrupu üzvlərinin) ifadələri ayrı-ayrılıqda yoxlanılır;

-- yaranan istintaq-ekspert vəziyyətindən asılı olaraq, eksperiment ardıcıl olaraq cinayətkar qrupun hər bir iştirakçısı ilə - onların ifadələrində ziddiyyət olduqda və ya ziddiyyəti aşkar etmək zərurəti yarandıqda, yaxud eyni vaxtda qrupun bir neçə üzvü və ya qrupun bütün iştirakçıları ilə - onların ifadələri uyğun gəldikdə keçirilə bilər (bu ifadələrin yoxlanılmasına aid deyil çünki, eksperiment ifadəsi yoxlanan hər bir şəxslə ayrılıqda keçirilir);

-- qrupun müxtəlif iştirakçıları ilə bir versiyanın yoxlanılmasında eksperimentin eyni metodikasından - alətin eyni və ya analoji maketindən, eyni statistlərdən istifadə edilməli, hərəkətlərin canlandırılması ardıcıllığı, mühit eyni olmalıdır və sair. (yəni, təcrübələrin nəticələrinin müqayisəsinin ümumi meyarlarına əməl olunmalıdır);

-- eksperiment (ifadələrin yoxlanılması) nəticələrinin qiymətləndirilməsi və onların ekspert məlumatları və işin digər materialları ilə tutuşdurulması kompleks xarakter daşımalı, əhəmiyyət kəsb edən bütün məhkəmə-tibbi əlamətləri əhatə etməlidir. Bunun üçün müqayisəli analitik cədvəllərin tərtib edilməsi məqsədəuyğundur.

Aşağıda silsilə (seriyalı) cinayətlərin istintaqı hallarında istintaq eksperimenti mövzusu ola biləcək, təcrübələrə hazırlıqda və nəticələrin qiymətləndirilməsində nəzərə alınacaq məhkəmə-tibbi diferensial-diaqnostik meyarların təxmini siyahısı olan analitik cədvəlin nümunəsi göstərilmişdir:

Cədvəl 3. Çoxepizodlu və silsilə cinayət hadisələrində istintaq eksperimenti nəticələrinin qiymətləndirilməsi üçün müqayisəli-analitik cədvəl nümunəsi.

ƏLAMƏT	Məhkəmə-tibbi ekspertiza məlumatları	İstintaq eksperimental yoxlamanın nəticələri	
		Epizod №1	Epizod №2
Zərərçəkən			
cinsi			
yaşı			
xəstəliyi			
inkişafın fiziologı (patologı) vəziyyəti, anomaliyaları			

bədəndə güclü təsiredici və zəhərləyici maddələrin olması			
Cinayətin törədilmə şəraiti və zərərçə-kənin aşkar edilməsi			
yeri			
vaxtı			
digər şəraitlər			
Ölümün səbəbi			
Xəsarətlərin yerləşməsi (bədən nahiyələri üzrə)			
Xəsarətlərin xarakteri (bədənin konkret nahiyəsində)			
travmanın mexanizmi (zərbə, təzyiq və s.)			
qüvvənin tətbiq yeri			
travmatik təsir istiqaməti			
təsir qüvvəsi			
təsirin sayı (dəfələrlə)			
təsirin ardıcıllığı			

alətin boşluqda təxmini istiqaməti			
Travma alətləri:			
ümumi xarakteristikası, təyinatı			
materialı			
ölçüləri			
çəkisi			
forması			
səthinin relyefi			
çirklənmə, çökmə			
konstruksiya və təchizat xüsusiyyətləri			
Xəsarətin öz əli ilə yetirilməsi mümkünlüyü			
Zərərçəkənin vəziyyəti			
Hücumedənin vəziyyəti			
İştirakçıların olduğu yer			
Hadisə yeri mühiti-nin təsiri (mühit, travma aləti, sədd,			

gizlətmə vasitəsi və s. kimi)			
İzlərin gizlədilmə üsulları			
Paltarların çıxarılma üsulları və zədələri			
Xüsusi bilik (vərdiş) əlamətləri			

Cədvəlin quruluşu istintaq hərəkətləri gedişində (dindirmə, tanınma, istintaq eksperimentləri, yoxlamalar və s.) və ekspert yolu ilə alınmış məlumatların, işin digər materialları ilə tutuşdurulması imkanını nəzərə alır. İstintaq variantları müqayisəsinin məhkəmə-tibbi meyarlarını qaydaya salmağa imkan verir. Cinayətin törədilmə üsullarının oxşarlıq və ya fərqlənmə əlamətlərini aşkar etməkdə müstəntiqin işini asanlaşdırır.

İstintaq eksperimentinin üçüncü növü - hər-hansı hadisənin və ya prosesin, onun zərərçəkənə təsiri şəraitinin və nəticəsinin təyin edilməsi və ya mümkünlüyünün yoxlanılmasıdır. Burada hadisə iştirakçılarının münasibətindən asılı olmayan hadisənin prinsipial mümkünlüyündən danışılır. Bir qayda olaraq, yoxlama keçirilməsi zəruri olan konkret şəraitlər ya əvvəlcədən məlum olur ya da istintaq tərəfindən fərz edilir. Bu zaman həll olunan məsələlərin variantları aşağıdakılardır:

- hər hansı bir zədətörədici amilin - mexaniki, termiki, kimyəvi, elektrik, barometrik, akustik, optik, radioloji, bioloji -- mövcud olması mümkünlüyünün yoxlanılması və onun mahiyyət və mənbəyinin təyini;
- öyrənilən təzahürün xarakteristikasının dəqiqləşdirilməsi və yoxlanılması (məsələn, binanın temperatur rejimi, elektrik cərəyanının dövrədə şiddəti və gərginliyi, səs-küy səviyyəsi, işıq şüasının parlaqlığı, mühitin kimyəvi tərkibinin dəyişilməsi

parametrləri, texnoloji qəzalar nəticəsində zəhərli maddələrin havada, suda və torpaqda yayılması xüsusiyyətləri);

- göstərilən amillərin insan orqanizminə təsirlərinin mümkün ola biləcək mənfi nəticələrinin müəyyən edilməsi -- karlaşma, kor olma, huşun pozulması, hamiləliyin pozulması, xəsarətlərin törənməsi, patoloji reaksiyaların, bədəndə geridönməz dəyişikliklərin inkişafı və ya ölümün baş verməsi və sair.

Sadalanan hər üç məsələ, bir qayda olaraq, kompleks həll olunur. Bu cür istintaq eksperimentlərinin keçirilməsinə məhkəmə həkimi o halda cəlb edilir ki, güman edilən faktor -- yüksək və ya aşağı hərarət, elektrik cərəyanı, toksiki maddələr, təbiət və iqlim şərtləri və ya digərləri -- insan orqanizminə mənfi təsir göstərmişdir və ya göstərə bilər, hansı vasitə ilə meyitin vəziyyətinə və digər bioloji obyektlərə təsir etmişdir. Müstəntiqə təsir faktlarını təsdiq etmək, onun xarakterini, şəraitini və ehtimal olunan nəticəsini müəyyən etmək lazımdır. Çox vaxt, müxtəlif xarici faktorların insan orqanizminə təsir etdiyi hadisələr təsadüf nəticəsində törənir; Məsələn, məişətdə və istehsalatda bədbəxt hadisələr zamanı, tək-tək hallarda isə cinayətkar tərəfindən xəsarətlər yetirmək və ya cinayət izlərini gizlətmək məqsədilə istifadə edildikdə. Cinayətin gizlədilməsi məqsədilə ölümün baş vermə şəraitinin «səhnələşdirilməsi»nə şübhə yarandığı üçün istintaq eksperimenti gedişində məsələ dəqiqləşdirilə bilər.

Xarici zədətörədici amillərin mövcud olması faktını, onların insan orqanizminə təsirinin konkret şərt və nəticəsini müəyyən etmək istintaqın birinci dərəcəli vəzifəsidir. Bu məsələnin həlli cinayət hadisəsinin sübut edilmə əsasında və onun hüquqi qiymətləndirilməsindədir.

Bəzən məhkəmə-tibb ekspertinin təcrübəsində elə hallara rast gəlinir ki, bütün xüsusi tədqiqatların keçirilməsinə baxmayaraq xəsarətlərin törənmə səbəbi, xəstəliyin inkişafı və ölümün nədən baş verməsi aydınlaşmır. İstintaq tərəfindən istehsalat (məişət) travması və ya zəhərlənmənin mümkünlüyü güman edilir. Bu halda zədə-törədici faktorun özünün təyini, travma (zəhərlənmə) və ya ölümün baş vermə şəraitinin qiymətləndirilməsi üçün ölümün baş vermə şəraitinin modelləşdirilməsi, istehsalat mexanizmlərinin və texnoloji

proseslərin işə salınması tələb oluna bilər. Prosessual qanunlara riayət və istintaqın obyektivlik tələbi nöqteyi-nəzərincə bunu istintaq eksperimenti şəraitində yerinə yetirmək daha optimaldır. Zərurət yaranarsa laborator müayinələr üçün hava, su, torpaq, istifadə olunan xammal, hazır məhsul, istehsalat tullantıları və ya digər obyekt nümunələri götürülür. Bu məqsədlə, real hadisə mühitinə maksimum yaxın şəraitdə laborator heyvanlar üzərində bioloji təcrübələr keçirmək olar.

Məhkəmə-tibb eksperti belə hallarla meyit olmadıqda, hissəvi və ya bütünlüklə məhv edildikdə və ya gizlədilib, tapılmadıqda rastlaşır. Əgər qətl faktı digər sübutlarla müəyyən edilmişsə və xəsarətlərin yetirilmə üsulu, istifadə olunmuş alətlər və ölümün digər halları barədə iştirakçı və ya şahidlərin ifadələri varsa, məhkəmə həkiminin iştirakı ilə ifadələrin yoxlanılması və ya istintaq eksperimentinin keçirilməsi, zədətörədici amilin mümkün ola bilən növü, mərhumun bədənində xəsarətlərin xarakteri və ölümün ehtimal olunan səbəbi barədə obyektiv məlumatların alınmasında yeganə prosessual vasitə ola bilər.

İnsanın travma aldığı və ya öldüyü şəraitin məlum olmasına baxmayaraq, onların yoxlanılması tələb edilərsə, istintaq eksperimentinin keçirilmə metodikası və məzmunu güman edilən və yaxud artıq istintaqa məlum olan zədətörədici amilin xarakterindən asılıdır. Mexaniki təsir hallarında məhkəmə-tibb ekspertinin iştirakı ilə istintaq eksperimenti keçirilməsi yolu ilə konkret alətdən istifadə edilməklə insanda xəsarətin yaranması mümkünlüyünü yoxlamaq və bunun üçün lazım olan şərtlərin - qüvvə, təsir istiqaməti və s. müəyyənləşdirmək olar. Məhkəmə-tibbi təcrübədə, digərləri ilə müqayisədə, bu istintaq eksperimentinin daha nadir növüdür. Buna bənzər sualların bir çoxu ekspertiza və ekspert eksperimentləri keçirilməsi yolu ilə həll edilir. İstintaq eksperimentinin hazırlıq mərhələsində xüsusi tədqiqatlara ehtiyac olmadıqda, məhkəmə həkiminin fəaliyyəti məsələlərin, təcrübələrin keçirilmə şərtlərinin dəqiqləşdirilməsi üzrə müstəntiqə məsləhətlər verməklə məhdudlaşa bilər. İstintaq hərəkəti gedişində isə bu şərtlərə yerində riayət olunmasına nəzarət etməklə ona köməklik göstərir. Oxşar hallarda,

istintaq hərəkətində iştirak etmək üçün məhkəmə-tibb ekspertindən başqa, müvafiq texniki profil üzrə mütəxəssisləri cəlb etmək məqsədəuyğundur. Məsələn; mühəndisləri, texnoloqları, əməyin təhlükəsizliyi üzrə mütəxəssisləri, həkimləri və sair.

Kriminalistik təcrübədən istintaq eksperimentinin bu növünə silahın konkret nümunəsindən özbaşına atəş açılmasının mümkünlüyünü yoxlamaq hallarını aid etmək olar.

Termiki faktorların təsir etdiyi hallarda istintaq eksperimenti travma şəraitinin yenidən qurulması, meyitin yandırılmasına tələb olunan vaxtın təyini (söhbət cinayətin bu üsulla gizlədilməsindən gedirsə), yanğının baş vermə şəraitinin yoxlanılması, (yanğın sahəsi və yanmanın ardıcıllığı), hər-hansı maddənin öz-özünə alovlanmasının mümkünlüyünü yoxlamaq və buna bənzər digər halların təyini üçün keçirilə bilər.

Termiki travma şəraitlərinin eksperimental yoxlanılması mümkünlüyü və müvafiq vəziyyət məsələlərinin həlli xüsusi tipli qurğulardan istifadəni genişləndirir. Bu qurğular - inseneratorlar, bioloji obyektlərin kremasiya şəraitini hadisə şəraitinə uyğun modelləşdirməyə və meyitdəki termiki dəyişikliklərin xarakterini (meyit qalıqlarını) və biomanekeni müqayisə etməyə imkan verir.

Kimyəvi faktorların təsiri də istintaq eksperimentinin predmeti və məhkəmə-tibb ekspertinin onun icrasına cəlb olunması (bir qayda olaraq, zəhərlənmə şəraitini təyin etmək üçün) səbəbi ola bilər. Bəzən zəhərli maddələrin texnoloji qəza şəraitində cihazların işə salınması nəticəsində və ya ştatdan kənar istehsalat hallarında atmosferdə aşkar edilə bilməsi mümkünlüyünün təyin edilməsi tələb olunur.

Elektrotravma hadisələrində istintaq eksperimenti cihazı dövrəyə qoşarkən onun gövdəsində elektrik cərəyanının yaranması mümkünlüyü və cərəyanın əsas fiziki xarakteristikası barədə suallara cavab verir. İstintaq məlum olan şəraitdə elektrik cərəyanı ilə zədələnmənin mümkünlüyünü təyin edərkən, zərərçəkənin pozasını yenidən bərpa edərkən və bədənin müəyyən hissəsinin cərəyandaşıyıcı naqillə təmasda olması aydınlaşdırılarkən məhkəmə-tibb eksperti istintaq hərəkətinin keçirilməsinə aşağıdakı hallarda cəlb edilir: Hadisə yerində nümunələrin alınması üçün məhkəmə

hakiminin istintaq eksperimentində iştirakı məqsədəuyğundur: - bioloji toxumaların bu üsulla alınmış eksperimental zədələri, metal növünü ayırd edərkən müqayisəli tədqiqatlarda və cərəyandaşıyıcı naqilin identifikasiyası məqsədilə metallaşma topoqrafiyasında istifadə edilir. Eksperiment mühəndis-elektrikin, istehsalat travması hallarında isə təhlükəsizlik texnikası üzrə mütəxəssisin mütləq iştirakı ilə keçirilir.

Hər-hansı bir təzahürün mümkünlüyünün müəyyən edilməsi üzrə - meyitin təbii dağılmasının bioloji proseslərinin, entomofaunanın inkişafı proseslərinin və s. modelləşdirilməsi - istintaq eksperimentinin daha bir variantı vardır. Bu üsulla aşağıdakı məsələlərin həlli üçün zəruri olduqda məlumatlar əldə edilə bilər: müəyyən yerdə və müəyyən vaxt ərzində bu və ya digər meyit əlamətlərinin inkişaf mümkünlüyünü qeydə almaqla ölümün nə vaxt baş verməsi haqda, meyitin tapıldığı yerdə qalma müddəti haqda, meyitin yerinin dəyişdirilməsi faktını təyin etmək üçün. Biomanekenlərdən istifadə etməklə aparılan təcrübələrlə meyitin çürüyüb dağılması prosesində bu və ya digər növ həşəratların törənməsi mümkünlüyünü yoxlamaq və mühitin konkret şəraitlərində meyit toxumalarının ölümdən sonrakı dağılmasının tipik və qeyri-tipik inkişafını göstərən məlumatları almaq olar. Həmin məsələlərin həllində istintaq eksperimentinin imkanlarından istifadəsi daha çox aktual olduğundan, bu məqsəd üçün irəli sürülən bir çox elmi məlumatlar müxtəlif səbəblərdən ekspert praktikasına daxil edilə bilmir.

Ölümün nə vaxt baş verməsinin məhkəmə-tibbi təyini üçün bəzi alimlər mühitin təbii şəraitində meyitin dağılma proseslərinin modelləşdirilməsini keçirməyi və prosesləri müəyyən edən amilləri öyrənməyi təklif etmişlər. Onların təklif etdiyi metodikaya müvafiq müstəntiq eksperimental «laboratoriya» təşkil edir. Bu laboratoriya müəyyən sahəni və şəhərdən kənar qorunan zonada su hövzəsini, bitki örtüyünü və faunanı özündə birləşdirir, meteoroloji faktorlar isə qeydiyyata və analizə məruz qalırlar.

Eksperiment obyekti öz bioloji xarakteristikaları və ölçüləri ilə ölmüş şəxsin bədəninə yaxın olmalı, eksperiment keçirildiyi yer və şərtləri (şəraiti) isə konkret işin şərtləri ilə dəqiq uyğunlaşmalıdır.

Məlumdur ki, meyitdə paltarların yerləşmə xüsusiyyətləri dolayı yolla ölümün mümkün ola bilən səbəbini göstərə bilər (məsələn, seksual). Bununla bərabər, paltar müxtəlif amillərin təsiri altında – təbiət hadisələrinin, entomofaunanın və heyvanların fəaliyyəti nəticəsində zədələnə və yerini dəyişə bilər.

İstintaq və məhkəmə-tibbi ekspertiza qarşısında qoyulan konkret məsələlərdən asılı olaraq, orqanizmə digər fiziki amillərin - barometrik, akustik, optik, radioaktiv təsirini modelləşdirmək mümkündür. Yönəldilmiş işıqla insanın qısamüddətli görmə qabiliyyətinin pozulması barədə ifadələrin yoxlanılması üzrə eksperimenti keçirmək olar. (məsələn, qarşından gələn avtomaşının faralarının işığı və s.).

Hər hansı hadisənin, faktın və ya təzahürün müəyyən şəxs tərəfindən duyğu orqanları ilə qavraması mümkünlüyünün təyini üzrə eksperiment müvafiq ifadələrin düzgünlüyünü qiymətləndirmək üçün keçirilir. İnsanın müəyyən şəraitlərdə görmə, eşitmə və ya hiss etmə qabiliyyətini yoxlamaq olar. İstintaq praktikasında bu kifayət qədər yayılmış eksperiment növüdür. Onun aparılmasına məhkəmə həkimi tez-tez cəlb edilmir. Çox vaxt onun rolu müstəntiqə məsləhət verməklə məhdudlaşır. İstintaq hərəkətinin hazırlıq mərhələsində mütəxəssis müvafiq şəxsi müayinə edir, onun dindirilməsində iştirak edir və ya statistin seçilməsində və təcrübənin keçirilməsinin mütləq şərtlərini düzgün təyin etməkdə müstəntiqə kömək edir. İnsanın təsvir etdiyi hadisəni görə bilməsini yoxlamaq üçün ilkin dindirmə prosesində şəxsin hər hansı bir xəstəliyə, görmə pozğunluğuna düçar olmasını, müşahidə anında eynəkdən, kontakt linzasından və ya digər optik cihazlardan istifadə etməsini, hansı məsafədən və hansı şəraitdə (hava və digər) müşahidə etməsini aydınlaşdırmaq vacibdir. Eksperimentdə bütün bu şərtlərə dindirilənin onları təsvir etdiyi kimi riayət olunmalı, mütəxəssis isə bunların yerinə yetirilməsini izləməlidir.

Ekspertin əsas vəzifələrindən biri cinayət iştirakçısının ifadələrindəki elə əhəmiyyətli faktları qeydə almaqdır ki, bu faktları yalnız hadisənin birbaşa iştirakçısı və ya birbaşa şahidi olduğu hallarda görə bilərdi. Əksinə, ekspert ifadələrdə elə neqativ halları, aşkar etməlidir ki, cinayət iştirakçısı onları bilməli idi. Əgər verdiyi məlumatlar həqiqətə uyğundursa, bilməməsi qeyri-mümkündür.

Hadisənin qavranması mümkünlüyünün təyini üzrə eksperiment ekspertin mütləq iştirakını tələb etmir və müstəntiq tərəfindən tək keçirilir. Təcrübələrin keçirilmə şərtləri və nəticələrini obyektivləşdirmək zərurəti yaranan hallarda çətinlik meydana çıxır. Məsələn; görmə sahəsini və mühitin səs ötürücülüyünü müəyyənləşdirdikdə). Belə hallarda müstəntiqə LOR, oftalmoloq və digər sahələrin mütəxəssislərinin köməyinə ehtiyac yaranır.

İz törənmə mexanizmi və şəraitinin (şərtlərinin) yoxlanılması üzrə və müqayisəli nümunələr alınması məqsədilə aparılan eksperiment öz məğzinə görə ekspert eksperimentinə yaxındır. Çox vaxt onun aparılmasına müstəntiq kriminalistika sahəsindən mütəxəssisləri və tibbi-kriminalistik və "MTE və PA" Birliyinin digər laborator bölmələrindən ekspertləri cəlb edir. Mütəxəssis qarşısında istintaqla verilmiş konkret şəraitlərdə bioloji mənşəli izlərin əmələ gələ bilməsini müəyyənləşdirmək məsələsi qoyulur. Eksperiment izlərin törənmə mexanizmi barədə ekspert nəticələrinin istintaq yoxlaması üsulu da ola bilər.

Məhkəmə-tibbi təcrübədə başlıca olaraq qan izlərinin törənmə mexanizmini təyin etmək tələb olunur. Bir qayda olaraq, bu hallarda müvafiq ekspertiza keçirilir. Lakin bu məsələni istintaq eksperimenti keçirmək yolu ilə də həll etmək mümkündür.

Dəfələrlə travmatik təsirdən zərərçəkənin bədənində çox saylı xəsarətlər əmələ gəldikdə qan izlərinin eksperimental təkrarlanması travmanın törənmə şəraitinin aydın olmayan şübhəli hallarını yoxlamağa və dəqiqləşdirməyə imkan verir. Məsələn, çox vaxt kriminal vəziyyətlərdə xarici qanaxmanın yaranmasına səbəb olan xəsarətlərin yetirilməsi zərərçəkənin yıxılmasından qabaq baş verdiyi müəyyən edilmişdir. Təhqiqat üçün zərərçəkənin yıxılmasından əvvəl qanaxma mənbəyi ola biləcək xəsarətlərin olmasını təsdiq və ya inkar

etmək çox vacibdir. Bu məqsədlə insanın pilləkəndən yıxıldığı hallarda iztörənmə şəraitini öyrənmək üçün mövcud olan eksperimental metodikalardan istifadə etmək olar. Eksperiment biomanekendən və ya antropometrik manekendən istifadə edilməklə keçirilir. Xarici qanaxma mənbəyini təqlid etmək üçün manekenə geyindirilmiş paltara və ya bədəninin müəyyən nahiyəsinə -- başına, döş qəfəsinə, ətraflara (bədənin hansı hissələrinin xəsarətlərinin yıxılma nəticəsində əmələ gəlməsinə ekspertdə şübhə yaranmasından asılı olaraq) az miqdarda meyit qanı və ya boya maddəsi çəkilir. Bu yolla bioloji mənşəli digər ifrazatları, məsələn qusuntu kütləsini də təqlid etmək olar. Travma şəraitinin (şərtlərinin) rekonstruksiyası manekenin yıxılma şərtlərini - hündürlüyü (düz səthdə, pilləkənin yuxarı, orta və ya aşağı sahəsində), bədənin vəziyyətini (üzü üstə, arxası üstə), start şəraitini (özbaşına yıxılma və ya surət verməklə yıxılma) və digər halları dəyişməklə həyata keçirir. Eksperiment nəticələrinin qiymətləndirilməsi, qan izlərinin xarakteri, lokalizasıyası, qarşılıqlı vəziyyətini, onların hadisə yerində aşkar edilmiş izlərlə və meyitin müayinəsinin nəticələri ilə müqayisəsi əsasında aparılır.

İztörənmə mexanizminin yoxlanılması ilə yanaşı məhkəmə həkiminin eksperimentə cəlb edilməsinə səbəb, izlərin əmələ gəlməsinin digər halları da ola bilər. Məsələn, onların törənmə müddəti, nə qədər müddətdə saxlanıla bilmələri, bu və ya digər xarici mühit amillərinin təsirindən izlərin mümkün ola biləcək dəyişiklikləri və sair.

Bəzi hallarda məhkəmə həkiminin iştirakı ilə eksperiment travma alətinin hazırlanma prosesinin xüsusiyyətləri barədə, zəhərlənmədə istifadə olunan zəhərli maddələrdən qarışıqlarının hazırlanma texnologiyasını və digər halları aydınlaşdırmaq məqsədilə təqsirləndirilən şəxsin ifadələrini yoxlamaq üçün keçirilir.

İstintaq eksperimentinin keçirilməsi dövründə məhkəmə-tibb ekspertinin fəaliyyət predmeti ola biləcək vəzifələrin və istintaq eksperimentinin əsas növlərinin xarakteristikası belədir. Digər prosessual hərəkətlərdən fərqli olaraq istintaq eksperimentinin xüsusiyyəti canlandırılan hadisələrin və həll edilən məsələlərin

həddən artıq müxtəlifliyindən ibarətdir. Yuxarıda məhkəmə həkiminin eksperimentdə iştirakı üçün cəlb edilməsinin yalnız ümumi səbəbləri və onun fəaliyyətinin mümkün ola bilən istiqamətləri göstərilmişdir. Eyni növ və eyni məqsədlə eksperimentin keçirilmə şərtləri müxtəlif və çoxvariantlı ola bilər. Hər bir eksperimental modeli qurarkən, real istintaq olunan hadisələr haqda bütün məlumatları nəzərə almaq mümkün olmadığı kimi, məhkəmə-tibb ekspertinin eksperimentin hətta bir növünə tətbiq olunan hərəkətlərinin gedişini və məzmununu ardıcıl şərh etmək praktik olaraq mümkün deyildir.

Bir sıra ümumi qaydalara riayət edilməsi mütəxəssis işini nizamlamaqla, məqsədəyönlü edər və bütün istintaq hərəkətinə sistemli xarakter verə bilər. Sistemli yanaşma istintaq hərəkətinin elə təşkilini təklif edir ki, bu vaxt təhlil olunan vəziyyət, onu təşkil edən bütün şərait və hallarla vahid birlik kimi baxılır və onlar arasında qarşılıqlı əlaqə xarakterini mütləq yaratmalıdır. Aşağıda sadalanan qaydalar cinayət prosessual qanunvericiliyin məzmunundan yaranır və ekspert təcrübəsi ilə təkmilləşdirilmişdir.

-- iş üzrə keçən bir-neçə şəxsin ifadələrinin eyni vaxtda yoxlanılmasına yol verilmir;

-- istintaq eksperimenti (ifadələrin yoxlanılması) təşkili mərhələlər üzrə qurulur;

-- istintaq hərəkəti istintaq olunan hadisədə olduğu şərtlərlə və ya reallığa maksimum yaxın şəraitdə keçirilməlidir;

-- obyektiv faktiki məlumatlara əsaslanmış bütün istintaq versiyaları və ekspert ehtimalları yoxlanmalıdır;

-- eksperiment hər bir yoxlanılan variant üzrə ayrılıqda keçirilir;

-- təcrübələr dəfələrlə təkrar edilir, bu da eksperiment nəticələrinin qanunauyğunluğunu təsdiq etməyə və onları təsadüflərdən qorumağa imkan verir;

-- eksperimentin gedişi və nəticələri texniki vasitələrdən istifadə etməklə istintaq hərəkəti protokolunda ətraflı təsbit edilir;

-- mütəxəssisin istintaq hərəkəti gedişinə müdaxiləsi yalnız müstəntiqin icazəsi ilə yol veriləcək haldır.

İfadələrin yoxlanılmasının təşkilinə prosessual tələblərindən biri də ifadəsinin dəqiqləşdirilməsi tələb olunan hər bir şəxslə onun ayrı-ayrılıqda keçirilməsinin zəruriliyidir. Bu, cinayət iştirakçılarının ifadələrində ziddiyyəti müəyyənləşdirməyə və obyektiv yoxlamağa cəhd etməklə diktə olunur.

Digər ümumi taktiki qayda - istintaq eksperimentinin bütövlükdə və təcrübələrin ayrı-ayrı etaplı keçirilməsidir. Eksperimentin keçirildiyi yerə gələn müstəntiq əvvəlcə CPM-nin bir sıra tələblərini yerinə yetirir. Eksperimentdə iştirak etməyə hazır olmaları haqda iştirakçılardan sorğu keçirilir. Müstəntiq onlara prosessual hüquq və vəzifələrini izah edir, istintaq hərəkətinin məqsədini və onun keçirilmə qaydalarını bildirir. Mütəxəssisi vəzifələrindən imtina etməyə və ya boyun qaçırmağa görə cinayət məsuliyyəti daşıdığı barədə xəbərdar edir. Qeyd olunanlar istintaq eksperimentinin başlanğıc və ya ilkin mərhələsidir. Mütəxəssis burada texniki vasitələrin hazırlığını yoxlayır, onlardan istifadə qaydasını, onun keçirilməsi üçün optimal şəraiti müəyyənləşdirir. Yerə və ya sahələrə baxışda, statistlərin müayinəsində və lazım gələrsə mühitin yenidən qurulmasında müstəntiqə yardım edir.

İstintaq hərəkəti keçiriləcək yerə baxış zamanı, ekspert müstəntiqlə birlikdə şəraitlə tanış olur (əgər onlar hadisə yerinə ilkin baxışda iştirak etməmişlərsə), onun nə dərəcədə saxlanıldığı və ya dəyişildiyini qeyd edir. Eksperimentdə istifadə olunacaq predmet və obyektlərin yerini müəyyənləşdirməkdə müstəntiqə kömək göstərir. Ekspert müstəntiqin diqqətini iş materiallarında təsbit edilməmiş izlərin və halların olmasına yönəldir. Baxış keçirildikdən sonra şəraitin yenidən qurulmasının zəruriliyi və onun rekonstruksiyasının nə qədər dəqiq olması haqda məsələ həll edilir.

«Yenidən qurma» (rekonstruksiya) anlayışı istintaq edilən hadisənin yenidən təkrarlanması mənasını daşımır, çünki bu cinayətin yenidən törədilməsinə bərabər olardı. Burada eksperimentin keçirilmə şəraitinin (şərtlərinin) yaradılması və onun ayrı-ayrı hallarının (vəziyyətlərinin) canlandırılmasından danışılır. Bu vaxt ilkin məlumatlar kimi, istintaqın sərəncamında olan, şübhə doğurmayan sübut və faktlardan, xüsusi versiyaların əsaslandığı

yoxlanılmağa məruz qalan, gumanedici məlumat və ya ifadələrdən istifadə olunur. Təbii təbiət amilləri ilə bağlı istintaq hərəkətinin keçirilməsi üçün müəyyən yer, gün və ya ilin vaxtı, hava şəraiti seçilir, hava haqqında məlumat almaq məqsədilə müvafiq qurumlara sorğu verilir. Hər bir vaxt şəraitinin maksimal dəqiq, təhrif olunmamış canlandırılması, cinayət törədilən zaman hadisə yerində olan şəraitə oxşar bir şəraitin yaradılmasını əldə etmək lazımdır (detallıqla rekonstruksiyası həmişə tələb olunmur). Sınaqlar qoyulmamışdan qabaq hadisə yeri şəraitinin istintaq hərəkətindən əvvəl olduğu vəziyyət yenidən qurulmanın gedişi və bərpadan sonra foto və ya video çəkilişlə fiksə olunur.

İstintaq eksperimentinin ilkin mərhələsinin digər vacib anlarından biri də statistlərin seçilməsidir. Məhkəmə-tibb eksperti statist roluna təklif edilən şəxslərin hadisənin, əvəz edəcəkləri həqiqi iştirakçılarına nə dərəcədə uyğun olmalarını yoxlamaqda müstəntiqə köməklik göstərir. Yoxlama yaş, boy, bədənin çəkisi və ölçüləri, bədən quruluşu, fiziki inkişaf, əzələ qüvvəsi, ətraflarda hərəkət həcmi, sağlamlıq vəziyyəti, görmə, eşitmə üzrə və ya istintaq eksperimentinin məqsədi və vəzifəsindən asılı olaraq digər əlamətlər üzrə keçirilir. Statistlərin bu barədə şifahi məlumatlarını kifayət qədər hesab etmək olmaz. Onlar mütləq qaydada müayinə olunmalıdırlar. Müayinə məlumatları istintaq hərəkətinin protokoluna daxil edilməlidir.

Statistin paltarında xəsarətin lokalizasiyasını, sahəsini və qarşılıqlı yerləşməsini göstərən işarələr qoymaq olar, ancaq həmin işarələr gözə çarpmamalı və istintaq hərəkətinin digər iştirakçılarına gizlicə xəbər kimi xidmət etməməlidir.

Eksperimentə başlamazdan əvvəl müstəntiq və ekspert lazım olduqda iştirakçıların hərəkətləri, yerləşmələri və təhlükəsizlik qaydalarına riayət etmələri barədə təlimatlandırılır.

Mühitin rekonstruksiyası - istintaq eksperimentinin və ya ifadələrin yoxlanılmasının məqsədi eləcə də prosessual hərəkətin məzmunu bununla məhdudlaşmır. Bu yalnız versiyaların istintaq yoxlamasının mütləq şərtidir. Daha vacib mərhələ - cinayətin bilavasitə iştirakçılarının izahatı, təqsirləndirilən şəxsin (şübhəli

şəxsin, zərərçəkənin, şahidin) törətdiyi hərəkətlərin, müşahidə etdiyi hərəkət və ya hadisələrin nümayişi və zədətörədici təsirin canlandırılması üzrə eksperimentin qoyulmasıdır. Bu mərhələdə maket və alətlərin analoqlarından istifadə etməklə, statistlərin cəlb edilməsi ilə hər bir yoxlanılan versiya üzrə ayrı-ayrılıqda yoxlanılması tələb olunan hallar - xəsarətlərin yetirilmə növü və ardıcıllığı, iştirakçıların hərəkətləri və qarşılıqlı yerləşmələri imitasiya edilir, travmatörədici amillərin təsirinin şərtləri modelləşdirilir və sair. Hadisə ilkin olaraq iştirakçıların onu təsvir etdikləri kimi, sonra - bütün hadisə (situasiya) variantları istintaq versiyaları üzrə canlandırılır. Bu üsulla istintaq edilən hadisənin dinamikası haqda, təhqiqat üçün mühüm olan hallar barədə, mümkün olduqda isə onun kəmiyyət xarakteristikaları haqda əyani təsvir alınır.

İstintaq eksperimenti predmetini dairəsinin daralmasına yol vermək olmaz. Mütəxəssisin vəzifəsi -- vəziyyətin inkişafına təsir edə biləcək şərtlərin tam və hərtərəfli yoxlanılmasını təmin etməkdir. Bütün versiyalar, iştirakçıların və şahidlərin ifadələrindəki hər bir əhəmiyyətli fakt, mütəxəssisin obyektiv empirik yol verilən fərziyyəsi cəhdlə yoxlanılmalıdır. Hər bir hala, hətta o müstəntiq və ya ekspertin fikrincə təsadüfü xarakter daşısa belə, hadisə kimi baxmaq lazımdır və onun qiymətləndirilməsi təcrübələrin təkrarlanmasını, eksperiment gedişinin düzəldilməsini tələb edir. Xəsarətlərin törənmə mexanizminə təsir edəcək hər bir parametr ekspert diqqətindən kənarda qalmamalıdır. Hər şeydən əvvəl, daha əhəmiyyətli, mübahisəli, ziddiyyətli və qaranlıq halları canlandırmaq lazımdır. İlkin məlumatlar kimi isə iş materiallarında rəsmi təsbit edilmiş məlumatlar və əvvəllər keçirilmiş xüsusi müayinələrlə düzgün müəyyən edilmiş obyektiv faktlar nəzərdə tutulur.

Dindirmədə olduğu kimi, əvvəlcə müstəntiq şübhəli şəxsə və ya istintaq hərəkətinin digər iştirakçılara istintaq edilən hadisənin ona məlum olan halları barədə danışmağı, yoxlama keçiriləcək yeri və marşrutu göstərməyi təklif edir. Danışıq gedişində o, işə aidiyyatı olan alətləri, əşyaları, hadisə yeri predmetlərini, sənədləri nümayiş etdirir və cinayət iştirakçılarının hərəkətlərini yadında saxladığı kimi canlandırır. Bütün açıqlamalar və hərəkətlərin nümayişi o hadisənin

həqiqi baş verdiyi yerdə aparılmalıdır. Canlandırılan vəziyyət bütün iştirakçılar üçün nə qədər əyani olsa, məhkəmənin, istintaq hərəkətinin nəticəsinin sübutedici əhəmiyyətini tanınacağına ehtimal o qədər çox olur.

İfadəsi yoxlanılan şəxsə tam sərbəstlik verilir. Ekspertin müdaxiləsinə minimal hüdudlarla yol verilir. Məsələn, dindirilən şəxsin diqqətini işin mahiyyətinə yönəltmək, ifadələrində mütəxəssisin fəaliyyət predmeti və ya istintaq hərəkəti predmetinin çərçivəsindən kənara çıxan, yaxud onunla birbaşa əlaqəsi olmayan hallarda. İstintaq hərəkətinin təbii inkişafına və ya səhnələşdirilməsinə yol vermək olmaz.

İstintaq hərəkətinin gedişini müstəntiqlə razılaşdırdıqda, ekspert digər iştirakçılara asılı olmayaraq təsir edir. Onun iştirakçılara qarşı hərəkətləri və sualları insanların yaddaşında hadisələrin bərpasına şərait yaradır. Bəzən də onların fantaziyalarının və xəyallarının aktivləşməsinə səbəb olur. İfadələr yoxlanılan zaman şahidə yaxud digər iştirakçıya ifadələrində aşkar ziddiyyət və ya ifadələrin ekspert məlumatları ilə uyğunsuzluğunu bildirmək olmaz. Danışıq bitdikdən sonra ekspert müstəntiqin icazəsi ilə əlavə və ya yoxlayıcı suallar verə bilər, ifadələri dəqiqləşdirməyi, hərəkətləri bir daha nümayiş etdirməyi təklif edə bilər. Suallar başlıca olaraq, təhlil olunacaq hallara aid olan daha mahiyyətli, ziddiyyətli anlara toxunmalıdır. Bu suallar və alınan cavablar qeydə alınaraq şərait dəyişdirilir, sınaqların şərtləri düzəldilir, eksperiment iştirakçıları əlavə açıqlamalar verir və öz hərəkətlərini təkrar canlandırırlar və sair.

Dəyişdirilmiş şəraitlərdə təcrübələrin dəfələrlə keçirilməsi, əyaniliyi təmin edir, qanunauyğun və inandırıcı nəticələrin alınmasına zəmanət verir, bütün iştirakçılar tərəfindən onların qavranmasını asanlaşdırır.

Ekspert istintaq hərəkəti gedişinə müdaxiləsinin hüdudlarını müəyyən edərkən həqiqətdə baş verən hadisə ilə modelləşdirilən hadisənin tam oxşarlığını əldə etmək kimi vəziyyətlərdən və ya əksinə sadə vəziyyət quruluşları yaratmaq, ilk baxışda ikinci dərəcəli detal və fərqlərə etinasızlıq göstərməkdən uzaq olmalıdır. Birinci halda əsas, əhəmiyyətli xarakteristikaları görməmək, ayrı-ayrı

amillərin rolunu şişirtmək, ikinci halda isə -- şübhəli, əsassız nəticələr əldə etmək təhlükəsi var. İstintaq eksperimenti və ifadələrin yoxlanılması gedişində dindirilmə keçirərkən yönəldici suallar vermək olmaz.

Mütəxəssis bilməlidir ki, eksperiment şərtləri (şəraiti) yalnız müstəntiqin göstərişi və ya mütəxəssisin təşəbbüsü ilə deyil, eləcədə şübhəli şəxslərin (təqsirləndirilən şəxslərin), şahidlərin, zərərçəkənlərin və hal şahidlərinin müraciəti ilə də dəyişdirilə bilər. Şahid və hal şahidləri müəyyən bilikləri olduqda eksperimentdə, müşahidəçi rolu ilə məhdudlaşmayaraq, aktiv iştirak edə bilər.

İstintaq hərəkəti iştirakçıların yerdəyişməsi, hərəkət etməsi ilə əlaqəli olduqda, məhkəmə-tibb eksperti ifadəsi yoxlanan şəxsin və müstəntiqin ardınca getməlidir. Qrupda elə bir hərəkət qaydası seçilir ki, mütəxəssis şübhəli şəxsin və şahidin bütün danışdıqlarını və göstərdiklərini aydın eşidə və görə bilsin.

İstintaq eksperimentinin və ifadələrin yoxlanılmasının tərkib hissəsi onun keçirildiyi yerə, yeni aşkar edilmiş maddi sübut və izlərə baxış keçirilməsindən ibarətdir. Əgər istintaq hərəkəti gedişində qrup yerini dəyişirsə, mütəxəssis müstəntiqin göstərişi ilə həmin yerdəyişmə üzrə, iştirakçıların göstərdiyi hər bir yerə istintaq olunan hadisənin hər-hansı bir mərhələsinin yeri kimi, diqqətlə baxış keçirir. Bu əvvəllər müəyyən edilməmiş bioloji mənşəli izlərin, xəsarətlərin törənməsi ilə əlaqəli ola bilən predmetlərin, iş üçün əhəmiyyət kəsb edən tibbi və digər sənədlərin axtarışı, prosessual möhkəmləndirilməsi və götürülməsi üçün vacibdir. İstintaq hərəkətlərinin ritmini pozmamaq üçün sonra da baxış keçirmək olar.

Sərbəst olaraq, müstəntiqin icazəsi olmadan, mütəxəssisin istintaq hərəkəti gedişinə müdaxilə etməsi, ona iş materiallarından məlum olan məlumatları yada salması istintaq hərəkəti nəticələrində əhəmiyyətli dərəcədə əks oluna bilən ciddi səhv olar. Bu məsələni istintaq hərəkətinin planlaşdırılmasında və ya ilkin mərhələsində qabaqcadan müzakirə etmək lazımdır. Bütün təşkilatı məsələlər müstəntiq tərəfindən həll edilir və müvafiq suallar meydana çıxdıqda qrup üzvləri ona müraciət etməlidir.

9.7. İstintaq eksperimenti və ifadələrin yoxlanılmasının nəticələrinin tərtibi və qiymətləndirilməsi

İstintaq eksperimenti və ya ifadələrin yoxlanılması qurtardıqdan sonra müstəntiq tərəfindən protokol tərtib edilir. Protokol istintaq hərəkəti gedişində müəyyən edilmiş fakt və halları təsdiq edən əsas prosessual sənəddir. Məhkəmə eksperimentinin nəticələri üzrə protokolu hakim tərtib edir. Protokol cinayət prosessual qanunvericiliyin tələblərinə riayət etməklə tərtib olunur (CPM maddə 261, 263).

Protokolun giriş hissəsində istintaq hərəkətinin başlama vaxtı, yeri, şərtləri, iştirakçılarının tərkibi, keçirilmə əsası və məqsədi təsbit edilir. Təsviri hissədə iştirakçıların hərəkəti, texniki vasitələr və onların tətbiq edilmə şərtləri şərh edilir. Eksperimentin və yoxlamanın gedişi, bütün ilkin məlumatlar, vəziyyət dəyişiklikləri və alınmış məlumatlar ətraflı qeyd edilir. Şərhin ardıcıllığı eksperiment gedişinə uyğun olmalıdır - əvvəlcə baxışın nəticələri göstərilir və eksperimentin keçirildiyi yerdə mühitin, qrupun gəlib çatdığı andakı xarakteristikası verilir. Vəziyyətin yenidən qurulmasının nəyin əsasında və necə keçirilməsi göstərilir, təcrübələrin məzmunu, şəraitlərin dəyişməsi və sonda, onların nəticələri qeyd edilir.

Mütəxəssis protokol tərtibində, öz hərəkətlərinin və onun iştirakı ilə keçirilən təcrübə nəticələrinin dəqiq və düzgün əksini təmin etməklə, müstəntiqə kömək edir. Protokolda prosessual hərəkətin gedişində meydana çıxan variantlar və vəziyyət qiymətləndirilməsinin şərh edilməsi yol verilməzdir.

Protokolun son hissəsində istintaq hərəkətinin qurtarma vaxtı, istifadə olunmuş əlavə vasitələr və onların texniki xarakteristikası qeyd edilir. Protokolda əlavələr (sxemlər, çertyojlar, şəkillər və s.), götürülmüş predmetlər, izlər və nümunələr sadalanır. Buradaca iştirakçıların protokolla tanış olmaları barədə qeydlər edir, onların ərizə və iradlarını, həmçinin protokolun istintaq hərəkətinin məzmunu ilə uyğun olması haqda onların qeydlərini təsbit edir.

İştirakçıları istintaq hərəkəti məlumatlarını sirr olaraq saxlamalarının zəruriliyi haqda xəbərdar edir.

Əlavə texniki vasitələrin - foto, audio, kino və ya video çəkilişlərin tətbiqi ilə, eləcədə sxemlərin, şəkillərin, planların, çertyojların, vektoqrammaların və s. tərtib edilməsi əyaniliyi yüksəldir, qavramanı yüngülləşdirir və istintaq hərəkəti nəticələrinin inandırıcılığını artırır. Həmin vasitələrdən istifadə edilmənin əsas tələbi - onların texniki keyfiyyəti və çəkilişlərin məlumatlı olmasıdır. Bunlar elə tərzdə yerinə yetirilməlidir ki, təcrübələrin şərtlərini (şəraitlərini), gedişini və nəticəsini maksimal dəqiq və ətraflı əks etdirə bilsin. Bunun üçün məhkəmə-tibb eksperti kriminalistin diqqətini eksperimentin fiksə edilməsi zəruri olan mərhələ və detallarına yönəldir. Müxtəlif şəxslərin iştirakı ilə eksperiment və ya ifadələrin yoxlanılması təkrar keçirildiyi hallarda, fotoçəkiliş və videoyazı bir rakursda, eyni nöqtələrdən, eyni epizod və oriyentirlərin təsbit edilməsi ilə yerinə yetirilir, sxem, plan, çertyojlar isə bir miqyasda hazırlanır. Hər bir texniki vasitənin tətbiqi barədə protokolda qeydlər aparılır, alınmış sənədli materiallara protokola əlavə kimi baxılır.

İstintaq eksperimentinin əsasını həmişə tutuşdurma, müqayisə (ifadələrin, obyektiv istintaq məlumatlarının, ekspert nəticələrinin və s.) təşkil edir. Müqayisə mexanizmi işə salındıqda, onun ardınca minimum iki mümkün variantdan birinin seçilməsinə qərar verilməsi qaçılmaz haldır. Lakin hər cür müqayisə, xüsusən də oxşarlıq üzrə müqayisə şərtidir. Buna görə də hansı qərarın seçilməsi bir çox halda istintaq hərəkəti nəticələrinə qiymət verilməsinin nə dərəcədə obyektiv və məntiqi dəqiq olması ilə müəyyənləşdirilir.

Yuxarıda qeyd edildiyi kimi, hər bir model artıq öz təbiətinə görə sünidir (qeyri-təbiidir), az və ya çox dərəcədə real hadisə barədə müstəntiqin, ekspertin və digər iştirakçıların subyektiv təsəvvürlərini əks etdirir. Miqdarı metodlardan istifadənin məhdud imkanları ilə əlaqədar, istintaq hərəkəti nəticələrinə subyektiv-qiymətləndirici münasibətin daha da artırılması təhlükəsi həmişə vardır. Eksperimental məlumatların mütəxəssis tərəfindən qiymətləndirilməsində, onun peşəkarlıq təcrübəsi, o cümlədən

prosessual hərəkətlərdə iştirak təcrübəsi və ya mütəxəssisin işlədiyi müəssisədə ekspertiza prosesinin təşkili prinsipləri və başqa amillər öz təsirini mütləq göstərməlidir. Ekspertin şəxsi mövqeyini bildirməsi, müsbət haldır – çünki, onun işinin yaradıcılıq mənbəyi vardır. Norbert Vinerin məhkəmə təbabəti elminə yaxın olan bir kəlamını başqa cür ifadə etdikdə demək olur ki, «qiymətləndirici təfəkkür mütəxəssis işinə təşrih ruhu gətirir. Bunun olmaması isə mərhum üzərində mərasim ağlamağı atmosferi yaradır ».

Cinayət-prosessual qanunvericilik ekspertdən konkret faktlara əsaslanmayan öz şəxsi qiymətverici fikirlərini məhdudlaşdırmağı tələb edir. İstintaq eksperimenti nəticələrinin iş üzrə sübutların ümumi sxeminə daxil edilməsi üçün onlara ciddi obyektiv və məntiqi yoxlanılmış qiymət verməyi tələb edir. Bu cür qiymətləndirmə aşağıdakı sualların həllini vacib sayır:

- istintaq eksperimenti (ifadələrin yoxlanılması) qarşıya qoyulmuş məqsədə çatmaq üçün adekvat vasitədirmi;
- istintaq hərəkəti keçirilərkən mütləq prosessual tələblər yerinə yetirilmişdirmi;
- əldə edilmiş məlumatlar nə dərəcədə doğrudur (ilkin məlumatlar, müqayisə meyarları düzgün seçilmişdirmi, təcrübələrin keçirilməsində zəruri taktiki şərtlərə əməl olunmuşdurmu, alınmış məlumatlar nə dərəcədə davamlıdır, eksperiment nəticələrinin şərhində rəsmi-məntiqi vasitələrdən düzgün istifadə olunmuşdurmu);
- istintaq hərəkətinin faktiki nəticələri işin digər materiallarına uyğundurmu və istintaq olunan hadisəyə aid edilə bilərmi.

Mütəxəssis işində əsas sadalanan sonuncu bəndlər yəni, təcrübə nəticələrinin düzgünlüyünün müəyyən edilməsi və onların digər ekspert materialları ilə tutuşdurulması istintaq eksperimenti nəticələrinin qiymətləndirilməsində müstəntiqin (məhkəmənin) müstəsna hüququdur. Bu vəzifələri nəzərə alaraq istintaq eksperimentinin müxtəlif növlərini iki qrupa bölmək olar: birinci - artıq məlum olan məlumatların, müstəntiq versiyalarının (mütəxəssis ehtimallarının) yoxlanılması üçün keçirilən hərəkətlər; ikincisi -

istintaqı maraqlandıran halların təyini və ya onların proqnozlaşdırılması məqsədilə keçirilən hərəkətlər.

Əgər eksperiment ifadələrdə, ekspert rəyində və ya digər iş materiallarında göstərilmiş və artıq müəyyən olunmuş fakt və halların yoxlanması məqsədilə keçirilmişdirsə, onda məhkəmə və təhqiqat üçün istintaq hərəkətinin istər mənfi, istərsə də müsbət nəticəsinin, yəni, yoxlanılan fakt və halların təsdiqi və inkarı üçün əhəmiyyəti vardır. Bu vaxt bir tərəfdən, alınmış faktların nə dərəcədə doğru olmasını, digər tərəfdən onların real kriminal vəziyyətə aid edilə bilməsini təyin etmək zərurəti meydana çıxır.

Alınmış məlumatların düzgünlüyünü qiymətləndirərək, müstəntiq (zəruri hallarda ekspertin köməyi ilə) konkret eksperimental şəraitdə vəziyyətin inkişafının qanunauyğun və zəruri təhqiqat sayıla bilməsini müəyyən etməlidir. Eksperiment gedişində vəziyyətin yol verdiyi bütün versiyalar yoxlanılmışsa, təhlil vəziyyətin inkişafı üçün əhəmiyyətli olan bütün dəyişkən əlamətlər nəzərə alınmaqla keçirilmişsə və nəhayət nəticələr sabit qalırsa, təcrübələrin eyni şəraitdə dəfələrlə keçirilməsinə baxmayaraq, ikinci dərəcəli xarakteristikaların dəyişilməsinə baxmayaraq saxlanılırsa, belə nəticəni təsadüfü yox, qanunauyğun saymaq olar. Bu tələblər yerinə yetirilməyibsə, o halda modelləşdirilmiş və real vəziyyətin təsadüfü xarici oxşarlığı və fərqliliyini istisna etmək olmaz və eksperiment nəticələri düzgün sayıla bilməz. Onlardan sonrakı istintaq və ekspert tədqiqatlarında istifadə etmək olmaz.

Əgər təcrübələr kifayət miqdarda təkrarlanmışsa və miqdari göstəricilər əldə olunmuşsa, öyrənilən halları statistik xarakterizə etmək, dəyişkən sıra qurmaq, ayrı-ayrı təcrübə nəticələrinin fərqlənmə əhəmiyyətini müəyyən etməklə, onların düzgünlüyünün miqdari ifadələrini əldə etmək imkanı yaranır. Əksər hallarda istintaq eksperimenti gedişində təcrübələrin say məhdudluğuna görə statistik qanunauyğunluğu aşkar etmək mümkün olmur və təhlil olunan vəziyyəti yalnız keyfiyyətcə xarakterizə etmək olur.

İstintaq olunan hadisənin modeli heç vaxt real hadisə ilə oxşar olmadığından, eksperimental nəticələr, hətta düzgün olduqda belə, problemin hazır həllini yarada bilmir. Buna görə də növbəti

mərhələdə istintaq hərəkəti nəticələrinə işin digər materialları ilə birlikdə baxmaq lazımdır. Onları əldə olan sübutlarla, ilk növbədə, ekspert sübutları ilə müqayisə etmək və razılaşdırmaq lazımdır. Yekun halda, təcrübələrin nəticələrini nə dərəcədə cinayətin real vəziyyətinə aid etməyi müəyyən etmək lazımdır.

İstintaq eksperimenti növlərini nəzərdən keçirdikdə praktik olaraq bütün hallarda bu və ya digər təzahürün, prosesin, hərəkətin, mümkünlüyündən (qeyri-mümkünlüyündən), xəsarətlərin, izlərin və s. törənməsinin mümkün olan mexanizmi və şərtlərindən danışılır. Nəzərə almaq lazımdır ki, eksperiment bu və ya digər fərziyyənin doğru və ya yalan olması haqda suala deyil, yalnız öyrənilən fərziyyənin vəziyyətin konkret eksperimental modelinə aid edilərək irəli sürülmə hüququnun olması haqda suala cavab verir. Eksperimentin müsbət nəticəsi hər hansı bir faktın və ya təzahürün prinsipial mümkünlüyünü əsaslandırır. Bu həmin halların həqiqətdə olması və ya istintaq hərəkəti gedişində müəyyən edildiyi kimi baş verməsi demək deyildir. İstintaq eksperimentinin nəticəsi -- yalnız verilmiş vəziyyət üçün və təcrübələrin keçirildiyi konkret şəraitlərə aid ədalətlidir. Yalnız şərtlər bərabər olduqda təcrübi yolla təsdiq edilmiş qanunauyğunluq vəziyyətin inkişafında həmin inkişafın mümkünlüyünə yol verir, ehtimal edir və ya, əksinə, həqiqətdə belə onu istisna edir (başqa sözlə desək, müəyyən olunmuş qanunauyğunluğa zidd olmayan mümkündür və əksinə, bu qanunauyğunluqla uzlaşmayan istisna edilir). Əgər eksperimental şəraitlər real hadisənin baş verdiyi şəraitlərlə heç bir vaxt oxşar olmursa, onda alınmış nəticələrin qiymətləndirilməsində ciddi qəti mülahizələri gözləmək lazım deyil. Təcrübi faktlara əsaslanmış nəticələr həqiqətdə baş vermiş hadisəyə ehtimalın yalnız müəyyən hissəsi ilə aid edilə bilər. Ehtimallıq bu halda mümkünlük ölçüsüdür.

Ehtimallığın (həqiqətə uyğunluğun) dərəcəsindən asılı olaraq formal və real mümkünlüyü ayırmaq lazımdır. Formal mümkünlük hadisənin elə inkişafı hesab edilir ki, özü-özlüyündə müəyyən edilmiş eksperimental məlumatlarla ziddiyyət törətmir, eksperimentin nəticəsini istisna etmir, onun inkişafına yol verir. Formal mümkünlükdən fərqli olaraq, real mümkünlük onun

reallaşdırılmasının əlavə şərlərinin olması hesabına hadisənin böyük ehtimallılığı ilə xarakterizə olunur. Burada istintaq hərəkəti nəticələri vəziyyətin inkişafına nəinki yol verir, həm də eksperimentdə olduğu kimi inkişafına da güman edilir. Məsələn; istintaq hərəkəti gedişində hər hansı bir cihazın işə salındığı zaman otaq atmosferində zəhərli maddələrin meydana çıxması sübut olunsa, zəhərlənmənin baş verməsi və insan ölümü formal mümkün sayılacaqdır. Belə nəticəni daha ehtimallı (real mümkünlük) saymaq üçün əlavə şərtlərin olması lazımdır (toksiki maddə qatılığının əhəmiyyətli həddə çatması, insan orqanizminin toksiki maddəyə xüsusi həssaslığı və s.). İstintaq eksperimentinin nəticələri, cinayət işinin digər materialları ilə təsdiq edilərsə və ya eksperiment keçirilən və istintaq edilən hadisənin inkişaf etdiyi şəraitlərin tam uyğunluğu sübut olunarsa, həmin nəticələr böyük ehtimalla cinayətin real vəziyyətinə aid ediləcəkdir. Bu halda nəticə öz sübutediciliyinə görə qəti rəyə yaxınlaşacaqdır.

Ehtimallı güman edici məlumatlar ittiham aktının və məhkəmə hökmünün əsasını təşkil etməsələr də, yenə də hadisənin ehtimal dərəcəsinin müəyyən edilməsi əhəmiyyətini inkar etmək olmaz. Bu, hər şeydən əvvəl, yeni istintaq versiyalarının formalaşması, istintaqın perspektivli istiqamətlərinin müəyyən edilməsi və ya ekspert tədqiqatlarının planlaşdırılması üçün lazımdır.

Pozitiv variantın həllinə (mümkünlüyün əsaslandırılmasına) zidd olaraq istisnadedici nəticə, yəni hər hansı bir hadisə və ya halın qeyri mümkünlüyü barədə mülahizələr daha sərt, qəti xarakter daşıyır. Hadisənin həqiqətdə olmasını və ya onun ilkin məlumatlarla müəyyən edildiyi kimi baş vermədiyini göstərir. Belə nəticə ehtimallılıq nöqteyi-nəzərincə əlavə qiymət tələb etmir. Əgər istintaq eksperimentinin nəticələri düzgündürsə və onun keçirilmə şəraiti istintaq edilən hadisənin baş verdiyi şəraitlə uyğundursa, hadisə iştirakçılarının ifadələrinin, istintaq hərəkətinin əsasını təşkil edən ekspert rəylərinin və başqa materialların düzgünlüyünə şübhə yoxdursa, bunlar ədalətli hesab olunur. Məsələn; insanın hər-hansı hərəkəti edə bilməsini müəyyən etmək üçün onun fiziki bacarıqları və ya hər hansı təzahürü qavramasının obyektiv mümkünlüyü eksperimentlə yoxlanılarsa, təcrübənin mənfi nəticələrinin

qiymətləndirilməsi çətinləşir. Belə ki, insanın həqiqi bacarıqları haqda təhqiqata məlumat verməmək istəyi kimi subyektiv amili istisna etmək olmaz.

Beləliklə, hər hansı bir halların yoxlanılması üçün keçirilən istintaq eksperimenti nəticələrinin qiymətləndirilməsində ekspertin vəzifəsi aşağıdakıları müəyyən etməkdən ibarətdir: təcrübələrin qoyulma şərtlərini düzgün, onların nəticələrini doğru saymaq olarmı, əldə edilmiş nəticələrin işin digər materiallarındakı məlumatlarla (məsələn, ekspertiza rəyləri) nə dərəcədə uyğun olub-olmamasını, həmin nəticələrin əvvəllər ekspertiza ilə düzgün müəyyən edilmiş digər faktlarla müvafiqliyi və ziddiyyətliliyini, istintaq edilən hadisənin həqiqətdə eksperimentdə müəyyən edildiyi kimi baş verməsinin nə dərəcədə ehtimallığını.

Qiymət vermənin mühüm elementi cinayət hadisəsinin şəraiti və nəticəsi ilə istintaq hərəkətinin şərait və nəticələrinin oxşarlıq dərəcəsi və ya fərqlənmə əhəmiyyəti haqda məsələsinin həllidir. Eksperimentin (ifadələrin yoxlanılmasının) düzgün planlaşdırılması və təşkilində, bir qayda olaraq, bu məsələni həll etmək mümkün olur. Nəticələrlə isə çətinlik yaranır. Bəzən elə hallara rast gəlinir ki, müqayisə edilən vəziyyətlərin minimal fərqi (məsələn, zərərəçəkənin bədənindəki əsil yara kanalının istiqaməti ilə güman edilən eksperimental yaranın istiqaməti arasında 20-30 dərəcə hüdudunda olan fərq) verilmiş şəraitdə xəsarətlərin yetirilməsinin qeyri mümkünlüyünün sübutu kimi birmənalı və qəti şərh olunur. Müstəntiq və ekspert bəzən bu fərqlərin nə qədər əhəmiyyətli olduğu barədə heç düşünmürlər. Çox hallarda istintaq eksperimenti nəticələrini qiymətləndirmək üçün, ehtimal nəzəriyyəsinin riyazi aparatından istifadə etmək olmaz. Belə qeyri-müəyyən hallarda təcrübələri təkrarlamaq, onların keçirilmə şərtlərini dəyişmək, minimal yol verilən şəraitlərdə hadisəni yenidən qurmağa cəhd etmək lazımdır. Müstəntiqlə razılaşdırıldıqdan sonra eksperiment iştirakçılarının diqqətini onların ifadələrinin məhkəmə-tibb ekspertiza məlumatları ilə ziddiyyət təşkil etməsi və ya hissəvi uyğunsuzluğuna yönəltmək və onlara bu ziddiyyətləri özlərinin izah etmələrini təklif etmək lazımdır. Bəzən mütəxəssislərin şəxsi, peşəkarlıq təcrübəsinə,

məhkəmə-təbabətində məlum olan statistik qanunauyğunluqlara əsaslanmaları lazım gəlir. Nəticələrin əsaslı təyin olunmuş fərqlərini obyektiv qiymətləndirmək mümkün olmadıqda, qoyulmuş sualların həllindən imtina etmək lazımdır.

Artıq təhqiqatın sərəncamında olan məlumatların yoxlanılması və dəqiqləşdirilməsi məqsədilə keçirilənlərdən fərqli olaraq, istintaq hərəkətlərinin ikinci qrupu hər hansı halların, o cümlədən istintaq üçün yeni olanların təyini üçün aparılır. İfadələrin yoxlanılması və ya istintaq eksperimenti gedişində hər hansı yeni məlumat aşkar edilmədikdə, yeni istintaq və ya ekspert hərəkətlərinin planlaşdırılması üçün maraq doğurur (burada prosessual yekunların hər hansı qiymətləndirilməsi tələb olunmur). Müsbət nəticə alındığı halda isə, əldə edilmiş yeni məlumatlar yoxlanılan fakt və ya vəziyyətlərin tərkibini təşkil edir, istintaq olunan hadisənin necə baş verməsi sualına cavab verir. Özlüyündə bu məlumatlar məntiqi qiymət tələb etmirlər. Alınmış yeni məlumat iş üzrə məlum olan digər faktlarla tutuşdurulur və ekspert tədqiqatları keçirilməsində istifadə olunur. Məsələn, deşilmiş-kəsilmiş yaralanmanın yetirilmə şəraitinin istintaq yoxlanılması gedişində, təqsirləndirilən şəxs iştirakçıların poza və qarşılıqlı vəziyyətlərini göstərə, bıçaq zərbəsinin istiqamətini dəqiqləşdirə bilər. Alınmış məlumatlar əvvəllər keçirilmiş tədqiqatların nəticələri ilə müqayisə edilir, bu müstəntiqə ifadələri düzgün qiymətləndirməyə imkan verir, ekspert isə çıxarılmış nəticələrin əlavə əsaslandırılmasını və ya təsdiqini əldə edir.

Məhkəmə-tibb ekspertinin bu məlumatları iş üzrə keçirilmiş xüsusi tədqiqatlar və ekspertizaların nəticələri ilə tutuşdurması vacibdir. Onların tam uyğunluğu olduqda bu faktın özünün təsdiq edilməsi kifayətdir. Aşkar edilmiş ziddiyyətlər obyektiv təsbit edilməli və kritik qiymətləndirilməlidir, bunun üçün müstəntiq və ya məhkəmə əlavə dindirilmələr və üzləşdirmələr, digər şəxslərin iştirakı ilə istintaq yoxlaması keçirir, əldə olunan sübutları təqdim edirlər.

İstintaq eksperimentinin və hər hansı bir digər prosessual hərəkətin nəticələri ekspert rəyinin düzgünlüyünün qiymətləndirilmə meyarları sayıla bilməz. Bu yalnız faktiki məlumatların yoxlanılma

və dəqiqləşdirilmə vasitəsidir. Onların nəticələri əlavə və ya təkrar ekspertiza təyin edilməsi üçün əsas kimi baxıla bilər.

«Məhkəmə həkiminin istintaq tədbirlərində düzgün təşkil edilmiş fəaliyyəti, tədqiqatların hərtərəfliliyinə və tamlığına mühüm zəmanət kimi xidmət edir, məhkəmə-tibbi ekspertizanın təyini üçün materialların səriştəli hazırlanmasını təmin edir və təhqiqatın müvəffəqiyyətli keçirilməsi üçün az köməyi olmur. Məhkəmə həkiminin cəlb edilməməsi, onun öz peşəkar vəzifələrini keyfiyyətsiz yerinə yetirməsinə bərabər bir hal kimi istintaq hərəkətlərində çox vaxt təhqiqat səhvlərinin yaranması üçün şərait yaratmış olur». Məhkəmə həkiminin istintaq eksperimentində iştirakının əhəmiyyəti istintaq suallarına verilən cavablardakı səhvləri aradan qaldırmaq və ya minimallaşdırmaqdan və ya artıq söylənilmiş mülahizələrin əlavə təsdiqini əldə etməkdən ibarətdir. Təcrübənin göstərdiyi kimi bir çox ekspert səhvlərinin səbəbi - mütəxəssisin nəticələri formalaşdırarkən işin konkret hallarından uzaq düşməsidir. İstintaq eksperimentində iştirak etməklə məhkəmə-tibb eksperti özünün xüsusi bilikləri ilə istintaq gedişinə fəal surətdə daxil olur və bütünlüklə ekspertiza ilə təhqiqat arasındakı uyğunsuzluğu aradan qaldırır.

FƏSİL 10. MÜQAYİSƏLİ TƏDQİQAT ÜÇÜN NÜMUNƏLƏRİN GÖTÜRÜLMƏSİ

10.1. «Nümunələr» anlayışı və onların götürülməsinin prosessual əsasları.

Məhkəmə tibbi təcrübədə laboratoriyalarda fəaliyyət göstərən – biologiya, genetika, kimya, tibbi kriminalistika, histologiya, identifikasiya, sitologiya, biokimya şöbələr və bölmələrində çalışan ekspertlərinin təcrübəsində nümunələrlə işləmək əsas yer tutur. CPM-yə və onun kommentariyalarına müraciət etdikdə, orada nümunələrin müxtəlif xarakterdə, o cümlədən də təbii (bioloji) və süni mənşəli olması barədə məlumat olduğunu görə bilərik. Məhkəmə tibbi laboratoriyalarda qan, tük, diş, ifrazat (ağız suyu, öd, sidik, sperma, uşaqlıq yolu ifrazatı və s.), meyit orqan və toxuması mayelərinin müayinələri aparılır. Qeyri bioloji nümunələrə - suda boğulmaya şübhə olduqda meyitlərin tapıldığı su hövzələrinin su nümunəsi və yanğın yerlərində meyit tapılan yerdən götürülmüş kül nümunəsi, paltar, sursat, partlayış qurğuları, zəhərlənməyə şübhəli maddələr, meyitin tapıldığı yerdən torpaq nümunələri, meyitin yandırılmasında istifadə olunan yanacaq, foto və rentgen şəkilləri aid ola bilər. Maddi sübutların məhkəmə tibbi ekspertiza qaydalarında qan nümunəsini götürmək mümkün olmadıqda nümunə kimi meyitin yumşaq toxuması, dırnaq və sümüklərinin götürülməsi tövsiyə olunur.

«Nəzarət » və «etalon» nümunələr anlayışı da geniş yayılmışdır. Bütün bu göstərilənlər nümunələrin nə qədər müxtəlif olmasını və onların ekspertiza üçün olan əhəmiyyətini sübut edir.

Bununla belə, son vaxtlara qədər qanunvericilikdə, kriminalistikada və məhkəmə tibbi təcrübədə «nümunələr» anlayışı, onun ekspertiza obyektləri arasında yeri barəsində vahid fikir yoxdur. Nümunələr, maddi sübutlar, izlər və sınaq nümunələri anlayışları arasında fərq də aydın göstərilməmişdir.

Məhkəmə tibbi ekspertizaya aid ədəbiyyatlarda məhkəmə tibbi ekspertiza obyekti kimi canlı şəxslər, meyitlər, maddi sübutlar, iş sənədləri və ya iş materialları göstərilir. Burada nümunələrin obyektlərin bir növü olması barəsində ümumiyyətlə məlumat verilmir. Kriminalistikada nümunələr maddi sübutlara və ya maddi sübut törəmələrinə aid edilir. Bu halda CPM-də olan «maddi sübut» anlayışına istinad olunur. Maddi sübutlara isə aşağıdakı əşyalar aid edilir:

1. cinayət aləti olan və özlərində cinayət izi saxlayan alətlər;
2. üzərilərinə cinayət hərəkəti yönələn əşyalar;
3. cinayətin və cinayət işi şəraitinin müəyyən olunmasına vasitə olan digər əşya və sənədlər.

Nümunələr maddi sübutların material modeli funksiyasını icra edən, onların xüsusiyyətlərini əks etdirən və cinayətin açılmasında işin məzmununun müəyyən olunmasına bir vasitədir. Maddi sübutlardan istifadə etmək mümkün və ya məqsədəuyğun olmadıqda nümunələrdən istifadə olunur. Məsələn, hadisə yerində tapılmış qanın konkret şəxsə məxsus olub-olmamasını təyin etmək üçün bütün qan ləkəsini müayinə etməyə ehtiyac yoxdur, maddi sübut törəməsi kimi müvafiq nümunə götürüb qrup xüsusiyyətlərini müəyyən etmək kifayətdir. Bu nümunələrə maddi sübutların bir növü və ya onların törəməsi kimi baxmağa əsas verir.

Məhkəmə-tibbi ekspertizada göstərilən mümkün nümunə və obyektləri müqayisə etdikdə nümunə mənbələrinin yalnız maddi sübut deyil, məhkəmə ekspertizasının hər hansı bir potensial obyekti – canlı şəxslər, meyitlər, sənədlər, maddi sübutlar olmasını görmək olar. Görünür ki, buna görə canlı şəxslərin, maddi sübutların, meyitlərin məhkəmə tibbi müayinəsi ilə birlikdə aparılan ekspertizalarda müqayisəli tədqiqat üçün götürülən nümunələr müayinə obyektlərinin bir növünə aid edilir. Lakin müqayisəli tədqiqat üçün nümunələrə məhkəmə tibbi ekspertizanın müstəqil növü kimi baxmaq olmaz. Bu meyitlərin, canlı şəxslərin, maddi sübutların ekspertizası üçün zəruri olan müayinə obyektidir. Müqayisəli tədqiqat nümunələri özlərində insanın, heyvanın, meyitlərin, material və maddələrin xüsusiyyətlərini əks etdirən və ya

ekspertizanın icra olunub rəy verilməsi üçün zəruri obyektdir. Alınma mənbəyi və prosessual üsullara əsasən, ekspert müayinəsi üçün lazım olan nümunələr iki əsas qrupa bölünür:

1. canlı şəxslərdən – prosesin konkret iştirakçısından, yəni şübhəli, təqsirləndirilən, zərərçəkmiş şəxslərdən və ya şahidlərdən götürülən müqayisə nümunələri;

2. mənbəyi maddi sübutlar, sənədlər və ya prosessual statusu olmayan obyektlər (meyitlər, hadisə yeri, heyvanlar) olan müqayisə obyektləri.

Birinci halda nümunələr CPM-nə müvafiq olaraq, yəni müstəqil istintaq hərəkəti gedişində götürülür və «müqayisəli tədqiqat üçün nümunələrin götürülməsi» adlanır. İkinci halda isə digər prosessual hərəkətlər «baxış, axtarış, məhkəmə ekspertizasının aparılması» gedişində götürülür. CPM proses iştirakçılarından nümunələrin alınmasını onların qanuni hüquq və azadlıqlarının qorunmasının həyata keçirilməsini təmin edir. Canlı şəxslərdən nümunələr alındıqda müstəntiq ayrı qərar tərtib edir. Qərar onu icra edən şəxslər üçündür. Qərarda göstərilir:

1. nə ilə əlaqədar nümunələr götürülür;
2. hansı məsələni aydınlaşdırmaq üçün nümunələr götürülür;
3. müayinədə konkret olaraq nə götürülür;
4. kimdən, haradan, nə zaman nümunələr alınır və alınan şəxsin prosessual vəziyyəti.

Şübhəli və təqsirləndirilən şəxs, şahid, zərərçəkmişlərdən nümunələrin alınması müstəntiqin səlahiyyətindədir. Nümunələrin alınması müstəntiqin hüququdur, lakin vəzifəsi deyil. Əgər qarşıya qoyulan sualları nümunələrin alınması olmadan həll etmək olarsa, bu prosessual hərəkət icra olunmaya bilər (məsələn, müqayisəli tədqiqat qan qrupu haqqında arayışa əsasən aparıldığı halda).

Qanun cinayət işinin bəzi iştirakçıları barəsində müqayisəli tədqiqat üçün nümunələrin götürülməsində müstəntiqin hüququnu məhdudlaşdırır, məsələn, zərərçəkmiş və şahidlərdən məcburi halda nümunələrin alınması yalnız hadisə yerində maddi sübutlarda olan ləkələrin onlara məxsus olmasını yoxlamaq məqsədi ilə alınır. Canlı şəxslərdən nümunələr tibb idarələrində həkim tərəfindən və həmin

idarənin iki tibb işçisinin iştirakı ilə digər mütəxəssis tərəfindən alınır. Məhkəmə tibb ekspertizasına göndərilmiş şəxslərdən qan könüllü götürülür. Həmin şəxsdən nümunənin alınması barəsində razılıq müstəntiqin qərarında qeyd edilməlidir. Qanunla cinayət prosesinin iştirakçılarından nümunələrin alınmasında iştirak edən şəxslərin dairəsi də məhdudlaşdırılır. Müstəntiq və nümunə götürən şəxsdən başqa zəruri hallarda müstəntiqin iştirakı ilə bu prosesdə mütəxəssis (o cümlədən məhkəmə tibb eksperti) iştirak edə bilər. CPM-nə görə əgər nümunələrin alınması şəxsin soyunması ilə müşayiət olunursa, əgər müstəntiq əks cinsə məxsusdursa, o bu istintaq hərəkətində iştirak edə bilməz. Lakin bununla onun rəhbərlik funksiyası saxlanılır.

Bu istintaq hərəkətində hal şahidlərin iştirakı vacib deyil. Müqayisəli tədqiqat üçün nümunələrin götürülməsi barədə hər bir şəxs üçün CPM-nin (maddə 276) tələblərinə müvafiq olaraq müstəntiq ayrılıqda protokol tərtib edir.

Xüsusiyyətlərin əks olunmasını göstərən maddi sübutlardan, meyitlərdən nümunə götürülməsinin lazım olduğu digər hallarda nümunələr prosessual hərəkətlər gedişində – hadisə yerinə, meyitlərə baxış və istintaq eksperimenti, axtarış, götürülmə, tanınmaya təqdim etmə, məhkəmə ekspertizasının keçirilməsində götürülə bilər. Belə halda xüsusi qərarın tərtib olunmasına ehtiyac olmur. Nümunələrə isə həmin istintaq hərəkətinin protokoluna əlavə kimi baxılır. Nümunələr bu zaman ekspertin və ya mütəxəssisin iştirakı ilə alına bilər. İstintaq hərəkətinin növündən asılı olmayaraq bu prosessual yolla götürülən nümunələrə məhkəmə istintaq nümunələri deyilir. Bundan əlavə zəruri hallarda ekspertizanı icra edən ekspert də nümunələri götürə bilər (CPM, maddə 273.4). Əgər nümunələrin alınması ekspert tədqiqatının bir hissəsidirsə, (ekspert nümunələridirsə) nümunələrin götürülməsi barəsində ayrılıqda müstəntiqin qərarı tələb olunmur. Ekspertə müstəntiq tərəfindən nümunə götürülməsi tapşırılmasa da, bir çox hallarda bu məhkəmə tibb ekspertizasının qaydalarında nəzərdə tutulur. Müayinə zamanı ekspert müstəqil olaraq tətbiq edəcəyi metod və müayinə vasitələrini seçir. O, sonrakı tədqiqatlar üçün ona əvvəl təqdim olunmuş obyektlərin bir hissəsini – məsələn,

meyitdən qan, tük nümunələri, orqanizmin ifrazatı və s. – götürə bilər. Əgər qarşıya qoyulmuş suallara cavab verə bilirsə, ekspert obyektin bir hissəsini müayinə etməklə kifayətlənə bilər. O maddi sübutların surətinin (nümunə surətləri) eksperimental zədə nümunələri də hazırlaya bilər. Ekspertin müstəqil olaraq nümunələri götürülməsi üçün ayrı prosessual tərtibat lazım deyil. Bütün ekspert müayinəsi kimi ekspertizanın gedişində nümunələrin götürülməsi barədə məlumat bir prosessual sənəddə – ekspert rəyində göstərilir. Ekspert nümunələrinin müqayisəli tədqiqatı onların alındığı ekspertiza və ya ayrı bir qərarla təyin edilmiş, digər bir ekspertiza çərçivəsində icra oluna bilər (həmin ekspert və ya başqa ekspert tərəfindən). Birinci halda əgər nümunə onu götürmüş ekspert tərəfindən icra olunursa, vahid prosessual şərt ekspertə obyektin özünün (məsələn, meyit) təqdim olunması ilə məhkəmə tibb ekspertizanın təyin olunması barədə qərar göndərilir. Əgər müayinə digər müstəqil bir ekspertiza çərçivəsində aparılırsa, nümunələrin ayrı prosessual tərtib olunması tələb olunur. Bunun üçün onlar əvvəl müstəntiqə verilməli, müstəntiq onları götürmə protokoluna əlavə etməlidir. Protokolda müstəntiq nümunələrin kim, nə zaman, harada, hansı şəraitdə götürdüyünü, onların könüllü və ya məcburi şəkildə verildiyi göstərilir. Bütün nümunələr müstəntiqə fərdi əlamətləri və sayının dəqiq göstərilməsi ilə verilir. Nümunələr bükülməli, üzərində müvafiq yazılar yazılmalı, möhürlənməli, ekspertizanın təyin olunması qərarında qeyd olunmalı və müşayiət edici məktubla ekspert idarəsinə verilməlidir. Məsələn, məhkəmə tibbi ekspertiza təcrübəsində meyitdən götürülən nümunələr (qan, öd, sidik, dırnaq nümunələri, uşaqlıq yolu, arxa keçəcək, ağız boşluğu möhtəviyyatı olan tamponlar, tük nümunələri və s.) meyitin ekspertizasını təyin etmiş orqana verilir. Bu qaydalar alətin identifikasiyası üçün götürülən dəri, qığırdaq, sümük, parenximatoz orqanlar şəxsiyyətin identifikasiyası üçün götürülmüş sümük obyektlərinə də aiddir. Müqayisəli tədqiqat üçün göstərilən bütün obyektlər müstəqil ekspertiza çərçivəsində nümunələrin prosessual statusuna malikdir və onlar götürülüb bükülməli, möhürlənməli, qanunvericiliyə əsasən müstəntiq tərəfindən məhkəmə tibbi laboratoriyaya göndərilir.

Göstərilən nümunələrin məhkəmə tibbi laboratoriyaya göndərilməsini ekspertizanı təyin etmiş şəxs təmin etməlidir. Təəssüflər olsun ki, qanunun bu tələbinə həmişə əməl olunmur. Ekspert çox zaman obyektlərin götürülməsi barəsində öz vəzifəsini yerinə yetirməklə bərabər onların bükülüb laboratoriyaya göndərilməsi vəzifəsini də üzərinə götürür. Adətən bu müstəntiqə kömək, obyektin göndərilməsi müddətinin tezləşdirilməsi ilə izah olunur. Göstərilən iş xoş məramla edilsə də, obyektin mənşəyinin düzgünlüyü barədə şübhələrə və nəticədə məhkəmədə onların sübut əhəmiyyətinin inkar olunmasına səbəb ola bilər. Bu məsələ isə kompleks ekspertiza təyin edilməsi ilə həll oluna bilər. Sözsüz ki, meyitlərin məhkəmə tibbi müayinəsi kompleks xarakteri daşıyır və meyitlərin müayinəsi ilə birlikdə özündə ondan alınmış bioloji materialların müayinəsini də birləşdirir. Əlbəttə, məhkəmə kimyəvi şöbəyə göndərilən toxuma, orqan və ya mikroskopik tədqiqatlar buraya aid edilmir. Çünki, onlar müqayisəli tədqiqat və identifikasiya məqsədlə deyil, yalnız diaqnostik məqsəd üçün götürülür və onlara prosessual mənada «nümunə» kimi baxmaq olmaz.

Məhkəmə tibbi ekspertiza bitdikdən sonra nümunələr ekspertizanı təyin etmiş şəxsə, orqana göndərilir və ya müəyyən müddətdə ekspert idarəsində saxlanılır.

10.2. Müqayisəli ekspert tədqiqatı üçün götürülən nümunələrin təsnifatı.

Nümunələr təbiətinə, xarakter xüsusiyyətlərinə, miqdarına və digər hallara görə müxtəlif olur və məhkəmə işlərində müqayisəli tədqiqat məqsədi ilə işlədilir. Ona görə də onlara müqayisəli tədqiqat nümunələri deyilir. Nümunələrə öncə istintaq zamanı identifikasiya məsələlərinin həlli üçün müraciət olunur. Buraya naməlum şəxsin (meyitin) şəxsiyyətinin müəyyən olunması, istintaq zamanı tapılmış və işə əlavə olunmuş hər hansı bir maddənin və ya əşyanın məhdud qrup çərçivəsində əlamətlərinin təyin olması daxildir. Eyni zamanda obyektin özünün müayinəsi mümkün və məqsədə uyğun deyilsə, nümunələr müayinə oluna bilər. Bununla belə nümunələrin ekspertiza cəhətdən əhəmiyyəti də müxtəlifdir.

Nümunə obyektləri bioloji (növ, cins, qrup mənsubiyyəti xüsusiyyətlərini əks etdirən) və qeyri bioloji obyektlər ola bilər. Prosessual təbiətindən asılı olaraq məhkəmə istintaq və ekspert nümunələri ayırd edilir. Nümunələr öz götürülmə üsullarına görə və obyektin özünə olan münasibətinə görə təsnif olunur. Kriminalistikada nümunələrin müxtəlif təsnifatları mövcuddur. Məsələn, yaranma vaxtına, şərtinə görə sərbəst, eksperimental və şərti sərbəst nümunələr ayırd edilir. Sərbəst nümunələr cinayət işi qaldırılana qədər mövcud olur. Eksperimental nümunələr cinayət işi qaldırıldıqdan sonra CPM-nə uyğun olaraq müqayisəli tədqiqat aparmaq üçün alınır. Şərti sərbəst nümunələr maddi obyektlər olub tədqiqat zamanı meydana çıxır və müqayisə məqsədi daşımır.

Götürülmə üsullarına görə nümunələrin təsnifatının məhkəmə tibbi əhəmiyyəti böyükdür. Bu təsnifat 3 qrupa bölünür:

1. **Bioloji** – insan orqanizminin həyat-fəaliyyətinin məhsulu kimi əmələ gəlir. (Məsələn, obyektin özünün bir hissəsi və ya həmcins obyektlər qrupu - qan, ifrazat, tük nümunələri və s);

2. **Eksperimental və ya süni alınmış** – surət nümunələri. Məsələn eksperimental alınmış surətlər, odlu silah gilizləri;

3. **Sərbəst nümunələr** – onlar tədqiq olunan hadisədən asılı olmayaraq mövcuddur. Məsələn, həlak olmuş şəxsin qohumlarında saxlanılan tük nümunələri, həmin şəxsin yaşadığı vaxt çəkdirdiyi foto və rentgen şəkillər, onun xətt nümunəsi, xüsusilə müqayisəli tədqiqat üçün alınmış travma alətinin analoqu və s.

Eksperimental nümunələr obyektin əşya daşıyıcısı ilə kontaktı (statik və ya dinamik) və ya qeyri kontaktı (foto, video, rentgen, kompyuter) nəticəsində alına bilər.

Öz prosessual təbiətinə görə eksperimental nümunələr məhkəmə istintaq nümunələri ola bilər. Bu zaman onlar istintaq hərəkəti gedişində alınır (məsələn istintaq eksperimenti zamanı). Ekspert nümunələri ekspertizanın icrası zamanı alınır.

Sərbəst nümunələrin alınması şübhəli şəxs və zərərçəkmişin iştirakı ilə bağlı deyil. Onlar digər istintaq hərəkətləri prosesində – axtarış, götürülmə, baxış və digər hallarda alına bilər. Bu müvafiq protokollarda əksini tapır. Nümunə obyektləri müxtəlif xüsusiyyətləri özlərində daşıyır. Bu nöqteyi-nəzərdən onların 4 növü vardır:

1. **Obyektin xarici quruluş xüsusiyyətini əks etdirən nümunələr**: zədə alətinin xüsusi hazırlanmış eksperimental nümunəsi (alətin surəti), obyektlə ümumi əlamətləri olan və müqayisəli tədqiqatda onu əvəz edən analoq nümunələr (tapılmamış itirilmiş alətin analoqu) alətin təcrübədə alınan izləri (məsələn, eksperimental iz alınmada);

2. **Obyektin tərkib və strukturunu əks etdirən nümunələr**. Öz mənşəyi və alınma üsuluna görə onlar bir qayda olaraq təbii nümunələrdir və obyektin bir hissəsi və ya həmcins obyektlər qrupunun bir hissəsidir. Buraya bir çox bioloji təbiətli nümunələr – obyektin qrup xüsusiyyətlərini daşıyanlar, həmçinin hər hansı bir texnoloji proseslə bağlı təcrübə nümunələri, qida nümunələri, iş otağın havasının nümunəsi və s. aiddir;

3. **Obyektin yaranma mexanizmini əks etdirən nümunələr** – məsələn, insanın bəzi vərdişləri və ya insanın peşə xarakteri ilə bağlı (xətt nümunələri, şübhəli şəxs, müqəssirin iştirakı ilə alınan eksperimental iz nümunələri);

4. **Kompleks nümunələr** – obyektin eyni zamanda bir neçə xarakteristikasını əks etdirirlər.

Yuxarıda göstərilənlər nümunələr «iş nümunələri» adlanan qrupu təşkil edir. Bu nümunələr bilavasitə tədqiq olunan cinayət işi ilə əlaqədardır və onların timsalında alətin xüsusiyyətlərinin öyrənilməsi – müqayisəli tədqiqat predmetini təşkil edir. Bundan əlavə nəzarət nümunələri və talon nümunələr də mövcuddur. Bu nümunələr tədqiq olunan cinayətlə bağlı olmayıb ekspertiza prosesində köməkçi rol oynayır. Kontrol (nəzarət) nümunələr iş nümunələrində hər hansı bir qarışıq, çirklənmə olmasının və onların xarakterini təyin etməyə imkan verir. Məhkəmə tibbi ekspertizada bunlar əşya daşıyıcısı kimi istifadə olunan material və maddələrdir. Məsələn, bint, əşya şüşəsi, konservləşdirici mayelər (spirt, formalin) və ya hadisə yerindən kənarda götürülmüş cinayət işi ilə aid olmayan torpaq, su, hava nümunələri.

Etalon nümunələrin iş və nəzarət nümunələrindən fərqi ondadır ki, onlar ekspert müayinəsində qeyri prosessual olaraq istifadə olunur. Bunlar müəyyən bioloji və kimyəvi strukturlu nümunələr kolleksiyasındandır, məsələn, əvvəl antigen xüsusiyyəti bilinən nümunələr, bioloji və kimyəvi qatışıqlar və s. Onlardan işdə istifadə olunan reaktivlərin spesifikliyini, aktivliyini, həssaslığını yoxlamaq üçün istifadə olunur. Bu standart nümunələr standart kimi ekspertizanı təyin etmiş şəxs tərəfindən təqdim oluna bilər. Beləliklə, nümunələrə aşağıdakı müəyyən anlayışı vermək olar: nümunələr müqayisəli ekspert müayinəsinin optimal rejiminin qorunmasının xassələrini əks etdirən obyekt – obyektin maddi modelləridir.

Cədvəl №9. Müqayisəli tədqiqat üçün nümunələrin təsnifatı

1.Mənşəyinə görə

-müxtəlif növ cins, qrup mənsubiyyətini təbii obyekt nümunələrini;

-süni (qeyri bioloji obyekt nümunələri).

2.Prosessual təbiətinə görə

-məhkəmə istintaq nümunələri

-ekspert nümunələri

3.Mənbəyinə və alınma üsullarına görə
-təbii nümunələr
-eksperimental nümunələr
-sərbəst nümunələr
4.Xüsusiyyətlərinin əks olunması xarakterinə görə
-obyektin xarici quruluşunu əks etdirən nümunələr
-obyektin tərkib və strukturunu əks etdirən nümunələr
-obyektin yaranma mexanizmini əks etdirən nümunələr
-kompleks nümunələr
5.Ekspert əhəmiyyətinə görə
-iş nümunələri,
-kontrol (nəzarət) nümunələri
-etalon (standart) nümunələr

10.3. Müqayisəli tədqiqat üçün nümunələrin götürülməsində ekspertin (mütəxəssisin) iştirakı

1961-ci ilə qədər müqayisəli tədqiqat üçün nümunələrin götürülməsini tənzim edən normativ sənəd yox idi. Hadisənin məzmunundan asılı olaraq zərurət yaranan hallarda müstəntiq nümunələri götürüb qərarda müvafiq qeyd apararaq ekspert idarəsinə göndərirdi. Lakin bəzi hallarda, xüsusi ilə qan, ifrazat nümunələrinin müstəntiq tərəfindən götürülməsi şəxsin sağlamlığı və həyatı üçün minimal olsa da təhlükə yaratmaq ehtimalı olduğuna görə tibb işçisinin köməyindən istifadə edilirdi. 1961-ci ildə qəbul olunmuş SSRİ CPM-nin müvafiq maddəsində müqayisəli nümunələrin götürülməsində mütəxəssisin cəlb olunması nəzərdə tutulur. Azərbaycan Respublikasının 01.09.2000-ci ildə qüvvəyə minmiş CPM-də bu hallar nəzərə alınmışdır. Bundan əlavə dövlət məhkəmə ekspertizası fəaliyyətinə görə nümunələrin götürülməsində ekspertizanın icra olunması həvalə olunmuş ekspertin (mütəxəssis) cəlb olunması nəzərdə tutulmuşdur. Hər iki qanunvericilik aktı həm proses iştirakçılarının hüququnun mühafizə olunmasına, həm də nümunələrin düzgün götürülməsinə xidmət edir. Nümunələrin düzgün, şübhəsiz olması çox vacib məsələdir. Çünki «Müqayisəli tədqiqat üçün nümunələr» adı naməlum mənşəli obyektin identifikasiyasından, potensial maddi sübutlarla nümunələrin müqayisəsindən ibarətdir. Nümunələrin götürülməsində mütəxəssisin iştirakı iki əsas məsələni həllə edir. Öncə canlı şəxslərdən nümunələrin götürülməsi, onların orqanizmə müdaxilə ilə bağlı olduğundan mütəxəssisin vəzifəsi onların sağlamlığına zərər yetirilməsinin və həyatı üçün təhlükəli nəticənin qarşısını almaqdır. Eyni zamanda, mütəxəssis sonrakı ekspert müayinəsinin maksimum effektli olması üçün nümunələrin düzgün götürülməsi şərtini təmin edə bilir.

Ekspert nümunələrin götürülməsinə o zaman cəlb olunur ki, müstəntiq götürülən nümunələrin təbiətinə, götürülmə tələbinə və ekspertizanın obyekti barəsində xüsusi biliyə malik olmur. Buna

görə də göstərilənlər iki əsas məsələ müstəntiq tərəfindən mütəxəssislərin nümunələrin götürülməsinə cəlb olmasına qərar verməyin əsasını təşkil edir. Bu vəzifələr mütəxəssisin işinin təşkilatı və texniki tərəfinin nümunələrinin götürülməsi metodlarını və iş iştirakçıları ilə qarşılıqlı əlaqəni təyin edir. Digər istintaq hərəkətləri kimi nümunələrin alınması 3 hissədən – hazırlıq, iş və son mərhələdən ibarətdir.

Nümunələrin götürülməsində mütəxəssisin iştirakı planlaşdırılırsa, əvvəlcə o, istintaq hərəkətinin yeri, vaxtı, işdə hər hansı texniki bir vasitələrdən istifadə olunmasının, onların optimal götürülmə üsulları və fiksə olunması, bükülməsi, saxlanılma və göndərilmə qaydalarını müəyyən edir. Həmin qaydalar isə götürülən nümunələrin növündən, onların obyektin xassələrini özlərində necə əks etdirməsindən asılıdır. Növündən asılı olaraq nümunələr Birliyin ekspertiza şöbələrində (əgər canlı şəxs və meyitlərdən bioloji mənşəli nümunələr götürülürsə) və məhkəmə istintaq orqanlarının müvafiq otaqlarında, hadisə yerində və digər yerlərdə götürülə bilər. Nümunəni götürən məhkəmə tibb ekspertində aşağıdakı alət və ləvazimatlar olmalıdır:

-nümunələrin götürülməsi üçün alətlər: qayçılar, pinsetlər, skalpellər, iynə yığımları olan şprislər, şpatellər, preparat iynələrİ, yapışdırıcı lentlər və s.;

-nümunələrin bükülməsi, saxlanılması və göndərilməsi üçün vasitələr: şüşə və plastmass sınaq şüşələri, 1-20-50 ml həcmli flakonlar, kip tıxaclar, böyük həcmli şüşə bankalar – torpaq və su nümunələrin götürülməsi üçün, təmiz kağızdan zərf və paketlər, sellofan və polietilen torbalar, tənziflər, əşya şüşələri, şpaqat, ip, yapışdırıcı və s.;

-karandaşlar (o cümlədən şüşədə) və digər yazı yazmaq üçün vasitələr;

-fərdi qorunma və ilk tibbi yardım etmə vasitələri: tibbi əlcəklər, talk, sabun, dəsmal, 96 %-li etil spirti, yod, leykoplastır, pambıq, bint, jqut və s.

Göstərilən texniki vasitələrlə mərkəzləşdirilmiş təminat olmadığı üçün məhkəmə tibb eksperti onları özü yuyub qablaşdırır.

Bəzi əlavə texniki vasitələr ayrı-ayrı cinayətlərin tədqiqi ilə bağlı ola bilər. Məsələn, sənaye müəssisələrində texniki təhlükəsizlik qaydalarının pozulması, iş ilə bağlı sağlamlığın pozulması, zədələnmə, yanğın və zəhərlənmə hallarında.

Belə hallarda bəzən nümunə kimi texniki məhsul, sənaye qalıqları, qaz halında olan maddələrin götürülməsinə zərurət yaranır və istintaq hərəkətlərinə dövlət sanitar epidemiologiya müfəttişi, təhlükəsizlik texnikası mühəndisləri və digər mütəxəssislər dəvət olunur.

Nümunələrin götürülməsi üsul və metodları onların tanınmasını təmin edir. Buna iki aspektdə – prosessual və xüsusi aspektdə baxmaq olar.

Cinayət prosessual qanunvericiliyinə görə nümunələrin tanınmasını, onların götürülmə və müayinəyə göndərilmə qaydalarının düzgünlüyünə əməl olunması təmin edir. Buna aşağıdakılar aiddir:

-nümunələrin götürülməsi barədə qərarın çıxarılması (burada söhbət digər ekspertiza dairəsində müayinə olunacaq ekspert nümunələrindən gedir);

-istintaq hərəkəti: baxış, istintaq eksperimenti, nümunələrin götürülmə protokollarında onların götürülməsinin qeydə alınması;

-nümunələrin müstəntiq tərəfindən təsdiq olunması (bükülməsi, möhürlənməsi);

-ekspertizanın təyin edildiyi qərarda nümunələrin müqayisə obyekti kimi göstərilməsi.

Qanun bu qaydanı nümunələrin mənşəyinin təsdiq olunması kimi təsdiq edir. Nümunələrin tanınmasının xüsusi aspekti onların obyektlərin xüsusiyyətlərini özlərində necə əks etdirməsi ilə təyin olunur. Bu əks olunmanın tamlığı onun xüsusiyyətlərinin özlərindən, onların davamlığından, dəyişkənliyindən, obyektin real vəziyyətindən, nümunələrin götürülmə üsullarından, onların qorunma və göndərilməsindən, o cümlədən tədqiqat metodlarından asılıdır. Burada ekspertin iş təcrübəsinin böyük rolu var. Məhkəmə təbabəti və kriminalistikada obyektlərin və nümunələrin götürülməsi,

qablaşdırılması, təsbit olunması, qorunması və göndərilməsi barədə müvafiq tövsiyələr mövcuddur.

Təbii nümunələr arasında məhkəmə tibbi təcrübədə ən çox qan nümunəsi ilə işləmək lazım gəlir. Onların müayinəsi ilə qrup, cins, növ mənsubiyyəti təyin olunur və maddi sübutlar üzərində olan bioloji mənşəli izlərlə müqayisə olunur. Bununla da bu izlərin müəyyən şəxsə mənsub olub-olmaması mümkünlüyü məsələsi həll olunur.

Canlı şəxslərdən qan nümunəsi tibb müəssisələrində və Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin məhkəmə biologiya şöbəsində, ekspertizanın həvalə olunduğu ekspert və ya ekspertin nəzarəti altında həmin müəssisənin iki tibb işçisinin iştirakı ilə digər mütəxəssis tərəfindən götürülür.

Ekspert-bioloq ekspertizanın keçirilməsi barəsində şöbəyə daxil olmuş qərarda hadisənin məzmunu ilə tanış olduqdan sonra ekspertizaya gəlmiş şəxsin sənədinə əsasən onun müstəntiq tərəfindən göndərilən şəxs olmasına əmin olmalıdır. Əgər şəxs məhkəmə ekspertizasına könüllü surətdə gəlmişdirsə, bu zaman qanın götürülməsinə razı olduğunu bildirməlidir. Bu halda qan nümunəsinin götürülməsi ekspert müayinəsinin bir hissəsini təşkil edir və bu proses ekspert rəyində fiksə olunur. Bundan əlavə göndərilən şəxs ondan qan götürülməsi faktını laboratoriyanın müvafiq sənədlərində qeydə alınmasını bilməlidir.

Qan nümunəsi həmçinin müstəntiqin iştirakı ilə hər hansı bir tibb müəssisəsində həkim və ya tibb bacısı tərəfindən götürülə bilər. Bu barədə protokol tərtib olunur. Belə halda müstəntiqə və ya tibb işçisinə qanın götürülməsi və onun məhkəmə tibbi ekspertiza idarəsinə göndərilməsi qaydaları barədə ekspert tərəfindən məsləhət verə bilər.

Qan barmaqdan və ya dirsək venasından steril birdəfəlik şpris vasitəsilə aseptika və antiseptika qaydalarına əməl olunmaqla 3-5 ml miqdarında götürülür. Bir cinayət və mülki işlər üzrə keçən şəxslərin qanının eyni bir vaxtda götürülməsi məqsədəuyğundur.

Meyitlərdən qan nümunəsi meyit yarılan zaman ekspert tərəfindən götürülür. Qan daxili üzvlər çıxarılan ana qədər

götürülməlidir. Qan təmiz pipetka və şpris ilə ürəkdən və periferik venalardan 5-10 ml həcmində götürülür. Qanın bədən boşluqlarından götürülməsi məqsədəuyğun deyil. Təşrih otağında qan götürülməsi üçün əşyalar olmalı və onların hər bir nümunə götürüldükdən sonra təmizlənməlidir.

Saxlanılma və göndərilmə vaxtından və müayinəsindən asılı olaraq qan Birliyin müvafiq laborator şöbələrinə maye və tənzifdə qurudulmuş halda göndərilə bilər. Maye qan təmiz flakonlara yığılır, rezin və polietilen tıxacla qapanır. Göndərilmə uzun müddət tələb edirsə, qan Petri kasasında 4-6 dəfə qatlanmış tənzifdə qurudulur. Qurudulmuş qanın tənzifdə 4-6 sm^2 sahəni tutması məqsədəuyğundur. Yuyulmuş, yaxşı yaxalanıb qurudulmuş tənzifdən istifadə etmək daha yaxşıdır. Çünki təzə bint və tənzifdə olan appretur zərdaba və seroloji reaksiyalara mənfi təsir edir. Tənzifdə olan qan qurudulduqdan sonra onun təsadüfi çirklənməsinin qarşısını almaq üçün qablaşdırılması lazımdır. Qurudulmuş qan nümunəsi ilə birlikdə qurudulmada istifadə olunan təmiz tənzifdən kəsərək bükülür və laboratoriyaya göndərmək üçün müstəntiqə verilir. Bir qayda olaraq qanın konservləşdirilməsi qəti olmaz.

Kəskin çürümə prosesinə məruz qalmış, skeletləşmiş, mumifikasiyaya uğramış meyitlərdən qan götürmək mümkün deyilsə, 1x1x0,5 sm ölçüdə yumşaq toxuma hissələri, hər iki əl barmağı dırnaqları kökündən kəsilməklə, tüklər soğanaqları ilə birlikdə, 5-10 sm uzunluqda borulu sümük fraqmentləri sümük iliyi ilə birlikdə, böyük köpək dişləri (6,7,8-ci dişlər, patoloji dəyişikliklər olmadığı halda) və ya əzələ toxuması götürülür.

Ağız suyu nümunəsi onun qrup mənsubiyyətini müəyyən etmək və onun hansı konkret şəxsə mənsub olma mümkünlüyünü təyin etmək üçün qan və ifrazat ləkələrinin tədqiqatı zamanı götürülür. Məsələn, cinsi cinayətlərin tədqiqi zamanı şübhəli şəxsdən və zərərçəkmişdən ağız suyunun nümunəsi alınır. Çünki onların qan və ifrazat qarışığı maddi sübutlarda aşkar oluna bilər. Nümunə kimi ağız suyu canlı şəxslərdən alınır. Şəxs ağzını yaxaladıqdan sonra ağız suyu 2-3 ml miqdarda sınaq şüşələrinə yığılır, sentrofuqalaşdırılır, çöküntü üstü maye tənzif üzərinə keçirilib otaq temperaturunda

qurudulur. Əgər sentrofuqalaşdırmaq mümkün deyilsə, şəxsin dilinin altına bir neçə dəqiqə müddətə qatlanmış tənzif kəsiyi qoyulur, tənzif kəsiyi ilə ağız suyu hopduqdan sonra götürülüb otaq temperaturasında qurudulur. Ağız suyunun məhkəmə tibbi laboratoriyada götürülməsi məsləhətdir. Çünki ağız suyu nümunəsinin (xüsusilə maye halda) çox saxlanılması qrup antigenlərinin parçalanmasına səbəb olur. Bu səbəbdən də meyitlərdən ağız suyu nümunəsi götürülmür.

Sperma nümunəsinin götürülməsi cinsi cinayətlərin tədqiqi zamanı zərərçəkmişin, şübhəli şəxsin bədənində, paltarlarıfnda, o cümlədən uşaqlıq yolunda, düz bağırsaqda, ağız boşluğunda və ya maddi sübutlarda aşkar olunmuş sperma ləkə və izlərinin müxtəlif sistemlər üzrə müqayisə etmək zərurəti yarandıqda baş verir. Canlı şəxslərdən sperma məhkəmə tibbi ekspertiza idarəsində və digər tibb müəssisəsində xüsusi otaqlarda masturbasiya və ya prostat vəzinin masaj edilməsi yolu ilə alınır. Zəruri hallarda bu prosesə mütəxəssis uroloq da cəlb oluna bilər. Nümunə müstəntiq tərəfindən tez laboratoriyaya təhvil verməlidir.

Ölümlə nəticələnmiş cinsi cinayətlər və onlara şübhə olduqda spermanın təyin olunması üçün və uşaqlıq yolu epitelinin morfoloji xüsusiyyətlərinin öyrənilməsi üçün uşaqlıq yolu ifrazatının, düz bağırsaq və ağız boşluğu möhtəviyyatının nümunələri götürülür. Lazım olduqda aralıq nahiyəsindən və ya bədənin müxtəlif nahiyələrindən nümunələr də götürülə bilər. Nümunələr bir neçə dəfə pinsetə sarılmış tənzif parçaları ilə ehtiyatlı hərəkətlə selikli qişanı zədələməmək şərti ilə (nümunələrə qan düşməməsi üçün) uşaqlıq yolu tağları, ağız boşluğunun müxtəlif dərinlikləri və düz bağırsaq ampulasının işlənməsi ilə götürülür.

İstintaq hərəkəti protokolunda və ekspert rəyində uşaqlıq yolunun hansı hissəsindən – dəhlizi, arxa tağı, uşaqlıq boynu, servikal kanalları və düz bağırsaqdan hansı dərinlikdən möhtəviyyatın alınması göstərilir. Cinsi orqanların, düz bağırsağın ətrafından və bədənin digər nahiyələrindəki dəridən yuyuntu azca suda isladılmış tənzif parçası ilə götürülür.

Tamponlarla bərabər möhtəviyyat təmiz əşya şüşəsinə nazik qat şəklində sürtməklə yaxmalar götürülür. Meyitlərin müayinəsində uşaqlıq yolu, düz bağırsaq və ağız boşluğu möhtəviyyatı daxili orqanlar çıxarılan ana qədər götürülməlidir. Göndərilməzdən əvvəl tampon və yaxma qurudulur, tamponun götürülməsində istifadə olunan tənzif parçası isə ayrılıqda bükülür. Zorlamada şübhələnən şəxsin cinsi orqanlarında qan və uşaqlıq yolu epiteli hissələri ola bilər. Bu hallarda cinsi orqanın səthindən nümunələr götürülür. Bunun üçün cinsiyyət üzvündən tənzif parçasına yuyuntu götürülür və ya iki əşya şüşəsində cinsiyyət üzünün başını fiksə etməklə izlər alınır.

Başdan, qasıqdan və lazım olduqda bədənin digər nahiyələrindən tük nümunələri maddi sübut kimi götürülmüş tüklərlə müqayisə olunma və ya onlarda qrup antigeni təyin etmək məqsədilə götürülür. Bir qayda olaraq tük nümunələri qətl hadisələrdə, cinsi cinayətlərdə, nəqliyyat travmalarında, oğurluq hadisələrində bədənin tüklü nahiyələrinin zədələnmələrində və naməlum şəxslərin meyitlərinin identifikasiyasında götürülür.

Başdan tük nümunələri 5 hissədən – alın, təpə, ənsə, sağ və sol gicgah nahiyələrindən sayı 20-25-dən az olmamaqla götürülür. Canlı şəxslərdən tük dəstələri qayçı ilə dəriyə yaxın hissədən kəsilir və ya əvvəllər istifadə olunmamış daraqla daramaqla götürülür. Tük götürülən şəxsin icazəsi ilə bəzi tüklərin ehtiyatla qoparmaq da olar. Bu halda ona ağrı hissinin olacağı barədə xəbərdarlıq edilir. Tükdə tük kökünün və yataq hissəsi qatlarının olması cinsi mənsubiyyəti təyin etmək imkanı verir. Tük nümunələri ayrılıqda kağız paketlərə yığılır və üzərində götürülmə nahiyəsi qeyd olunur. Bir şəxsin tük nümunələri bir paketdə yerləşdirilir, üzərində şəxsin göstəriciləri, götürüldüyü yer, vaxt yazılır və müstəntiqə verilir.

Qətl və cinsi cinayətlərdə əl barmaqlarından dırnaqaltı möhtəviyyat götürülür. Bunun üçün qayçı ilə dırnaq lövhələrinin sərbəst kənarları kəsilir və ya onların daxili səthlərindən qaşıntı götürülür. Onlar sağ və sol əl üçün ayrı-ayrılıqda paketlərə yerləşdirilir. Bu zaman dırnaqaltı möhtəviyyata dırnaq yatağı

toxuması düşməməlidir. Belə hallar meyitlərdən kobud surətdə dırnaq nümunələri götürüldükdə baş verir və sonrakı tədqiqatı çətinləşdirir.

Meyitlərdə ifrazat və digər bioloji obyektlərin götürülməsində ifraz etmə dərəcəsinin təyin oluna bilmə zərurəti yarana bilməsini nəzərə almaq lazımdır. Həmin məqsədlə meyitdən öd nümunəsi götürülür, otaq temperaturunda tənzifdə qurudulur. Bu zaman tənzifə qan düşməməlidir. Öd olmadığı hallarda sidik və ya 3-5 ml miqdarında perikardial maye götürülür. Onlar şüşə qaba yığılır. Canlı şəxslərdə ifraz etmə dərəcəsi barədə dolayısı olaraq ağız suyunda antigenlərin titrinin müayinəsi nəticəsində fikir söyləmək olar.

Odlu silah, çapıcı, kəsici, deşici, küt alət və digər əşya zədələri ilə müşayiət olunan qətl, bədbəxt, intihar hadisələrində tibbi kriminalistik müayinə üçün laboratoriyaya üzərində yara və yara kanalı olan dəri, qığırdaq, sümük, parenximatoz orqan hissələri, müstəntiqin müvafiq yazılı müraciəti zamanı isə həmçinin əl barmaqları, naməlum meyitin ayrılmış hissələri də göndərilir. Həmin nümunələr obyektin müəyyən xüsusiyyətlərini özlərində əks etdirir. Onlar yalnız diaqnostik məqsədlər üçün deyil, müqayisəli tədqiqat və identifikasiya məqsədi ilə də müayinə edilir. Son halda öz təyinatı və prosessual təbiətinə görə bu obyektlər müqayisəli tədqiqat nümunələrinə yaxındırlar və onlar da yuxarıdakı qaydada götürülüb, Birliyin tibbi kriminalistika şöbəsinə göndərilirlər.

Canlı şəxslər və meyitlərlərdən müqayisəli tədqiqat üçün götürülmüş nümunələrdən başqa məhkəmə tibbi eksperti – mütəxəssis hadisə yerində olan əşyaların, maddi sübutlarda olan bioloji mənşəli iz nümunələrin götürülməsinə cəlb oluna bilər. Bunlar maddi sübutların bir hissəsi olub özlərində naməlum şəxsin və ya güman olunan şəxsin xüsusiyyətlərini əks etdirir və mənasına görə nümunələrdir. Lakin onlar digər prosessual hərəkətlər gedişində (baxış, axtarış) götürülür.

Üzərində qan izləri olan kiçik əşyalar – paltarlar, ayaqqabı, cinayət alətləri, hadisə yerindən götürülüb ekspertizaya tam göndərilir. Belə hal laboratoriyada onların dəqiq təsvir olunmasına və eyni zamanda təkcə bioloji tədqiqat aparmaq üçün deyil, həmçinin izlərin yaranma mexanizmi barəsində fikir söyləməyə imkan verir.

Əgər əşya böyük və çox qiymətlidirsə, ondan hissələrin götürülməsi mümkün deyilsə (kəsmək, mişarlamaq) bu halda iz nümunəsini götürmək lazım gəlir. Zərurət yarandıqda izlərdən qaşıntı və yuyuntu götürülür. İzdə olan qan qurudursa, iti təmiz skalpel və qayçı ilə qaşıntı götürülür. Əvvəl qaşınma hərəkəti ilə izin üzərindən qabıq və hissəciklər götürülür, sonra izin qalan hissəsi əşya daşıyıcısını zədələməmək şərti ilə götürülür. Şaquli və maili səthlərdən skalpellə aşağıdan yuxarıya hərəkət etməklə qaşıntı götürülür. Bu zaman izlərin saxlanılmasını təmin etmək üçün onların altına yapışqanlı lent ilə ucu yuxarı bükülmüş kağız yapışdırılır. Hissəciklər ayrıldıqdan sonra həmin kağıza düşür və həmin kağız qablaşdırmaq üçün istifadə olunur. Kriminalistikada şaquli səthlərdən izləri götürmək üçün xüsusi borulu bıçaqdan istifadə olunur. Nəzarət üçün ləkə olmayan sahədən də digər təmiz skalpellə qaşıntı götürülür.

Yuyuntu götürmək üçün azca fizioloji məhlulda və ya distillə olunmuş suda isladılmış təmiz tənzif parçalarından istifadə olunur. Tənzifin ölçüsü təxminən ləkənin ölçüsünə bərabər olmalıdır. Kiçik ləkələr üçün paltara 2 sm uzunluğunda kəsik götürülür. Nəm tənzif bir neçə dəqiqə ləkəyə sıxılır, bu zaman ləkə toxumaya keçir, sonra tənzifin kənarları ilə səth tamam tənzifə hopdurulur. Analoji qayda ilə ləkə olmayan sahədən nəzarət əşya daşıyıcısına yuyuntu götürülür.

Qan gölməcələrindən qan təmiz flakona, sınaq şüşəsinə və digər 5-10 ml həcmində şüşələrə götürülür. Qanın bir hissəsini tənzifdə qurutmaq olar. Lakin bu zaman laboratoriyaya nəzarət üçün qanın qurudulduğu tənzifdən nümunələr kəsilib göndərilir.

Qar üzərində olan qan qaşıq və şpatel ilə bir neçə qat bükülmüş təmiz tənzif olan qaba yerləşdirilir. Qar əridikdən sonra (temperatur +37-dən artıq olmamalıdır) maye qan ilə birlikdə tənzifə hopur və qurudulur. Ləkə olmayan qar da nəzarət üçün eyni qaydada işlənir.

Torpaq qan hopduğu bütün dərinliklərdə nazik qat ilə şüşə qablara sərilir və otaq temperaturunda qurudulur. Eyni qayda ilə qan olmayan qonşu torpaq sahəsi də götürülür. Qurudulmuş qan olan və olmayan torpaq hissələri ayrılıqda kağız paketlərə yerləşdirilir.

Maddi sübutlar üzərində ağız suyu, sperma və insan orqanizminin digər ifrazatları aşkar edildikdə (tər, sidik, nəcis) və ya belə ləkələrə

şübhə olduqda bu əşyalar laboratoriyaya tam və ya müəyyən bir hissəsi göndərilir. Adətən bunlara papiros və siqaret kötükləri, zərərçəkmişin ağzına tıxanmış əski parçası, dəsmal, yataq ləvazimatı, içmək üçün istifadə olunan qabları, zərfləri, poçt markaları, yemək qalıqları və digər əşyalar aiddir. Bu əşyaların da tam götürülməsi mümkün olmayan hallarda onlardan ləkə olan bir hissə götürülür. Bu da mümkün olmazsa, ləkələrdən bir neçə hissə götürmək olar. Məsələn, ətraf mühitdə, nəqliyyatda, torpaqda, qarda olan ağız suyu, sperma və sidik izləri. Ləkələr də qan izlərində olduğu kimi şərtlərə uyğun olaraq götürülür.

Hadisə yerində və maddi sübutlarda aşkar edilmiş tüklər tam və ya hər bir yerdən onların çox hissəsi götürülür. Onlarda tər ifrazatı qoymamaq və zədələməmək üçün tükləri ucuna rezin taxılmış pinset və ya rezin əlcəklərlə götürmək məqsədəuyğundur.

Meyitin qalıqları olması güman edilən kül nümunəsi qatlarla müxtəlif sahələrdən götürülür. Hər bir nümunə 50-100 q miqdarda götürülərək dərinliyi və götürüldüyü yer göstərilməklə ayrılıqda qablaşdırılır. Nümunələr spektroqrafik müayinələr üçün tibbi kriminalistika şöbəsinə göndərilir.

Meyitin entomoloji faunasına aid nümunənin götürülməsi aşağıdakı göstərilənləri nəzərə almaqla, onlara əməl olunmalıdır. Həşəratların yumurtaları, tırtılları, pupları, yetişmiş milçək və böcəklər bir birindən ölçüsünə, xarici görünüşünə, rənginə görə fərqlənirlər. Onlar meyitin üzərindən, meyit olan çökəklikdən, onun altında olan torpaqdan 30 sm-ə qədər olan dərinlikdən 30-dan 50-yə qədər sayda götürülür. Ayrılıqda 200-500 ml həcmində olan qablara yerləşdirilir. Qabın ağzı hava buraxan qalın material ilə bağlanır, dibinə isə nəm yonqar və az miqdarda qida (ət parçası) qoyulur. Onları günəş şüası altında və istilik cihazları yanında saxlamaq olmaz. Canlı nümunələrin bir hissəsini 70^0-li etil spirtdən istifadə edib konservləşdirməklə entimoloji müayinə üçün bioloji şöbəyə göndərmək olar.

Sərbəst nümunələr istintaq baxışı kimi prosessual hərəkətlər (hadisə yerinə, meyitə, ərazi və əşyalara baxış) çərçivəsində axtarış və götürmə zamanı alına bilər. Adətən bunlar torpaq, su, meyit

faunası, meyit yandırılmasında istifadə edilən yanacaq, texnologiya məhsulları, sənaye tullantıları və digər nümunələrdir. Bu nümunələrin götürülməsində xüsusi biliyə zərurətin olmaması fikri düz deyil. Onların düzgün seçilməməyi ekspert rəyinə mənfi təsir göstərə bilər və təkrar, əlavə istintaq hərəkətlərinə və istintaqın vaxtının uzadılmasına səbəb ola bilər.

Su nümunəsi suda meyit və onun hissələri tapıldıqda və ya qəbul edilmiş keyfiyyətsiz suyun orqanizmə mənfi təsir göstərdiyi hallarda götürülə bilər. Su nümunəsinin götürülməsini müstəntiq təşkil edir və lazım olduqda bu istintaq hərəkətinə müxtəlif sahə mütəxəssislərin (məhkəmə tibb eksperti, hidroloq, toksikoloq, sənaye və kommunal gigiyena sahəsində mütəxəssislər) cəlb edir. Su nümunəsinin kimyəvi, fiziki, bakterioloji tərkibi, meyit tapılan su hövzəsində yaşayan planktonun növü ilə meyitin orqan və toxumasında tapılan plankton ilə müqayisə etmək üçün tədqiq olunur. Bəzən isə meyitlərin bədəni və paltarlarında olan neft məhsulları suda olan neft məhsulları ilə müqayisə olunur. Diatom-planktonunun tətbiq etmək üçün su nümunəsi 0,5-1 litrdən az olmayaraq güman olunan batma yerindən suyun dibinə və 10-15 sm dərinlikdən ayrı-ayrı şüşə qablara götürülür. Əgər batma yeri məlum deyilsə, meyit aşkar olunduğu yerdən su nümunəsi götürülür. Suda diatomların az olduğu vaxtlarda çox miqdarda götürülüb saxlanmış suyun nümunəsi müayinə olunur. Qaba təsadüfi plankton düşməməsi üçün əvvəl o, distillə olunmuş suda yuyulur, distillə olunmuş su olmadıqda həmin su hövzəsinin suyu ilə yaxalanır.

Meyitlərin ekshumasiyasında basdırılma müddətini, torpağın xüsusiyyətlərinə görə təyin etmək üçün həmçinin müqayisəli məhkəmə kimyəvi tədqiqat üçün (əgər ölümün zəhərlənmədən baş verdiyi güman olunursa) torpaq nümunəsi götürülür. Torpaq nümunəsi hər biri 500 sm^3 olmaqla 6 ədəd – torpağın meyitlə kontaktda olan hissələrindən (baş, sağ, sol, yuxarı, aşağı ətraflar, meyitin vəziyyəti və pozasına görə) götürülür. Əlavə olaraq meyit tapılan yerdən 5-10 metr məsafədən az olmayaraq torpaq nümunəsi götürülür və protokolda, ona əlavə olunan sxemlərdə göstərilir.

Nümunələr təmiz şüşə bankalara yığılır, ağzı qapanır. Tətbiq olunan məqsəd və metodlara görə torpaq çox və ya az götürülə bilər.

Torpaq və bitki nümunələrinin, meyit və onun tapıldığı yerin faunası ilə birlikdə yığılması ölümün baş vermə müddətinin, meyitin göstərildiyi yerdə qalma müddətinin təyini üçün birlikdə entomoloji müayinəsi məqsədəuyğundur. Torpaq nümunəsi meyitin tonqalda tapıldığı və külün götürülməsi zamanı da götürülə bilər. Bu zaman torpaq səthindən 2-3 nümunə və tonqalın ətrafından torpaq nümunəsi götürülür.

Meyitin yandırılması üçün istifadə olunan yanacaq qalmışsa, onun hər növündən (benzin, mazut, odun, kömür, torf və s.) 100 q-dan az olmayaraq götürülməlidir.

Eksperimental nümunələr ekspert eksperimenti zamanı məhkəmə tibbi ekspertizanın icra olunması gedişində alınır. Məhkəmə tibbi ekspertiza obyektlərinin müqayisə olunması, onların identifikasiyası, o cümlədən eksperimental nümunələrin alınıb istifadə olunmasının ümumi prosessual təşkili və nəzəri qaydaları xüsusi rəhbərliklərdə öz əksini tapmışdır («İti alətlərlə zədələnmələrin məhkəmə tibbi trassoloji məsələləri», 1998; «İti alətlərlə zədələnmələrin tibbi kriminalistik aspektləri», 1999; «Zədələrin morfoloji əlamətlərinin qrafik kodlaşdırılması», 1999; «Məhkəmə təbabəti», dərslik, 2006 Ş.M.Musayev;).

Eksperimental nümunələrin alınmasının əsas qaydası obyektin özünün alınmasına maksimal uyğun olan izin qoyulmasını yaratmaqdır. Ekspert tərəfindən müqayisə nümunələrinin alınması tədqiq olunan cinayətlərdə iz qoyma mexanizmini həmişə təmin etmir. Bu daha çox dinamik izlərə aiddir. Çünki bunlar zədə alətinin quruluşunu əks etdirməklə bərabər həmçinin cinayətkarın vərdişlərini də göstərə bilər. Bu mənada hərəkətin dinamik sterotipini nəzərə almaqla şübhəli şəxsin (təqsirləndirilən şəxsin) eksperimental zədələrin alınmasında iştirakı tələb oluna bilər. Prosessual normalara görə bu istintaq eksperimenti zamanı mümkündür. Əlbəttə, bu halda şübhəli şəxs və ya təqsirləndirilən şəxsə qarşı məcburi hərəkətlər etmək olmaz. Belə hal eksperimentin nəticəsinə mənfi təsir göstərə bilər. Məhkəmə tibb ekspertinin əsas rolu əvvəl aparılmış ekspert

müayinəsini nəzərə alaraq, eksperimental zədələrin alınma şəraitini fiksə etməklə buna düzəliş etməsidir (məsələn, əl hərəkətlərinin istiqaməti və tempi, iz yaradan və iz götürən obyektlərin qarşılıqlı vəziyyəti və s.).

Nümunələrin qablaşdırılması maddi sübutların qablaşdırılmasında olduğu kimidir. Qablaşdırma obyektin və onun xüsusiyyətlərinin saxlanılmasını təmin etməli, onların itməməsinə və dəyişdirilməməsinə səbəb olmamalıdır. Qablaşdırma vasitələri yuxarıda göstərilmişdir. Onlar əvvəldən hazırlanmalı, təmiz, quru olmalı, germetiklik təmin edilməlidir. Əvvəllər bioloji və kimyəvi maddələrlə təmasda olmuş vasitələrdən istifadə etmək olmaz.

Nümunələrin növündən asılı olmayaraq (həşəratlar istisna olmaqla) onlar Birliyin müvafiq laboratoriya şöbələrinə qurudulmuş vəziyyətdə göndərilməlidir. Qan, ağız suyu, digər maye nümunələri, ifrazatlar (tənzifdə və ya əşya şüşəsində) günəş şüası düşməyən istilik cihazlarından uzaqda otaq temperaturunda həşəratlar üçün əlçatmaz yerdə qurudulur. Bu onların xüsusiyyətlərin saxlanılmasına köməklik edir.

Nümunələri çox liflənən materiallarda, sintetik, polietilen və sellofan materiallarda bükülməsi məsləhət deyil. Onlar rütubəti saxladıqları üçün nümunələrin çürüməsinə səbəb ola bilər. Polietilen materialdan yalnız qısa müddətdə qurumamış obyektin bükülməsi üçün istifadə etmək olar. Bu zaman material üzərində «nümunələr nəmdir və bu vəziyyətdə saxlamaq olmaz!» sözləri yazılmalıdır. Polietilen materialdan uçucu nümunələrin germetik qablaşdırılması üçün istifadə etmək olar.

Yuxarıda göstərilən təbii nümunələr (qan, ağız suyu, tüklər) insan orqanizminin həyat məhsulları olduqları üçün onları konservləşdirmək olmaz.

Nümunələr maddi sübutlardan ayrılıqda qablaşdırılır. Ayrı sahələrdən götürülmüş tük nümunələri, eyni sahədən götürülmüş, lakin quruluş əlamətlərinə görə fərqli nümunələr, iş və nəzarət üçün götürülmüş nümunələr bir birindən ayrılıqda qablaşdırılır.

Eyni iş üzrə olan, lakin ayrılıqda qablaşdırılmış nümunələr bir qayda olaraq ümumi bir taraya, qutuya və ya paketə yerləşdirilir. Bu

zaman elə etmək lazımdır ki, onlar daşınma zamanı bir birinə qarışmasın. Paket və ya qutunun üzərinə obyektin növü, sayı, alınmasının yeri, tarixi, üsulu, əşya daşıyıcısının xarakteri barəsində yazı qeyd olunur.

Nümunələrin digər prosessual hərəkətlərin gedişində alınmasını (o cümlədən mütəxəssisin iştirakı ilə) müstəntiq həmin istintaq hərəkətinin protokolunda qeyd edir. Nümunələrə bu halda protokola əlavə kimi baxılır. Müqayisəli tədqiqat üçün nümunələrin götürülməsi protokolu iş üzrə sübut sayılmır. Belə ki, onda olan göstəricilərdən sonrakı ekspert rəyində istifadə olunur. Buna görə də protokolda olan yazı ilə istintaq hərəkətində iştirak edən mütəxəssis tanış olmalıdır. Protokolda nümunələrin götürülməsi növü, sayı, yeri, tarixi, üsulu (yuyuntu, qaşıntı və s.) qablaşdırılmanın növü və üzərində olan yazılar əks olunmalıdır. Protokola istintaq hərəkətinin ayrı-ayrı mərhələsinin foto və cədvəlləri əlavə oluna bilər.

Nümunələrin müayinəsi xüsusi müayinə metodları tələb etdiyi üçün ekspertə nümunələrin mənbəyi olmuş obyektin vəziyyətini bilmək lazımdır. Məsələn, nümunənin növündən asılı olaraq protokolda meyitin vəziyyəti, onun qəbul olunması şərtləri, keçirilmiş olduğu xəstəliklər (canlı şəxs və ya meyit), maddi sübutların götürülməsi zamanı hava şəraiti, eksperimental nümunələrin alınması üçün istifadə olunan əşyaların vəziyyəti və s. Müayinə zamanı ekspert tərəfindən götürülmüş nümunələr ekspert sənədinin protokol hissəsində fiksə olunur və bu zaman nümunələrə rəydə əlavə kimi baxılır. Əgər onların müayinəsi digər ekspert müəssisələrində keçirilirsə və ya onlar digər ekspertiza çərçivəsində müayinə olunursa, nümunələr müstəntiqə verilir. Müstəntiq hal şahidlərinin iştirakı ilə onların qablaşdırılması, tanınması və dəyişdirilməməsi üçün tədbirlər görməlidir. Nümunələrin götürülməsi barəsində müstəntiq götürülmə protokolu tərtib edir, onun surəti ekspertə verilir və rəyin surəti ilə birlikdə Birliyin arxivində saxlanılır. Nümunələrin götürülməsi protokolu onların alınması protokolundan fərqli olaraq iş üzrə maddi sübutdur və obyektin həqiqiliyini sübut edir.

Mütəxəssisin nümunələrin götürülməsi barəsində istintaq hərəkətinin nəticələrinə ilkin qiymət verməsi tələb oluna bilər.

Məsələn, sonrakı müqayisəli tədqiqat üçün nümunələrin yararlı olmasına, onların alınmasında xüsusi qaydalara əməl olunmasına, istintaq hərəkətinin təkrar icra edilməsinə zərurət olmasına qiymət vermək. Nümunələrin tədqiqat üçün Birliyin müvafiq şöbələrinə göndərilməsini müstəntiq təmin edir.

FƏSİL 11. TANINMAYA TƏQDİM ETMƏ.

11.1. Şəxsiyyətin təyin edilməsi məqsədi ilə xüsusi məhkəmə tibbi biliklərdən istifadə etmə formaları.

Məhkəmə təbabətinin ən vacib və aktual problemlərindən biri də şəxsiyyətin identifikasiyasıdır. İnsan şəxsiyyətinin (naməlum meyitin) təyin olunmasının müxtəlif üsulları var. Təcrübədə bu məsələ 3 üsulla həll olunur:

1. DİN-də mövcud olan müxtəlif hesabat-qeydəalma və axtarış sistemlərindən istifadə etməklə əməliyyat-axtarış tədbirləri gedişində.
2. İstintaq və məhkəmə hərəkətlərinin icra olunması ilə (əgər cinayət işi başlanmışdırsa).
3. Məhkəmə ekspertizası və ya xüsusi müayinələr aparılması ilə.

Məlum səbəblərdən məhkəmə tibb ekspertləri daha çox identifikasiyanın ekspert qiymətləndirməsinə diqqət ayırırlar. Ona görə də şəxsiyyət identifikasiyası problemi məhkəmə təbabətində xüsusi elmi hissə kimi ayrılmışdır.

Bununla belə məhkəmə-tibb ekspertləri tez-tez naməlum şəxsin (meyitin) istintaq identifikasiyasına da cəlb olunurlar. Bu məqsədlə aparılan prosessual hərəkətlərə hadisə yerlərində naməlum şəxsin meyitinə baxış, digər yerlərə istintaq baxışı, itkin düşmüş şəxsin güman olunan yaşayış yerinə baxış, tibbi sənədlərin axtarılıb götürülməsi (itkin düşmüş şəxsin yaşayış yerində), müqayisəli tədqiqat üçün nümunələrin götürülməsi, ekshumasiya, tanınmaya təqdim etmə və sairə aiddir.

Qanuna görə şəxsiyyətin təyin olunmasının müxtəlif formaları bərabər sübutedici əhəmiyyət kəsb edir. Məhkəmə-tibb eksperti rəylərinin nəticələri elmi əsaslandırılmış olduğuna görə şəxsiyyətin identifikasiyasına dair məhkəmə-tibbi ekspertinin rəyi digər formalara nisbətən daha çox əhəmiyyət kəsb edir və digər sübutlarla bərabər hesab olunur. Qanunvericilik ekspert rəyini, istintaq, məhkəmə hərəkətləri protokollarını və digər sübutları sübut

mənbələri kimi göstərməklə yanaşı, istintaqı aparan şəxs, müstəntiq, prokuror üçün onların əvvəlcədən qəbul olunmuş gücə malik olmadığını göstərir. Məhkəmə, prokuror sübutları öz daxili inamlarına görə qiymətləndirir və bu zaman onlar qanun və vicdanlarını rəhbər tutaraq cinayət işində olan sübutlar yığımına əsaslanırlar. Sübutların qiymətləndirilməsində bir şübhəsiz əsas var – sübutların qanuni alınıb tərtib olunması. Lakin burada da onların məntiqi formaları, sübutların mütləq və ya güman olunan faktlarla göstərilməsini nəzərə almaq lazımdır.

Qanunvericilik şəxsiyyətin müəyyən olunması üçün ekspertizanın keçirilməsini mütləq nəzərdə tutmur. CPM-nə görə zərərçəkmişin, şübhəli və təqsirləndirilən şəxsin yaşının təyini üçün ekspertiza onun yaşını göstərən sənədlərin olmaması və ya şübhəli olması zamanı keçirilə bilər. Qalan hallarda insanın və ya naməlum meyitin şəxsiyyətinin təyin olunması qanunda nəzərdə tutulan üsullarla icra oluna bilər. Onlardan biri də tanınmaya təqdim etmədir. Prosessual qanunvericilik tanınmaya təqdim etmədə xüsusi biliklərdən istifadə olunma mümkünlüyünün barəsində tam məlumat vermir. Belə ki, müstəntiq, prokuror və məhkəmənin iştirakı ilə ekspertə hər bir istintaq hərəkətində iştirak etmək hüququ verdiyi halda, tanınmaya təqdim etmə kimi istintaq hərəkətində ekspertin və ya mütəxəssisin iştirakı barədə heç nə deyilmir. Meyitlərin tanınmasında məhkəmə tibb ekspertlərin iştirakı böyük əhəmiyyət kəsb edir. Lakin xüsusi ədəbiyyatlarda, normativ sənədlərdə məhkəmə həkiminin tanınmada iştirakının prinsipi və işinin məzmunu, onun müstəntiq və digər əməliyyat işçiləri ilə qarşılıqlı əlaqəsi lazımi səviyyədə əks etdirilməmişdir. Bu səbəbdən də müstəntiq şəxsiyyətin təyin olunması ilə bağlı məhkəmə təbabəti sahəsi mütəxəssisinin ona edəcəyi kömək, onun hansı hallarda iştirakının vacib olması və ya hansı hallarda çox da vacib olmaması barəsində tam məlumatlı olmur. Son illərdə məhkəmə təbabəti sahəsində mütəxəssislərin həlak olmuşların və xüsusən kütləvi insan ölümü zamanı həlak olmuşların tanınmasında işlərinin təşkili barədə məsələlər işlənməyə başlamışdır. Məsələni tənzim edən normativ sənədlərin olmaması o demək deyil ki, məhkəmə təbabəti sahəsində mütəxəssis naməlum meyitlərin

tanınmasında iştirak etmir və şəxsiyyətin müəyyənləşdirilməsinə cəlb oluna bilməz. Əksinə, hüquq mühafizə orqanlarının və məhkəmə-tibbi xidmətin müştərək fəaliyyətlərinin düzgün təşkil olunduğu hallarda ekspert və istintaq təcrübəsi həlak olmuşların şəxsiyyətinin təyinində məhkəmə təbabəti elmindən prosessual və qeyri prosessual formada istifadənin səmərəliliyi həmişə yüksək olmuşdur.

Sxem №10. Şəxsiyyətin identifikasiyası məqsədi ilə məhkəmə təbabəti biliklərindən istifadənin formaları.



İnsanın (meyitin) şəxsiyyətini təyin etmək məqsədi ilə aparılan geniş yayılmış istintaq hərəkəti tanınmaya təqdim etməkdir. Aşağıda tanınmaya təqdim etməkdə məhkəmə təbabəti sahəsində mütəxəssisin iş metodları, işinin təşkili və prosessual əsasları göstərilir.

11.2. Tanınmaya təqdim etmə anlayışı və onun prosessual məzmunu.

Tanınmaya təqdim etmə müstəqil istintaq hərəkəti kimi müəyyən istintaq taktikası, metodikası, terminologiyası və həmçinin məhkəmə təbabəti sahəsində olan mütəxəssislər də daxil olmaqla iştirakçıların hərəkətlərinin məzmunu və ardıcıllığı ilə xarakterizə olunur. Tanınmaya təqdim etmənin əsas prosessual tələbləri və qaydalarını məhkəmə tibb ekspertinin bilməsi vacibdir.

Tanınmaya təqdim etmənin adında onun məqsədi, məzmunu və metodikası əks olunur. Tanınmaya təqdim etmə prosessual hərəkət olub, tanıyan şəxsə, müşahidə olunan obyektin eyniliyinin, ümumi soy mənsubiyyətinin təyin olunması və ya əksinə, fərqləndirilməsi üçün müstəntiq (məhkəmə) tərəfindən obyektin təqdim edilməsindən ibarətdir. Tanınmanın mahiyyəti konkret təqdim olunan obyektin yaddaş və şüurda əvvəl formalaşıb möhkəmlənmiş obyektlə predmet mahiyyəti ilə müqayisə olunmasıdır. Tanınmaya təqdim edən subyektlərə, prokuror, müstəntiq və məhkəmə, tanıyan subyektlər isə müxtəlif prosessual statusa malik şəxslər, şahid, zərərçəkmiş, şübhəli şəxs və müqəssir aiddir. Tanıyan şəxs müstəntiq və ya iş üzrə təyin olunmuş ekspert ola bilməz. Tanınan obyekt müəyyən şəxs və meyitlərdən başqa hər hansı bir digər əşya, həmçinin heyvanlar, yer sahəsi də ola bilər. Tanınmaya təqdim etmənin qanuni tələblərindən danışarkən bu istintaq hərəkətinin bəzi məcburi prosessual elementlərini qeyd etmək lazımdır.

CPM–nə uyğun olaraq tanıyan şəxslər ilkin olaraq şəxsi, əşyanı, onların xüsusiyyətlərini gördükləri şərait barəsində dindirilir və bu zaman onlara yönəldici suallar yol vermək olmaz. Tanınan obyekt digər obyekt və şəxslər, əşyalarla imkan daxilində xarici görkəm və xüsusiyyətlərinə görə oxşar olmaqla birlikdə təqdim edilməlidir. Konkret obyektlər, o cümlədən meyitlər olmadıqda foto, video və digər təsvirlərlə tanınma aparıla bilər. Bu zaman onların və digər obyektlərin sayı üçdən az olmamalıdır. İstintaq hərəkəti zamanı

tanıyan şəxs hansı əlamət və xüsusiyyətlərinə görə şəxsi və ya əşyanı tanıyıb-tanımaması barədə izahat verməlidir.

Tanınmaya təqdim etmənin gedişi və nəticələri protokolda əksini tapır. Protokol istintaq hərəkətinin bütün iştirakçıları, o cümlədən də mütəxəssis tərəfindən imzalanır. Məhkəmə-tibbi təcrübədə ekspert meyit və onun hissələri ilə bağlı tanınmaya təqdim etməyə cəlb oluna bilər. Meyitlərə görə tanınmanın özünəməxsus prosessual xüsusiyyətləri vardır. Naməlum meyitlərin digər meyitlərlə birlikdə qrup şəklində tanınmaya təqdim edilməsi qanunla tələb olunmur. Qanunvericilik burada meyitin təqdim olunmasının psixoloji aspektlərini və təşkil etmənin çətinliklərini nəzərə alır (məsələn, digər meyitlərin olmaması). Meyitlərin tanınmasının təşkili və digər tələbləri başqa obyektlərdə olduğu kimidir.

1994-cü ildə məhkəmə təbabəti ədəbiyyatında «Personifikasiya» termini meyit qalıqlarının konkret şəxsə məxsus olmasını təyin edərkən ekspert hərəkətini göstərmək məqsədi ilə işlənmişdir. Burada söhbət «identifikasiya» anlayışının əvəz edilməsindən getmir. «İdentifikasiya» terminindən fərqli olaraq «personifikasiya» şəxsiyyətin əlamətlərini obyektlər qrupu üzrə təyin olunması mümkünlüyünü göstərir. Yəni bu identifikasiya üçün lazım olan informasiya azlığında əhəmiyyət kəsb edir. Sonradan personifikasiya termini meyitlərin tanınması üçün istifadə olundu. Personifikasiya termini latın mənşəli olub, persona – şəxsiyyət, facere – etmək deməkdir. Sözün hərfi mənasını nəzərə alsaq, həmin termini tanınmanın bir növü kimi, yəni tanıyan şəxsin yaddaşında cansız obyektlərin (meyitin) və konkret şəxsin əlamətlərinin möhkəmlənməsi kimi qəbul etmək olar. Tanınmanın qeyri konkret və qeyri-obyektiv əlamətlərlə keçirildiyi hallarda istintaq hərəkətinin bütün iştirakçıları üçün əlverişlidir. Tanınmanı ifadə edən şəxs, obrazı dəqiq təsvir edə bilmir və öz fikrini duymaqla intuisiya ilə sifətin ümumi cizgiləri əsasında təsvir edir. Kriminalistik ədəbiyyatlarda istifadə olunan tanınmanın psixoloji təsnifatı kimi simultan (sintetik) tanınmanın adı çəkilir. Simultan tanınmanın mahiyyəti ondan ibarətdir ki, eynilik və qrup mənsubiyyəti barədə nəticə tanıyan şəxs tərəfindən obyektin ümumi qavranmasına əsasən

həmin anda deyilir. Bu zaman şəxsiyyətin fiziki əlamətlərinin şüurlu analizindən yan keçirir. Tanınmanın bu növündə personifikasiya termini yararlıdır. Qeyd etmək lazımdır ki, tanınmaya məhkəmə tibb eksperti onun xüsusi biliyinin tələb olunduğu zaman cəlb olunduğu üçün o zaman personifikasiya yuxarıda göstərildiyi kimi başa düşülür və ekspertin burada iştirakı əhəmiyyət kəsb etmir. Simultan tanınmadan fərqli olaraq suksessiv tanınma - obyektə söz təsvirinin ayrı-ayrı elementləri, əlamətləri, xüsusi nişanələri, bəzən isə unikal nişanələrinin ayrılması ilə həyata keçirilir. Bu halda tanınma termininin personifikasiya ilə əvəz olunması prosessual və hərfi mənada əsaslı deyil.

11.3. Tanınmaya təqdim etmədə ekspertin (mütəxəssisin) iştirakı

Tanınmanın nəticəsi və onun dəqiqliyini təyin edən vacib faktor bu istintaq hərəkətinin prosessual tələblərinə əməl olunması, onun bütün iştirakçılarının rasional effektli hərəkəti və qarşılıqlı əlaqələrin düzgün təşkil olunmasıdır. İnsanın anatomik və fizioloji əlamətlərinin identifikasiyada xüsusi əhəmiyyəti üzərində dayanmadan (ədəbiyyatlarda lazımi qədər məlumatlar var) tanınmaya təqdim etmədə məhkəmə təbabəti sahəsində mütəxəssisin iştirakı işinin təşkilini nəzərdən keçirək. Bu baxımdan öncə meyitləri tanınmaya təqdim etmədə iştirak etməyə dəvət olunan məhkəmə təbabəti sahəsinin mütəxəssisi aşağıdakı prinsipləri rəhbər tutmalıdır.

1. Prosessual hərəkətin təşkili və onun aparılmasında müstəntiqin rəhbər rolu.
2. Əvvəldən planlaşdırmanın zərurəti.
3. Meyitin və itkin düşmüş şəxsin əlamətlərinin müəyyən edilməsinə maksimal cəhd.
4. Əlamətlərin qiymətləndirilməsi və onların identifikasiya üçün əhəmiyyətinə diferensial yanaşma (onların populyasiyada davamlığı, dəyişkənliyi və yayılmasını nəzərə almaqla).
5. Tanıyan şəxsin psixoemosional vəziyyətinin nəzərə alınması.

Prosessual nöqteyi-nəzərdən tanınmaya təqdim edilmədə məhkəmə tibb eksperti və məhkəmə təbabəti sahəsi üzrə digər mütəxəssis iştirak edə bilər (cinayət işi açılmış və ekspertiza təyin olunmuşdursa).

Tanınmada iştirak etmiş mütəxəssis sonra həmin iş üzrə ekspert qismində iştirak edə bilər. Tanınmaya təqdim etmədə hal şahidləri iştirak edir. Meyitlərə görə tanınmaya təqdim olunmuş məhkəmə tibb ekspertinin işi 3 mərhələdən ibarətdir: hazırlıq, tanınmanın özündə iştirak etmə, istintaq hərəkətinin nəticəsinin qiymətləndirilməsində iştirak etmə.

Hazırlıq mərhələsinə aiddir:

1. Meyitin tanınmaya təqdim olunmasının məqsədəuyğunluğu və

imkanları barəsində müstəntiqə məlumat vermək.

2. Ölmüş və itkin düşmüş şəxslərin əlamətlərinin müəyyən olunmasında müstəntiqə kömək etmək.

3. Meyitləri tanınmaya hazırlamaq.

4. İstintaq hərəkətinin keçirilməsi üçün zəruri şəraitin yaranması, onun vaxtının, yerinin planlaşdırılmasında müstəntiqə kömək etmək.

Meyitin tanınması üçün 2 şərtin olması zəruridir: Tanınma ölmüş şəxsin sağlığında onu görüb tanımış şəxslərin iştirakı ilə olmalıdır və ölmüş şəxsin xarici görkəmi tanınmaya yararlı olmalıdır.

Məhz göstərilən hallar meyitlərin tanınmasının prinsipial mümkünlüyünü müəyyən edir və burada müstəntiq tərəfindən bu prosessual hərəkətin həyata keçirmənin məqsədəuyğunluğunun müəyyənləşdirilməsində məhkəmə-tibb ekspertinin köməyinə ehtiyac yaranır. Nəzərə almaq lazımdır ki, zədələr və ölümdən sonra baş verən proseslər nəticəsində meyitin xarici görkəmində yaranmış kobud dəyişiklər tanınmaya təşəbbüs üçün mütləq əsas deyil. Hər bir hal tanınmaya imkan verə bilən konkret əlamətlərə görə, onların görünüşü davamlığı, dəyişkənliyi, həmçinin tanıyan şəxsin meyitin əlamətlərini nə qədər bilib yadda saxlaması ilə təyin edilir. Məlumdur ki, hətta kəskin dəyişkənliyə məruz qalmış şəxslərin meyitlərində tanınmaya yararlı xüsusi əlamətlər (xallar, piqment ləkələri, ziyillər və s.) yaxşı saxlanılır. Keçirilmiş travmadan, xəstəliklərdən, cərrahi əməliyyatlardan sonra yaranan anatomik defektlər, çapıqlar, döyənəklər, siviş çapıqları, tatuirovkalar, diş aparatında olan xüsusiyyətləri də yararlı xüsusi əlamətlərə aid etmək olar. Həmin əlamətlərin aşkar olunduğu hallarda hətta kəskin çürümə və mumifikasiyaya məruz qalmış meyitlərin əvvəlcədən xüsusi hazırlanmasından sonra tanınmada müsbət nəticə alına bilər.

Tanıyan şəxsin öz nəticəsinə əmin olmadığı və əlamətləri dəqiq yadda saxlamadığı hallarda da tanınmaya təqdim etmədən imtina etmək olmaz.

Naməlum şəxsin meyitinin və ya itkin düşmüş şəxsin əlamətləri məhkəmə tibbi müayinədən və meyitə hadisə yerində baxışdan əlavə şahidlərin dindirilməsi, həmin şəxslərin yaşadığı yerə baxış, müxtəlif əşyaların, sənədlərin, nümunə obyektlərinin seçilib götürülməsi ilə

müəyyən oluna bilər. Məhkəmə təbabəti sahəsində mütəxəssis müstəntiq tərəfindən göstərilən bu istintaq hərəkətlərinin hər birinə cəlb oluna bilər.

Dindirilməyə meyiti tanınmaya təqdim ediləcək insanın yaxınları, tanışları, itkin düşmə halını bildirən şəxslər cəlb olunur. Dindirmədə iştirak edən məhkəmə təbabəti sahəsində mütəxəssis müstəntiqə itkin düşmüş şəxsin xarici görkəminin bütün detallarını protokolda düzgün əks etdirmədə, onun görkəmində nəzərə çarpan əlamətləri, onların xarakteri və lokalizasiyasının, keçirilmiş travma və xəstəliklərin, fizioloji vəziyyətlərin xüsusiyyətlərini və vərdişləri aşkar etməyə kömək edir. İtmiş şəxsə harada, nə vaxt, hansı tibbi yardım göstərilməsini aydınlaşdırması da vacibdir. Tanıyan şəxslərdən geniş məlumatın alınmaması yolverilməzdir. Şahid ifadələrini meyit müayinəsinin nəticələri ilə müqayisə etməklə müstəntiq şəxsin sağlığında olan nəzərə çarpacaq əlamətləri təyin edir və onların hər hansı bir sosioloji status (daimi qulluq) tibbi müayinə, xüsusi müalicə tələb etməsini müəyyən edir. Tanıyan şəxsə identifikasiya əlaməti hesab edilən bütün əlamətlərin ətraflı təsvir etmək imkanı verilməlidir. Yadda saxlamaq lazımdır ki, tanıyan şəxs, bəzən isə müstəntiq özü insanın xarici görünüşünün elmi terminləri, əlamətləri, xüsusiyyətləri, tibbi və kriminalistik anlayış və ifadə olunma formaları ilə tanış deyillər. Bu mənada məhkəmə həkiminin vəzifəsi istintaq hərəkəti iştirakçılarının arasında qarşılıqlı anlaşma yaratmaqdır. Kriminalistik təcrübədə isə terminoloji çətinliklər xüsusi metodlarla – fotorobotların, fotoalbomların tərtib edilməsi ilə aradan qaldırılır.

Əgər tanıyan şəxslə itkin düşmüş yaxın tanış olmamışlarsa, dindirmə zamanı bəzi məsələlər – itkin düşmüşün obrazının yadda qalma şəraiti (onu görmənin məsafəsi, müddəti, günün vaxtı, işıqlanma, hava şəraiti, ətrafdakı səs-küy) aydınlaşdırılır. Nəticənin qiymətləndirilməsində dindirilən şəxsin psixoemosional vəziyyəti nəzərə alınmalıdır. Dindirilmədə digər bir tibbi aspekt – meyiti tanıyan şəxsdə hər hansı bir xəstəlik, travma nəticələrinin olmasını aydınlaşdırmaqdır. Bunlar həmin şəxsin qavranmasına və tanımasına mənfi təsir göstərə bilər. Ən vacib hallarda məsələ komisyon

ekspertiza ilə həll oluna bilər. Lakin mütəxəssis belə hallarda şəxsin tanınmada iştirakının məqsədəuyğunluğu barədə məsləhət verə bilər. Fiziki və psixi çatışmamazlığı olan şəxslərin tanınmaya cəlb edilməsində tanınmanın nəticəsi şübhə altına alır.

Əvvəllər operativ axtarış işlərində və ya istintaq hərəkətlərində iştirak edib və tanınan şəxsi görmüş və tanımış insana, tanınmaq üçün meyiti və digər obyektləri təqdim etmək olmaz. Bəzi hallarda meyit tanınmaq üçün eyni vaxtda bir çox şəxslərə təqdim edilir. Belə hala daha çox meyitə hadisə yerində baxış zamanı rast gəlinir. Bu zaman tanınmaya təqdim etmə barədə protokol tərtib edilmir və tanıyan şəxslər dindirilmir (qısa sorğu istisna olmaqla). Nəticə isə müstəntiq tərəfindən hadisə yerinə baxış protokolunda fiksə edilir. CPM-nə uyğun olaraq məhkəmə tibb eksperti istintaq baxışında, axtarışda itkin düşmüş şəxsin mənzilinə baxışda əşyaların, müqayisə olunacaq nümunələrin, tibbi sənədlərin götürülməsində iştirak edə bilər. Bunların şəxsiyyətin identifikasiyasında rolu ola bilər. Belə obyektlərə itkin düşmüş şəxsin əşyalarında qalmış tüklər, çəkilmiş dişlər, diş protezləri, paltar və yataq dəstlərində bioloji mənşəli maddə izləri (qan, ağız suyu, tər, sperma və s.), kəsilmiş dırnaqlar aiddir. Məhkəmə həkiminin vəzifəsi müstəntiqin diqqətini baxış və götürmədə göstərilən tibbi aspektlərə yönəltmək, onların götürülməsinə və protokol qaydasında tərtib edilməsində müstəntiqə kömək göstərməkdir.

Məhkəmə təbabəti sahəsində mütəxəssisin işə cəlb olunması itkin düşmüş şəxsin və ya meyitin fərdi əlamətləri olan sənədlərin axtarılmasında da müstəntiqə kömək edə bilər. Məsələn, o müstəntiqə hansı sənədin – xəstəlik tarixi, ambulator vərəq, fərdi tibbi vərəq, rentgen və flüoraqrammalar, təcili tibbi yardım talonları, tibbi arayışlar, həkim məsləhətinin nəticələri, resept və analiz blankları, jurnalda olan qeydlər, sanator-kurort vərəqlərin götürülməsi, saxlanma müddətinə uyğun onların tapılması, onların əsli və ya surətlərindən istifadə olması barəsində və digər məlumatları verə bilər. Məhkəmə həkimi müstəntiq tərəfindən götürülməli və iş materialına əlavə olunmalı tibbi sənədlərin götürülməsinə də cəlb oluna bilər. Ümumi cins, yaş əlamətlərinə görə mütəxəssis rentgen-

flüoroqrammaların, foto, kino və digər sənədlərin təxmini olaraq axtarılan şəxsə məxsus olduğunu, təsvirin tibbi sənədlərdə olan qeydlərə (zədələrin yerləşməsi, müddəti və s.) uyğun olduğunu qeyd edə bilər. Sənədlərin informativliyini əvvəlcədən qiymətləndirilməsi də vacibdir. İşdə çatmamazlıqlar, dəqiq oxunmayan və ziddiyyətli yazılara görə vaxtında əlavə məlumatlar toplanıb və dindirmələr aparıla bilər. Məhkəmə tibb eksperti öz fikrini o əlamətlərə görə şifahi söyləyə bilər ki, onların qiymətləndirilməsi xüsusi müayinə tələb etmir.

Tanınmaya qədər meyit «meyitlərin məhkəmə tibbi ekspertizası və onların saxlanması qaydalarına» müvafiq olaraq hazırlanmalıdır. Zədələrin, çirklənmələrin, ölümdən sonra dəyişiklərin olması sifətin, bədənin tanınmaz hala salınması və deformasiya olunması hallarında meyitin restavrasiyası aparılır. Meyitlərin tualetindən əvvəl onların və onlarda olan zədələrin, xüsusi əlamətlərin foto və video şəkilləri çəkilir, müqayisəli tədqiqat nümunələri götürülür və həmin əlamətlər fiksə olunur (bunlar meyitin tualeti zamanı itə bilər). Sonra meyitin üzərindəki çirklənmə, su, mexaniki , yuyucu və əridici vasitələrlə yuyulur. Qulaq, burun, ağız boşluqları kənar maddələrdən təmizlənir. Zədə və ölümdən sonra yaranmış dəyişilmiş sahələrə bədən rəngində kosmetik krem nazik və bərabər səviyyədə pudra çəkilir. Bu zaman elə etmək lazımdır ki, onlar xüsusi əlamətləri örtməsin. Tükləri elə daramaq lazımdır ki, sifət, qulaq seyvanları və xüsusi əlamətlər açıq qalsın. Meyit yaxşı saxlanmışdırsa, gözə açıq vəziyyət verilir. Bunun üçün göz qapağının altına nazik pambıqdan, kalium zəyindən (su ilə qarışdıqda sıyıq şəkilli maddə yaranır) ibarət tampon qoyulur və ya göz qapaqları dəriyə rəngsiz yapışqanla yapışdırılır. Meyitə təbii görkəm vermək üçün gözə 1-2 damcı 50%-li qliserinin sulu məhlulu damızdırılır. Bu məhluldan həmçinin göz almasının formasını bərpa etmək üçün istifadə etmək olar. O, iynə ilə gözün ön kamerasına yeridilir. Yaralar və seksion kəsiklər səliqəli tikilir, deformasiyanı aradan qaldırmaq üçün təbii dəliklərə və boşluqlara tamponlar qoyulur. Skelet sümüklərinin qəlpələri mexaniki olaraq və ya yapışqan, gips, plastilin ilə uyğunlaşdırılır. Olmayan sümüklər plastilin və gipsdən hazırlanmış protezlərlə əvəz olunur. Yumşaq

toxumaların kiçik defektləri bədənin başqa yerlərindən götürülmüş dəri parçaları ilə örtülür. Kəskin meyit çürüməsi zamanı meyit emfizemasını aradan qaldırmaq üçün dodağın, ağız boşluğunun, göz qapaqlarının selikli qişasının daxili səthlərində və qulaq arxasında kəsiklər aparılır və sonra bu nahiyələr masaj edilir. Dərinin rənginin saxlanılması və bərpa edilməsi üçün zəif formalin, hidrogen-peroksid və 20%-li karbol turşusu məhlulundan istifadə olunur. Onlarla dəri isladılır, silinir və dəri altına yeridilir. Meyitə onun tapıldığı vaxt əynində olan paltarlar geyindirilir və ya paltarsız təqdim olunur. Restavrasiya meyit yarıldıqdan sonra həyata keçirilir. Meyitin hazırlanmasında görülən işlər müstəntiq tərəfindən tanınmaya təqdim olma protokolunda qeyd edilir. Tualet və restavrasiya meyitin foto və video şəkilinin çəkilməsi ilə başa çatır.

Tanınmaya təqdim etməni meyitin tualetinə qədər və sonra, paltarların geyindirməsindən sonra aparmaq olar. Şəraitin belə dəyişməsi tanınmanı həm tanıyan şəxs, həm də istintaq üçün daha uğurlu edir.

Nəhayət, meyitlərin tanınmaya təqdim etmədə hazırlığın əsas mərhələlərindən biri də istintaq hərəkətində vaxtın, yerin, şəraitin planlaşdırılmasıdır. Bu məsələni müstəntiq həll edir. Ekspert isə ölümdən sonra meyitin dəyişməsi və tanıyan şəxsin yaddaş xüsusiyyətlərini nəzərə alıb bu hərəkəti mümkün qədər tez keçirmə zərurəti barəsində müstəntiqə məlumat verir.

Meyitlərin tanınmaya təqdim olunduğu yer, adətən, meyitxana olub psixoemosional cəhətdən və meyitxananın öz şəraiti cəhətdən tanıyan şəxs üçün çox əlverişli deyil. Həmçinin ölümdən sonrakı baş verən dəyişikləri də nəzərə alsaq, tanıyan şəxs üçün nəticəyə gəlməyin necə çətin olmasını söyləmək olar. Buna görə də meyitxananın personalı bu zaman sakit, diqqətli, emosional fonu aradan qaldıran şərait yaratmalıdırlar. Meyitxanada diqqəti cəlb edə biləcək kənar şəxslər, o cümlədən də kənar meyitlər olmamalıdır. Meyitxana kifayət qədər yaxşı işıqlanmalıdır. Müstəntiq və məhkəmə təbabəti sahəsində mütəxəssis bir həkim kimi tanıyan şəxsdə qəflətən güclü reaksiyaların və xəstəliklərin kəskinləşməsi kimi hadisələrin

olmasını və lazım gələrsə təcili tədbir görülməsini nəzərdə tutmalıdırlar.

Məhkəmə həkiminin bir vəzifəsi də istintaq hərəkətində iştirak edənlərin tibbi təhlükəsizliyini təmin etməkdir. Burada söhbət yoluxucu xəstəliklərə tutulma və parazitlərin yayılmasının qarşısını almaqdan gedir. Bunun üçün meyit və onun paltarları, o cümlədən də meyitxana xüsusi işlənir. Ölümün xüsusilə təhlükəli infeksiyalardan baş verdiyi hallarda meyitin tanınması yalnız foto və digər şəkillərlə aparılır.

11.4. Tanınmaya təqdim etmədə ekspert (mütəxəssisin) fəaliyyətinin məzmunu və alqoritmi.

Məhkəmə tibbi xidmətin hüquq mühafizə orqanlarının işçiləri ilə itkin düşmüş şəxsin və meyitin şəxsiyyətinin müəyyən olunmasında qarşılıqlı əlaqənin təşkil olunması bir çox müəlliflər tərəfindən göstərilmişdir.

İstintaq hərəkətinin əvvəlində müstəntiqin təklifi ilə məhkəmə həkimi istintaq hərəkətlərinin iştirakçılarına tanınan meyitdə bu və ya digər şəxsiyyətin təyini əlamətlərinin olub-olmamasını müəyyənləşdirməkdə kömək edir. Mütəxəssisin iştirakı ilə müstəntiq itkin düşmüşün fərdi xüsusiyyətləri ilə dindirmə gedişində və digər sənədlərdə olan göstəricilərlə müqayisə edir. Cins, bədən quruluşu əlamətləri, paltarların ölçüləri, ayaqqabının və ayağın uzunluğu, başın və papağın əhatəsi, bədənin uzunluğu, xarici görkəmin şəkil əlamətləri, stomatoloji statusu müəyyən olunur. Təqdim olunan meyitə adətən uzanmış vəziyyətdə stolda baxılır. Əvvəl şəxsiyyətin təyinində daha informativ hesab edilən sifətə baxılır, sonra isə tanıyan şəxsə bədənin digər hissələri göstərilir. Onun xahişi ilə meyitin vəziyyəti və pozası dəyişdirilə bilər. Qeyd etmək lazımdır ki, qohumları öz yaxınlarını adətən şaquli vəziyyətdə görürlər. Uzanmış vəziyyətdə isə görünüşün bucaq və rakursu dəyişir və insanın subyektiv olaraq xarici görkəmi və əlamətləri dəyişə bilər. Buna görə də şübhəli hallarda meyitə şaquli vəziyyət də vermək lazımdır.

Tanıyanın xahişi və müstəntiqin təklifi ilə tanınma üçün meyit paltarda da təqdim oluna bilər. Müstəntiqin göstərişi ilə ekspert əlavə baxış rejimində istintaq hərəkəti zamanı tanıyan şəxsin göstərdiyi əlamətləri axtarır. Tanıyan şəxsin xüsusi əlamət və digər şəxsiyyət əlamətlərinin yaxşı qavraması üçün digər vasitələrdən – işıqlanmanın xüsusi növlərindən, restavrasiyanın müxtəlif üsullarından (makiyaj, bədən vəziyyətini dəyişmə, bədənin zədələnmiş hissələrin bərpası, fotoqrafiya, video çəkiliş və s.) istifadə olunur. Müstəntiq göstərilən hərəkətlərin aparılması üçün mütəxəssisdən izahat tələb edə bilər.

Müstəntiqin icazəsi ilə məhkəmə həkimi tanıyan şəxsə istintaq hərəkətinə dair suallar verə, ondan xüsusi əlamətlərin yerləşməsi, travma, xəstəliklər barəsində verdiyi ifadəsini dəqiqləşdirməyi xahiş edə bilər, yönəldici suallara yol vermək olmaz. Əgər tanıyan şəxs ona təqdim olunan meyitdə konkret şəxsi tanıdığını söyləyirsə, bu zaman ona bir daha hansı əlamət və xüsusiyyətlərinə görə meyiti tanıdığı barədə izahat verməsi təklif olunur.

Bir çox bioloji identifikasiya əlamətləri şərti davamlıdır. Onlar vaxt və yaşla əlaqədar, ölümdən sonrakı proseslər, zədələnmələr, meyitin qaldığı şərait (yüksək və aşağı temperatura, su) və digər hallarla bağlı dəyişilə bilər. Buna görə də məhkəmə təbabəti sahəsində mütəxəssisin bir vəzifəsi də identifikasiya əlamətlərinin davamlılığı, dəyişkənliyi, onların populyasiyada yayılması, müəyyən yığımda unikallığı barəsində müstəntiqə ətraflı məlumat verməkdir.

Əgər tanınmaya təqdim etmə meyitin müayinəsinə qədər aparılırsa, tanınmanın nəticələrini nəzərə almaqla ekspertizanın planı dəqiqləşdirilir. Əlavə və laborator müayinələrinin sayı, ardıcıllığı, meyitdən götürüləcək toxuma və hissələrin sayı, saxlama müddətləri, identifikasiya üçün hansı əlavə materialların tələb olunması müəyyənləşdirilir. Tanınma fotoşəkil və videoyazıya görə olunursa, nəticənin obyektiv olması üçün onlar xarici əlamətləri oxşar olan (bədən quruluşu, yaşı, boyun uzunluğu, sifətin forması, tüklərin rəngi, cinsi) digər meyitlərin təsviri ilə təqdim olunur. Təsvirlərin toplanmasında məhkəmə həkimi müstəntiqə kömək edə bilər. Qanuna görə təsvirlərin sayı üçdən az olmamalıdır. Obyektlərin hədsiz çox olması tanıyanın diqqətini yayındırar və nəticədə tanınmaya mənfi təsir göstərə bilər. Meyitlərin şəxsiyyətinin təyin olunmasında video və fototəsvirlərin səmərəliliyi təcrübədə təsdiq olunmuşdur. Bu texniki vasitələrdən ekspertin gündəlik işində də istifadə etmək olar. Şəkil miqyasla çəkilir və o, fiksə olunan detalları örtməməlidir. Apparatın optik oxu obyektin səthinə perpendikulyar qoyulur. Ardıcıl olaraq meyitin ümumi görkəmi (paltarda və paltarsız, meyit tualetinə qədər və sonra), siqnalitik çəkilişə müvafiq başın görünüşü, xüsusi əlamətlər çəkilir. Bu zaman işıq bərabər düşməli, kölgələr olmamalıdır.

Bəzən istintaq orqanları işçiləri tərəfindən meyitin tanınması onun paltarlarının və ya onunla olan əşya və sənədlərin tanınması ilə əvəz olunur. Texnogen və təbii fəlakətlərdə kütləvi qırğın nəticəsində çoxsaylı meyitlər olduqda bu əşyaların təqdim olunması daha məqsədəuyğundur. Lakin bu hal həlak olanın şəxsiyyətini gümanla təyin olunmasına imkan verə bilər. Meyitlə birlikdə tapılmış əşya və sənədlərin tanınmasına onların müəyyən şəxsə mənsub olmasının sübutu kimi baxmaq olar, ancaq onlar şəxsiyyəti identifikasiya etmir. Kriminalistikada maraqlı şəxslər tərəfindən istintaqı yalan istiqamətə yönəltmək üçün müxtəlif vasitələrdən meyitlərin geyiminin və sənədlərin dəyişdirilməsi barəsində məlumatlar vardır.

Kriminalistik ədəbiyyatda təkrar tanınmaya təqdim etmə məqsədəuyğun hesab olunmur. Qanuna görə şəxsin eyni şəxs və eyni bir əlamətlər ilə təkrar tanınmasına yol verilmir.

Meyitlərin təkrar tanınmasına qanun yol verir. Bu zaman meyiti tanıyan şəxsin psixi vəziyyəti, istintaq hərəkətini və öz məsuliyyətini tam dərk etməməsi nəzərə alınır. Heç də hamı öz yaxın qohumunun ölüm faktını görməyə və göstərməyə psixi cəhətdən hazır olmur. Təkrar tanınmanın keçirilməsi ilkin istintaq hərəkətində yol verilmiş prosessual və taktiki səhvlər zamanı (məsələn, işıqlanmanın kifayət qədər olmaması) və ya yalandan tanıma və ya tanımamağa əsas olduqda məqsədəuyğundur. Hərbi münaqişələr, təbii və texnogen fəlakətlər zamanı tanınmaya təqdim etmədə spesifik şərtlər yaranır. Bütün bunlar məhkəmə tibbi xidmətlə hüquq mühafizə orqanlarının qarşılıqlı hərəkətinə digər yanaşma, yeni iş metodlarının tətbiq olunmasını tələb edir. Bunların arasında vizual tanınmaya yararlı meyitlərin ayrılması birgə istintaq ekspert qrupunun, məhkəmə tibbi xidmət qərargahı strukturunda xüsusi tanınma bölməsinin yaradılması, əşya və paltarların göstərilməsi ilə həlak olmuşların şəkilləri olan stend və vitrinlərin yaradılması xüsusi əhəmiyyət kəsb edir.

Canlı şəxsin tanınmasında istintaq hərəkətindən əvvəl tanınan şəxsə təqdim olunan (üçdən az olmamaqla) şəxslər arasında hər hansı bir yer tutmağı təklif olunur və protokolda müvafiq qeydiyyat aparılır. Tanıyan şəxsin təhlükəsizliyini təmin etmək üçün

müstəntiqin qərarı ilə tanıyan şəxsin tanınanlarla vizual müşahidəsi olmaması üçün şərait yaradıla bilər. Bu halda hal şahidləri tanıyan şəxs olan yerdə olmalıdır.

11.5. Tanımaya təqdim olunmanın nəticələrinin qiymətləndirilməsi və tərtib edilməsi.

Tanınmaya təqdim olunmanın nəticələri prosessual qaydada müvafiq protokollarda tərtib olunmalıdır. Protokol iş üzrə sübutdur, cinayətin açılmasında və cinayət işinə məhkəmədə baxılmasında böyük əhəmiyyəti var.

Protokol, CPM-nin (maddə 241) tələblərinə uyğun tərtib olunur. Burada tanıyan şəxs, tanınmaya təqdim edilən əşya və şəxs barəsində, istintaq hərəkətinin keçirilmə şəraiti və nəticələri barəsində məlumat verilir. Tanıyan şəxsin ifadəsi imkan daxilində sözbəsöz yazılır və tanınmanın əlamətləri xüsusilə dəqiq qeyd olunmalıdır. Məhkəmə təbabəti sahəsində mütəxəssis protokolun tərtib olunması mərhələsində müstəntiqə istintaq hərəkətinin gedişi, onun öz hərəkətləri, istifadə olunmuş xüsusi vasitələrinin texniki xarakteri və sairin fiksə olunmasında kömək edir. Tanınmaya təqdim edilmə keçirildiyi ardıcıllıqla protokolda göstərilməlidir.

Mütəxəssis protokolda tibbi xarakterli sözləri korrektə edə və şifahi surətdə istintaq hərəkətinin əhəmiyyəti barəsində fikrini söyləyə bilər. Protokol istintaq hərəkətinin bütün iştirakçıları, o cümlədən də mütəxəssis tərəfindən imzalanır. Oxunduqdan sonra protokola edilmiş qeydlər və çatmamazlıqlar yazılır. Bəzən meyitlərə görə tanınma ekshumasiya prosesində, onun torpaqdan çıxarılmasından dərhal sonra edilir. Bu zaman tanınmanın nəticələri meyitin ekshumasiyasının ümumi protokolunda qeyd oluna bilər. Meyit tanınmaya digər yerlərdə təqdim olunursa, ayrıca protokol tərtib olunur.

Tanıyan şəxsin tanınmanın nəticələri barəsində aşağıdakı fikirləri ola bilər:

1.Meyitin və ya axtarılan şəxsin dəqiq olaraq tanınması və ya tanınmaması.

2.Oxşarlığın və fərdin göstərilməsi.

3.Göstərilən məsələnin nə dəqiq, nə də güman olunan halda həll edilməsinin qeyri-mümkünlüyü.

Hələk olanın və ya itkin düşmüş şəxsin tanınması və ya tanınmaması barəsində nəticəyə müstəntiq gəlir. Tanıyan şəxsin, mütəxəssis və ekspertin tanınma barəsində hər hansı bir dərəcədə fikirinə baxmayaraq, əsas nəticəni müstəntiq çıxarır və o, bunu iş üzrə toplanmış materiallar əsasında edir.

Tanınmanın nəticəsi tanıyan şəxsin axtarılan şəxsi nə qədər yaxşı tanımasından, onların əlaqəsinin müddətindən, bir yerdə olma müddətindən (daimi, təsadüfən, tək-tək hallarda) asılıdır. Lakin bu faktorlar da mütləq deyil. Çünki, yaxın qohumlar da bəzən onlara yaxın olan şəxsləri həmişə tanımır və əlamətlərini dəqiq göstərə bilmir.

İlkin dindirmədə tanıyan şəxs insanın bütün əlamətlərini həmişə yadına sala bilmir və yeni əlamətləri istintaq hərəkəti zamanı yadına salır. Bu ziddiyyət deyil, çünki insanın yaddaş qabiliyyətinin aktivləşməsi mümkündür. Bununla yanaşı tanıyan şəxsin dindirmədə verdiyi ifadə ilə tanınmada göstərilən əlamətlər uyğun olmasa, tanınmanın nəticəsi şübhə altına alına bilər.

Meyitə görə tanınmanın nəticəsini qiymətləndirdikdə müstəntiq və ekspert tanıyanın psixoemosional vəziyyətini nəzərə almalıdır. Sakit baxılma, həyəcanlanma, stress, tanıyan şəxsi hədələmə hallarından asılı olaraq qavrama və yaddaş şübhəli olar. Nəticədə tanınma müxtəlif ola bilər. Zəruri hallarda bu vacib faktorun nəzərə alınması psixoloq və psixiatrın iştirakı ilə ola bilər. Tanınmanın nəticəsinə dindirilənin fərdi əlamətləri yadda saxlamaq qabiliyyəti xüsusiyyəti də (fotoqrafın, rəssamın, stilistin) təsir göstərir.

Mütəxəssis şəxsiyyətin əlamətlərinin identifikasion əhəmiyyəti barəsində müstəntiqə məsləhət verdikdə hər hansı bir müayinə aparmır. Əgər müayinə zəruridirsə, müstəntiq məhkəmə-tibb ekspertizasının təyin edilməsi barəsində qərar qəbul edir.

11.6. Naməlum meyitlərin şəxsiyyətinin təyinində məhkəmə tibbi xidmətin digər iştirak formaları.

Tanınmaya görə axtarış və digər istintaq hərəkətləri keçirilməsi ilə bağlı məhkəmə tibb eksperti tanınmada bilavasitə iştirak etmədən başqa, müstəntiqin digər tapşırıqlarını da yerinə yetirə bilər.

Əvvəllər məhkəmə tibbi xidmət şəxsiyyəti məlum olmayan meyitin əllərini ayırır və onları daktiloskopik müayinəyə hazırlayırdı. Hazırda isə DİN-nin inzibati ərazi orqanları strukturunda xüsusi kriminalistik bölmələr yaranmış və onlar bu işin icrasının çox hissəsini öz üzərilərinə götürmüşdürlər. Məhkəmə tibbi ekspertin vəzifəsi isə əli ayırıb qablaşdırmaq və onu müqayisə üçün müstəntiqə təqdim etməkdir.

Müstəntiqin məhkəmə tibb ekspertinə digər tapşırığı sonrakı tanınma və naməlum şəxsin meyitin paltarlarının saxlanılıb qorunmasının təşkili, meyitin sifətinin gips maskalarının hazırlanması üçün onun sifətinin tualetini etməkdir.

Müstəntiqin icazəsi ilə təqdim edilən çərçivədən kənar müstəqil prosessual hərəkət kimi o, ilkin yoxlama üçün onu tanıya bilən şəxsləri tanımaya buraxa bilər. Əgər cinayət işi açılmayıbsa, meyiti tanımaq üçün kənar şəxslərin onun yanına buraxılmasında müstəntiqin icazəsi tələb olunmur. Lakin meyitxananın işçiləri həmin şəxslərin pasport göstəricilərini jurnala qeyd etməli və onların göstərdiyi məlumatları hüquq mühafizə orqanlarına xəbər verməlidirlər.

Bəzən məhkəmə tibb xidməti idarələrinə hüquq mühafizə orqanları tərəfindən itkin düşmüş şəxslərin axtarılması ilə bağlı ekspert materiallarının hesabatını yoxlamaq barəsində sorğu edilir. Göstərilən yoxlamanın heç bir tədqiqat və ekspert əhəmiyyəti olmasa da , bu hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqənin, məhkəmə tibbi xidmətin məlumat informasiya müxtəlifliyinin bir formasıdır və hüquq mühafizə orqanlarına meyit haqqında əlavə məlumat alıb

sonrakı yoxlamanı dərinləşdirməyə və şəxsiyyətin identifikasiyası ekspertizasını aparmağa imkan verir.

Mütəmadi olaraq məhkəmə tibbi ədəbiyyatlarda tanınmamış meyitlərin göstəriciləri barəsində ekspert bankının təşkil olunması haqqında məlumatlar öz əksini tapsa da, bunu məqsədə müvafiq hesab etmək olmaz. Daha effektli yol DİN-də olan itkin düşmüş şəxslərin axtarışı barəsində vahid dövlət hesabatı sisteminin təkmilləşdirilməsidir. Məhkəmə tibb eksperti naməlum meyitlərin axtarılıb şəxsiyyətinin müəyyən olunmasında iştirakının bir forması da əməliyyat işçiləri tərəfindən meyiti müayinə etmiş şəxsə itkin düşmüşün yaşına, cinsinə uyğun fotoşəkillər seriyasının göstərilməsidir. Bu zaman mütəxəssis və əməliyyat işçisi meyitin xarici əlamətləri ilə fotoşəkillərdə olan əlamətləri birlikdə müqayisə edirlər. Bununla kəskin fərqləri olan bir çox şəxslər tez inkar edilir və daha dəqiq yoxlanılması zəruri olan şəxslər qrupu ayrılır. Bu metod effektiv olub, vaxta qənaət etməyə imkan verir.

Məhkəmə tibbi xidmətin və hüquq mühafizə orqanlarının göstərilən qarşılıqlı əlaqə prinsiplərinə əməl olunması naməlum meyitlərin şəxsiyyətlərinin və itkin düşmüş şəxslərin şəxsiyyətinin təyin olunmasının təşkilində istintaq-axtarış və ekspert hərəkətlərinin maksimal effektli olmasına şərait yaradır.

FƏSİL 12. EKSHUMASİYA

12.1. Ekshumasiya anlayışı və onun prosessual əsasları.

«Ekshumasiya» sözü latın dilindən hərfi mənada «torpaqdan çıxarılma» kimi tərcümə olunur (exhumatio: ex – çıxarılma, humus - torpaq), torpağa tapşırılma («inhumasiya») sözünün əks mənasıdır. Ekshumasiya meyitin dəfn olunan yerdən çıxarılmasına deyilir. CPM-də (maddə 237) ekshumasiyaya müstəqil prosessual hərəkət kimi baxılır. İstintaq hərəkəti kimi ekshumasiyanın 3 fərqləndirici cəhəti var.

I. CPM-də yalnız meyitlərin ekshumasiyasından söhbət gedir. Digər əşyaların torpaqdan çıxarılması isə başqa prosessual hərəkətlərin dairəsinə aid hesab olunur.

II. CPM-si əvvəllər basdırılmış meyitlərin ekshumasiyası hallarını tənzim edir. Burada meyitin qəbul olunmuş qaydalara müvafiq basdırılıb-basdırılmamasından asılı olmayaraq cinayət izini açmaq üçün onun basdırıldığı yerdən çıxarılması nəzərdə tutulur. Bu zaman basdırılma yeri yalnız qəbir deyil, digər yerlər – mavzoley tipli məzarlar, divarlar, boşluqlar, sərdabələr, yandırılmış meyitlərin külü olan yerlər, su hövzələri və digər yerlər ola bilər.

III. CPM-də qaldırılmış və istintaq olunan cinayət işinin aparılması çərçivəsində istintaq hərəkətlərindən söhbət gedir.

Qazıntı işlərində təsadüfi aşkar olunan (tikinti işlərində, arxeoloji qazıntılarda, axtarış-xilas etmə işlərində), digər yerə köçürmək üçün qohumların xahişi ilə çıxarılan meyitlərin və digər kənar ekshumasiyalar istintaq hərəkəti hesab edilmir və CPM-yə uyğun prosessual sənəd tərtib olunmur. Kriminal motivlərlə bağlı (pul əldə etmə, intiqam, soyğunçuluq, ələ salma, cinsi həvəsi təmin etmə və s.) cinayət xarakterli ekshumasiyalar da mövcuddur. Buna bənzər hallarda meyitin basdırıldığı yerdən çıxarılması sonrakı mərhələlərdə məhkəmə tibbi ekspertizanın obyekti ola bilər.

Meyitlərin ekshumasiya olunmasına əsas və hadisələrin təsnifatını aşağıdakı kimi xarakterizə olunur:

1. Meyitin rəsmi qaydada icazəli ekshumasiyası;

Məhkəmə-tibbi məqsədlərlə;

Qəbiristanlığın bir yerdən digər yerə köçürülməsi;

Meyitin bir qəbiristanlıqdan başqa bir qəbiristanlığa köçürülməsi;

Basdırılanın şəxsiyyətinin müəyyən edilməsi məqsədi ilə (şəxsiyyətin cinayət istintaqı axtarışı ilə bağlı olmayan hallarda);

Elmi - tarixi məqsədlərlə;

2. Meyitlərin təsadüfi ekshumasiyası;

Torpaq işləri görülən və köhnə binaların sökülməsi zamanı təsadüfən basdırılmış meyitlərin aşkar olunması;

3. Meyitlərin cinayət xarakterli ekshumasiyası;

Soyğunçuluq məqsədilə;

Cinsi həvəsi təmin etmək məqsədilə (nekrofiliya);

Təhqir etmə məqsədilə.

Göstərilən təsnifat geniş olsa da, meyitlərin ekshumasiyasının bütün hallarını əhatə etmir (məsələn, dini ritual məqsədlə meyitlərin torpaqdan çıxarılması və s.).

Məhkəmə tibbi məqsədlə aparılan ekshumasiya dedikdə burada məhkəmə tibbi xidmətin öz marağı ilə deyil, istintaq və məhkəmə orqanlarının tələbi ilə aparılan məhkəmə tibbi ekspertiza nəzərdə tutulur.

Ekshumasiya olunmuş meyitlərin məhkəmə tibbi müayinəsinə zərurət müxtəlif səbəblərdən yaranır. Bunlar arasında ən geniş yayılanları aşağıdakılardır:

- istintaq aparan orqanda kriminal basdırılmanın göstəricilərinin olması (məsələn, cinayət izini itirmək məqsədilə);
- ölümün səbəbi təyin olunduqda və həkim tərəfindən tibbi arayış verildikdən sonra basdırılmış, lakin patoloji-anatomik və ya məhkəmə tibbi müayinəsi olmayan meyitlərin müayinəsinə zərurət yarandıqda (basdırıldıqdan sonra şəxsin ölümü ilə bağlı cinayət və mülki məsələlər yarandıqda);

- meyitlərin ilkin patoloji və məhkəmə tibbi müayinəsinin natamam aparılması və hüquq mühafizə orqanlarında müayinəyə əsaslı şübhə yarandıqda;
- meyit basdırıldıqdan sonra istintaq üçün yeni halların meydana çıxması və təkrar məhkəmə tibbi müayinənin keçirilməsinə tələb olunan hallarda. İlkin müayinəyə görə öz əksini tapmayan, iş üçün zəruri olan müqayisəli tədqiqat üçün nümunələrin götürülməsinə zərurət yarandıqda;
- meyitin tanınmasına zərurət yarandıqda;
- meyitin həqiqətən basdırıldığı yerdə olmasının yoxlanılmasında;
- meyitlə birlikdə basdırılmış əşyaların götürülməsinə zərurət yarandıqda.

Meyitin qəbirdən çıxarılması zərurəti olduqda müstəntiq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror qarşısında meyitin qəbirdən çıxarılmasına icazə olması üçün məhkəməyə təqdimatla müraciət edilməsi haqqında əsaslandırılmış vəsatət qaldırır. Meyitin qəbirdən çıxarılması yalnız məhkəmənin qərarı əsasında həyata keçirilir (CPM, maddə 237.1). Məhkəmə tibb eksperti ekshumasiyaya bütün hallarda cəlb olunur.

12.2. Dəfn işlərinin və yerinin təşkili. Dəfn adətləri.

Ekshumasiyaya hazırlıq və onun aparılmasında ölkəmizdə mövcud olan dəfn işlərinin təşkili qayda-qanunlarını və milli adətləri nəzərə almaq lazımdır. Dəfn etmə - ölümdən sonra şəxsin meyitinin basdırılması - adət hərəkətidir. Dəfn etmə – bədənin (onun qalıqlarının) torpağa verilməsi (qəbirdə basdırma), suya verilməsi (suda basdırma) və yandırılması (kremasiya və sonradan kül olan qabın basdırılması) yolu ilə həyata keçirilə bilər.

Dəfn etmə yerləri mənsubiyyətinə görə – dövlət, bələdiyyə, adətə görə – ictimai, etiqad üzrə, hərbi, tarixi-mədəni əhəmiyyətli, tarixi-memorial ola bilər.

İctimai qəbiristanlıqda ölənin öz vəsiyyəti əsasında, dəfn işlərini təşkil edən xüsusi xidməti qurumun qərarı ilə (əgər meyit qohumları tərəfindən tələb olunmursa) meyitlər basdırılır. İctimai qəbiristanlıq icra hakimiyyəti və yerli özünü idarəetmə orqanlarının nəzdində ola bilər. Bununla əlaqədar olaraq qəbiristanlığın fəaliyyətini tənzimləyən qaydalar olur. İctimai qəbiristanlıqda basdırılmada dini, hərbi və digər adət-ənənələri nəzərə almaq lazımdır. Ölkə əhalisinə ictimai qəbiristanlıqda ailəvi basdırılmaq üçün yer verilə bilər.

Etiqadı üzrə olan qəbiristanlıqda eyni dinə etiqad edən şəxslər basdırılır. Onlar yerli idarə orqanları nəzdində ola bilər və buna əsasən müvafiq dini birliklər onların fəaliyyətini tənzimləyirlər.

Kənd yerlərində ictimai və etiqada görə olan qəbiristanlıqların fəaliyyətini vətəndaşlar özləri icra edir.

Hərbi qəbiristanlıq ölmüş (həlak olmuş) hərbiçilərin, hərbi təlimdən çağırılmışların, daxili işlər orqanları işçilərinin və hərbi xidmətdən təxlis olunanların meyitlərinin basdırılması üçün (onların yaxın və qohumlarının iradəsinə zidd deyilsə) nəzərdə tutulur. Hərbi qəbiristanlıqlar da icra hakimiyyəti orqanları və yerli idarə etmə orqanlarının nəzdində ola bilər.

Dəfn olunmanın bir qanuni növü də kremasiya olunmuş meyitlərin külünün torpağa və ya divara (hüzn divarı) basdırılmasıdır.

Xüsusi ayrılmış torpaq sahələri icra hakimiyyəti və yerli idarəetmə orqanlarının nəzdində ola bilər. Kolumbarilər (kül saxlanan yerlər) cərgələrə bölünür, memorial lövhələrlə örtülür, lövhələrin üzərində dəfn olunan şəxsin adı, soy adı atasının adı, doğulduğu və öldüyü tarix yazılır. Kül qabları isə müxtəlif formada olub müxtəlif materiallardan hazırlanır sonra isə sellofan paketlərə yerləşdirilib dəfn olunur.

Dəfn işinin təşkili müstəqil lisenziyası olan fəaliyyət olub, məişət xidmətinin bir növü hesab olunur. Dəfn işi icra orqanları və yerli özünü idarəetmə orqanları tərəfindən həyata keçirilir. Bu orqanlar sistemində bürolar, kombinatlar yaradılır. Onlar ölənin basdırılmasını və dəfn ilə əlaqədar digər işləri həyata keçirirlər. Dəfn işinə nəzarətin həyata keçirilməsi üçün icra hakimiyyəti və yerli idarəetmə orqanlarının tabeçiliyində dəfn işi ilə müşahidəçi qurumları yaradıla bilər.

Dəfn etmə və basdırma barəsində qanunda sanitar-ekoloji tədbirlər nəzərdə tutulmuşdur. Qəbiristanlıqda yer seçdikdə torpağın xüsusiyyəti nəzərə alınır. Torpaq 2 metr dərinlikdən az olmayaraq quru, yüngül və hava keçirən olmalıdır. Qrunt suları səthdən 2 metrdən yuxarı olduqda, həmçinin bataqlıq və torpaq sürüşən sahələrdə qəbiristanlıq salmaq olmaz. Zəruri hidrogeoloji şərait olmadıqda salınacaq qəbiristanlıq üçün yerin mühəndis işləri görünür. Buraya drenajların qoyulması, səthə kiçik dənəli torpaqların səpilməsi və s. aiddir. Qəbiristanlıqda yüksək qrunt suları olan sahələrdə (2 metr səthdən yuxarı) yalnız kremasiya edilmiş meyitlərin dəfn edilməsinə icazə verilir.

Meyitin tabutla birlikdə və onsuz rəsmi qaydada dəfn olunması zamanı qəbirin dərinliyi yerli təbii şəraitdən və adət-ənənələrdən asılı olaraq müxtəlif ola bilər. Adətən onun dərinliyi yer səthindən tabutun qapağına qədər 2 - 2,2 metrdən artıq və 1,5 metrdən az olmur. Meyitin oturaq vəziyyətində dəfn olunduğu hallarda meyit üzərində torpaq qatının dərinliyi 1 metrdən az, qəbirlərin arasında məsafə isə 0,5 metrdən az olmamalıdır. Yerdə basdırmaq üçün müxtəlif taxta tabutlar var. İllüminatorlu şəxsiyyətin identifikasiyası üçün konteyner

tabutlar uzun müddətə daşınmaq üçün sinklənmiş metal tabutlar da mövcuddur.

Qohumların və yaxınların eyni bir qəbirdə dəfn olunması tam bir qəbiristanlıq dövrü keçdikdən sonra (ölənin bədəninin tam çürüyüb minerallaşması vaxtı) mümkündür. Bu müddət yerli sanitar orqanları tərəfindən təyin olunur və bir qayda olaraq ilkin dəfndən təxminən 10-15 ildən tez müəyyən olunmur.

Milliyyətindən və dinindən asılı olaraq dəfn mərasimi müxtəlif olur.

Müsəlman adət-ənənəsinə görə meyit kəfənə bükülür, sağ çiyin üstdə tabutsuz basdırılır. Bu zaman bədənə dölün ana bətnində olan vəziyyətinə bənzər vəziyyət verilir və meyitin sifəti müqəddəs şəhər hesab olunan Məkkəyə tərəf olmalıdır.

Xristian adətinə görə tabut qəbirdə elə qoyulmalıdır ki, bədən üfüqi vəziyyətdə, baş qərbə, ayaqlar isə şərqə tərəf yönəlmiş olsun. Qəbir təpəciyi üzərinə xaç qoyulur. Xaç ayaqların proyeksiyası üzərində olmalıdır. Qəbir üstü abidələrin üzərinə də xaç çəkilir.

Dəfn etmə şəraiti və basdırılma yerinə sanitar-epidemioloji və ekoloji nəzarət dövlət sanitar-epidemiologiya nəzarəti komitəsi tərəfindən həyata keçirilir.

Basdırılma yerlərindən başqa məqsədlər üçün istifadə etməyə yalnız qəbiristanlıq köçürüldükdən 20 il sonra icazə verilir. Belə yerlərdən yalnız yaşıllıq salmaq üçün istifadə oluna bilər və yaşayış üçün binaların tikilməsinə icazə verilmir.

12.3. Meyitin ekshumasiyasına hazırlıq

Ekshumasiyanı planlaşdırdıqda bu prosessual hərəkətin məqsədi və onun nə qədər məqsədəuyğun olması məsələləri aydınlaşdırılmalıdır.

Müstəntiq ekshumasiyanın gedişi, meyitin müayinəsi və sonrakı hərəkətlərdə qarşıya çıxan sualları tərtib edir. Sualların bir çoxuna cavab vermək imkanı meyitin qəbirdə olan vəziyyəti ilə bağlı məhdudlaşır. Ona görə də ekshumasiyanın keçirilməsinin məqsədəuyğunluğu barədə məhkəmə həkiminin fikri həlledici rol oynaya bilər.

Basdırıldıqdan sonra meyitdə baş verən dəyişikliklərin inkişaf səviyyəsi və xarakteri çoxsaylı faktorlardan asılıdır. Basdırılmadan sonra meyitdə baş verən dəyişikliklərin tempi və xarakterini təyin edən faktorlar aşağıdakı kimi xarakterizə olunur:

I. Meyitin basdırıldığı yerdə qalma müddəti;

II. Meyitin basdırılma şəraiti;

2.1. Meyitin basdırılmasının baş verdiyi ilin vaxtı - fəsil (konkret coğrafi enliklərdə şərait nəzərə alınmalıdır);

2.2. Meyitin basdırılma vaxtından təyin olunmuş ekshumasiyaya qədər keçən müddət ərzində meteoroloji şərait (havanın və torpağın temperaturunun dəyişməsi, yağıntının miqdarı, rütubət və s.);

2.3. Meyitin basdırılma yeri;

2.3.1. Torpaqda (qəbiristanlıq və başqa yerdə qəbirin dərinliyi, torpağın xarakteri – qum, gil, torf və s., torpağın kimyəvi tərkibi, rütubət, qrunt sularının səviyyəsi);

2.3.2. Sərdabədə (mikroiqlim, rütubət, təbii ventilyasiya);

2.3.3. Suda (mövsümi temperatur dəyişməsi, suyun dərinliyi, axarlığı, donması, su canlılarının tərkibi);

2.3.4. Qabda (qabın olduğu şərait – qəbirdə, boşluqlarda, digər yerlərdə);

2.4. Tabutda və ya tabutsuz basdırmada (tabutun hazırlandığı material, onun xüsusiyyətləri, görünüşü, hermetikliyi);

2.5. Meyitin əynində paltarların olması və onun xarakteri;

2.6. Mikrobların daxil olma mənbəyinin yaxınlığı, həşəratların, gəmiricilərin, nekrofaq heyvanların daxil olma mümkünlüyü (kanalizasiya axarları, çökəkliklər, tullantı yerləri və s.), basdırılma yerinin mikroflorasının xarakteri;

3. Basdırılmadan əvvəl meyitin vəziyyəti;

3.1. Ölümdən sonrakı dəyişikliklərin inkişaf dərəcəsi, basdırılana qədər entomofaunanın vəziyyəti;

3.2. Ölümdən sonrakı dəyişikliyi sürətləndirən və ona mane olan şərait (ölümün səbəbi, ölən şəxsin sağlığında olan xəstəliklər, onda olan zədələrin xarakteri və yerləşməsi, ölümdən qabaq dərmanların qəbul olması, meyitin və onun paltarlarının təsadüfən və ya bilə-bilə kimyəvi maddələrlə çirkləndirilməsi, basdırılmadan əvvəl dezinfeksiya maddələrindən istifadə olunması, meyitin balzamlaşdırılması);

3.3. Meyitin kremasiyası.

Göstərilən faktorlar meyitdə ölümdən sonra baş verən dəyişiklərin surətini, toxumaların parçalanma müddətini (tez və ya gec baş verməsi, təbii konservasiya) müəyyən edir.

Müstəntiqin və məhkəmə tibb ekspertinin yuxarıda qeyd olunan faktorların hər biri barəsində məlumatı olmalıdır. Məhkəmə tibb eksperti ekshumasiya ilə bağlı istintaq hərəkətində ona aid olan bütün iş materialları ilə tanış olmalıdır. Həmin materialların tədqiqi ekshumasiya anına qədər meyitdə ölümdən sonra baş verən dəyişikliklər nəticəsində, mövcud zədələrin, sifətin və xüsusi əlamətlərin saxlanması, laborator müayinələrin imkanları barədə böyük ehtimalla fikir söyləməyə və ekshumasiyanın məqsədəuyğunluğu barədə müstəntiqə məlumat verməyə imkan verir.

Bununla belə əvvəlcədən meyitdə ölümdən sonrakı kəskin dəyişikliklərin baş verməsini bilmək ekshumasiyanın aparılmasından imtina etməyə mütləq əsas vermir.

Meyitin ekshumasiyasına hazırlıq zamanı müstəntiq onun basdırılma yerini dəqiq təyin edir. Təcrübədə istintaqı maraqlandıran meyitin aşkar edilməsi gedişində bir neçə qəbrin açılması və bir neçə meyitin çıxarılması halları məlumdur. Meyitin basdırılmadan xeyli vaxt ötmüşsə, bu daha çətin olur.

Burada ilk növbədə müvafiq qeydiyyat orqanlarında dəfn olunma yeri və vaxtının qeyd olunması əsas götürülür və meyitin qohumlarında olan sənədlərlə tutuşdurulur (ölüm haqqında şəhadətnamə), basdırılmanı müşahidə etmiş şəxslərlə söhbət aparılır.

Ekshumasiyanın məqsədəuyğunluğu və meyitin basdırıldığı yerdən çıxarılma mümkünlüyü məlum olduqdan sonra hakim ekshumasiya barədə qərar çıxarır və müstəntiq bu barədə ölənin qohum və yaxınlarına məlumat verir. Ekshumasiyanın keçirilməsi barədə qərarın surəti, ekshumasiyanı keçirən dövlət məhkəmə tibbi ekspertiza idarəsinə, yerli özünü idarəetmə orqanlarına, dəfn işini təşkil edən nəzdində göstərilən qəbiristanlıq olan idarələrə göndərilir.

Qərarda ekshumasiyanın keçirilməsinə zəruri olan əsas, onun vaxtı və istintaq hərəkətinin hər bir iştirakçısının vəzifəsi göstərilir. Göstərilən sualların müstəntiq tərəfindən əvvəlcədən bütün maraqlı və aidiyyəti olan şəxslərlə danışıb razılaşdırılması məqsədəuyğundur (mütəxəssis, köməkçi personal, meyitin qohumları ilə və s.). Bu zaman meyitin çıxarılma və ekspertizanı keçirməyə zəruri olan vasitələr, qohumların ekshumasiyada iştirak etmə arzusu, istintaq hərəkətində iştirak edənlərin təhlükəsizliyi, yenidən basdırma vaxtı və şəraiti məsələləri həll olunur.

İstintaq hərəkəti planlaşdırıldıqda məhkəmə tibbi ekspertinin qarşısına qoyulacaq suallar da əvvəlcədən müəyyən olunmalıdır. Məhkəmə tibbi eksperti əvvəlcədən meyitin müayinəsinin istintaq hərəkəti yerində edilməsi, meyitin digər yerlərə daşınması mümkünlüyünü müəyyən edir. O, öz hərəkətlərini ekshumasiya yerində etməyə planlaşdırırsa, zəruri avadanlıq (alətlər, bioloji obyektlərin götürülüb qablaşdırılması üçün vasitələr) hazırlayır.

İştirakçıların təsadüfi travma almalarının qarşısını almaq üçün və meyitin tamlığını qorumaq üçün prosesdə ekspert müstəntiqə və meyiti qəbirdən çıxarıb onu müayinə yerinə aparan şəxslərə kömək edir.

Ekshumasiyaya hazırlığın texniki hissəsini müstəntiq dəfn işini təşkil edən yerli xüsusiləşmiş xidmətin rəhbərliyinə tapşırır (qəbiristanlığın rəhbərliyi) və ya digər idarələri köməyə cəlb edir. Bu xidmətin vəzifəsi tabutu çıxarmaq üçün şəxslər və vasitələr (qazıntı

alətləri, troslar, qarmaqlar, qəbirdən suyu soran pompalar) və meyitin daşınması üçün nəqliyyatı ayırmaqdır.

Əgər ekshumasiyada mərhumun qohumları iştirak edirsə, ictimai təhlükəsizliyi təmin etmək üçün konkret şəraitdən asılı olaraq istintaq hərəkəti yerində tibbi personal, hüquq-mühafizə orqanları, ictimai və dini orqan nümayəndələri iştirak edir. İstintaq hərəkəti və meyitin müayinə yerini mühafizə etmək üçün əməliyyat işçiləri dəvət oluna bilər.

İzahat vermək üçün meyitin ilkin müayinəsini aparmış patoloq anatom və məhkəmə tibb eksperti də istintaq hərəkətinə cəlb oluna bilər.

Basdırılma yerində hər bir hərəkət (o cümlədən prosessual) sanitar və ekoloji qayda normaları ilə icra olunduğuna görə qəbiristanlıqda ekshumasiyanı aparmaq üçün sanitar təhlükəsizliyi məqsədilə yerli dövlət sanitar epidemioloji nəzarətin icazəsi zəruridir. Lazım olduqda dövlət sanitar-epidemioloji nəzarət mütəxəssisləri istintaq hərəkətinə cəlb oluna bilər.

12.4. Meyitin ekshumasiyasının keçirilməsi və onun nəticələrinin tərtib edilməsi

Qanunvericiliyə görə meyitin basdırıldığı yerdən çıxarılmasını müstəntiq hal şahidlərinin iştirakı ilə həyata keçirir. Hal şahidlərinin təhlükəsizliyinin təmin olunmadığı, istintaq yerinin çətin əlçatmaz yerdə yerləşdiyi hallarda müstəntiq hal şahidlərini dəvət etməyə bilər.

İstintaq hərəkəti prosesində və ondan dərhal sonra CPM-nin tələblərinə uyğun olaraq müstəntiq protokol tərtib edir.

Ekshumasiyadan əvvəl müstəntiq istintaq hərəkətinin məqsədini iştirakçılara bildirir. İştirakçılarının hüquqları, vəzifələri, məsuliyyətləri onlara izah edilir və protokolda müvafiq qeydlər aparır. Protokolda ekshumasiyanın vaxtı, yeri, iştirakçıları barədə qeyd edildikdən sonra istintaq hərəkətinin bütün mərhələləri dəqiq fiksə olunur. Protokolda təsvir istintaq hərəkətinin keçirilmə ardıcıllığına uyğun aparılır. Qəbirin xarici görünüşü, meyitin və ya tabutun qəbirdə vəziyyəti, meyitin tabutda vəziyyəti və həmçinin ekshumasiya iştirakçılarının bütün hərəkətləri qaydaya müvafiq olaraq dəqiq və ardıcıl foto və video vasitəsilə sənədləşdirilir.

Hər şeydən əvvəl qəbrin yerləşdiyi yer müəyyənləşdirilir. Onun xarici görünüşü, vəziyyəti, torpaq səthi və bitki örtüyü təsvir olunur. Çökəklik və təpəciklərin olması, qəbir üstü tikililər (qəbir üstü lövhələr, abidələr, onların üzərində olan yazılar) qeyd olunur. Yazıların bilərəkdən dəyişdirilməsi nəzərə alınmalıdır. Meyitlərin kriminal gizlədilməsi və kütləvi basdırılma yerlərində ekshumasiya olunduğu hallarda meyitin basdırılma yeri adətən dəqiq bilinmir. Bu zaman qəbir çalalarının sərhədlərinin müəyyən olunması üçün kəsişən səngərlər qazılır. Qəbir üstü daşların və torpağın götürülməsi, xüsusən də meyitin qəbirdən çıxarılması ehtiyatla olmalıdır. Meyitə və onun hissələrinə təsadüfi zədə yetirmək olmaz. Torpaq qat-qat ayaqdan başa tərəf götürülür (meyitin torpaqda pozası məlumdursa). Protokolda torpağın qatlarla vəziyyəti, rəngi, rütubətliyi, dənəvərliyi, donması qeyd olunur.

Adətən meyit 1,5 – 2 metr dərinlikdə basdırılsa da onun hissələri müxtəlif dərinliklərdə heyvanların didişdirilməsindən və inkişaf edən ağac köklərinin təsirindən müxtəlif sahələrdə ola bilər. Bir qəbirdə bir neçə meyitin hissələri də ola bilər. Bu o vaxt baş verir ki, ilk basdırılma 2-4 metr dərinlikdə, sonrakılar isə daha səthi olsun.

Dəfn haqqında ümumavropa qanunvericiliyində bu hala ilk basdırılmadan 10 il sonra və yer səthinə 1 metrdən az olmayaraq məsafə qalanda icazə verilir. Meyitlərin belə yerləşməsinə kütləvi basdırılma zamanı da rast gəlinir. Meyitlərin gizlədilmə yolu ilə kriminal basdırılması adətən çox dərin olmur və adətən heyvanlar tərəfindən açılır.

Torpağın çıxarılması gedişində rast gəlinən bütün əşyalara və onların qarşılıqlı yerləşməsinə fikir verilir və protokolda qeyd edilir. Torpaq tam çıxarıldıqdan sonra torpaqda tabutun və meyitin düz yerləşməsinə, basdırılma dərinliyinə, tabut və meyit səviyyəsində torpağın vəziyyətinə, qrunt sularının səviyyəsinə diqqət yetirilir. Tabut torpaqdan çıxarıldıqdan sonra onun hazırlandığı material, görünüşü, üzərində bəzəklərin olması, onun torpaqla və meyitin çürümə materialları ilə çirklənməsi qeyd olunur. Tabutun ölçüsü və germetikliyi (qapağının nə ilə bərkidilməsi), onun üzərində zədələrin olması və qəbirdə qalması ilə bağlı digər dəyişikliklər qeyd edilir. Tabut çıxarıldıqdan sonra meyitin bədənini örtmüş toxumalar çıxarılır, onun poza və vəziyyəti, paltarları, meyitin öz vəziyyəti (ölümdən sonrakı dəyişikliklər, zədələr, çirklənmələr, onların dərəcələri) yazılır. Meyit yaxşı vəziyyətdə olduqda tanınma aparılır. Protokolda tabutda tapılan digər əşyalar əks olunur, sonra qəbirin dibinə baxılır.

Ekshumasiyanın əsas mərhələləri və vacib detallarının foto şəkli çəkilir. Qrup və kütləvi basdırılma hallarında foto şəkillərdən əlavə meyit hissələrinin yerləşməsi sxemi də çəkilir.

Tabut çıxarılarkən meyitin hissələrinin kəskin yerdəyişməsinə yol verməmək üçün ehtiyatlı olmaq lazımdır. Əgər təsadüfən zədələr yetirilərsə, protokolda onların baş vermə səbəbİ, xarakteri və lokalizasiyası göstərilir.

Əgər ekshumasiyada mərhumun qohumları və dəfn iştirakçıları iştirak edirsə, meyit çıxarıldıqdan sonra onların qəbiri, tabutu, meyiti və mərhumun paltarlarının tanınması vacibdir. Bu tanınma da protokolda göstərilir.

Ekshumasiya yerində dərhal müqayisəli tədqiqat üçün torpaq, meyit paltarları, entomofauna nümunələri götürülür. Torpaq nümunəsi 500q miqdarında altı yerdən - meyitin və ya tabutun altından, üstündən, yanlarından, baş və ayaq hissələrdən götürülür. Müstəntiq torpaq və tabut nümunələrində zəhərli maddələrin aşkar olunması üçün onları məhkəmə kimya laboratoriyasına göndərir. Torpaq nümunəsi həmçinin fiziki-kimyəvi xüsusiyyətlərini öyrənmək üçün torpaqşünaslıq laboratoriyasına göndərilir.

Torpağın müayinəsinin nəticəsi qiymətləndirildikdə onlar dezinfeksiya və balzamlaşma zamanı kimyəvi və bioloji maddələrin düşməsi də nəzərə alınmalıdır.

Meyit entomofaunası nümunələri basdırılma vaxtı və ya ilin fəsillərini öyrənmək üçün və meyitin bir qəbirdən digərinə keçirilməsi versiyasını yoxlamaq üçün tətbiq olunur. Ekshumasiya barəsində protokol, müstəntiq, hal şahidləri, mütəxəssis və istintaq hərəkəti iştirakçıları tərəfindən imzalanır. Lazım olduqda qəbirin yanında gözətçi qoyulur.

Səhiyyə Nazirliyinin mövcud qanunlarına müvafiq olaraq ekshumasiya olunmuş meyitlərin məhkəmə-tibbi ekspertizası mürəkkəb ekspertiza hesab olunduğundan komisyon qaydada aparılır. Meyitin ekshumasiyası zamanı komissiya üzvü olan ekspertlərdən birinin ekshumasiyada iştirak etməsi məqsədəuyğundur. Məhkəmə tibbi ekspertizanın təyin olunması barədə qərardan başqa ekspert idarəsinə cinayət işi və zəruri olduqda (komissiyanın tələbinə müvafiq) digər materiallar, tibbi sənədlər göndərilir. Ekshumasiyadan sonra meyit meyitxanaya və ya xüsusi hazırlanmış digər tibbi müəssisələrə çatdırılır. Nadir hallarda hüquq mühafizə orqanları və məhkəmə tibb ekspertinin razılığı ilə ekshumasiya olunmuş meyit yaxşı quru havada kifayət qədər işıqlanma olduqda və iş üçün bütün şərait yaradıldıqda açıq havada da müayinə oluna bilər.

Təkrar məhkəmə tibbi ekspertiza təyin edən şəxsin icazəsi ilə ilkin ekspertiza aparmış məhkəmə tibb eksperti və patoloq anatom müayinədə iştirak edib aydınlaşdırma verə bilər və bu hal protokolda öz əksini tapmalıdır.

Müayinə bitdikdən sonra müstəntiq dəfn ilə məşğul olan xüsusi xidmət orqanlarına meyiti basdırmağı tapşırır. Meyit mərhumun qohumlarının istəyinə uyğun olaraq lazımı yerdə və şəraitdə basdırıla bilər. Yenidən basdırılma müstəntiq və istintaq-əməliyyat qrupu iştirakçılarının nəzarəti ilə olur. Qəbirə ekshumasiyaya qədər olan görünüş verilir və qəbirin şəkli yenidən çəkilir. Ekshumasiya barəsində cinayət işinə arayış əlavə olunur. Ekshumasiyada yenidən dəfn olma ilə bağlı bütün xərclər mərhumun qohumları tərəfindən və ya müstəntiq və məhkəmə orqanlarının qərarına əsasən büdcə vəsaiti hesabına ödənilir.

FƏSİL 13. MƏHKƏMƏ TİBBİ TƏCRÜBƏDƏ MÜAYİNƏ OBYEKTLƏRİNİN ZƏDƏLƏNMƏSİ VƏ ONLARIN XÜSUSİYYƏTLƏRİNİN DƏYİŞMƏSİ.

Müayinə obyektinin zədələnməsi dedikdə ona müayinə gedişində fiziki, kimyəvi, bioloji və digər metodların tətbiqi nəticəsində vəziyyət və xüsusiyyətlərinin dəyişilməsi nəzərdə tutulur.

Məhkəmə tibbi təcrübədə müayinə zamanı bir çox hallarda obyektlərin zədələnməsi, bəzən isə tam sərf olunması müşahidə olunur. Məhkəmə tibb ekspertinə ekspertizanı təyin etmiş orqanın və şəxsin icazəsi olmadan obyektlərin sərf olunmasına, onların xarici görünüşü və ya xüsusiyyətlərinin dəyişilməsinə səbəb ola bilən müayinələrin aparılmasına icazə verilmir. Prosessual təbiətindən asılı olmayaraq bu qayda ekspert müayinələrin bütün obyektlərinə aiddir. Müayinəni planlaşdırdıqda ekspert elə müayinə metodlarının ardıcıllığını seçməlidir ki, o maksimal dərəcədə obyektin sonrakı müayinə mərhələlərində müayinəsi üçün saxlanmasını təmin etsin. Öncə obyektin xüsusiyyətlərini dəyişməyən metodlar, sonra obyektin xüsusiyyətlərini hissəvi dəyişən metodlar və nəhayət, obyektin xüsusiyyətlərini tam dəyişən və ya onun tam sərf olunmasına səbəb olan metodlar tətbiq edilir. Əgər obyektin sərf olunması və ya onun xüsusiyyətlərinin dəyişilməsi güman edilirsə, bu zaman müstəntiq və məhkəmədən icazə almaq lazımdır.

Ekspertizanın keçirilməsi və rəyin verilməsinə zərurət yaranan hallarda ekspertizanı təyin etmiş orqan və şəxsin icazəsi ilə maddi sübutların, sənədlərin müayinəsində obyektləri zədələmək və tam sərf etmək olar. İcazə ekspertizanın təyin edilməsi barədə olan sənəddə öz əksini tapmalıdır. Ekspertizanı təyin etmiş orqan və şəxsin icazəsi ilə maddi sübut və sənədlərin zədələnməsi və tam sərf olunması məhkəmə tibbi ekspert idarəsi və ekspert tərəfindən zərərin ödənilməsinə səbəb olmamalıdır.

Ekspert rəyində müayinənin məzmunu və tətbiq edilmiş üsullar, onların etibarlılıq dərəcəsi göstərilir (CPM, maddə 271.2.6).

Obyektin zədələnməsi və dəyişilməsinin ən çox rast gəlinən növü meyitlərin təşrihi, meyitdən diaqnostika və müqayisəli tədqiqat məqsədilə toxuma və orqanların götürülməsidir.

Basdırılma və dəfn işlərinə görə meyitin müayinəsi zamanı mərhumun bədəni ilə bağlı bütün hərəkətlər onun yaxınlarının arzularına uyğun həyata keçirilməsinə böyük zərurət yaranır. Mərhumun sağlığında razılığı qismində qanun onun şahidlərin yanında şifahi və yazılı formada arzularını nəzərə alır. Mərhumun sağlığında iradəsi predmetinə misal olaraq onun patoloji anatomik müayinəyə, orqan və toxumalarının götürülməsinə razılığı ola bilər. Mərhumun sağlığında razılığı olmadığı halda qanun meyitdə müayinə və diaqnostika ilə bağlı müvafiq hərəkətlərə onun həyat yoldaşının, yaxın qohumlarının (uşaqları, valideynləri, doğma bacı-qardaşları, nəvələri və s.), digər qohumlarının razılığı ilə icazə verir. Qohumlar olmadıqda mərhumun qanuni nümayəndəsi və ya mərhumun basdırılmasını üzərinə götürən şəxs bu məsələni müvafiq qaydada həll edə bilər. Lakin mərhumun meyitinə göstərilən nümunəvi münasibət onun ölümündən sonra şərtsiz deyil. Şəxs sağlığında meyitinin təşrih olunmasından imtina etməsi məhkəmə tibb ekspertizasının keçirilməsini inkar etmir və qanun meyitin aid olduğu şəxsin sağlığında verdiyi razılıqdan asılı olmayaraq müayinəsinə yol verir. CPM-ə görə (maddə 140.0.1) ölümün baş vermə səbəbini, sağlamlığın pozulmasının xarakterini və dərəcəsini təyin etmək üçün ekspertizanın keçirilməsi mütləqdir. Qanun meyitlərin müayinəsi zamanı orqan və toxumaların götürülüb laborator müayinəyə göndərilməsinə də icazə verir. Digər vəziyyət ölümün baş vermə şəraitinin yoxlanılması məqsədi ilə keçirilən məhkəmə tibbi müayinə zamanı müşahidə oluna bilər. Bu hallarda meyitin yarılması və diaqnostika məqsədilə orqan və toxumaların götürülməsində mərhumun və onun qanuni nümayəndəsinin icazəsi qanunun tələbinə müvafiq olaraq nəzərə alınmalıdır.

Məhkəmə hərəkətlərinə bilavasitə aidiyyatı olmayan daha bir məhkəmə tibbi fəaliyyət, orqan və (və ya) toxumaların transplantasiyası məqsədi ilə meyitdən götürülməsidir. Bu halda məhkəmə tibbi ekspertizanın aparılması və meyitdən toxumaların

transplantasiya məqsədi ilə götürülməsi müvafiq səhiyyə idarəsinin baş həkimi və məhkəmə tibb ekspertinin icazəsi ilə olmalıdır. Meyitin məhkəmə-tibb ekspertizası zəruridirsə, orqan və toxumaların götürülməsinə icazə, prokuroru xəbərdar etməklə, yalnız məhkəmə-tibb eksperti tərəfindən verilə bilər. Göründüyü kimi qanunvericilik məhkəmə tibbi ekspertinin üzərinə böyük məsuliyyət qoyur və ondan transplantologiya xidmətinin qanuni əsaslarını bilməyi tələb edir. Qanuna görə şəxs sağlığında donorluğa yazılı razılığını bildiribsə, mərhumun yaxın qohumları və ya qanuni nümayəndələrinin icazəsi ilə onun orqan və toxumalarının transplantasiya məqsədi ilə götürülməsinə yol verilir. Şəxs sağlığında donorluğundan yazılı imtina edibsə, ölümündən sonra ondan transplantasiya məqsədilə orqan və (və ya) toxumaların götürülməsinə yol verilmir. Orqan və toxumalar transplantasiya məqsədi ilə yalnız bioloji ölüm faktını və baş beyin fəaliyyətinin tam dayanmasını həkimlərin konsiliumu tərəfindən şərtsiz təsdiq olunması zamanı götürülə bilər.

Transplantasiya məqsədi ilə meyitdən və ölüm vəziyyətində olan şəxslərdən orqan və toxumaların götürülməsi vaxtını qanun müəyyən edir. Qanuna görə ölümün qeydə alınması ürək-damar, tənəffüs, mərkəzi sinir sistemlərinin funksiyalarının dayanması ilə deyil, bioloji ölümün baş verməsi və baş beyin fəaliyyətinin tam dayanması (beyin ölümü) ilə müəyyən edilir. Beyin ölümü diaqnozu səhiyyə nazirliyinin xüsusi təlimatında göstərilmişdir. Donorun ölüm aktının təsdiqində transplantoloqların və ya transplantologiya işinin təşkilində briqada üzvlərinin hər hansı birinin donorun ölüm aktının təsdiqində iştirakı qəti qadağandır. Orqan və toxumaların trasplantasiya qaydasına müvafiq olaraq məhkəmə tibb eksperti canlı şəxslərin məhkəmə tibbi ekspertizası zamanı canlı donorlardan da orqan və toxuma götürülməsinə icazə verə bilər. Canlı şəxsdən orqan və toxumaların götürülməsinə o hallarda icazə verilir ki, mütəxəssislərin konsiliumunun rəyinə görə donor şəxsin sağlamlığına kəskin zərər yetirilmir. Konsiliuma cəlb edilmiş həkim mütəxəssislər şəxsin sağlamlığına hansı zərər yetirilməsi və onun nəticələri barədə məsuliyyət daşıyırlar. Qanuna görə insan orqan və (və ya) toxumalarını alqı-satqı obyekti ola bilməz. Onların alqı-satqısı ilə

məşğul olan fiziki və hüquqi şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır. Transplantasiyaya aid reklama qanunvericilikdə müəyyən edilmiş qaydaya uyğun yalnız tibb və əczaçılıq sahəsində və ixtisaslaşmış mətbuat orqanlarında yol verilir.

İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında Azərbaycan Respublikasının Qanununda (maddə 2) transplantasiya obyektləri ola bilən orqan və (və ya) toxumaların siyahısı qeyd edilir. Bunlara ürək, ağ ciyər, böyrəklər, ürək – ağ ciyər kompleksi, qara ciyər, sümük iliyi, mədəaltı vəzi və onların seqmentləri, gözün buynuz qişası və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən digər orqan və (və ya) toxumalar aiddir. Orqan və toxumaların transplantasiyası qanunu insanın nəsil artırma prosesinə aid olan orqanlara aid deyil. Buraya reproduktiv toxumalar (yumurta hüceyrələri, sperma, xayalar), həmçinin qan və onun komponentləri aid deyil. Onlara transplantasiya obyekti kimi baxılmır.

Canlı şəxslərdən orqan və (və ya) toxumaların götürülməsi aşağıdakı hallarda qadağandır:

1. Donorun yaşı 18-ə çatmamışdırsa (sümük iliyinin köçürülməsi istisna olmaqla) ;
2. Şəxs anlaqsızdırsa;
3. Əgər nəzərdə tutulmuş şəxsin həyatı üçün və resipiyentin sağlamlığı üçün təhlükəli olan xəstəlik aşkar edilmişsə;
4. Şəxs resipiyentdən xidməti və ya hər hansı bir formada asılıdırsa.

Canlı donordan orqan və (və ya) toxumaların götürülməsinə məcburi razılığın alınmasını həyata keçirən şəxs qanunla müəyyən edilmiş qaydada məsuliyyəti daşıyır. Canlı şəxsdən orqan və (və ya) toxumaların götürülüb hazırlanması yalnız dövlət səhiyyə idarələri tərəfindən həyata keçirilə bilər. Buna xüsusiləşmiş səhiyyə idarələrində icazə verilir və onların sayı təsdiq olunmalıdır. Canlı donordan resipiyentə transplantasiya olunması üçün orqan və toxumaların götürülməsi zamanı aşağıdakı şərtlərə əməl olunmalıdır:

1. Donor qarşıda duran cərrahi müdaxilə, orqan və (və ya) toxumalarının götürülməsi ilə bağlı sağlamlığı üçün baş verə biləcək ağırlaşmaların mahiyyəti ilə tanış olmalıdır;

2. Donor sərbəst surətdə düşünərək yazılı formada orqan və (və ya) toxumalarının götürülməsinə razılığını bildirməlidir;

3. Donorun hərtərəfli tibbi müayinədən keçməsi haqda və həkim mütəxəssislər tərəfindən ondan orqan və (və ya) toxumalarının transplantasiya olunması barəsində rəy olmalıdır;

4. Orqan və (və ya) toxumaların götürülməsi nəzərdə tutulan donorun resipiyentlə genetik uyğunluğu müəyyən olunmalıdır (sümük iliyindən başqa).

Canlı donordan transplantasiya üçün cüt orqanlardan birini, tək orqan və toxumalardan isə o miqdarda və həcmdə götürmək olar ki, donorun həyatı üçün təhlükəli hallar, yaxud sağlamlığında geridönməz pozğunluqlar yaranmasın. Orqan və toxumalarının köçürülməsinə razılıq verən donor, səhiyyə orqanlarından qarşıda olan operativ müdaxilə, orqan və (və ya) toxumalarının götürülməsi barədə onun sağlamlığına təsir edə bilən bütün mümkün ağırlaşmalar barədə tam və obyektiv informasiya tələb edə bilər. Donorun müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müalicə və reabilitasiya olunmaq, dərman vasitələri ilə təmin edilmək və donorluqla əlaqədar əlil olarsa, qanunvericiliyə uyğun olaraq təqaüd almaq hüququ vardır.

Səhiyyə idarəsinin həkimləri və digər əməkdaşları tərəfindən donor və resipiyentin razılığı olmadan transplantasiya barədə məlumatların yayılmasına qəti icazə verilmir. Bu məlumatları yayanlar qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır. Əməliyyatı keçirib orqan və (və ya) toxumaların götürüb hazırlanmasına icazə verilmiş səhiyyə təşkilatına onları satmaq qadağandır. Qanunun bu tələbi toxuma komponentlərinin hazırlanması üçün istifadə olunan preparat və köçürmə materiallarına şamil edilmir.

ƏLAVƏLƏR

1. Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında Azərbaycan Respublikasının QANUNU

Bu qanun Azərbaycan Respublikasında dövlət məhkəmə ekspertizası fəaliyyətinin (bundan sonra - məhkəmə ekspertizası fəaliyyəti) hüquqi, təşkilati əsaslarını və başlıca istiqamətlərini müəyyən edir, məhkəmə ekspertizasının təşkili və aparılması zamanı yaranan ictimai münasibətləri nizamlayır.

Məhkəmə ekspertizası Azərbaycan Respublikası məhkəmələrinin səlahiyyətinə aid olan mülki, cinayət və digər işlər üzrə icraat zamanı həyata keçirilir.

I fəsil
Ümumi müddəalar.

Maddə 1. Əsas anlayışlar.

Bu Qanunda aşağıdakı anlayışlardan istifadə olunur:

- məhkəmə ekspertizası - təhqiqat, ibtidai istintaq orqanının və ya məhkəmənin (hakimin) icraatında olan işin halları barədə informasiya daşıyan maddi obyektlər, hadisələr və proseslər haqqında xüsusi elmi biliklər əsasında aparılan tədqiqatdır;
- məhkəmə ekspertizası fəaliyyəti - məhkəmə ekspertizasının təşkil edilməsi və aparılması ilə əlaqədar fəaliyyət olub, xüsusi elmi biliklər vasitəsilə proses iştirakçılarının hüquqlarının və qanuni mənafelərinin təmin edilməsi məqsədini daşıyır;
- məhkəmə eksperti (ekspert) - məhkəmə ekspertizasının aparılması həvalə olunmuş, məhkəmə ekspertizasının predmetinə aid olan xüsusi məsələlərə dair zəruri biliyə malik olan və işin nəticəsində marağı olmayan şəxsdir;
- ekspertin rəyi - məhkəmə ekspertizasını təyin etmiş orqanın və ya şəxsin ekspertin qarşısında qoyduğu suallara verilən əsaslandırılmış yekun nəticədir;

- məhkəmə ekspertizasının predmeti - məhkəmə ekspertizasının həll etdiyi məsələlər dairəsidir;
- məhkəmə ekspertizası idarəsi - məhkəmə ekspertizası fəaliyyətini həyata keçirən dövlət orqanıdır.

Maddə 2. Məhkəmə ekspertizası fəaliyyəti haqqında qanunvericilik

Məhkəmə ekspertizası fəaliyyəti haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının cinayət-prosessual və mülki-prosessual məcəllələrindən, inzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikasının Məcəlləsindən, bu Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

Maddə 3. Məhkəmə ekspertizası fəaliyyətinin vəzifəsi

Məhkəmə ekspertizası fəaliyyətinin əsas vəzifəsi elm, texnika, incəsənət, sənətkarlıq və başqa sahələr üzrə xüsusi bilik əsasında sübut əhəmiyyətinə malik olan faktiki halların müəyyənləşdirilməsindən ibarətdir.

Maddə 4. Məhkəmə ekspertizası fəaliyyətinin prinsipləri

Məhkəmə ekspertizası fəaliyyəti insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması, qanunçuluğun təmin edilməsi, ekspertin müstəqilliyi, elmin və texnikanın müasir nailiyyətlərindən istifadə edilməklə həyata keçirilən tədqiqatların obyektivliyi, hərtərəfliliyi və tamlığı prinsiplərinə əsaslanır.

Maddə 5. Məhkəmə ekspertizası aparılarkən insan və vətəndaş hüquqlarına və azadlıqlarına əməl olunması

Məhkəmə ekspertizası aparılarkən insan və vətəndaş hüquqlarına və azadlıqlarına əməl olunmalıdır.

Məhkəmə ekspertizası fəaliyyəti nəticəsində hüquqlarının və azadlıqlarının pozulduğunu hesab edən şəxs, bu hərəkətdən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş

qaydada məhkəmə ekspertizası idarəsinin rəhbərinə və ya məhkəməyə şikayət edə bilər.

Maddə 6. Ekspertin müstəqilliyi

Məhkəmə ekspertizası aparılarkən ekspert müstəqildir, onun məhkəmə ekspertizasını təyin etmiş orqandan və ya şəxsdən, tərəflərdən və işin nəticəsində marağı olan digər şəxslərdən hər hansı asılılığı ola bilməz. Ekspert özünün xüsusi biliyinə və daxili inamına əsaslanaraq aparılmış tədqiqatın nəticələrinə uyğun olaraq rəy verir.

Məhkəmələr (hakimlər), təhqiqat aparan şəxs, müstəntiq, prokuror, habelə digər dövlət orqanları, təşkilatlar və ya ayrı-ayrı şəxslər tərəfindən proses iştirakçılarından hər hansı birinin maraqlarına cavab verən və ya digər şəxslərin xeyrinə olaraq rəy əldə etmək məqsədilə ekspertə hər hansı formada təsir göstərilməsi qadağandır.

Ekspertə təsir göstərilməsində təqsirkar olan şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

Maddə 7. Tədqiqatın obyektivliyi, hərtərəfliliyi və tamlığı

Ekspert tədqiqatı müvafiq ixtisas hüdudlarında, elmi və təcrübi əsaslar üzərində obyektiv, hərtərəfli və tam həcmdə aparmalıdır.

Ekspertin rəyi elmi inkişafın müasir tələblərinə uyğun olan və hamı tərəfindən qəbul edilmiş elmi dəlillər əsasında yoxlanmasına imkan verən müddəalara əsaslanmalıdır.

Maddə 8. Ekspert tədqiqatının obyektləri

Ekspert tədqiqatının obyektləri maddi sübutlar, sənədlər, müqayisəli tədqiqat üçün nümunələr, əşyalar, canlı insan və onun psixi vəziyyəti, heyvanlar, meyitlər və onların hissələri, həmçinin əsasında məhkəmə ekspertizası aparılması üçün zəruri olan iş materiallarıdır.

Canlı insanın, meyitin, heyvanın, əşyanın, cismin, materialın və ya maddənin xüsusiyyətlərini əks etdirən (əlamətlərini daşıyan) obyektlər, həmçinin ekspertin tədqiqat aparması və rəy verməsi

üçün zəruri olan digər nümunələr müqayisəli tədqiqat üçün nümunələr hesab edilir.

Məhkəmə ekspertizası aparılarkən tədqiqat obyektləri ekspertizanı təyin etmiş orqanın və ya şəxsin müvafiq razılığı əsasında yalnız tədqiqat aparılması və rəy verilməsi üçün zəruri olan ölçüdə zədələnə və ya istifadə oluna bilər. Həmin razılıq məhkəmə ekspertizasının təyin edilməsi barədə qərarda (qərardadda) və yaxud müvafiq məktubda göstərilməlidir.

Tədqiqat obyektini məhkəmə ekspertizası idarəsinə gətirmək mümkün olmadıqda, hadisə yerində və ya tədqiqat obyektinin olduğu yerdə tədqiqat aparılması zərurəti yarandıqda, ekspertizanı təyin etmiş orqan və ya şəxs obyekt üzərində ekspert tərəfindən tədqiqatın aparılması üçün şərait yaratmalıdır.

Məhkəmə ekspertizası başa çatdırıldıqdan sonra tədqiqat obyekti ekspertizanı təyin etmiş orqana və ya şəxsə qaytarılmalıdır.

II fəsil
Məhkəmə ekspertizası idarəsi rəhbərinin və ekspertin hüquqları və vəzifələri

Maddə 9. Məhkəmə ekspertizası idarəsi rəhbərinin hüquqları

Məhkəmə ekspertizası idarəsinin rəhbəri məhkəmə ekspertizası təyin olunması haqqında qərarı (qərardadı) aldıqdan sonra onun təşkil edilməsi və aparılması, ekspertin məhkəmə iclaslarında, istintaq və məhkəmə hərəkətlərində iştirakının təmin olunması üzrə müvafiq tədbirlər görür.

Məhkəmə ekspertizası idarəsinin rəhbərinin aşağıdakı hüquqları vardır:

- idarədə konkret ixtisas üzrə ekspert, zəruri maddi-texniki baza və yaxud tədqiqat aparılması üçün xüsusi şərait olmadıqda məhkəmə ekspertizası təyin olunması barədə qərarı (qərardadı) icra edilmədən tədqiqata təqdim edilmiş obyekt və işin materialları ilə birlikdə geri qaytarmaq;

- rəy verilməsi üçün bu idarənin əməkdaşı olmayan şəxslərin zəruri biliyinə ehtiyac yarandıqda, onların ekspert qismində iştirakı barədə məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs qarşısında vəsatət qaldırmaq;
- məhkəmə ekspertizasının təyin olunması haqqında qərarda (qərardadda) göstərilmiş digər idarələrin iştirakı ilə məhkəmə ekspertizası aparılmasını təşkil etmək.

Məhkəmə ekspertizası idarəsinin rəhbərinə aşağıdakıları etmək qadağandır:

- məhkəmə ekspertizasının təyin edilməsi haqqında qərar (qərardad) olmadıqda, məhkəmə ekspertizasının aparılması üçün zəruri olan tədqiqat obyektlərini və iş üzrə materialları tələb etmək;
- məhkəmə ekspertizasını təyin etmiş orqanla və ya şəxslə razılaşdırmadan müstəqil olaraq bu idarənin əməkdaşı olmayan şəxsləri ekspert qismində məhkəmə ekspertizasının aparılmasına cəlb etmək;
- ekspertə konkret məhkəmə ekspertizası üzrə tədqiqatın gedişatına təsir edən və onun nəticələrinin məzmununu müəyyən edən göstərişlər vermək.

Maddə 10. Məhkəmə ekspertizası idarəsi rəhbərinin vəzifələri

Məhkəmə ekspertizası rəhbərinin aşağıdakı vəzifələri vardır:

- məhkəmə ekspertizasının təyin olunması barədə qərarı (qərardadı) aldıqdan sonra həmin idarənin ekspertləri sırasından zəruri biliyə malik olan və qoyulmuş suallara cavab verə bilən konkret ekspertə və ya ekspertlərə ekspertizanın aparılması haqqında tapşırıq vermək;
- ekspertə (ekspertlərə) onların hüquq və vəzifələrini izah etmək;
- eksperti bilə-bilə yalan rəy verməyə və ya rəy verməkdən imtina etməyə görə cinayət məsuliyyəti haqqında xəbərdar etmək və bu barədə ondan məhkəmə ekspertizasını təyin etmiş orqana və ya şəxsə rəylə birlikdə göndərməklə müvafiq iltizam almaq;

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məhkəmə ekspertizasının aparılması müddətini müəyyən etmək və onun gözlənilməsinə nəzarət etmək;
- aparılan tədqiqatların tamlığı və keyfiyyəti üzərində nəzarəti ekspertin müstəqilliyi prinsipinə əməl olunmaqla təmin etmək;
- tədqiqatlar başa çatdırıldıqdan sonra ekspertin rəyini, tədqiqat obyektlərini və iş üzrə materialların məhkəmə ekspertizasını təyin etmiş orqana və ya şəxsə göndərilməsini təmin etmək.

Məhkəmə ekspertizası idarəsinin rəhbəri tədqiqat aparılması üçün zəruri olan aşağıdakı şəraiti yaratmağa borcludur:

- avadanlıqlar, cihazlar, materiallar və informasiya təminatı vasitələri əldə etmək;
- texniki təhlükəsizlik və istehsalat sanitariyası qaydalarına əməl olunmasını təmin etmək;
- təqdim edilmiş tədqiqat obyektlərini və iş üzrə materialların qorunub saxlanmasını təmin etmək.

Maddə 11. Ekspert

Ali təhsili olan, müəyyən ekspertiza ixtisası üzrə müvafiq peşə hazırlığı keçmiş Azərbaycan Respublikasının vətəndaşı ekspert ola bilər.

İxtisaslaşmasından və hazırlıq səviyyəsindən asılı olaraq ekspertlərə ixtisas dərəcəsi verilir.

Attestasiyanın keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Tutduğu vəzifə, peşə qabiliyyəti və əmək stajı nəzərə alınmaqla məhkəmə ekspertizası idarəsinin ekspertlərinə tabeliyində olduqları müvafiq icra hakimiyyəti orqanlarının işçiləri üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada rütbə dərəcələri verilir.

Maddə 12. Ekspertin hüquqları

Ekspertin aşağıdakı hüquqları vardır:

- məhkəmə ekspertizasının predmetinə aid olan iş üzrə

materiallarla tanış olmaq, onlardan lazımi məlumat götürmək və ya onların surətini çıxarmaq;

- rəy verilməsi üçün zəruri olan əlavə tədqiqat obyektlərinin və iş üzrə materialların təqdim olunması barədə vəsatət vermək;
- məhkəmə ekspertizasının aparılmasına başqa ekspertlərin cəlb olunması haqqında vəsatət vermək;
- məhkəmə ekspertizasının predmetinə aid olan məlumatların aydınlaşdırılması üçün məhkəmə ekspertizasını təyin etmiş orqanın və ya şəxsin icazəsi ilə məhkəmə və istintaq hərəkətlərinin icraatında iştirak etmək;
- məhkəmənin qərardadı (hakimin qərarı) ilə məhkəmə istintaqı mərhələsində işin materiallarının tədqiqində iştirak etmək;
- verdiyi rəyin və ya ifadənin proses iştirakçıları tərəfindən düzgün izah edilməməsi və yaxud təhrif edilməsi barədə istintaq hərəkətləri və ya məhkəmə iclasının protokoluna daxil edilməsi üçün məlumat vermək;
- qoyulmuş suallardan əlavə məhkəmə ekspertizasının predmetinə aid olan və iş üçün əhəmiyyətli sayılan digər halları da öz rəyində göstərmək;
- məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxsin hərəkəti ekspertin hüquqları pozduqda qanunla müəyyən edilmiş qaydada şikayət etmək.

Ekspert məhkəmə ekspertizasının aparılmasından aşağıdakı hallarda imtina edə bilər:

- məhkəmə ekspertizasının təyin edilməsinin prosessual qaydası pozulduqda və bu ekspertizanın aparılmasını çətinləşdirdikdə və ya onun aparılmasını qeyri-mümkün etdikdə;
- verilən suallar ekspertin zəruri biliyindən kənara çıxdıqda;
- tədqiqat obyektləri və iş üzrə materiallar rəy verilməsi üçün yararsız olduqda və ya kifayət qədər olmadıqda və onların tamamlanması barədə ekspertin vəsatəti təmin edilmədikdə;
- tədqiqat aparılması və rəy verilməsi üçün zəruri olan şərait, metodik vəsait və avadanlıqlar olmadıqda;
- ekspertin həyatı və sağlamlığı üçün real təhlükə mövcud olduqda.

- Belə hallarda ekspert bu barədə məhkəmə ekspertizasını təyin etmiş orqana və ya şəxsə yazılı formada məlumat verir.

Ekspertə aşağıdakıları etmək qadağandır:

- məhkəmə ekspertizası idarəsinin rəhbərindən başqa hər hansı şəxsdən və ya orqandan məhkəmə ekspertizasının aparılması haqqında tapşırıq almaq;
- başqa idarənin əməkdaşı qismində, həmçinin özəl ekspert kimi məhkəmə ekspertizası fəaliyyətini həyata keçirmək;
- məhkəmə ekspertizasının aparılması ilə bağlı işin gedişatında maraqlı olduğunu güman etməyə əsas verən proses iştirakçıları ilə şəxsi əlaqələr yaratmaq;
- məhkəmə ekspertizasını aparmaq üçün müstəqil olaraq material toplamaq;
- təhqiqat aparan şəxsin, müstəntiqin və ya prokurorun icazəsi olmadan təhqiqat və ibtidai istintaqın məlumatlarını yaymaq;
- dövlət, qulluq, peşə və kommersiya sirri təşkil edən və qanunda qorunan məlumatları, habelə məhkəmə ekspertizasının aparılması ilə əlaqədar ona məlum olan və açıqlanması insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulmasına səbəb ola bilən məlumatları yaymaq;
- məhkəmə ekspertizasını təyin etmiş orqanın və ya şəxsin razılığı olmadan tədqiqat obyektini məhv etmək və ya onun xassəsini əhəmiyyətli dərəcədə dəyişdirmək.

Maddə 13. Ekspertin vəzifələri

Ekspertin aşağıdakı vəzifələri vardır:

- Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda, məhkəmə ekspertizasının aparılmasından özü-özünə etirazetmə haqqında məhkəmə
- ekspertizası təyin etmiş orqan və ya şəxsə, yaxud məhkəmə ekspertizası idarəsinin rəhbərinə məlumat vermək;
- məhkəmə ekspertizasının aparılmasında ekspert kimi iştirakını rədd edən hallar olmadıqda, ona tapşırılmış məhkəmə ekspertizasını aparmaq;

- təqdim edilmiş obyektlərin və iş üzrə materialların tam və hərtərəfli tədqiqatını aparmaq və qoyulmuş suallar üzrə əsaslandırılmış və obyektiv rəy vermək;
- təhqiqat aparan şəxsin, müstəntiqin, prokurorun və ya məhkəmənin (hakimin) çağırışı üzrə gəlmək;
- aparılmış təhqiqat və verilmiş rəylə əlaqədar məsələlər üzrə təhqiqat, ibtidai istintaq zamanı və ya məhkəmədə ifadə vermək;
- məhkəmə ekspertizasının aparılmasından imtina etməyə əsas verən bu Qanunun 12-ci maddəsində nəzərdə tutulmuş hallar olduqda rəy verməyin qeyri-mümkünlüyü barədə yazılı formada təhqiqat aparan şəxsə, müstəntiqə və ya məhkəməyə (hakimə) məlumat vermək;
- təqdim edilmiş təhqiqat obyektlərinin və iş üzrə materialların qorunub saxlanılmasını təmin etmək.

Maddə 14. Ekspertin dindirilməsi

Ekspertin rəyi kifayət qədər aydın olmadıqda və ya rəydə istifadə olunmuş terminlərin və tətbiq edilən metodların dəqiqləşdirilməsinə zərurət yarandıqda təhqiqat aparan şəxs, müstəntiq və ya məhkəmə (hakim) Azərbaycan Respublikasının prosessual qanunvericiliyinə uyğun olaraq eksperti dindirə bilər.

Barəsində məhkəmə ekspertizası aparılan şəxsə dair həmin məhkəmə ekspertizasının predmetinə aid olmayan məlumatlarla əlaqədar ekspert dindirilə bilməz.

Ekspert tərəfindən rəy verilənədək onun dindirilməsi qadağandır.

III fəsil
Məhkəmə ekspertizasının növləri və onun aparılması

Maddə 15. Məhkəmə ekspertizasının növləri

Məhkəmə ekspertizası aşağıdakı növlərdən ibarətdir:

1) ilkin məhkəmə ekspertizası;
2) əlavə məhkəmə ekspertizası;
3) təkrar məhkəmə ekspertizası;
4) komisyon məhkəmə ekspertizası;

5) kompleks məhkəmə ekspertizası.

Maddə 16. İlkin məhkəmə ekspertizası

İş üzrə icraat zamanı əhəmiyyət kəsb edən hər hansı məsələnin həlli üçün elm, incəsənət, texnika və ya sənət sahəsində xüsusi bilik tələb edildikdə, həmin məsələnin aydınlaşdırılması məqsədilə birinci dəfə təyin edilən ekspertiza ilkin məhkəmə ekspertizası adlanır.

Maddə 17. Əlavə məhkəmə ekspertizası

İlkin məhkəmə ekspertizasının rəyi kifayət qədər olmadıqda, ekspert qoyulmuş sualları tam həll etmədikdə və ya əvvəlki təhqiqatla bağlı əlavə sualların həll edilməsi zərurəti olduqda əlavə məhkəmə ekspertizası təyin edilir və onun aparılması həmin ekspertə və ya başqa ekspertə həvalə edilir.

Maddə 18. Təkrar məhkəmə ekspertizası

Əvvəllər verilmiş rəyin doğruluğu və əsaslılığı təhqiqat aparan şəxsdə, müstəntiqdə, prokurorda və ya məhkəmədə (hakimdə) şübhə doğurduqda, məhkəmə ekspertizasının aparılmasının Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydaları pozulduqda eyni suallar üzrə təkrar məhkəmə ekspertizasının aparılması təyin edilir və onun aparılması başqa ekspertə və ya ekspertlərə həvalə edilir.

Təkrar məhkəmə ekspertizasının təyin edilməsi barədə qərarda (qərardadda) əvvəlki ekspertizanın rəyi ilə razılaşmamağın səbəbləri göstərilir.

Ekspertlər arasında fikir ayrılığı olduqda hər bir ekspert buna səbəb olan məsələ barəsində yazılı formada öz rəyini ayrıca tərtib edir.

Maddə 19. Komisyon məhkəmə ekspertizası

Komisyon məhkəmə ekspertizası eyni ixtisas üzrə sayı iki nəfərdən az olmayan ekspertlər tərəfindən aparılır.

Məhkəmə ekspertizasının komisyon xarakteri onu təyin etmiş orqan və ya şəxs, yaxud məhkəmə ekspertizası idarəsinin rəhbəri tərəfindən müəyyən edilir.

Komisyon məhkəmə ekspertizasının təşkil edilməsi və aparılması onu təyin etmiş orqan və ya şəxs tərəfindən məhkəmə ekspertizası idarəsinin rəhbərinə həvalə edilir.

Verilən sualların həll edilməsi zərurəti nəzərə alınaraq ekspertlər qarşıda duran tədqiqatın ardıcıllığını və həcmini razılaşdırırlar.

Komissiya tərkibində məhkəmə ekspertizasının aparılması həvalə edilmiş hər bir ekspert müstəqildir və sərbəst olaraq özünün əldə etdiyi və başqa ekspertlər tərəfindən əldə olunmuş nəticələri qiymətləndirir və öz zəruri biliyi hüdudlarında qoyulmuş suallara cavab verir.

Komisyon məhkəmə ekspertizası aparılarkən onu təyin etmiş orqan və ya şəxs, yaxud məhkəmə ekspertizası idarəsinin rəhbəri ekspertlərin fəaliyyətini əlaqələndirmək, ümumi tədqiqat planını işləyib hazırlamaq və ekspertlərin müşavirəsinə rəhbərlik etmək üçün ekspertlərdən birini rəhbər təyin edir. Komissiya rəhbərinin səlahiyyətləri digər ekspertlərin səlahiyyətlərindən fərqlənmir.

Ekspertlər rəy verməmişdən qabaq öz aralarında məsləhətləşirlər. Ümumi rəyə gəldikdə, rəyə bütün ekspertlər tərəfindən imza edilir.

Ekspertlər arasında fikir ayrılığı olduqda hər bir ekspert buna səbəb olan məsələ barəsində yazılı formada öz rəyini ayrıca tərtib edir.

Maddə 20. Kompleks məhkəmə ekspertizası

İş üçün əhəmiyyətli olan halların aydınlaşdırılması müxtəlif bilik sahələrindən istifadə etməklə tədqiqat aparılmasını tələb edərsə, kompleks məhkəmə ekspertizası təyin edilir.

Kompleks məhkəmə ekspertizasının təşkili və aparılması ekspertlərin fəaliyyəti ilə əlaqədar məsələlər bu Qanunun 19-cu maddəsində müəyyən edilmiş qaydada həll edilir.

Kompleks məhkəmə ekspertizasının aparılmasında iştirak edən ekspertlərin rəyində hər bir ekspertin apardığı tədqiqatın növü və həcmi, müəyyən etdiyi faktlar və əldə etdiyi nəticələr göstərilir.

Hər bir ekspert onun tərəfindən aparılmış tədqiqatı əks etdirən hissəsində rəyi imzalayır və ona görə məsuliyyət daşıyır.

Alınmış nəticələrin qiymətləndirilməsində və yekun nəticənin formalaşdırılmasında ekspertlər ümumi nəticəyə gəlirlər. Əgər ümumi nəticənin əsasını bir və ya bir neçə ekspert tərəfindən müəyyənləşdirilən faktlar təşkil edirsə, bu, rəydə öz əksini tapmalıdır.

Maddə 21. Məhkəmə ekspertizasının təyin edilməsi

Məhkəmə ekspertizası Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada təhqiqat aparan şəxsin, müstəntiqin, prokurorun, hakimin qərarı və ya məhkəmənin qərardadı ilə təyin edilir.

Maddə 22. Məhkəmə ekspertizasının aparılması

Təhqiqat aparan şəxsin, müstəntiqin, prokurorun, hakimin qərarı və ya məhkəmənin qərardadı məhkəmə ekspertizasının aparılması üçün əsas sayılır.

Məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs təhqiqatının aparılması və rəy verilməsi üçün zəruri olan təhqiqat obyektləri və iş üzrə materialları məhkəmə ekspertizası idarəsinə təqdim edir.

Məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müqayisəli təhqiqat üçün nümunələr götürür və onları işə əlavə edir. Zəruri hallarda, nümunələrin götürülməsi məhkəmə ekspertizasını aparan ekspertin iştirakı ilə həyata keçirilir.

Məhkəmə ekspertizası idarəsində məhkəmə ekspertizasının aparılması müddətləri Azərbaycan Respublikasının prosessual qanunvericiliyinə müvafiq olaraq müəyyən edilir.

Maddə 23. Məhkəmə ekspertizası fəaliyyətini həyata keçirən orqan

Məhkəmə ekspertizası fəaliyyəti Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının məhkəmə ekspertiza idarələri tərəfindən həyata keçirilir.

Məhkəmə ekspertiza idarələri məhkəmə ekspertizasının aparılması üzrə fəaliyyətlərini ekspert təcrübəsinin ümumiləşdirilməsi, ekspertlərin peşəkar hazırlığı və onların ixtisaslaşdırılması, o cümlədən ekspert praktikasının vahid elmi-metodik üsullarla öyrənilməsi əsasında həyata keçirirlər.

Maddə 24. Məhkəmə ekspertizasının aparılmasında məhdudiyyətlər

Məhkəmə ekspertizası idarəsi rəhbərinin işdə maraqlı olduğunu təsdiq edən hallar müəyyən edilərsə, məhkəmə ekspertizasının aparılması həmin idarəyə tapşırıla bilməz, başlanılmış təhqiqat isə dərhal dayandırılmalıdır.

Ekspert Azərbaycan Respublikasının prosessual qanunvericiliyində göstərilən əsaslar mövcud olduqda, məhkəmə ekspertizasının aparılmasında iştirakdan özü-özünə etiraz etməlidir, məhkəmə ekspertizası ona tapşırıldıqda isə onun aparılmasını dərhal dayandırmalıdır.

Məhkəmə ekspertizasının aparılması, bu maddənin birinci və ikinci hissələrinin tələblərinin pozulması ilə həyata keçirilmişdirsə, o, icra edilməmiş hesab olunur və ekspertin rəyi sübut kimi istifadə edilə bilməz. Belə olduqda, məhkəmə ekspertizasının təyin edilməsi məsələsi yenidən həll edilir.

Maddə 25. Proses iştirakçılarının məhkəmə ekspertizasının aparılmasında iştirak etməsi

Yalnız Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə belə hüquqları nəzərdə tutulmuş proses iştirakçıları məhkəmə ekspertizasını təyin etmiş orqanın və ya şəxsin icazəsi ilə məhkəmə ekspertizasının aparılmasında iştirak edə bilərlər.

Məhkəmə ekspertizasının aparılmasında iştirak edən proses iştirakçıları təhqiqatın gedişatına müdaxilə edə bilməzlər. Lakin məhkəmə ekspertizasının predmetinə dair ekspertə suallar və izahatlar verə bilərlər.

Ekspert rəyini tərtib etdiyi zaman, həmçinin məhkəmə ekspertizası ekspertlər tərəfindən aparıldıqda ekspertlərin müqaviləsi

və əldə edilmiş nəticələrin yekunlaşdırılması mərhələsində proses iştirakçılarının iştirakına yol verilmir.

Proses iştirakçısı məhkəmə ekspertizası aparıldığı zaman ekspertə mane olduqda, ekspert təhqiqatı dayandıra bilər və həmin şəxsə verilmiş icazənin ləğv edilməsi barədə məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs qarşısında vəsatət qaldıra bilər.

Maddə 26. Məhkəmə ekspertinin (ekspertlərinin) rəyi və onun məzmunu

Aparılmış təhqiqatlar əsasında əldə edilmiş nəticələr nəzərə alınmaqla məhkəmə eksperti (ekspertləri) öz adından yazılı rəy verir və onu imzalayır. Məhkəmə ekspertinin (ekspertlərinin) imzaları məhkəmə ekspertizası idarəsinin möhürü ilə təsdiq olunur.

Məhkəmə ekspertinin (ekspertlərinin) rəyində işağıdakılar göstərilir:

- məhkəmə ekspertizasının aparıldığı tarix və yer;
- məhkəmə ekspertizasının aparılmasının əsasları;
- məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs haqqında məlumat;
- məhkəmə ekspertizasının aparılması həvalə edildiyi məhkəmə ekspertizası idarəsi və məhkəmə eksperti haqqında (soyadı, adı və atasının adı, təhsili, ixtisası, ekspert kimi iş stajı, elmi vəzifəsi və elmi dərəcəsi, tutduğu vəzifə) məlumat;
- Azərbaycan Respublikasının prosessual qanunvericiliyinə uyğun olaraq ekspertin bilə-bilə yalan rəy verməsinə görə məsuliyyət barədə ona xəbərdarlıq edilməsi;
- məhkəmə eksperti (ekspertləri) qarşısında qoyulmuş suallar;
- məhkəmə ekspertizasının aparılması üçün məhkəmə ekspertinə təqdim edilmiş təhqiqat obyektləri və iş üzrə materiallar;
- məhkəmə ekspertizasının aparılması zamanı iştirak etmiş proses iştirakçıları haqqında məlumat;
- istifadə edilən metodlar göstərilməklə təhqiqatın məzmunu və nəticələri;
- təhqiqatın nəticələrinin qiymətləndirilməsi, qoyulmuş suallar üzrə yekun nəticələrin əsaslandırılması və dürüst ifadə olunması.

Məhkəmə ekspertinin (ekspertlərinin) rəyini əks etdirən materiallar rəyə əlavə edilir və onun tərkib hissəsini təşkil edir. Təhqiqatın gedişatı, şəraiti və nəticələrini özündə əks etdirən sənədlər məhkəmə ekspertizası idarəsində saxlanılır. Məhkəmə ekspertizasını təyin etmiş orqanın və ya şəxsin tələbi ilə həmin sənədlər işə əlavə olunmaq üçün onlara göndərilə bilər.

IV fəsil
Məhkəmə ekspertizası idarələrində canlı şəxslər barəsində məhkəmə ekspertizasının aparılmasının xüsusiyyətləri

Maddə 27. Canlı şəxslər barəsində məhkəmə ekspertizasının aparılması

Canlı şəxslər barəsində məhkəmə ekspertizası məhkəmə icraatının bütün növləri üzrə həyata keçirilir. Məhkəmə ekspertizasına göndərilməli olan şəxslərin dairəsi Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 28. Canlı şəxslər barəsində məhkəmə ekspertizasının aparılması şəraiti və yeri

Canlı şəxslər barəsində məhkəmə ekspertizası tibbi və başqa idarələrdə, habelə müvafiq təhqiqatın aparılması və ekspertizanın aparıldığı şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunmasının təmin edilməsi üçün zəruri olan şəraitin olduğu başqa yerlərdə aparıla bilər.

Məhkəmə ekspertizası aparılarkən şəxsin stasionar müayinəsi zərurəti yaranarsa, həmin şəxs bu Qanunda və Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada tibbi stasionara yerləşdirilə bilər.

Məhkəmə ekspertizasına göndərilmiş şəxsin məcburi qaydada tibbi və ya başqa idarəyə yerləşdirilməsi məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs tərəfindən təmin edilir.

Maddə 29. Məhkəmə ekspertizasının könüllük və məcburilik qaydasında aparılması

Canlı şəxslər barəsində məhkəmə ekspertizası könüllü və yaxud məcburi qaydada həyata keçirilir.

Məhkəmə ekspertizası könüllü qaydada həyata keçirildikdə, məhkəmə ekspertizası idarəsində haqqında məhkəmə ekspertizası aparılan şəxsin yazılı formada razılığı təqdim edilməlidir.

Əgər haqqında məhkəmə ekspertizası aparılan şəxs on altı yaşına çatmamışdırsa və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan şəxs hesab edilmişdirsə, məhkəmə ekspertizasının aparılmasına yazılı formada razılıq həmin şəxsin qanuni nümayəndəsi tərəfindən verilir.

Məcburi qaydada məhkəmə ekspertizasına göndərilən şəxslərin dairəsi Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilir. Azərbaycan Respublikasının prosessual qanunvericiliyində şəxsin məcburi qaydada məhkəmə ekspertizasına göndərilməsi haqqında birbaşa göstəriş olmadıqda, məhkəmə ekspertizası idarəsi həmin şəxs barəsində məcburi qaydada məhkəmə ekspertizasını apara bilməz.

Maddə 30. Şəxsin tibbi stasionara yerləşdirilməsinin əsasları və qaydası

Məhkəmə tibbi və ya məhkəmə-psixiatriya ekspertizası təyin edilərkən şəxsin stasionar müayinəsi zərurəti yaranarsa, o, məhkəmə ekspertizasının təyin edilməsi barədə qərar əsasında müvafiq tibbi stasionara yerləşdirilir. Şəxsin tibbi stasionara yerləşdirilməsi qaydası Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilir.

Həbsdə saxlanılan şəxslər barəsində məhkəmə ekspertizası aparıldıqda, onlar bu məqsədlə xüsusi yaradılmış tibbi stasionara yerləşdirilir.

Məhkəmə-psixiatriya ekspertizasının aparılması üçün şəxs yalnız məhkəmənin (hakimin) qərarı əsasında psixiatriya stasionarına və

yaxud məhkəmə-psixiatriya ekspertizası stasionarına yerləşdirilə bilər.

Məhkəmə ekspertizasını təyin etmiş və məcburi qaydada şəxsi tibbi stasionara yerləşdirmiş orqan və ya şəxs iyirmi dörd saat müddətində həmin şəxsin yaxın qohumlarına və ya onun göstərdiyi hər hansı şəxsə, bu cür adam olmadıqda isə onun yaşadığı yer üzrə daxili işlər orqanına məlumat verməlidir.

Maddə 31. Şəxsin tibbi stasionarda qalma müddəti

Şəxs məhkəmə tibbi ekspertizası aparılması üçün otuz gün müddətinədək tibbi stasionara yerləşdirilə bilər.

Zərurət olduqda, ekspertin (ekspertlərin) əsaslandırılmış vəsatətinə əsasən şəxsin tibbi stasionarda qalma müddəti göstərilən stasionarın yerləşdiyi rayon məhkəməsi hakiminin qərarı ilə daha otuz gün müddətinə uzadıla bilər.

Tibbi stasionarda qalma müddətinin uzadılması barədə ekspertin (ekspertlərin) təqdimatı otuz gün müddətinin başa çatmasına üç gün qalmış həmin stasionarın yerləşdiyi rayonun məhkəməsinə təqdim edilməlidir.

Hakim təqdimatı aldıqdan sonra üç gün ərzində qərar çıxarır və bu barədə ekspertə (ekspertlərə) məlumat verir.

Şəxsin tibbi stasionarda qalma müddətinin uzadılmasından hakim tərəfindən imtina edildikdə həmin şəxs oradan dərhal çıxarılmalıdır.

Məhkəmə ekspertizası idarəsinin rəhbəri hakimin qərarı barədə tibbi stasionarda olan şəxsə, həmçinin məhkəmə ekspertizasını təyin etmiş orqana və ya şəxsə məlumat verir.

Tibbi stasionarda qalma müddəti pozulduqda, şəxs, onun müdafiəçisi, qanuni nümayəndəsi və ya işdə iştirak etmək üçün buraxılmış digər nümayəndələri bu barədə stasionarın yerləşdiyi rayonun məhkəməsinə şikayət edə bilər.

Maddə 32. Haqqında məhkəmə ekspertizası aparılan şəxsin qanuni mənafelərinin müdafiəsi və onun hüquqları

Canlı şəxslər barəsində məhkəmə ekspertizası aparıldıqda aşağıdakıları etmək qadağandır:

- məlumat almaq məqsədi ilə onun hüquqlarını məhdudlaşdırmaq, aldatmaq, hədə-qorxu gəlmək, zor və digər qanunsuz tədbirlər tətbiq etmək;
- üzərində yeni dərman vasitələrini, diaqnostik metodları, xəstəliklərin profilaktikasını və müalicəsini sınaqdan keçirmək, həmçinin şəxsdən obyekt kimi istifadə olunmaqla biotibbi eksperimental tədqiqatlar aparmaq.

Barəsində məhkəmə ekspertizası aparılan şəxs ekspertə həmin məhkəmə ekspertizasının predmetinə aid olan izahatlar verə bilər.

Tibbi stasionarda yerləşdirilmiş şəxslə onun müdafiəçisinin, qanuni nümayəndəsinin və ya işdə iştirak etmək üçün buraxılmış digər nümayəndələrinin görüşü, üçüncü şəxslər tərəfindən informasiya əldə olunmasını istisna edən şəraitdə təşkil edilir.

Şikayət, ərizə və vəsatət vermək üçün tibbi stasionarda yerləşdirilmiş şəxsə real imkanlar yaradılmalıdır. Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada verilmiş şikayət senzuradan keçirilmir və iyirmi dörd saat ərzində aidiyyatı üzrə göndərilir.

Maddə 33. Həbsdə olmayan şəxslər barəsində məhkəmə ekspertizasının psixiatriya stasionarlarda aparılması şəraiti

Həbsdə olmayan şəxslər barəsində məhkəmə psixiatriya ekspertizası həmin müvafiq məhkəmə-psixiatriya ekspertizası stasionarında, həm də digər psixiatriya stasionarlarda həyata keçirilir. Həbsdə olan şəxslərin yuxarıda göstərilən stasionarlarda yerləşdirilməsinə yol verilmir.

Həbsdə olmayan şəxslərin digər psixiatriya stasionarlarda yerləşdirilməsi onların barəsində məhkəmə ekspertizasının aparılmasına çətinlik törətməməlidir.

Həbsdə olmayan şəxs məhkəmə-psixiatriya ekspertizası aparılan müddətdə psixiatriya stasionarlarının pasiyentlərinə şamil olunan hüquqlardan istifadə edirlər.

Həbsdə olmayan, ağır psixi pozuntulardan əziyyət çəkməyən şəxs tərəfindən ətrafdakıların həyat və sağlamlığına təhlükə törədən və ya psixiatriya stasionarın iş rejimini ciddi pozan hərəkətlərə yol

verilirsə, həmin stasionarın müdiriyyəti bu hərəkətlərin qarşısının alınması məqsədi ilə zəruri tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına məlumat verir.

Haqqında məhkəmə-psixiatriya ekspertizasının könüllü qaydada aparıldığı şəxs tərəfindən bu cür hərəkətlərə yol verilərsə, o, psixiatriya stasionardan çıxarıla bilər və bu barədə stasionarın müdiriyyəti məhkəmə ekspertizasını təyin etmiş orqana və ya şəxsə yazılı formada məlumat verir.

Maddə 34. Həbsdə olan şəxslər barəsində məhkəmə ekspertizasının psixiatriya stasionarında aparılması şəraiti

Həbsdə olan şəxslər barəsində məhkəmə psixiatriya ekspertizası həmin şəxslərin saxlanması üçün müəyyən edilmiş məhkəmə-psixiatriya ekspertizası stasionarında aparılır. Bu stasionarların təhlükəsizliyinin təmin edilməsi və mühafizəsi həbsdə saxlanma yerlərinin təhlükəsizliyinin təmin edilməsi və mühafizəsi vəzifələrini yerinə yetirən orqanlar tərəfindən həyata keçirilir.

Məhkəmə-psixiatriya ekspertiza stasionarlarının təhlükəsizliyini və mühafizəsini həyata keçirən şəxslərlə həmin stasionarların tibb işçilərinin birgə fəaliyyət qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Məhkəmə-psixiatriya ekspertiza stasionarlarında yerləşdirilən həbsdə olan şəxslərə Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin normaları şamil edilir. Belə hallarda açıq-aşkar psixi pozuntusu olan şəxslərə tənbeh və maddi məsuliyyət tədbirləri nəzərdə tutan normalar, həmçinin silah işlədilməsi tətbiq edilmir.

Maddə 35. Məhkəmə-psixiatriya ekspertizası stasionarlarında saxlanılan şəxslərin təminatı

Məhkəmə-psixiatriya ekspertiza stasionarlarında saxlanılan şəxslərin maddi-məişət və tibbi-sanitar təminatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə psixiatriya stasionarları üçün müəyyən edilmiş normalar və qaydalar üzrə həyata keçirilir.

Maddə 36. Canlı şəxslər barəsində məhkəmə ekspertizası aparılarkən tədqiqat metodlarının tətbiq edilməsində məhdudiyyətlər

Canlı şəxs barəsində məhkəmə ekspertizası aparılarkən güclü ağrıverici təsirlərə malik olan və yaxud şəxsin sağlamlığına mənfi təsir edə biləcək tədqiqat metodlarının, həmçinin Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə səhiyyə praktikasında istifadə edilməsi qadağan olunan metodların tətbiqinə yol verilmir.

Haqqında məhkəmə ekspertizası aparılan şəxs ona qarşı tətbiq olunan tədqiqat metodları və mümkün ola biləcək ağrıverici təsirlər barədə məlumatlandırılmalıdır. Eyni məlumatlar haqqında məhkəmə ekspertizası aparılan şəxsin müvafiq vəsatətlə müraciət etmiş qanuni nümayəndəsinə də verilir.

Canlı şəxslər barəsində məhkəmə ekspertizası aparılarkən tədqiqat aparılması məqsədilə tibb idarəsində onlardan zəruri olan nümunələr götürülür və bu barədə ekspertin rəyində göstərilir. Nümunələr həmin tibb idarəsinin iki nəfər tibb işçisinin iştirakı ilə həkim və ya digər mütəxəssis tərəfindən götürülür. Könüllük qaydasında məhkəmə ekspertizasına göndərilmiş şəxslərdən məcburi qaydada nümunələrin götürülməsinə yol verilmir.

Maddə 37. Proses iştirakçılarının canlı şəxslər barəsində məhkəmə ekspertizasının aparılmasında iştirakı

Canlı şəxslər barəsində aparılan məhkəmə ekspertizasında yalnız Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə belə hüququ olan proses iştirakçıları iştirak edə bilərlər.

Digər şəxslərin iştirakına məhkəmə ekspertizasını təyin etmiş orqanın və ya şəxsin, yaxud haqqında məhkəmə ekspertizası aparılan şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı ilə yol verilir.

Haqqında məhkəmə ekspertizası aparılan şəxsin soyunması ilə müşaiyət olunan tədqiqatlar həyata keçirilərkən yalnız eyni cinsdən olan şəxslər iştirak edə bilərlər. Bu məhdudiyyət həmin tədqiqatların aparılmasında iştirak edən həkimlərə və tibb işçilərinə aid edilmir.

V fəsil

Yekun müddəalar

Maddə 38. Məhkəmə ekspertizası idarəsinin fəaliyyətinin maliyyələşdirilməsi

Məhkəmə ekspertizası idarəsinin fəaliyyəti dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir. Məhkəmə ekspertizasının lazımi səviyyədə aparılmasını təmin etmək məqsədilə məhkəmə ekspertizası idarəsinin müasir texnika və avadanlıqlarla təchiz edilməsi üçün dövlət büdcəsindən vəsait ayrılması nəzərdə tutulur.

Maddə 39. Məhkəmə ekspertizası idarəsinin əməkdaşlarının əməyinin ödənilməsi

Məhkəmə ekspertizası idarəsinin əməkdaşlarının əməyinin ödənilməsi, tabeliyində olduqları müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşları üçün müəyyənləşdirilmiş əməyin ödənilməsi şərtlərinə və formasına uyğun olmalıdır.

İşin xarakteri və şəraiti nəzərə alınmaqla məhkəmə ekspertizası idarəsinin əməkdaşlarının əməyinin ödənilməsi zamanı ixtisas, rütbə və elmi dərəcələrinə görə əlavələr müəyyən edilməlidir.

Maddə 40. Məhkəmə ekspertizası idarəsinin fəaliyyətinin təşkilati və elmi təminatı

Məhkəmə ekspertizası fəaliyyətinin maddi-texniki, elmi-metodik və təşkilati təminatı məhkəmə ekspertiza idarəsinin tabe olduğu müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Məhkəmə ekspertizası idarəsinin yaradılması və ləğv edilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilməklə, onun fəaliyyət qaydası haqqındakı əsasnamə həmin müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilir.

Maddə 41. Məhkəmə ekspertizası idarəsinin fəaliyyətinin informasiya təminatı

Məhkəmə ekspertizası idarəsinin rəhbərinin sorğusu əsasında mülkiyyət formasından asılı olmayaraq bütün idarə, təşkilat və

müəssisələr məhkəmə ekspertizasının aparılması üçün zəruri olan etalon nümunələrini və texniki məlumatları məhkəmə ekspertizası idarəsinə təqdim etməyə borcludurlar, bu zaman mülkiyyətçinin qanunla müəyyən edilmiş mülkiyyət hüququnun pozulmasına yol verilmir.

Maddə 42. Məhkəmə ekspertizasının aparılması sahəsində beynəlxalq əməkdaşlıq

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq müqavilələrə uyğun olaraq məhkəmə ekspertizası fəaliyyəti sahəsində Azərbaycan Respublikasının məhkəmə ekspertiza idarələri xarici dövlətlərin müvafiq orqanları ilə, habelə beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

Maddə 43. Qanunun pozulmasına görə məsuliyyət

Bu Qanunun pozulmasına görə vəzifəli şəxslər və vətəndaşlar Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Heydər ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 noyabr 1999-cu il

«DÖVLƏT MƏHKƏMƏ EKSPERTİZASI FƏALİYYƏTİ HAQQINDA» AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ

Azərbaycan Respublikası Prezidentinin
15 yanvar 2000-ci il tarixli fərmanı

«Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının «Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verilsin;
- Öz səlahiyyəti hüdudlarında «Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

- «Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 40-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər kabineti həyata keçirir;
- həmin Qanunun 11-ci maddəsinin ikinci hissəsində, 23-cü maddəsinin birinci hissəsində, 34-cü maddəsinin ikinci hissəsində, 39-cu maddəsinin birinci hissəsində, 40-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı» və «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini öz

səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər;

- həmin Qanunun 11-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

«Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin Fərmanına dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2001-ci il tarixli fərmanı

1.«Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin Fərmanının 2-ci bəndinin ikinci abzasından «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi» sözləri çıxarılsın.

2. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 17 yanvar tarixli 8 nömrəli qərarı ilə təsdiq edilmişdir.

2. Azərbaycan Respublikasında məhkəmə-tibb ekspertizasının fəaliyyəti barədə ƏSASNAMƏ

Azərbaycan Respublikası Baş Prokurorluğu, Ali Məhkəməsi, Milli Təhlükəsizlik Nazirliyi, Daxili İşlər Nazirliyi ilə RAZILAŞDIRILMIŞDIR	Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 27.11.2000-ci il tarixli 108 saylı əmrinə Əlavə N-2

1. Ümumi müddəalar

1. Azərbaycan Respublikasında məhkəmə-tibb ekspertizası Səhiyyə sistemi nəzdində ədalət mühakiməsinin məqsəd və vəzifələrinə xidmət edir. Onun fəaliyyəti eyni zamanda əhaliyə müalicə xidməti keyfiyyətinin yaxşılaşdırılmasında və profilaktik tədbirlərin həyata keçirilməsində səhiyyə orqanlarına hərtərəfli köməklik göstərilməsinə yönəldilmişdir.

2. Məhkəmə-tibb ekspertizası Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliklərinin məhkəmə-tibb ekspertizası müəssisələrində aparılır: Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin «Məhkəmə-tibbi ekspertiza və patoloji anatomiya» Elmi-Təcrübi və Tədris Birliyi; Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi «Məhkəmə-tibbi ekspertiza və patoloji anatomiya» Birliyi.

3. Səhiyyə Nazirliyi "Məhkəmə-tibbi ekspertiza və patoloji anatomiya" Elmi-Təcrübi və Tədris (bundan sonra "MTE və PA" ETT) Birliyi Azərbaycan Respublikasında məhkəmə-tibbi və patoloji anatomiya xidmətlərinin təşkiledici və rəhbər orqanıdır. Azərbaycan Respublikasında məhkəmə-tibb ekspertiza işinin təşkilinə təcrübi, təşkilati və metodoloji rəhbərlik Səhiyyə Nazirliyinin «MTE və PA» ETT Birliyi tərəfindən təmin olunur.

4. "MTE və PA" ETT Birliyi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, «Dövlət Məhkəmə Ekspertizası fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının Cinayət-Prosessual, İnzibati Hüquqpozmalar Haqqında Məcəllələrini, «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin əmr, sərəncam, təlimat və başqa normativ hüquqi aktlarını, bu Əsasnaməni rəhbər tutur və onların icrasını təmin edir.

5. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi "MTE və PA" ETT Birliyinin fəaliyyətini, idarə və maliyyələşmənin mərkəzləşdiyi şəraitdə həyata keçirən şəhər və rayon şöbələrinin Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin məhkəmə-tibbi və patoloji-anatomiya xidmətlərinin vahid sistemi təşkil edir.

Birliyin fəaliyyəti insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması, qanunçuluğun təmin edilməsi, ekspertlərin müstəqilliyi, elm və texnikanın müasir nailiyyətlərindən istifadə edilməklə həyata keçirilən tədqiqatların obyektivliyi, hərtərəfliliyi və tamlığı prinsiplərinə əsaslanır.

6. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin "MTE və PA" Birliyi inzibati-təsərrüfat cəhətdən müvafiq surətdə Naxçıvan MR Səhiyyə Nazirliyinə, praktiki və metodoloji cəhətdən isə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi "MTE və PA" ETT Birliyinə tabedir.

7. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi "MTE və PA" ETT Birliyinin ştat cədvəli və büdcəsi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilir.

8. "MTE və PA" ETT Birliyi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində Səhiyyə Nazirliyi tərəfindən müəyyənləşdirilmiş müddətdə öz iş qeydiyyatlarını aparır və fəaliyyəti haqda hesabatlar tərtib edir.

9. "MTE və PA" ETT Birliyi müvafiq qaydada ona dövlət büdcəsindən ayrılmış, hüquqi və fiziki şəxslərdən xidmətə görə alınan, təsərrüfat və istehsal fəaliyyətinin nəticəsində əldə olunan, müxtəlif idarə və ictimai təşkilatlardan könüllü yardım kimi daxil olan vəsaitlər hesabına öz maliyyə-təsərrüfat fəaliyyətini həyata keçirir.

10. "MTE və PA" ETT Birliyi Respublikada müvafiq profilli elmi cəmiyyətlər və ali məktəb kafedraları ilə elmi yaradıcılıq fəaliyyəti göstərə bilər.

11. "MTE və PA" ETT Birliyi eyni zamanda məhkəmə təbabəti və patoloji anatomiya sahəsində elmi-tədqiqat işləri aparır və əldə olunmuş elmi nəticələri gündəlik iş təcrübəsində tətbiq edir. Bu məqsədlə "MTE və PA" ETT Birliyində Metodik Şura fəaliyyət göstərir, Birlikdə aparılan elmi-tədqiqat işlərinə rəhbərlik və nəzarət edir.

12. "MTE və PA" ETT Birliyinin tabeçiliyində olan şöbə və bölmələr qarşılıqlı müqavilə əsasında tibb və hüquq profilli dövlət ali məktəblərinin, həmçinin dövlət qeydiyyatında olan digər ali məktəblərin tibb və hüquq fakültələrinin tələbə və dinləyiciləri üçün müvafiq profilli fənlər üzrə tədris bazası ola bilər. Bununla bağlı bütün məsələlər Birliyin Baş direktorunun razılığı ilə həll olunur. Birliyin balansında olan binalarında digər idarə və təşkilatların yerləşdirilməsi qəti qadağandır. Birliyin elmi dərəcəli və yüksək ixtisas kateqoriyalı mütəxəssisləri göstərilən tədris müəssisələrində əvəzçilik üzrə tədris-pedaqoji fəaliyyətlə məşğul ola bilərlər. Birlik əməkdaşlarının iş günü ərzində tədris-pedaqoji fəaliyyəti Birliyin rəhbərliyi tərəfindən tənzim olunur.

13. Məhkəmə-tibbi ekspertizalar məhkəmə təbabəti sahəsində xüsusi biliyi olan və həkim-məhkəmə-tibb eksperti vəzifəsini tutan mütəxəssislər tərəfindən aparılır. Bununla yanaşı olaraq, bir sıra ekspertizalar ali qeyri-tibb təhsili olan və xüsusi təhsil almış ekspert-mütəxəssislər (fiziklər, kimyaçılar, bioloqlar, hüquqşünaslar, riyaziyyatçılar, mühəndislər və s.) tərəfindən də aparıla bilər.

14. Məhkəmə-tibbi ekspertizaların aparılmasına məhkəmə təbabəti kafedralarının professor-müəllim heyəti, səhiyyə

müəssisələrinin və başqa idarələrin mütəxəssisləri yalnız Birliyin rəhbərliyinin razılığı ilə cəlb edilə bilərlər. Həmin işi yerinə yetirərkən bu şəxslər öz prosessual vəziyyətlərinə görə ekspert sayılırlar.

15. "MTE və PA" ETT Birliyi hüquqi şəxsdir, dövlət büdcəsindən maliyyələşdirilir, əmlaka, müstəqil balansa, müvafiq hesablara malikdir və öz adından müqavilələr bağlaya bilər.

16. "MTE və PA" ETT Birliyi Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri və öz adı olan möhürə, xüsusi xidməti blanklara və fəaliyyətini nizamlayan normativ sənədlərə malikdir.

17. Yerli səhiyyə idarələrinin rəhbərliyi məhkəmə-tibbi ekspertiza şöbələrini bina, avadanlıq, maddi-texniki vəsaitlə təmin etməyə borcludurlar; Birlik və onun şöbələri üçün təmir, bərpa işlərini və yeni binaların inşasını həyata keçirirlər; ambulator-poliklinika müəssisələrində kabinetlərlə, xəstəxanalarda meyitxana ilə, avtonəqliyyatla təmin edir, zəruri hallarda isə sanitar aviasiyası ilə təmin edilməsi üçün tədbirlər görür; məhkəmə-tibb ekspertlərinə öz xidməti işlərini yerinə yetirməkdə (tibbi sənədlərin götürülməsində, analizlərin aparılmasında, mütəxəssis məsləhətlərində, cinayət və mülki işlər üzrə ekspertizaların keçirilməsində və s.) hərtərəfli köməklik edirlər.

18. Prokurorluq, DİN, MTN və məhkəmələr ekspertizaların keyfiyyətinin yüksəldilməsi və icra müddətlərinin qısaldılması məqsədilə Birliyə və onun şöbələrinə lazımi iş şəraitinin yaradılmasında yaxından köməklik göstərirlər.

19. “MTE və PA” ETT Birliyinin rəhbərliyinin sorğusuna əsasən mülkiyyət formasından asılı olmayaraq bütün idarə, təşkilat və müəssisələr məhkəmə-tibbi ekspertizanın aparılması üçün zəruri olan etalon nümunələrini və texniki məlumatları məhkəmə-ekspertizası idarəsinə təqdim etməyə borcludurlar. Bu zaman mülkiyyətçinin qanunla müəyyən edilmiş mülkiyyət hüququnun pozulmasına yol verilmir.

2. Birliyin idarəçiliyi və strukturu

1. Birliyə Azərbaycan Respublikasının Səhiyyə Naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan Baş direktor rəhbərlik edir.

Birliyin Baş direktorunun hüquq və vəzifələri aşağıdakılardır

Birliyin Baş direktoru Respublika Səhiyyə sistemində məhkəmə-tibbi ekspertiza və patoloji anatomiya xidmətlərinə inzibati-təşkilati və metodik rəhbərlik edir.

Birliyin Baş direktorunun əsas vəzifəsi məhkəmə-tibbi və patoloji anatomiya xidmətlərinin ümumi inkişaf strategiyasını müəyyən etmək və onun həyata keçirilməsində taktiki qərarları yerinə yetirməkdir.

Məhkəmə tibb ekspertizasının təyin olunması haqqında qərarı (qərardadı) aldıqdan sonra onun təşkil edilməsi və aparılması, ekspertin məhkəmə iclaslarında, istintaq və məhkəmə hərəkətlərində iştirakının təmin olunması üzrə müvafiq tədbirlər görmək;

Birlikdə konkret ixtisas üzrə ekspert, zəruri maddi-texniki baza və yaxud tədqiqat aparılması üçün xüsusi şərait olmadıqda, məhkəmə-tibb ekspertizası təyin olunması barədə qərarı (qərardadı) icra edilmədən tədqiqata təqdim edilmiş obyekt və işin materialları ilə birlikdə geri qaytarmaq;

Məhkəmə-tibb ekspertizasının təyin edilməsi haqqında qərarda (qəradadda) göstərilmiş digər idarələrin iştirakı ilə məhkəmə ekspertizası aparılmasını təşkil etmək;

Rəy verilməsi üçün Birliyin əməkdaşı olmayan şəxslərin zəruri biliyinə ehtiyac yarandıqda, məhkəmə ekspertizasını təyin etmiş orqanla və ya şəxslə razılaşdırılmaqla, onları ekspert qismində məhkəmə ekspertizasının aparılmasına cəlb etmək;

Ekspertə (ekspertlərə) onların hüquq və vəzifələrini izah etmək;

Ekspert bilə-bilə yalan rəy verməyə və rəy verməkdən imtina etməyə görə məsuliyyəti haqqında xəbərdar edir və bu barədə ondan məhkəmə-tibb ekspertizasını təyin etmiş orqana və ya şəxsə rəylə birlikdə göndərilməsi üçün müvafiq iltizam almaq;

Qanunvericilikdə nəzərdə tutulmuş qaydada məhkəmə-tibb ekspertizasının aparılması müddətini müəyyənləşdirir və onun gözlənilməsinə nəzarət edir;

Ekspertin müstəqilliyi prinsipinə əməl olunmaqla aparılan tədqiqatların tamlığı və keyfiyyəti üzərində nəzarət etmək;

Tədqiqatlar başa çatdıqdan sonra ekspertin rəyini tədqiqat obyektlərinə və iş üzrə materialların məhkəmə-tibb ekspertizasını təyin etmiş orqana və ya şəxsə göndərilməsini təmin etmək;

Bütün dövlət orqanlarında, idarələrində və təşkilatlarında birliyi təmsil etmək;

Öz səlahiyyəti çərçivəsində birliyin maliyyə fəaliyyətinə dair məsələləri həyata keçirmək;

Birliyin fəaliyyətinə dair əmr və sərəncamlar vermək;

Birliyin işçilərini işə qəbul və işdən azad edilməsini, ştatdankənar işçilərin müəyyən tapşırıqların icrasına cəlb olunmasını təmin etmək, əmək və icra intizamına əməl edilməsinə görə fərqlənmiş işçilərin mükafatlandırılmasını, habelə əmək və icra intizamının pozulmasına görə intizam məsuliyyətinə cəlb edilməsini həyata keçirmək;

Qanunvericiliyə uyğun olaraq digər hüquq və vəzifələri həyata keçirmək.

2. Birliyin işi haqqında məsələlərə baxılması və onların həlli üçün, həmçinin məhkəmə-tibbi və patoloji anatomiya xidmətlərinin fəaliyyətini müntəzəm təkmilləşdirmək və yaxşılaşdırmaqdan ötrü inzibati şura yaradılır. İnzibati şuraya Birliyin Baş direktoru, onun müavinləri, struktur şöbə və bölmələrinin rəhbərləri, həmkarlar təşkilatının nümayəndəsi və aparıcı mütəxəssislər daxil edilirlər.

3. Birliyin işi üzrə inzibati şuranın tərkibi Baş direktor tərəfindən təsdiq edilir. Birliyin Baş direktoru inzibati şuranın sədridir.

4. İnzibati şuranın qəbul etdiyi qərarlar Birlik üzrə əmrlər vasitəsilə həyata keçirilir.

5. İnzibati Şuranın nəzdində məhkəmə-tibbi və patoloji-anatomik xidmətlər üzrə metodik şura yaradılır və onun fəaliyyəti Baş direktor tərəfindən təsdiq edilmiş əsasnamə ilə həyata keçirilir.

6. Birliyin struktur bölmələri barədə Əsasnamə Birliyin Baş direktoru tərəfindən təsdiq edilir.

7 Baş direktorun xidməti sahələrə müvafiq olaraq məhkəmə-tibbi xidmət üzrə, patoloji anatomiya xidməti üzrə və təsərrüfat işləri üzrə müavinləri vardır. Birliyin Baş direktorunun müavinləri onun təqdimatına əsasən Azərbaycan Respublikasının Səhiyyə Naziri tərəfindən təyin olunurlar. Müavinlərin vəzifələrinin səlahiyyət bölgüsü Birliyin Baş direktoru tərəfindən müəyyən edilir.

8 Birliyin strukturu Birliyin Baş direktorunun təqdimatı əsasında Səhiyyə Naziri tərəfindən təsdiq edilir.

9 Birliyin ştat sayı və ştat cədvəli Səhiyyə Naziri tərəfindən təsdiq edilir.

3. Birliyin məqsəd və vəzifələri

Birliyin fəaliyyəti ədalət mühakiməsinin məqsəd və vəzifələrinə xidmət etməklə, insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması, qanunçuluğun təmin edilməsi, ekspertlərin müstəqilliyi, elm və texnikanın müasir nailiyyətlərindən istifadə etməklə həyata keçirilən tədqiqatların obyektivliyi, hərtərəfliliyi və tamlığı prinsiplərinə əsaslanır.

1. «Məhkəmə-tibbi ekspertiza və patoloji anatomiya» ETT Birliyinin əsas vəzifələri aşağıdakılardır:

1.1. Zorakı ölüm hallarında meyitlərin ekspertizası.

1.2. Zorakı ölümlərə şübhə olarkən və meyitin məhkəmə-tibb qaydasında müayinəsinin vacibliyini şərtləndirən digər hallarda meyitlərin məhkəmə-tibbi ekspertizası.

1.3. Sağlamlığa zərər vurmanın xarakterinin və ağırlıq dərəcəsinin, yaşın, cinsi vəziyyətlərin müəyyənləşdirilməsi, həmçinin məhkəmə təbabəti sahəsində bilik tələb edən digər məsələlərin həlli üçün canlı şəxslərin (zərərçəkən, təqsirləndirilən şəxs və digər şəxslər) ekspertizası.

1.4. Laborator müayinə üsullarının tətbiqi ilə maddi sübutların ekspertizası.

1.5. Cinayət və mülki iş materialları üzrə məhkəmə-tibbi ekspertiza.

1.6. Məhkəmə-tibb eksperti məhkəmə təbabətində mütəxəssis kimi ilkin və digər istintaq hərəkətlərinə cəlb olunur: hadisə yerində (meyit aşkar edilən yerdə meyitlərin müayinəsi zamanı) ekshumasiyada, istintaq eksperimentlərində, şahid ifadələrinin yerində yoxlanılmasında, müqayisəli tədqiqat üçün nümunə götürülməsində və s.

1.7. Məhkəmə təbabəti təcrübəsində yeni müayinə metodlarını vaxtında tətbiq etmək; keçirilən ekspertizaların keyfiyyətini yüksəltmək və onların icra müddətlərini qısaltmaq məqsədilə görülən işləri daim təkmilləşdirmək.

1.8 .Vətəndaşların ərizə və şikayətlərinə əsasən müalicə-profilaktika müəssisələrindən tibbi sənədləri tələb etmək və diaqnostika-müalicə işlərində buraxılan kobud səhvlərin aşkar edilməsi zamanı səhiyyə orqanları rəhbərlərini vaxtında xəbərdarlıq etmək, belə hallar üzrə kliniki məhkəmə-tibbi və kliniki anatomik konfranslar keçirmək.

1.9. Qəfləti ölüm, sənaye, küçə, məişət travmatizmi, zəhərlənmə və ölümün digər növləri üzrə məhkəmə-tibbi materialları təhlil edib səhiyyə orqanlarına profilaktik tədbirlərin işlənib hazırlanmasında kömək etmək.

1.10. Sənaye, küçə, məişət travmatizmi, zəhərlənmə, alkoqolizm, narkomaniya və digər aktual məsələlərin profilaktikası üzrə sanitar-maarif işləri aparmaq.

1.11. Səhiyyə Nazirliyinin əmr və xüsusi göstərişlərinə müvafiq olaraq kəskin yoluxucu və xüsusi təhlükəli xəstəlikləri aşkar etdikdə səhiyyə orqanlarını təcili xəbərdar etmək.

1.12. Mütəmadi olaraq həkimləri təkmilləşdirmə institutunun müvafiq kafedrasında və «Məhkəmə-tibbi ekspertiza və patoloji anatomiya» ETT Birliyində mütəxəssislərin qəbul olunmuş qaydada ixtisaslaşmasını və təkmilləşməsini təmin etmək.

1.13 .Sistematik olaraq işçilərin iş ixtisası səviyyəsinin yüksəldilməsi üzrə iş aparmaq.

2. Birlik məhkəmə-tibb ekspertizasının, kriminalistikanın və digər sahələrin elmi əsaslarını və yeni metodlarını hazırlamaq, elm və texnikanın müasir nailiyyətlərini nəzərə almaqla ekspert praktikasını

təkmilləşdirmək sahəsində təkliflər hazırlayır, məhkəmə-tibbi, tibbi kriminalistik, tibbi bioloji, məhkəmə-kimyəvi ekspertizaları aparır və rəylər verir, elmi əsərlərin nəşrini təşkil edir, işçilərin attestasiyasının keçirilməsini və kadr hazırlanmasını təşkil edir.

3. Elmi, elmi-pedaqoji kadrları və praktik Səhiyyə işçilərini məhkəmə-tibbi ekspertiza və patoloji anatomiya məsələləri üzrə hazırlamaq və dinləyicilərin bu sahədə təhsil almasına imkan yaratmaq, onları uyğun xidmət sahələri üzrə tibb elminin qabaqcıl nailiyyətləri ilə tanış etmək.

3.1. Məhkəmə-tibbi ekspertiza materialları üzrə elmi təcrübi işlərin aparılması (hadisələri həkim konfranslarında təhlil etmək, mətbuatda dərc etmək) istintaq sirrinin yayılmasına səbəb olmadıqda və ya müstəntiqin, prokurorun, məhkəmənin icazəsi olduqda ya da hökm qanuni qüvvəyə mindikdən sonra mümkündür.

4. Elmi-tədqiqat işləri nəticələrinin Səhiyyə təcrübəsində tətbiqini sürətləndirmək, tibb elminin qabaqcıl nailiyyətlərinin təbliğini təmin etmək.

5. Əhalinin sağlamlığının yüksək tibbi və sosial-iqtisadi göstəricilərinə nail olmaq məqsədilə təşkilati və metodoloji iş aparmaq.

6. Meyitlərin, canlı şəxslərin, maddi sübutların, cərrahiyyə və biopsiya materiallarının tədqiqi zamanı elm və texnikanın yeni nailiyyətlərini, patoloji anatomiya və məhkəmə təbabətinin təcrübəsinə tətbiq etmək.

7. Yeni müasir tədqiqat üsulları işləmək, sınaqdan keçirmək, təcrübədə tətbiq etmək.

8. İdarəetmənin, planlaşdırmanın, maliyyələşdirmənin, mühasib qeyydiyatının, hesabat işlərinin, kargüzarlığın, maddi və mənəvi həvəsləndirmənin, əməyin elmi təşkilinin təkmilləşdirilməsi üzrə tədbirlər işləmək və həyata keçirmək.

9. Birliyin bəzi sahələrini tədricən özünümaliyyələşdirmə prinsipi üzrə fəaliyyəti üçün tədbirlər həyata keçirmək.

4. Ekspertizaların keçirilməsi qaydaları haqqında cinayət-prosessual qanunvericiliyinin əsas müddəaları, məhkəmə-tibb ekspertizasının təşkili və aparılması qaydaları

1. Məhkəmə-tibb ekspertizası təhqiqatı aparan şəxsin, müstəntiqin, prokurorun məhkəmənin qərarı əsasında keçirilir.

Təhqiqat orqanlarının, müstəntiqin, prokurorun, məhkəmənin əsaslandırılmış yazılı sorğusuna əsasən cinayət işi başlamaq üçün əsas ola biləcək əlamətləri aşkara çıxarmaq məqsədilə məhkəmə-tibbi tədqiqatlar və məhkəmə-tibbi müayinələr aparıla bilir.

2. Məhkəmə-tibbi ekspertiza müəssisələri müqavilə əsasında idarə və təşkilatların göndərişi, vətəndaşların ərizəsi ilə məhkəmə-tibbi müayinələr keçirə bilər, əhaliyə onun səlahiyyətinə aid olan xidmətlər göstərə bilər.

3. Birliyin maddi texniki bazasını gücləndirmək və işçilərin sosial şəraitlərini yaxşılaşdırmaq məqsədilə məhkəmə-tibbi xidmətin bəzi sahələri pullu xidmət göstərə bilər.

4. Travmanın növündən və törənmə mənşəyindən asılı olmayaraq səhiyyə müəssisələri travma ilə stasionara daxil olan, ambulatoriyaya müraciət edən hər bir vətəndaş barədə ərazi məhkəmə-tibbi ekspertiza şöbələrinə dərhal xəbər verməlidir. Məhkəmə-tibb ekspertləri həmin şəxsləri müayinə edir və tibbi sənədlərdə müvafiq qeydlər edir.

5. Məhkəmə-tibb ekspertizasının ayrı-ayrı növlərinin keçirilmə qaydaları Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş xüsusi təlimatlar, metodik göstərişlər və qaydalar ilə müəyyən olunur.

6. Cinayət prosessual və mülki prosessual məcəllələr ilkin, əlavə və təkrar ekspertizaların keçirilməsini nəzərdə tutur.

7. Məhkəmə-tibb ekspertizası bir və ya bir neçə ekspert, lazım olduqda (ekspertizanın növündən asılı olaraq) müxtəlif ixtisaslı ekspertlər tərəfindən aparılır. Ekspertizada bir neçə ekspertin iştirakına lüzum ekspertizanın mürəkkəbliyi və xarakteri ilə müəyyən edilir.

8. Ekspertlər qrupunun heyəti məhkəmə-tibb ekspertizasını təyin etmiş müstəntiq tərəfindən müəyyənləşdirilir. Əgər ekspertlər

müstəntiq və ya məhkəmə tərəfindən müəyyənləşdirilməmişsə, bunu Birliyin Baş direktoru həyata keçirir.

8.1. Məhkəmə-tibb ekspertizasını aparacaq ekspert (ekspertlər qrupu) ekspertizanı təyin etmiş istintaq, məhkəmə orqanları tərəfindən əvvəlcədən qərar və qərardadda göstərilibsə, ekspertizanın növündən, mürəkkəbliyindən və ekspertizanı aparacaq ekspertin (ekspertlər qrupunun) peşəkarlıq səviyyəsindən asılı olaraq, Birliyin Baş direktoru tərəfindən ekspertiza, ekspertizanı təyin etmiş şəxsə məlumat verməklə Birliyin başqa ekspert və yaxud ekspertlər qrupuna həvalə edilə bilər.

8.2. Məhkəmə-tibbi ekspertizaların icrası zamanı zərurət yaranan hallarda (ekspertizanın icrası zamanı şikayət və yaxud da şübhə doğuran məlumatlar daxil olarsa, eləcə də icra edilən ekspertizanın növündən, mürəkkəbliyindən asılı olaraq ekspertizanı aparan ekspertin və yaxud ekspertlər qrupunun peşəkarlıq səviyyəsi aşağı olarsa və s.) Birliyin Baş direktoru tərəfindən həmin ekspertizanın icrası icraçı ekspertdən (şöbədən, bölmədən) götürülüb daha təcrübəli və yüksək ixtisaslı ekspertə (başqa şöbə, bölmələrə) həvalə edilə bilər. Eyni zamanda şöbə və bölmələrdən istənilən məhkəmə-tibbi sənədlər, preparatlar və digər materiallar tələb edilə bilər.

9. Məhkəmə-tibbi ekspertizaların aşağıda göstərilən növləri keçirilərkən bir neçə nəfər ekspertin, lazım olduqda isə müxtəlif ixtisaslı ekspertlərin iştirakı mütləqdir:

- tibb işçilərinin peşə fəaliyyəti ilə əlaqədar ekspertizalar;
- cinayət işləri və mülki işlər üzrə təkrari ekspertizalar;
- əmək qabiliyyətinin dayanıqlı itirilməsinin müəyyən edilməsi üzrə ekspertizalar;
- xüsusi ilə mürəkkəb olan ilkin ekspertizalar;
- dövlət əhəmiyyətli ilkin ekspertizalar.

a) tibb işçilərinin peşə fəaliyyəti ilə əlaqədar məhkəmə-tibbi ekspertizalar, həmçinin əmək qabiliyyətinin dayanıqlı itirilib-itirilməməyinin müəyyən edilməsi üzrə və təkrari məhkəmə-tibbi ekspertizalar yalnız Bakı şəhərində Birliyin müvafiq şöbələrində aparılmalıdır.

10. Məhkəmə-tibb ekspertizası keçirilən zaman ekspertizanı təyin etmiş müstəntiq qanuna görə iştirak edə bilər. Bu halda ekspertizanın keçirilmə vaxtını müstəntiqə ekspert xəbər verir. Ekspertiza zamanı müayinə olunan şəxsin paltarlarının soyundurulmasına zərurət yaranırsa, müstəntiq əks cinsdən olan şəxsin ekspertizasında iştirak etmir.

10.1. Təqsirləndirilən şəxs və digər şəxslər məhkəmə-tibb ekspertizasının keçirilməsində yalnız ekspertizanı təyin etmiş müstəntiqin icazəsi ilə iştirak edə bilərlər. Tədrislə bağlı tələbələr yalnız canlı şəxslərin və meyitlərin məhkəmə-tibbi müayinəsində iştirak edə bilərlər. Bu zaman ekspertizanı təyin etmiş şəxsin və Birliyin Baş direktorunun icazəsi ilə yanaşı müayinə olunanların və yaxud da onların yaxınlarının razılığı da nəzərə alınmalıdır.

10.2. Müalicə-profilaktika müəssisələrinin həkimləri meyitin ekspertizasına müstəntiqin icazəsi ilə, meyitin məhkəmə-tibbi müayinəsinə isə Birliyin rəhbərliyinin icazəsi ilə buraxılırlar.

11. Ekspertiza Birliyin bazasında keçirilmirsə, müalicə-profilaktika müəssisəsinin rəhbərliyi ekspertləri lazımi şəraitlə təmin edir, onlara laboratoriya tədqiqatı üçün nəzərdə tutulmuş şüşə qablar, qablaşdırıcı və digər materiallar verir, lazımi köməklik göstərirlər. Təhqiqat orqanları, müstəntiq, prokuror həmin obyektlərin məhkəmə-tibbi laborator müayinələri üçün müvafiq şöbələrə göndərilməsini təmin edirlər.

Təhqiqat orqanları, müstəntiq, prokuror, məhkəmə məhkəmə-tibb ekspertlərini ilkin və digər istintaq hərəkətlərində iştirak etməyə dəvət etdikdə onların nəqliyyat vasitəsilə təmin olunmasına köməklik edirlər.

12. Təhqiqat orqanlarının, müstəntiqin, prokurorun və məhkəmənin tələbi ilə məhkəmə-tibb ekspertləri ilkin və digər istintaq hərəkətlərinə cəlb oluna bilərlər: hadisə yerinin müayinəsinə, ekshumasiyaya, istintaq eksperimentlərinin keçirilməsinə və s.

12.1. İlkin və digər istintaq hərəkətlərində iştirak edərkən məhkəmə-tibb eksperti məhkəmə-tibb sahəsində mütəxəssis kimi fəaliyyət göstərməklə birlikdə maddi sübutların aşkar olunmasında, götürülməsində müstəntiqə kömək edir, onun diqqətini maddi

sübutların aşkar olunması və dəqiqləşdirilməsinə cəlb edir, bununla əlaqədar izahatlar verir, protokolla tanış olub onu imzalayır.

13. Məhkəmə-tibb eksperti təhqiqat orqanlarının, müstəntiqin, prokurorun, məhkəmənin çağırışı ilə ekspertiza keçirmək, ilkin və digər istintaq işlərində iştirak etmək üçün mütləq gəlməlidir. Ekspertiza keçirməkdən, ilkin və digər istintaq hərəkətlərində iştirak etməkdən boyun qaçırmasına və ya üzrlü səbəb olmadan imtina etməsinə görə, həmçinin bilə-bilə yalan rəy verməsinə görə məhkəmə-tibb eksperti qanunla müəyyən olunmuş qaydada məsuliyyət daşıyır.

13.1. Məhkəmə-tibb eksperti bir qayda olaraq öz vəzifəsini inzibati ərazi bölgüsünə uyğun icra edir. Təbii fəlakət, texnoloji qəza, fövqəladə hal və şöbələrdə ekspert işinin miqdarından (azlığından və çoxluğundan) asılı olaraq yalnız Birliyin Baş direktorunun əmri ilə məhkəmə-tibb eksperti başqa yerlərə göndərilə bilər.

14. Ekspertizaların keçirilməsində qanunla müəyyən edilmiş ekspertin iştirak etməsini istisna edən hallar Azərbaycan Respublikası CPM-in müvafiq maddələri ilə tənzimlənir.

15. Ekspertiza keçirərkən təhqiqat aparan şəxsin, müstəntiqin, prokurorun qərarında və ya məhkəmənin qərardadında qoyulmuş suallara cavab vermək üçün təqdim olunmuş sualların dəqiqləşdirilməsinə və aydınlaşdırılmasına zərurət yaransa, məhkəmə-tibb eksperti bu haqda şifahi və ya yazılı xahiş edə bilər, eləcə də o, biliyindən kənar, yaxud səlahiyyətinə daxil olmayan suallara cavab verməkdən imtina edə bilər.

15.1. Əgər ekspertiza zamanı məhkəmə-tibb eksperti iş üçün əhəmiyyət daşıyan, lakin haqqında sual qoyulmamış hallarla qarşılaşarsa, yekun rəyində bunları göstərməyə hüququ vardır.

16. Ekspertiza mürəkkəb olarsa, xüsusi məsələlərin həllinə lüzum yaranarsa, məhkəmə-tibb eksperti ekspertizanı təyin etmiş orqan qarşısında müvafiq mütəxəssislərin cəlb olunması məsələsini qaldıra bilər.

17. Məhkəmə-tibb eksperti apardığı ekspertizaya dair iş materiallarını zəruri hallarda tələb etməlidir.

17.1. Təhqiqat orqanları, müstəntiq, prokuror yaxud məhkəmə tərəfindən təqdim olunmuş materiallar qarşıya qoyulan sualların həlli üçün kifayət etməzsə, ekspert ekspertiza keçirmək üçün məhz hansı material və sənədlərin lazım olduğunu bildirir. Tələb olunan materiallar təqdim edilmədiyi halda qanunla nəzərdə tutulan qaydada ekspert ekspertizanı təyin etmiş orqana rəy verməyin qeyri-mümkünlüyü barədə yazılı surətdə xəbər verir.

17.2. Əgər ekspert yalnız ayrı-ayrı məsələlər üzrə rəy vermək imkanına malikdirsə, bunu «Ekspert rəy»ində və «Məhkəmə-tibbi müayinə akt»ında göstərir.

18. Təhqiqat aparan şəxsin, müstəntiqin, prokurorun və məhkəmənin icazəsi ilə məhkəmə-tibb eksperti dindirmədə, digər istintaq hərəkətlərində və məhkəmə iclasında iştirak edib dindirilənlərə bilavasitə ekspertizaya aid suallar verə bilər.

19. Məhkəmə-tibb ekspertinin ekspertizanın gedişində iş üzrə ona məlum olmuş material və məlumatları yaymağa ixtiyarı yoxdur.

20. Məhkəmə-tibb ekspertizasının gedişində ekspert qarşısında qoyulmuş və ya şəxsən onun lazım bildiyi və qərarda göstərilməmiş suallara cavab verməkdən ötrü məhkəmə-tibbi laborator müayinələrinin keçirilməsinə lüzum meydana çıxarsa o, təhqiqat və istintaq orqanlarının qərarı, yazılı təklifi və köməkliyi əsasında zəruri obyektləri Birliyin müvafiq şöbələrinə göndərir. Bu zaman məhkəmə-tibb eksperti tərtib etdiyi müvafiq göndəriş vərəqələrində işin qısa məzmununu, ekspertiza gedişində aşkar edilmiş obyektiv məlumatları və laboratoriya müayinəsinin məqsədini göstərir.

21. Məhkəmə-tibb ekspertizasına və yaxud məhkəmə-tibb müayinəsinə cəlb olunan şəxsi başqa səhiyyə müəssisəsində mütəxəssis həkimlə məsləhətləşməyə göndərmək lüzumu meydana çıxarsa, həmin şəxs (müayinə olunan) şöbə rəisinin, yaxud da məhkəmə-tibb ekspertinin imzaladığı göndəriş və ya məktubla göndərilir.

22. Məhkəmə-tibb eksperti ekspertizanın gedişində aşkar olunan və iş üçün əhəmiyyət kəsb edən yeni məlumatları ekspertiza başa çatmamışdan əvvəl ekspertizanı təyin etmiş orqanların nəzərinə çatdırmalıdır.

23. Məhkəmə-tibb ekspertizası prosesində ekspert elə obyektlər aşkar edə bilər ki, bunlar öz xarakterlərinə görə maddi sübut kimi başqa növ ekspertiza üçün mühüm tədqiqat obyekti ola bilər. Bu obyektlər «Ekspert rəy»ində və «Məhkəmə-tibbi müayinə akt»ında təsvir olunmalı və ekspertizanı təyin edən şəxsə verilməlidir.

24. Məhkəmə-tibbi müayinə obyektləri, o cümlədən maddi sübutlar ciddi qeydiyyatdan keçməli və mühafizə olunmalıdırlar. Şöbə rəisi və ekspert obyektlərin qorunması üçün onlardan asılı olan bütün lazımi tədbirləri görməlidir. Müayinə obyektlərinin və maddi sübutların mühafizəsi və sonradan məhv edilməsi xüsusi qaydalarla müəyyənləşdirilir.

25. Məhkəmə-tibbi laborator müayinələri keçirmək üçün meyitdən hər-hansı bir hissə, daxili üzv, toxumalar, qan, sidik və başqa biomateriallar götürülür.

25.1. Məhkəmə-tibbi diaqnostikanın düzgünlüyünə əngəl törətməmək şərti ilə meyitdən müalicə və elmi məqsədlər üçün toxumalar, üzvlər və qan götürülməsinə «İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında» Azərbaycan Respublikasının qanunun müvafiq müddəalarına əsasən razılıq verilir. Bu haqda «Ekspert rəy»ində və «Məhkəmə-tibbi müayinə akt»ında müvafiq qeydiyyat aparılır, məhz nəyin, hansı məqsədlə götürüldüyü və hara göndərildiyi göstərilir.

26. Məhkəmə-tibb eksperti tərtib etdiyi rəyi izah etməkdən və onun istintaq zərurəti ilə əlaqədar olaraq tamamlamaqdan ötrü müstəntiq tərəfindən qanunvericilikdə nəzərdə tutulan qaydada dindirilə bilər.

27. Məhkəmə-tibb eksperti cinayət işlərinə və mülki işlərə baxılan zaman rəy verməkdən ötrü, ilkin məhkəmə-tibbi ekspert müayinəsi üzrə dindirilmə üçün və eləcə də məhkəmə istintaqında ekspertiza keçirmək məqsədilə məhkəməyə çağırıla bilər.

28. Ekspertiza məhkəmədə keçirilərkən, məhkəmə-tibb ekspertinin hüquq və vəzifələrini, onun daşıdığı məsuliyyəti, ekspertə məhkəmə iclasına sədrlik edən şəxs elan edir.

Məhkəməyə çağırılmış məhkəmə-tibb eksperti CPM-də və MPM-də nəzərdə tutulan qaydada məhkəmə iclaslarında iştirak edir. O,

ekspertizaya aid olan iş materialları ilə tanış olmaq, məhkəmə-tibb ekspertizasının rəyinə izah vermək və ekspertizanın aparılması ilə əlaqədar zərərçəkənə, təqsirləndirilən şəxsə və şahidlərə sual vermək hüququna malikdir.

29. Məhkəmə-tibb ekspertizası məhkəmədə aparılarkən, rəy ekspert tərəfindən yazılı tərtib olunur, məhkəmə iclasında ucadan oxunur və məhkəməyə təqdim edilir. Rəyin surəti məhkəmə-tibbi ekspertiza idarəsinin arxivində saxlanılan müvafiq ekspertiza sənədlərinə əlavə edilir.

29.1. Məhkəmə-tibb eksperti məhkəmədə tərtib etdiyi rəyə onun səlahiyyətinə daxil olan, lakin haqqında sual qoyulmamış hallar (xüsusatlar) üzrə də nəticəyə gələ bilər.

30. Əgər ekspertizada bir neçə ekspert iştirak edirsə, onlara öz aralarında məsləhətləşmək imkanı verilməlidir. Ekspertlər yekdil nəticəyə gəlirlərsə, ekspertizanın nəticəsi bütün ekspertlər tərəfindən imzalanır. Ekspertlər arasında fikir ayrılığı olduqda isə onlar ayrı-ayrı nəticələr tərtib edirlər.

5. Məhkəmə-tibb eksperti rəyinin tərtib olunması

1. Bütün məhkəmə-tibbi ekspertizaların, o cümlədən məhkəmə-kimyəvi ekspertizasının nəticələri "Dövlət Məhkəmə Ekspertizası Fəaliyyəti Haqqında" qanuna CPM-ə və MPM-ə müvafiq surətdə «Ekspert rəyi» və ya «Məhkəmə-tibbi (məhkəmə-kimya) müayinə aktı» adlanan sənədlərlə tərtib olunur. Hər iki sənəd eyni quruluşa malikdir. Onlar aşağıdakı bölmələrdən ibarətdir: iş haqqında qısa məlumat olan giriş hissə, müayinə hissəsi, nəticə (əgər «məhkəmə-tibbi müayinə aktı» tərtib olunursa - rəy).

2. Giriş hissədə aşağıdakılar göstərilməlidir:

a) ekspertizanın keçirilmə vaxtı və yeri;

b) ekspert tədqiqatı (müayinəsi) üçün əhəmiyyətli olan ekspertiza şəraiti (işıq, havanın temperaturu və s);

v) ekspertizanın keçirilməsinə əsas olan qərar və yaxud qərardad;

q) ekspertin familiyası, adı, atasının adı, vəzifəsi, ixtisası, təhsili, iş təcrübəsi, ixtisas dərəcəsi, elmi dərəcəsi, elmi adı;

d) meyitlərin ekspertizasında mərhumun familiyası, adı, atasının adı, yaşı; zərərçəkənlərin, müttəhimlərin və başqa şəxslərin ekspertizasında familiyası, adı, atasının adı, yaşı, yaşayış yeri, şəxsiyyətini təsdiq edən sənəd;

e) iş materialları üzrə aparılan ekspertizada və maddi sübutların ekspertizasında cinayət işinin, yaxud mülki işin adı və nömrəsi, cildlərin sayı, işdəki vərəqələrin sayı, ekspertizaya daxil olmuş obyekt və nümunələrin siyahısı;

ə) ekspertiza keçirilərkən iştirak edən şəxslər;

j)məhkəmə-tibb ekspertinin prosessual hüquqları, vəzifələri və məsuliyyəti haqqında izahat verildiyi barədə iltizam;

z) ekspertiza qarşısında həll olunması üçün qoyulmuş suallar.

3. İş haqqında məlumat bölməsində ekspert müayinəsi zamanı ona lazım olan məlumatlar; meyit ekspertizasında nəticə tərtib etdikdə istintaq məlumatları və tibbi sənədlərin məzmunu; zərərçəkənlərin, təqsirləndirilən şəxs və digər şəxslərin ekspertizasında tibbi sorğu və şikayətlər (uşaqların dindirilməsi valideynlərinin və ya müəllim-tərbiyəçilərin iştirakı ilə keçirilir), istintaq məlumatları və tibbi sənədlərin məzmunu; maddi sübutların ekspertizasında istintaq məlumatları və tibbi sənədlərin məzmunu qeyd edilməlidir.

4. Müayinə hissəsində müayinə prosesinin geniş təfsilatı və bu zaman aşkar edilmiş faktiki məlumatlar qeyd edilməlidir. Bura tətbiq olunmuş tədqiqat üsulları və obyektiv əksetdirmə cədvəlləri (foto-rentgen şəkillər, zədələrin işarə olunduğu sxemlər və s.) daxil edilir. Müayinə hissəsinin struktur quruluşu aparılan ekspertizanın növü ilə müəyyənləşdirilir. Bu hissə xüsusilə aşağıdakıları əhatə etməlidir:

4.1. Meyitin ekspertizasında meyitin paltarı və xarici müayinəsi haqqında məlumatlar, boşluqların, üzv və toxumaların daxili müayinəsi, digər ekspertizalar üçün meyitdən götürülmüş və müstəntiqə təhvil verilmiş obyektlər; laboratoriya müayinəsinə göndərilmiş obyektlərin siyahısı; transplantasiya üçün, eləcə də elmi və tədris məqsədlərlə götürülmüş toxuma və üzvlərin siyahısı

(edilmiş müdaxilələr təsvir olunur, nə götürüldüyü, hansı müəssisəyə və kimə verildiyi göstərilir); laborator müayinələrin (akt və rəy şəklində) nəticələri və ekspert tərəfindən alındığı tarix.

4.2. Zərərçəkən, təqsirləndirilən şəxs və başqa şəxslərin ekspertizasında ekspert müayinəsi zamanı aşkar olunmuş obyektiv tibbi məlumatlar, müayinə olunanın ekspert tərəfindən başqa ixtisas həkimlərinə, rentgenoloji və digər müayinələrə göndərildiyi, həmçinin bu müayinələrin nəticələri barədə; paltar tədqiq edildikdə onun, eləcə də onda olan ləkə və zədələrin təsviri; laboratoriya tədqiqatına göndərilmiş obyektlərin (yaxma, tampon, qan nümunəsi və sair) siyahısı, eləcə də bu tədqiqatların nəticələri; əlavə müayinə və tədqiqatların keçirilmə tarixləri və onların nəticələrinin alındığı tarixi.

4.3. Maddi sübutların ekspertizasında maddi sübut və onlardakı izlərin əsaslı təsviri, tətbiq olunmuş tədqiqat üsullarının və ayrılıqda hər bir tədqiqat növü üzrə alınmış nəticələrin, analiz prosesində istifadə edilmiş reaktivlərin, zərdabların, aparat və avadanlıqların göstərilməsi. Müayinə hissəsində həmçinin müqayisə üçün təqdim olunmuş nümunələrin müayinəsi təsvir edilir.

4.4. Cinayət və mülki iş materialları üzrə ekspertizada ekspert təhlili üçün sonradan vacib olan məlumatların əsaslı təsviri.

4.5. Tibb işçilərinin peşə fəaliyyəti barədə olan ekspertizalarda iş üçün əhəmiyyət kəsb edən tibbi və digər sənədlərin öyrənildiyi zaman alınmış məlumatlar.

5. Giriş hissə işin təfsilatı və müayinə hissə ilə birlikdə «Ekspert rəyi»nin və yaxud «Məhkəmə-tibbi (məhkəmə-kimya) müayinə aktı»nın protokolunu təşkil edir. Protokolu məhkəmə-tibb eksperti və giriş hissədə göstərilən şəxslər imzalayır.

6. «Ekspert rəyi»ndəki nəticə və «Məhkəmə-tibbi (məhkəmə-kimya) müayinə aktı»ndakı rəy - ekspertin apardığı obyektiv müayinələr əsasında ifadə olunmuş elmi əsaslı fikridir.

6.1. Nəticələr (rəy) ekspertiza prosesində işin ekspert təhlili və tibb və digər elmlərin məlumatları əsasında müəyyənləşdirilmiş obyektiv məlumatlar üzərində qurulur. Göstərilən obyektiv məlumatlar protokolun giriş və müayinə hissələrindən əldə edilir.

6.2. Nəticələr (rəy) ekspert qarşısında qoyulmuş suallara müvafiq surətdə tərtib olunur. Onlarda, həmçinin ekspertiza zamanı müəyyən edilmiş əhəmiyyətli obyektiv məlumatlara ekspert qiyməti də olmalıdır. Nəticə (rəy) aydın, səlis tərtib edilməklə xüsusi tibb terminlərindən mümkün qədər az istifadə edilməlidir. Hər bir nəticə üzrə ekspertin fikri obyektiv məlumatlarla əsaslandırılmalıdır.

7. Ekspert rəyinin və ya məhkəmə-tibbi müayinə aktının giriş hissələri bilavasitə ekspertiza prosesi zamanı tərtib olunur. Ekspert rəyləri və məhkəmə-tibbi müayinə aktları bütün zəruri tədqiqatlar başa çatdıqdan sonra qısa müddətdə tərtib edilməli və tarixi göstərilməlidir.

8. Ekspert rəyi və məhkəmə-tibbi müayinə aktı azı 2 nüsxədə tərtib olunur, bir nüsxə təhqiqat orqanlarına, müstəntiqə, prokurora, məhkəməyə verilir, ikinci nüsxə isə «MTE və PA» ETT Birliyinin və ya Birliyin rayon, şəhər şöbələrinin arxivində saxlanılır.

8.1 Aparılmış tədqiqatlar əsasında əldə edilmiş nəticələr nəzərə alınmaqla ekspert öz adından yazılı rəy verir və onu imzalayır. Məhkəmə ekspertinin (ekspertlərinin) imzaları yalnız məhkəmə ekspertizası idarəsinin möhürü ilə təsdiq olunur.

9. Ekspert rəyi və məhkəmə-tibbi müayinə aktı bütün ekspert tədqiqatları başa çatdıqdan sonra 3 gündən gec olmayaraq ekspertizanı təyin etmiş təhqiqat orqanları, müstəntiq, prokuror və məhkəmə tərəfindən götürülməsi üçün Birliyin və yaxud müvafiq şöbələrin dəftərxanasına verilir.

9.1. Ekspertiza müddəti onların növü, ekspert tədqiqatlarının həcmi və xarakteri ilə müəyyənləşdirilir. Maddi sübutların və meyitlərin ekspertizaları icra müddətinə görə ən uzun müddətlidirlər. Bu da müxtəlif laboratoriya tədqiqatlarının keçirilməsi ilə əlaqədardır. Lakin bu ekspertizalar da (xüsusi mürəkkəb ekspertizalar istisna olunmaqla) təhqiqat orqanlarından, müstəntiqdən, prokurordan, bütün lazımi materiallar alındıqdan sonra ən geci 1 ay müddətində icra edilməlidir.

9.2. Göstərilən müddət pozulduqda məhkəmə-tibb eksperti bu gecikmənin səbəbini ekspertizanı təyin etmiş orqanlara və Birliyin Baş direktoruna izah etməlidir.

10. Ekspert rəyini və məhkəmə-tibbi müayinə aktını müxtəlif qısa arayış və çıxarışlarla əvəz etmək, həmçinin yuxarıda göstərilən məhkəmə-tibbi sənədləri tərtib edərkən təsdiq olunmamış forma və blanklardan istifadə etmək qadağandır.

11. Təhqiqat orqanlarının, müstəntiqin, prokurorun, məhkəmənin yazılı göndərişinə əsasən məhkəmə-tibb ekspertizası aparılarkən, həmçinin məhkəmə-tibb ekspertləri tərəfindən göndərilmiş obyektlərin laboratoriya tədqiqatı keçirilərkən «Məhkəmə-tibbi tədqiqat aktı» və ya «Məhkəmə-tibbi müayinə aktı» tərtib olunur.

Birliyin yaradılması və ləğv edilməsi

4. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin «Məhkəmə-tibbi ekspertiza və patoloji anatomiya» birliyinin yaradılması və ləğv edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

3. Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının qanunu

Maddə 45 Məhkəmə-tibb ekspertizası

Məhkəmə-tibb ekspertizası qanunvericilikdə müəyyən edilmiş qaydada təyin edilir və müvafiq icra hakimiyyəti orqanının xüsusi tibbi ekspertiza müəssisəsində aparılır. Vətəndaşın, yaxud onun qanuni nümayəndəsinin ekspertizada iştirak etmək məqsədilə müvafiq mütəxəssisin onun razılığı ilə ekspert komissiyasına əlavə olaraq daxil olması üçün ekspertizanı təyin edən təşkilat qarşısında vəsatət qaldırmaq hüququ vardır. Məhkəmə-tibb ekspertizasının təşkili və aparılması qaydaları qanunvericilikdə müəyyən edilir. Vətəndaş və ya onun qanuni nümayəndəsi məhkəmə-tibb ekspertizası aparan müəssisənin rəyi ilə razılaşmadıqda qanun-vericilikdə müəyyən edilmiş qaydada məhkəməyə müraciət edə bilər.

4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsindən çıxarışlar

Maddə 96. Mütəxəssis

96.1. Mütəxəssis cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında istintaq və ya digər prosessual hərəkətlərin aparılmasında elm, texnika, incəsənət və digər peşə sahəsindəki xüsusi bilik və bacarığından istifadə edərək kömək göstərmək üçün cinayət prosesini həyata keçirən orqan tərəfindən təyin edilmiş şəxsdir. Yetkinlik yaşına çatmamış zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxsin, habelə şahidin dindirilməsində iştirak etmiş müəllim mütəxəssis hesab olunur. Mütəxəssis cinayət prosesi iştirakçılarının təklif etdikləri şəxslər sırasından təyin edilə bilər.

96.2. Mütəxəssis cinayət prosesini həyata keçirən orqana zəruri kömək göstərilməsi üçün kifayət qədər biliyə və bacarığa malik olmalıdır.

96.3. Şəxs cinayət prosesinin hüquqi məsələləri üzrə mütəxəssis qismində təyin oluna və ya digər formada cəlb edilə bilməz. Mütəxəssisin ifadə etdiyi fikir ekspert rəyini əvəz etmir.

96.4. Mütəxəssis bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

96.4.1. zəruri kömək göstərilməsi üçün cinayət prosesini həyata keçirən orqanın çağırışına gəlmək;

96.4.2. cinayət prosesini həyata keçirən orqana öz xüsusi ixtisasını təsdiq edən sənədləri təqdim etmək; zəruri kömək göstərilməsi qabiliyyəti olduğunu düzgün qiymətləndirmək;

96.4.3. cinayət prosesini həyata keçirən orqana peşə təcrübəsi və cinayət prosesində iştirak edən şəxslərlə münasibəti barədə məlumat vermək;

96.4.4. köməyinə zərurət olduğu bütün müddət ərzində istintaq və ya digər prosessual hərəkətlərin keçirildiyi yerdə, məhkəmənin iclas zalında olmaq və qeyd edilən hərəkətlərin keçirildiyi yeri həmin hərəkətləri keçirən şəxsin icazəsi olmadan, məhkəmə iclası zalını isə məhkəmə iclasında sədrlik edənin icazəsi olmadan tərk etməmək;

96.4.5. istintaq və ya digər prosessual hərəkətləri həyata keçirən şəxsə kömək məqsədi ilə sənədlərin və əşyaların aşkar edilməsi, möhkəmləndirilməsi, götürülməsi, texniki vasitələrdən və kompüter proqramlarından istifadə edilməsi, iş materiallarının tədqiq edilməsi, ekspert qarşısında suallar qoyulması üçün öz bacarığından və biliyindən istifadə edərək, cinayət prosesini həyata keçirən şəxsə, orqana, məhkəmə iclasında iştirak edən cinayət prosesi tərəflərinə peşəsinə aid sualları və hərəkətləri izah etmək;

96.4.6. təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmə iclasında sədrlik edənin göstərişlərinə tabe olmaq;

96.4.7. məhkəmə iclasında qaydaya riayət etmək;

96.4.8. onun iştirakı ilə keçirilmiş hərəkətlərin gedişinin, məzmununun və nəticələrinin protokolda tam və düzgün yazılmasını öz imzası ilə təsdiq etmək;

96.4.9. cinayət prosesini həyata keçirən orqanın icazəsi olmadan onun iştirakı ilə keçirilmiş istintaq və ya digər prosessual hərəkətlərə və aşkar edilmiş hallara dair məlumatları, habelə qapalı məhkəmə iclasının məlumatlarını yaymamaq; ona məlum olan şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və ya qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamaq;

96.4.10. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

96.5. Mütəxəssisin öz vəzifələrini icra etməməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

96.6. Mütəxəssis bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı hüquqları həyata keçirir:

96.6.1. cinayət prosesini həyata keçirən orqanın icazəsi ilə öz vəzifələrini daha yaxşı icra etmək məqsədi ilə işin materialları ilə tanış olmaq, cinayət prosesinin iştirakçılarına suallar vermək;

96.6.2. cinayət prosesinin iştirakçılarının diqqətini sənədlərin və əşyaların aşkar edilib möhkəmləndirilməsinə və götürülməsinə, texniki vasitələrin və kompüter proqramlarının istifadəsinə, iş materiallarının tədqiqinə, ekspert qarşısında sualların qoyulmasına, həmçinin öz peşəsinə aid olan sualların məzmununa yönəltmək;

96.6.3. əşyaların və sənədlərin aşkar edilməsi, möhkəmləndirilməsi və götürülməsi, texniki vasitələrdən və kompüter proqramlarından istifadə olunması, iş materiallarının tədqiqi, habelə ekspert qarşısında suallar qoyulması ilə əlaqədar protokola daxil edilməli qeydlər vermək;

96.6.4. iştirak etdiyi istintaq və ya digər prosessual hərəkətlərin protokolu ilə, habelə məhkəmə iclası protokolunun müvafiq hissəsi ilə tanış olmaq, bu hərəkətlərin gedişini, məzmununu və nəticələrini əks etdirən yazıların tamlığına və düzgünlüyünə dair protokola daxil edilməli qeydlər vermək;

96.6.5. cinayət prosesi zamanı sərf etdiyi xərclərin ödənilməsinə və cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri nəticəsində ona vurulmuş ziyana görə kompensasiya almaq;

96.6.6. yerinə yetirdiyi işə görə haqq almaq;

96.6.7. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

Maddə 97. Ekspert

97.1. Ekspert elm, texnika, incəsənət və digər peşə sahəsində xüsusi biliklərdən istifadə etməklə rəy verməyə qadir olan cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında materialların tədqiqinin aparılması üçün cinayət prosesini həyata keçirən orqan və ya onun tələbi ilə ekspert müəssisəsinin rəhbərliyi tərəfindən təyin edilmiş şəxsdir. Ekspert cinayət prosesi iştirakçılarının təklif etdikləri şəxslər sırasından təyin edilə və ya müdafiə tərəfindən dəvət oluna bilər.

97.2.Ekspert qarşısına qoyulmuş suallar üzrə rəy vermək üçün kifayət qədər elm, texnika, incəsənət və digər peşə sahələrinə aid xüsusi biliklərə malik olmalıdır.

97.3. Şəxs cinayət prosesinin hüquqi məsələləri üzrə ekspert qismində təyin oluna və ya digər formada cəlb edilə bilməz.

97.4. Ekspert bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

97.4.1. qarşısına qoyulan suallara dair əsaslı və obyektiv rəy vermək; düzgünlüyü özü tərəfindən yoxlanılmamış iş materiallarının

tədqiqi əsasında gəldiyi şəxsi nəticələrini, habelə kompüter proqramından və məlumat materiallarından istifadə etməklə əldə etdiyi nəticələri rəydə bir-birindən dəqiq ayırmaq;

97.4.2. qarşısına qoyulan suallar xüsusi biliklərindən kənara çıxırsa və ya təqdim olunmuş materiallar qoyulmuş suallara cavab verilməsi üçün kifayət deyilsə, rəy verməkdən imtina etmək; yuxarıda qeyd olunmuş hallara görə rəy verilməsinin mümkün olmadığı nəticəsinə gələrsə, ekspertiza keçirilməsinin davam etdirilməsindən imtina etmək; bu imtinanı əsaslandırmaqla rəy verilməsindən və ekspertizanın keçirilməsindən imtina etməsi barədə ekspertizanın keçirilməsini ona tapşırmış şəxsə yazılı məlumat vermək;

97.4.3. cinayət prosesini həyata keçirən orqanın tələbi ilə ekspertizanın keçirilməsinə dair xərclərin smetası və çəkdiyi xərclər barədə hesabat təqdim etmək;

97.4.4. cinayət prosesi iştirakçılarına yazılı rəy təqdim etmək, onun məzmununu izah etmək, habelə onların suallarına cavab vermək və yazılı rəyin izahatı üzrə şifahi rəy vermək üçün cinayət prosesini həyata keçirən orqanın çağırışlarına gəlmək;

97.4.5. cinayət prosesini həyata keçirən orqana və onu dəvət etmiş şəxsə xüsusi ixtisasını təsdiq edən sənəd təqdim etmək; göstərilən orqanın və ya şəxsin, habelə məhkəmə iclasında cinayət prosesi tərəflərinin tələbi ilə qoyulmuş məsələlər üzrə qabiliyyəti olduğunu düzgün qiymətləndirmək;

97.4.6. cinayət prosesini həyata keçirən orqanın və məhkəmə iclasında cinayət prosesi tərəflərinin tələbinə əsasən peşə təcrübəsi və müvafiq cinayət işinin icraatında iştirak etmiş şəxslərlə münasibəti barədə məlumat vermək;

97.4.7. istintaq və ya digər prosessual hərəkətlərin aparılmasında iştirak edərkən, həmin hərəkətləri aparan şəxsin, məhkəmə iclasında isə sədrlik edənin icazəsi olmadan bu yerləri tərk etməmək;

97.4.8. təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmə iclasında sədrlik edənin göstərişlərinə tabe olmaq;

97.4.9. məhkəmə iclasında qaydaya riayət etmək;

97.4.10. cinayət prosesini həyata keçirən orqanın icazəsi olmadan onun iştirakı ilə aparılmış istintaq və ya digər prosessual hərəkətlər və bu zaman müəyyən edilmiş hallara dair məlumatı, habelə qapalı məhkəmə iclasının məlumatlarını yaymamaq; ona məlum olan şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və ya qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamaq;

97.4.11. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

97.5. Ekspertin öz vəzifələrini icra etməməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

97.6. Ekspert bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı hüquqları həyata keçirir:

97.6.1. rəy verilməsi üçün müqayisəli tədqiqat aparmaq məqsədi ilə zəruri obyekt və nümunələri əldə etmək; əlavə obyekt və digər materialların təqdim olunmasını tələb etmək;

97.6.2. rəy verilməsi üçün cinayət prosesini həyata keçirən orqanın icazəsi ilə zəruri materiallarla tanış olmaq, işin materiallarından zəruri məlumatları çıxarış etmək, öz vəzifələrini daha yaxşı icra etmək məqsədi ilə şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxslərə və şahidlərə suallar vermək;

97.6.3. ekspertizanın predmetinə aid və rəy verilməsi üçün zəruri olan istintaq və ya digər prosessual hərəkətlərin aparılmasında iştirak etmək;

97.6.4. qarşısına qoyulan suallara və səlahiyyətinə aid iş materiallarının tədqiqi zamanı aşkar edilmiş və ekspertizanın predmeti daxilində digər hallara dair rəy vermək;

97.6.5. məhkəmənin və ya cinayət prosesi iştirakçılarının diqqətini ekspertizanın predmeti və müvafiq ekspertə verilən sualların tərtibi ilə əlaqədar hallara cəlb etmək;

97.6.6. iştirak etdiyi istintaq və ya digər prosessual hərəkətlərin protokolu ilə, habelə məhkəmə iclasının protokolunun müvafiq hissəsi ilə tanış olmaq, bu hərəkətlərin və öz şifahi rəyinin tamlığına və düzgünlüyünə dair protokola daxil edilməli qeydlər vermək;

97.6.7. cinayət prosesi zamanı sərf etdiyi xərclərin ödənilməsinə və cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri nəticəsində ona vurulmuş ziyana görə kompensasiya almaq;

97.6.8. yerinə yetirdiyi işə görə haqq almaq;

97.6.9. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

Maddə 118. Ekspertə etiraz

118.1. Ekspert aşağıdakı hallarda cinayət prosesində iştirak edə bilməz:

118.1.1. bu Məcəllənin 109.1.3— 109.1.8-ci maddələrində nəzərdə tutulmuş halların hər hansı biri mövcud olduqda;

118.1.2. qanuna və ya məhkəmənin hökmünə əsasən onun ekspert olmaq hüququ olmadıqda;

118.1.3. o, təftiş, yaxud digər yoxlama hərəkətləri aparmışdırsa və nəticədə bunlar cinayət işinin başlanmasına əsas olmuşdursa.

118.2. rəyin düzgünlüyünə şübhə yaranması ilə əlaqədar təkrar ekspertizanın aparılması hallarından başqa şəxsin ekspert qismində cinayət prosesində əvvəlki iştirakı onun bundan sonra cinayət prosesində iştirakını istisna etmir.

118.3. Ekspertə etiraz aşağıdakı qaydada həll edilir:

118.3.1. ibtidai istintaq və ya təhqiqat aparılarkən — müvafiq olaraq təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən;

118.3.2. cinayət işinə və ya digər materiala məhkəmədə hakim tərəfindən təkbaşına və ya andlı iclasçılar tərəfindən baxılarkən — məhkəmə iclasında sədrlik edən tərəfindən;

118.3.3. cinayət işinə məhkəmədə kollegial tərkibdə baxılarkən — məhkəmənin tərkibi tərəfindən.

Maddə 124. Sübutların anlayışı və növləri

124.1. Məhkəmənin və ya cinayət prosesi tərəflərinin əldə etdiyi mötəbər dəlillər (məlumatlar, sənədlər, əşyalar) cinayət təqibi üzrə sübutlar hesab olunur. Bu sübutlar:

124.1.1. cinayət-prosessual qanunvericiliyinin tələblərinə əməl edilməklə insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları

məhdudlaşdırılmadan və ya məhkəmənin qərarı əsasında (bu Məcəllə ilə nəzərdə tutulmuş təxirə salına bilməyən hallarda isə müstəntiqin qərarı əsasında) məhdudlaşdırmaqla əldə olunmalı;

124.1.2. hadisənin cinayət hadisəsi olub-olmamasını, törədilmiş əməldə cinayətin əlamətlərinin olub-olmamasını, bu əmələin təqsirləndirilən şəxs tərəfindən törədilib-törədilməməsini, onun təqsirli olub-olmamasını, habelə ittihamın düzgün həll edilməsi üçün əhəmiyyət kəsb edən digər hallar göstərilməlidir.

124.2. Cinayət prosesində aşağıdakılar sübut kimi qəbul olunur:

124.2.1. şübhəli, təqsirləndirilən və zərər çəkmiş şəxsin və şahidlərin ifadələri;

124.2.2. ekspertin rəyi;

124.2.3. maddi sübutlar;

124.2.4. istintaq və məhkəmə hərəkətlərinin protokolları;

124.2.5. digər sənədlər.

Maddə 127. Ekspertin rəyi

127.1. Ekspertin rəyi onun tərəfindən yazılı şəkildə ifadə edilmiş elm, texnika, incəsənət və ya peşə sahəsində xüsusi biliklərə əsaslanmış:

127.1.1. cinayət prosesini həyata keçirən orqanın və ya cinayət prosesi tərəflərinin ekspert qarşısında qoyduğu suallara, habelə iş materiallarının tədqiqi zamanı ortaya çıxan onun səlahiyyətlərinə aid digər halların araşdırılmasına dair nəticələridir;

127.1.2. bu nəticələri əsaslandıran ekspertin apardığı tədqiqatın təsviridir.

127.2. Ekspert tərəfindən aparılan tədqiqatın üsulları, qoyulmuş sualların cavablarının əsaslandırılması, habelə ekspertin öz təşəbbüsü ilə müəyyən etdiyi cinayət təqibi üzrə əhəmiyyət kəsb edən digər hallar ekspertin rəyində öz əksini tapmalıdır.

127.3. Ekspertin rəyi təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə üçün məcburi deyil, hər hansı başqa sübut kimi cinayət prosesini həyata keçirən orqan tərəfindən yoxlanılmalı və işin bütün halları ilə bağlı surətdə qiymətləndirilməlidir. Ekspertin rəyi ilə razılaşılmadıqda bu barədə əsaslandırılmış qərar çıxarılmalıdır.

Maddə 128. Maddi sübutlar

128.1. Öz xüsusiyyətinə və əlamətlərinə, mənşəyinə, aşkar edildiyi yerə və vaxtına və ya üzərində hadisənin izlərinin saxlanıldığına görə cinayət təqibi üzrə əhəmiyyət kəsb edən halların müəyyən edilməsinə kömək edən hər bir əşya maddi sübut hesab edilə bilər.

128.2. Əşya cinayət prosesini həyata keçirən orqanın qərarı ilə maddi sübut hesab edilir.

128.3. Əşyanın maddi sübuti əhəmiyyəti məhkəmə tərəfindən o halda qəbul olunur ki:

128.3.1. əşya əldə olunduqdan dərhal sonra o, ətraflı təsvir edilməklə, möhürlənməklə və bu kimi hərəkətlər yerinə yetirilməklə onun üzərindəki izlərin əlamətlərinin və xüsusiyyətlərinin əhəmiyyətli surətdə dəyişdirilməsi imkanı aradan qaldırılmış olsun;

128.3.2. şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxs və ya şahid onu bilavasitə məhkəmədə tədqiqdən əvvəl tanısın.

Maddə 129. Maddi sübutların və digər əşyaların saxlanılması

129.1. Maddi sübutlar mümkün qədər qablaşdırılır, möhürlənmiş halda cinayət işində saxlanılır, həcmi böyük olduqda isə təşkilatlara, müəssisələrə və müvafiq şəxslərə onların razılığı ilə məsul saxlanışa verilə bilər.

129.2. Cinayət təqibi üzrə icraat zamanı aşağıdakı əşyalara baxış keçirilməsindən dərhal sonra, lakin götürmə hərəkəti edildiyi andan 7 (yeddi) gündən gec olmayaraq cinayət prosesini həyata keçirən orqan dövlət bankına təhvil verməlidir:

129.2.1. qiymətli metallar və daşlar, mirvari, onlardan hazırlanan zərgərlik əşyaları;

129.2.2. milli və ya xarici valyuta ilə nağd pullar, çeklər, qiymətli kağızlar, istiqraz vərəqələri və lotereya biletləri.

129.3. İstintaq hərəkətləri zamanı götürülmüş milli və ya xarici valyuta ilə nağd pul, həmçinin digər qiymətli kağızlar cinayət təqibi üzrə icraatın materiallarında o halda saxlanılır ki, onların fərdi əlamətləri cinayət təqibi üzrə əhəmiyyət kəsb edir.

129.4. Maddi sübutların və iş üzrə götürülmüş digər əşyaların təyinatı məsələsi məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və cinayət prosesini həyata keçirən orqanın cinayət təqibi üzrə icraata xitam verilməsi haqqında qərarı ilə həll edilənədək bu əşyalar cinayət prosesini həyata keçirən orqanda saxlanılır. Bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda maddi sübutlar haqqında qərar cinayət təqibi üzrə icraat qurtaranadək də qəbul edilə bilər.

129.5. Maddi sübut kimi cinayət təqibi üzrə icraatın materiallarına əlavə edilmiş əşya üzərində hüquqa dair mübahisə mülki mühakimə icraatı qaydasında baxılmalı olduqda, bu əşya mülki iş üzrə qərar qüvvəyə minənədək saxlanılır.

Maddə 130. Cinayət təqibi üzrə icraatın aparıldığı müddətdə əşyaların mühafizəsinin təmin edilməsi

130.1. Maddi sübutların və digər əşyaların saxlanılması zamanı, habelə onların ekspertizadan keçirilməsi, cinayət işinin digər ibtidai araşdırma orqanına, prokurora və ya məhkəməyə göndərilməsi ilə əlaqədar bu əşyaların itirilməsi, zədələnməsi, xarab olması, bir-birinə toxunması və ya qarışmasının qarşısının alınması üçün müvafiq tədbirlər görülməlidir.

130.2. Cinayət təqibi üzrə icraatın materialları göndərilərkən onları müşayiət məktubunda, ayrıca siyahıda və ya ittiham aktına əlavə olunmuş arayışda həmin materiallarla göndərilən bütün maddi sübutlar və digər əşyalar qeyd olunmalıdır. Cinayət təqibi üzrə icraatın materialları ilə göndərilməyən əşyaların saxlanıldığı yerlər yuxarıda sadalanan sənədlərdə göstərilməlidir.

130.3. Poçt vasitəsi ilə və ya əllə göndərilən maddi sübutlara və digər əşyalara ekspert, təhqiqatçı, müstəntiq, prokuror və ya hakim baxır və bu əşyaları müşayiət məktubuna, siyahıya, ittiham aktına əlavə edilmiş arayışa, habelə onların əlamətlərini və götürülməsini əks etdirən protokollara və cinayət təqibi üzrə digər materiallara əsasən tutuşdurur. Əşyalara baxışın gedişi və nəticələri barədə protokol tərtib olunur.

Maddə 131. Cinayət təqibi üzrə icraat başa çatanadək maddi sübutlar barədə qəbul edilən qərarlar

131.1. Cinayət təqibi üzrə icraat başa çatanadək cinayət prosesini həyata keçirən orqan aşağıdakı maddi sübutları mülkiyyətçiyə və ya qanuni sahibinə qaytarır:

131.1.1. tez xarab olan əşyaları;

131.1.2. məişətdə gündəlik tələbat əşyalarını;

131.1.3. gündəlik qulluğa ehtiyacı olan ev heyvanlarını, quşları və digər heyvanları;

131.1.4. verilmiş mülki iddianın və ya əmlak tələbinin təmin edilməsi üçün üzərinə həbs qoyulmamış avtomobil və digər nəqliyyat vasitələrini.

131.2. Bu Məcəllənin 131.1-ci maddəsində nəzərdə tutulmuş əşyaların mülkiyyətçisi və ya qanuni sahibi məlum olmadıqda və ya hər hansı səbəbdən onların qaytarılması mümkün deyilsə, bu əşyalar istifadə, saxlanma və ya qulluq edilməsi üçün müvafiq təşkilatlara verilməlidir.

Maddə 132. Cinayət təqibi üzrə icraat başa çatdıqda maddi sübutlar barədə qəbul edilən qərarlar

132.0. Maddi sübutlar barədə məsələnin həlli ilə əlaqədar məhkəmə hökm, cinayət prosesini həyata keçirən orqan isə cinayət təqibi üzrə icraata xitam verilməsi haqqında qərar çıxararkən aşağıdakı qaydalara riayət edilməlidir:

132.0.1. məhkum edilmiş şəxslərə məxsus cinayətin alətləri, həmçinin dövriyyəsi qadağan edilmiş əşyalar müsadirə olunmalı və müvafiq təşkilatlara verilməli, onların qiyməti olmadıqda isə məhv edilməlidir;

132.0.2. dəyəri olmayan digər əşyalar məhv edilməli, maraqlı şəxslərin vəsatəti olduqda isə onlara verilə bilər;

132.0.3. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi nəticəsində qanuni sahiblikdən çıxarılmış pul və qiymətli əşyalar sahiblərinə, mülkiyyətçilərinə və ya hüquqi varislərinə qaytarılmalıdır;

132.0.4. cinayət yolu ilə əldə edilmiş və ya cinayətin predmeti olan pul və qiymətli əşyalar məhkəmənin hökmü ilə cinayət

nəticəsində vurulmuş ziyanın ödənilməsinə yönəldilir, zərər çəkmiş şəxs məlum olmadıqda isə dövlətin nəfinə keçirilir.

132.0.5. maddi sübut olan sənədlər cinayət təqibi üzrə icraat materiallarının saxlanma müddəti ərzində işdə saxlanılır və ya maraqlı təşkilatlara və şəxslərə verilir.

Maddə 133. Əşyaların xarab olması, məhv edilməsi və ya itirilməsinin nəticələri

133.1. Ekspertiza və ya qanuni keçirilmiş digər istintaq, yaxud prosessual hərəkətlər zamanı xarab olmuş, məhv edilmiş və ya itirilmiş əşyanın dəyəri məhkəmə məsrəflərinə aid edilir. Bu əşya məhkum olunmuş şəxsə və ya mülki cavabdehə məxsus olduqda, onun dəyəri ödənilmir. Bu əşya başqa şəxsə mənsub olduqda, onun dəyəri məhkəmənin hökmü ilə Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına ödənilir və ya məhkum olunmuş şəxsdən və mülki cavabdehdən tutula bilər.

133.2. Bəraət hökmü çıxarılarkən, habelə cinayət təqibi üzrə icraata xitam verilərkən ekspertiza və ya qanuni keçirilmiş digər istintaq, yaxud prosessual hərəkətlər zamanı xarab olmuş, məhv edilmiş və ya itirilmiş əşyaların dəyəri prosessual vəziyyətindən asılı olmayaraq sahibinə və ya onun qanuni mülkiyyətçisinə Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Maddə 134. İstintaq hərəkətlərinin və məhkəmə iclasının protokolları

134.1. İstintaq hərəkətlərinin və məhkəmə iclasının protokolları cinayət prosesini həyata keçirən orqanın cinayət təqibi üçün əhəmiyyət kəsb edən halların bilavasitə qavranılmasını təsdiq edən və bu Məcəlləyə uyğun yazılı formada tərtib edilmiş sənədlərdir.

134.2. Cinayət prosesini həyata keçirən orqan tərəfindən bu Məcəlləyə müvafiq tərtib edilmiş aşağıdakı istintaq hərəkətlərinin protokolları sübut kimi istifadə oluna bilər:

134.2.1. baxış;

134.2.2. şəxsi müayinə;

134.2.3. şəxsin və əşyaların tanınması;

134.2.4. götürmə;

134.2.5. axtarış;

134.2.6. əmlak üzərinə həbs qoyulması;

134.2.7. poçt, teleqraf və digər göndərişlər üzərinə həbs qoyulması;

134.2.8. telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi;

134.2.9. maliyyə əməliyyatları, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatlar daxil olmaqla şəxsi, ailə, dövlət, kommersiya və ya peşə sirrini təşkil edən məlumatların ələ keçirilməsi;

134.2.10. meyitin qəbirdən çıxarılması (ekshumasiya);

134.2.11. dindirmə, üzləşdirmə və ifadəni yerində yoxlama;

134.2.12. ekspertiza və ya tədqiqat üçün nümunələri götürmə;

134.2.13. istintaq eksperimenti.

134.3. Cinayət barədə şifahi ərizənin qəbulu, təqsirini boynuna almaqla könüllü gəlmə, tutulma, şəxslərə hüquq və vəzifələrini izah etmə protokolları faktı təsdiq edən sübut növü kimi istifadə oluna bilər.

134.4. Qeydiyyatdan keçirilməyən və ya vaxtında qeydiyyatdan keçirilməyən istintaq hərəkətlərinin protokollarının sübut kimi qəbul edilməsi məhkəmə tərəfindən keçirilmiş araşdırmanın nəticəsindən asılı olaraq həll edilir.

134.5. İstintaq hərəkəti protokolundakı natamamlıq ittiham etmək məqsədi ilə təhqiqatçının, müstəntiqin, prokurorun və ya hal şahidinin ifadələri ilə aradan qaldırıla bilməz.

Maddə 135. Sənədlər

135.1. Cinayət təqibi üzrə əhəmiyyət kəsb edə bilən məlumatları hərf, rəqəm, qrafika və digər işarə formasında özündə əks etdirən kağız, elektron və ya digər daşıyıcılar sənəd hesab olunur. Şəxsin vəzifəsinə və yerinə yetirdiyi işə görə ona məlum olan halları imzası ilə təsdiq etdiyi və qanunvericiliyin müəyyən etdiyi formada tərtib edilmiş sənəd rəsmi sənəd hesab olunur.

135.2. Bu Məcəllənin 128.1-ci maddəsində nəzərdə tutulmuş xüsusiyyətlərə malik sənədlər də maddi sübut hesab edilə bilər.

135.3. İttiham üzrə sübut kimi sənədlərin əsli və ya əslinə bərabər surəti istifadə edilməlidir. Cinayət prosesində sənədlərin surətindən istifadə olunmasına tərəflərin razılığı ilə icazə verilir.

Maddə 136. Sənədlərin cinayət təqibi üzrə icraatın materiallarına əlavə edilməsi, saxlanması və qaytarılması

136.1. Sənəd cinayət prosesini həyata keçirən orqan tərəfindən cinayət təqibi üzrə icraatın materiallarına əlavə edilir və işin bütün saxlanma müddəti ərzində işdə saxlanılır.

136.2. Götürülmüş və işə əlavə edilmiş sənədləri cari uçot, hesabat və digər hüquqauyğun məqsədlər üçün qanuni sahibi tələb etdikdə, ona həmin sənədlərdən müvəqqəti istifadə etmək və ya surətini çıxarmaq imkanı verilməlidir.

136.3. Məhkəmənin hökmü qanuni qüvvəyə mindiyi gündən bir il keçdikdən sonra və ya cinayət prosesini həyata keçirən orqanın cinayət təqibi üzrə icraata xitam verilməsi haqqında qərarı qüvvəyə mindikdən sonra cinayət təqibi üzrə icraatın materiallarında olan sənədlərin əsilləri qanuni sahiblərinin xahişi ilə onlara qaytarıla bilər. Bu halda müstəntiq, prokuror və ya məhkəmə cinayət təqibi üzrə icraatın materiallarına saxlandığı yerdən asılı olaraq qaytarılan sənədlərin surətlərini çıxarmalı, doğruluğunu təsdiq etməli və həmin materiallarda saxlamalıdır.

Maddə 195. Tərcüməçi, mütəxəssis, ekspert tərəfindən görülmüş işlərin haqqının ödənilməsi

195.1. Cinayət mühakimə icraatı zamanı tərcüməçi, mütəxəssis və ya ekspert tərəfindən görülən işin haqqı aşağıdakı qaydada ödənilir:

195.1.1. xidməti tapşırıq qaydasında yerinə yetirildikdə — iş yeri üzrə əmək haqqı həddində;

195.1.2. cinayət prosesini həyata keçirən orqanın tələbi ilə yerinə yetirildikdə — Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına miqdarı Azərbaycan Respublikası müvafiq icra

hakimiyyəti orqanının müəyyən etdiyi həddə cinayət prosesini həyata keçirən orqanla şərtləşdirildiyi kimi;

195.1.3. müdafiə tərəfi ilə razılığa əsasən görüldükdə — həmin tərəflə şərtləşdirilmiş miqdarda.

195.2. Bu Məcəllənin 195.1.2-ci maddəsində nəzərdə tutulmuş hallarda haqq tərcüməçi, mütəxəssis və ya ekspert tərəfindən hesabat təqdim edildikdən sonra cinayət prosesini həyata keçirən orqanın qərarı ilə ödənilir.

Maddə 196. Cinayət prosesində iştirak edən şəxslərin çəkdikləri xərclərin ödənilməsi

196.1. Cinayət mühakimə icraatı zamanı zərər çəkmiş şəxsin, mülki iddiaçının, onların qanuni nümayəndələrinin, şübhəli və ya təqsirləndirilən şəxsə pulsuz hüquqi yardım göstərən müdafiəçinin, habelə hal şahidinin, tərcüməçinin, mütəxəssisin, ekspertin və şahidin aşağıdakı xərcləri ödənilməlidir:

196.1.1. cinayət prosesini həyata keçirən orqanın çağırışı ilə əlaqədar dəmiryolu və avtomobil nəqliyyatında (taksidən başqa) və nəqliyyatın digər növlərində, habelə cinayət prosesini həyata keçirən orqanın razılığı ilə hava nəqliyyatında yol xərcləri;

196.1.2. cinayət prosesini həyata keçirən orqanın tələbi ilə daimi yaşayış yerindən kənarda yaşamaq məcburiyyətində qaldıqda gündəlik xərclər, bu xərclər idarə, müəssisə, təşkilat və ya işə götürən tərəfindən ödənilmədikdə;

196.1.3. idarə, müəssisə, təşkilat və ya işə götürən tərəfindən orta aylıq əmək haqqının saxlanıldığı hallar istisna olmaqla, cinayət prosesini həyata keçirən orqanın tələbi ilə cinayət mühakimə icraatında iştirak etmənin bütün müddəti üçün orta aylıq əmək haqqı;

196.1.4. cinayət prosesini həyata keçirən orqanın tələbi ilə istintaq və ya digər prosessual hərəkətdə iştirak edərkən, xarab olan və ya itirilən əmlakın bərpa olunması və ya əldə edilməsinə çəkilən xərclər.

196.2. Dövlət orqanları, idarələri, müəssisələri və təşkilatları zərər çəkmiş şəxsin, mülki iddiaçının, onların qanuni nümayəndələrinin, habelə hal şahidinin, tərcüməçinin, ekspertin və

şahidin cinayət prosesini həyata keçirən orqanın tələbi ilə cinayət mühakimə icraatında iştirak etdiyi müddətdə onların orta aylıq əmək haqqını saxlamalıdırlar.

196.3. Mütəxəssisin və ekspertin gördüyü işlə əlaqədar sərf edilmiş kimyəvi reaktivlərin və digər materialların xərcləri, habelə bu məqsədlə avadanlıqdan istifadəyə, kommunal xidmətlərə görə çəkdiyi xərclər ödənilir.

196.4. Cinayət mühakimə icraatı zamanı çəkilən xərclər cinayət prosesini həyata keçirən orqan tərəfindən öz təşəbbüsü ilə və ya bu Məcəllənin 196.1-ci maddəsində göstərilən şəxslərin ərizələri üzrə cinayət prosesini həyata keçirən orqanın qərarına əsasən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş miqdarda ödənilməlidir. Göstərilən xərclər Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti və ya cinayət təqibi üzrə təqsirli bilinmiş şəxsin (şəxslərin) hesabına ödənilir.

Maddə 197. Məhkəmə məsrəfləri

197.1. Məhkəmə məsrəfləri aşağıdakılardan ibarətdir:

197.1.1. cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə zərər çəkmiş şəxsə vurulmuş ziyana görə kompensasiya qismində ödənilmiş məbləğ;

197.1.2. zərər çəkmiş şəxsə, mülki iddiaçıya, onların qanuni nümayəndələrinə, şübhəli və ya təqsirləndirilən şəxsə, pulsuz hüquqi yardım göstərmiş müdafiəçiyə, tərcüməçiyə çağırışa və gündəlik xərclərə görə ödənilmiş məbləğ;

197.1.3. andlı iclasçılara cinayət işinin baxılmasında iştirak etməsinə görə ödənilmiş haqqın məbləği;

197.1.4. mütəxəssisə, ekspertə ödənilməli haqqlar və tərcüməçiyə ödəniş haqqı kimi verilməli olan məbləğ;

197.1.5. şübhəli və ya təqsirləndirilən şəxsə pulsuz hüquqi yardım göstərildiyi halda, cinayət prosesini həyata keçirən orqan tərəfindən təyin olunmuş müdafiəçiyə ödənilməli olan haqqın məbləği;

197.1.6. maddi sübutların saxlanması, göndərilməsi və tədqiqi üçün çəkilmiş xərclərin məbləği;

197.1.7. cinayət işi üzrə istintaq eksperimenti və ya ekspertiza keçirilərkən korlanmış və ya məhv olmuş əşyaların dəyərinin və bu kimi digər məsrəflərin ödənilməsinə çəkilmiş xərclərin məbləği;

197.1.8. cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə icraat aparılması üçün zəruri olan digər tədbirlərə sərf olunmuş xərclərin məbləği.

197.2. Bu Məcəllədə digər qaydalar nəzərdə tutulmamışdırsa, məhkəmə məsrəfləri Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabından ödənilir.

Maddə 198. Məhkəmə məsrəflərinin tutulması

198.1. Bu Məcəllənin 197.1.1, 197.1.2, 197.1.4, 197.1.6—197.1.8-ci maddələrində sadalanan məhkəmə məsrəfləri məhkəmə tərəfindən məhkumun üzərinə qoyula bilər və məhkəmənin qərarı ilə ondan tutulub dövlət nəfinə və ya müvafiq xərc çəkmiş fiziki, yaxud hüquqi şəxsin hesabına keçirilə bilər.

198.2. Məhkumun məhkəmə məsrəflərini ödəməyə imkanı olmadıqda, yaxud məhkəmə məsrəflərini ödəməsi öhdəsində olan şəxslərin maddi vəziyyətinə ciddi xələl gətirərsə, məhkəmə məhkumu məhkəmə məsrəflərinin tutulmasından tam və ya qismən azad edə bilər.

198.3. Cinayət təqibi üzrə bir neçə şəxs məhkum olunmuşsa, məhkəmə məsrəfləri məhkumların hər birindən təqsirlilik dərəcəsi, təyin olunmuş cəzanın ciddiliyi və əmlak vəziyyəti nəzərə alınaraq məhkəmə tərəfindən müəyyən olunmuş pay üzrə tutulmalıdır.

198.4. Yetkinlik yaşına çatmamış şəxs məhkum olunarkən onun qanuni nümayəndələrinin bu şəxsin davranışına zəruri nəzarət həyata keçirilmədiyindən cinayətin törədilməsi sübuta yetirilərsə, məhkəmə məsrəflərinin ödənilməsi onların üzərinə qoyula bilər.

198.5. Xüsusi ittiham qaydasında təqib olunan şəxsə bəraət verildikdə və ya xüsusi ittihamçı məhkəmədə ittihamın müdafiəsindən imtina etdikdə, məhkəmə bu Məcəllənin 198.1-ci maddəsində nəzərdə tutulmuş məhkəmə məsrəflərini tam və ya qismən xüsusi ittihamçının üzərinə qoymağa haqlıdır. Xüsusi ittiham qaydasında təqib olunan şəxslə xüsusi ittihamçı arasında əldə

olunmuş barışıq nəticəsində cinayət təqibinə xitam verildiyi halda, məhkəmə həmin məsrəfləri tam və ya qismən cinayət prosesi tərəflərindən birinin və ya hər ikisinin üzərinə qoymağa haqlıdır.

198.6. Hökm qanuni qüvvəyə minənədək məhkum öldükdə, onun vərəsələri məhkəmə məsrəfləri ilə əlaqədar öhdəliklərə cavabdehlik daşımırlar.

198.7. Məhkəmə məsrəflərinin tutulmasına dair məhkəmə qərarı qanuni qüvvəyə mindiyi gündən 3 (üç) il keçərsə, müddətin keçməsi ilə əlaqədar həmin məsrəflərin tutulması hüququna xitam verilir. Göstərilən müddət keçdikdən sonra ödəniş kimi tutulmuş məhkəmə məsrəflərinin məbləği geri qaytarılmır.

Maddə 237. Meyitin qəbirdən çıxarılması (ekshumasiya)

237.1. Meyitin qəbirdən çıxarılması zərurəti olduqda müstəntiq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror qarşısında meyitin qəbirdən çıxarılmasına icazə alınması üçün məhkəməyə təqdimatla müraciət edilməsi haqqında əsaslandırılmış vəsatət qaldırır. Meyitin qəbirdən çıxarılması yalnız məhkəmənin qərarı əsasında həyata keçirilə bilər.

237.2. Meyit müstəntiqin, məhkəmə təbabəti sahəsində mütəxəssisin, ölmüş şəxsin yaxın qohumlarının və ya onun qanuni nümayəndələrinin (onların istəyindən asılı olaraq) iştirakı ilə qəbirdən çıxarılır. Qəbirdən çıxarıldıqdan sonra meyit göstərilən şəxslərin müşayiəti ilə digər tədqiqatların aparılması üçün müvafiq tibb idarəsinə aparıla bilər.

237.3. Meyitin qəbirdən çıxarılmasında müstəntiqin göstərişi və ya icazəsi ilə foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilə bilər.

237.4. Meyitin qəbirdən çıxarılması qurtardıqdan sonra müstəntiq bu istintaq hərəkətinin protokolunu tərtib edir və həmin protokolda aşağıdakılar göstərilir:

237.4.1. meyitin qəbirdən çıxarıldığı vaxt, tarix və yer;

237.4.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

237.4.3. meyitin qəbirdən çıxarılmasında iştirak etmiş məhkəmə təbabəti sahəsində mütəxəssisin vəzifəsi, soyadı, adı və atasının adı;

237.4.4. meyitin qəbirdən çıxarılmasında iştirak etmiş şəxslərin soyadı, adı və atasının adi, habelə onların doğulduğu il, ay, gün və yer, vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifələri, faktiki yaşadıqları və qeydiyyatda olduqları yer;

237.4.5. meyitin qəbirdən çıxarılmasında ölənin yaxın qohumlarının və ya onun qanuni nümayəndələrinin iştirak etdiyi halda, onların soyadı, adı, atasının adı, doğulduğu il, ay, gün, yer, habelə faktiki yaşadıqları və qeydiyyatda olduqları yer;

237.4.6. meyitin qəbirdən çıxarılmasının xüsusiyyətləri, xüsusən fotoçəkiliş və ya meyitin qəbirdən çıxarılması zamanı video və kino çəkilişdən və ya digər texniki vasitələrdən istifadə edilməsi haqqında qeyd;

237.4.7. müşahidə edilmə ardıcıllığı ilə meyitin qəbirdən çıxarılması zamanı bütün aşkar olunanlar.

237.5. Meyitin qəbirdən çıxarılması haqqında protokol ona öz qeydlərinin daxil edilməsini tələb etmək hüququna malik olan istintaq hərəkətinin bütün iştirakçıları tərəfindən imzalanır. Protokol bir neçə səhifədə tərtib edildikdə onun hər bir vərəqi istintaq hərəkətinin iştirakçıları tərəfindən imzalanır.

237.6. Meyitin qəbirdən çıxarılması zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə, müvafiq olaraq fotoşəkillər və ya çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları protokola əlavə olunur.

Maddə 238. Şəxsi müayinə

238.1. Məhkəmə-tibb ekspertizasının keçirilməsi tələb edilmədiyi halda şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və ya şahidin bədənində cinayətin izlərini və ya xüsusi əlamətləri aşkar etmək məqsədi ilə müstəntiq onların şəxsi müayinəsini apara bilər.

238.2. Şəxsi müayinə aparılması haqqında məhkəmənin və ya müstəntiqin qərarı, barəsində qərar çıxarılmış şəxs üçün məcburidir. Şəxsin tutulması və ya həbs edilməsi halları istisna olmaqla insanın iradəsinə zidd onun şəxsi müayinəsi yalnız məhkəmənin qərarı əsasında aparılır.

238.3. Təqsirləndirilən və ya şübhəli şəxs üzərində şəxsi müayinənin aparılmasında onun müdafiəçisi iştirak etmək hüququna malikdir.

238.4. Zəruri hallarda şəxsi müayinə həkimin və ya məhkəmə təbabəti sahəsində mütəxəssisin iştirakı ilə aparılır. Barəsində şəxsi müayinə aparılan şəxsin soyundurulması ilə müşayiət edilən şəxsi müayinə eyni cinsdən olan şəxslərin iştirakı ilə aparılır.

238.5. Əks cinsdən olan şəxsin soyundurulması zərurəti yarandığı halda müstəntiq, təqsirləndirilən və ya şübhəli şəxsin müdafiəçisi həmin istintaq hərəkətinin aparılmasında iştirak edə bilməz. Bu halda müstəntiqin tapşırığı ilə şəxsi müayinə həkimin və ya məhkəmə təbabəti sahəsində mütəxəssisin iştirakı ilə aparılır.

238.6. Şəxsi müayinə qurtardıqdan sonra müstəntiq bu istintaq hərəkətinin protokolunu tərtib edir və protokolda aşağıdakılar göstərilir:

238.6.1. şəxsi müayinənin aparıldığı vaxt, tarix və yer;

238.6.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

238.6.3. şəxsi müayinədə iştirak etmiş məhkəmə təbabəti sahəsində mütəxəssisin və ya həkimin vəzifəsi, soyadı, adı və atasının adı;

238.6.4. şəxsi müayinənin aparılmasında iştirak edən şəxslərin soyadı, adı və atasının adı, habelə onların doğulduğu il, ay, gün və yer, vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifələri, faktiki yaşadıqları və qeydiyyatda olduqları yer;

238.6.5. müşahidə edilmə ardıcıllığı ilə şəxsi müayinə zamanı bütün aşkar olunanlar.

238.7. Şəxsi müayinə protokolu ona öz qeydlərinin daxil edilməsini tələb etmək hüququna malik olan istintaq hərəkətinin bütün iştirakçıları tərəfindən imzalanır. Protokol bir neçə səhifədə tərtib edildikdə, onun hər bir vərəqi istintaq hərəkətinin iştirakçıları tərəfindən imzalanır.

Maddə 239. Şəxsin tanınması

239.1. Hər hansı şəxsi şahidə, zərər çəkmiş, şübhəli və təqsirləndirilən şəxsə tanınma üçün təqdim etmə zərurəti yarandıqda

müstəntiq əvvəlcədən onları həmin şəxsin xarici görkəmi və əlamətləri barədə, habelə tanıyanın tanınanı gördüyü hallar barədə dindirir və bu barədə müvafiq protokol tərtib edilir.

239.2. Müstəntiq təqsirləndirilən və ya şübhəli şəxsin tanınmasında həmçinin onun müdafiəçisinin iştirakını əvvəlcədən təmin etməlidir.

239.3. Müstəntiqin göstərişi və ya icazəsi ilə şəxsin tanınması zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilə bilər.

239.4. Tanıyan şəxs şahid və ya zərər çəkmiş şəxs olduqda, o, əvvəlcədən ifadə verməkdən imtina etməyə, boyun qaçırmağa, bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti haqqında, habelə özünün, yaxud yaxın qohumlarının əleyhinə ifadə verməmək hüququ haqqında xəbərdar edilir.

239.5. Tanınmalı olan şəxs tanıyana azı 3 (üç) nəfər eyni cinsdən olan və tanınmalı olan şəxsdən xarici görkəmi və geyimi ilə kəskin fərqlənməyən digər şəxslərlə birlikdə təqdim edilir.

239.6. Tanınma başlanmazdan əvvəl müstəntiq tanınmalı olan şəxsə digər şəxslər sırasında istənilən yeri tutmağı təklif edir.

239.7. Tanıyan şəxsin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə və ya onun tələbi ilə şəxsin tanınmaya təqdim edilməsi tanıyan şəxsin tanınmalı olan şəxs tərəfindən vizual müşahidəsini istisna edən şəraitdə aparıla bilər.

239.8. Tanıyan qeyri-müəyyənliyinə görə tanınanın şəxsiyyətinin eyniləşdirilməsi üçün kifayət edən əlamətləri göstərmədikdə tanınma aparıla, aparılmış tanınma isə əsaslı hesab edilə bilməz. Şəxsin eyni şəxs tərəfindən və eyni əlamətlər üzrə təkrar tanınması aparıla bilməz.

239.9. Zərurət olduqda tanınma xarici görkəminə və geyiminə görə kəskin fərqlənməyən müxtəlif şəxslərin fotoşəkilləri üzrə də aparıla bilər.

Maddə 240. Əşyaların tanınması

240.1. Hər hansı əşyanı tanınma üçün təqdim etmək zəruri olduqda müstəntiq tanıyan şəxsi bu əşyanın əlamətləri və həmin

əşyanı gördüyü şərait barədə qabaqcadan dindirir və bu barədə protokol tərtib edilir.

240.2. Əşyanın tanınmasında təqsirləndirilən və ya şübhəli şəxsin müdafiəçisi iştirak etmək hüququna malikdir. Müstəntiq tərəfindən bu istintaq hərəkətinin aparılması barədə əvvəlcədən xəbərdar edilmiş müdafiəçi əşyanın tanınmasında iştirak etmək arzusunu bildirdikdə, müstəntiq onun bu hüququnu təmin etməlidir.

240.3. Müstəntiqin göstərişi və ya icazəsi ilə əşyanın tanınmasında foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilə bilər.

240.4. Tanıyan şəxs şahid və ya zərər çəkmiş şəxs olduqda, ona qabaqcadan ifadə verməkdən imtinaya, ifadə verməkdən boyun qaçırmağa, bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti barədə, habelə özünün və yaxın qohumlarının əleyhinə ifadə verməmək hüququ barədə xəbərdarlıq edilir.

240.5. Tanınmalı olan əşya eyni növdən olan əşyalar arasında tanıyan şəxsə təqdim edilir. Tanıyan şəxsə onun tanıya bildiyi əşyanı göstərmək və həmin əşyanı məhz hansı əlamətlərinə görə tanıdığını izah etmək təklif olunur.

240.6. Meyitin, onun hissələrinin, habelə analoqunu tapmaq qeyri-mümkün və ya çətin olan əşyaların tanınması təqdim edilmiş vahid nüsxə üzrə aparılır.

240.7. Tanıyan şəxsin sağlığında müşahidə etdiyi insan meyitinin tanınması aparıldıqda onun qrimlənməsinə yol verilir. Əşya tanındıqda onun çirkdən, pasdan və digər çöküntülərdən təmizlənməsinə yol verilir.

Maddə 241. Tanınma protokolu

241.1. Tanınma aparıldıqdan sonra müstəntiq aşağıdakıları əks etdirən tanınma protokolu tərtib edir:

241.1.1. tanınmanın aparıldığı yer, tarix və vaxt;

241.1.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

241.1.3. tanınmada iştirak etmiş şəxslərin soyadı, adı, atasının adı, doğulduğu il, ay, gün və yer; vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifəsi, yaşadığı və qeydiyyatda olduğu yer;

241.1.4. tanınmada iştirak etmiş şəxsə onun hüquq, vəzifə və məsuliyyətinin izah edilməsi haqqında qeyd;

241.1.5. tanınmanın xüsusiyyətləri, meyitin qəbirdən çıxarılmasında foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilməsi barədə qeyd;

241.1.6. müşahidə edilmə ardıcıllığı ilə bütün aşkar olunanlar, o cümlədən tanınma üçün təqdim edilmiş əşyaların təsviri və tanınmanın aparıldığı əlamətlərin təsviri.

241.2. Tanınma protokolunu ona öz qeydlərinin əlavə edilməsini tələb etmək hüququna malik olan istintaq hərəkətinin bütün iştirakçıları imzalayırlar. Protokol bir neçə səhifədə tərtib edildikdə, onun hər bir səhifəsi istintaq hərəkətinin iştirakçıları tərəfindən ayrıca imzalanır.

241.3. Tanınmanın aparılmasında foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə, müvafiq yazılar, fotoşəkillər, çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları protokola əlavə edilir.

Maddə 260. İfadələrin yerində yoxlanılması

260.1. İfadələrin yerində yoxlanılması şahidin, zərər çəkmiş, şübhəli və təqsirləndirilən şəxslərin dəqiq məlum olan yerdə baş vermiş hadisə ilə bağlı ifadələrinin düzgünlüyünü müəyyən etmək və ya dəqiqləşdirmək məqsədi ilə aparılır.

260.2. Təqsirləndirilən və ya şübhəli şəxsin ifadələrinin yerində yoxlanılmasında, həmçinin onun müdafiəçisi iştirak etmək hüququna malikdir. Bu istintaq hərəkətinin aparılması barədə müstəntiq tərəfindən əvvəlcədən xəbərdar edilmiş müdafiəçi ifadələrin yerində yoxlanılmasında iştirak etmək arzusunu bildirdikdə, müstəntiq onun bu hüququnu təmin etməlidir.

260.3. Zəruri hallarda ifadələrin yerində yoxlanılmasında müstəntiqin dəvəti ilə, həmçinin tərcüməçi, mütəxəssis, ifadəsi yoxlanılan cinayət prosesi iştirakçısının qanuni nümayəndəsi və ya nümayəndəsi, habelə müəllim, həkim və digər şəxslər iştirak edirlər.

260.4. Müstəntiq ifadəsi yoxlanılan şəxslə birlikdə onun göstərdiyi yerə gəlir və ona əvvəllər haqqında ifadə verdiyi və ya

hazırda verə biləcəyi şəraiti, habelə əşyaları göstərməsini (və ya təsvir etməsini) təklif edir. Bu halda dindirilmiş (dindirilən) şəxs hadisə yerinə gedən yolu, əvvəllər haqqında ifadə verdiyi və ya hazırda ifadə verə biləcəyi şəraiti və əşyaları göstərir, həmçinin müstəntiqin suallarına cavab verir.

260.5. Müstəntiqin göstərişi və ya icazəsi ilə ifadələrin yerində yoxlanılması zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilə bilər.

260.6. İfadələrin yerində yoxlanılması zamanı iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşya və sənədlər aşkar edildikdə, onlar bu Məcəllənin 236 və ya 243-cü maddələrində nəzərdə tutulmuş protokol və ya qərara əsasən götürülür. Müstəntiq götürülmüş əşya və sənədləri imkan daxilində qablaşdırmalı, möhürləməli, habelə götürmə hallarını ifadələrin yerində yoxlanılması protokolunda göstərməlidir.

Maddə 261. İfadələrin yerində yoxlanılması protokolu

261.1. İfadələrin yerində yoxlanılması qurtardıqdan sonra müstəntiq protokol tərtib edir və həmin protokolda aşağıdakılar göstərilir:

261.1.1. ifadələrin yerində yoxlanılmasının aparıldığı tarix, vaxt və yer;

261.1.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

261.1.3. ifadələrin yerində yoxlanılmasında iştirak edən digər şəxslərin (müdafiəçilərin, tərcüməçilərin, mütəxəssislərin, qanuni nümayəndələrin, nümayəndələrin, müəllimlərin, həkimlərin və digərlərinin) soyadı, adı və atasının adı, habelə onların doğulduğu il, ay, gün və yer, vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifəsi, faktiki yaşadığı və qeydiyyatda olduğu yer;

261.1.4. ifadələri yerində yoxlanılan şəxsin soyadı, adı, atasının adı, doğulduğu il, ay, gün və yer, iş yeri və ya vəzifəsi, faktiki yaşadığı və qeydiyyatda olduğu yer;

261.1.5. ifadələri yerində yoxlanılan şəxsə onun hüquq və vəzifələrinin izah edilməsi barədə qeyd;

261.1.6. ifadələrin yerində yoxlanılmasının xüsusiyyətləri, o cümlədən ifadələrin yerində yoxlanılması zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilməsi barədə qeyd;

261.1.7. şəxs tərəfindən yerində verilmiş və mümkün qədər hərfi şəkildə yazılmış ifadələr;

261.1.8. ifadələrin yerində yoxlanılması zamanı müşahidə edilmə ardıcıllığı ilə bütün aşkar olunanlar;

261.1.9. əşya və ya sənədlərin götürülməsi barədə qeyd və onların təsviri.

261.2. İfadələrin yerində yoxlanılması protokolu ona öz qeydlərinin daxil edilməsini tələb etmək hüququna malik olan bu istintaq hərəkətinin bütün iştirakçıları tərəfindən imzalanır. Protokol bir neçə səhifədə tərtib edildikdə, onun hər bir vərəqi göstərilən istintaq hərəkətinin iştirakçıları tərəfindən ayrıca imzalanır.

261.3. İfadələrin yerində yoxlanılması zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə, müvafiq yazılar, fotoşəkillər, çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları protokola əlavə olunur.

Maddə 262. İstintaq eksperimenti

262.1. Cinayət təqibi üçün əhəmiyyətli olan, təcrübə və digər tədqiqat hərəkətlərinin aparılması şərti ilə araşdırıla biləcək məlumatların yoxlanılması və dəqiqləşdirilməsi məqsədi ilə müstəntiq istintaq eksperimenti apara bilər.

262.2. Təqsirləndirilən və ya şübhəli şəxsin iştirakı ilə aparılan istintaq eksperimentində, həmçinin onun müdafiəçisi iştirak etmək hüququna malikdir. Bu istintaq hərəkətinin aparılması barədə müstəntiq tərəfindən əvvəlcədən xəbərdar edilmiş müdafiəçi istintaq eksperimentinin aparılmasında iştirak etmək arzusunu bildirdikdə, müstəntiq onun bu hüququnu təmin etməlidir.

262.3. Müstəntiqin dəvəti ilə istintaq eksperimentinin aparılmasında, həmçinin şahid, mütəxəssis, müəllim, həkim və digər şəxslər iştirak edirlər.

262.4. Müstəntiqin göstərişi və ya icazəsi ilə istintaq eksperimentinin aparılmasında foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilə bilər.

262.5. İstintaq eksperimentinin aparılmasına insanların həyatı və sağlamlığı üçün təhlükə yaranmadıqda, şərəf və ləyaqətləri alçaldılmadıqda, onlara maddi zərər vurulmadıqda yol verilir.

Maddə 263. İstintaq eksperimentinin protokolu

263.1. İstintaq eksperimenti qurtardıqdan sonra müstəntiq protokol tərtib edir və həmin protokolda aşağıdakılar göstərilir:

263.1.1. istintaq eksperimentinin aparıldığı tarix, vaxt və yer;

263.1.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

263.1.3. istintaq eksperimentinin aparılmasında iştirak edən digər şəxslərin (şübhəli, təqsirləndirilən şəxsin, müdafiəçinin, şahidin, mütəxəssisin, müəllimin, həkimin və digərlərinin) soyadı, adı və atasının adı, doğulduğu il, ay, gün və yer, iş yeri və ya vəzifəsi, faktiki yaşadığı və qeydiyyatda olduğu yer;

263.1.4. barəsində istintaq eksperimenti aparılan şəxsə onun hüquq və vəzifələrinin izah edilməsi barədə qeyd;

263.1.5. İstintaq eksperimentinin aparılmasının xüsusiyyətləri, o cümlədən istintaq eksperimenti zamanı hansı məlumatların yoxlanıldığı (dəqiqləşdirildiyi), habelə foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilməsi barədə qeyd;

263.1.6. İstintaq eksperimentinin aparılması zamanı müşahidə edilmə ardıcıllığı ilə bütün aşkar olunanlar (eksperimentin halları və nəticələri təfərrüatı ilə göstərilir).

263.2. İstintaq eksperimentinin protokolu ona öz qeydlərinin daxil edilməsini tələb etmək hüququna malik olan bu istintaq hərəkətinin bütün iştirakçıları tərəfindən imzalanır. Protokol bir neçə səhifədə tərtib edildikdə onun hər bir vərəqi göstərilən istintaq hərəkətinin iştirakçıları tərəfindən ayrıca imzalanır.

263.3. İstintaq eksperimentinin aparılması zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə müvafiq yazılar, fotoşəkillər, çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları protokola əlavə olunur.

Maddə 264. Ekspertizanın aparılmasının əsasları

264.1. Ekspertiza elm, texnika, incəsənət və ya sənət sahəsində, habelə müvafiq tədqiqatın metodikası üzrə xüsusi biliklər tələb edildikdə cinayət təqibi üçün əhəmiyyətli olan halların müəyyən edilməsi məqsədi ilə aparılır.

264.2. Təhqiqatçı, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror, mütəxəssis və cinayət prosesinin digər iştirakçılarının xüsusi biliklərə malik olması cinayət təqibi orqanını müvafiq hallarda ekspertizanın təyin edilməsi zərurətindən azad etmir. Bu Məcəllənin 140.0.1—140.0.4-cü maddələrində nəzərdə tutulmuş halların müəyyən edilməsi üçün müvafiq ekspertizanın təyin edilməsi məcburidir.

264.3. Ekspertiza müstəntiqin qərarına və ya cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda müdafiə tərəfinin yazılı müraciətinə əsasən aparılır. Ekspertizanın təyin edilməsi haqqında qərar onun aid olduğu şəxslər üçün məcburidir.

264.4. Ekspertizanın təyin edilməsi haqqında qərarda aşağıdakılar göstərilməlidir:

264.4.1. qərarın çıxarıldığı tarix, vaxt və yer;

264.4.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

264.4.3. ekspertizanın təyin edilməsinə əsas verən obyektiv hallar və onun motivlərinin əsaslandırılması;

264.4.4. aşkar edildiyi və götürüldüyü yer, vaxt və şərait göstərilməklə ekspertizaya göndərilən maddi sübutlar və digər obyektlər, ekspertiza işin materialları üzrə aparıldıqda isə ekspertin gəldiyi nəticənin əsaslana biləcəyi məlumatlar;

264.4.5. ekspert qarşısında qoyulan suallar;

264.4.6. ekspertizanın aparılması tapşırılan ekspert idarəsinin adı və ya şəxsin soyadı.

264.5. Cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda, müdafiə tərəfinin mənafeyinə xidmət edə biləcək halların müəyyən edilməsi üçün müdafiəçi öz təşəbbüsü ilə bir və ya bir neçə ekspertə, ekspert idarəsinə ekspert işinin müqavilə əsasında ödənilməsi şərti ilə ekspertizanın aparılması barədə rəsmi müraciət etmək hüququna malikdir.

264.6. Cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda, ekspertizanın müdafiə tərəfinin təşəbbüsü ilə və onun hesabına aparılması zamanı ekspertə suallar siyahısı və tədqiqat obyektləri verilir.

264.7. Cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda, müdafiə tərəfinin rəsmi müraciəti əsasında ekspertiza aparmış ekspertlərin təqdim edilmiş rəyləri məhkəmə tərəfindən materiallara əlavə edilir və digər sübutlarla yanaşı qiymətləndirilir.

Maddə 265. Təkbaşına və komisyon ekspertiza

265.1. Ekspertizanı xüsusi biliklərə malik olan, ekspert qismində təyin olunan bir və ya bir neçə şəxs apara bilər.

265.2. Təkbaşına ekspertizanın aparılması müəyyən bir ekspertə və ya müəyyən eksperti təyin edən ekspert idarəsinin rəisinə tapşırılır.

265.3. Mürəkkəb və təkrar ekspertizalar eyni ixtisasdan olan ekspertlər komissiyası tərəfindən aparılır. Tərəflərin xahişi ilə ekspert komissiyasının tərkibinə onların göstərdiyi ekspertlər daxil edilə bilər. Ekspertlər öz aralarında məsləhətləşmə aparır və ümumi rəyə gəldikdə rəyi imzalayırlar. Ekspertlər arasında fikir ayrılığı olduqda onlardan hər biri fikir ayrılığı doğurmuş bir və ya bir neçə suala dair ayrıca rəy verir.

265.4. Komisyon ekspertiza aparılması haqqında qərarın icrası ekspert idarəsinin rəhbəri üçün məcburidir. Hər hansı ekspertizanın aparılması ekspert idarəsinə tapşırıldıqda, həmin idarənin rəhbəri ekspertizanın aparılması üçün ekspertlər komissiyası təşkil edə bilər.

Maddə 266. Kompleks ekspertiza

266.1. Cinayət təqibi üçün əhəmiyyətli olan hallar müxtəlif bilik və ya elm sahələri, yaxud biliyin bir sahəsi daxilində müxtəlif üsullar sistemi əsasında yalnız bir neçə tədqiqat aparılmaqla müəyyən edilə bildikdə kompleks ekspertiza təyin edilir.

266.2. Ekspertlər öz səlahiyyətləri daxilində kompleks ekspertiza çərçivəsində müəyyən edilmiş faktiki məlumatların

məcmusu əsasında müəyyən edilməsi üçün ekspertizanın təyin edildiyi hallar barədə gəldikləri nəticəni ifadə edirlər.

266.3. Ekspert kompleks ekspertizanın rəyinin onun səlahiyyətinə aid olmayan hissəsini imzalaya bilməz.

260.4. Kompleks ekspertizanın aparılması ekspert idarəsinə tapşırıldıqda, kompleks tədqiqatların təşkili həmin idarənin rəhbərinin üzərinə düşür.

Maddə 267. Əlavə və təkrar ekspertiza

267.1. Qoyulmuş suallara ekspert tam cavab vermədikdə və ya tədqiqat aparılmış obyektlərə dair müstəntiqin əlavə sualları yarandıqda, aparılmış tədqiqatın və ya rəydəki boşluğun aradan qaldırılması üçün həmin və ya başqa ekspert tərəfindən əlavə ekspertiza aparılır.

267.2. Ekspertin rəyi kifayət qədər əsaslı olmadıqda və ya şübhə doğurduqda, yaxud onun əsaslandığı sübutlar etibarsız (qeyri-mötəbər) hesab edildikdə və ya ekspertiza aparılmasının prosessual qaydaları pozulduqda təkrar ekspertiza aparılır.

267.3. Təkrar ekspertizanın aparılması başqa ekspertə tapşırılır. Əvvəlki ekspertizanı aparmış ekspertlər təkrar ekspertizanın aparılmasında iştirak edə və izahlar verə bilərlər, lakin tədqiqat zamanı və rəy tərtib edilərkən onlar iştirak etmirlər.

267.4. Təkrar ekspertizanın aparılması haqqında qərarda əvvəlki ekspertizaların nəticələri ilə razı olmamağın motivləri göstərilməlidir. Təkrar ekspertiza təyin edilərkən ekspert qarşısında əvvəllər tətbiq edilmiş tədqiqat üsullarının elmi əsaslılığı barədə sual qoyula bilər.

Maddə 268. Ekspertizanın təyin edilməsi və aparılması zamanı şübhəli və ya təqsirləndirilən şəxsin hüquqları

268.1. Müstəntiqin qərarına əsasən ekspertizanın təyin edilməsi və aparılması zamanı şübhəli və ya təqsirləndirilən şəxs aşağıdakı hüquqlara malikdir:

268.1.1. protokol tərtib edilməklə ekspertizanın aparılmasından əvvəl onun təyin edilməsi haqqında müstəntiqin qərarı ilə tanış olmaq və ona məxsus olan hüquqların izahını almaq;

268.1.2. ekspertə etiraz etmək;

268.1.3. eksperti onun göstərdiyi şəxslər içərisindən təyin edilməsi barədə vəsatət vermək;

268.1.4. öz təşəbbüsü ilə və öz hesabına alternativ ekspertiza aparmaq və onun rəyinin cinayət işinə əlavə edilməsi barədə vəsatət vermək;

268.1.5. rəy alınması üçün müstəntiq tərəfindən təyin edilmiş ekspert qarşısında əlavə suallar qoymaq;

268.1.6. müstəntiqin icazəsi ilə ekspertizanın aparılmasında iştirak etmək, bu zaman tətbiq edilmiş tədqiqat üsullarının mahiyyətinin və alınmış nəticələrin izahını ekspertdən tələb etmək və ekspertə izahlar vermək;

268.1.7. ekspertin rəyi müstəntiqə daxil olduğu vaxtdan ən geci 10 (on) gün müddətində onunla tanış olmaq, əlavə və ya təkrar ekspertizanın aparılması haqqında vəsatət vermək;

268.1.8. onun vəsatəti üzrə aparılan ekspertin dindirilməsində iştirak etmək.

268.2. Sadalanan hüquqlar həmçinin ruhi vəziyyəti imkan verdikdə haqqında məcburi xarakterli tibbi tədbirlərin tətbiqi üzrə icraat aparıldığı şəxsə də məxsusdur.

Maddə 269. Ekspert idarəsində ekspertizanın aparılması

269.1. Müstəntiq ekspertiza təyin edilməsi haqqında qərarını, tədqiqat obyektlərini, zəruri hallarda isə cinayət işini rəy verilməsi üçün ekspert idarəsinin rəhbərinə göndərir. Ekspertiza ekspert idarəsinin əməkdaşı tərəfindən aparılır. Qərarda ekspertizanın kim tərəfindən keçirilməsi göstərilmədikdə ekspert idarəsinin rəhbəri ekspertizanın aparılmasını həmin idarənin əməkdaşlarından birinə və ya bir neçəsinə tapşırır və bu barədə ekspertiza təyin etmiş şəxsə məlumat verir.

269.2. Ekspertiza müdafiə tərəfinin təşəbbüsü ilə və onun hesabına aparıldıqda həmin tərəf ekspertiza idarəsinin rəhbərinə suallar siyahısını və tədqiqat üçün obyektləri göndərir.

269.3. Ekspertiza idarəsinin rəhbəri aşağıdakı vəzifələri yerinə yetirir:

269.3.1. ekspertə onun bu Məcəllənin 97.4 və 97.6-cı maddələrində nəzərdə tutulmuş hüquq və vəzifələrini izah edir;

269.3.2. ekspertə bilə-bilə yalan rəy verməyə görə cinayət məsuliyyəti haqqında xəbərdarlıq edir və bu barədə ekspertizanın təyin edilməsi haqqında qərarda ekspertin imzası ilə təsdiq edilən müvafiq qeyd aparır;

269.3.3. ekspertizanın aparılmasını təşkil edir;

269.3.4. tədqiqat obyektlərinin qorunub saxlanılmasını təmin edir;

269.3.5. ekspertizanın qurtarma müddətini müəyyən edir.

269.4. Ekspert idarəsinin rəhbəri ekspertə tədqiqatın gedişi və onun gəldiyi nəticələri əvvəlcədən həll edən göstərişlər vermək hüququna malik deyil.

Maddə 270. Ekspert idarəsindən kənarda ekspertizanın aparılması

270.1. Ekspert idarəsindən kənarda ekspertiza aparıldıqda, müstəntiq ekspertizanın təyin edilməsi haqqında qərar çıxardıqdan sonra aşağıdakı tədbirləri görür:

270.1.1. ekspertiza aparılmasının tapşırıldığı şəxsi çağırır;

270.1.2. onun şəxsiyyətinə və səlahiyyətinə əmin olur;

270.1.3. ekspertin şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxs və cinayət prosesinin digər iştirakçılarına münasibətini müəyyənləşdirir və ekspertə etiraz üçün əsasların olub-olmamasını yoxlayır;

270.1.4. ekspertiza təyin edilməsi haqqında qərarı ekspertə təqdim edir;

270.1.5. ekspertə onun bu Məcəllənin 97.4 və 97.6-cı maddələrində nəzərdə tutulmuş hüquq və vəzifələrini izah edir;

270.1.6. ekspertə bilə-bilə yalan rəy verməyə görə cinayət məsuliyyəti haqqında xəbərdarlıq edir;

270.1.7. ekspertin müraciətlərini və xahişlərini qeyd edir;

270.1.8. bu Məcəllənin 270.1.2—270.1.7-ci maddələrində nəzərdə tutulmuş müvafiq hərəkətlərin aparılması barədə ekspertizanın təyin edilməsi haqqında qərarla ekspertin tanış edilməsi haqqında protokolda qeyd edir.

270.1.9. ekspertin xahişinin təmin və ya rədd edilməsi haqqında əsaslandırılmış qərar çıxarır.

270.2. Şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və şahidin bədəninin və ya ruhi vəziyyətinin tədqiqatı zərurəti olduqda, yaxud həmin şəxslərin ekspertizanın aparılmasında iştirakı zəruri hesab edildikdə, müstəntiq göstərilən şəxslərin ekspertin yanına çatdırılmasını təmin etməlidir.

270.3. Ekspertiza müdafiə tərəfinin təşəbbüsü ilə və onun hesabına aparıldıqda ekspertlə həmin tərəf arasında müqavilə bağlanır. Müdafiə tərəfi ekspertizanın aparılması üzrə xərcləri ödəyir və ekspertə suallar siyahısını və tədqiqat üçün obyektləri verir.

Maddə 271. Ekspertin rəyi

271.1. Ekspertiza təyin edilməsi haqqında müstəntiqin qərarının ekspertə daxil olduğu və ya ekspertlə müdafiə tərəfi arasında müqavilənin bağlandığı vaxtdan 1 (bir) aydan gec olmayaraq ekspert zəruri tədqiqatlar aparır, yazılı rəy tərtib edir, onu öz imzası ilə təsdiq edir və dərhal ekspertizanı təyin etmiş şəxsə və ya müdafiə tərəfinə göndərir.

271.2. Ekspertin rəyində aşağıdakılar göstərilir:

271.2.1. ekspertizanın aparıldığı tarix, vaxt və yer;

271.2.2. ekspertizanı aparan şəxsin soyadı, adı, atasının adı, təhsili, ixtisası, ixtisas üzrə iş stajı, elmi adı və elmi dərəcəsi, tutduğu vəzifə;

271.2.3. bilə-bilə yalan rəy verməyə görə cinayət məsuliyyətinin ekspertə məlum olmasını təsdiq edən qeyd;

271.2.4. ekspertizanın aparılması üçün əsaslar;

271.2.5. ekspertizanın aparılmasında iştirak etmiş şəxslər haqqında qeyd (soyadları, adları, atalarının adları və ev ünvanları);

271.2.6. ekspertiza aparılmasının xüsusiyyətləri, o cümlədən ekspertin cinayət işinin hansı materiallarından istifadə etməsi, hansı maddi sübutların, nümunələrin və digər obyektlərin tədqiq edilməsi, hansı üsulların tətbiq edilməsi və onların etibarlılıq dərəcəsi, qoyulmuş suallara əsaslandırılmış cavablar, ekspertin təşəbbüsü ilə

müəyyən edilmiş cinayət təqibi üçün əhəmiyyətli olan hallar barədə qeyd.

271.3. Ekspertin rəyinə ekspertin gəldiyi nəticələri təsdiq edən maddi sübutlar, nümunələr, digər materiallar, habelə fotoşəkillər, sxemlər, cədvəllər əlavə edilir.

271.4. Tədqiqat zamanı təqdim edilmiş materialların və ekspertin xüsusi biliklərinin kifayət qədər olmaması aşkar edildikdə ekspertin rəyində onun qarşısına qoyulmuş sualların hamısına və ya bir qisminə cavab verməyin qeyri-mümkünlüyünü əsaslandıran müddəa öz əksini tapmalıdır.

271.5. Ekspertin rəyi ekspertizanı aparmış şəxslər tərəfindən imzalanır (bu imzaların həqiqiliyi ekspertiza idarəsində idarənin rəhbəri tərəfindən təsdiq edilir).

Maddə 272. Ekspertin dindirilməsi

272.1. Ekspertin rəyi kifayət qədər aydın olmadıqda və ya həmin rəydə əlavə tədqiqatlar aparılmasını tələb etməyən boşluqlar olduqda, habelə ekspertin tətbiq etdiyi üsulları və ya istifadə olunan terminləri dəqiqləşdirmək zərurəti yarandıqda müstəntiq eksperti dindirmək hüququna malikdir.

272.2. Ekspertin çağırılması və dindirilməsi bu Məcəllənin 226, 227 və 230-cu maddələrində nəzərdə tutulmuş müddəalara uyğun olaraq aparılır.

272.3. Ekspert rəy təqdim edənədək onun dindirilməsi yolverilməzdir.

Maddə 273. Tədqiqat üçün nümunələrin götürülməsinin şərtləri

273.1. Müstəntiq tədqiqat üçün nümunələrin götürülməsi məqsədi ilə müvafiq istintaq hərəkətini aşağıdakı hallarda apara bilər:

273.1.1. nümunələr hər hansı insanın, heyvanın, insan meyitinin, heyvan cəsədinin, habelə əşya və ya maddələrin xassələrini əks etdirdikdə;

273.1.2. nümunələr cinayət təqibi üçün əhəmiyyətli olduqda.

273.2. Tədqiqat üçün nümunələrin götürülməsi məqsədi ilə müvafiq istintaq hərəkətinin aparılması üçün müstəntiq əsaslandırılmış qərar çıxarır. Həmin qərarda aşağıdakılar göstərilməlidir:

273.2.1. qərarın çıxarıldığı tarix, vaxt və yer;

273.2.2. müstəntiqin soyadı, adı, atasının adı və vəzifəsi;

273.2.3. tədqiqat üçün nümunələrin götürülməsinə əsas verən obyektiv hallar və onun motivlərinin əsaslandırılması;

273.2.4. tədqiqat üçün nümunələri götürməli olan şəxsin soyadı, adı və atasının adı;

273.2.5. tədqiqat üçün nümunələrin götürülməli olduğu şəxsin soyadı, adı və atasının adı;

273.2.6. tədqiqat üçün hansı nümunələrin və hansı miqdarda götürülməli olduğu;

273.2.7. tədqiqat üçün nümunələrin götürülməsi üçün şəxsin nə vaxt və kimin yanına gəlməli olduğu;

273.2.8. tədqiqat üçün nümunələr götürüldükdən sonra onların nə vaxt və kimə verilməli olduğu.

273.3. Tədqiqat üçün nümunələr həmçinin bu Məcəllənin müddəaları ilə nəzərdə tutulmuş hallarda və qaydada baxış, axtarış, götürmə, əmlak və ya yazışma üzərinə həbs qoyulması zamanı da götürülə bilər.

273.4. Zəruri hallarda başqa şəxslərin hüquqlarını pozmamaq şərti ilə tədqiqat üçün nümunələr ekspert tərəfindən də götürülə bilər.

273.5. Tədqiqat üçün nümunələrin götürülməsi üsulundan asılı olmayaraq onların insana əzab verən, onun həyatına, səhhətinə və ya bədən bütövlüyünə təhlükə törədən üsulla götürülməsi qadağandır.

Maddə 274. Tədqiqat üçün götürülən nümunələrin növləri

274.0. Tədqiqat üçün aşağıdakı nümunələr götürülə bilər:

274.0.1. qan, sperma (məni), tük, dırnaq kəsintisi, bədənin xarici örtüklərinin mikroskopik qazıntısı;

274.0.2. tüpürcək, tər və orqanizmin digər ifrazatları;

274.0.3. dəri naxışının (nəqşəsi), dişlərin və əl-ayağın izləri;

274.0.4. əlyazmalar, düyünlər, məmulatlar və insan bacarığını əks etdirən digər materiallar;

274.0.5. səs fonoqramı;

274.0.6. material, maddə, xammal və hazır məhsulun nümunələri;

274.0.7. alətlər, güllə və gilizlər;

274.0.8. digər maddələr və əşyalar.

Maddə 275. Müstəntiqin qərarı əsasında tədqiqat üçün nümunələrin götürülməsi

275.1. Tədqiqat üçün nümunələrin götürülməsi məqsədi ilə müstəntiq nümunələr götürülən şəxsi çağırış vərəqəsi ilə öz yanına çağırır və ya onun olduğu yerə gəlir.

275.2. Təqsirləndirilən və ya şübhəli şəxsdən tədqiqat üçün nümunələr götürüldükdə onun müdafiəçisi iştirak etmək hüququna malikdir. Bu istintaq hərəkətinin aparılması barədə müstəntiq tərəfindən əvvəlcədən xəbərdar edilmiş müdafiəçi tədqiqat üçün nümunələrin götürülməsində iştirak etmək arzusunu bildirdikdə, müstəntiq onun bu hüququnu təmin etməlidir.

275.3. Müstəntiqin dəvəti ilə tədqiqat üçün nümunələrin götürülməsində, həmçinin mütəxəssis, müəllim, həkim və digər şəxslər iştirak edə bilər.

275.4. Tədqiqat üçün nümunələrin götürülməsindən əvvəl müstəntiq bu istintaq hərəkətinin aparılmasında iştirak edən bütün şəxsləri imza etdirməklə tədqiqat üçün nümunələrin götürülməsi haqqında qərarla tanış edir, onların hüquq və vəzifələrini izah edir.

275.5. Tədqiqat üçün nümunələrin götürülməsində müstəntiq foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə etmək hüququna malikdir.

275.6. Müstəntiq və ya onun göstərişi əsasında digər şəxs zəruri hərəkətləri aparır və əks cinsdən olan şəxsin soyunması ilə bağlı hallar istisna olmaqla, bu istintaq hərəkətinin aparılmasında iştirak edən digər şəxslərin yanında tədqiqat üçün nümunələri götürür. Sənədlər istisna olmaqla, tədqiqat üçün götürülmüş nümunələr qablaşdırılır və möhürlənir.

Maddə 276. Nümunələrin götürülməsi protokolu

276.1. Nümunələri götürdükdən sonra müstəntiq protokol tərtib edir və həmin protokolda aşağıdakılar göstərilir:

276.1.1. nümunələrin götürüldüyü tarix, vaxt və yer;

276.1.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

276.1.3. tədqiqat üçün nümunələrin götürülməsində iştirak edən şəxslərin vəzifəsi, soyadı, adı və atasının adı, doğulduğu il, ay, gün və yer, iş yeri, faktiki yaşadığı və qeydiyyatda olduğu yer;

276.1.4. tədqiqat üçün nümunələrin götürülməsində iştirak edən şəxslərə onların hüquq və vəzifələrinin izah edilməsi barədə qeyd;

276.1.5. tədqiqat üçün nümunələrin götürülməsinin xüsusiyyətləri, o cümlədən tədqiqat üçün nümunələrin götürülməsi zamanı hansı nümunələrin və hansı yolla götürüldüyü, habelə tədqiqat üçün nümunələrin götürülməsi zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilib-edilməməsi barədə qeyd;

276.1.6. yerinə yetirilməsi ardıcıllığı ilə nümunələrin götürülməsi üçün görülmüş tədbirlər, tətbiq edilən elmi-texniki üsul və vasitələr, habelə nümunələrin özünün təsviri;

276.1.7. müşahidə edilməsi ardıcıllığı ilə nümunələrin götürülməsi zamanı bütün aşkar olunanlar (nümunələrin götürülməsinin halları və nəticələri təfərrüatı ilə göstərilir).

276.2. Tədqiqat üçün nümunələrin götürülməsi protokolu ona öz qeydlərinin daxil edilməsini tələb etmək hüququna malik olan bu istintaq hərəkətinin bütün iştirakçıları tərəfindən imzalanır. Protokol bir neçə səhifədə tərtib edildikdə, onun hər bir vərəqi göstərilən istintaq hərəkətinin iştirakçıları tərəfindən ayrıca imzalanır.

276.3. Protokola tədqiqat üçün götürülmüş nümunələr əlavə edilir. Tədqiqat üçün nümunələrin götürülməsi zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə, müvafiq yazılar, fotoşəkillər, çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları protokola əlavə olunur.

Maddə 272. Ekspertin dindirilməsi

272.1. Ekspertin rəyi kifayət qədər aydın olmadıqda və ya həmin rəydə əlavə tədqiqatlar aparılmasını tələb etməyən boşluqlar olduqda, habelə ekspertin tətbiq etdiyi üsulları və ya istifadə olunan terminləri dəqiqləşdirmək zərurəti yarandıqda müstəntiq eksperti dindirmək hüququna malikdir.

272.2. Ekspertin çağırılması və dindirilməsi bu Məcəllənin 226, 227 və 230-cu maddələrində nəzərdə tutulmuş müddəalara uyğun olaraq aparılır.

272.3. Ekspert rəy təqdim edənədək onun dindirilməsi yolverilməzdir.

Maddə 317. Məhkəmə iclasına gəlməmiş şahid, ekspert və ya mütəxəssisin iştirakı olmadan məhkəmə baxışının davam etdirilməsinin mümkünlüyü barədə məsələnin həlli

317.1. Bu Məcəllənin 226.1—226.3-cü maddələrinin müddəalarına uyğun olaraq məhkəmə iclasına çağırılmış şahid, ekspert və mütəxəssisdən hər hansı biri məhkəmə iclasına gəlmədikdə, məhkəmə növbə ilə cinayət prosesi tərəflərindən hər birinin fikrini dinlədikdən sonra məhkəmə baxışının davam etdirilməsi və ya onun təxirə salınması haqqında qərar çıxarır. Göstərilən şəxslərdən hər hansı birinin gəlməməsi cinayət təqibi ilə bağlı olan bütün hallarının hərtərəfli, tam və obyektiv tədqiq edilməsinə mane olmadıqda məhkəmə baxışı davam etdirilə bilər.

317.2. Məhkəmə bu Məcəllənin 317.1-ci maddəsində göstərilmiş şəxslərin gəlməməsi səbəbindən məhkəmə baxışının təxirə salınması qərarına gəldikdə məhkəmə iclasına gəlmiş şahidi, eksperti, mütəxəssisi, zərər çəkmiş şəxsi, mülki iddiaçını, mülki cavabdehi və ya onların nümayəndələrini dindirmək hüququna malikdir. Belə halda cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə həmin məhkəmə tərkibi tərəfindən onun təxirə salınmasından sonra baxılması zamanı dindirilmiş şahid, ekspert və mütəxəssisin təkrarən çağırılmasına cinayət prosesi tərəflərinin fikri nəzərə alınmaqla zərurət olduqda yol verilir.

Maddə 331. Məhkəmə baxışında ekspertiza

331.1. Məhkəməyədək icraat zamanı ekspertizanın keçirildiyi halda, məhkəmə istintaqının gedişində ekspertin məhkəməyədək icraat mərhələsində verdiyi rəy tədqiq edilir.

331.2. Məhkəməyədək icraat zamanı rəy vermiş ekspert aşağıdakı hüquqlara malikdir:

331.2.1. məhkəmə baxışında və ekspertizanın predmetinə aid olan sübutların tədqiq edilməsində iştirak etmək;

331.2.2. təqsirləndirilən, zərər çəkmiş şəxsin, şahidlərin dindirilməsində, maddi sübutların müayinəsində və digər istintaq hərəkətlərinin aparılmasında iştirak etmək.

331.3. Ekspertin rəyi tədqiq edildikdən sonra məhkəmə cinayət prosesi tərəflərindən hər birinin fikrini dinləməklə cinayət prosesi tərəflərinin vəsatəti əsasında və ya öz təşəbbüsü ilə təkrar və ya əlavə ekspertiza təyin etmək hüququna malikdir.

331.4. Cinayət işi üzrə ibtidai araşdırma zamanı ekspertiza təyin edilmədikdə cinayət prosesinin tərəfləri məhkəmə baxışında ekspertizanın təyin edilməsi haqqında vəsatət qaldıra bilərlər.

331.5. Cinayət prosesinin tərəfi özünün yazılı vəsatətində aşağıdakıları göstərməlidir:

331.5.1. ekspertin rəy verəcəyi sualları;

331.5.2. hansı halların araşdırılmalı olduğunu;

331.5.3. kimin ekspert qismində cəlb edilməsi məsələsinə dair təkliflərini.

331.6. Cinayət prosesinin hər bir tərəfi aşağıdakı hüquqlara malikdir:

331.6.1. ekspertizanın təyin edilməsi haqqında əks tərəfin vəsatəti ilə tanış olmaq;

331.6.2. bu Məcəllənin 331.5-ci maddəsində nəzərdə tutulmuş məsələlərə dair öz fikrini bildirmək.

331.7. Bu Məcəllənin 140.0.1 — 140.0.4-cü maddələrində nəzərdə tutulmuş halların müəyyən edilməsi üçün ibtidai araşdırma zamanı ekspertiza keçirilməmişdirsə, məhkəmə ekspertizanın aparılmasını təmin etməlidir. Bu və digər hallarda ekspertiza təyin

edildikdə, məhkəmə iclasında sədrlik edən cinayət prosesinin tərəflərinə ekspert qarşısında suallar qoymağı, ekspertizanın aparılmasının kimə tapşırılması və nəyin tədqiq edilməsi barədə öz mülahizələrini bildirməyi təklif edir. Məhkəmə cinayət prosesinin tərəflərinə aid olan şəxslərdən hər hansı birinin vəsatəti üzrə tərəflərə öz mülahizə və suallarını bildirmək üçün imkan yaradılması məqsədi ilə məhkəmə iclasında tənəffüs elan edir.

331.8. Cinayət prosesinin tərəfləri ekspert tədqiqatının obyekti kimi əşya və sənədləri təqdim etmək hüququna malikdirlər. Onları belə obyektlər sırasından xaric edərək məhkəmə əsaslandırılmış qərar çıxarmalıdır.

331.9. Məhkəmə baxışında ekspertizanın aparılması qaydası haqqında yekun nəticə məhkəmənin qərarında öz əksini tapır.

331.10. Ekspert təyin edilmiş şəxsə ekspertizanın təyin edilməsi haqqında məhkəmə qərarının surəti verilir və ona ekspertin hüquq və vəzifələri izah edilir.

331.11. Tədqiqat üçün zəruri olan halda məhkəmə cinayət prosesi tərəflərinin fikrini dinlədikdən sonra məhkəmə iclasını təxirə sala bilər.

331.12. Ekspertin rəyi yazılı şəkildə məhkəməyə təqdim edilir və sədrlik edənin göstərişi ilə məhkəmə iclasında elan olunur.

Maddə 332. Ekspertin dindirilməsi

332.1. Məhkəmə iclasına çağırılmış ekspert aşağıdakı ardıcıllıqla dindirilir:

332.1.1. vəsatəti əsasında ekspertizanın aparıldığı şəxs;

332.1.2. həmin tərəfə aid olan digər şəxslər;

332.1.3. əks tərəfə aid olan şəxslər;

332.1.4. məhkəmə.

332.2. Ekspertiza cinayət prosesinin tərəflərin vəsatəti əsasında və ya məhkəmənin təşəbbüsü ilə aparıldıqda, eksperti növbə ilə ittiham tərəfi, müdafiə tərəfi və məhkəmə dindirir.

Maddə 333. Maddi sübutlara baxış keçirilməsi

333.1. Məhkəmədə olan maddi sübutlara, məhkəmə iclasında

cinayət prosesi tərəflərinin təqdim etdiyi və məhkəmənin maddi sübut kimi qəbul etdiyi əşyalara növbə ilə ittiham, müdafiə tərəfləri və məhkəmə tərəfindən baxış keçirilir. Maddi sübut kimi qəbul edilmiş əşyanı cinayət prosesinin tərəflərindən biri təqdim etdikdə, həmin tərəf onu birinci baxışdan keçirir. Baxış keçirilən zaman maddi sübutlar məhkəmə iclasında sədrlik edən tərəfindən şahidə, ekspertə və mütəxəssisə təqdim edilə bilər. Elan edilmiş ittihamın məhkəmədə hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün həmin şəxslər məhkəmənin diqqətini maddi sübuta baxış keçirilərkən aşkar edilmiş, əhəmiyyətli olan bütün hallara yönəltməlidir.

333.2. Məhkəmə iclasına təqdim edilə bilməyən maddi sübutlara baxış keçirilməsi bu Məcəllənin 333.1-ci maddəsində nəzərdə tutulmuş qaydalara riayət edilməklə aparılır.

Maddə 470. Anlaqsız vəziyyətdə olan şəxslərin işləri üzrə müəyyən edilməli olan hallar

470.0. Barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə icraat başlanmış şəxslərin işləri üzrə aşağadıkılar müəyyən edilməlidir:

470.0.1. onun tərəfindən cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədildiyi yer, vaxt, üsul və digər hallar;

470.0.2. əməlin həmin şəxs tərəfindən törədilməsi;

470.0.3. əməl törədilənədək həmin şəxsdə psixi xəstəliyinin olması, əməlin törədildiyi anda və ondan sonra araşdırmanın aparılması zamanı xəstəliyinin dərəcəsi və xarakteri;

470.0.4. həmin şəxsin əməli törədənədək və ondan sonrakı davranışı;

470.0.5. vurulmuş zərərin xarakteri və məbləği.

Maddə 485. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə birinci instansiya məhkəməsində icraat

485.1. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə birinci instansiya məhkəməsində icraatda dövlət ittihamçısının və

müdafiəçinin iştirakı məcburidir. Məhkəmə iclasına məhkəmə eksperti dəvət edilə bilər.

485.2. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxs barəsində material üzrə məhkəmə istintaqı tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün materialların məhkəməyə göndərilməsi haqqında müstəntiqin qərarının elan edilməsi ilə başlanır və sonra məhkəmə sübutların tədqiq edilməsinə keçir.

485.3. Məhkəmə istintaqı qurtardıqda dövlət ittihamçısı nitqlə çıxış edir, müdafiəçinin fikri dinlənilir.

485.4. Bundan sonra qərarın çıxarılması üçün məhkəmə müşavirə otağına gedir və orada aşağıdakı məsələləri həll edir:

485.4.1. əməlin törədilib-törədilmədiyini;

485.4.2. əməldə cinayət tərkibinin olub-olmadığını;

485.4.3. həmin əməlin təqsirləndirilən şəxs tərəfindən törədilib-törədilmədiyini;

485.4.4. şəxsin psixi xəstəliyə tutulub-tutulmadığını, xəstəliyin xarakterini və xəstəlik vəziyyətinin baş verdiyi vaxtı;

485.4.5. şəxsin barəsində tibbi xarakterli məcburi tədbirin tətbiq edilməsinə ehtiyacın olub-olmadığını və olduğu halda məhz hansı tədbirin tətbiq edilməsinə ehtiyac olduğunu.

485.5. Şəxs psixi xəstəliyə məhkəmə baxışı mərhələsində tutulduğu halda məhkəmə, həmçinin iş üzrə icraatın dayandırılması haqqında məsələni həll etməlidir.

Maddə 486. Tibbi xarakterli məcburi tədbirin ləğv edilməsi və dəyişdirilməsi

486.1. Şəxsin səhhətinin yaxşılaşması və ya. tam sağalması nəticəsində gələcəkdə tibbi xarakterli məcburi tədbirin tətbiq edilməsi zərurəti aradan qalxdıqda, səhiyyə orqanının həkim komissiyasının rəyinə əsaslanmış təqdimatı üzrə məhkəmə tibbi xarakterli məcburi tədbirin ləğv edilməsi və ya dəyişdirilməsi haqqında məsələyə baxır.

486.2. Tibbi xarakterli məcburi tədbirin ləğv edilməsi və ya dəyişdirilməsi haqqında vəsatəti şəxsin yaxın qohumları, qanuni nümayəndələri və digər maraqlı şəxslər qaldıra bilərlər.

486.3. Tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi və dəyişdirilməsi məsələləri tibbi xarakterli məcburi tədbirlərin tətbiq edildiyi yer üzrə məhkəmə tərəfindən həll edilir.

5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarışlar

Maddə 14. Cinayət anlayışı

14.1.Bu Məcəllə ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır.

14.2.Cinayət qanununda nəzərdə tutulmuş hər hansı əməlin (hərəkət və ya hərəkətsizliyin) əlamətləri formal cəhətdən mövcud olsa da, lakin az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli sayılmayan, yəni şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və ya zərər yetirmək təhlükəsi yaratmayan əməl (hərəkət və ya hərəkətsizlik) cinayət hesab edilmir.

Maddə 20. Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi

20.1.Cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir.

20.2.On dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunçuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, terrorçuluğa, adamları girov götürməyə, ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, narkotik vasitələri və ya psixotrop maddələri talamağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir.

20.3.Bu Məcəllənin 20.1 və 20.2-ci maddələrində nəzərdə tutulmuş yaş həddinə çatmış yetkinlik yaşına çatmayan, lakin böyük

ictimai təhlükə törətməyən və ya az ağır cinayəti törətdiyi zaman psixi inkişafın kəmağıllıqla və ya başqa psixi pozuntu ilə əlaqədar olmayan geriliyi səbəbindən öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini tam dərk etməyən və ya həmin əməli idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilmir.

Maddə 21. Anlaqsızlıq

21.1.İctimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) törətdiyi zaman anlaqsız vəziyyətdə olmuş, yəni xroniki psixi xəstəlik, psixi fəaliyyətinin müvəqqəti pozulması, kəmağıllıq və ya sair psixi xəstəlik nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməyən və ya onu idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilmir.

21.2.Anlaqsız vəziyyətdə ictimai təhlükəli əməl (hərəkət və ya hərəkətsizlik) törətmiş şəxs barəsində məhkəmə tərəfindən bu Məcəllə ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

21.3.Anlaqlı vəziyyətdə cinayət törətmiş, lakin məhkəmə tərəfindən hökm çıxarılanadək psixi xəstəliyə tutulmuş və bunun nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və ya həmin əməli idarə etmək imkanından məhrum olmuş şəxs barəsində məhkəmə tərəfindən bu Məcəllə ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Maddə 22. Anlaqlılığı istisna etməyən psixi pozuntusu olan şəxsin cinayət məsuliyyəti

22.1.Anlaqlı vəziyyətdə olan, lakin cinayət törətdiyi zaman psixikanın pozulması nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini tam dərk etməyən və ya həmin əməli idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilir.

22.2.Anlaqlılığı istisna etməyən psixi pozuntu məhkəmə tərəfindən cəza təyin edilərkən nəzərə alınır və bu Məcəllə ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün əsas ola bilər.

Maddə 23. Sərxoş halda törədilmiş cinayətə görə məsuliyyət

Səbəbindən asılı olmayaraq (alkoqollu içkilərin qəbulu, narkotik və ya digər güclü təsir edən maddələrdən istifadə nəticəsində) sərxoş halda cinayət törətmiş şəxs cinayət məsuliyyətindən azad olunmur.

Maddə 78. Xəstəliyə görə cəzanı çəkməkdən azad etmə

78.1.Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş və bunun nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və ya həmin əməli idarə etmək imkanından məhrum olmuş şəxs cəzadan və ya cəzanın qalan hissəsini çəkməkdən azad olunur. Belə şəxs barəsində məhkəmə tərəfindən bu Məcəllə ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

78.2.Cinayət törətdikdən sonra cəzanın çəkilməsinə mane olan sair ağır xəstəliyə düçar olmuş şəxs məhkəmənin qərarı ilə cəza çəkməkdək azad oluna bilər.

78.3.İntizam xarakterli hərbi hissədə saxlama növündə cəza çəkən hərbi qulluqçular, onların hərbi xidmətə yararsız hesab edilməsinə səbəb olan xəstəliklərə düçar olduqda, cəzanın qalan hissəsini çəkməkdən azad edilirlər. Belə hallarda məhkəmə həmin şəxslərə cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edə bilər.

78.4.Bu Məcəllənin 78.1 və 78.2-ci maddələrində göstərilən şəxslər sağaldıqları halda, bu Məcəllənin 75 və 80-ci maddələrində müəyyən edilmiş müddətlər keçməmişdirsə, cinayət məsuliyyətinə və cəzaya məruz qala bilərlər.

Maddə 79. Hamilə qadınlar və azyaşlı uşaqları olan qadınlar tərəfindən cəzanın çəkilməsinin təxirə salınması

79.1.Şəxsiyyət əleyhinə ağır və ya xüsusilə ağır cinayət törətməyə görə beş ildən çox müddətə azadlıqdan məhrum etməyə məhkum edilmiş qadınlar istisna olmaqla, məhkəmə məhkum edilmiş hamilə qadınlar və ya səkkiz yaşına qədər uşağı olan qadınlar tərəfindən uşaq səkkiz yaşına çatanadək cəzanın çəkilməsini təxirə sala bilər.

79.2.Bu Məcəllənin 79.1-ci maddəsində nəzərdə tutulmuş qadınlar, məhkum edilmiş şəxslər üzərində nəzarəti həyata keçirən müvafiq dövlət orqanının xəbər-darlığından sonra uşaqdan imtina etdiyi və ya uşağı tərbiyə etməkdən boyun qaçırmaqla davam etdiyi halda, məhkəmə həmin orqanın təqdimatı əsasında cəzaçəkmənin təxirə salınmasını ləğv edə və məhkumu cəzanı çəkmək üçün hökmlə müəyyən olunmuş yerə göndərə bilər.

79.3.Uşaq səkkiz yaşına çatdıqda, məhkəmə məhkum edilmiş qadını cəzanın çəkilməmiş hissəsindən azad edir və ya cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edir, yaxud məhkum edilmiş qadını cəzanın qalan hissəsini çəkmək üçün müvafiq müəssisəyə göndərir.

79.4.Cəzaçəkmənin təxirə salındığı müddətdə məhkum edilmiş qadın yeni cinayət törətdikdə, məhkəmə ona bu Məcəllənin 67-ci maddəsi ilə nəzərdə tutulmuş qaydalar üzrə cəza təyin edir.

Maddə 84. Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti

84.1.Cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmamış şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur.

84.2.Yetkinlik yaşına çatmayanlar cinayət törətdikdə, onlara cəza təyin edilə bilər və ya tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Maddə 93. Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinin əsasları

93.1.Tibbi xarakterli məcburi tədbirlər məhkəmə tərəfindən:

93.1.1.bu Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş əməli (hərəkət və ya hərəkətsizliyi) anlaqsız vəziyyətdə törətmiş şəxslərə;

93.1.2.cinayət törətdikdən sonra cəzanın təyin edilməsini və ya onun icrasını istisna edən psixi xəstəliyə düçar olmuş şəxslərə;

93.1.3.cinayət törətmiş və anlaqlılığı istisna etməyən psixi pozuntu vəziyyətində olan şəxslərə;

93.1.4.cinayət törətmiş, alkoqolizmdən və ya narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərə təyin edilə bilər.

93.2.Bu Məcəllənin 93.1.193.1.4-cü maddələrində nəzərdə tutulmuş şəxslərə tibbi xarakterli məcburi tədbirlər o halda təyin edilir ki, psixi pozuntu şəxsin özünə və ya başqa şəxslərə zərər yetirməsi təhlükəsi yaradır.

93.3.Tibbi xarakterli məcburi tədbirlərin tətbiqi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunur.

93.4.Bu Məcəllənin 93.1.193.1.4-cü maddələrində göstərilən və öz psixi vəziyyətinə görə təhlükə törətməyən şəxslər barəsində zəruri materiallar həmin şəxslərin müalicə olunması üçün və ya onların psixonevroloji müəssisələrə göndərilməsi üçün səhiyyə orqanlarına verilir.

Maddə 94. Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinin məqsədi

Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi məqsədi bu Məcəllənin 93.1.193.1.4-cü maddələrində göstərilən xəstələrin müalicə olunması və ya psixi vəziyyətinin yaxşılaşdırılmasında, habelə həmin şəxslər tərəfindən yeni cinayət törədilməsinin qarşısının alınmasından ibarətdir.

Maddə 95. Tibbi xarakterli məcburi tədbirlərin növləri

95.0.Məhkəmə aşağıdakı tibbi xarakterli məcburi tədbirləri təyin edə bilər:

95.0.1.məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsi;

95.0.2.ümumi tipli psixiatriya stasionarlarında məcburi müalicə;

95.0.3.ixtisaslaşdırılmış psixiatriya stasionarlarında məcburi müalicə;

95.0.4.ixtisaslandırılmış psixiatriya stasionarlarında intensiv müşahidə altında məcburi müalicə.

Maddə 103. Soyqırım

Hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə

on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu fəslin 103-113-cü maddələrində nəzərdə tutulan istər sülh, istərsə də müharibə zamanı hər hansı mülki əhaliyə qarşı genişmiqyaslı və ya sistematik hücumların tərkib hissəsi olaraq qəsdən törədilmiş əməllər bəşəriyyət əleyhinə cinayətlər hesab edilir.

Maddə 105. Əhalini məhv etmə

Soyqırım əlamətləri olmadan əhalini bütövlükdə və ya qismən məhv etmə

on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 108. Cinsi zorakılıq

Şəxslərə qarşı zorlama, fahişəliyə məcbur etmə, məcburi sterilizasiya və ya cinsi zorakılıqla əlaqədar digər hərəkətləri etmə

on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 113. İşgəncə

Tutulmuş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərə fiziki ağrılar və ya psixi iztirablar vermə

yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 120. Qəsdən adam öldürmə

120.1.Qəsdən adam öldürmə, yəni digər şəxsi qəsdən həyatdan məhrum etmə

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

120.2.Qəsdən:

120.2.1.bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürmə;

120.2.2.xuliqanlıq niyyəti ilə adam öldürmə;

120.2.3.zərəçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürmə;

120.2.4.xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə;

120.2.5.tamah məqsədi ilə və ya sifarişlə, habelə zərəçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədi ilə adam öldürmə;

120.2.6.başqa cinayəti gizlətmə və ya onun törədilməsini yüngülləşdirmə məqsədi ilə, habelə zorlama və ya seksual xarakterli başqa zorakı hərəkətlərlə əlaqədar adam öldürmə;

120.2.7.iki və ya daha çox şəxsi öldürmə;

120.2.8.təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadını öldürmə;

120.2.9.təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə, habelə adam oğurluğu və ya girov götürülməsi ilə bağlı adam öldürmə;

120.2.10.təkrar adam öldürmə;

120.2.11.quldurluq, hədə-qorxu ilə tələb etmə və ya banditizmlə əlaqədar adam öldürmə;

120.2.12.milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə

on iki ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlından məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin maddələri ilə qəsdən adam öldürməyə görə məsuliyyət müəyyən olunmuş cinayətlərdən hər hansı birini və ya bir neçəsini törətmiş şəxs tərəfindən bu Məcəllənin 120-ci maddəsi ilə nəzərdə tutulmuş cinayətin yenidən törədilməsi onun təkrar törədilməsi hesab olunur.

Maddə 121. Ananın yeni doğduğu uşağı qəsdən öldürməsi

Ananın yeni doğduğu uşağı doğuş vaxtı və ya doğuşdan dərhal sonra qəsdən öldürməsi

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 122. Qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən adam öldürmə

122.1.Zərərçəkmiş şəxs tərəfindən edilən zorakılıq, ağır təhqir və ya sair qanunsuz və ya əxlaqsız hərəkətlər (hərəkətsizlik) nəticəsində, habelə zərəçəkmiş şəxsin mütəmadi qanunsuz və ya əxlaqsız davranışı ilə əlaqədar yaranmış uzun sürən dözülməz psixi şərait nəticəsində qəflətən baş vermiş güclü ruhi həyacan (affekt) vəziyyətində qəsdən adam öldürmə

üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

122.2.Güclü ruhi həyacan vəziyyətində iki və ya daha çox şəxsi qəsdən öldürmə

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 123. Zəruri müdafiə həddini və ya cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla adam öldürmə

123.1.Zəruri müdafiə həddini aşmaqla qəsdən adam öldürmə

iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

123.2.Cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla qəsdən adam öldürmə üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 124. Ehtiyatsızlıqdan adam öldürmə

124.1.Ehtiyatsızlıqdan adam öldürmə

üç ilədək müddətə azadlıqın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

124.1.Ehtiyatsızlıqdan iki və ya daha çox adamı öldürmə

iki ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 125. Özünü öldürmə həddinə çatdırma

Təqsirkardan maddi, xidməti və ya sair cəhəddən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma

üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 126. Qəsdən sağlamlığa ağır zərər vurma

126.1.Qəsdən sağlamlığa ağır zərər vurma, yəni insan həyatı üçün təhlükəli olan və ya görmə, eşitmə, nitq qabiliyyətinin və ya hər hansı bir orqanın, yaxud bu orqanın funksiyasının itirilməsinə, psixi pozuntuya və ya sağlamlığın başqa cür pozulmasına, əmək qabiliyyətinin üçdə bir hissəsindən az olmaqla uzun müddətə itirilməsi ilə və ya təqsirkar üçün aşkar surətdə zərərçəkmiş şəxsin peşəkar əmək qabiliyyətinin tam itirilməsi ilə əlaqədar olan və ya hamiləliyin pozulmasına, şəxsin narkomanlıqla və ya toksikomanlıqla xəstələnməsinə səbəb olan, yaxud sifətin silinməz dərəcədə eybəcərləşdirilməsində ifadə olunan zərər vurma

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

126.2.Eyni əməllər:

126.2.1.iki və ya daha çox şəxsə qarşı, habelə təkrar və ya bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;

126.2.2.zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özü və ya yaxın qohumları barəsində törədildikdə;

126.2.3.xüsusi amansızlıqla, zərərçəkmiş şəxsə ağır istirablar verməklə və ya sifarişlə, habelə təqsirkar üçün aşkar surətdə köməksiz vəziyyətdə olan şəxsə qarşı törədildikdə;

126.2.4.ümumi təhlükəli üsulla, xuliqanlıq niyyətilə;

126.2.5.zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədilə törədildikdə

altı ildən on bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

126.3.Bu Məcəllənin 126.1 və 126.2ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 127. Qəsdən sağlamlığa az ağır zərər vurma

127.1.Zərərçəkmiş şəxsin həyatı üçün təhlükəli olmayan və bu Məcəllənin 126-cı maddəsində nəzərdə tutulan nəticələrə səbəb olmayan, lakin sağlamlığın uzun müddət pozulmasına səbəb olmuş və ümumi əmək qabiliyyətinin üçdə bir hissəsindən az olmaqla əhəmiyyətli dərəcədə itirilməsi ilə nəticələnən qəsdən sağlamlığa az ağır zərər vurma -

iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

127.2.Eyni əməllər:

127.2.1.zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özü və ya yaxın qohumları barəsində törədildikdə;

127.2.2.xüsusi amansızlıqla, zərərçəkənə ağır iztirablar verməklə və ya sifarişlə, habelə təqsirkar üçün aşkar surətdə köməksiz vəziyyətdə olan şəxs barəsində törədildikdə;

127.2.3.ümumi təhlükəli üsulla, xuliqanlıq niyyəti ilə törədildikdə;

127.2.4.zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədi ilə törədildikdə

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 128. Qəsdən sağlamlığa yüngül zərər vurma

Sağlamlığın qısa müddətə pozulmasına və ümumi əmək qabiliyyətinin cüzi itirilməsinə səbəb olmuş qəsdən sağlamlığa yüngül zərər vurma

minimum əmək haqqı məbləğinin üç yüz mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Maddə 129. Qəflətən baş vermiş güclü ruhi həyacan vəziyyətində qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma

129.1.Zərərçəkmiş şəxs tərəfindən edilən zorakılıq, ağır təhqir və ya sair qanunsuz və ya əxlaqsız hərəkətlər (hərəkətsizlik) nəticəsində, habelə zərərçəkmiş şəxsi mütəmadi qanunsuz və ya əxlaqsız davranışı ilə əlaqədar yaranmış uzun sürən dözülməz psixi şərait nəticəsində qəflətən baş vermiş güclü ruhi həyəcan (affekt) vəziyyətində qəsdən sağlamlığa ağır zərər vurma

iki ilədək müddətə azadlığın məşdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

129.2.Zərərçəkmiş şəxs tərəfindən edilən zorakılıq, ağır təhqir və ya sair qanunsuz və ya əxlaqsız hərəkətlər (hərəkətsizlik) nəticəsində, habelə zərəçəkmiş şəxsin mütəmadi qanunsuz və ya əxlaqsız davranışı ilə əlaqədar yaranmış uzunsürən dözülməz psixi şərait nəticəsində qəflətən baş vermiş güclü ruhi həyəcan (affekt) vəziyyətində qəsdən sağlamlığa az ağır zərər vurma

iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 130. Zəruri müdafiə həddini aşmaqla sağlamlığa ağır və ya cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla sağlamlığa ağır və ya az ağır zərər vurma

130.1.Zəruri müdafiə həddini aşmaqla qəsdən sağlamlığa ağır zərər vurma bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

130.2.Cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma

iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 131. Ehtiyatsızlıqdan sağlamlığa az ağır və ya ağır zərər vurma

131.1.Ehtiyatsızlıqdan sağlamlığa az ağır zərər vurma

minimum əmək haqqı məbləğinin üç yüz mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

131.2.Ehtiyatsızlıqdan sağlamlığa ağır zərər vurma

minimum əmək haqqı məbləğinin beş yüz mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 132. Döymə

Bu Məcəllənin 128 maddəsində göstərilən nəticələrə səbəb olmayan qəsdən döymə və ya sair zorakı hərəkətlərlə fiziki ağrı yetirmə

minimum əmək haqqı məbləğinin iki yüz mislinədək miqdarda cərimə və ya iki yüz qırx saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 133. İşgəncə vermə

133.1.Bu Məcəllənin 126 və 127-ci maddələrində göstərilən nəticələrə səbəb olmayan mütəmadi olaraq döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermə

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

133.2.Eyni əməllər:

133.2.1.iki və ya daha çox şəxsə qarşı və ya girov götürülən, yaxud oğurlanmış şəxsə qarşı və ya sifarişlə törədildikdə;

133.2.2.aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində törədildikdə;

133.2.3.bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;

133.2.4.təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan, habelə köməksiz vəziyyətdə olan şəxsə qarşı törədildikdə;

133.2.5.zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özü və ya yaxın qohumlarına qarşı törədildikdə

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

133.3.Bu Məcəllənin 133.1 və 133.2-ci maddələri ilə nəzərdə tutulan əməllər şəxs-dən məlumat almaq və ya onu etirafa məcbur etmək, yaxud törətdiyi və ya törədilməsində şübhə doğurduğu əmələ görə həmin şəxsi cəzalandırmaq məqsədi ilə öz qulluq mövqeyindən istifadə etməklə vəzifəli şəxs tərəfindən və ya onun təhriki ilə törədildikdə

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 134. Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə

Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə, hədənin icra ediləcəyi üçün real əsaslar olduqda

iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 135. Evtanaziya

Evtanaziya, yəni xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmə və ya onun həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırma

iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşqul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 136. Qanunsuz süni mayalanma və embrionu implantasiya etmə, tibbi sterilizasiya

136.1. Qadına, onun razılığı olmadan və ya yetkinlik yaşına çatmayan qadına süni mayalanma və ya embrionu implantasiya etmə

minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşqul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

136.2. Şəxsin razılığı olmadan onun üzərində tibbi sterilizasiya, yəni şəxsin nəsilartırma qabiliyyətindən məhrum edilməsi, yaxud qadının hamiləlikdən qorunması məqsədi ilə əməliyyat aparma

minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə müşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

136.3. Bu Məcəllənin 136.1 və136.2-ci maddələri ilə nəzərdə tutulan əməllər ehtiyatsızlıqdan şəxsin ölümünə və ya sağlamlığına ağır və ya az ağır zərər vurulmasına səbəb olduqda

minimum əmək haqqı məbləğinin min mislindən beş min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən

fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 137. İnsan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə

137.1. İnsan orqanlarının və ya toxumalarının qanunsuz alqı-satqısı

minimum əmək haqqı məbləğinin iki min mislindən beş min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşqul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

137.2. Zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə insan orqanlarının və ya toxumalarının transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

137.3. Eyni əməllər, zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etmək və ya onu təqsirkar şəxsdən maddi, xidməti və ya sair cəhəddən asılı olmasından istifadə etməklə törədildikdə

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 138. Qanunsuz olaraq biotibbi tədqiqatlar aparma və ya qadağan edilmiş diaqnostika və müalicə üsullarını, dərman vasitələrini tətbiq etmə

138.1. Şəxsin razılığı olmadan onun üzərində biotibbi tədqiqatlar aparma

minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və

ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

138.2. Tətbiqi müəyyən olunmuş qaydada qadağan edilmiş diaqnostika və müalicə üsullarını, dərman vasitələrini tətbiq etmə ehtiyatsızlıqdan şəxsin ölümünə və ya sağlamlığına ağır və ya az ağır zərər vurmasına səbəb olduqda

minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

139. Zöhrəvi xəstəlikləri yayma

139.1. Özündə zöhrəvi xəstəlik olduğunu bilən şəxsin bu xəstəliyi başqa şəxsə yoluxdurması

minimum əmək haqqı məbləğinin üç yüz mislindən beş yüz mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

139.2. Eyni əməllər iki və ya daha çox şəxsə qarşı və ya yetkinlik yaşına çatmayan şəxsə qarşı törədildikdə

dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 140. İnsan immunçatışmazlığı virusu ilə yoluxdurma

140.1. Bilə-bilə başqa şəxsi insan immunçatışmazlığı virusu ilə yoluxma təhlükəsi qarşısında qoyma

iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

140.2. İnsan immunçatışmazlığı virusu ilə yoluxmasını bilən şəxsin bu xəstəliyi başqa şəxsə yoluxdurması

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

140.3. Bu Məcəllənin 140.2-ci maddəsində nəzərdə tutulmuş əməllər nəticəsində iki və daha çox şəxsi və ya yetkinlik yaşına çatmayanı insan immunçatışmazlığı virusu ilə yoluxdurma

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

140.4. Öz xidməti vəzifələrini lazımınca yerinə yetirməməsi nəticəsində başqa şəxsi insan immunçatışmazlığı ilə yoluxdurma

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 141. Qanunsuz abort etmə

141.1. Həkim tərəfindən tibb müəssisələrindən kənarda abort etmə

minimum əmək haqqı məbləğinin iki yüz mislinədək miqdarda cərimə və ya altı ayadək müddətə islah işləri ilə cəzalandırılır.

141.2. Xüsusi ali tibbi təhsili olmayan şəxs tərəfindən abort etmə

minimum əmək haqqı məbləğinin üç yüz mislinədək miqdarda cərimə və ya yüz səksən saatdan iki yüz saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

141.3. Bu Məcəllənin 141.1. və 141.2-ci maddələrində nəzərdə tutulmuş əməllər nəticəsində zərərçəkmiş şəxsin sağlamlığına ehtiyatsızlıqdan ağır zərər vurulduqda

minimum əmək haqqı məbləğinin üç yüz mislindən beş yüz mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

141.4. Bu Məcəllənin 141.1 və 141.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 142. Xəstəyə kömək göstərməmə

142.1. Qanunvericiliyə və ya xüsusi qaydalara müvafiq olaraq xəstəyə kömək etməyə borclu olan tibb işçisi tərəfindən üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsinin nəticəsində onun sağlamlığına az ağır zərər vurma

minimum əmək haqqı məbləğinin üç yüz mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

142.2. Eyni əməllər nəticəsində zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurma

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

142.3. Eyni əməllər zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 143. Təhlükədə qoyma

Həyat və sağlamlığı üçün təhlükəli vəziyyətdə olan və özünü qorumaq üçün tədbir görmək imkanından məhrum olan şəxsi bilə-bilə köməksiz qoyma, əgər həmin şəxsi köməksiz qoyan onun qayğısına qalmalı idisə və ya onun özü zərərçəkmiş şəxsi həyat və sağlamlığı üçün təhlükəli vəziyyətdə qoyduqda, zərərçəkmiş şəxsə kömək göstərmək imkanı olduğu halda bunu etmədikdə

minimum əmək haqqı məbləğinin üç yüz mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 146. Qanunsuz olaraq psixiatriya xəstəxanasına yerləşdirmə

146.1. Psixi cəhəddən sağlam olan şəxsi bilə-bilə psixiatriya xəstəxanasına yerləşdirmə

iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

146.2. Eyni əməllər təqsirkar şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəgalandırılır.

146.3. Bu Məcəllənin 146.1 və146.2-ci maddələrində göstərilən əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 149. Zorlama

149.1. Zorlama, yəni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla ciinsi əlaqədə olma

dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

149.2. Eyni əməllər:

149.2.1. bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

149.2.2. zərərçəkmiş şəxsin zöhrəvi xəstəliyə yoluxmasına səbəb olduqda;

149.2.3. təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxsə qarşı törədildikdə;

149.2.4. zərərçəkmiş şəxsi və ya başqa şəxsləri öldürmə və ya sağlamlığa ağır zərər vurma hədəsi ilə, habelə xüsusi amansızlıqla törədildikdə;

149.2.5. təkrar törədildikdə;

149.3. Eyni əməllər:

149.3.1. ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda;

149.3.2. ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin insan immunçatışmazlığı virusu ilə yoluxmasına və ya digər ağır nəticələrə səbəb olduqda;

149.3.3. təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə

səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 150. Seksual xarakterli zorakılıq hərəkətləri

150.1. Zərərçəkmiş şəxsə və ya başqa şəxslərə zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə uşaqbazlıq və ya seksual xarakterli digər zorakılıq hərəkətləri etmə

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

150.2. Eyni əməllər:

150.2.1. bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

150.2.2. zərərçəkmiş şəxsin zöhrəvi xəstəliyə yoluxmasına səbəb olduqda;

150.2.3. təqsirkar üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə;

150.2.4. zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı xüsusi amansızlıqla törədildikdə;

150.2.5. təkrar törədildikdə

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

150.3. Eyni əməllər:

150.3.1. ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda;

150.3.2. ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin insan immunçatışmazlığı virusu ilə yoluxmasına və ya digər ağır nəticələrə səbəb olduqda;

150.3.3. təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə

səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 151. Seksual xarakterli hərəkətlərə məcbur etmə

Əmlakının məhv edilməsi, zədələnməsi və ya götürülməsi hədəsi ilə və yaxud zərərçəkmiş şəxsin maddi və ya sair asılılığından istifadə etməklə onu cinsi əlaqəyə girməyə, uşaqbazlığa və ya seksual xarakterli digər hərəkətlərə məcbur etmə

minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 152. On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya

seksual xarakterli digər hərəkətlər etmə

Yetkinlik yaşına çatmış tərəfindən aşkar surətdə on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli başqa hərəkətlər etmə

üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 153. Əxlaqsız hərəkətlər

Təqsirkar üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxsə qarşı zor tətbiq etmədən əxlaqsız hərəkətlər törətmə

minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 221. Xuliqanlıq

221.1. Xuliqanlıq, yəni ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, vətəndaşlar üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət edilən qərəzli hərəkətlər

yüz altmış saatdan iki yüz saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

221.2. Eyni əməllər:

221.2.1. bir qrup şəxs tərəfindən törədildikdə;

221.2.2. ictimai qaydanın qorunması üzrə vəzifəni yerinə yetirən və ya ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsinə və ya digər şəxsə müqavimət göstərməklə törədildikdə

iki ilədək müddətə islah işləri və ya beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

221.3. Xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 234. Qanunsuz olaraq narkotik vasitələri, psixotrop

maddələri və ya prekursorları hazırlama, istehsal etmə, əldə etmə,

saxlama, daşıma, göndərmə və ya satma

234.1. Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.2. Satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vəsitələri və ya psixotrop maddələri satma

əmlakı müsadirə olunmaqla və ya olunmamaqla üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

243.3. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları hazırlama, əldə etmə, saxlama, göndərmə, daşıma və ya satma

əmlakı müsadirə olunmaqla və ya olunmamaqla üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.4. Bu Məcəllənin 234.2 və 234.3-cü maddələrində nəzərdə tutulmuş əməllər:

234.4.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

234.4.2. təkrar törədildikdə;

234.4.3. külli miqdarda törədildikdə

əmlakı müsadirə olunmaqla beş ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.5. Narkotik vasitələri və ya psixotrop maddələri hazırlamaq üçün istifadə edilən və xüsusi nəzarət altında olan xammalın, prekursorların, alətlərin və ya avadanlıqların, habelə narkotik vasitələrin və ya psixotrop maddələrin istehsalı, hazırlanması, emalı, saxlanması, buraxılması, satılması, bölüşdürülməsi, daşınması, göndərilməsi, əldə edilməsi, istifadə edilməsi, idxalı, ixracı və ya məhv edilməsi qaydalarının, bu qaydalara riayət etməli olan şəxs tərəfindən pozulması

minimum əmək haqqı məbləğinin iki yüz mislindən min mislinədək miqdarda cərimə və ya beş ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

Narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları könüllü surətdə təhvil verən və ya narkotik vasitələrin, psixotrop maddələrin və ya prekursorların qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əmelləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmiş şəxs cinayət məsuliyyətindən azad edilir.

Bu fəsildə göstərilən narkotik vasitələrin və ya psixotrop maddələrin şəxsi istehlak miqdarı və digər miqdarları müvafiq normativ-hüquqi aktlar ilə müəyyən edilir.

Maddə 284. Dövlət sirrini yayma

284.1. Şəxs tərəfindən ona etibar edilmiş və ya xidməti vəzifəsinə və yaxud işinə görə ona məlum olan dövlət sirrini təşkil edən məlumatların yayılması, dövlətə xəyanət əlamətləri olmadıqda

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

284.2. Eyni əməllər ağır nəticələrə səbəb olduqda

beş ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 293. İfadə verməyə məcbur etmə

293.1. Prokuror, müstəntiq və ya təhqiqatçı tərəfindən və ya onların təhriki ilə dindirmə zamanı hədələməklə, şantajla, ləyaqəti alçaltmaqla və ya sair qanunsuz hərəkətlər tətbiq etməklə şübhə edilən şəxsi, təqsirləndiriləni, zərərçəkmiş şəxsi, şahidi ifadə verməyə, habelə eksperti rəy verməyə məcbur etmə

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

293.2. Eyni əməllər işkəncə verməklə törədildikdə

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 297. Bilə-bilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə

297.1. Məhkəmədə və ya ibtidai istintaqda şahid, zərərçəkmiş şəxs tərəfindən yalan ifadə vermə və ya ekspert tərəfindən bilə-bilə yalan rəy vermə, habelə tərcüməçi tərəfindən bilə-bilə yanlış tərcümə etmə

minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya yüz altmış saatdan iki yüz

saatadək ictimai işlər və ya bir ildən iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

297.2. Eyni əməllər şəxsin ağır və ya xüsusilə ağır cinayət törətməkdə ittiham olunması ilə bağlı törədildikdə

iki ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

Bu Məcəllənin 297.1-ci maddəsində göstərilən şəxslər təhqiqatın, ibtidai istintaqın gedişində, məhkəmə baxışında məhkəmə tərəfindən hökm və ya qətnamə çıxarılanadək verdikləri ifadənin, rəyin və ya etdikləri tərcümənin yalan olduğunu könüllü olaraq bildirdikdə cinayət məsuliyyətindən azad olunurlar.

Şəxs özünə, arvadına (ərinə), övladlarına, valideynlərinə və qanunvericilikdə dairəsi müəyyən edilmiş digər yaxın qohumlarına qarşı ifadə verməyə məcbur edilərək bilə-bilə yalan ifadə verdikdə cinayət məsuliyyətinə cəlb oluna bilməz.

Maddə 299. İfadə verməkdən boyun qaçırmağa, yalan ifadə və ya yalan rəy verməyə, yaxud yanlış tərcümə etməyə məcbur etmə və ya pulla ələ alma

299.1. Şahidin, zərərçəkmiş şəxsin yalan ifadə verməsi məqsədi ilə və ya ekspertin yalan rəy və ya yalan ifadə verməsi məqsədi ilə, habelə tərcüməçinin yanlış tərcümə etməsi məqsədi ilə onları pulla ələ alma

minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya yüz səksən saatdan iki yüz qırx saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

299.2. Şahidi, zərərçəkmiş şəxsi yalan ifadə verməyə, eksperti yalan rəy verməyə və ya tərcüməçini yanlış tərcümə etməyə məcbur etmə, habelə həmin şəxsləri ifadə verməkdən boyun qaçırmağa məcbur etmə şantajla, həmin şəxsləri və ya onların yaxın qohumlarını öldürmək, sağlamlığa zərər vurmaq və ya əmlakını məhv etmək və ya zədələmək hədəsi ilə törədildikdə

minimum əmək haqqı məbləğinin min mislindən üç min mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

299.3. Bu Məcəllənin 299.2-ci maddəsində nəzərdə tutulmuş əməllər həmin şəxslərin həyatı və ya sağlamlığı üçün təhlükəli olmayan zor tətbiq etməklə törədildikdə

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

299.4. Bu Məcəllənin 299.1 və ya 299.2.-ci maddələrində nəzərdə tutulmuş əməllər mütəşəkkil dəstə tərəfindən və ya həmin şəxslərin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 300. Təhqiqat və ya ibtidai istintaq məlumatlarını yayma

Qanunla müəyyən edilmiş qaydada yayılmaması barədə xəbərdarlıq edilmiş şəxs tərəfindən təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmə nəzarəti funksiyasını həyata keçirən hakimin icazəsi olmadan təhqiqat və ya ibtidai istintaq məlumatlarının yayılması maraqlı şəxsə mənəvi və ya maddi ziyanın vurulmasına səbəb olduqda

minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 308. Vəzifə səlahiyyətlərindən sui-istifadə

308.1. Vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin tamah və ya sair şəxsi marağı üzərində öz qulluq səlahiyyətlərindən qulluq mənafeinə qəsdəq zidd olaraq istifadə etməsi vətəndaşların və ya təşkilatların hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda

minimum əmək haqqı məbləğinin min mislindən iki min mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308.2. Bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

Bu fəslin maddələrində vəzifəli şəxslər dedikdə daimi, müvəqqəti olaraq və ya xüsusi səlahiyyət üzrə hakimiyyət nümayəndəsi funksiyalarını həyata keçirən, yaxud dövlət orqanlarının, yerli özünüidarə orqanlarında, dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında təşkilatı-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər başa düşülür.

Vəzifəli şəxslər sırasına daxil olmayan dövlət qulluqçuları və yerli özünüidarə orqanlarının qulluqçuları müvafiq maddələrlə xüsusi olaraq nəzərdə tutulmuş hallarda bu fəslin maddələri ilə cinayət məsuliyyəti daşıyırlar.

Maddə 309. Vəzifə səlahiyyətlərini aşma

309.1. Vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi vətəndaşların və ya təşkilatların hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda

minimum əmək haqqı məbləğinin min mislindən iki min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

309.2. Bu Məcəllənin 309.1-ci maddəsində nəzərdə tutulmuş əməllər zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə, yaxud silah və digər xüsusi vasitələrdən istifadə etməklə törədildikdə və ya ağır nəticələrə səbəb olduqda

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 311. Rüşvət alma

311.1. Rüşvət verənin və ya onun təmsil etdiyi şəxsin xeyrinə hərəkətlərə (hərəkətsizliyə) görə, bu hərəkətlərin (hərəkətsizliyin) edilməsi vəzifəli şəxsin vəzifə səlahiy-yətlərinə daxil olduqda və ya o, öz qulluq mövqeyinə görə belə hərəkətlərə (hərəkətsizliyə) yardım edə bildikdə, eləcə də xidmət üzrə ümumi himayədarlığa və ya laqeydliyə görə vəzifəli şəxs tərəfindən şəxsən və ya vasitəçidən istifadə etməklə pul, qiymətli kağızlar, digər əmlak və ya əmlak xarakterli mənfəət şəklində rüşvət alma

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

311.2. Vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə rüşvət alma

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

311.3. Bu Məcəllənin 311.1 və ya 311.2-ci maddələri ilə nəzərdə tutulmuş əməllər:

311.3.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən;

311.3.2. təkrar törədildikdə;

311.3.3. külli miqdarda törədildikdə;

311.3.4. hədə-qorxu tətbiq olunmaqla törədildikdə

əmlakı müsadirə olunmaqla yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Pul məbləği, qiymətli kağızların, əmlakın və ya əmlak xarakterli digər mənfəətin dəyəri minimum əmək haqqı məbləğinin beş min misli miqdarından yuxarı olduqda rüşvətin miqdarı «külli miqdar» hesab olunur.

Maddə 312. Rüşvət vermə

312.1. Şəxsən və ya vasitəçidən istifadə etməklə vəzifəli şəxsə rüşvət vermə

minimum əmək haqqı məbləğinin min mislindən iki min mislinədək miqdarda cərimə və ya minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə edilməklə və ya edilməməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

312.2. Vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət vermə və ya təkrar rüşvət vermə

minimum əmək haqqı məbləğinin iki min mislindən dörd min mislinədək miqdarda cərimə və ya əmlakı müsadirə olunmaqla və ya olunmamaqla üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Rüşvət verən şəxs tərəfindən tətbiq edilən hədə-qorxu nəticəsində rüşvət verdikdə və ya rüşvət vermə haqqında müvafiq dövlət orqanına könüllü məlumat verdikdə cinayət məsuliyyətindən azad edilir.

Maddə 313. Vəzifə saxtakarlığı

Vəzifə saxtakarlığı, yəni vəzifəli şəxs, eləcə də vəzifəli şəxs olmayan dövlət qulluqçusu və ya yerli özünüidarə orqanı qulluqçusu tərəfindən rəsmi sənədlərə bilə-bilə yalan məlumatların daxil edilməsi, habelə göstərilən sənədlərdə onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsi, bu əməllər tamah və ya sair şəxsi niyyətlərlə törədildikdə

minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki yüz qırx saatadək ictimai işlər və ya bir ildən iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə

müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 314. Səhlənkarlıq

314.1. Səhlənkarlıq, yəni vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi vətəndaşların və ya təşkilatların hüquqlarına və qanuni mənafelərinə və ya dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasına səbəb olduqda

minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki yüz otuz saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

341.2. Eyni əməllə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 335. Öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırma

335.1. Hərbi qulluqçunun öz sağlamlığına hər hansı zərər vurma və ya özünü xəstəliyə vurma, sənədləri saxtalaşdırma və ya sair aldatma yolu ilə hərbi xidmətdən boyun qaçırması, habelə hərbi xidmət vəzifəsini yerinə yetirməkdən imtina etməsi

bir ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

335.2. Eyni əməllə müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə

Üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
Ə.Əliyev adına ADHTİ-nin
"Məhkəmə təbabəti və Patoloji anatomiya, hüququn əsasları kursu ilə"
kafedrasının müdiri,
Tibb elmləri doktoru, professor
Şakir Məzlum oğlu Musayev

CİNAYƏT MÜHAKİMƏ İCRAATININ MƏHKƏMƏ-TİBBİ TƏMİNATI

Bakı, " ..... " 2008